ŞİRİN XANIM
KƏRİMBƏYLİ ŞADİMAN

Bu KİTABI - ikinci böyük həcimli kitabın dünyaya göz açmasında mənə mə'nəvi və maddi yardımçı olmuş həyat yoldaşım Abdullov Əli Əli oğluna ithaf edirəm!

KİMİNƏ ACI DÜNYA KİMİNİN TACI DÜNYA

Bakı - 2002

Redaktorlar: **Şirinxanım KƏRİMBƏYLİ**
Ənvər NƏZƏRLİ

Korrektorlar: **Əli ABDULLOV**
Şirinxanım KƏRİMBƏYLİ

Rəssamlar: **Qalib MİRZƏLİYEV**
Mərziyə HÜSEYNOVA

Operatorlar: **Ülviyyə İSAYEVA**
Xanım VƏLİZADƏ

ŞİRİN XANIM KƏRİMBƏYLİ ŞADİMAN
KİMİNƏ ACI DÜNYA, KİMİNİN TACI DÜNYA
Bakı, "NURLAN", 2002, 566 səh.

4603000000-211 Qrifli nəşr
N-098-2002
© "Nurlan", 2002

ÖN SÖZ

DOĞMA XƏZƏR Ç DÜNYAYA NƏZƏR

Ey insanlıq mərtəbəsin unudanlar,
Ağır olur o dünyanın tarpa-tapı...
Zalımların əllərindən qan udanlar,
Bir Tanrı var, bir körpü var, bir də qapı...

- deyən, ümman-ümman mövzuları olan qəlbi narahat, təxəllüsü Şadiman Şirinxanımın həyatının şirinliyi, acılığı millətinin, Vətəninin ruzigarından asılıdır.

XX əsrdən XXl əsrə qədəm gətirən şairlərin yazdıqlarına nəzər yetirəndə görürük ki, bəziləri öz şəxsi hisslərinə qapılıb, bəziləri ictimai mövzulara dayanır, bəziləri həm fərdi, həm bəşəri mövzulardan deyir, bəziləri də həm Vətən və xalqı tərənnüm edir, həm dünyadakı yaxşı-yamanı açıqlayır, fəlsəfi düşüncələrini meydana çıxarır. Dünyanın ağlı-qaralı tərəfinin mövzusu, demək olar ki, bütün yazarların dəftərində var.

Lakin kim nə dərəcədə ali qələmə ala bilir məsələsini yalnız oxuculardan deyil, ustad şairlərdən, tənqidçi alimlərdən maraqlandıqda tez bir zamanda nümunəvi şairlərin siyahısını tutmaq olar.

Uşaq yaşlarından fitri istedadını qapalı saxlayıb gənc yaşlarında təvazökarlıqdan özünü nümayiş etdirməyən Şirinxanım Şadiman məhz o şairlərdəndir ki, əsərləri çoxdan təbliğ olunmalıydı. Çünki şairənin qəlbi daima Azərbaycanın nəbziylə vurub, çünki qələmi XXI əsrə addımlayan Vətənimizin tarixinin bircə anına belə biganə qalmayıb. Onun mövzuları Azərbaycanımızın tarixindən doğur. Milli xüsusiyyətli şairə milli qürurundan gen olmayıb. Vətən, xalq, bəşəriyyət, dünya, kainat, Allaha bağlılıq!... Yəni haqq uğrunda mübarizə!... Budur şairənin məramı! Böyük qadın ürəyiylə "Qadın duası" şerində belə deyir:

Al sən beyinlərdən fitnəni, feli,

Qan, qırğın görməsin, dünyanın eli.
Çıxart idraklardan iblis diləyi,
Qoy bir yol dincəlsin yerin ürəyi.

Maraqlısı burasıdır ki, Şirinxanımın düşüncələri, qəlbinin səsi anbaan, Vətənimizi diyarbadiyar gəzir, özü isə Xəzərdə, sahildən on kilometrlərlə uzaqda dalğalar üstündə nəm ağac döşəmələrin arasında yazıb yaradır. Şairə ADU-nin kitabxanaçılıq fakültəsini bitirsə də, yoldaşıyla birgə neft Daşlarında işləyir. Fırtınanın, qasırğanın gözlənilə bilən anlarında belə Xəzərin nəhəng dalğaları arasında təhlükədə işləyən, beş-altı yuxusuz, dincsiz işçi içində narahatlığı ikiqat şairə, nə tək yurdumuzun, bütün bəşəriyyətin faciəsini düşünür... düşünür... Bu xətərli həyat tərzində öz yazılarını meydana gətirərək insanları dünyamızı düşünməyə, onu şeytan əməllərindən uzaqlaşmağa səsləyir. Güclü təsvirlə qələmə aldığı "Küləyi ötən gəmi" adlı kiçik poemasında iş gününün bir-iki saatını göstərməklə neft daşlarında işləyənlərin çətin ağır şəraitini həssaslıqla tərənnüm edir. Qasırğa gəmini elə atıb-tutur ki , o, limana yan ala bilmir. Şairə özünün və işçi yoldaşlarının həyatını oradaca küləyin uğultusunda dalğaların eniş-yoxuşunda, sıçrayışında ürəyində poemalaşdırmağa başlayır:

Adamlar atdıqca pilləyə ayaq,
Xəzər qəh-qəh çəkir dəlilərsayaq,
Gəmi ləngər vurur, başlar gicəlir,
Yorğun ürəkləri ah-aman dəlir.
Pulun daşdan çıxır, zəhmət adamı,
Qoymasın könlündə küləklər kamı.

Real həyat lövhələri ilə zəngin olan poemaları çox maraqlıdır. Müəllif yaratdığı əsərlərinin hər beytində nədir, hər sətrində öz ruhunu dilləndirərək millətin ruhunu oxşamaq istəməklə sanki xalqı qarşısında mənəvi borcunu ödəməyə çalışmışdır. Şairənin poeziyası isti, yumşaq otağında deyil, sanki səngərlərdə yara-

nır. Bu səngər nəhəng dənizin ortasında fırtınalı havada yay-qış nəm döşəmələr, nəhəng dalğalar, ağac otaq olmuşdur. Soyuq Xəzər... dünyaya nəzər... Budur şairənin həyatı. Dəniz dəftərə, dalğalar vərəqlərə, saatlar qələmə, düşüncələr misralara dönür, uzaqlar yaxına köçür. Həyat üçün təhlükəli olsa da, gözəl təbiətin qoynunda ulduzların altında sirli aləmdə fərdi xəyallara uymayıb yenə də və yenə də xalqın taleyi barədə düşünən şairə Neft Daşları arasında maviliyin qoynunda təkliyə qapılmır, sakit havada belə özünə dinclik yaratmır, orada, o quruda yaşayan millətinin güzəranından düşünür. Kasıbın zülmündən, özbaşınaların arsızlığından yana-yana söz deyir, "İlahinin sınağında alçalan"ları ifşa edir:

Ölənləri öldürənlər məzarlar,
Ölmü əcəl ünvanına yazarlar.
Doldu, Allah, şəhidlərlə məzarlar,
Əzrailə böhtan atan kim-kimə?...

Yaxud yoxsullaşmaqda olan camaatımızın bu faciəsinə səbəbkar olanları özünəməxsus dillə tənqid atəşinə tutur:

Vicdan qarət, iman qarət, din qarət,
Əhvalını yaxşı tanı yoxsulun.
"İndən belə Aşğabad tək batıbdır" -

deyərək şairə millətin dolanacağının yaxşılaşmaq əvəzinə gündən-günə çətinləşməyindən narahat olur, ah-vayla yazaraq dərdimizi özümüzə bəyan edir:

Az qalıbdır quzu təki mələyə,
Qarə gəlib daha anı yoxsulun.

Adəm balaları meydana gəldikcə şüurlarda yaxşı-yamanı dərk etmə artmağa başladı. Əsrlər boyu ağlı-qaralı dünyada mənfilər-müsbətlər mübarizəsi getdi. Bütün yaradıcıların əsərləri bu mövzunu tərənnüm etdi. Bütün kitabxanalar bu mövzuyla doldu. Günlərin bir günü Azərbaycan ədəbiyyatının kitabxanasına bu mövzuda daha belə bir kitablar gəldi: "Çəkənə qəm dünya, çəkməyənə dəm dünya", "Kiminə acı dünya, kiminin tacı dünya". Elə ilk sözündən marağa səbəb

olan kitabların adı onların içindəkindən xəbər verir. “Çəkənə qəm dünya...”... Dünya gözəldir. Onun gözəlliyini tamamlamaqçun və özünü tanıtmaqçün Yaradan bizi yaratdı. Dünyanın torpağına qan tökmək, bağrını paralamaq, bəndələrinin ürəyini yaralamaq nə qədər günahdır, Allaha ziddir. Bəs bu Allahsızlığı edənlər kimlərdir?? Allahsızların törətdiyi bəlanın, dərdin əlindən hayana qaçasan?? Nə qədər acı, nə qədər qəmlidir!... Bu qəmi çəkən Allahsevərlərin ürəyi ağrılı qalır. Şirinxanımın ürəyinin qəmi, ağrısı Azərbaycanımızın zamanın cəbrinə məruz qaldığı şəraitdən, millətin Qarabağ həsrətindən, anaların, bacıların, gəlinlərin, yetimlərin, dulların, yurdu dağılmışların iniltisindən gəlir, arsızlıqdan “dəmlənmişlərin dözülməz mənfi təsirindən yaranır”.

“Kiminə acı dünya...” ... “Çəkənə qəm dünya...” ... Azərbaycanın o qədər dərdi var ki!... Azərbaycanın o qədər düşməni, o qədər soyanı, bağrını oyanı, sərvətindən doyanı var ki!... Bu acılıqlara səbəb olan o qədər gözəlliyi var ki!... Bu gözəllikləri qazanca çevirib soyuq sifətinə altundan mumurqan, yaxan o qədər daxili və xarici təcavüzkar var ki!... Nizaminin, Füzulinin, Nəsiminin, Babəkin, Xətainin, Koroğlunun, Üzeyrin, Müşfiqin, Rəşidin yurdunda qızıl teştə yağlı quyruq bağlayıb nəşədən dəmlənənlər Azərbaycanı “dəm”də də saxlayır, “qəm”də də, sərvətindən tac da yaradır, ac da...

Şirinxanım Şadiman narahat olur ki, paralanmış Azərbaycanın parasında olan xalq da iki yerə bölünür; qəmlənənlər, - yəni aqillikdə kasıblananlar... Dəmlənənlər, - yəni varlanmaqçün ağıl işlədənlər. Bu səbəbdən şairə əlini söz qılıncına ataraq, ədalət meydanında sözlə vuruşur.

Rəqibləri meydana çıxmayan azğınlar və meydana çıxa bilməyən acizlərdir. Belə bir meydanda xalqını təcavüzdən, aclıqdan, haqsızlıqdan qurtarmaq istəyən şairənin yarılan ürəyi haqq dərgahına münacat deyir:

Bir azca işıq ver qaranlıq yurda,
Amandır quzunu tapşırma qurda!
Gəl qoluzorluğu vermə yetənə,
Son qurbanlıq eylə məni Vətənə.

Hazıram, cismimi məzara döndər,

Azərbaycanıma azadlıq göndər!

Şairənin kitablarında çoxlarının kitabında olduğu kimi yalnız xeyirlə şərin müqayisəsi və mübarizəsi deyil, şərin çoxalıb xeyrin azalmasından qorxan şairənin ərşə çıxan fəryadı hiss olunur.

Şirinxanım Şadiman çox təbli bir şairə, bir el qızı, el bacısıdır. O, ilmə-ilmə xalı naxışı yaratdı sözdən, söz deyə bilməyib özünü "şair" edənlərə tənqid və nümunə oldu. Dilimizi beynində, ürəyində, qanında yaşadıb hər sözə can verə bilən şairə şer külliyatı ilə ədəbiyyatımızın sərvətini artırmışdır. Onun şer və poemalarındakı orijinal milli dili, xəlqi üslubu diqqətəlayiqdir. O, bir çox yazarlardan folklorumuzdakı sözləri şerə gətirib yaşatmağı ilə fərqlənir. Dədə-baba dilimizin doğmalığını, sadəliyini, müdrikliyini dərk edib milli sözə qiymət verərək şerlər yazır. Doğma kəndi Taqayın (Siyəzən) dilinə biganə qalmayıb maraqlı sözlərindən misralarında işlədir və bununla həmişə deyilən kəlmələrlə yoruculuq yaratmır:

Varlının başda tacı,

Acın puldur amacı,

Yox sabaha əlacı,

Ay çəkənə qəm dünya,

Çəkməyənə dəm dünya.

Şairənin yazılarında elin dil yaddaşına gətirdiyi köklü sözlərimizlə tez-tez rastlaşırıq: amac, yaşınmaq, hənuz, səkər, bayıldın, tarpa-tap, büləndi və s. Maraqlısı burasıdır ki, şairə "yoğurdu" demir, "yuğurdu" kimi, yəni öz doğma ləhcəsində səsləndirir. Doğma dilimizin dəryasında qəvvas kimi inciləri yığır və söz riştəsinə mirvari kimi düzür. O, dilçilərin qanun qalibindən çıxmayan rəsmi qaydalara tabe olmamaqla folklorumuzdan uzaqlaşmır. Dilimizdən, Vətənpərvərlikdən söhbətimiz əsnasında Ş.Şadiman deyir ki, bəşəri hisslər milli hisslərdən doğur, milli hissləri milli dillə, milli şer üslubu ilə yetirmək daha düzdür. Bəzən eşi-

dirik ki, “təzə stildə” yazmağı tələb edirlər. Ya da sərbəst vəzndə yazmağın “gərəkliyinin” təbliği gedir. Fitrətə, təbə, ilhama nə təzə, nə köhnə, nə təbliğ?!...

“Bu mühəndis sənəti və ya hökumət vəzifələri deyil ki, reformalar olsun, neyləyirəm o şeri ki, bilinməsin Azərbaycanlı yazıb! Şerdə milli ruh, milli vəzn, milli kolorit olmalıdır. Yoxsa ki, “seyri də robotlaşır, şeri də robotlaşır”...

Mən ingilis üslubuyla yazanlardan deyiləm.

Şeri əziyyətsiz yazıram. Sovetin vaxtında şairliyi sənətə çevirmişdilər, institutu qurtarmayan şair kimi məşhurlaşa bilməzdi. Şairlərə mövzu sifarişləri verilirdi, titullar verilirdi. Bir var xalq şairi, bir var xalqın şairi. Bəzən deyirlər ki, həkimdən də, mühəndisdən də şair olar? Bəli, olar! Axı şairlik ilhamla gəlir. İnsan şair doğulur, peşəni, sənəti sonra öyrənir. Düzdür, sonradan “şairə” çevrilənlər də var. Oxucunu aldatmaq olar, şairliyi bəxş edən Allahı yox... Mən belə düşünürəm ki, təblilər, təbsizlər var. Belələri qələmindən tanınır. Son illər bu cümlə tez-tez eşidilir: Hamı şer yazmağa başlayıb... Bir yazımı oxumaq istərdim”, - deyə Şadiman davam edir:

“Hamı şer yazır”.

Deyirsən bəs niyə mühəndis, həkim,

Alim də, fəhlə də şerlər yazır.

Fitrən istedadın varsa, söylə kim

Sənin yazdığına quyular qazır?

Şirinxanım Şadiman hələ 15,16 yaşlarından püxtələşmiş şairlər kimi misra düzməyi bacarırdı. 23 yaşında yazdığı “Arzular” şerində deyir:

Baxmayır müdrikdir, ya da ki naşı,

Hər duyan ürəyə sirdaş arzular.

İnsan taleyinə qardaş arzular.

Qafiyələri ustalıqla işlətdiyi bu kiçik poemasında insanın duyğularının həyatından danışır, yəni arzuların yalnız müsbət tərəfini demir, digər tərəflərini də qeyd edir və bununla insan düşüncələrinin ağlı-qaralı rənglərini göstərir. Şairənin

“Dəli ürək”, “Yaz gecəs i”

şerlərində gənc qızın ilhamı, coşqunluğu, yaşarlığı duyulur:

Alovla, atəşlə könül dağlayan,

Qaynar bulaqlar tək coşan, çağlayan,

Çılğın xəyalları yoldan saxlayan...

“İlham otağında sözlə yuxlayan”,

“Xəyal körfəzində üzgüçü olur”,

“Əngin səmanlar tək xəyala dalır”,

“Arzusu daşanda xəyalı sönür”,

“Könül bulağında sona tək səkər”,

“İlhamın barını ortaya tökər”...

və s. və s. kimi hər dolğun misra “dəli ürəyin” çırpıntılarının səsini canlandıraraq oxucuya eşitdirir.

Təbi, dili rəvan şairə beytlərini

n məzmunluğuna, misralarının ardıcıllığına, ahəng qanuna çox diqqətlidir, özünə qarşı tələbkardır.

Məzmunsuz, mövzusuz beytini meydana çıxartmağı özünə rəva bilməz. Nəinki rübailərində, iri həcmli şerlərində də o buna riayət edir. Şairənin “Ay aman” şerinə diqqət yetirək:

Baxışların ürəyimi oxladı,

Əqlim itdi, huşum getdi, ay aman.

Elə bir ki, gülü bülbül qoxladı,

Həsrət bitdi, vüsal yetdi, ay aman.

Gördüyümüz kimi şairə həsrətin özündə bir özgə gözəlliyin, saflığın olduğunu bildirir. Vüsal həsrətiylə yaşamaq vüsala yetincə paklanmaq deməkdir. İnsanın ruhu daha da incələşir və o, daima gözəlliyə, yəni tale təmizliyə qarşı can atır. Yetincə, amandı, incəlikdən uzaqlaşa bilər və məhəbbətin qüdrəti zəifləyər.

İncə duyğuları özünəməxsus sadə dillə tərənnüm edən şairə sonsuz dünyada qısa ömürlü insanlara "Aman yarım" şeriylə onlara bəxş olunan sevgi payıyla daima sevinməklərini arzulayır:

Dünya gözəl, sevgi şirin, ömür az,
Sən olmusan həyatıma bahar, yaz,
Sevənlərə çox yaraşır işvə, naz,
Kədər nədir bilməyəsən, gül, yarım,
Aman yarım, gözəl yarım, gül yarım.

Hər dilə hörmət etməyə çağıran, lakin öz dilinə vəfalı qalmağı haqla tələb edən şairə gənclərimizi mənəvi tərbiyəyə, vüqara səsləyir və nəticənin mənasını Allahın haqqıyla təsdiqləyir:

Öz dilində danışmağı ar bilən, ey gədələr,
Hissinizi, ağlınızı qiymə-qiymə edələr.
O daşlaşmış qəlbimizdən daş xülyalar gedələr...
Bu Azəri dilindədir hər cür tərəqqimiz də,
Həm Allahın, həm bəndənin yanında həqqimiz də.

Qələmini şeriyyətin, demək olar ki, bütün janrlarında sınayan şairə hərdən sərbəst vəznli şerlər də yazır, vəzni və qafiyələrin yerini izləməklə, "Sərbəst vəzndə yazmaq o demək deyil ki, bütün şerdə cəmi bir və ya iki qafiyə işlədəsən, ya da ki, vəzni tamam sərbəst buraxasan..." - deyir şairə. "Titrəyən şam" şerində bu vəzndən istifadə edərək fəlsəfi düşüncələrini özünəməxsus bir şəkildə söyləyir:

Könlümün sevda zindanında məhbus tək
Acılar üstümə qəm tökür ətək-ətək.

Ətraf mühitə yalnız şairə deyil, bir qayğıkeş vətəndaş kimi də nəzər yetirən Şirinxanım ən çox tənha qadınların taleyinə biganə qala bilmir. Şairənin bu cür şerlərini, qəhərsiz oxumaq mümkün olmur. Bəxtsiz qadın həyatsız insandır. Onlar yalnız Allaha bağlı olurlar. Tanrıdan savayı güman yerləri yoxdur, kimə arxalana bilərlər... deyə düşünür şairə... Onların qəlbinə toxunmaq günahdır. Tək-

cə bir misrasıyla onların taleyindən çox sözü deyir, boşluqda çox narahatçılığı olan ömründən danışır şairə:

Duya bildinmi heç həyatın dadın,
Ay gözü kölgəli, ay tənha qadın...
Bir soyuq təsəllin varsa - övladın...

Bəşəri düşüncələrində ürək ağrılarının birindən o birinə keçə-keçə yaşayırkən hərdən şəxsi lirikasına da qayıdır, hansı ki, oxucunun da marağına səbəb olur:

Yananda könlümün qəm gileyinə,
Batıb ümidinin sərxoş meyinə,
Ağlarkən içində hey taleyinə
Alışıb kül altda közləyəcəksən,
Sən məni hər zaman gözləyəcəksən
"Çəkənə qəm dünya..." səh.247.

"Çəkənə qəm dünya, çəkməyənə dəm dünya" və "Kiminə acı dünya, kiminin tacı dünya" kitablarının mövzularında şairənin amalı ilə sənətkarlığı bir-birini tamamlayır. Çox vaxt şairlər xəyal qanadından enməyib kitablarının adını da romantikləşdirir, zövqündən gələn söz və ya cümləylə adlandırır. Nadir hallarda kitablar ələ keçir ki, üz qabığındakı cümlədən o an fikir alır səni. Şadimanın kitablarındakı bölmələrin adı da diqqətəlayiqdir: "Vətən, səndən nə qaldı?", "Göyün gözündən yaş axır", "Kimiyə ömür acı, kimiyə nəşə tacı...", "Tale, sənin üzün dönsün", "Mənim ürəyimi özümə verin" və s. Ş.Şadiman geniş dünyanı balaca pəncərədən görə bilən şairədir.

Kitab nəşrinin çoxaldığı və kitab aləminin ucuzlaşdığı bir dövrdə yüzlərlə şer yazıb-yaradan Şirinxanım heç də kitablarının çapına tələsməmişdir. Uşaqlıqdan fasiləsiz şer yazıb indiki 47 yaşında belə özünə dəfələrlə "şairəmmi" sualını verərək çox götür-qoy etmişdir. Bu təvazökar şairənin şariliyini ustadlar, ədiblər çoxdan bəyənmişdilər. Lakin fikri-zikri dünyadan, xalqından aralanmayan bu insanpərvərin özünə, öz kitablarına sərf etməyə vaxtı və maddi imkanı çatmırdı.

Şairənin arzusu insanlar üçün elə bir dərmanın yaranmasıdır ki, ondan hamı əbədi şəfa tapsın, təmizlənsin və bu saflıqda uzun ömr sürsün, dünyanı daha da yaraşığa gətirsin. Bu humanist insan həkimlər şerini belə yazır:

Həkimlər, bir dərman icad eyləyin,
Nurlu ömürləri uzatmaq üçün
Siz Allah bəşərə nicat eyləyin,
Dünyanın əzabın azaltmaq üçün.

Şairə, eyni zamanda həkim andından, vicdanından və namusundan keçən pulagir "həkimlərə" də bacı yalvarış ilə xitab edir:

Həkimlər, haqq qoymun insanın üstə,
Hər dərdə düşənin imkanı varmı?...
Əzrayıl güdükçü hər canın üstə,
Ölümün zamanı, məkanı varmı?

Cərrahi əməliyyatını vaxtında etməyib pula görə xəstənin yiyəsini gözləyən həkimlər bu sətirləri oxuduqdan sonra yenə də xəstəni incidəcək??

Bax belə sətirlər, misralar həyat üçün buna görə gərəklidir... Heç olmasa oxucunun ürəyindən tikan çıxarmaqçün. Gəlin düşünək ki, bəzi xəstələri həkimdən əvvəl söz və ya musiqi də sağaltmışdır. Heç kəsdən gözəl söz gen düşməsin, heç kəs söz yarasına düçar olmasın, heç kəs tənqidə düşməsin.

Şirinxanım şerinin həyatiliyi hər beytində, hər misrasında duyulur. Təmiz əqidə carçısı Ş.Şadiman ictimai haqsızlığa, saxtakarlığa qarşı son dərəcə amansızdır, sosial nöqsanları görür, zəmanəmizin mənfiliklərini ifşa və tənqid etməyi bacarır. Bədbinliyə, ümidsizliyə diz çökməyən şairə dünyada ədalətsizliyə son qoyulacaq günü gözləyir, respublikamızdakı keşməkeşlərin bitəcəyinə inanır.

O, fərdi kamlığa və ya nakamlığa qapılmadan ictimai vəziyyəti düşünür. İctimai ziddiyyətlərə soyuqqanlı olmayan ağıllı, zəkalı şairə ümumxalq faciəsinin müqəssirlərini axtarır, onları lənətləyib kəskin tənqid edir. Milləti birliyə səsləyən şairə yekdil Azərbaycanlıq ideyasını əsas tutub "Vətən fəryadı" iri həcmli şerində yurdumuzu xilas etməyə çağırır:

Millət bir-birinə can deməli, can,
İqtidar, muxalif - bir Azərbaycan!
Əsir yurd-yuvaya etməsək çarə,
Sonra lap dərinə işləyər yarə.

Ş.Şadiman söz sənətini xalqımızın səadəti üçün səfərbər edən şairlərdəndir. Onun təfəkkür tərzini bugünkü Vətənimizin həyat və məişət lövhələrini nə dərəcədə təsvir etməsindən görürük. Dünyanı şairə kimi dərk edən vaxtından millətin güzaranın işıqlı və kölgəli tərəfini görüb dərindən duyan Şirinxanım tariximizi ədəbiyyatımıza həssaslıqla yazdığı poemalarının diliylə gətirir. Bütün poemalarında aktual mövzularıyla mövcud həyatı və onun həqiqətlərini ustalıqla açıqlayır. Heç bir ədibin ənənələrini təkrarlamayan Şirinxanımın öz dil üslubu, öz yazı tərzi, yazı dünyası var.

Realist şairədir. Bununla belə romantikası da güclüdür. Daxili aləmi humanizmin mahiyyəti ilə vətənpərvərlik ruhuyla dolu şairənin mübariz şerlərinin çoxu rus imperiyası dağıldığı Vətənimizin keçid dövründə, ermənilərin torpağımıza təcavüzü, təbii və sənət sərvətlərimizin xaricələrə daşındığı bir vaxtda yarandı. Keçid dövrünü intibah dövrü kimi qəbul edən millətin nümayəndəsi şairə xalqımızın ayaq basdığı Azərbaycan torpağını başdan-başa vətənpərvərlər meydanı kimi görməyə arzulayır. Şairə bu dövrdəki təzadli lövhələri həssaslıqla təcəssüm etdirir. Hal-hazırda şairlərin nəşriyyatdan çıxan sil-silə kitabları içində Ş.Şadimanın kitabları müstəsna olaraq tarixi cəhətdən fərqlənir. Onun kitablarını vərəqlədiqcə XX əsrin sonundakı faciələrlə dolu Azərbaycanın nəbzini duyursan. Ş.Şadiman kitablarını əsas qayəsi budur. Yerin əlindən üsyan edib göylərə üz tutan şairənin öz hisslərini ifadə etmək üçün həyati mövzulara yanaşma tərzi var. Bunu, son dərəcə ürək yanğısıyla yazdığı poemalarından görürük, hansıların ki, mövzuları real həyatdan götürülmüşdür. Şadimana yalnız bədii vasitələrdən, sadə xalq dilindən və şairlik qüdrətindən istifadə etmək qalmışdır. Təbiəti bədii və canlı lövhələrlə təsvir etməyi bacaran şairə mübarizə və faciə səhnələrini də sənətkar dili ilə təcəssüm etdirə bilir. Keçid dövründə ictimai həyatın zəngin materiallar

üçün mövzuları az deyildi. Bu vaxt faciəli toqquşmalar meydana çıxırdı. Lakin son nəşriyyatlardan çıxan kitablarda bu mövzular çox azdır. Ş.Şadiman kimi şairlər sanki öz ömrünü deyil, yalnız Vətəninin rüzgarını yaşayır. Ömür günləri mürəkkəb mübarizə və müharibə günləriylə rastlaşan şairə zəmanəsinin tənqidçisinə, mübariz yazarına çevrilir. Yalnız ölkəmizdə baş verən erməni terrorundan deyil, dünyadakı bəşəri faciələrin, terrorçuluğun azğınlaşmasından və buna səbəbkar olanlardan da danışır.

Soyqırımı günlərində, Azərbaycanlıların həyatı təhlükədə olan vaxtlarda şairə qəlbinin həyəcanlı çırpıntıları sakitləşə bilmirdi. Cəlladların əliylə dağıdılmış ailə və ocaqların ah-fəryadını eşidə-eşidə ah-zarla yazdığı pyeslərin mövzusu xalqın ruhunu oxşamaqla təskinlik verir, diqqətini doğma millətindən bir an belə yayındırmır. Müharibəyə könüllü gedib yaralı qayıdan əsgər kəndinin yerində tüstülənən külü gördükdə nə çəkirsə Şadiman da onu çəkir. Ürəyindən qan sızan əsgər sanki şairənin öz oğludur.

Xalqın taleyi Şadimanın taleyidir. Q
arabağın unudulmaz faciəsi, Xocalıdakı sözə, qələmə gələ bilməyən soyqırım şairəni o qədər ağrıdıb, ağrılarını göynədib ki, pyeslərini oxuduqca özünü jurnalist Salatın Əsgərova, həkim Gültəkin Əsgərova kimilərlə döyüşdə çiyin-çiyinə hiss edirsən, bu şəhidlərin həyatının mənasını, qurdürəklilərin şəhidlik zirvəsini duyub qiymətləndirirsən, onları unutmağı ən böyük günahlardan sayırsan.

Zamanın çətinliyində iradəylə addımlayan bir ahu cüssəli şairə Ş.Şadiman dənizin çovğununda, fırtınasında, qasırğasında xəstələndi də, üşüdü də, püxtələşdi də. Çünki onu daima aktual mövzular sövq etdi. Özünə yanmadı, millətinə yandı şairə, yorulmadan xalqın dərdindən yazdı, yazdı... Qaçqın ana-bacıların, zorakılıqla vaqonlara doldurub naməlum ünvanlara, məhviyyətə sürüklənən qızgəlinlərin müsibətindən ürək ağrısıyla ötəri deyil, dönə-dönə, səhifə-səhifə yazdı... yazdı. Xəzər sularının duzunu artıran bəlkə də Şirinxanım Şadimanın göz yaşlarıdır, ağlayan və ağladan sətirləridir. Bu bəlaları sularıyla soyuda bilməyən dalğalara qovuşan sətirlər unutqanlığı bizə ar bilir. Lakin nikbin şairənin dərd de-

məyi heç də bədbinliyə deyil, dərdlərdən üzülə bilməyin yollarını axtarmağa çağırmaqdır. Fələkdən haqqa getməkdir. "Ruhların fəqanı" adlı poemasında faciə tariximizdən çox söz deyir. Səhhəti sağlam olsaydı Qarabağda döyüşən birincilərdən olardı. Arxa cəbhədə də dincliyi olmayan şairənin qələmi döyüşkən qılınc kimi itidir. Kəsici sözlərinin Zülfüqar kimi iki tişəsi var: tənqid, ifşa!

Ədəbiyyatımıza realizmi, aktuallığı ilə daxil olan şairənin toxunmadığı mövzu qalmayıb. Azərbaycanın XX əsrin sonlarında yaşadığı və hələ də uzun müddət özünə gələ bilməyəcəyi dərdli günlərinin hər anı, sanki Şirinxanımın ürəyinə hoparaq oradan da varaqlara köçür ki, millətin acı günləri öz yadından çıxmasın. Gələcəkdə bir daha intibah dövrünə ehtiyacı olmasın deyə!

Oyuldaya-oyuldaya, ufuldaya-ufuldaya, oxşaya-oxşaya yazdığı el-oba yaralarından, yurd dərdindən oxucu dəhşətə gəlir. Qələm, dəftər və düşüncə yüküylə dolu xurcununu çiyninə ataraq ruhən qarış-qarış Qarabağı, Xocalını, Laçını, Kəlbəcəri, Füzulini gəzib ağlayan şairənin ürəyi göynəyir və hələ də göynəyəcək.

Ağlayar kağız, qələm,
Yanar ahımdan aləm,
Əcəl can verməz öləm
Xocalı qiyaməti!

Şairənin bu illərdə yazdığı pyesləri elin yaddaşı üçün dövrün nailiyyətlərindən sayıla bilər. Dünyanın hər üzünü görə bilən, duymağı, sevməyi bacaran, ürəyi ağlarkən gülən, arzu və ümidlə yaşayaraq yazıb-yaradan Ş.Şadiman etibarlı qadın, gözəl dost, mərd vətəndaşdır. O, xalqımızın müsibətləri, talanları-işsizliyi, yurd həsrəti üzərində poeziyası ilə qələbə çalır. Gələcəkdə Vətənimizin həqiqi qələbə çalmasına mütləq inanır.

Bu inam sübh çağı Xəzərin qoynunda su çəməninin dalğalar çələngində göz yaşını şəbnəmə çevrildi Şirinxanımın. Laylaları dənizin mehi, dalğaların pıçıltısını oldu. Soyuq döşəmələr üstündə neftçi-mühəndis işinin çətinliyi içində millət dərdini çəkən Şadimanın poeziyası daxili tufanlardan yaranıb təbii qasırğalara qabara-qabara davam gətirir.

Hər vətəndaşın doğma torpağını qoruya bilməkçün, mübarizəyə qalxmaqçün mənəvi tərbiyəsi, qüruru, haqqı olmalıdır: şair sözüylə, əsgər silahıyla, təbib mərhəmiylə, rəssam fırçasıyla, fəhlə zəhmətiylə, mühəndis savadıyla, incəsənətkar zövqüylə, müəllim vicdanıyla, - hamı namusuyla!

Ş.Şadiman Vətən sevgisində zəhmət və sənət imkanlarını bir an belə əsirgəmir. O deyir: "Dənizdə külək qalxanda da qorxmuram ki, Allaha yaxınlaşdırır. Mən neft daşlarında darıxmıram, axı neft müqəddəsdir!.. Onu Tanrımız millətimizçün nemət, ruzu yaradıb ki, xalq həyatı üçün xərcləsin, yoxsul dolanmasın"...

Şirinxanım doğma kəndi Tağaya (Siyəzən), yaşadığı Pirallahıya, Bakıya, Təbrizə, Azərbaycanın bir çox ocaq və bucaqlarına ilhamla onlarla şer yazmışdır. Şairənin "Azərbaycanımızdı" adlı tənqid və nəsihətlə dolu şeri də var ki, bunu 14x7 bölgüdə yazmışdır, bu bölgü Şadimana ilhamla gəlmişdir. Əgər keçmişdə belə şer bölgüsü olmayıbsa demək bu, yalnız Şirinxanıma vergi olmuşdur:

İlahi xəmirimi torpağından yuğurdu,
Ruhumu oda büküb bətinindən doğurdu.
Bu, Tanrının hikməti, yolum üstə uğurdu:
Röyamda gördüm əlin düşmənimi boğurdu...
Sınmaz əlinə qruban,
Vətən, elinə qruban!

Şairə Vətən uğrunda döyüşkənliyi ulu babalarımızdan öyrənməyi tövsiyə etdiyi halda, çeçenlərin də vuruşqanlığını, dönməzliyini, yekdil olmağını yada salmaqla bəşərin vicdanlı, qorxmaz, mərd millətlərini tərənnüm edir. "Azərbaycan xalqı heç vaxt işğalçı, təcavüzkar, soyqunçu olmayıb. Əksinə sərvətləri hər əsrdə talanıb qatar-qatar göndərilib əcnəbilərçün... İndi də təcavüzə məruzdur. Bəs bunu dünya görmür, - deyir şairə.

Haqsızlığa qarşı dünyanı haraya çağıran Şadiman Vətəniçün çəkdiyi qəmi "misralara belə düzə bilmir":

Bizim haqqımıza kor olub dünya,

Ya başdan, binadan kar olub dünya.

Yağılar əlindən xar olub dünya,

Bu qəmi misraya düzə bilmirəm.

Vətən, bu dərdinə dözə bilmirəm.

Vətinin qəminə, məlalına, ürək didən halına məzar qazmaq istəyən şairə "Vətən, elinə qurban" şerində söylədiyi əsmər gülünə qurban, qalmış külünə qurban misralarıyla hələ də geri alınmayan Bülbül kimi, Xan kimi, Şövkət kimi sənətkarlar diyarı olan torpaqlarımızçün fəğan edir:

Bu yaranı qaşımaq nə,

Yaşınmaq nə, de, yaşmaq nə?!

Bəzən bir kimsədən soruşanda ki, Vətənin haradır, o, doğulduğu yeri deyir. Bu, əksər vaxt həqiqətdir. Lakin, əgər sən Fransada doğulsaydın Fransanı vətən sayıb fransızmı olacaqdın??.. "Yurd" mövzulu söhbətimizdə Ş.Şadiman belə bir cümlə işlətdi: "Vətən - millətimin yuvasıdır. Bütün dünyaya yayılmış azərbaycanlılarçün bir böyük Vətən var - bölünməz Azərbaycan!" Şairə respublikamızın bu çətin illərində xalqa dayaq olmaq əvəzinə xaricə qaçanları, Azərbaycançılıq ənənələrindən, dilindən uzaqlaşıb əcnəbi dəblərinin mühitində ömür-gün sürənləri məzəmmət edərək "Vətən olmaz" şerindən bu beytləri söylədi:

Yurdda isti hər bucağın,

Qərib dada yetən olmaz.

Vətən - sənin öz ocağın...

Qürbət eldən Vətən olmaz!

Yadlaşarsan ana dilə,

Səsin çatmaz doğma elə.

Qabar salar məktub ələ,

Qürbət eldən Vətən olmaz!

Şairə, eyni zamanda bildirmək istəyir ki, bütün bu acı hallara səbəb siyasətin çirkinliyi, şahların oyunbazlığıdır. Siyasətin şah qədəhində şərbətə çevrilərək

dünyanın gözündən, acı yaş kimi gəlib süzülməsini şairə “Siyasətdi...” şerindən bildirir.

Ey Şadiman, etmə qəm,
Ömür bəxtə düşən dəm,
Eyləmə nəşəni kəm,
Dünya gözündəki nəm
Şah qədəhində şərbət
Siyasətdi, siyasət.

Millətçevər şairə el adət-ənənələrinə, folklorumuza, nənələrimizin taxçasına-boğçasına tez-tez müraciət edərək məna kəsb edənləri qələmə alır ki, həm mövzu yaşasın, həm də oxucular üçün kitab maraqlı olmaqçün rəngarəng mövzuları çox olsun. Bu mənada kitabda dərc olunan rəvayətlər çox diqqətəlayiqdir.

Hadisələri aydın şəkildə söyləyir, təmiz şəxslərin arzu və istəklərini ifadə etməklə yanaşı nadürüstləri də ifşa edir, sarsıdır, oxucuya yaxşı-yamana qarşı aydın və sərbəst fikir yaradır, həyata qarşı eşq və inam oyadır.

“Üç qisimdə insan” rəvayətini yığcam və çox ardıcıl nəzmə çəkmişdir.

...Bir yaxşı adamın yeganə qızı üçün üç yaxşı elçi gəlir. Ata onları qapıdan peşman qaytarmamaqçün birinə qızını, o birilərinə isə Allaha yalvararaq eşşəyini və itini qıza çevirtdirib verir. Bir müddətdən sonra o, qızlarının evinə qonaq gələrkən hər qız kişini öz qabiliyyətinə görə qarşılayır. İkisindən narazı qayıdan kişi başa düşür ki, Allahın məsləhətiylə yarananların hamısını adama çevirmək, Allaha şərik çıxmaq olmaz. Eyni zamanda burada dərin tərbiyəvi məna var. Hər kəs valideynlə əslinə-kökünə layiq davranır. Qızı insan balasıdır deyə atasını pərt etməməkçün eyni qarpızı bir-neçə dəfə gətirib aparır. Adəm balasından olmayanların kobudluğunu, etibarsızlığını görən kişi Allaha yalvarır ki, heyvandan çevrilmişləri yenidən öz qiyafəsinə qaytarsın. Lakin gözəgörünməz Tanrı daha onu eşitmir. Rəvayəti oxuyan hər bir yeniyetmə, gənc, cavan və cahil olan çalışar ki, valideynə, yaşlılara, ümumiyyətlə özündən böyüyə ağ olmasın ki, “heyvan balasıdır” deməsinlər.

Hal-hazırda şairənin digər iri həcmli kitabı hazırlanır. Məhz bu kitablar gələcəkdə millətimizin tarixindən deyən sənədlərdən olacaqdır, İnşaallah. Onun poema və pyesləri bu günümüzün tarixini öyrənməkçün daha bir dərslikdir.

Tutumlu məzmunları olan sosail problemlərlə dolu mövzulu sonu nikbin əsərləri demokratik şairənin ədəbiyyatımıza tanınmış şairlərlə nüfuz etməsinə təbii imkanlar yaradır.

Şairə Şirinxanım Şadiman xalqına səhifəli Azərbaycan taleli kitablar bəxş etdi.

Şerlər Şirinxanımın ürəyinə təblə gəlir, ürəkdən beyinə, beyindən dilə-dodağa, sonra da vərəqlərə köçür. Bir sözlə, bütün vücuduyla təbii qələmdanı özünə tabe edir. Belə halda ürəkdən yazılan şerlər zorla yazan qələm cümlələrindən dərhal sezilir.

Neft Daşlarından sahilə kimi Xəzər dalğalarının sayı qədərdir şairənin misraları. Xəzərdən içdiyi suyu qəmindən dalğalara süzür gözləri Şadimanın. O poetik gözlər... O lirik gözlər... O həssas baxışlar... Xəzər üstündən üfüqü yarıb keçən, üfüqdən o yanda danışan baxışlar...

Ey Şadiman, harda olsan,
Yurd-yuvanı candan istə.
Torpağına düşüb solsan
Vətən gülsün bağrın üstə!

Şövkət Hicran İmami

YARADANIM

QADIN DUASI

İlahi, dünyada bəndələr naşı,
Axır anaların gözünün yaşı,
Tökülür hər yana güllə yağışı,
Bəşərin cahana budur baxışı.
Bir parça torpağı qucan bir bədən,
Qan tökmək, ev yıxmaq yolunda nədən?
Can alan adilin hökmu bir yana,
Yerdə qəsd edirlər bəndələr cana.
Bəşəri böyüdən biçarə qadın,
Batırır içində ahın, fəryadın.
Yeri ram eləyib kişinin başı,
Savaş, müharibə könül sirdaşı.
Onlar ata, qardaş, ərdilər bizə,
Fəqət qan tökürlər bu evimizə.
Axır körpə qanı yerin bağrına,
Çevrilir, İlahi, acı, ağrına.
Al sən beyinlərdən fitnəni, feli,
Qan, qırğın görməsin dünyanın eli.
Çıxart idraklardan iblis diləyi,
Qoy bir yol dincəlsin yerin ürəyi.
Ana gözlərindən axmasın yaşlar,
Sülhlə zövqülənsin düşünən başlar.
Hamının ümidi sənsən, Yaradan,
Həyatdan kam alsın insanlıq adan.
Dünyada ananın qöy üzü gülsün,
Bəşərin gecəsi, gündüzü gülsün.

Hamı can söyləsin biri-birinə,
Son qoy bu dünyanın dərdi-sərinə.
Körpə diksinməsin güllə səsindən,
Qurtar bu dünyanı od qəfəsindən.
Nadanın idrakın işığlat bir az,
Sən özün yaratdın qışdan sonra yaz.
Bütün yer üzündə anadır qadın,
Eşit, ey Yaradan, onun fəryadın.
Ərzi ram eyləyən kişi ağılı,
Yerə oxumasın savaş nağılı.
Raketdən, nüvədən yaranan silah,
Ana sinəsində qoparmasın ah!
Əbədi gəlmədik biz ki, dünyaya,
Fəqət günahımız gəlməyir saya.
Çıxart zülmətlərdən işığa bizi,
Bükülsün iblisin qəlblərdə dizi.
Gözdə gurşad olsun sevinc yaşları,
İlahi, ağıla gətir başları.
Körpə ağlamasın güllə səsindən,
Xoş qığıltı qopsun qoy nəfəsindən.
Sevinci çağlasın ulu bəşərin,
Qapısı bağlansın iblisin, şərin.
Aşsın üfüqləri qoy mədəniyyət,
Hər qəlbdən dikəlsin ilahi niyyət.
Heç millət özünü sanmasın uca,
Yalnız Allah layiq şərəfə, taca.
Hamımız dünyada adilin qulu,
Onun mərtəbəsi müqəddəs, ulu.
Bunu dərk eyləyib duysaydı insan,

Cahanda yaşamaq olardı asan.

16.07.2001.

ƏBƏDİ DEYİLSƏN

Əbədi deyilsən dünyada bəşər,
Bədənin torpağın altda yerləşər,
Bəs sən nə görmüsən qanda, savaşda?
İblis əsir edib əqlini başda,
Hey rəvac verirsən siyasətlərə,
Hey rövnəq verirsən bəd niyyətlərə.
Yerdə artırdıqca bu savaşları,
Çoxaltdın gözlərdə qanlı yaşları.
Öldü davalarda min-min körpələr,
Yarandı cismindən şəhid təpələr.
Bu acı sitəmdən daşlar ağladı,
Göydə qanad açan quşlar ağladı.
Toplar gurladıqca öldü heyvanat,
Əlinlə ölümə gedir bu həyat.
Yanır meşə, cığır, otlar sitəmdən,
Fələk də göz yaşı tökür matəmdən.
Nə vaxt sülh olacaq bu Yer üzündə?
Allahın şəfəqi yoxmu gözündə?
Elə qan, qan deyib cövlan edirsən,
İçində şeytanla dövran edirsən.
Əbədi deyilsən dünyada, bəşər,
Bəs niyə əqlini alıb ələ şər?
Tutaq ki, ömür etdin cahanda yüz il,

Sonda torpaq altda qalacaqsan bil.
Gətir son saatı, son anı gözə,
Fəlakət bəxş etmə gecə-gündüzə.
Qanlar içindədir ana təbiət,
Bu gülə, çiçəyə, eşqə xəyanət!
Məzara gömüldür məhəbbətini,
İblisə bağlayır səadətini.
Siyasət qurbanı olandan bəri,
Şeytanı eylədin könlünün əri.
Hiylələr içində çırpınan, bəşər,
Nə vaxt Tanrı nuru qəlbinə düşər?!
Satmısan ruhunu sərvətə, vara,
Odur ki, bədənin, canın avara.
Öldürüb, qırırsan həmcinisini,
Törətdin cahanda sən haqq həbsini
Allah hüzurunda nədir dəyərin?
Onsuz da axırda məzardır yerin.
Nədir yaratdığın bu top, tüfənglər?
Min illər etdiyin savaşlar, cənglər?
Qəbirlər içində yatanlar bizik,
Tanrı barmağında bəşər bir üzük.
İstədiyi zaman çıxarıb atar,
Bədənin darıtək torpağa çatar.
Bizimlə basdırar savaşımızı,
Boğar torpaq altda göz yaşımızı!
Min illər kim güclü davası gedir,
Millətlər, tayfalar bir-birin didir.
Allahın gözündə biz ki, zərrəyik,
Dəryalar üstündə gəzən bərəyik.

Adi bir tufanla məhv edər bizi,
Batırar sulara bu kürrəmizi.
Ey bəşər, tökdüyün o qanlar yetər,
Demə ki, etdiyin günahlar ötər.
Allah hüzurunda imtahanın var,
Hansı səvabların günahı yuvar?
Qanlara batırma ibadətini,
İblisə tapşırma səadətini...
Qıyma körpələrin axan qanına,
Yükləmə günahı böylə canına.
Lənətin qadası səndən böyükdür,
Varlığın Tanrının əlində tükdür.
İstədiyi zaman qırıb atacaq,
Cəsədin torpaqlar altda yatacaq!
Dünən qurduğunu bu gün yıxırsan,
Öz axırına ki, özün çıxırsan.
İçdə mürgüləyən vicdanı səslə,
Allaha həqiqi sevgilər bəslə.
Özünü kəşf edə bilməyincə sən,
Çəkilməz içini bürüyən o çən.
Sən həmcinisinə güllə atdıqca,
Əllərin bu qədər qana batdıqca,
Üzün gülməyəcək dünyada heç vaxt,
Ayaqlar altında inləyəcək baxt.
Allahın qəzəbi tutacaq bizi,
Qırıb qutarırıq bir-birimizi.
Bizim heyvanlardan fərqimiz nədir?
Onlar da bizimtək bir-birin didir.
Fəqət qarın üstə savaşır heyvan,

Tutar öz yeminə bir acı divan.
Bizim savaşımız bəs nədir görən?
Ey bəşər övladı, ey ər, ey ərən.
İçdə mürgüləyən vicdanı qaldır,
O iç iblisinin üstünə saldır.
De ki, qoy tanıyaq Allahımızı,
Qana batırmayaq sabahımızı.
Dil tapa bilsəydik dünyada əgər,
Nemətlər bizimki deyilmi məgər?!
Bu qədər qanlara mübtəla bəşər,
Alandan əqlini, idrakını şər,
Sən ayrı düşmüsən öz vicdanından,
Şeytan qopmayacaq heç vaxt canından.
Bu sərvət, bu torpaq, bu var savaşı,
Dəli eyləyibdi düşünən başı,
Ey bəşər, düşdüyün bu yoldan qayıt!
Ruhunu, əqlini, beynini ayılt.
Can almaq o uca Allahın işi,
Sənə tapşırmayıb o bu vərdişi.
Həvvanın, Adəmin ruhu qan ağlar...
Doğduğun, əkdiyin bir gün ayaqlar.
Vicdana həsr eylə ibadətini,
Axtar vicdanında səadətini.
Vicdanın gözüylə baxsan cahana,
Onda son qoyular tökülən qana.
Bir kiçik daşın da burnu qanamaz,
Böyük, uca Tanrı bizi qınamaz.
Gülər taleyində həyat bəşərin,
Evi məzarlıqlar olar o şərin!

Tanrıya yetişər ibadətimiz,
Pak olar yolunda itaətimiz!...
Hər dilin duası yerinə düşər,
Dinlərdən ucada Allahdı, bəşər!...
25.12.1999.

BİR TANRI VAR...

Qırılarkən taleyinin ömür sapı,
Ruhun çıxıb ayrılacaq bədənindən.
Bir Tanrı var, bir körpü var, bir də qapı,
Tamahın da çapılacaq gödənindən.

İlahinin hüzuruna yetişməkçin,
Haqlayacaq ayağını o dar körpü.
O dünyada əzabların bitişməkçin,
Ürəyindən alınacaq hikkə köpü.

O körpüdən keçə bilsə ayaqların,
Sanarsan ki, dar qapıya çatdın daha.
Bədənində titrəyərsə dayaqların,
Ruhun yetməz o dünyada heç Allaha.

Yetsən əgər o qıfıllı göy qapıya,
Onu açmaq məqamına haqqın yetər.
Çatsan, tələs ikiəlli döy qapıya...
Açılmasa, ahın ərşin bağrın ütər.

O qapıdan yetə bilsən dərgahına,
Elə bilmə ruhuna o sığal çəkər.
Hansı üzlə gedəcəksən Allahına?
Ruhun özü qoşqusundan çıxmış təkər.

Ürəyini haqq dərgaha qoyacaqsan,
Cavabını suallarla yoracaqlar.
Çıxan canı əzablarla oyacaqsan,
Əməlləri birər-birər soracaqlar...

Günah bolsa, dərdin aşıb dağ olacaq,
Hesabları çəkiləcək o başının.
Sanki bədən ölməmiştək sağ olacaq,
Qulu olar bəbəklərin göz yaşının.

Orda rüşvət, orda dayı olmayacaq,
Orda kimsə, bir-kimsəni vurmayacaq.
Orda ciblər haram pulla dolmayacaq,
Kimsə kimin arxasında durmayacaq.

Orda bəşər öz haqqına çatacaqdı,
Fərqi yoxdu hansı dində doğulacaq.
Təmiz ruhun təndən ayrı yatacaqdı,
Orda hikkə, orda tamah dağılacaq.

Ey insanlıq mərtəbəsin unudanlar!
Ağır olur o dünyanın tarpa-tapı...
Zalımların əllərində qan udanlar!

Bir Tanrı var, bir körpü var, bir də qapı!...

01.07.2001.

QALİB OLA BİLMƏZ

Tanrı mənim içimdədi,
Şeytan yolun sala bilməz.
Görünməyən biçimdədi,
Heç kim məndən ala bilməz.

Hara getsəm yanımdadı,
Damarımda, qanımdadı,
Sanki özü canımdadı,
Mən solsam, o sola bilməz.

İblislərlə savaşdadı,
Qəlb içində lap başdadı,
Günahları çox daşdadı,
Şeytan orda qala bilməz.

Həm göydə, həm yerdə hakim,
Kainata odur həkim,
Sirrindən baş açdı de kim?
Canı tənə qala bilməz.

Həm açdıran, həm solduran,
Ölüsünə saç yolduran,
Bu dünyaya dərd dolduran...

Özü dərdlə dola bilməz.

Tanrıdan baş açan varmı?
Dərgahına uçan varmı?
Əlindən bir qaçan varmı?
Dünya onsuz dola bilməz.

Bəs nədir ki, böylə savaş?
Gurşad olub gözlərdə yaş,
Əvvəl, axır enəcək baş
Rəbtək qılınc çala bilməz.

O ki, bizdən yuxardadı,
Həm Tanrı, həm Allah adı,
Sual, cavab axırdadı...
Heç kim qalib ola bilməz?

01.12.2000.

TANRISIZ YAŞAMAQ OLMAZ

Tanrısız yaşamaq olmaz, ey bəşər,
Hər bir diləyimiz ayağa düşər,
Batar gözümüz də axan yaşlara,
Tökülər göylərdən nalə başlara.
Ağlar içimizdə diləklərimiz,
Partlar fəryadlardan ürəklərimiz,

Tanrıdır qəlblərə verən işığı,
Odur yerin, göyün pak yaraşığı.
Ondan cilvələnir bütün kainat,
Onunla döyünür, çünki bu həyat.
Tanrı həm göydədir, həm də ki, yerdə,
Onu tanımayan düşəcək dərdə.
Tanrıdan başlayır bəşərin yolu,
Odur kainatda güclü və ulu.
O həm ruhumuzda, həm qanımızda,
Ondan qüvvət alır bu canımız da.
Tanrı üstümüzdən çəksə əlini,
Sındırar bəşərin matəm belini.
Onun kölgəsinin altındayıq biz,
Odur ki, hələ ki, vurur qəlbimiz.
Tanrısız yaşamaq olmaz, ey bəşər,
Onsuz ürəkləri alar ələ şər,
Tanrının bağrından qopdu bu dünya,
Onun hökmü ilə topdu bu dünya,
Onun zərbəsindən dəyişər yerin,
Öz əli qazıyar məzarın dərin.
Tanrı haqqımızda, vicdanımızda,
Bizimlə döyünür hər anımızda.
Hər kəsin içində Tanrının özü,
Odur rövqləndirən gecə-gündüzü.
O kəsin qəlbində Tanrısı yoxsa,
Gec-tez batacaqdır dünyada yasa.
Bitər bir gün, gələr haqq dövranımız,
Tanrı hüzurunda imtahanımız.
Nə qədər şirinlik varsa həyatda,

Öz hökmünü deyir ötən saat da.
Tanrısız yaşamaq olmaz, ey bəşər,
Ruhumuz, canımız qiymətdən düşər.
Onun hüzuruna dönəcəyik biz,
Odur ki, nigaran vurur qəlbimiz!...

19.08.2000.

MÜJDƏ VER ALLAHIMIZ

Coşsun könül sazımız,
Artsın işvə-nazımız,
Nur gətirsin yazımız,
Açılsın sabahımız,
Müjdə ver Allahımız.

Günəş göylərdən saçsın,
Çöl-çəməndə gül açsın,
Xarı-bülbül dil açsın,
Yoxa çıxsın ahımız,
Müjdə ver Allahımız.

Qaranlıqlar sökülsün,
Aləmə nur tökülsün,
Qəmin beli bükülsün,
Olmasın günahımız,
Müjdə ver Allahımız.

Hicran gen gəzsin bizdən,

Gül-çiçək olsun dizdən,
Nəşə oxunsun üzdən,
Eşq olsun səyyahımız,
Müjdə ver Allahımız.

Paklığı bir rəmz olsun,
Döyünən qoy nəbz olsun,
Hər şeydən təmiz olsun,
Könül məbədgahımız,
Müjdə ver Allahımız.

Hər ömrə aman göndər,
Bəxtiyar zaman göndər,
Bəşərə iman göndər,
Ulu dünya kahamız,
Müjdə ver Allahımız.
Şadimandan can istə,
Versin canı ahəstə,
Qulunam son nəfəsdə,
Haqqın qibləgahımız...
Müjdə ver Allahımız.

19.03.2001.

DÜŞƏRSƏN RƏBB AYAĞINA

Ürək deyil polad, dəmir,
Haqdan gələr bir gün əmir,

Əldən gedər sultan ömür...
Məzar dönər dayağına,
Düşərsən Rəbb ayağına.

Mənəm deyib özün öymə,
Etdiyini başa döymə,
Ürək yıxıb qəlbə dəymə,
Tərəzinin gözün əymə,
Su tökülər çırağına,
Düşərsən Rəbb ayağına.

Buz içində köz arama,
Əl öyrətmə heç harama,
Nahaq işə gəl yarama,
Qara yazar varağına,
Düşərsən Rəbb ayağına.

Gərək xeyrə baş tapına,
Gün dolanar bəxt sapına,
Fələk gələr bil qapına,
Yalvarsan qonağına,
Düşərsən Rəbb ayağına.

Hiylərlə ömür sürmə,
Hər ocağa kül üfürmə,
Haqq-səlama heç tüfürmə,
Dönər təndə can yağına
Düşərsən Rəbb ayağına.

Əzrayıldan kim qaçar ki,
Bu həyata yol açar ki,
Qəlb evinə nur saçar ki,
Canın dönər mayağına,
Düşərsən Rəbb ayağına.

Pislik edib dilə düşmə,
Qoyulmamış oda bişmə,
Gözündə yaş olar çeşmə,
Kim gələr ki, sorağına?
Düşərsən Rəbb ayağına.

Sanma könlü heç yüksəkdə,
Cüt tapmayıb özün təkdə,
İnsaf, mürvət qoy ürəkdə,
Aman eylə sol-sağına,
Düşərsən Rəbb ayağına.

Kim Tanrıdan söylə uca?
Ona baxan hər dam baca,
Mələk qonar qaça-qaça
Hər baş daşın qırağına,
Düşərsən Rəbb ayağına.

Kim cisimdə can gizlətdi?
İlahitək əzizlətdi,
Tanrı kimi çox gözlətdi?
Son qoyular növrağına,
Düşərsən Rəbb ayağına.

Bizdən əvvəl gələn getdi,
Nə apardı, nəyə yetdi?
Hər bədəndən məzar etdi...
Şükür eylə bu çağına,
Düşərsən Rəbb ayağına.

Mərifəti umma yoxdan,
Sözü dedin çıxdı oxdan,
Çaytək vurma suyu arxdan,
Tapmazsan heç yol bağına,
Düşərsən Rəbb ayağına.

Ürəyində qəm bəsləmə,
Dərd gəlməmiş sən səsləmə,
Ələ keçdi tez həsləmə,
Dözmək olmur qəlb dağına,
Düşərsən Rəbb ayağına.

Ey Şadiman, biz nəçiyik?
Tanrıya ki, əl içiyik,
Sapı bitmiş pinəçiyik,
Bayılar yer, göy ağına!...
Düşərsən Rəbb ayağına.

19.03.2001.

YARADANIM

Can sənə bağlıdır, ey Yaradanım,
Əmrinlə ölçülür dəqiqəm, anım.
Bütün kainatı sən verdin bizə,
Sən işıq verirsən gecə, gündüzə.
Sən göyə qaldırdın mənəviyyatı,
Sənin əlindədir insan həyatı.
Aç haqqın üzünə kor gözümüzü,
Tanıyaq, qınayaq öz-özümüzü.
Qaytar bu dünyanı tanrı yoluna,
İblislər vurmasın zəncir qoluna.
Sənlə bağlıdır səadətimiz.
Öc alır eşqindən həqiqətimiz.
Səndən ulu sayan özün, ey Xaliq,
Yalnız lənətinə olacaq layiq.
Sənin işığındır dünyanı tutan,
O böyük rəhmindir bizlərə çatan.
Şərəfə çatırıq mərhəmətinlə,
Dünyadan köçürük biz rəhmətinlə.
Olmayır hər kəsin o da nəsibi,
Ölsə də lənətdi məzarın dibi
Sənin əlindədir yer, göy, ey Xaqan,
Əmrinə, hökmünə tabedir hər can.
Dünyada nə qədər insan qismi var.
Sənin hüzuruna qədəri qovar.
Səndədir hər qəlbin, bəxtin açarı,
Rəhmə yetirərsən sonda naçarı.
Gizlənə bilərmi səndən heç bəşər?
Hökmün ürəyinin başını deşər.
Səndən can gizlədən olubmu söylə?

Hər kəsin canına hakimsən öylə.
Bir sənə bəllidir günahlarımız,
Hökmünlə açılar sabahlarımız.
Kimsəyə varmı yol səndən oyana,
Kim əymib başını de Yaradana?
Kimin ürəyində qorxu hissi yox?
Önündə qulundur, həm ac, həm də tox.
Sən həyat bəxş etdin o insanlığa,
Hər canın yolu var o divanlığa.
Özün uca sayan səndən aşağı,
Ey nurlar çeşməsi, həyat işığı!
Kim saydı özünü səndən də ali,
Çox kədərli oldu sonunda hali.
Varmı de elə bir bəşər övladı?
Səndən ucalığa qaldıra adı.
Keçsə də hissindən, ağlından elə,
Qoparıb başından vermisən yelə.
Yox elə bir qüvvə dünyada, Allah,
Qopmasın köksündən, sinəsindən ah,
Önündə əyilib dua etməsin,
Sənin hüzurunda əfvə getməsin.
Bütün kainatın sahibi özün,
Həyata can verər o nurlu üzün.
Sənin qulunuq biz, Böyük Yaradan,
Sonda hüzuruna qayıdacaq can!...

27-29/ Xl. 1999.

DÜNYA BELƏ DÜNYADIR

BU QƏRBƏ BƏRƏKALLAH

Kömpüterin əsiri,
Robotların qəsiri,
Sanki yoxdu kəsiri,
Röyadı, Allah, Allah,
Bu Qərbə bərəkallah.

Ürəyi qışın buzu,
Ölkələr əldə quzu.
Nə parlaqdı ulduzu?
Qan tökür saymır günah,
Bu Qərbə bərəkallah.

Yalnız dildə birləşir,
Getdikcə sehirləşir,
Be-em-te-si sirləşir,
ATƏT-lə mehirləşir,
Savaş doğur hər sabah,
Bu Qərbə bərəkallah.

Ürəyi robot olub,
Min bir yerdən çat olub,
Hiyləsi min qat olub,
Dünya batabat olub,

Nə vecinə nalə, ah,
Bu Qərbə bərəkallah.

Cahan qeylüqallaşır,
Ağalar cığallaşır,
Bəzi xalqlar ballaşır,
Yardımları yallaşır...
Ətəklərdən sallaşır,
Aclar sanır qibləgah,
Bu Qərbə bərəkallah.

şeri də robotlaşır,
Seyri də robotlaşır,
Xeyri də robotlaşır,
Dünya necə qatlaşır?
Öz-özünə yadlaşır
Sözləri çalır gah-gah,
Bu Qərbə bərəkallah.

Fırladır Yer kürrəsin,
Göstərir fil nərəsin,
Təyyarəsin, bərəsin
Robot edib maşallah,
Bu Qərbə bərəkallah.

Ağa olub hamına,
Çəkir haqqı kamına,
Çıxır göyün damına,

Daş atır adamına,
Salır mərəkə vallah,
Bu Qərbə bərəkallah.

Aləmi qarışdırır,
Hamının vuruşdurur,
Dinləri yarışdırır,
Dolları sırışdırır,
Olub dünyada Allah,
Bu Qərbə bərəkallah.

Svilizasiya deyərək,
Özünü hey öyərək,
Tərəzini əyərək,
Başımıza döyərək,
Əzir hamın inşallah,
Bu Qərbə bərəkallah.

Yad planetdən gəlib,
Ayrı heyətdən gəlib,
Hansı qüdrətdən gəlib?
Baş açmaq olmur billah,
Bu Qərbə bərəkallah.
Bu Qərbə bərəkallah.

31.X.2001.

BU NƏ QANLI FƏLAKƏTDİ?

Amerkada terror nəticəsində 11 sentyabr 2001-ci ildə
minlərlə ölənlərin, Türkiyədə və Azərbaycanda
terror qurbanlarının ruhuna!

Amerika, macaralar məmləkəti,
Duydunmu heç baş verəcək fəlakəti?
Bircə anda yerlə-yeksan göydələnlər...
Fəryad etdi qatlar altda o ölənlər!...
Qanlı terror boğur bütün Yer üzünü,
Öz-özünə yağı, bəşər, aç gözünü.
Sənin, mənim torpağımda qanlar axır...
Bu qəlbikor hökümdarlar hara baxır?!..

Qaranlıq göylərin üzündən qaçmış,
Səhər gözlərini təzəcə açmış,
Nyu-York şəhəri hələ yuxulu,
Titrək dodaqları bir şeh qoxulu.
Sonrakı dəhşətdən xəbərsiz şəhər,
Bilməyir nədir qəm, nədir heç qəhər.
O ensiz ticarət mərkəzi uca.
Bənzəyir yer üstə bəzəkli taca.
Yüz on mərtəbəli göydələnlər şah,
Göydən əl eyləyir yerə hər sabah.
Bu gün də axışır işçilər ora,
Ölüm də izləyir qarabaqara...
Birdən bir gurultu səsi ucaldı,
Hamı çaşbaş oldu, hamı mat qaldı.

İçi sərnişinlə dolu təyyarə,
Bilmədi nə Allah, nə də səyyarə.
Çırpdı göydələnin birinə özün,
Oldu para-para məhv etdi izin.
İkinci təyyarə şığıdı bu an,
Digər göydələnə çırpıldı yaman.
Şəhəri toz, duman fəryad bürüdü!...
Bütün Amerkanı ölüm sürüdü!...
O gün can götürüb min-min qaçanlar,
O gün dəhşətliydi necə də anlar.
Əkiz göydələnlər titrədi əsdi,
Ölüm qapısının üstünü kəsdi...
Yerlə yeksan oldu binalar uçdu!

Hansı hökmdarın boynunda suçdu
Bu tökülən qanlar, uçulan damlar?!
Terrorda günahsız ölən adamlar?
Şəhəri toz-duman sardı bircə an,
Ölən bədənlərdə həyat gəzdi can...
Qulaqlar tutuldu haray-həşirdən,
Yox oldu bir anda ekizlər birdən.
Qopdu qatlar altda inilti, fəryad,
Tanrı dad eylədi, dodaqlar imdad!
Həm xilas edilən, həm də edənlər,
Haraya, həşirə, aha gedənlər,
Etdilər canların əbədi fəda,
Kim yetə bildi ki, aha, imdada?
O gün Nyu-Yorkda iki göydələn,
Zirvəsi göylərin bağrını dələn,

Sanki olmamışdı heç bu şəhərdə!
Batdı bircə anda ahda, qəhərdə.
Dünyanın bağrını partlatdı bu dərd,
Bəşərmi, cahanmı, İlahi, namərd?!

Qaldı uçuqların altda insanlar...
Ahla bədənləri tərk etdi canlar!...
Böyük Amerkanı titrətdi bu yas,
Hökümdar söylədi, qisasa qisas!
Xalqı qarşısında and içən şahı,
Niyə düşündürmür xalqın sabahı?!
Siz qisas aldıqca qisaslar artır,
Hər sinə içində küdurət yatır!...

Ey qanlı terrora rəvac verənlər,
Qansızlar başına ey tac verənlər,
Etdiz millətləri əllərdə oyun,
Tökülən qanlardan bir, barı, doyun!
Hansı şah bəslədi o terrorçunu?!
Dində aramayın hiylə suçunu.
Gedir siyasətə qurban millətlər,
Artır Yer üzündə hər gün zillətlər.
Niyə bu qatilə görə bir xalqın,
Əzirsiz ayaqlar altında haqqın?!
Niyə əfqan xalqı qırılmalıdı?
Bağrına ölüm, qan sarılmalıdı?
Kim o terrorçunu bəslədi bir vaxt?
Kim onu var ilə eylədi xoşbaxt?!
Rus imperiyası - Sovet bir zaman,

Qonuma-qonşuya vermədi aman.
Qan çanağı etdi Əfqanıstanı,
Məzara döndərdi o gülüstanı!
Deyirlər özgəyə qurulan tələ,
Yapışar bir zaman o quran ələ.
O qədər qan tökdü axırda özü,
Qanların içində kor oldu gözü!...
Qanlarla keçirtdi bir vaxt vaxtını,
Əbədi itirdi tacı-taxtını.
Sonra da ağladı qara baxtını!...

Üsəmə Ben Laden-kimdi bu adam?
O qandan, qırğından alır böylə kam?!
Kim ona vermişdi bu var-dövləti?
Hardandır bu qədər onun sərvəti?
Bir vaxtlar Amerka hey rusa qarşı,
Atırdı uzaqdan-uzağa daşı.
Sonra da Üsəmə əlinə keçdi,
Terrordan əyninə gizli don biçdi.
Şabaştək başına tökdü dolları,
Öyrədildi ona qırğın yolları...
Amerka hiyləylə Soveti yıxdı,

Dünyada ağalıq taxtına çıxdı.
Sonra da Ben Laden ağ oldu şaha,
Atdı ağasının özünü aha.
Böyük Amerkanı döndərdi qana,
Baxıb qəh-qəh çəkdi o bu divana.
Ağanın özünə ağ olan nökər,

Etdiyi cəzanın altını çəkər,
Ağa öz nökərin axtarır bu gün,
Qana döndərməkçin o qansız köksün.
Amerka dünyanı hey yamanlayır,
Bütün dövlətləri elə danlayır.
Başına pul qoyub o Ben Ladenin,
Söyür dönə-dönə uzunun, enin.
İslamın boynuna yıxılır günah,
Hər gün yamanlanır müsəlman, Allah.
Yoxdu siyasətin dini, imanı,
Hiylədi, fitnədi, şərdi zamanı.
Odur, qan gətirən hər məmləkətə,
Salan bu dünyanı hey fəlakətə.

Pe-Ka-Ka yaratdı Rusiya bir vaxt,
Guya ki, kürdləri etməkçin xoşbaxt,
Türkiyəyə qarşı ruslar Aponun,
Əyninə biçdilər o terror donun,
Onu pul-parayla təmin etdilər,
Hər cür təminatla əmin etdilər.
Sağına, soluna keçdilər elə,
Cibinə pul axdı belədən-belə.
Apo diz çökməyən çox kürd qardaşın,
Evinin içində vururdu başın.
O kürd kəndlərini xaraba qoydu,
Nə bircə kənd-kəsək, nə oba qoydu.
Axdı Türkiyədə qan su yerinə,
Ağalar getmədi onda dərinə?!
Tutdular Aponu türklər bir zaman,

O saat dünyada qopdu ah, aman.
Türkiyə, Aponu öldürmək olmaz,
Cahanı özünə güldürmək olmaz.
Orta əsirlərmi sən qan tökürsən?!
Bəs niyə de haqqı dara çəkirsən?!
Terrorçu demədi heç kəs Apoya,
Çünki türk xalqını salmışdı vaya.
Türk də, müsəlmandı, kürd də müsəlman.
Qoy boğsun onları bu tökülən qan!...

Bəşəri bölüblər iki hissəyə,
Bir qisim xalq bənzər qızıl kisəyə.
Bir qisim xalq isə köpük-quruşdu,
Evində savaşdı, qandı, vuruşdu...!
Heç millət kimi də sayılmır onlar,
Axır yurdlarında elə hey qanlar...
Bir zaman xitabət kürsündən ah!
Jirinovski qatil işlədi günah.
Yer kürrəsində türk qalmasa əgər,
Bəşərin köksünə nə zərbə dəyər?!
Alimmi, cahilmi bilməm bu adam?
Haqdan deyə-deyə haqq edir edam!...
O vaxt hamı susdu onun üzünə,
Etiraz etmədi qanlı sözünə.
Türkün dünyasına ünvanlamışdı,
Çünki türk xalqını yamanlamışdı.
Xitabət önündə Makaşov elə,
Jit dedi yəhudi xalqına belə.
Millət vəkilləri haray saldılar,

Tənqid elədilər, zəfər çaldılar.
Nə qədər olmasa türkin birliyi,
Artacaq gün-gündən hey səbirliyi,
Qalacaq yağılar əldə dirliyi...

Bu gün Azərbaycan terrora qurban,
Ağalar sus deyir, olmaz qana qan!
Asala işğalçı terror yuvası,
Erməni cəlladın dildə duası.
Elə hey ağlayır bütün dünyada,
Varlı ağaları çağırır dada.
Deyir bu dünyada bir xalqıq yazıq,
Cahan nə boydadı biz isə azıq.
Sizlərə xaçpərəst qardaşıq axı,
Din birsə deməli sirdaşıq axı!
Azərbaycanlı kim baş kəsən bir xalq?
Yalnız bizə tərəf olmalıdı haqq.
Daşnak qan utdurdu yurda, gülzara,
Millət şəhidlərin əkdi məzara.
Hələ qardaşımız İranın özü,
Görmək istəmədi qanları gözü.
Erməni cəllada qolların açdı,
Dükanın, bazarın, yolların açdı.
Unutdu islamı o, dinimizi,
Satdı ermәniyə bəs niyə bizi?!..
Çünki istiqlalı istəmir o da,
Siyasət dinləri hey atır oda...!
Düz on iki ildi susubdu dünya,
Haqqı boğazından asıbdı dünya.

Bu başıbəlalı Azərbaycanın,
Terrorla aldılar neçə il canın!
Metroda, maşında, qatarda terror,
Qoydu vertalyotu hey darda terror.
Böyük təyyarədə, gəmidə terror,
Evdə, bağ-bağçada, zəmidə terror.
Asala, Sadvala öyrətdi terror...
Bütün Yer üzünü göynətdi terror!
Dili açılmadı o vaxt şahların,
Üstünü örtdülər bu günahların!
Qarabağ terrorun əlində əsir,
Bizim dilimizi ağalar kəsir.
Deyir dözməlisiz bu zülümlərə,
Vətən bölünsə də hey dilimlərə!
Daşnak ermənilə dil tapın, barı,
Siz dözümlü xalqsız gözləyin arı.
Unudun şəhidi, itgini, qanı,
Vətən nə, qoruyun bir quru canı?!

Amerka dünyaya hay salıb bu gün,
Deyir dağılmalı, Üsəmə köksün!
Bütün dövlətləri dada səsləyir,
Ürəkdə fil boyda bir kin bəsləyir.
Ah, iki, üç bina uçulub orda!
İşğalda inləyir vətənim burda,
Sən mənim dərdimə soyuqqanlısan,
Öz fəlakətinə ayıqqanlısan.
Mənim yaralarım bitişmib hələ,
Sən də dağ çəkirsən belədən belə.

Edirsən erməni tərəfə meyl,
Deyirsən daşnaka terrorçu deyil.
O gün Amerkada ölənlərə mən,
Rəhmət diləyirəm hey cani-dildən.
Ruhları şad olsun Tanrı yanında,
Qanunu haqq desin bu dövranın da.
Qoy bütün cahanda terrora ölüm!
Bitsin bu həqarət, bitsin bu zülüm.
Minillik dinimə xor baxılmasın,
İslamın üstünə şər yaxılmasın.
Axmasın boş yerə qanlar dünyada,
Ey, bəşər, qanlardan bizə nə fayda?!
Allah özü yetsin naləyə, haya,
Vaya salanları yetirsin vaya!
Budur İlahidən təkcə diləyim,
Bu eşqlə sinəmdə vurur ürəyim!...

29.X.2001.

SİYASƏTDİ, SİYASƏT

Cahanda hey mərəkə,
Ev-ev gəzir səksəkə,
Qeyzlənir hər ölkə,
Qırğınlar alır vüsTət,
Siyasətdi, siyasət.

Nə qədər ölüm, qada,
Sakitlik yox dünyada,

Gedir vicdanlar bada,
İndi ən yaxşı sənət,
Siyasətdi, siyasət.

Dinlər əldə oyuncaq
Söndürülür çox ocaq,
Qan içində hər bucaq,
Artır ilbəil zillət,
Siyasətdi, siyasət.

Hökümdarlar dilləşir,
İmanla kin əlləşir,
Axan qanlar selləşir,
Düşür araya həşir,
Yalançı hörmət, izzət,
Siyasətdi, siyasət.

Ölkələr ağlaşırlar,
Ələmə bağlaşırlar,
Dərd olub dağlaşırlar,
Əzir milləti millət,
Siyasətdi, siyasət.

Böyük xalqlar ağadır,
Kiçik xalqlar çağadır,
Qartala şah qarğadır,
Yaxşılıqda hər niyyət,
Siyasətdi, siyasət.

Qanunların hər üzü,
Yatmayır gecə gözü,
Çalxalanır Yer üzü...
Sabahımız ya qismət,
Siyasətdi, siyasət.

Savaş bəşərin dəbi,
Artdıqca artır təbi,
Kimdə qırğının həbi?!
Yəhudiylə ərəbi
Yağı edən qiyamət,
Siyasətdi, siyasət.

Fələstində qan axır,
Hökmdarlar y
an baxır,
Əfqanıstanı yıxır,
Ölüm, zülüm və illət
Siyasətdi, siyasət.

Çeçenlər qara bağlar,
Ürəyi yara bağlar,
Bu dünya qalıb ağlar!
Hər şahda şaha hörmət
Siyasətdi, siyasət.

Balkanlar həzar edər,
Sinəsi ah-zar edər,
Evini məzar edər...

Orda qanlı müsibət
Siyasətdi, siyasət.

Qarabağ qara bağrı,
Kəsir bizi bu ağrı,
İblisin sözü doğru,
Haqqı ediblər oğru!
Allaha da itaət,
Siyasətdi, siyasət.

Var İsada bir dua
Qılmırsan cana rəva,
Etmə özgəyə dəva!
Kökümüz Adəm, Həvva,
Əlinizdə ibadət
Siyasətdi, siyasət.

Milli qırğınlar daşır,
İblis, şeytan ulaşır,
Zülümlər başdan aşır,
Bütün dünya savaşır...!
Edilib qana adət,
Siyasətdi, siyasət.

Dolubdu səbrin qabı,
Göyün, Yerin yox tabı,
Allahın hər kitabı
Bəşərin haqq-hesabı!...
Tanrıya da xəyanət

Siyasətdi, siyasət.

Fitnə-feldən həzar,
Rəbbim bir ömür yazar,
Bizdən sonra dar məzar,
O da dünyaya azar,
Bunu duymaq da, əlbət
Siyasətdi, siyasət.

Ağalar dingildəyir,
Qədəhlər cingildəyir,
Tulalar zingildəyir,
Şər yolu edilib qət,
Siyasətdi, siyasət.

Ey Şadiman, etmə qəm,
Ömür bəxtə düşən dəm,
Eyləmə nəşəni kəm,
Dünya gözündəki, nəm
Şah qədəhində şərbət...
Siyasətdi, siyasət!
Siyasətdi, siyasət!

31.X.2001.

YER ÜZÜNÜN
ƏHRİMƏNİ

Ey erməni, ey başkəsən,
İblis, şeytan, söylə nəsən?
Yer üzünün Əhriməni,
Ey fitnəkar, qəddar, cani!
Tökdüyün qan yetmədimi?
Bu qırğınlar bitmədimi?
Torpağımda dövlət saldın,
Yurdlarımı bir-bir aldın,
İrəvandan ağzında dad,
Sən Qafqazın özündə yad!
Nahaq qanlar tökdüyün bəs,
Ayaq tutar şər yeriməz.
Ərəb gəldi yaltaqlandın,
Hiylə oldu yalnız andın.
O xaçpərəst Albanyanın,
Yox eylədin adın, sanın.
Ulumuza qan utdurdun,
Tarixini unutdurdun.
Hey qan tökdün, hey ev yıxdın,
İsaya da xain çıxdın!
Hanı alban əlifbası?
Yerdə qalıb yurd qisası.
Məbədlərin qamarladın,
Məzarların hamarladın,
Arxivini uddun filtək,
Bu dynada bir tifiltək
Onun-bunun qucağında,
Sən yadların ocağında.
Bu cahana səpilmisən,

Hər ölkəyə təpilmisən,
Ağlayırsan elə zar-zar,
Tarixini yalan yazar,
Alimlərin nədən böylə?
Bu fitnələr bitməz öylə?
Zəngəzura şeytan doldu,
Göyçə gölü - Sevan oldu.
Çəkdin yurda sinə dağı,
Qorxaq, naqis, azğın yağı,
Sən hər xalqın düşmənisən,
Hər torpaqda şər dənisən.
Təbiblər də tapmaz çarə,
Ey bəşərə qarayarə!
Ey erməni, ey başkəsən,
Kol dalında asıb, kəsən!
Sən adəmdən yaranmadın.
İnsanlığı heç anmadın,
Yalnız ölüm, qan əndişən,
Yaltaqlanmaq sənin peşən.
Soyun yazıq qiyafəni,
Dünya görsün biryol səni?
İngilisə hey əyildin,
Fransıza çox üyüldün,
Ey rusların oyuncağı,
Fitnə, hiylə, şər qucağı.
Haqqımızı almaq üçün,
Gecə-gündüz yanır için.
Uydurursan yalanları,
Artırısan talanları,

Qarabağda hal qoymadın,
Qapılarda yal qoymadın,
Qafqaz bizim deyə-deyə,
Millətini öyə-öyə,
Hey çapırsan sağa-sola,
Gəlmədin ki, bir dəm yola?
Bir zülümsən bu bəşərə,
Allah bəla versin şərə!
Qan tökməkdən doymadın ki,
Tökməmiş qan qoymadın ki,
Dur hazırlaş son savaşa,
Hiylə, fitnə getməz başa,
Əsir yurdu alasıyıq,
Biz son zəfər çalasıyıq...
Soyun iblis qiyafəni,
Dünya görsün biryol səni?!

31.03.2001.

SƏLAM OLSUN

Bu dünyanın hər üzünü
Görənlərə səlam olsun.
Qatlayanda şər dizini
Ərənlərə səlam olsun.

Ala zaman çələyini,
Döyə şərin diləyini,
Hər namərdin biləyini
Gərənlərə səlam olsun.

Heç dönməyə haqq yolundan,
Buxov düşə mərd qolundan,
Həqiqəti öz kolundan
Dərənlərə səlam olsun.

Dərya qopmaz mayağından,
Qəlb dönməsin dayağından,
Şəri dartıb ayağından
Sərənlərə səlam olsun.

Haqq çıxarda səs-səmrini,
Tütyə edən Rəbb əmrini,
Halallıqla öz ömrünü
Sürənlərə səlam olsun.

19.02.2000
Gəmidə

ÇALXANIRSAN

Dünya, sənə canım dedim,
Ömrə, günə anım dedim,
Saatını sanım dedim,
Üstbəüstdən oxlanırsan,
Niyə belə çalxanırsan?

Yoxdur başqa ünvanınız,
Ölüm, qandır hər yanımız,
Səndə keçir dövranımız,
Məzarlarla qoxlanırsan,

Niyə belə çalxanırsan?
Hiylərə məkan oldun,
Qan, qırğına təkan oldun,
Silahlara dükan oldun,
Top-tüfənglə yoxlanırsan,
Niyə belə çalxanırsan?

Dünya, səni qul etdilər,
Bazarlarda pul etdilər,
Gah ərli, gah dul etdilər...
Savaşların qalxanısan,
Niyə belə çalxanırsan?

Ağladırlar gözlərini,
Gizlədirlər üzlərini,
Kül ediblər közlərini,
Min bir yerdən laxlanırsan,
Niyə belə çalxanırsan?

Səndən ki, heç doymaq olmur,
Səni əldən qoymaq olmur,
Məzarına uymaq olmur...
Hara gəldi arxlanırsan,
Niyə belə çalxanırsan?

Səni sevən tapılarmı?
Dərdin bağrı çapılarmı?
Savaş haqqa qapılarmı?
Səhər-axşam hey yanırsan,

Niyə belə çalxanırsan?

31.X.2001.

BU DÜNYANIN

Bu dünyanın özü bilmir
Necə qalib çıxsın şərə?
Cəfalardan üzü gülmür,
Haqqı çatmaz heç bəşərə.

Qəlbdən getməz niskili var,
Məzarında daş göyərib.
Açılmayan müşkülü var,
Gözlərində yaş göyərib.

Sirr-dünyanın hər adamı,
Hiyləsinə səbir çatmaz.
Qalanıb üst-üstə damı...
Ölənինə qəbir çatmaz.

Yüklənibdi beli filtək,
Əyibdi haqqın tərəzi.
Heç yananı yox səfiltək,
Yıxılmaqdır lap qərəzi.

Bu dünyanın əzabı bol,
Hey titrədir yeri simtək.
Ölümünə çəkilib qol,
Məzarlanar bir cisimtək.

Bu dünyanın bəxti hanı?
Qurğuşunu çiçəkdən çox.
Bir himə bənd çıxa canı
Şeytanları mələkdən çox.

Hamı Allah sanır özün
İlahinin ətəyində.
Bəşər gizlər doymaz gözün
Dünyanın bal pətəyində.

Gələn düşər heç bilmədən
Bu dünyanın sehirinə.
Gedənləri uymaz nədən?
Məzarların mehirinə?

Bu dünyaya mənim dedik,
Qamarladıq iki əllə.
Çuval yığdıq, misqal yedik,
Qəbirlərdə yatdı kəllə...

Ömür keçər, ey Şadiman,
Bu dünyanın qucağında.
Yanar könlün duymaz umman,
Kül olmazsan ocağında.

18/19.02.2001.

SEVDAM VAR HƏLƏ

Deməyin solmuşam bağçada gültək,
Gülzarda ötmürəm xarıbülbültək,
Deməyin yel məni əyər sünbültək,
Dolanar sorağım hey eldən-elə,
Mənim bu dünyayla sevdam var hələ.

Gözlərim dolanda yaş inciməsin,
Ağlın çəkisinə baş inciməsin,
Ömür tələsəndə yaş inciməsin,
Axmasın əlimdən anlarım elə,
Mənim bu dünyayla sevdam var hələ.

Bitib tükənməyir ürəkdə sözüm,
Qəlbi zirvələrə aparır dözüm,
Sanki yerin, göyün əsiri özüm,
Qanadlı mələktək dönmüşəm yelə,
Mənim bu dünyayla sevdam var hələ.

Zaman acısından qurtulmaq çətin,
O bir bəlasıdır bəşəriyyətin,
Məramı xoş olsun min bir niyyətin,
Bağlıdır anlarım bir zərif telə,
Mənim bu dünyayla sevdam var hələ.

Ürəyim zamana köklənən simdi,
Köksümdən qaçıran məni hissimdi,
Kainat dediyin bir tilisimdi,
Onun çox sirləri düşməyir ələ,

Mənim bu dünyayla sevdam var hələ.

Könlün acısını bilən də odur,
Bizə qəh, qəh çəkib gülən də odur,
Ölənlə bir yerdə ölən də odur,
Keçsə də altuntək hey əldən-ələ,
Mənim bu dünyayla sevdam var hələ.

Hər duyğum taxtını bəzəyən şahım,
Gah şövqlə, gah zövqlə açar sabahım,
Qəmimi içimdə boğar Allahım,
Anlarım bənzəyir bir coşqun selə,
Mənim bu dünyayla sevdam var hələ.

Dağ sisə, dumana aşiq kimidi,
Ay zülmət gecəyə işıq kimidi,
Dərə gur sellərə qaşıq kimidi,
Zaman toxunmasın könlümdə telə,
Mənim bu dünyayla sevdam var hələ.

Fələk bələkləyir ağrı, acımı,
Bəzəyir ilhamla könül tacımı,
Duyur yerim, göyüm ehtiyacımı,
Çapsın duyğularım belədən-belə,
Mənim bu dünyayla sevdam var hələ.

Ürək alışmasa gözdə yaş olmaz,
Ağılı olmayan başdan baş olmaz,
İnsan doğulanın qəlbi daş olmaz,

Şadiman,ölümü gətirmə dilə?
Mənim bu dünyayla sevdam var hələ.
Mənim bu dünyayla sevdam var hələ.

3.03.2001.

DÜNYA SUSDU

Qətrə-qətrə qan töküldü, çox talandı məkanımız,
İnsanlığa yaxşı bələd ali ədəb, ərkanımız,
Haqqımızı anlatmağa az tapıldı imkanımız,
Heç olmadı özümüzə, içimizə təkanımız,
Hər zülümə, müsibətə, həqarətə dünya susdu,
Ağzımıza daş basıldı, ədalətə dünya susdu.

Hey çəkildi gözümüzə zaman-zaman yağı mili,
Hey kəsildi cəlladların əllərində haqqın dili,
Nə bir qansız, nə qovğasız olmadı ki, vətən ili,
Ocaqları kor qoydular, quru yurdda qaldı külü,
Fitvalarda biz əzildik, biz üzüldük dünya susdu,
Kətan təki hey nazildik, hey
süzüldük dünya susdu.
Şəhidimiz məzar-məzar çoxaldıqca adiləşdik,
Torpağımız hissə-hissə alındıqca vadiləşdik,
Beynəlmiləl deyildikcə üzümüzə sadələşdik,
Yurdumuzdan pay verməkçin xainlərlə vədələşdik...
Qan töküldü, bel büküldü, yurd söküldü dünya susdu.
Atamızın qəbirinə xaç çəkildi, dünya susdu.

Bizdən əvvəl gələnlər də birləşməyi ar bildikcə,
O tayfanın böyüklüyün bu tayfaya xar bildikcə,
Yadellinin xatunların özlərinə yar bildikcə,
Öz yurdunu, öz elini bir-birinə dar bildikcə,
Xərabəyə döndü ocaq, söndü ocaq, dünya susdu.
Aşıb-daşdı qanlı qucaq, dondu bucaq dünya susdu.

Aman Allah, kim açacaq bizim bu kor gözümüzü?
Düşmən bildik, yağı bildik özümüzə özümüzü,
Oğurladı iblis, şeytan içimizdən közümüzü,
Yadelliyə, xainlərə öyrətdikcə üzümüzü,
Xırdalandıq, könlümüzə zəfər çaldıq dünya susdu.
Son məqamda özümüzlə tənha qaldıq dünya susdu.

Zülüm evi yıxılmazdır min il belə ötüb keçdi,
Zəlzələlər, fırtınalar insanları ottək biçdi,
Cahillikdən çıxmıb bəşər bir-birinin qanın içdi...
Zaman-zaman ölüm, qırğın, müsibətlər yolun seçdi,
Haqqımızı içimizdə şəhid edən dünya susdu,
Aman Allah, bu qanlara söylə nədən dünya susdu?

Xərabəyə döndü yurdlar, bilinmədi ölüb-itən,
Unutqanlıq, biganəlik qəlbimizdə ottək bitən,
Əslimizə, kökümüzə ağız büzdü, əfsus yetən,
Kiçildikcə, söküldükcə, büküldükcə yazıq vətən!
İnsanları işğallarda üyüldükcə dünya susdu,
Ədalətin baş-gözünə döyüldükcə dünya susdu.

Ey Şadiman, yandı bağrın hər əzabın cəfasından,

Kimə qaldı bu cahanın əlçatmayan vəfasından?
Zaman qaçdı, Tanrı doydu bəşərin bivəfasından,
Ocağında kül olmusan ürəyinin səfasından,
Sən alışdın alovundan yandı Günəş dünya susdu,
Vulkan oldu könlün içi, doğdu atəş dünya susdu.

3.04.2001.

BU ƏBƏDİ DÜNYANIN

Ömür sona yetəndə,
Sandı dünya röyanın.
Canı gizlənib təndə
Bu əbədi dünyanın.

Qan etdilər parəsin.
Qanatdılar yarəsin,
Tapmadılar çarəsin
Bu əbədi dünyanın.

Tərəzisi əyildi,
Hey başına döyüldü,
Gələnləri üyüldü...
Bu əbədi dünyanın.

İblis başını qatdı,
Dəryasına tor atdı,
Hamı məzarda yatdı,
Bu əbədi dünyanın.

Diddilər içdən onu,
Qaldı əllərdə donu,
Bilən yox haçan sonu
Bu əbədi dünyanın.

Bölündü min bir yerə,
Düşdü varı əllərə,
Rəbb sandı özün hərə
Bu əbədi dünyanın.

Şahı, sultanı aldı,
Ayağı altda saldı,
Taxtı özünə qaldı
Bu əbədi dünyanın.

Tutub qan, qırğın gözü,
Matdı bəşərə özü,
Bizdən çox görüb üzü
Bu əbədi dünyanın.

Şadiman, cantək şirin,
Söylə, alimi sirrin -
Aça bildimi birin?
Bu əbədi dünyanın.

18.03.2001.

ETMƏDİ DÜNYA

Heç kəsə göstərməz öz vəfasını,
Çəkdirər gələnə qəm cəfasını,
Görən az olubdu o səfasını,
Hər haya, haraya yetmədi dünya,
Kimsəyə etibar etmədi dünya.

Boşaltdı gözlərdən dolan yaşları,
Kəllədi, sümükdü bomboz daşları,
Min illər çatılıb dərddən qaşları,
Hər ömür bağında bitmədi dünya,
Kimsəyə etibar etmədi dünya.

Endirdi sultanı, şahı taxtından,
Kimi düşürmədi o ağ baxtından?
Bir ömrə qatmadı bir an vaxtından,
Ölənlə məzara getmədi dünya,
Kimsəyə etibar etmədi dünya.

Canı boğazından çıxarıb aldı,
O gül bədənləri qəbirə saldı,
Hamının gözündə axıra qaldı,
Ömürtək tələsik ötmədi dünya,
Kimsəyə etibar etmədi dünya.

Yolunda yorğundu bəşər karvanı,
Salar ayağına ötən sarvanı,
Gələnə, gedənə bəlli ünvanı,
Yorulub yollarda itmədi dünya,
Kimsəyə etibar etmədi dünya.

Az-az verdiyini əlindən qapdı,
Zaman dolayında tərsinə çapdı,
Hər doğulan təndə özünü tapdı...
Tək öz qanadını ütmədi dünya,
Kimsəyə etibar etmədi dünya.

Sümük daşa döndü, daş da divarə,
Zamanın əlində ömür avarə,
Gedənlər gəlmədi bir də dübarə,
Doğuldu heç sona yetmədi dünya,
Kimsəyə etibar etmədi dünya.

Səpər darısını torpağa, düzə,
Keçirər xəlbirdən çıxarar üzə,
Bənzər tələtümlü, çılğın dənizə,
Əvvəli, axırı bitmədi dünya,
Kimsəyə etibar etmədi dünya.

Haqdan atəş basıb bu canımıza,
Qaynayıb qarışıb al qanımıza,
Gəlməz o dünyaya heç yanımıza,
Bülbültək gül üçün ötmədi dünya,
Kimsəyə etibar etmədi dünya.

Şadiman, az olur ürək sevinci,
O sədəf içində gizlənən inci,
Ovxalar kaşını, dağıdar pinci,
Hiyləyə, tələyə getmədi dünya,

Kimsəyə etibar etmədi dünya.
Kimsəyə etibar etmədi dünya.

19.03.2001.

DƏRDİNDƏN ÖLƏN KİM?

Bu dünya sahilini itirmiş gəmi,
Qanla doydurur dəmi.
Gələni, gedəni saysız,
Ötüşməz vaysız.
Dodağında ahı,
Bitib-tükənməz günahı.
İçində Allahı.
Bu dünya sahilini itirmiş gəmi,
Gözlərinin qurumaz nəmi.
Ağladanı tox,
Ağlayanı çox.
İlləri boğçaya bükər,
Boğçanın ağzını tikər.
Harayı içində boğular,
Doğulanla doğular,
Ölənlə ölər...
Hər şeyin bizimlə bölər.
Bu dünya sahilini itirmiş gəmi,
Fəryadıyla ağladar aləmi.
Dərya udmaq istər onu,
Bir ovuc içi qədər yaxındır sonu.

Hamı varını qamarlar,
Yığıb-yığıb hamarlar.
O isə nə varını gizlədər,
Nə də kirini təmizlədər,
Nə də bir kimsəni əzizlədər.
Hey bizləri yola salar,
Məzarları üst-üstə qalar.
Bu dünya sahilini itirmiş gəmi,
Əvvəl-axır öldürəcək qəmi -
Onu duyanları,
Qan ilə doyuranları.
Bu dünya sahilini itirmiş gəmi,
Bilinməz işinin çəmi,
Dilini bilən kim?
Dərdindən ölən kim?
Fəryadına gələn kim?
Üzünə gülən kim?

18.Xll.2000.

KİMİNƏ ACI DÜNYA

Özütək qoca adı,
Himə bənddi fəryadı,
Gah zəhər, gah bal dadı,
Kiminə acı dünya,
Kiminin tacı dünya.

Gülənınə ar olmaz,

Biləninə yar olmaz,
Ölənинə dar olmaz,
Kiminə acı dünya,
Kiminin tacı dünya.

Əvvəli, axırı yox,
Örüşə naxırı yox,
Otu var axuru yox,
Kiminə acı dünya,
Kiminin tacı dünya.

Dilində sözü çatlar,
Deməsə özü partlar,
Sünbülün biçər artlar,
Kiminə acı dünya,
Kiminin tacı dünya.

Dərdi içinə sığmaz
Dağıtdığını yığmaz,
Dolmasa göyü yağmaz,
Kiminə acı dünya,
Kiminin tacı dünya.

Dəyəri bir saf almaz,
Əldən verdiyin almaz,
Niyə heç kəsə qalmaz?
Kiminə acı dünya,
Kiminin tacı dünya.

İçdə yanar qovrular,
Külü göyə sovrular,
Ahından qurdtək ular,
Kiminə acı dünya,
Kiminin tacı dünya.

Göz yaşını mərd udar,
Varını namərd udar,
Özü niyə dərd udar?
Kiminə acı dünya,
Kiminin tacı dünya.

Toxuna cah-cəlaldır,
Həm nəşə, həm məlaldır,
Allah, kimə həlaldır?
Kiminə acı dünya,
Kiminin tacı dünya.

Hər ömür bir içimdi,
Torpağı ki, bir çimdi,
Öz göz yaşında çimdi,
Kiminə acı dünya,
Kiminin tacı dünya.

Başda ağlını ovlar,
Gözdə yaşını qovlar,
Qəlbi aldadar, tovlar,
Kiminə acı dünya,
Kiminin tacı dünya.

Köksü bölüm-bölümdü,
Bir ucu xoş zülümdü,
Bir ucu boş ölümdü,
Kiminə acı dünya,
Kiminin tacı dünya.

Dəmri çürüdər pası,
Heç kəsə olmaz ası,
Hər adama bir yası,
Kiminə acı dünya,
Kiminin tacı dünya.

Şadiman, bu nə içdi?
Su yerinə qan içdi,
Hamını sonda biçdi,
Kiminə acı dünya,
Kiminin tacı dünya.

27.04.2001.

MƏNİ BU DÜNYADAN ALAN OLAYDI

Ömrümd
ə bircə yol üzüm gülmədi,
Elə leysan tökdü gözüm gülmədi,
Ürəyim od tutdu közüm gülmədi,
Dünyaya gəlməyim yalan olaydı,

Məni bu dünyadan alan olaydı.

Fələk hey ağlatdı səadətimi,
Öldürdü dilimdə ibadətimi,
Unuda bilmədim qəm adətimi,
Kaş bağrım, ürəyim talan olaydı,
Məni bu dünyadan alan olaydı.

Yer göyə tapşırdı, göy yerə məni,
Batırdı könlümü cahanın çəni,
Zülümlər, sitəmlər yandırdı təni,
Gedənlər gedəydi, olan olaydı,
Məni bu dünyadan alan olaydı.

Gözümün gurşadı selləri yudu,
Mənim qara başım hər dərdi duydu,
Gələn bu cahana min canla uydu,
Bir vida şərqimi çalan olaydı,
Məni bu dünyadan alan olaydı.

Fələk artırdıqca bu can ağrımı,
Tuş etdi əzaba, dərdə bağrımı,
İlahi, doğulmaq acı, ağrımı?
Cismimi məzara salan olaydı,
Məni bu dünyadan alan olaydı.

Baxıram ətrafa hər tərəf nalə,
Qanlardan doğulub qırmızı lalə,
Baxıb qəh,qəh çəkir yer, göy bu halə,

Ömür gülüstanım solan olaydı,
Məni bu dünyadan alan olaydı.

Deməyin Şadiman qəminin şahı,
Yerləri, göyləri yandırır ahı,
Dünyaya gəlməkmi onun günahı?
Ruhum göydə qanad çalan olaydı,
Məni bu dünyadan alan olaydı.

28.04.2001.

EY ZAMAN

Ey əlahəzrət zaman,
Baş alıb getmə yaman,
Nə çox səndə ah, aman,
Əlində dəqiqə, an,
Ömrü bizdən alırsan.
Özün tənha qalırsan.

Çiçəktək solmağın var,
Buludtək dolmağın var,
Ürəyi almağın var,
Sultanmı olmağın var?
Bəxtimdə təxt qurmusan,
Yolum üstə durmusan.

Zaman, ötmə yel təki,
Anlar sıx-sıx el təki,
Axma dəli sel təki,

Saçımdakı tel təki
Hey qırılıb düşürsən.
Nə haray, nə həşirsən.

Bilməm hara qaçırsan?
Başım üstə uçursan,
Haqqamı yol açırsan?
Qumru quştək uçursan
Qazandığın nə olar?
Məndən sənə nə qalar?

Qərinələr, əsrlər,
Önündə nə əsirlər?
Batıb içində sirlər...
Əl-qolunu kəsirlər -
Dünyanın iblisləri,
Nə kirli xəbisləri?
Ey zaman, tələsmə gəl,
Rüzgar təki əsmə gəl,
Taleyimdən küsmə gəl,
Ömrü yolda kəsmə gəl,
Duyğularım baş-başa.
Qoyma toxunsun daşa!...

Əlahəzrət zamanım,
Əlində miskin canım,
Qarşına gələr anım,
Donar damarda qanım,
Bitəndə son saatım...

Sona çatar həyatım!...

10.Xll.1999.

OLMAYIR

Hiylə dövran edər hər an qanında
Namərdin imanı, dini olmayır.
Dünyada heç zaman Allah yanında
Bəxti qara olur, günü olmayır.

Məkirlə dünyanın başın tovlasa,
Bütün yer üzündən haqqı qovlasa,
Fəndiylə, feliylə düzü ovlasa
Heç səsi, sədası, ünü olmayır.

Çəkər imanını Rəbb, hesabına,
Elə zəhər qatar tale qabına,
Nə qədər baş vursa din kitabına
Allahın evinə yönü olmayır.

Bağrından qurtulub çıxanda ruhu,
Haqqın dərgahına yetişməz ahı,
Necə yumaq olar candan günahı?
Canın ki, bədəntək gönü olmayır.

Ömür İlahinin əlində sınaq,
Gərək ruhumuzu etməyək qınaq,
Biz bu həqiqəti bir yolluq qanaq

Günahın uzunu, eni olmayır!

Haqqın nəzərində hey sağın, solun,
İndi bu dünyada haqq sənin qulun,
Allah dərgahına gedən o yolun...
Canı qutarmaqçın önü olmayır!...
11.Xll.1999.

DÜNYA Kİ,
YARADANIN

Dünya mənimdi deyən,
Özü-özünü öyən,
Sonda başına döyən,
Tanrı əlində canın,
Dünya ki, Yaradanın.

Çəkmə özünü başa,
Bacarsan halal yaşa,
Baxmır tale göz yaşa...
Dəyəri var hər anın,
Dünya ki, Yaradanın.

Fələyin var səbiri,
Düşməz əldən xəlbiri,
Ölənlərin qəbiri,
Göz dağıdır hər yanın,
Dünya ki, Yaradanın.

Zaman ömrünü qovar,
Canını göyə sovar,
Məzar daşını ovar!
Unudular ad-sanın,
Dünya ki, Yaradanın.

Şadiman, bəxt uzun yol,
Enişi, yoxuşu bol,
Nə qədər qüdrətli ol,
Fələyə nuşdur qanın,
Dünya ki, Yaradanın.
5.08.2000.

DÜNYA BELƏ QALAN DEYİL

İçi məhşər, qan andırar,
Dərdi candan usandırar,
Yeri, Göyü qəm yandırar,
Haqq əlində talan deyil,
Dünya belə qalan deyil.

Alışdırar köz bağrını,
Çeynər yalan hey doğrunu,
Çəkə bilməz bu ağrını,
Olmuşları yalan deyil,
Dünya belə qalan deyil.

Tanrısından bir qorxunuz,
Sinəsində var oxunuz,
Belinə ki, yük çoxunuz,
Bəşər təki solan deyil,
Dünya belə qalan deyil.

Zaman özü dərvişsayaq,
Sanmaz adəm ona dayaq,
Məzarda yer tapar ayaq...
Qol boynuna salan deyil,
Dünya belə qalan deyil.

Çalxalanır zülümlərlə,
Sərhədlərlə, bölümlərlə,
Fələk yazmaz ölümlərlə!
Biztək saçın yolan deyil,
Dünya belə qalan deyil.

Tanrısına göz olmazsız,
Ömrü boyu düz olmazsız,
Ayazına köz olmazsız,
Dərdi bizdən alan deyil,
Dünya belə qalan deyil.

Haqqı dara çəkən, anla,
Gəl oynama quru canla,
Dura bilməz bu ünvanla,
Dözümü bal, kalan deyil,

Dünya belə qalan deyil.

Ağlatmayın o gözünü,
Saraltmayın gül üzünü,
Qaraltmayın gündüzünü,
Çuval deyil, palan deyil,
Dünya belə qalan deyil.

Gözdə qan yaşı ağlaşar,
Acılarla hey bağlaşar,
Bir gün bizlə sağollaşar...
Boşaldıqca dolan deyil,
Dünya belə qalan deyil.

Bəşər fani yox əlacı,
Düşər başdan həyat tacı,
Ey Şadiman, ağart saçı!
Fələk biztək nalan deyil,
Dünya belə qalan deyil.
Dünya belə qalan deyil.
13.04.2001.

TAMAŞA DÜNYA

Kiminə şirindi, kiminə acı,
Kiminin başında şan-şöhrət tacı,
Mənhus ölümünə tapmaz əlacı,

Bənzər qanadıyla bir quşa dünya,
Hamıya bir seyr, tamaşa dünya.

Heç kəsdən varını həsləmədi ki,
Əbədi kimsəni bəsləmədi ki,
Gedəni geriyə səsləmədi ki,
Sultantək çəkildi hey başa dünya,
Hamıya bir seyr, tamaşa dünya.

Ağlayan gözlərdən yaşı qopartdı,

Uca saraylardan daşı qopartdı,
Əzrayıl əliylə canı apartdı...
Bələndi qatbaqat daş, qaşa dünya,
Hamıya bir seyr, tamaşa dünya.

Şahı gəda etdi, gədanısa şah,
Naləsiz, savaşsız gəlmədi sabah,
Bəşərin köksündən qopan fəqan, ah,
Döndü bəbəklərdə qan-yaşa dünya,
Hamıya bir seyr, tamaşa dünya.

Məzarlar üstündə məzar yaratdı,
Cavanı, qocanı məzara atdı,
Ölənlə əbədi qəbirdə yatdı...
Döndümü ürəyin de daşa, dünya?
Hamıya bir seyr, tamaşa dünya.

Kimsənin halını sormadı ki heç,

Atını yollarda yormadı ki heç,
Bir yerdə əbədi durmadı ki heç,
Doymadı baxmaqdan göz-qaşa dünya,
Hamıya bir seyr, tamaşa dünya.

Boyadı min rəngə gözdəki yaşı,
Daşıdı torbayla torpağı, daşı,
Ömürlük olmadı dostu, sirdaşı,
Qalıb taleilə baş-başa dünya,
Hamıya bir seyr, tamaşa dünya.

Kimsəni özündən incidən deyil,
Nədə ki, bizimtək can güdən deyil,
Özünü bəşərtək xar edən deyil,
Vurmaz bir gününü boş-başa dünya,
Hamıya bir seyr, tamaşa dünya.

Hamıdan ucadır Tanrı qüruru,
Tutubdu aləmi gözünün nuru,
Çox dolu bostanı eyləyər uru,
Gələnlə, gedənlə, ey qoşa dünya,
Hamıya bir seyr, tamaşa dünya.

Yorar yollarında o, Şadimanı,
Tutub əllərində bu şirin canı,
Gəlib gedənin hesabı hanı?
Donunu bürüyüb qumaşa dünya,
Hamıya bir seyr, tamaşa dünya.

1.06.2001.

YAMAN DÜNYADI

Acılarla baş-başa,
Ömrə zaman dünyadı,
Dönüb ürəyi daşa,
Dünya yaman dünyadı.

Gözdə yaşı daşdırar,
Bəbəklərdə yaş durar,
Yanaqlardan aşdırar,
Dünya yaman dünyadı.

Talelərlə öcəşər,
Hər bacadan şər düşər,
Sevdasına yar bəşər,
Dünya yaman dünyadı.

Başı haçan aynayar,
Hər havaya oynayar,
Hər qazanda qaynayar,
Dünya yaman dünyadı.

Elə qeylu-qal çəkər,
Çiçəyindən bal çəkər,
Küçüyünə yal çəkər,
Dünya yaman dünyadı.

Ələmi başdan aşır,
Elə hey dolub, daşır,
Fələklə pıçıldaşır,
Dünya yaman dünyadı.

Məzara baş daşıdı,
Gözdə hicran yaşıdı,
Zalımlara naşıdı,
Dünya yaman dünyadı.

Şadimanın canıdı,
Əzəl-son ünvanıdı,
Canının mehmanıdı,
Dünya yaman dünyadı.
Dünya yaman dünyadı.
5.08.2001.

DÜNYA NƏ HALƏTDİ?

Zaman canda gərdişdi,
Haramı kəsən dişdi,
Dil yalana öyrəndi
Ayırmaq çətin işdi.

Dünya, bu nə halətdi?
Gördüyün zəlalətdi.

Fələk can üydürmədi,

Etdiyin öydürmədi,
Mismarı döyən çəkiş
Özünü döydürmədi.

Zamanın boyu qamış,
Yeri, Göyü qarqamış.

Ürəkdə binə olar,
Alışan sinə olar,
Zalımdan gələn zərər,
İmana, dinə olar.

Amanda iman yoxdu,
İmanda aman yoxdu.

Yolun hamarı olmaz,
Hər uçan arı olmaz,
Qeyrətdən deyən dilin
Qeyrət damarı olmaz.

Şöhrətə qul olunca,
Tut qürurunu uca.

Yaxşılıq dilə gəlməz,
Etməsən elə gəlməz,
Ötürmə boş ömrünü,
Ötürsən ələ gəlməz.

Anlar zamanın atı,

Hey uçurdur saatı.
Dərd qatma göz yaşına,
Qoyma köksün başına,
Kimsə dadına çatmaz
Hey döysəndə başına.

Dünya, bu nə halətdi?
Ağıl qəlbə alətdi.
13.07.2001.

MACƏRALI DÜNYA

Nağılları yuxuludu,
İnsanları qorxuludu,
Ömür canın paxılıdı,
Mələk Göylü, Yerli dünya,
Macəralı, sirli dünya.

Bəbəyində yaş qurumaz,
Duyduğuyçın baş yarımaz,
Bir tək özü heç qarımaz,
Qəlbi dərdli-sərli dünya,
Macəralı, sirli dünya.

Ömürləri əldən axdı,
Hər bədəni yerə soxdu!..
Öldüyün bir görən yoxdu,

Ey sultanlı, ərli dünya,
Macəralı, sirli dünya.

Səndən əlin üzər varmı?
Sinənə gül düzən varmı?
Sınmamış bir kuzən varmı?
Savaşıyla kirli dünya,
Macəralı, sirli dünya.

Kimlər sənə can dedilər,
Elə ölüm qan dedilər,
Öz başların hey yedilər!...
Ey ehramlı, pirli dünya,
Macəralı, sirli dünya.

Səni könlə bülbül etdim,
Dumanını mən tül etdim,
Yandırıban qəlb kül etdim,
Ay Arazlı, Kürlü dünya,
Macəralı, sirli dünya.

Səndən ayrı məkanım yox,
Bir qayığam, sükanım yox,
Quştək uçmaq imkanım yox,
Ömürlərə dürlü dünya,
Macəralı, sirli dünya.

Səndən kimdi doyub gedən?
Məzarına uyub gedən?

Ürəyini qoyub gedən?
Ay göy damı tirli dünya,
Macəralı, sirli dünya.

Güllər bitər gülzarlıqda,
Tənlər itər məzarlıqda,
Nə görmüsən ah-zarlıqda?
Ay zinətli, zərli dünya,
Macəralı, sirli dünya.

Bağ-bağçanda barın dolu,
Bəzən baş boş, qarın dolu,
Hər ömrə bir həyat yolu...
Ay bəhərli, bərli dünya,
Macəralı, sirli dünya.

İki əllə baş döyəndə,
Hər qəbirdə tən yeyəndə,
İlğımlarda təngiyəndə,
Ay tövşüyən, tərli dünya,
Macəralı, sirli dünya.

Şadimandan qəlb gizlətdin,
Gizlətdikcə əzizlətdin,
Dərdlərimi dənizlətdin,
Qəm dəvəsi nərli dünya,
Macəralı, sirli dünya.

1.09.2001.

YALAN DÜNYA

Şəhriyarın “Yalan dünya”
şerinə nəzirə

Nəşə yeyib kədər qusdun,
Hər addımda haqqı pusdun,
Şər önündə sən də susdun
Hər şeyə kor olan dünya,
“Yalan dünya, yalan dünya”.

Ağlamayan bir göz hanı?
Hey yandırdın təndə canı,
Haçan olar haqq divanı?
Boş yerə saç yolan dünya.
“Yalan dünya, yalan dünya”.

Al bəşərdən canı bir yol,
Səvabı az, günahı bol,
Hara gedir söylə bu yol?...
Savaşlarda solan dünya.
“Yalan dünya, yalan dünya”.

Əllərini yuma qanla,
Bacarırsan haqqı anla,
Kədər illə, sevinc anla,
Hər addımı talan dünya.
“Yalan dünya, yalan dünya”.

Əzabına tutuşan biz,
Qəmlərinə qatışan biz,
Sənlə hey atışan biz,
Zurnasın boş çalan dünya,
“Yalan dünya, yalan dünya”.

Göylərini qəmin sağır,
Qəlb damına kədər yağır,
Yükün səndən min qat ağır,
Dalında çul, palan dünya.
“Yalan dünya, yalan dünya”.

Saxlama heç o gödəni,
Doydurmadı tən mədəni,
Candan alıb hər bədəni...
Boş məzara salan dünya!
“Yalan dünya, yalan dünya”.

Dilinin hər əmri belə...
Çıxmaz səsi, səmri belə,
Bu beşgünlük ömrü belə
Əlimizdən alan dünya.
“Yalan dünya, yalan dünya”.

Soldu necə gül bədənlər,
Əzrayıl hər təni dənlər,
Doymadı ki, heç gedənlər?
Özü sona qalan dünya.

“Yalan dünya, yalan dünya”.

Həyat gülün dərmədim ki,
Qəmin qolun gərmədim ki,
Mən ki, heç gün görmədim ki,
Əzabıyla kalan dünya.
“Yalan dünya, yalan dünya”.

Anasından bala aldın,
Qəbirinə nə tez saldın?
Guya ki, sən zəfər çaldın,
Sənin ki, yox balan, dünya.
“Yalan dünya, yalan dünya”.

Əzrayıldan nəyin əskik?
Çox dam, saray yıxıq, sökük,
Hünərin var bir yuva tik,
Varınmı heç dalan dünya?
“Yalan dünya, yalan dünya”.

Çox zirvədə olan taxtı,
Təpəsindən yerə çaxdı,
Təbim kimi coşan vaxtı,
Xəyallara dalan dünya.
“Yalan dünya, yalan dünya”.

Atını şər evinə çap,
Haqqı onun əlindən qap,
Ya bircə yol səadət tap,

Ya odlara qalan dünya!
“Yalan dünya, yalan dünya”.

Şadimanın əsir özü,
Tutulanda qəmdən üzü,
Bulud təki ağlar gözü,
Könlüm kimi dolan dünya!...
“Yalan dünya, yalan dünya”.

22-23 /01.2000/

KİM KÜSMƏDİ

Can verənə hay vermədi,
Sərvətindən pay vermədi,
Hansı evə vay vermədi?
Kimin haqqın de kəsmədi?
Bu dünyadan kim küsmədi?

Milyonlar yığ nə faydası,
Əksinə çox-çox qadası,
Fələyin də var ədası,
Heç bir cana o əsmədi,
Bu dünyadan kim küsmədi?

Məzarları üst-üstədi,
Hərədə bir yer xəstədi,
Hər bədəndən can istədi,
Öldürəndə tələsmədi.

Bu dünyadan kim küsmədi?

Ey Şadiman, vaxta nə var,
Gecə, gündüz ömrü qovar,
İllərini satar, sovar,
Hesabında əl əsmədi...
Bu dünyadan kim küsmədi?
8.Xl.1999.

AÇAN KİMDİ?

Dünya, sənin mənliyini
Alıb səndən qaçan kimdi?
Viran edib şənliyini
Başına dərd açan kimdi?

Sərvətinlə yetib taca,
Qurub şərdən haqqa baca,
Sanıb özün səndən uca
Başın üstə uçan kimdi?

Şəfəq salıb mələklərə,
Dam olubdu dirəklərə,
O alışan ürəklərə
Günəştək od saçan kimdi?

Çox çalmısan qələmini,
Heç nə yumaz ələmini,
Bu dərd dolu aləmini

Basıb bağra qucan kimdi?

Nura batıb sabahından,
Həya edib Allahından,
Qurtulmaqçın günahından
Haqq qapısın açan kimdi?
26.01.2000.

DÜNYA BELƏ DÜNYADI

Səadəti bir damcı,
Getməz damağdan dadı.
Dərdi zəhərdən acı,
Dünya belə dünyadı.

Zülmü baş qataqatda,
Haqqı ayaqlar altda,
Kim ağlamır həyatda...
Dünya belə dünyadı.

Dərəsi düzdən uca,
Ocağa həsrət baca,
Varı haramdı aca,
Dünya belə dünyadı.

Məzlumu pərən-pərən,
Haram dadar güngörən,

Haqqa çatmaz ər, ərən,
Dünya belə dünyadı.

Dondurar göz yaşını,
Kirpiyini, qaşını,
Bədən üstə başını,
Dünya belə dünyadı.

Min qat məzardı üstü,
Qandı, savaşdı büstü,
Bacasın boğar tüstü,
Dünya belə dünyadı.

Haqq kimdədi bilmədi.
Axan yaşı silmədi,
Ölən ilə ölmədi...
Dünya belə dünyadı.

Hakimin tacı olar,
Məzluma acı olar,
Gah boşalar, gah dolar,
Dünya belə dünyadı.
Hey başına vur ağla,
Bəxtə şivən qur ağla,
Gecə, gündüz dur ağla,
Dünya belə dünyadı.
Dünya belə dünyadı.

14.Xl.1999.

KİMDİ?

Dünya, sənin mənliyini
Alan kimdi, satan kimdi?
Ələmini, şənliyini
Salan kimdi, batan kimdi?

Acıların sonu hanı?
Haçan gələr haqq divanı?
Dəyişəndə can ünvanı
Dolan kimdi, yatan kimdi?

Kor bəxtinə yandım mən də,
Ömrüm keçdi çiskin, çəndə,
Tanrı sərvət, var böləndə
Qalan kimdi, çatan kimdi?

Bəşər divdi can şüşədə,
Gah ələmdə, gah nəşədə,
Əzrayılla bir peşədə
Balan kimdi, satan kimdi?

Dünya, biçdin güllərini,
Alıb qaçdın illərini,
Dərd əlindən tellərini
Yolan kimdi, tutan kimdi?

Dünya, bəşər bir əjdaha,
Məhəl qoymaz dərdə, aha,

Qan salıb hər gün sabaha
Talan kimdi, qatan kimdi?

Yaralar var ürəyində,
Halallıq yox çörəyində,
O dərd yükü kürəyində...
Palan kimdi, çatan kimdi?

1.01.2000 /Pirallahı/

ƏLİNDƏ

Bu dünyanın qara başı
Qalıb zalım, zor əlində.
İblisi çox, özü naşı,
Hər xainin tor əlində.

Nehrə təki hey çalxandı,
Həm qılınc, həm də qalxandı,
Qəzəblə şahə qalxandı,
Qəlb odlayan qor əlində.

Dərdinə dərman buladı,
Üstündə çaqqal uladı,
Yaltağı quyruq buladı,
Dünya qalıb kor əlində.

14.01.2001.

ROMA PAPASI

Roma Papası ll İohan Pavelə
/Yojef Voytıla/

Ey Roma Papası, müqəddəs ata,
Səndə ilahi bir eşq var hə
yata.
O xəstə görkəmin necə də üzgün,
Ötüşür ömründə saatlar gərgin.
Ağrılı başınla ayaq üstəsən,
Bütün vücudunla necə xəstəsən.
Fəqət, dolaşırsan bu gen dünyanı,
Salmırsan yatağa ağrılı canı.
Halın yox deməyə bir quruca söz,
O könül ocağın kül içində köz.
Dininə bağlısan bütün canınla,
Bəllisən cahanda o ünvanınla.
Xəstə bədənində ayaqlar tutmur,
Titrəyən əllərin qələmə yatmır.
Ölkədən ölkəyə qonaq gedirsən,
Dünyanın özünü heyran edirsən.
Canında can varkən başçısan hələ,
Qitələr adlarsan belədən-belə,
Ey öz inamıyla Rəbbinə yaxın,
Sinəndə diləklər hey axın-axın.
Gecə də, gündüz də dilin duada,
O Vatikan adlı qədim yuvada.
Tanrı sevdasıyla aşıb-daşırsan,
Müqəddəs Məryəmə sidqlə coşursan.
Mənəvi cəsarət, o həyat eşqi,

Dininə sevdalıq bu büsat eşqi,
Xəstə vücudunla yaşamaq məşqi
Fiziki zəiflik önündə şahdı,
Sənə güc verən də yəqin Allahdı!
Bəzən əl-ayaqlı xəstə adamlar,
Kiçik ağrılarla özünü damlar.
İllərlə yatağa düşüb qalxmazlar,
Ölərlər... həyata eşqlə baxmazlar.
Köksündə nə böyük dəyanət gəzir?
Bütün ağrıları əzabla əzir.
Görkəmin ruh verir hər duyan qəlbə,
Coşur misralarım sığışmır qəlbə.

Ey Roma Papası, müqəddəs ata,
Qoyma iblis haqqı odlara ata...
Dünən qonaq gəldin Azərbaycana,
Gəlişin bir səda saldı hər yana.
Bakıda o hava limanı gərgin,
Səni qarşılayan zamanı gərgin.
Bu gün bir möTtəbər saray içində,
Lap titrəyən dilin haray içində.
O uca kürsüdən çıxış edirsən,
Uzaq əsirlərə coşub gedirsən.
Albanya tarixin çözələyirsən,
Köhnə yaramızı təzələyirsən,
Deyirsən burada Albanya vardı,
O vaxt xaç inamı bu yurda yardı.
Qədim dövürləri soraqlar tarix,
Alban əlifbasın varaqlar tarix.

O daş kəlisalar dünənimizdi,
Miladın ilkinə enənimizdi.
Mərd çar Cavanşirin harayı orda,
Qədim Albanyanın sarayı orda.
Sonra islam olub xalqın sabahı,
Quranda arayıb bu yurd Allahı.

Ey Roma Papası, müqəddəs ata,
Demək baş vurursan ən dərin qata.
Sən bizim keçmişi yaxşı bilirsən,
Tarixin çaş görən gözün dəlirsən.
Tuş oldu bu torpaq şər gərdişinə,
Vəhşi ermənilər vurdu dişinə: -
Bizim Məhəmmədə /s/ inamımızı!
Özününki etdi hər damımızı...
Atdı fəlakətə hey hamımızı!
Söndürdü tarixdə yurd şamımızı.
Qanbir qardaşımız, əfsus o zaman,
İsaya inamı qorudu yaman.
Dinbir ermәniyə çevirdi üzün,
Erməni eylədi sonralar özün.
İtirdi kimliyin doğma dilini,
Satqın dindaşının tutdu əlini...
Erməni Qafqazda artırdı sayın,
Sonra bu millətin hey qurdu vayın.
Uddu kilsələri xaç məzarları,
Udduqca artırdı ahı-zarları.
Əslində erməni Qafqazda gəlmə,
Buna tarix özü vurubdu ilmə!

Artdı, Azərbaycan dedi mənimdi,
Siz yurdsuz, bu ölkə öz vətənimdi.
Harda xaç gördüsə ordan yapışdı,
Biz susduq, o isə həddini aşdı.
Qanbir ermənidən olmayanları,
Erməni adıyla qalmayanları,
Əfsus ki, erməni oyuncaq edib,
Öz tarix yolunda şər ocaq edib.
Əslinə kökünə xor baxmışları, -
Tutacaq fələyin qanqarğışları!
O xərabə sevən şər bayquşları...

Ey Roma Papası, müqəddəs ata,
Əgər nəzər salsan mənəviyyata,
Alban abidəli xaç məbədləri,
Axtar kimliyini, aç məbədləri.
Aça bilərsənmi? Əsirdi onlar,
Tökülüb içinə, çölünə qanlar.
Qərbi Azərbaycan, gözəl Qarabağ,
Yurdlar oğurlanmış, sinələr dağ-dağ!
Bizə ar gəldi ki, keçmişə varaq,
Düşmənin hiyləgər köksünü yaraq.
Verdik ermәniyə tariximizi,
Onunçın İlahi yandırır bizi!
İtdi Albanyanın əlifbası da,
Vətəni bürüdü şər libası da!
Artdı ermәninin boş xülyası da,
Quruldu ölkənin onda yası da.
Hər daş yazısını qorusaydıq biz,

Fəryada batmazdı indi qəlbimiz.
İslamı elmlə duysaydıq əgər,
Kilsə ermənin olardı məgər?
Allahı mövhumat odunda yaxdıq.
Ah, öz-özümüzə düşməntək baxdıq.
Çalışdıq qaçmağa keçmişimizdən,
Tanrı da usandı bu işimizdən.
İndi xaç qardaşın bizə xaindir,
Tarixdə hər qarış izə xaindir.
Hey dönük olduqca torpağımıza,
Vallah, ləkə düşdü papağımıza!
Qisas almalıykən azğın yağıdan,
Qurtula bilmədik qəmdən, ağıdan.
İnamım islamsa, vətənim bu yurd,
Qoruya bilməsək basacaqdır qurd!

Yurdumun insanı, düşün bircə an,
Axı, səninkidir bu Azərbaycan!
Qoymayaq bu gözəl məmləkət bata,
Vətən - möhür, imza gözəl həyata.
Saxlaya bilməsək atacaq bizi,
Min illik ölüyə qatacaq bizi!...

Ey Roma Papası, müqəddəs ata,
Qoyma o erməni köksündə yata.
Çəkdin həqiqətin qılıncın qına,
Qol qoydun erməni soyqırımına.
Türkə vəhşi təki baxırsan nədən?
O xaç qardaşındı vəhşilik edən.

Bax odur dağıdan cəlalımızı,
Artıran anban məlalımızı.
Tanrı birliyinə inamın varsa,
İlahi sevdası könlünə yarsa,
İslama kəc baxma Allah eşqinə,
Dünyanı nur edən sabah eşqinə.
Azğın qəsbkarla qurma ittifaq,
Cahanı dağıdar hər böylə nifaq!...
Məndə bir sevgi var bütün dinlərə,
Rəbbi yad eləyən o ayinlərə.
Allahın kəlamı eşqlə öyülür,
Quranda ayədə belə deyilir: -
“Müxtəlif dinləri yaratdım ki, Mən,
Bəşərin könlünə eşq qatdım ki, Mən,
Onlar bir-biriylə girsin yarışa,
Xeyirxah əməllər hey aşıb-daşa.
Düşmən olmasınlar biri-birinə,
Səcdə eyləsinlər haqqın sirrinə.
Şah təki baxmasın din-dinə heç vaxt,
Allahdı ucada, Allahındı TAXT!
Ey Roma Papası, Müqəddəs ata,
Qoyma ki, inamın iblisi tuta,
Bəşər varlığıyçın söyləyək, Amin!
Dünyanı gülüstan eyləyək, Amin!

23-24.05.2002.

VƏTƏN SƏNDƏN
NƏ QALDI

VƏTƏN FƏRYADI

Ey Vətən yolunda canı verənlər,
Müqəddəs torpağa ərlər, ərənlər,
Ey qana şahidlər, qanı görənlər,
Qanlı köynəyini yurda sərənlər...
Siz şəhid, biz isə günahkar olduq,
Yurdlar haray çəkdi, niyə kar olduq?

Qarabağ sızlayır aman içində,
Yanır ellərimiz yaman içində,
Oxumuz paslanıb kaman içində,
Fırlanır bu dünya zaman içində,
Məğlubtək tarixdə qaldı adımız,
Boğuldu sinədə ah-fəryadımız.

Yağı işğalını dərd sayırıq biz,
Özünü cahanda mərd sayırıq biz,
O qanlı düşməni səd sayırıq biz,
Hər dərdin əlacın bəd sayırıq biz,
Namus savaşına pul, dayı olmaz,
Heç cəngsiz yağının ah-vayı olmaz.

Vuruşmaq kişiyə iftixar, hünər,
Qılıncla, qalxanla yatar, durar ər,
Dünya nərd taxtası bəşər isə zər,
Tökməsən döyüşdə əgər qanlı tər,
Torpaq da, namus da, şərəf də batar,
Vətənin əbədi taleyi yatar.

Bir yurdu min yerə bölməkmi olar?
Bu qanı torpaqdan silməkmi olar?
Bu acı dərdlərə gülməkmi olar?
Bu qəmlə şahanə ölməkmi olar?
Bəsdir ermənin nazını öydük,
Yurdun qılıncın yox, sazını öydük.

Hey bəxşiş verdikcə torpağımızı,
Artırdıq sinədə qəm dağımızı,
Ərköyün bəslədik biz yağımızı...
Yadlardan axtardıq dayağımızı,
Ya xofu ürəkdən qoparmalıyıq,
Ya dərdi məzara aparmalıyıq.

Bəsdir Cavanşirdən, Babəkdən dedik,
Bəsdir Koroğludan, Beyrəkdən dedik,
Bəsdir puldan, vardan, diləkdən dedik,
Bəsdir bu ağrını ürəkdən dedik,
Biz savaş etməli vuruşmalıyıq!
Ya ölüb torpağa qarışmalıyıq!

Niyə yad ellərdə canı girlərik?
Niyə bir-birinə söz diyirlərik?
Niyə bu qan ilə ölüb çərlərik?
Niyə içimizdə elə kürlərik?
Yumalı qan ilə namusumuzu,
Özümüz qurmalı ya yasımızı!

Bu vətən vallahi hamımızındı,
Ən ali diləktək kamımızındı,
Bacası ucalan damımızındı,
Şirini, şərbəti canımızındı,
Qoparma
q olarmı kök-soyu ondan?
Çıxara bilmərik biz onu candan!

Yarımız acından pul dilənirik,
Yarımız qürbətdə hey tellənirik,
Yarımız zər geyib veyillənirik,
Düşüb ayaqlara çox bellənirik,
Nə vaxt millət olub çağlayacağıq?
İblisin qapısın bağlayacağıq?

Şuşada gülümüz, çiçəyimiz qan,
Xarıbülbül təki ürəyimiz qan,
Dam altda əyilən dirəyimiz qan,
Nə vaxta saxlanır bu gedəri can?!
Biz cılızlaşdıqca vətən kiçilir,
Torpaq paralanır, torpaq biçilir.

Dünyada qeyrətə edilir hörmət,
Şərəflə tanınır hər yerdə millət,
Acizə, qorxağa, cahilə illət,
Könlümüz olduqca əllərdə alət,
Dilənçi yardımı yedi kişilər,
Özünə qaçqınam dedi kişilər.

Oğullar bəslənir bəh-bəhə ilə,
Oxşanır boyları pəh-pəhə ilə,
Dilləri ötüşür cəh-cəhə ilə,
Düşmən gülür bizə qəh-qəhə ilə,
Sönmüş ocaqların külü sovrulur,
Vətən haray çəkir, vətən qovrulur.

Yerdə qalmamalı bu tökülən qan,
Yara qaysaqlanır ötüşdükcə an,
Millət bir-birinə can deməli, can!
İqtidar, müxalif bir Azərbaycan,
Əsir yurd-yuvaya etməsək çarə,
Sonra lap dərinə işləyər yarə.

Bu dağ hamımızın sinə dağıdır,
Yağı hamımıza elə yağıdır,
Gəl, vətən insanı, qeyrət çağıdır!
Əldə Məmməd Əmin-hür bayrağıdır,
Parlasa Günəştək istiqlalımız,
Bəxtiyar olacaq istiqbalımız.

Şadiman, vətənin canda yuvası,

Dərdinə dərmandır onun havası,
Tükənməz dodaqdan haqqa duası,
Bu torpaq dəryada Tanrı qəvvası,
Odur Yer üzündə xoş cəlalımız,
Onunla çağlayır çün vüsalımız!...

24.Xll.2001

NƏ ADDIR?

Öz dilində danışmağı ar bilən, ey gədələr,
Hissinizi, ağlınızı qiymə-qiymə edələr,
O daşlaşmış qəlbinizdən daş xülyalar gedələr,
Bu azəri dilindədir, hər cür tərəqqimizdə,
Həm Allahın, həm bəndənin yanında həqqimizdə?

Mən demirəm başqa dili öyrənmək günah olar,
Çox bilənin qarşısında işıqlı sabah olar,
Öz dilini bilməyənin gec-tez günü ah olar,
Bu azəri ləhcəsində hər incə mətləbimiz,
Bu dilin qüruru ilə döyünməli qəlbimiz.

Rus dili gedib indi ingilis dəbə düşüb,
Çox ürəklər əsir olub, çox canlar təbə düşüb,
Yenə xəstə beyinlərin çarəsi həbə düşüb,
Başqa dildə danışmaqda birinci yer tutmuşuq,
Dilimizin şirinliyin tamamən unutmuşuq.

Öz dilindən qaçanların milli ləyaqəti yox,
Bu millətin ürəyində bir quru hörməti yox,

Ana dili adlı böyük, müqəddəs xilqəti yox,
Öz dilini bilmirsənsə ruhun vətənə yaddı!
Səndən qalan bu torpağa özün söylə nə addır?!

21.01.2000.

AY ŞUŞA

Yolunu bağlayan düşmənlərə ölüm!
Gözlərim qan ağlar, qəlbim dilim-dilim,
Ayrılıq dünyada nə dəhşətli zülüm?
Yolların qurtula dumandan, ay Şuşa...
Alasan qisası zamandan, ay Şuşa!

Biz səni yağıdan qoruya bilmədik,
Yaralı köksünü sarıya bilmədik,
Cəlladın kim oldu, araya bilmədik?
Bəbəkdə yaşların göl oldu, ay Şuşa,
Büsbütün Qarabağ dil oldu, ay Şuşa!

Ürəklər partlayır həsrətin qəmindən,
Yanır bağırımız, vallah ələmindən,
Əsir Qarabağın naləli dəmindən...
Dərd qalxır ocaqdan, binədən, ay Şuşa.
Başımız qalxmayır sinədən, ay Şuşa!

Xan qızı Natəvan, didərgin ruhuna,
Sinəmiz tuş olub o qanlı ahına!
Çevrilib vətənin pak qibləgahına,
O əsir divarın, dam-daşın, ay Şuşa,

Öndədir yağıyla savaşın, ay Şuşa!

Heç səni sinədən qoparmaq olarmı?
Bu dərdi məzara aparmaq olarmı?
Heç bədən də candan de ayrı qalarmı?
Könlümün göynəyən yarası, ay Şuşa.
Vətənin köksünün parası, ay Şuşa!

Əsir Qarabağı yağıdan alarıq,
Qolumuzu bükük boynuna salarıq,
Çox çəkməz düşmənə qələbə çalarıq...
Küləyə dönərik qəminlə ay, Şuşa,
Qol-boyun olarıq dəminlə, ay Şuşa!

Üzeyrin, Cabbarın, Bülbülün ocağı,
Vətənin ən gözəl, ən laçın qucağı,
Qan ağlar, ah sənsiz yurdun hər bucağı,
Suyumuz, ən təmiz havamız, ay Şuşa!
Kəbəmiz, qibləmiz, duamız, ay Şuşa!

Bağında, bağçanda solubdu güllərin,
Susubdu dinməyir xarı bülbüllərin,
Nə qanlı, bəlalı gəldi bu illərin?
Dözmək olarmı heç zillətə ay Şuşa?
Bu dərd bir fəlakət millətə, ay Şuşa!

Şadiman alışar, yanar bu niskildən,
Bülbülü ayırmaq olarmı heç güldən?
Vallah, düşməyir o adın heç dildən,

Ağlayan gözümün yaşı, ay Şuşa!...
Alışan köksümün başı, ay Şuşa!!!
15-16/01.1999

SƏNDƏN NƏ QALDI?

Vurdular ürəyindən,
Çapıldın dirəyindən,
Soruş bir fələyindən,
Nəyi əlindən aldı?
Vətən, səndən nə qaldı?

Diləklərin ovuldu,
Əhdin göyə sovuldu,
Elin yurddan qovuldu,
Bu necə ağlar haldı?
Vətən, səndən nə qaldı?

Sinəndə hicran dağın,
Paramparça torpağın,
Çəkilib getmir yağın...
Düşmən bağrından çaldı,
Vətən, səndən nə qaldı?

Xəcil oldu millətin,
Haqq götürməz illətin,
Necə oldu hörmətin?
Bu nə qeylü-qaldı?
Vətən, səndən nə qaldı?

Zorun yükü belində,
Söz boğuldu dilində,
Haqqın yadlar əlində,
Qürurumuz alçaldı
Vətən, səndən nə qaldı?

Sinəndə yurd sərhəddi,
Qarabağ da Dərbənddi,
Necə feldi, fənddi,
Haqqınla haqq ucaldı,
Vətən, səndən nə qaldı?

El deyərək ağlaşdıq
Dərdimizlə bağlaşdıq,
Sanki bir parça daşdıq,
Dərdin sinədə xaldı,
Vətən, səndən nə qaldı?

Qəm ovar könlün için,
Yanarsan için-için,
Qəmlərində ki, çin-çin,
Əcabə, bilməm neçin?
Millət xəyala daldı!...
Vətən, səndən nə qaldı?

6.08.2001.

VƏTƏN GÜLSÜN

Vətən elə gölə bənzər,
Suyun arxa çevirərlər.
Əskik olmaz heç bədnəzər,
Altın üstə devirərlər.

Bu gölə sel axsın gərək,
Tükənməsin heç sərvəti.
Odu ürək yaxsın gərək,
Qanda olsun el qeyrəti.

Vətən candan əziz olar,
Canın sevən ona qıymaz.
Varın tutsan dəniz olar,
Vətəndən bir kiimsə doymaz.

Onu qəlbdə bəsləyərlər,
Torpağına qan verərlər.
Qürbətlərdən səsləyərlər,

Onun üçün can verərlər.

Onu sevən qəlb yaz olar,
Torpağı son məzar bizə.
Sevməyəni dayaz olar,
Kimliyi də azar bizə.

Vallah yurdu can bilərlər,
Ondan ayrı könül durmaz.

Hər qarışın qan bilərlər,
Sevən ürək onsuz vurmaz.

Vətənə yad baxan cahil,
Yağıdan da betər olar.
Şölə saçsa əgər daxil
Məmləkətə yetər olar.

Vətən təndə şirin candı,
Canı təndə qoruyarlar.
Ən müqəddəs pak ünvandı,
Pak ünvanı soruyarlar.

Ey Şadiman, harda olsan
Yurd-yuvanı candan istə...
Torpağına düşüb solsan...
Vətən gülsün bağrın üstə!...

27.XI.2001.

ƏCƏB YAXŞI MƏKANDI

/Sabiranə/

Bakının tini, yolu,
Şadlıq eviylə dolu.
Bazardı sağı, solu,
Necə gözəl imkandı?
Əcəb yaxşı məkandı.

Fabrik, zavodu hanı?
Fəhlə olaq biz yanı?
Neftdir bədəndə canı,
Addımımız dükandı,
Əcəb yaxşı məkandı.

Bekar olmaq səadət,
İşi neynir bu millət?
İşləmək özü zillət,
İşsizlik də sükandı,
Əcəb yaxşı məkandı.

Hamı nə isə satır,
Özünü oda atır,
Bir çoxu evdə yatır,
Deyirlər millət batır,
Əsas ədəb, ərkandı,
Əcəb yaxşı məkandı.

Yollarda qız, gəlinlər,
Polis önündə inlər,
İsti-soyuqlu günlər,
Ürəyində düyünlər,
Dilində çörək andı,
Əcəb yaxşı məkandı.

Kişidə olsun ürək,
Fəhlə olmaqçın zirək,
Evini satsın gərək.

Bu da zamandı, andı,
Əcəb yaxşı məkandı.

İş yeri tapa bilsə,
Tale üzünə gülsə,
Bəxti qara deyilsə,
Rüşvət alan nə candı?
Əcəb yaxşı məkandı.

Hamı Bakıya qaçır,
Restoran, dükan açır,
Çayxanalar gül açır...
Dildə Qarabağ andı,
Əcəb yaxşı məkandı.

Pullular gizlənirlər,
Elə əzizlənirlər,
Pulsuzlar dizlənirlər,
Hər yerdə bizlənirlər,
Kasıbsan atan yandı,
Əcəb yaxşı məkandı.

Qurban olaq dollara,
Qərbə gedən yollara,
Qüvvət gəlsin qollara,
Hər kəs evin tikəndi,
Əcəb yaxşı məkandı.

Salmarıq canı vaya,

Səpilmişik dünyaya,
Gəlmərik, vətən, haya,
Bu da bir addı, sandı,
Əcəb yaxşı məkandı.

Min bir sektə dolullar,
Lap xaçpərəst olullar,
Boyna xaç da salıllar,
Pul-para da alıllar,
Dünyada şirin candı,
Əcəb yaxşı məkandı.

Dində bablıq edillər,
Tüllablıq edillər,
Lap yabılıq edillər,
Pis yola da gedillər,
Bədnəzərə tikandı,
Əcəb yaxşı məkandı.

Qoruyaq canımızı,
Damarda qanımızı,
Ucaldaq sanımızı,
Azərbaycanımızı,
Bu millətə təkandı,
Əcəb yaxşı məkandı.

1.XI.2001.

ELÇİBƏY

Vətən aşiqi Əbülfəz Elçibəyə

Candan artıq sevdin yurdu, vətəni,
Kama çatdın istiqlala yetəni,
Fələk nə tez ruhsuz qoydu o təni?
Həyatını haqqa verdin, Elçibəy,
Bu torpağa sən ki, ərdin, Elçibəy.

Ürəyində vətən eşqi gurladı,
Ocaq oldu, atəş oldu qorladı,
Millət necə unudar o pak adı?
Sən ki, vətən daşı idin, Elçibəy.
Ürəyinin başı idin, Elçibəy.

Kim görmədi fələk tarpatapını?
Vaxtsız ölüm nə tez döydü qapını?
Qırdı qəfil ömrün tale sapını!...
Bu getməyin zülüm oldu, Elçibəy.
Bu nə müdhiş ölüm oldu, Elçibəy.

İmperyaya hamı boyun əyəndə,
Köləliyin önündə qədd əyəndə,
Bu əzablar ürəyinə dəyəndə,
Yandı köksün için-için, Elçibəy,
Fələk qırdı ömrü neçin, Elçibəy?

Bu yurdunu Kəbə bildin qəlbinə,
Yurd dananın vüqarı nə, qəlbi nə?
Zülüm basıb haqqı çoxdan qəlbinə,
İşğal altda qaldı vətən, Elçibəy,

Bu dərdlərdən əridi tən, Elçibəy.

Bulaq təki təmiz idi ürəyin,
Həm istiqlal, həm ədalət dirəyin,
Halallıqla yuğrulmuşdu çörəyin,
Ey vətənin qadir oğlu Elçibəy,
Bu torpağın nadir oğlu Elçibəy.

Elə tənə edib səni əydilər,
Haqsız yerə ürəyinə dəydilər,
Kim çarpışdı, kimlər özün öydülər?
Haqqa canı fəda etdi Elçibəy,
O dünyada haqqa yetdi Elçibəy.

Söz götürdün yolun üstə ötəndən,
Ürəyində dərdə dönüb bitəndən,
Sən nigaran getdin yurddan, vətəndən,
İndi ruhun özün üzər, Elçibəy,
Başımızın üstə gəzər, Elçibəy.

Məzarını Azərbaycan qucaqlar,
Bu ölümə için-için hey ağlar,
Çəkdi fələk dağ üstünə hey dağlar...!
Tarix oldu adın, sanın, Elçibəy,
Qəlbimizlə vurar canın, Elçibəy.

Bayrağımız Məmmədəmin amacı,
Himinimiz istiqlalın baş tacı,
Onları da sənsiz görmək çox acı,

Təki vətən ölməz olsun, Elçibəy,
Məzar evin nurla dolsun, Elçibəy,
Məzar evin nurla dolsun, Elçibəy.

24.08./9.09.2000.

VƏTƏN, ELİNƏ QURBAN

Ulduzların gecələr yandırarlar, yaxarlar,
Şimşəklərin çaxnaşıb göy içindən çaxarlar,
Buludların gözlərin uşaq kimi sıxarlar,
Sellərin şaqqa-şaraq dağdan, düzdən axarlar,
Coşqun selinə qurban,
Vətən, elinə qurban.

Çəmənlərdə göy otlar al yaşıla bürünər,
Ala-bəzək ilanlar köl dibində sürünər,
Uzaqlarda al Günəş asimandan görünər,
Adam bu gözəlliyi tərk etməkdən ərinər,
O gen çölünə qurban,
Vətən, elinə qurban.

Dağım, düzüm, çəmənim, sanki atlas geyinər,
Təbiətin ürəyi bu torpaqla döyünər,
Qafqazın məğrur başı tarixinlə öyünər,
O ulu keçmişinə qəvi düşmən deyinər,
O ağ telinə qurban,
Vətən, elinə qurban.

Sən ki, doqquz iqlimin məkanısan həmişə,

Üzməsin ürəyini nə kədər, nə əndişə,
Varın, sərvətin bol-bol düşübdü dilə, dişə,
Dünyanın tacı, taxtı, İlahi sevən guşə,
Könül telinə qurban,
Vətən elinə qurban.
Anam beşik başında mənə layla çalardı,
Ürəyimin içinə elə bil od salardı,
Buludlanmış könlümü bayatıyla alardı,
Hopub qanıma misra idrakımda qalardı,
Şirin dilinə qurban,
Vətən, elinə qurban.

Ulu Tanrım de səni hansı anda xəlq etdi,
Könlümüzün içində ya ki, canda xəlq etdi,
Odu, suyu tükənməz bu ünvanda xəlq etdi...
Küləklərin üzünü şeh yuvanda xəlq etdi.
Əsən yelinə qurban,
Vətən, elinə qurban.

Məni əsir edibdi o məcnun məhəbbətin,
Xoş məqamına düşdün yəqin ki, o xilqətin,
Bu həyatın yolları nə qədər olsa çətin,
Əyilmə, qalx ayağa ol döyüşkən, ol mətin,
Dünyanı silkələsin sənin o qətiyyətin!
Qalib ilinə qurban.
Vətən, elinə qurban.

İlahi xəmirimi torpağından yuğurdu,
Ruhumu oda büküb bətinindən doğurdu,

Bu Tanrının hikməti, yolum üstə uğurdu,
Röyamda gördüm əlin düşmənimi boğurdu...
Sınmaz əlinə qurban,
Vətən, elinə qurban.

Yel qovar dumanları dağlara axışarlar,
Əlçim-əlçim buludlar bir yerə yığışarlar,
Çiçəklərin otların dibindən qalxışarlar,
Bir-birinin üzünə sevdayla baxışarlar,
Əsmər gülünə qurban,
Vətən, elinə qurban.

Ovçu dağda, meşədə ov gəzər, ov ovlayar,
Gah kəkliyi, turacı, gah fərəni qovlayar,
Tumarlayıb itini bir doyunca tovlayar,
Od vurub çır-çıpıya ocağı alovlayar,
Qalmış külünə qurban.
Vətən, elinə qurban.

Qış gəldi çeşmələrin gözü donar, buzlayar,
Şaxta qılınctək kəsər, göylərin ulduzlayar,
Təbiət yeri, göyü hey ağappaq duzlayar,
Dalar sükuta könül elə hey yalqızlayar...
O ağ tülünə qurban.
Vətən, elinə qurban.

Şadiman məzar qazar qəminə, məlalına,
Yanar candan, sinədən ürək didən halına,
Zaman-zaman göz dikib azğın düşmən malına,

Sözüm bitib-tükənməz ilahi cəmalına,
Bükmə belinə qurban,
Vətən, elinə qurban.

4.03.2001.

DÖZƏ BİLMİRƏM

Gözündə yaşların göyərdi dən-dən,
Qaldı dağlarında həm duman, həm çən,
Ah, kaş səndən ayrı olmayaydım mən,
Niyə o yerlərdə gəzə bilmirəm,
Vətən, bu dərdinə dözə bilmirəm.

Coşsun içimizdə qeyrət havası,
Bitsin dilimizdə haqqın duası,
Quraq yağılara bir ölüm yası,
Həsrətin ürəyin üzə bilmirəm,
Vətən, bu dərdinə dözə bilmirəm.

İlahi almadı qəlbdən acımı,
Saldı ayaqlara büsat tacımı,
Düşmən əsir etdi ana, bacımı,
O namərd başını üzə bilmirəm,
Vətən, bu dərdinə dözə bilmirəm.

Hiyləsi yamanmış o düşmənlərin,
Cəzası böyükdür əhrimənlərin,
Bağlayaq qapısın acı mənlərin,

Bu dünya qəm dolu kuzə bilmirəm,
Vətən, bu dərdinə dözə bilmirəm.

Əsir məzarlarda ruhlar gileyli,
O məcnun sevdadan aralı Leyli,
Düşüb yağıların yurduma meyli,
Enmişəm dərəyə, düzə bilmirəm.
Vətən, bu dərdinə dözə bilmirəm.

Dağılmış yurdlarda ağlar ocaqlar,
Qan libası geyib künclər, bucaqlar,
Qan ilə boşaldı doldu qucaqlar...
Zülümün yuvasın əzə bilmirəm.
Vətən, bu dərdinə dözə bilmirəm.

Araya bilmədik düşməni dostdan,
Qaldı yağılara gülzar, gülüstan,
Xırmanlar, otlaqlar, bağ-bağça, bostan...
Hardan unutqanlıq bizə, bilmirəm,
Vətən, bu dərdinə dözə bilmirəm.

Hey Cəngi üstündə köklənsin başlar,
Qurusun gözləri batıran yaşlar,
Göydən yağışlar yox, qoy yağsın daşlar!
Xainin şahmardır, gürzə bilmirəm?
Vətən, bu dərdinə dözə bilmirəm.

Biz ölüb gedərik, necə ad qalar?
Ya kişilik, mərdlik, ya fəryad qalar,

Birləşə bilməsək elə yad qalar,
Silaha inanım, sözə bilmirəm?
Vətən, bu dərdinə dözə bilmirəm.

Bizim haqqımıza kor olub dünya,
Ya başdan, binadan kar olub dünya,
Yağılar əlində xar olub dünya,
Bu qəmi misraya düzə bilmirəm,
Vətən, bu dərdinə dözə bilmirəm.

Sən uca minarə, mən könlü yarə,
Yağı dağlar çəkib üstdən dübarə,
Açdığın gülləri saxla nübarə,
Əsir çəmənləri süzə bilmirəm,
Vətən, bu dərdinə dözə bilmirəm.

Sənə qurban deyib Şadiman canın,
Sussuz çəməninə tök axan qanın,
Sahibi olmayıb qansız dövranın,
Dünya qılınc, qalxan, nizə bilmirəm,
Vətən, bu dərdinə dözə bilmirəm.
03.04.2001.

QÜRBƏT ACILARI

Qürbətlər vətən deyil,
Ürəkdə bitən deyil,

Halına yetən deyil,
Əlin əlinə çatmaz,
Dilin dilinə yatmaz.

Qürbətdə yanar için,
Yaş gözü boğar çin-çin,
Allah, yad eldə neçin?
Vətən hey şirinləşər,
Sevgisi dərinləşər.

Qürbətdə elin olmaz,
Dopdoğma dilin olmaz,
Həsrətsiz ilin olmaz,
Sözünü göyərdərlər,
Səni qərib edərlər.

Qürbətlər necə acı?
Olmaz başının tacı,
Eldi könül əlacı,
Odur bəsləyən canı,
Ona bənzər tay hanı?

Qürbətdən vətən olmaz,
Ocağına tən olmaz,
Sinə, bağır, tən olmaz,
Sındıram ədasını,
Hey alam qadasını.

Qürbətlər dili boğar,

Dilin yad sözü doğar,
Könlünə çiskin yağar,
Ararsan öz elini,
Axtararsan dilini.

Qürbətdə can alışmaz,
Ürək başla barışmaz,
Odun oda qarışmaz,
Dərd bükdürər belini,
Qəm ağardar telini.

Qürbətdə sözün ağlar,
Xəlbətdə gözün ağlar,
Ocağın, közün ağlar,
Göylər təki dolarsan,
Ürəyindən olarsan.

Yad el ocağın olmaz,
Doğma bucağın olmaz,
Kədərsiz çağın olmaz,
Hönkürərsən buludtək,
Sızlayarsan bir udtək.

Qürbət adı ağırdı,
Yanan sinə, bağırdı,
Dərddən ürək bağırdı
Saralan yarpaq təki,
Əzilən torpaq təki.

Qürbətlər vətən deyil,
Dilində ötən deyil,
Yurd eşqi itən deyil,
Hamımızın tək canı -
Sevək Azərbaycanı!
30.03.2001.

TAPDALANIB

Qalib ilə danışmayaq,
Canbir olub qarışmayaq,
Bu dərd ilə barışmayaq,
Haqqımızla yarışmayaq,
Diləyimiz tapdalanıb,
Çörəyimiz tapdalanıb,
Ürəyimiz tapdalanıb.

Ey vətənin oğlu, qızı,
Cəngi çalsın elin sazı,
Çox çəkəcək yağı nazı,
Pozulmalı qanla yazı!
Millətimiz tapdalanıb,
Qeyrətimiz tapdalanıb,
Hörmətimiz tapdalanıb.

Baxın əsir qız, gəlinə,

Yetmədik ki, heç dilinə?
Qan ələnib hər telinə,
Qandal düşüb ağ əlinə.
Vicdanımız tapdalanıb,
Ünvanımız tapdalanıb,
Bu canımız tapdalanıb.

Məğlubuqsa yaşamaq nə?
Bəs bu adı daşımaq nə?
Bu yaranı qaşımaq nə?
Yaşınmaq nə, de yaşmaq nə?
Əyalımız tapdalanıb,
Həyalımız tapdalanıb,
Cəlalımız tapdalanıb.

Atılmalı savaşlara,
Son qoymalı göz yaşlara,
Tapınmalı haqq başlara,
Sığınmalı sirdaşlara.
Cürətimiz tapdalanıb,
Qüdrətimiz tapdalanıb,
Heyrətimiz tapdalanıb.
İçi iblis bu bəşərin,
Bağlanmalı qolu şərin!
Bilinməli gücü ərin,
Bayrağımız tapdalanıb,
Torpağımız tapdalanıb,
Papağımız tapdalanıb.

Ey Şadiman, sürünmək nə?
Həyamıza bürünmək nə?
Bu ad ilə görünmək nə?
Haqq savaşa ərinmək nə?
Fəryadımız tapdalanıb,
Pak adımız tapdalanıb!...
Övladımız tapdalanıb,
31.01./1.02.2001.

SURAXANI

Tarix yaddaşına tutmasan çıraq,
İtən zamanlardan verirsən soraq,
Keçmişin əlində qızıl, zər varaq,
Atəşgah heyrətdə qoyar baxanı,
Ey odlar beşiyi, ey Suraxanı.

Qoynunda nə gözəl ünvanların var?
Mərdanə, hünərvər insanların var,
Əqli, huşu alan çox canların var,
Vətənin şimşəktək, odtək çaxanı,
Ey odlar beşiyi, ey Suraxanı.

Bir vaxtlar alovlar yanardı burda,
Gah heyrət verərdi, gah şəfəq yurda,
Sönməz şölələrin atəşi harda?
Atəşpərəstlərin oda yaxanı,
Ey odlar beşiyi, ey Suraxanı.

Bura hind elindən karvan gələrdi,
Oddan həyatına aman dilərdi...
Yanıb atəşlərə oddan ölərdi!...
Ey damarlarından atəş axanı,
Ey odlar beşiyi, ey Suraxanı.

Əbədi ocaqlar küllə dolmadı,
Sənin dərgahında kimlər olmadı?
Alışan bədənlər sanki solmadı,
Od etdin alovun üstə çıxanı,
Ey odlar beşiyi, ey Suraxanı.

Dəvə zınqrovu səsin yayardı,
O qərib yolçular haqqa uyardı,
Qürbətdən gələnlər günü sayardı,
Uddun tonqalına özün yıxanı,
Ey odlar beşiyi, ey Suraxanı.

Səndə cəsurların hünəri vardı,
O yanan məşəllər könlünə yardı,
Atəşə sitayiş ruhu qovardı...
Daddın məbədinə odlar taxanı,
Ey odlar beşiyi, ey Suraxanı.

Səndən parıltısın alıbdı Günəş,
Əbədi alovlar ürək etdi qəş,
Ölüm qorxusunu ram etdi atəş,
Əridi əllərin qılınc, qalxanı,

Ey odlar beşiyi, ey Suraxanı.

Söndürməz içində od qeyrətini,
Görənlər gizlətməz öz heyrətini,
Qoruyur tarixin əmanətini,
Əydin dərgahında sultanı, xanı,
Ey odlar beşiyi, ey Suraxanı.

Şadiman sinəndən ötmədi belə,
Edilən dualar itmədi belə,
Düşüb atəşgahın hey dildən-dilə,
Cəmalın cəlb edər hüsnə baxanı,
Ey odlar beşiyi, ey Suraxanı.

14.Xl.2001.

JORJİKLƏR

Özün qoyar dağ başına jorjiklər,
Bir bəladır öz başına jorjiklər.

Öz dilinə divanətək gülürlər,
Dindirəndə çox yuxardan gəlirlər,
Öz dilindən başqa hər dil bilirlər,
Nə ögeydi adətinə jorjiklər,
Necə yaddı millətinə jorjiklər.

Əsli-kökün yaxınına qoymayır,

Nizami kim, Füzuli kim duymayır,
Dahiyanə muğamata uymayır,
Ləkə olub hörmətinə jorjiklər,
Necə yaddı millətinə jorjiklər.

Yad ləhcədə danışmadan ötüşməz,
Şaxta vurmuş sünbül təki yetişməz,
Yurd qəlbində bir yaradır bitişməz,
Nə haraya, nə fəryada yetişməz,
Vurulub öz qamətinə jorjiklər
Necə yaddı millətinə jorjiklər.

Özgə xalqla hər havaya oynayır,
Canbir olub qarışqatək qaynayır,
Qəlbi, qanı yad millətlə qaynayır,
Vallah, billah taleilə oynayır,
Şükürlüdür qismətinə jorjiklər,
Necə yaddı millətinə jorjiklər.

Bilmir, onun bu vətəndə özü nə?
Tarixi nə, alimi, nə, sözü nə?
Öz elinə haram baxan gözü nə?
Bu torpaqda yaşamağa üzü nə?
Ortaq elin sərvətinə jorjiklər,
Necə yaddı millətinə jorjiklər.

Yurdam deyib ürəklərdə bitənin,
Hər ağrına, hər acına yetənin,
Yuxuda da bülbül təki ötənin,

Bu müqəddəs, bu qibləgah vətənin
Fərq qoymayır qiymətinə jorjiklər,
Necə yaddı millətinə jorjiklər.

Kəbə hara, qiblə hara bilməyir,
El yanında dönüb xara bilməyir,
Gətiribdi xalqı zara bilməyir,
Bu yol onu çəkir dara bilməyir,
Vurulubdu xilqətinə jorjiklər,
Necə yaddı millətinə jorjiklər.

Bayatının şirinliyin qanmayır,
Layla ilə, tar, kamanla yanmayır,
Bu vətəndən olduğun da danmayır,
Kimliyini bircə kərə anmayır,
Səbəb olar illətinə jorjiklər,
Necə yaddı millətinə jorjiklər.

Adlarını yad xalqlardan götürür,
Uşağından nəvəsinə ötürür,
Nəsilinin keçmişini bitirir,
Dədəsinin kimliyini itirir,
Yağıdır soy nemətinə jorjiklər,
Necə yaddı millətinə jorjiklər.

Soruşanda azəriyik deyillər,
Azərinin ana dilin əyillər,
Qanı bizdən, dili bizdən deyillər,
Əcnəbinin önündə baş əyillər,

Damğa vurur qeyrətinə jorjiklər,
Necə yaddı millətinə jorjiklər.

Qürbət təki yaşayır öz elində,
Şair, alim, dahi olmaq əlində,
El duyğusu vurmaz ürək telində,
Hey yaradar yad bir xalqın dilində,
Əhsən deyər vüsətinə jorjiklər,
Necə yaddı millətinə jorjiklər.

Xalq içində tanınmayır yad təki,
Batıb qalıb buz içində od təki,
Ağızlardan qopub düşər dad təki,
İçimizdə haray, fəryad, dad təki
Səbəb Tanrı heyrətinə jorjiklər,
Necə yaddı millətinə jorjiklər.

Öz dilindən, öz dinindən dönəndi,
Yad ölkədə ulduz olub sönəndi,
Ağız açıb yad havayla dinəndi,
Zirvələrdən ayaqlara enəndi,
Necə babdı xislətinə jorjiklər,
Necə yaddı millətinə jorjiklər.

Elitayıq deyirlər bu millətə,
Çatdırırıq onun adın şöhrətə,
Biz salırıq özümüzü zillətə,
Ay adamlar, minnətə bax, minnətə,
Salmaz özün heç çətinə jorjiklər,

Necə yaddı millətinə jorjiklər.

Ay camaat, qınamayın siz məni,
Yandırıbdı gördüyünə göz məni,
Alışdırır ürəyimdə köz məni,
Gəldi dilə qoymaz rahət söz məni,
Sığışmaz heç el bətinə jorjiklər,
Necə yaddı millətinə jorjiklər.

15.05.2001.

XATIRLAYANDA

Bir ocaq başında oturdum bir gün,
Mənə ilham verdi kəndin dünyası.
Ocaq çırta-çırtla yandığı zaman,
Sanki nəğmə oldu odun sədası...

Nənələr, babalar, isti sobalar,
Əlçatmaz bir şirin xatirə ol
du.
Musiqiyə döndü ellər, obalar,
Ah, kənd səs-küyüylə qəlbimə doldu!

Bir ocaq başında oturdum bir gün,
Məni əfsunladın, ay kənd həyatı.
Hey yadıma düşdü kənddə toy-düyün,
Bir nəğmə, çal-çağır, həzin bayatı.

Odun harayına qarışdı bir dəm,

Elə bil bu yallı, vağzalı aman.
Bir nəğmə, musiqi qopdu qəlbimdən,
Ocaq çırta-çırtla yandığı zaman.

Alovun hər dili, bir şöTlə oldu,
Könlüm pərvazlanıb uçdu bir anda.
Ocaq od, atəşlə qəlbimə doldu,
Mən kənd həyatını xatırlayanda.
24.1.1978./ Yasamal/.

***

Neft daşları, gözəl, sakit məkanım,
Duyğuların, arzuların beşiyi.
Əllərində mənim tale sükanım,
Çək yaralı ürəyimə keşiyi.
1.07.2000.

CANIM QARABAĞ

Qarabağ, canım Qarabağ,
Dinim, imanım Qarabağ.

Başını yaman qatdılar,
Səni yağıya satdılar,
Zəngəzuramı qatdılar?
Qarabağ, zövqüm Qarabağ,
İlahi şövqüm Qarabağ.

Satdılar dilbər yuvanı,

Unutdularmı ünvanı?
Tanrı eşitməz duanı...
Qarabağ, elim Qarabağ,
Qırılan telim Qarabağ.

Yox yollarının hamarı,
Yurdun şahənşah damarı,
Telinin yoxdu tumarı,
Qarabağ, dərdim Qarabağ,
Yoxmu bir mərdim Qarabağ?

Gözdən axıtma yaşını,
Çatma əzabdan qaşını,
Duzsuz etdilər aşını,
Qarabağ, adım Qarabağ,
Könül fəryadım Qarabağ.

Heç şad olmasın dünyada,
Mənliyini satan gəda,
Yetən olmadı imdada,
Qarabağ, ahım Qarabağ,
Tanrı günahım Qarabağ.

O Cıdır düzün üşüdü,
Bu diş canavar dişidi,
Demə ilahi işidi...
Qarabağ, yazım Qarabağ,
Səsim, avazım Qarabağ.

Ey şəhidimin məzarı
Xarı-bülbülün gülzarı,
Dikəlib ərşə ah-zarı,
Bağının solub el barı,
Qarabağ, yurdum Qarabağ,
De haydı ordum, Qarabağ!

Aç qollarını gələrəm,
Düşməni qana bələrəm,
Gözündən yaşı silərəm,
Dərdindən solub ölərəm!
Qarabağ, yuvam Qarabağ,
Dilimdə duam Qarabağ.

Niyə susub məmləkətin?!..
Hara düşübdü külfətin,
Nədən kəsildi ülfətin?
Hardadı kişi qüdrətin?
Lalmı olubdu millətin?!
Qarabağ, gözüm Qarabağ.
Qalmadı dözüm Qarabağ.

Yurd əlimizdən üzüldü,
Sinənə güllə düzüldü,
Köynəyindən qan süzüldü!
Bu ürəyimiz üzüldü,
Qarabağ, hayım Qarabağ,

Dolu sarayım Qarabağ.

Çeşmənin gözü yatırdı,
Kim taxt-tacına oturdu?
Adını xain batırdı,
Qarabağ, canım Qarabağ,
Azərbaycanım Qarabağ.

25.07.2001.

VƏTƏN OLMAZ

Yurdda isti hər bucağın,
Qərib dada yetən olmaz.
Vətən sənin öz ocağın,
Qürbət eldən vətən olmaz.

Ha səsləsən fəryadına,
Çatan olmaz imdadına,
Yad baxarlar övladına,
Qürbət eldən vətən olmaz.

Ağlayarsan için-için,
Yas tutarsan yuvan üçün,
Ah, İlahi, bilməm neçin?!
Qürbət eldən vətən olmaz.

Yadlaşarsan ana dilə,
Səsin çatmaz doğma elə,

Qabar salar məktub ələ,
Qürbət eldən vətən olmaz.

Dilindəki söz yad olar,
Adətinə göz yad olar,
Sinəndəki köz yad olar,
Qürbət eldən vətən olmaz.

Məsləkindən dönər könül,
Alışmamış sönər könül,
Ayaqlara enər könül,
Qürbət eldən vətən olmaz.

Dindirərlər dilin ağlar,
Qürbətdə hər ilin ağlar,
Göy yuxuya könül bağlar,
Qürbət eldən vətən olmaz.

Su deyilsən calanasan,
Yad irmağda talanasan,
Qərib-qərib bulanasan,
Qürbət eldən vətən olmaz.

Vətənsizə nə səadət?
Gəl eyləmə yada adət,
Yad ocağa nə ibadət?
Qürbət eldən vətən olmaz.

Vətən dilin duasıdı,

Ciyərimin havasıdı,
Millətimin yuvasıdı,
Qürbət eldən vətən olmaz.

Qınamayın Şadimanı,
Vətən onun şirin canı,
Keçməsin heç yurdsuz anı,
Qürbət eldən vətən olmaz.
Qürbət eldən vətən olmaz.

29.06.2001.

BU YURDUN ELİ HANI?...

Dağılıb yurd, yuvası,
Necə canından ası,
Qana susub havası,
Odun, ocağın tanı,
Bu yurdun eli hanı?

Səadəti boğulub,
Qəmi dərddən doğulub,
Eli hara dağılıb?
Sanki çıxacaq canı,
Bu yurdun eli hanı?

Ocağını su basıb,
Dərdi özünü asıb,

Niyə bu Allah susub?
Fəqandır, ahdır anı,
Bu yurdun eli hanı?

Çeşmələri ağlaşır,
Buludlarla bağlaşır,
Bu dərd niyə dağlaşır?
Keçən günü gəl sanı,
Bu yurdun eli hanı?

Gəlməyə sabahları,
Boğub içdə ahları,
Məzarların ruhları,
Gəzir nalan hər yanı,
Bu yurdun eli hanı?

Gələ vətən ərləri,
Boğa dərdi-sərləri,
Elin şiri-nərləri
Uddura yada qanı,
Bu yurdun eli hanı?

6.08.2001. Pirallahı.

BÜTÜN ADALARIN ŞAHI

Pirallahı...
Bütün adaların şahı,

Söylə nə idi səcdə yerinin günahı?
Onu yerlə yeksan etdilər,
Kafirlik zirvəsinə yetdilər.
Sənin inamını öldürdülər,
Özlərini Allaha güldürdülər.

Pirallahı...
Piri yox edilmiş Xəzərin ahı!
Qorxunc Xəzrilər məkanı,
Kim güllələdi zəkanı?
Pirini uçurtdular,
Sinəndən paklığı qaçırtdılar.
O kədərli şamlarına,
Qırmızı damlarına,
Göyün gözündən yaşlar tökülər.
Xəzərin bağrı sökülər.

Pirallahı...
Şehli sübhlə açarkən sabahı,
Pirinin naləsinə ayıldın.
O viran ocağını gördün və bayıldın.
Həmən gün at oynatdı küləklər,
Fəryad etdi fələklər!
Sənə insan səcdə etdi,
Və insan əliylə sonun bitdi.
Nədir bu ziddiyyətin səbəbi?
Niyə coşmadı Tanrının təbi?
Səni dağıdanları batıra,
Və torpaq altda yatıra?

Pirallahı...
Ürəklərin qibləgahı,
Müddətdi ocağının başındayam,
Acılara qul qəlbimlə qarşındayam.
Axtarıram pir ocağını,
O müqəddəs qucağını.
Tanıyanlar yerini tuş verdi.
Dedilər, müqəddəs yerdi.

Baxdım və yandım,
O qəmli halından aha boyandım.
Nə orda pir qalmış,
Nə hansı gürzə sinəndən çalmış,
Bilə bilmədim,
Göz yaşını silə bilmədim.
Piri yox edilmiş Xəzərin ahı,
Pirallahı...
Pirallahı...

4.Xll.1998.

AZƏRBAYCANIMIZDI

Siz ey silah götürüb ön xəttə yollananlar,
İgidliyin ən uca zirvəsində olanlar,
Ey torpağın yaralı boynuna qol salanlar,
Vətən ayrılığından gözü yaşla dolanlar,

Vətən bizim hamımız,
Baş üstündə damımız,
Namus imtahanımız,
Bu həyat ilhamımız.

Qaçmaq kişilik deyib, ey bu yurddan qaçanlar,
Qərib torpaqda, eldə ey yurd, yuva açanlar.
Şərəfini kiçildib yadlara əl açanlar,
Sərvət üstə oturub xəyallarla uçanlar,

Qəriblik vətən deyil,
Dadına yetən deyil,
Ürəkdə bitən deyil,
Öz yurduna tən deyil!

Mənsəb üstə vətəni yağılara satanlar,
Yadların qoltuğunda özünə yer tutanlar,
Elinin qeyrətini ayaqlara atanlar,
Var dərdinə tutulub kölgəsində yatanlar -

Vətən - torpağımızdı,
Başda papağımızdı,
Şanlı bayrağımızdı,
Firavan çağımızdı.

Ey əsir yurdlarının halına yanmayanlar,
Yurd sevgisin bir kərə anlayıb qanmayanlar,
Özünü bu vətəndən ar bilib sanmayanlar,
Çirkin əməllərindən bir an usanmayanlar,

Vətən - millətimizdi,
Namus, qeyrətimizdi,
Üzdə hörmətimizdi,
Tanrı nemətimizdi.

Ey ömründən vətənə ən müqəddəs an verən,
Ocaq üstə, yurd üstə damarından qan verən,
Üzün sürtüb torpağa kişi kimi can verən,
O müqəddəs ömrünü vətənə qurban verən,

Vətən sənin özündü,
O atəşli sözündü,
Haqqı görən gözündü,
O pak, nurlu üzündü!

Ey vətənin dilində danışmağı bilməyən,
Dərdə batanda torpaq göz yaşını silməyən,
Yasında ağı deyib, şadlığında gülməyən,
Yad ellərdə gizlənib kişi kimi ölməyən,

Vətən məzarımızdı,
Çöksə azarımızdı,
Həyat gülzarımızdı,
Namus və arımızdı.

Ürəkdə vicdanının ağrısını çəkməyən,
Əzizi öləndə də gözündən yaş tökməyən,
Torpağında bir kərə bir ağac da əkməyən,

Atılıb meydanlara yağı bağrı sökməyən.

Qeyrətin də şübhəli,
Sərvətin də şübhəli,
Millətin də şübhəli,
Hörmətin də şübhəli!...

Şəhid məzarlarının paklığın duymayanlar,
İntiqam hissi coşub qisasa uymayanlar,
Millətinin şərəfin şərəfi saymayanlar,
Bu acı fəqanlara heç məhəl qoymayanlar,

Vətən - duzun, çörəyin,
Yıxılanda dirəyin,
Hər addımda gərəyin,
Sinəndəki ürəyin.

Ey düşmən qızını öz könlünə yar tutan,
Damarında qanını yağı qanına qatan,
Vətən səndən soruşur kimdir o anan, atan?
Ey əslini, soyunu namərd soyuna qatan,

Soyuna lənət olsun,
Toyuna lənət olsun,
Tayına lənət olsun,
Payına lənət olsun!

Ey vətənin yolunda əlil olmuş oğullar,
Pak nəsilli analar ər oğullar doğullar,

İgid, hünərli ərlər şərin ruhun boğullar,
Aramızda nə çoxdu yağı həvəsli qullar...

Bu vətən canımızdı,
Damarda qanımızdı,
Dünyada şanımızdı,
Azərbaycanımızdı!
Azərbaycanımızdı!...

26.XII.1999

PİRALLAHI

Xəzəri
n şahadası,
Qağayılar adası,
Dəyməsin şər qadası,
Dalğaların sabahı,
Nə sirli Pirallahı.

Xəzrilər əsəndə,
Yolun dalğa kəsəndə,
Qorxunc olanda səndə,
Qopur sinənin ahı,
Nə sirli Pirallahı.

Dalğa cumur sahilə,
Gözünün yaşı gilə,
Dillərə car pir ilə

Dağılmış qibləgahı.
Nə sirli Pirallahı.

Qağayılar sonası,
Ləpələri aynası,
Olanda Xəzri ası
Olar Xəzər Allahı,
Nə sirli Pirallahı.

Sahili qumlu ada,
Çatar istidə dada,
Coşsa can gedər bada
Qasırğılar silahı
Nə sirli Pirallahı.

Zeytunları, şamları,
Şiş, qırmızı damları,
Xeyirli adamları,
Mat edər hər günahı
Nə sirli Pirallahı.

Pir bilib qucağını,
Şadiman ocağını,
Gəzər hər bucağını...
Arar o səcdəgahı...
Nə sirli Pirallahı.

4.Xll.1998.

TÜRKİYƏM

17 avqust 1999-cu il

Türkiyədə dəhşətli zəlzələ oldu.

Ah, yenə zəlzələ, yenə titrəyiş,
Sənin əlindədir, İlahi, hər iş.
Allahım, fələyim, bu necə gərdiş,
Necə dərdli gəldi zaman Türkiyəm,
Ötüşsün başından aman, Türkiyəm.

Azərbaycanımın pənahı diyar,
Dərdin ürəyimin içini oyar,
Göz yaşım könlümü sahilsiz qoyar,
Damarımdan axan qanım, Türkiyəm.
Sən mənim bədəndə canım, Türkiyəm.

Bəla hardan gəldi Turan torpağı?
Çəkdi ürəyinə dəprəm bu dağı,
Çıxdı insanına fəlakət yağı,
Qaldı torpaq altda tənlər, Türkiyəm.
Sovuşsun dumanlar, çənlər, Türkiyəm.

Uçuldu, töküldü divarlar, daşlar,
Didildi, söküldü bədənlər, başlar,
Axmasın gözündən o qanlı yaşlar!...
Ötüşsün üstündən bəla, Türkiyəm.
Hər zülümə dözən qala, Türkiyəm!

Canımdan əzizsən inan ki, mənə,
Dərdin ürəyimi batırıb çənə,
Allah necə qıydı bu dərdi sənə?
Partladar ürəyi qəmin, Türkiyəm!
Olmasın acılı dəmin, Türkiyəm!

Daş-divar altında ölmək zülümdü,
Rəbbim rəva gördü bu nə ölümdü?
Ürək bu dəhşətdən bölüm-bölümdü,
Göz yaşım içimə axır, Türkiyəm!
Bu dərd axır olsun, axır, Türkiyəm!

Bədənlər budaqdan tökülən tutdu,
Bizi İlahinin ahımı tutdu?!
Ya Allah türk oğlun tamam unutdu?
Yayıldı fəğanın ərzə, Türkiyəm!
Necə zülüm oldu bizə, Türkiyəm!

Torpağın altından nalələr qopar,
Ölənlər bir-birin ruhuyla tapar,
Uzaq et bu zülmü, ey fələk, apar,
Artdı ölənlərin sayı Türkiyəm!
Allah necə qıydı vayı, Türkiyəm.
Türk oğlu heç zaman dərdə çökmədi,
Ağlayıb gözünün yaşın tökmədi.
Nə savaş, nə ölüm səni bükməd
i,
Hər bəla qarşında enə, Türkiyəm.
Qoy başın sağ olsun yenə Türkiyəm!

Qoy başın sağ olsun yenə Türkiyəm!

15.X.1999.

ŞƏHİDLƏR

Qanlı yanvardan düz on il keçir,
nə tökülən qanlar, nə o gecə heç
zaman unudulmayacaq!...

Atılıb tankların üstünə şirtək,
Düşmənə qələbə çaldı şəhidlər!
Batmadı Bakının bağrında sirtək,
Dünyaya bir haray saldı şəhidlər!...

O yanvr gecəsi Bakı tənha, tək,
Bir yumruğa dönən millət ürəktək,
Bu şər zəmanədən uçdu mələktək
Şərin ürəyini çaldı şəhidlər.

Boğdu səsimizi yağı ah, necə?!
Əliyalın xalqı qırdılar gecə!
Həqiqət tutulub basıldı küncə
Güllə yağışında qaldı şəhidlər.

Ağladı o gecə Bakı limanı,
Gəmilər qışqırdı, titrədi canı,
O gecə millətin sel oldu qanı!...
Kəfənin güllədən saldı şəhidlər!

Döndü yazıq Bakı Kəbə düzünə,
Tökülən qanları çıxdı dizinə,
Gözündən qanlı yaş axdı üzünə,
Necə xəzan təki soldu şəhidlər.

Şeytanın, iblisin yolu kəsdi nə?
Düşmən millətimin durdu qəsdinə!
Tanklarla, toplarla gəldi üstünə,
Doldu küçələrə, doldu şəhidər.

Zülmətin bağrından qopdu qanlı ah,
O gecə qan ilə açıldı sabah,
Bu qanı sən yerdə qoyma, ay Allah,
Haqqın dərgahına yoldu şəhidlər.

Yalançı güllədi, deyirdi hamı,
Uçuldu millətin son güman damı,
Qaldı gözlərində yaşamaq kamı...
Analar saçını yoldu, şəhidlər!

O gecə tökülən al qanlarıyla,
Haqqı haray çəkən o canlarıyla,
Ömrünün müqəddəs pak anlarıyla
Şəhidlik zirvəsin aldı şəhidlər.

Axdı el gecənin biyabanıyla,
Üçrəngli bayrağı yudu qanıyla,
Müqəddəs Şəhidlər Xiyabanıyla
Tarixin köksündə xaldı şəhidlər.

Düz on il ayırır bir-birimizi,
Elə yara açıb sinədə izi,
Yetməyib qatillər cəzaya düzü,
Neyləyim bu dünya kaldı, şəhidlər?!

O gecə xar etdiz qulpərəsləri,
Boğsa da güllədən qan nəfəsləri,
Getməz qulağımdan güllə səsləri...
Bilmirəm bu necə haldı, şəhidlər?!

Allahın yanında haqqınız uca,
Ruhlar qapınıza gələr əlaca,
Kimə nəsib olub ölümdən qaça?
Desələr bu dünya baldı, şəhidlər.

Demə ki, Şadiman, bu tarix nəçi?
Yırtıcı sökəni, tikən pinəçi,
O gündən göynəyir bağrımın içi...
Könlümün buzları saldı, şəhidlər!...

24.01.2000.

AZƏRBAYCANIM MƏNİM

Çiçəyin də, kolun da, tikanın da əzizdi,
Xəzər mənə dünyada ən qiymətli dənizdi,
Vicdanın da, ruhun da ləkəsizdi, təmizdi,
Can içrə canım mənim.

Azərbaycanım mənim.

Doymaq olmur heç zaman ətirindən, qoxundan,
Sağalmaz sinəm içi sənin hicran oxundan,
Məni Tanrı yaradıb sənin şirin yuxundan...
Damarda qanım mənim.
Azərbaycanım mənim.

Yağılar ürəyini parçalayıb didəndə,
Əliqanlı düşmənin sənə zülüm edəndə,
Oğlun şəhid olanda, tənindən can gedəndə,
Ağlayar anım mənim.
Azərbaycanım mənim.

Mən pərvanə, sən şamım dolanaram başına,
Qurban olum min kərə torpağına, daşına,
Rəbbim rəva bilməsin yanaqda göz yaşına,
Ey adım, sanım mənim.
Azərbaycanım mənim.

Səndən ötrü istəsən bədəndən can verərəm,
Damarımın içindən alışan qan verərəm,
Allahdan payım olan ən şirin an verərəm,
Odlu məkanım mənim.
Azərbaycanım mənim.

Sənin duzun-çörəyin ömrümə yetər olar,
Qürbətin varı mənə ölümdən betər olar,
Yad eldə ölsəm əgər qəbrimin daşı solar,

Bitməz divanım mənim!
Azərbaycanım mənim.

Sənə arxa çevirən heç gün görməz dünyada,
Qoynunda bəslədiyin bir gün çevrilsə yada,
Əskik olmaz başından bil ki, heç zaman qada,
Ən pak ünvanım mənim.
Azərbaycanım mənim.

Üçrəngli bayrağında lalətək qan izi var,
Əsir düşmüş Şuşanda istiqlal gündüzü var...
Əli qanlı yağıda Qarabağın düzü var,
Bitməz üsyanım mənim.
Azərbaycanım mənim.

Təbrizdən Dərbəndədək sən mənim şah əsərim,
Qürbətdə vətən desəm sənsən ağız kəsərim,
İstəsən ürəyimi ayağına de sərim!
Şan içrə şanım mənim.
Azərbaycanım mənim.

Səni əziz sanmışam dünyada bu canımdan,
Bunu ürəyim deyir, demirəm öz yanımdan,
Çeşmənə, kəhrizinə məlhəm desən qanımdan...
Əmr et sultanım mənim,
Azərbaycanım mənim.

Çiçəyinə, lalənə, bənövşənə qurbanam,
Ürəyinin içində əndişənə qurbanam,

Torpağına şəhidtək pak düşənə qurbanam,
Haqqla mehmanım mənim.
Azərbaycanım mənim.

Gün görməsin qoy sənə xain çıxan o kəslər,
Tənim məzara düşsə ruhum tək səni səslər,
Şadiman ürəyinin duyğusun sənə bəslər.
Sənsən cahanım mənim.
Azərbaycanım mənim.
Azərbaycanım mənim.

23.Xl.1999.

CAN AZƏRBAYCAN

Bağırın parçalandı hey qəlpə-qəlpə,
Gədalar bəy oldu, küllüklər təpə,
Verdi başımızdan dərdimiz ləpə,
Yağılar tapıldı elə qan səpə,
Necə qara gəldi an Azərbaycan.
Ey yurdum, vətənim, can Azərbaycan.

Qaçqın kişiləri gördü gözümüz,
Öyrəndi yalana hər gün üzümüz,
Şir olduq təklikdə özü-özümüz,
Dağları aşırdı dildə sözümüz,
Yolunda az verdik can, Azərbaycan.
Ey yurdum, vətənim, can Azərbaycan.

Çıxdı əlimizdən yurdlar birbəbir,
Elə bir-birinə dilədik səbir,
Yağılar birləşib oldular əlbir,
Düşmənin əlindən düşmədi xəlbir,
Dedilər, partlayıb yan Azərbaycan.
Ey yurdum, vətənim, can Azərbaycan.

Biz Qarabağ təki yurdu itirdik,
İçimizdə olan qurdu itirdik,
Döyüşə atıldıq ordu itirdik,
Babalar cah-cəlal qurdu, itirdik,
Gəl bu itkiləri san, Azərbaycan!
Ey yurdum, vətənim, can Azərbaycan.

Dərbənd, Təbriz qərib, İrəvan yağı,
Boğazdan yuxarı sözlər bayağı!
Hanı ər kişilər, yurdun dayağı?
Əlimiz saz çalır, dilimiz ağı,
Bumu şərəf, namus, şan, Azərbaycan?
Ey yurdum, vətənim, can Azərbaycan.

Bir olub yağının köksün oymadıq,
Başbilənimizi yaxın qoymadıq,
Bir-birin tərifdən bir an doymadıq,
Dərdin böyükliyin niyə duymad
ıq?
Axdı sellər təki qan, Azərbaycan.
Ey yurdum, vətənim, can Azərbaycan.

Sənə hiylə qurdu düşmənin əli,
Haqqın söyləyənə dedilər, dəli.
Yıxdı evimizi “baş üstə”, “bəli”,
Çökdü babamızın qeyrət təməli!
Batdı göylərində dan, Azərbaycan.
Ey yurdum, vətənim, can Azərbaycan.

Əllərdə qalıbdı səadətimiz,
Ümidə əl açıb ibadətimiz,
Bir-birinə yağı bir adətimiz,
Özgəni sevməkdi sədaqətimiz,
Demirəm bunları dan, Azərbaycan.
Ey yurdum, vətənim, can Azərbaycan.

Olub bu dərdlərdən Şadiman xəstə,
Söylər qəmlərini dili ahəstə,
Tökər dərdlərini kağızlar üstə,
Sən məndən bu şirin canımı istə,
Eyləyib könlümü şan, Azərbaycan.
Ey yurdum, vətənim, can Azərbaycan.
12.Xll.1999.

VƏTƏNDİ

Dərəsiylə, ormanıyla, daşıyla,
Baharıyla, payızıyla, qışıyla,
İslanaram axan o göz yaşıyla,
İsidərəm ürəyimin başıyla!

Harayıma, fəryadıma yetəndi.
Candan əziz, candan şirin vətəndi.

Başım üstə əsən sərin yelimdi,
Ocağımdı, məkanımdı, elimdi,
Dili, mənim ötən tuti dilimdi,
Dağdan aşan, haray çəkən selimdi,
Ürəyimin güşəsində bitəndi.
Candan əziz, candan şirin vətəndi.

Gəz qürbətin dərəsini, düzünü,
Qəriblikdə kim tapıbdı özünü?
Qopardarlar ürəyinin közünü,
Öz dilində deyərsənmi sözünü?!...
Adın, sanın yad ellərdə itəndi.
Candan əziz, candan şirin vətəndi.

Vətən dərdi sağalmayan bir yara!
Çəkər səni qürbət eldə dərd dara,
Sahib olsan min sərvətə, min vara,
Qəriblikdə ölənlərə yurd hara?
Demə niskil, demə hicran ötəndi.
Candan əziz, candan şirin vətəndi.

Yağı əldə o yurd, yuva qalmasın,
Xalqımıza qoy göz dağı olmasın,
Ürəklərdə qeyrət eşqi solmasın,
Elim deyib analar saç yolmasın!
Qeyrət ilə, namus ilə yurd təndi.

Candan əziz, candan şirin vətəndi.

Şərəf hissi hər bir hissdən baş olub,
Şuşa, Laçın zirvələrə qaş olub,
Əsir düşüb aləmlərə faş
olub!...
Niyə bizim ürəyimiz daş olub?!
Kökümüz ki, bir bədəndi, bir təndi,
Candan əziz, candan şirin vətəndi.

Torpaq eşqi heç çıxmasın ürəkdən,
Azalmasın, əskilməsin diləkdən,
Yağı, başın açılmasın kələkdən!
Heç bir işin düzəlməsin fələkdən,
Hər cür hiylə, hər cür fitnə batandı.
Candan əziz, candan şirin vətəndi.

Şərəf qataq, şöhrət qataq anına,
Qoy canımız fəda olsun canına,
Qurban olaq şəhidinin qanına!
Yurd məzarın, yurd anandı, atandı,
Candan əziz, candan şirin vətəndi.

11-12.Xll.1999.

EY VƏTƏN

Sənə can demişəm, can candan şirin,
Ey vətən, bir söylə bu eşqin sirrin,
Parçanam, zərrənəm mən sənin dirin,

Ürəkdə alışan ocaq, ey vətən.
Könlümə ən isti qucaq, ey vətən.
Sənin torpağının daşı olum mən,
Odlu bəbəyinin yaşı olum mən,
Yanan ürəyinin başı olum mən,
Qürbətlər içində ölkəm, ey vətən.
Sən Kəbəm, Nəcəfim, Məkkəm, ey vətən.

Dağına, düzünə vurğundu canım,
Sənə ad verilib Azərbaycanım,
Düşüb ocağına odunda yanım,
Qarışsın zərrənə külüm, ey vətən.
Mən sənin qoynunda ölüm, ey vətən.

Sənə göz dikənin gözü kor olar,
Sənə kəm baxanlar, bil nankor olar,
Odundan alışan sinəm qor olar,
Sönməz məzarda da odum, ey vətən.
Namusum, şərəfim, adım, ey vətən.

Yağı sinəsinə sərvətin oxdu,
Dünyalar içində heç tayın yoxdu,
Evində xainin, satqının çoxdu...!
Artmasın yoxsulun, acın, ey vətən.
Başından düşməsin tacın, ey vətən.

Tanrı şad eyləsin hər dəm baxtını,
Şərəfə çatdırsın ərlər taxtını,
Şadlığa calasın tale vaxtını,

Əysin zəfərlərin yadı, ey vətən.
Olasan dünyanın dadı, ey vətən.

Sənə can demişəm, sən candan əziz,
Azərim, Od yurdum odundu hər iz,
Odundan yuğrulub Xəzərin-dəniz,
Dilimdən ucalan duam, ey vətən.
Kaham, komam, somyəm, yuvam, ey vətən.

Şadiman köksündən getməz uzağa,
Üstünə sərvətlər, dövlətlər yağa,
Varlığım vücudum düşsün ayağa!
Öyrənsə yad yerə gözüm, ey vətən,
Gülməsin dünyada üzüm, ey vətən.
Gülməsin dünyada üzüm, ey vətən.
24.Xl.1999.

ALÇALMA MİLLƏTİM

Qalx, ey vətənimin oğlu, qızı.
Sönməsin göylərdə o bəxt ulduzu.
Deyən çox çəkildi yağının nazı,
Qılınc, qalxan olsun bu yurdun sazı,
Gözünün yaşını döndərmə selə,
Alçalma millətim, alçalma belə.

Sənin təpiyindən od çıxsın gərək,
İçində qorxunu haqq yıxsın gərək,
Şeytan yarasından qan axsın gərək,

O şər pərisini ruh yıxsın gərək,
Nərən haray salsın belədən belə.
Alçalma millətim, alçalma belə.

Sən özün yağının gözün tökərsən,
Şahintək sinəsi üstə çökərsən,
Savaşa atılıb hesab çəkərsən,
Düşmənin başında turp da əkərsən,
Dur, yığış, harayın qoy düşsün elə!
Alçalma millətim, alçalma belə.

Sən Allah, yad dindən pənah arama,
Dərd sənin, çəkməsən sabah arama,
Səhv bizim, özgədə günah arama,
Aha batmışlara min ah arama!
Sənin yalvarışın bənzər bir yelə,
Alçalma millətim, alçalma belə.

Coşsun savaş eşqi bir dilək kimi,
Yağışdan sonrakı göbələk kimi,
Dərdi qucaqlama sən bələk kimi,
Durma səcdəsində ya mələk kimi,
Bıçaq vur sinədə sızlayan telə,
Alçalma millətim, alçalma belə.

Roma Papasından dilədin imdad,
Qana nə edəcək o yad oğlu yad?
Qopsun ürəyindən bir dəli fəryad,
Şər macal tapmasın eyləməyə dad,

Dünyanı titrətsin qəzəbin elə,
Alçalma millətim, alçalma belə.

Amandı, itirmə şərəf yolunu,
Axtar savaşlarda itən qolunu,
Biç qılıncın ilə qanqal kolunu,
Unutma həyatda o sağ, solunu,
Salma öz dərdini ağıza, dilə,
Alçalma millətim, alçalma belə.

Bəsdir, özgələrdən kömək dilədin,
Kişi vuruşuna əmək dilədin,
Bu haqq savaşında mələk dilədin,
Dərdini bükməyə bələk dilədin,
Ürəksiz dünyadan ürək dilədin!...
Arxalı olmağa dirək dilədin,
Köməyi özündə gəl axtar hələ,
Alçalma millətim, alçalma belə.

Qadınlı kişili xalq qisas alsın,
Qoy qorxağın ölsün, igidin qalsın,
Döyüşə atılsın qələbə çalsın,
Haqqın bayrağıyla haqqa ucalsın,
Bütün Azərbaycan şərdən bac alsın,
Şanlı istiqlala Rəbbdən tac alsın,
Qalmasın yurdumuz o xain ələ,
Alçalma millətim, alçalma belə.

Ürəyi alışır Şadimanın da,

Qisas havası var, coşan qanında,
Savaşa durmağa haray canında,
Məni də hiss eylə, VƏTƏN, yanında!
Haqq öz yerin tapar döyüş anında...
Salma kədərlərin sazağın telə,
Alçalma millətim, alçalma belə.
Alçalma millətim, alçalma belə.

23.05.2002.

GÖYÜN GÖZÜNDƏN YAŞ AXIR

BAYRAMIM GƏLİR

Təbiət insana, həyata yardır,
Yenə könüllərdə gözəl bahardır,
Sevincdən kainat qəlbimə dardır,
Hər kiçik obamdan şadlıq yüksəlir,
Ay ellər, yurduma bayramım gəlir.

Duyğular təzədir, ürəklər təmiz,
Şadlıq içindədir bu gün ölkəmiz,
Burda hər qarışım nəğməli dəniz,
Mahnı qanad açır göyləri dəlir,
Ay ellər, yurduma bayramım gəlir.

Gözəl Novruz gəlir əlində bahar,
Şahanə qız gəlir duyğuda vüqar,

Yenə də yaz gəlir, könüllərə yar,
Anam təbiətə şadlıq ələnir,
Ay ellər, yurduma bayramım gəlir.

Ürəyi, diləyi bahar ətirli,
Başlarda tacı var güldən çətirli,
İlahi, necə də könlə xətirli,
Qəlblərdən xoşbəxtlik, nəşə dikəlir,
Ay ellər, yurduma bayramım gəlir.

Belə şadlıq, sevinc hansı gündə var?
Hər gəlişi dövlət, hər gəlişi var,
Bir əlində çiçək, bir əlində qar,
Əzəldən torpağa mart sərvət, gəlir,
Ay ellər, yurduma bayramım gəlir.
Mart. 1970. / TAĞAY

VALLAH, SƏNDƏN YOXDU, XƏZƏR

Nə yatmısan quzu kimi,
Səs-səmirin yoxdu, Xəzər.
Yurdun mələk qızı kimi
Nazın, qəmzən çoxdu, Xəzər.

İlahidən cilalısan,
Dəryaların hələlısan,
Sil üzündən məlalı sən,
Qəmin mənə oxdu, Xəzər.

O nazəndə şux küləklər,
Dalğaları hey ələklər,
Pərvazlanar lal ürəklər,
Vallah, səndən yoxdu, Xəzər.

Tamahın heç güc gətirməz,
Poladtək ülgüc gətirməz,
Hər ulduz ki, bürc gətirməz,
Gözün necə toxdu, Xəzər.

Günəş suya od ələyir,
Yeli tutub güllələyir,
İstidən Göy, Yer mələyir,
Könlü atəş yaxdı, Xəzər.

Göllər içrə sultan pəri,
Sularının zümrüd zəri,
Sən mehini ver bir bəri,
Qur sinəmdə taxtı, Xəzər.

Dalğaların gözü dolar,
İsti, narın qumu bular,
Qırçın-qırçın gümüş sular
Eşqlə mənə baxdı, Xəzər.

Küləyini çağır gətir,
Saçsın könlə qoy xoş ətir,
İlhamınla coşsun sətir,
Gözüm yaman qorxdu, Xəzər.

Qağayına can qurbandı,
Ləpələrin mehribandı,
Pozma əhdi, danma andı,
Könlüm yenə səni andı
Sularına axdı, Xəzər.

O laylaylı göy ləpələr
Ürəyimə nur səpələr,
Yellər gözdən hey öpələr,
Könlün dolan vaxtı, Xəzər.

İsti yellər çiçəklədi,
Atəşlərin gerçəklədi,
Günəş məni nə təklədi?
Sinəyə od taxtı, Xəzər.

Şadiman yar cəmalına,
Sən də onun yan halına,
Səbəb olma məlalına,
Ağlatma gəl baxtı, Xəzər,
Vallah, səndən yoxdu, Xəzər.

26.07.2001.

NOVRUZUN

İlahi, nə qədər qəlbə dirəkdi,
Bitməz heç söhbəti, sözü Novruzun.

Köksümün içində vuran ürəkdi,
Gözəldi qədəmi, izi Novruzun.

Lap cuşə gətirir bu qanımızı,
İsidir oduyla hey canımızı,
Bürüyüb səməni hər yanımızı,
Yaşıla bürünüb üzü Novruzun.

Uşaqlar sevinclə çımrar qolların,
Odu ərşə qalxar lal tonqalların,
Gözlər qonaqların gələn yolların...
Süfrələr başında özü Novruzun.

Xonçalar üstündə alışar şamlar,
Kükrəyər dəniztək arzular, kamlar,
Büsata bürünər eldə adamlar,
Gəlişi şad edər bizi Novruzun.

Yaz gəlini olar sabahımızın,
Bahar müjdəsidir Allahımızın,
Boğazı tutular hər ahımızın,
Nəşəsi məlhəmdir, düzü Novruzun.

Neçə minilliyi gördü kim bilir?
Min-min əsrləri yordu kim bilir?
Günəşin köksündə qordu, kim bilir?
Ürəkləri yaxar közü Novruzun.

19.03.2000.

EY DAN ULDUZU

Asılıb göylərin qəlbindən yenə,
Səhəri sarmısan parlaq köksünə,
Bənzəri varmıdır Göyün əksinə?
Boyanıb şövq ilə işığa sinə,
Ey mələk göylərin ilahi qızı,
Ey zöhrə ulduzu, ey dan ulduzu.

Uca asimandan eşqlə baxırsan,
Uzaq ulduzları oda yaxırsan,
Könlümün evinə nurla axırsan,
Basmısan alışan bağrına sazı,
Ey zöhrə ulduzu, ey dan ulduzu.

Bütün kəhkəşandan yaxınsan bizə,
Bənzər parlaqlığın alışan közə,
Odur ki, taxmısan atəşi gözə,
Ərisin odunla kədərin buzu,
Ey zöhrə ulduzu, ey dan ulduzu.

Səndə İlahinin təntənəsi var,
Sirli kainatın ənənəsi var,
Yaxanda səmanın od tənəsi var,
Yerlərin, göylərin ey dadı, duzu,
Ey zöhrə ulduzu, ey dan ulduzu.

Tutub zülmətləri oda atırsan,
O sübhün bağrına atəş qatırsan,

Səhərin qoynuna girib yatırsan,
Sanki anasına sığınmış quzu,
Ey zöhrə ulduzu, ey dan ulduzu.

Şadiman hüsnünə baxdıqca doymaz,
Sənə vurğunluğun heç yerə qoymaz,
Oduntək ürəyi heç bir od oymaz,
Etmə bu sübh vaxtı könlümə nazı,
Ey zöhrə ulduzu, ey dan ulduzu.

18.Xl.2001.

DAĞLAR

Ətəkləri əlvan-əlvan,
Başı ərşə duran dağlar.
Yamyaşıldı könül yuvan,
Zirvədə toy quran dağlar.

Qayaları kəklik, turac,
Səyyadına heç verməz bac,
O mirvari dumanı tac,
Taymı sənə aran, dağlar?

Zirvəsində Çıraqqala,
Yamacları tala-tala,
Şimşəkləri kiprik çala
Heç qopmaya boran dağlar.

Bulaqların çeşməsi bol,
Hər ağacın arası yol,
Əsər həzin yellərdən kol,
Çənlə ara vuran dağlar.

Bağrım elə cilvələnib,
Göylərinə al ələnib,
Yal-yamaca göy bələnib
Qəm qoşunun qıran dağlar.

Diz bükülməz yoxuşuna,
Bənzər xalı naxışına,
Qurban olum baxışına,
İslat məni yağışına...
Xəyalımı yoran dağlar.

Meşələrin hüsnə çıraq,
Zirvələrin varaq-varaq,
Qartallardan bir ver soraq,
Pozulmasın sıran, dağlar.

Nə qalmısan tül altında?
Göy yaxası gül altında,
Ocaqların kül altında
Yanar koran-koran dağlar.

Duman çəni arxaladı,
Döşündəki nə taladı?
Könlü elə çalxaladı

Üzündə ki, toran dağlar.

Təbiətin gözəl yarı,
Tağlarında oxşa qarı,
Mənə sarı bir bax barı,
Təblə olsun aran, dağlar.

Ocağıma köz ələmə,
İlhamıma söz eləmə,
Mənə belə göz eləmə,
Yuxusundan duran dağlar.

Şadimanın könlün ovut,
Buz suyunla qəlbi sovut,
Ürəyimi əlində tut,
Əhvalımı soran dağlar.

29.XI.2001.

YAZ GECƏSİ

Dürlü səmaların atəşi, közü,
Bütün fəsillərin işıqlı gözü,
Sakit axşamların ilhamlı sözü,
Yurdumun, yuvamın bəyaz gecəsi,
Ay aylı, ulduzlu pak yaz gecəsi.

Parlaqdır incədir o kəhgəşanın,
Elə bir xilqətsən ucadır şanın,

Gözəllik pərisi yaşıl ormanın,
Yurdumun, yuvamın bəyaz gecəsi,
Ay aylı, ulduzlu pak yaz gecəsi.

Əngin səmaların sirli həyatı,
Odlu axşamların gözəl büsatı,
Qəlbimin, könlümün şeriyyatı,
Yurdumun, yuvamın bəyaz gecəsi,
Ay aylı, ulduzlu pak yaz gecəsi.

Füsnikar köksündə ulduzlar çağlar,
Geniş üfüqlərin ətirli bağlar,
Hərdən tutulmağın dumanlı dağlar,
Yurdumun, yuvamın bəyaz gecəsi,
Ay aylı, ulduzlu pak yaz gecəsi.

Xəfif küləklərin sinəndə əsir,
Gözüm gözəlliyə olubdu əsir,
Özünə qurmusan şahanə qəsir,
Yurdumun, yuvamın bəyaz gecəsi,
Ay aylı, ulduzlu pak yaz gecəsi.

Qəlbimə hakimsən, axşam gözəli,
Vurğunam hüsnünə könlüm əzəli,
Sərsəri küləklər necə məzəli,
Yurdumun, yuvamın bəyaz gecəsi,
Ay aylı, ulduzlu pak yaz gecəsi.

Qaranlıq çəkilir sənin köksünə,

Ulduzlar yığışır bu səsə, ünə,
Ay çıxır baxmağa gözəl əksinə,
Yurdumun, yuvamın bəyaz gecəsi,
Ay aylı, ulduzlu pak yaz gecəsi.

Hirisin, qəzəbin çiskin, dumandır,
Yuyunmaq yağışda sənə bir andır,
Kükrər şimşəklərin, çaxar amandır,
Yurdumun, yuvamın bəyaz gecəsi,
Ay aylı, ulduzlu pak yaz gecəsi.

Sanki asimanda hər ulduz çıraq,
Nurlu Ay gecənin saçına daraq,
Buludlar üfüqün köksünə yaraq,
Yurdumun, yuvamın bəyaz gecəsi,
Ay aylı, ulduzlu pak yaz gecəsi.

Gözlərim önündən səma çox uzaq,
Yertək göylərdən də qəmginlik iraq,
Nurlu gözəllikdən gəl al bir soraq,
Yurdumun, yuvamın bəyaz gecəsi,
Ay aylı, ulduzlu pak yaz gecəsi.

2.04.1971. / TAĞAY/

BAHAR YAĞIŞI

Göydən ülfət yağır, göydən nur yağır,

Dolur duyğularla bu ürək, bağır,
Könül, seyrəngaha dünyanı çağır,
Apardı qəlbimdən boranlı qışı,
Ah ətir qoxulu bahar yağışı.

Təbiət əl-əlvan, asiman gözəl,
Gah bulud, gah şimşək, gah duman gözəl,
Baharmı doğulub dünyadan əzəl?
Göy otlar üstündə bəyaz naxışı,
Ah ətir qoxulu bahar yağışı.

Çaylar məcrasından çıxar çaxnaşar,
Qıvrılıb ilantək sel dağdan aşar,
Yer, göy məhəbbətlə hey pıçıldaşar,
O şıltaq buludlar tökər göz yaşı,
Ah ətir qoxulu bahar yağışı.

Cahan öz qəmindən sanki yuyunar,
Geydiyi qış kürkün candan soyunar,
Ana təbiətin pak qanı qaynar,
Dəli şimşəklərə eylər alqışı,
Ah ətir qoxulu bahar yağışı.

Yuya üz-gözünü dünya qəmindən,
Mən doya bilmərəm nur aləmindən,
Qəlbə qida verər sevinc dəmindən,
Yuyar qandan, kirdən torpağı, daşı,
Ah ətir qoxulu bahar yağışı.

Təbiət naz satar bahar gəlinə,
Düzər gül-çiçəyi yaşıl telinə,
Bağlar göy otlardan kəmər belinə,
Gürşada bürüyər üz-gözü, qaşı,
Ah ətir qoxulu bahar yağışı.

Quşlar rəqs eləyər bağçada, düzdə,
Hey sevinc duyular baxışda, üzdə,
Al atlas geyinər gecə, gündüz də,
Yerin su içdikcə dikələr başı,
Ah ətir qoxulu bahar yağışı.

Bəşər, təbiətdə gəl sülhü seyr et,
Pislik etməkdənsə nə olar xeyr et,
Tanrı hüzurunda ucalığa yet,
Bəsdir bu dünyanı yudu qan, naşı,
Ah ətir qoxulu bahar yağışı.

Bu gün Şadimana həyat gətirdin,
İçindən ələmi, qəmi itirdin,
Nə yaxşı özünü yerə yetirdin,
Gəl yu ürəklərdən kini, qarğışı,
Ah ətir qoxulu bahar yağışı.

17/18.03.2001.

BAHAR GECƏSİ

Ah, bahar gecəsi, qəlbimi ovla,
Oradan niskili, ələmi qovla,

Qoy könül ocağım yansın alovla,
Sənin tərifinə gəlsin ilhamım,
Dadsın rübabından bu könül camım.

Ah, bahar gecəsi, gözümdə kamım,
Sinəmdə ürəyim şəhid nakamım,
Ülfət et uçmasın bu könül damım,
Titrəsən diləklər sənin şövqünlə,
Məni tələtümə gətir zövqünlə.

Ah, bahar gecəsi, ulduzlar şan-şan,
Onlar şux Novruzdan verirlər nişan,
Eyləmə könlümün için pərişan,
Dinlət ürəyimin simlərin bir-bir,
Arzularımla ol bu gecə əlbir.

Ah, bahar gecəsi ətrin məst edir,
Alır ixtiyarı cana qəsd edir,
Ruhumun könlünü hey sərməst edir,
Gəl şirin yuxumu əlimdən al qaç,
Kainat içindən mənə bir yol aç.

Uçum kəhkaşanın fövqündə bir az,
Ruha qanad versin mələkzadə yaz,
Ürəkdə duyğular bumbuz, bəmbəyaz,
Bük od, atəşinə könlü bir qədər,
Ötməsin ömürdən anlarım hədər.

Ayı boyunbağı edim boynuma,

Sığım ulduzları bir-bir qoynuma,
Zülmət də qoşulsun çılğın oynuma,
Bütün səyyarələr qapısın açsın,
Kainat içimdə şəfəqlər saçsın.

Ah, bahar gecəsi, bir sən, bir də mən,
Başımız üstündən ötsün duman, çən,
Coşsun ilhamınla bu bağır, bu tən,
Nə qədər yuxudan ayılmıb bəşər,
Ömürlük qul olsun əlimizdə şər.

Ah, bahar gecəsi, ey nazlı pəri,
Sənsən vücudumun eşqi, təpəri,
Kəhkəşan göylərin alatlas zəri
Könlümün səmasın nura qərq etsin,
Hər nur ulduz-ulduz orda bərq etsin.

Ah, bahar gecəsi gözəl mələyim,
Qopur bağırımdan çılğın diləyim,
Səni ürəyimə büküm, bələyim,
Ehtizaza gətir könül telini,
Əyək əbədilik qəmin belini.

Ah, bahar gecəsi Şadiman əsir,
Qəlbində dünyanın yelləri əsir,
Ələmlər qapımın ağzını kəsir,
Qarışsın anlarım nurlu anına,
Məni də əbədi apar yanına.

14.03.2001.

GƏL MÜBARƏK BAHAR

Gəl mübarək bahar, gəl qədəmi xoş,
Könlümə yepyeni bir təranə qoş,
Ötməsin anlarım sərsəritək boş,
Sinəmə hərarət gətir odunla,
Dünyaya yenidən gəlim adınla.

Gəl mübarək bahar, gəlişin təzə,
Bitir novruzgülün çəmənə, düzə,
Xoşqədəmli gətir Novruzu bizə,
Könlə həyat olsun bu səadətin,
Necə təravətli, ulu adətin.

Yetir məmləkətə yeni ilini,
Diz çöküm önündə öpüm əlini,
Qoy bir sığallayım yaşıl telini,
O gül cəmalına uysun ürəyim,
Coşsun gəlişinlə hər bir diləyim.

Gəl mübarək bahar, könül gözləyir,
Sənin gəlişinin anın izləyir,
Ruhum cisimindən qəm təmizləyir,
Gər bağrım başının odla ahını,
Göstər bu dünyaya xoş sabahını.

Gəl mübarək bahar, fəsillər qızı,
Sirli kainatın parlaq ulduzu,
Ey billurtək çeşməm, pak, təmiz quzu,
Sığım ürəyimin içinə səni,
Necə tələtümə gətirdin məni.

Gəl mübarək bahar, mələktək gözəl,
Sənin məhəbbətin hər eşqdən əzəl,
Həm bayatı, qoşma, həm dürüst qəzəl,
Şerlər sultanı, şairlər şahı,
Sən ey təbiətin sevgi allahı!

Gəl mübarək bahar, könül açılsın,
Sinəmin atəşi ərzə saçılsın,
Bütün pisliklərdən, qəmdən qaçılsın,
Gəl çat tonqalları əbədi yansın.
Novruzun gəlişin bu yer, göy ansın.

Gəl mübarək bahar, əziz bayramım,
Ulu qan yaddaşım, müqəddəs kamım,
Bəzənsin şamlarla bu könül damım,
Qopsun zülmətlərdən ruhum ucalsın,
Yeri də, göyü də əlinə alsın.

Gəl mübarək bahar, qəlbə həyat ver,
Bu sınmış könlümə qol ver, qanad ver,
Bu köhnə dünyaya təptəzə ad ver,
Tökülən qanlardan doysun yer üzü,

Bir də ağlamasın bəşərin gözü!...

Gəl mübarək bahar, al Şadimanı,
Dəli irmaqlartək hey coşsun qanı,
Bütün kainatdır onun ünvanı,
Gəzdir qarış-qarış qəlbi özünlə,
Qoy baxsın cahana sənin gözünlə.
14.03.2001.

QIŞ NƏĞMƏSİ

Bu gecənin ağ qışı,
Dondurar gözdə yaşı,
Üşüyər könlüm başı,
Ağlaram için-için,
Bu kədər bilməm neçin?

Bəyaz qışın nağılı,
Alar əldən ağılı,
Sazaqdan yolu bağlı,
Əsir edər qorxusu,
Bu soyuq qış yuxusu.

Məni məndən qoparar,
Kainata aparar,
Nə axtarar, nə arar?
Gecəm uzanıb gedər,
Könlümtək yanıb gedər.

Bu gecə qışım soyuq,
Sinəsi oyuq-oyuq,
Düşübdü tufan duyuq,
Yolur uzun saçını,
Dağın, düzün laçını.

Qışım uzundan-uzun,
Göstərər qoç buynuzun,
Salar könlümə buzun,
Qar olar ağ baxışlar,
Ürəyimi naxışlar.

Bu gecənin ağ qışı,
Kef-damağı çağ qışı,
Ürəyində yağ qışı,
Gəldi girdi evimə,
Döndü könül divimə.

Yuxusu şirin qışım,
Söyləməz sirin qışım,
Ürəyim dirin qışım,
Soyutma qəlb odamı,
Gəl üşütmə adamı?

Qar bəmbəyaz çiçəyi,
Ağ qrovu ləçəyi,
Naxış-naxış birçəyi,
Deyim sənə gerçəyi -

Fəsillərin şahısan,
Könlümün Allahısan.

Ağ qışım, bəyaz qışım,
İncitək gözdə yaşım,
İlhamımla s
irdaşım,
Könlü batırma çənə,
O ki, vurğun gecənə.

Qış yuxumun ahəngi,
Həm sehri, həm də rəngi,
Tufanı çalar cəngi,
Alar könlümün için
Yanaram için-için.

Yer, göy ağ qar dənizi,
Çovqun qışın kənizi,
Bürüyər yolu, izi,
Ağappaqdır bənizi,
Uşaqlara can deyər,
Ocaqlara yan deyər.

Ay Şadiman, bu gecə,
Əfsunlanmışam necə?
Qışım gecədən incə,
Baş qoyarkən balınca,
Təndən qopardı canı,
Alıb apardı canı!...

5.02.2001.

QIŞIM

Sən ey fəsillərin əri, ərəni,
Boya sazağınla dağı, dərəni.
Ərit ayazınla kədəri, qışım,
Donsun gözlərimdə axan göz yaşım!
Sən ey kainatın pakı, təmizi,
Yerin bərəkəti, göyün əzizi.
Səndə sərtliyi var qoca dünyanın,
Dondur sazağınla o isti canın.
Sən ey fəsillərin ən səfalısı,
Bütün nağılların ən vəfalısı.
Sönən ocaqlara bir atəş gətir,
Qoy bu sabahlarda duyulsun ətir.
Bəxtə bir bəyazlıq gəlsin qarınla,
Bəzə bu torpağın üzün barınla.
O sərt küləyinlə qəlbimi ovut,
Yanan ürəyimin atəşin sovut.
Sən ey fəsillərin ərköyün qışı,
Səni sevən aşiq, sevməyən naşı.
Tök bu üz-gözümə əlçim qarını,
Göstər bu dünyaya dağ vüqarını.
Tutsun pəncərəmi buz naxışları
Nə bəyaz yaradıb Tanrı qışları!
Asılsın gözlərim önündən buzlar,
Parlaq mirvaritək o ağ ulduzlar.
Gözlərim önündə şəfəqlər saçsın,

Bəxtimin evinə ağ yollar açsın.
Sən ey qış fəsili, ey qış yuxusu,
Yerin də, göyün də mələk qoxus
u.
Səndə Xəzərimin bəyazlığı var,
Uyğulu gecəmin ayazlığı var,
Milçəyin, böcəyin yağısı qışım,
O sərt tufanların ağısı qışım.
Coşar bu ilhamım ulu şövqünlə,
Bəzə dünyamızı gözəl zövqünlə.
Qoy yağsın ağ qarın hey əlçim-əlçim,
Donmuş çeşmələrdən sındırım içim.
Bütün fəsillərin gözəli sənsən,
Ana təbiətin əzəli sənsən.
Bəzər otlar üstün bəyaz qrovun,
Dildən dadı getməz kababı ovun.
Amandır, üzündən götür sərtliyi,
Görüm gərdişində kişi mərdliyi.
Süzər Xəzər üstə ağ qağayılar,
Dəli haraylardan sular bayılar.
Qış meydan oxuyar qırçın ləpəyə,
Hər dalğa bənzəyər, sanki təpəyə.
Sapsarı Günəş də parlar Xəzərdən,
Onun parıltısı ötməz nəzərdən.
Rüzgarın görkəmi yandırar qəlbi,
Elə ehtizaza gətirər təbi.
Sirli kainatın ahısan, qışım,
Bütün fəsillərin şahısan, qışım!
Çılğın tufanlara can deyə-deyə,

Edərsən baharı könlə hədiyyə.

5.02.2001.

AY İŞIĞI

Bu gecənin ay işığı,
Zülmət gecələrin yaraşığı,
Yorğun gözlərimə layla çaldı,
O isti təbəssümü ilə könlümü aldı,
Qaranlığın köynəyini yırtıb
Bağrımın başına qondu.
Allahım, bu nə oyundu?!
Bu gecənin ay işığı,
Zülmət gecələrin yaraşığı,
Bir içim təsəlli səpdi könlümə,
Sevdanı udum-udum təpdi könlümə.
Gözlərimdə dondu həsrətin qəmi,
Sanki nura qərq etdi aləmi.

Dünya mənə elə gözəl göründü,
Bütün yamanlıqlar ayağım altında süründü.
Bir mən, bir ay işığı, bir də bəyaz gecə,
Bir-birinə aşiq olduq necə?
Kədərlər könlümdə paralandı,
Qəmin ürəyi yaralandı,
Könlümə elə atəş qalandı,
Bu gecə vaxtı,
Tanrı elə bəxtiyar etdi baxtı,
Sanki bu gecənin ay işığı,

Oldu bağırımın yaraşığı,
Göyün köksündən qopub sinəmə düşdü,
Könlümlə dodaq dodağa öpüşdü...
Allahım, bu nə işdi?!
Ah, bu gecənin ay işığı
Yoxsa olmusan mənimlə can aşığı?
Səni duya bilmirəm,
Səndən doya bilmirəm.
Nə də səni tənha qoya bilmirəm,
Bilmirəm.
Bilmirəm.
Ah, bu gecənin ay işığı!...

11.X.2001. /Pirallahı/

GECƏLƏR

Mənə ilham verər Rəbbim, fələyim,
Köksümə sığışa bilməz diləyim,
Qopar məhvərindən, sanki ürəyim,
Sabahın heykəlin yonar gecələr.
Sübhədək alışıb yanar gecələr.

Bir qərib quş olar könül axşamlar,
Sinəmin odundan əriyər şamlar,
Zülmət çarşabına bürünər damlar,
Ürəyim boyanar nura gecələr.
Sinəm ocaq olar qora gecələr.

Dolar bulud təki bağırımın başı,
Boğular bəbəkdə gözümün yaşı,

Bilmərəm nədəndir, qəlbin təlaşı?
Uçar yuxularım ərşə gecələr.
Çəkər ürəyimi şişə gecələr.

Hissim, həyacanım sarmaşıq təki,
Bürüyər sinəmi gur işıq təki,
O məcnun duyğular eyləyər ərki
Götürüb könlümü qaçar gecələr.
Qalaram sərgərdan, naçar gecələr.

Qəlbimin göyündə şimşəklər çaxar,
Ürəyim od alar yandırıb-yaxar,
O əsir vücudum kənardan baxar,
Dünya qürbət olar mənə gecələr.
Bataram dumana, çənə gecələr.

Dönüb qul olaram öz ürəyimə,
O da hakim olar hər diləyimə,
Bilməm cəza verər mənim nəyimə?
Quruca canımı alar gecələr.
Çılğın xəyallarla qalar gecələr.

Bir kimsə bilməyir nə zaman sonu?!
Bir andan sonraya nə gözlər onu?!...
Şadiman, dəyişər ruhumun donu,
Mələktək göylərdə gəzər gecələr,
Könlü duyğularla bəzər gecələr.

16.01.1999.

CANIM GECƏLƏR

Gecələr, talan gecələr,
Bəxti
mtək yalan gecələr.

Bədəndən könlü qoparar,
Əngin göylərə aparar,
Sükut bağrımı saranda
Yenə qəlbimi hey arar.

Gecələr, təzə gecələr,
Təbimi bəzə gecələr.

Sevincin sonu olmasın,
Çiçək kolunda solmasın,
Allah, çağlayan ürəyim
Heç vaxt ilhamsız qalmasın.

Gecələr, sirli gecələr,
Necə sehirli gecələr.

Unudaram tam özümü,
Kainat tutar gözümü,
Can bədənimdə alışar
Ürək yandırar közümü.

Gecələr, sultan gecələr,

Qəlbimi tutan gecələr.

Ey Yerin, Göyün zinəti,
Bir gəl könlümə xəlbəti,
O bircə anlıq sükuta
Bu dilim eylər minnəti.

Gecələr, kamım gecələr,
Tanrı ilhamım gecələr.

Göylərdə ulduz sayrışar,
Üfüq üfüqə sarışar,
Ürəyim sənə pərvanə
Yanıb oduna qarışar.

Gecələr, canım gecələr,
Ən pak ünvanım gecələr.

Şadiman canın gizləməz,
Getdiyin yolu izləməz
Açar qapısın tək sənə
Vallah, bir kimsə gözləməz.

Gecələr, beşik gecələr,
Çək könlə keşik gecələr.

13.07.2001.

BİR PARÇA DAM, SƏMA,
HEYVA AĞACI

Könülümü titrədən ilhamım qasid,
Dilsiz şərqiləri ruhumun tacı.
Boylanır pəncərəm önündə məsud,
Bir parça dam, səma, heyva ağacı.

Atılır otağa günün işığı,
Titrəyən yarpaqlar yellər aşığı,
Dənizin içində qəlb yaraşığı,
Bir parça dam, səma, heyva ağacı.

Tufanlar əsdirər taxta evciyi
Qərib sular üstə qərib inciyi,
Saxlayar bəlkə də qorxmaz divciyi
Bir parça dam, səma, heyva ağacı.

Soyuq ürəyimə bir ilham verər,
Danışan yarpaqlar ruha kam verər,
Duyğulu könlümə dadı tam verər,
Bir parça dam, səma, heyva ağacı.

O ağ qağayılar hey dövrə vurar,
Direklər üstündə, fəqət toy qurar,
Tanrı ətəyindən yapışar durar
Bir parça dam, səma, heyva ağacı.

Hardansa sərçələr çaşıb gələrlər,

Titrək yarpaqları eşqə bələrlər,
Torpaq ağrısıyla, sanki ölərlər...
Bir parça dam, səma, heyva ağacı.

Xəzərim sevgili dənizdir mənə,
Ürkək mələklərtək təmizdir mənə,
Uca saraylardan əzizdir mənə,
Bir parça dam, səma, heyva ağacı.

Burda uzaqdayam mən qayğılardan,
Yalançı, minüzlü o sayğılardan,
Yaranıb sevgili pak duyğulardan: -
Bir parça dam, səma, heyva ağacı.

Pəncərəm önündə hər yarpaq şanə,
Verər dilәkləri necə nişanə,
Allah, bənzəməsin heç pərişanə,
Bir parça dam, səma, heyva ağacı.

Ürək sükunətin eşqinə uyar,
O gen asimandan gözümmü doyar?
Dalğalar üstündə bu könlümə yar: -
Bir parça dam, səma, heyva ağacı.

Sıxma gözlərini, Şadiman, şehtək,
Oxşayar telini bu dəniz mehtək,
Fəth edib qəlbimi elə fatehtək: -
Bir parça dam, səma, heyva ağacı.

30.07.2001.

AÇ MƏNƏ QOYNUNU

Nədəndir gözlərin dolmuş mənimtək?
Bükmüsən boynunu, tənha qərənfil.
Üzünün səması solmuş mənimtək,
Aç mənə qoynunu, tənha qərənfil.

Gözünün yaşları düzülüb dən-dən,
Görmədim göylərdə bir bu boyda çən,
İzin ver bağrıma büküm səni mən,
Aç mənə qoynunu, tənha qərənfil.

Lalətək köksündə qanlar dənizi,
Sinəndə şehlərin mirvari izi,
Üzündə göylərin mələk bənizi...
Aç mənə qoynunu, tənha qərənfil.

Sanki qan ələnib ləçəklərinə,
Al qumaş bürünüb ətəklərinə,
Sürtürəm üzümü çiçəklərinə,
Aç mənə qoynunu, tənha qərənfil.

O məsum çöhrənə gülənin mənəm,
İndi hər acını bölənin mənəm,
Sənin ki, dərdindən ölənin mənəm.
Aç mənə qoynunu, tənha qərənfil.

Bir kimsə boynuna qolun salmadı,

O qərib könlünə yolun salmadı,
Daha Şadimanın tabı qalmadı,
Aç mənə qoynunu, tənha qərənfil.
5.09.1999.

DALĞALARIN MƏTBƏDİ

Allahım, ürəyimi
Mən Xəzərə vermişəm.
Hər çılğın istəyimi
Ona qurban demişəm.

Dalğalar pıçıldaşar,
Mənim könlüm alışar.
Sular nəğmələr qoşar
Duyğularla yarışar.

Xəzrisiz olan günü
Ləpələr gömgöy olar.
Dalğalar toy-düyünü
Küləksiz günə salar.

Qanad açar qağayı,
Süzər dənizin üstə.
Küləyin hay-harayı
Lay-lay deyər ahəstə.

Xırda balıq karvanı
Göy sulara səpilər
Üşüyər sızqa canı
Su dibinə təpilər.

Xəzri coşanda qəfil
Hönkürər lal dalğalar.
Hər ləpə, sanki bir fil,
Onda aslan gücü var.

Başlar dənizdə savaş,
Tufan dalğanı döyər.
Hər damla bir qanlı yaş
Xəziri özün öyər.

Pozular göy suların
Dünənki cah-cəlalı.
Könlümü narın-narın
Üşüdər bu məlalı.

Ürəyim də Xəzərin
Küləyiylə çarpışar.
Çəkib məndən nəzərin
Dalğalarla tapışar.

Atıb könlü fələyim
Gur sulara əbədi.
Ey Şadiman, ürəyim

Dalğaların məbədi!...

19.01.1999

NEYLƏSİN?

Dağların başını xəzan alanda
Çiçəyi, çəməni, gülü neyləsin?
Duman zirvələrdə yalqız qalanda
Rüzgar ağ qırçınlı tülü neyləsin?

Səf-səf qoşununu düzəndə bulud,
Harayı, həniri bir yanıqlı ud,
Hönkürtü çökəndə hər qovaq, palıd
Ormanın füsnükar yeli neyləsin?

Çiskin bürüyəndə qaya qaşını,
Buludlar tökəndə o göz yaşını,
Salanda kol-kosa ovçu başını
Kəkliyin, turacın dili neyləsin?

Torpaqda salanda xəzəl naxışlar,
Üzülər niskildən, qəmdən baxışlar,
Yağanda aramsız gurşad yağışlar
Dağların kükrəyən seli neyləsin?

Sapsarı göy, yerdən xəzan da razı,
Soyudar qanını payızın nazı,
Alanda çəməni, düzü ayazı

Üşüyən çiçəyin teli neyləsin?

Qaralar hikkədən dolar fələklər,
Yalmana, yamaca sazaq ələklər,
Hədəylə əsəndə soyuq küləklər
Dağların üşüyən beli neyləsin?

Yerlərin bağrından açılmaz buzu,
Düzdə anasına sığınar quzu,
Gecələr udanda bulud ulduzu...
Torpaq tir-tir əsən çölü neyləsin?

Yağanda fələyin ağappaq qarı,
Rüzgar inləyəndə hey zarı-zarı,
Donanda dəryanın suları, barı,
Ördəklər, sonalar gölü neyləsin?

Şadiman, payızın, qışın zəhmi var,
Vallah hər fəslin yaxşı fəhmi var,
Allahın bəndəyə, cana rəhmi var,
Bəs məzar içində ölü neyləsin?!...

10.Xll.1999

GECƏNİN ZÜMZÜMƏSİ

Həzin nəğməyə bənzər

Zülmətdə mehin səsi.
Könlümün evin gəzər
Gecənin zümzüməsi.

Dolar evə, otağa,
Gələr isti yatağa,
Nə söyləyər qulağa?
Gecənin zümzüməsi.

Qışın bu oğlan çağı,
Ay göylərin çırağı,
Söylər könlümə ağı
Gecənin zümzüməsi.

Oxşar bir həzin neyə,
Bənzər dodaqda meyə,
Oynar qəlbimlə niyə?
Gecənin zümzüməsi.

Yuxumu alar qaçar,
Cana od salar, qaçar.
İlhamıma yol açar
Gecənin zümzüməsi.

Mənimlə hey öcəşər,
Canıma atəş düşər,
Yanıb könlümlə bişər
Gecənin zümzüməsi.

Oxşaram nəğməsini,
O ilahi səsini,
Gizlər məndən əksini
Gecənin zümzüməsi.

25.01.2001.

QƏRİB ÇIRPINTISI VAR

Çırpınırsız ürəyimtək həzin-həzin dalğalar,
Eyvah,məzhun çöhrənizdə elə bil qəriblik var.
Xatırladır bu sədalar, sanki qəmli bir neyi,
Bəlkə narın pıçıltılar göy Xəzərin giləyi.
Çırpınırsız, bu haraylar könlümü ovutmayır,
Gecə-gündüz gözlərim də sizin təki yatmayır.
Siz Xəzərin sinəsində ağ örtüklü mələklər,
Sizə baxar çılğınlaşar bu sinəmdə diləklər.
O haraylar, o sədalar qəlbdən qopan ahmıdı?
Deyin Tanrı qarşısında ən böyük günahmıdı?
Hər dalğanın ədasından könlüm oynar uşaqtək,
Pıçıltılar hey dolanar ürəyimə qurşaqtək.
Siz atəşli qəlbimə ki, səpilən bulaq suyu,
Nə zamandan duyğum nalan, könlüm dərin bir quyu.
Çırpınırsız mənim təki həzin-həzin dalğalar...
Sizdə ağlar ürəyimin qərib çırpıntısı var.

04.01.2001

AMAN LALƏ

Nədəndir ki, bağrın qandır?
Könlümə bu nə divandır?
Qəlbin təki məni yandır...
Et tüstünü duman lalə,
İstəmirəm aman lalə.

Ləçəyinə qan çilənib,
Hansı əllə güllələnib?
Vücuduna şeh ələnib,
Ürəyimə eşq bələnib,
Çək bağrıma kaman lalə.
İstəmirəm aman lalə.

Ey çöllərin gözəl qızı,
Bəzəmisən yenə yazı,
Yanan könlə eylə nazı,
Et hicranı yaman lalə,
İstəmirəm aman lalə.

Başında göylərin tacı,
Sən gözəlsən, tale acı,
Tanrı qılmaz bir əlacı,
Verə sənə zaman lalə,
İstəmirəm aman lalə.

Sərin yellər ötür düzdən,
Yağır şehlər gözəl üzdən,
Əsirgəmə eşqi bizdən,

Eyləmə ah, aman lalə
İstəmirəm aman lalə.

Yaz köksündə bitərmisən?
Dağda, düzdə itərmisən?
Mənə cantək yetərmisən?!...
Bağrımı et al qan lalə,
İstəmirəm aman lalə.

Şadiman ki, kədər gərib
Vüsalını hicran dərib,
Ötürmə hər anı qərib,
Eylə könlü kaman lalə,
İstəmirəm aman lalə.

4.05.2000.

BU BAHAR

Bu bahar ürəyim dolub buludtək,
Könlümün dərdləri şimşəyə bənzər.
Tufanlara düşmüş tənha palıdtək,
Ürəyim özünə bir həyan gəzər.

Ünyetməz göylərin yağışı təki,
Dolar bəbəklərim selləri daşar.
Acı zamanların sərt qışı təki,
Ürəyim boranla hey pıçıldaşar.

Bu bahar gözümün donu açılmaz,
İşlər bir soyuqluq bəbəklərimə.
Könlümün göyündə Günəş saçılmaz,
Şaxta boran salar diləklərimə.

Bu bahar ürəyim tökər göz yaşı,
Könlümün göyləri buludlayar hey.
Elə sızıllayar qəlbimin başı,
Sanki qəlbin özü bir yanıqlı ney.

23.03.2000.

BU YAY BİR BAŞQA YAYDI

Bu yay bir başqa yaydı,
Bilməm nə haya haydı?
Günəş göydən boylanır,
Yer ahəstə haylanır,
Bu atəşin şövqünə,
O şahanə zövqünə,
Bu od bir qorxu, hürkü,
Adamı boğur bürkü.
Könlüm coşur duyğulu,
Zaman uçur qayğılı.
Diləklərim amadə,
Qəlbim həddən ziyadə,
Bürünüb od-atəşə,
Könlüm dönüb Günəşə.

Bu yay bir başqa yaydı,
Sinəmə şərqi yaydı,
Ürəyim aşıb-daşar,
Təbimlə pıçıldaşar.
Aləmi boğur isti,
Mənim qəlbimin üstü
Atəşlərə ocaqdır,
Közü qucaq-qucaqdır.
Gah Xəzərtək coşqunam,
Gah sellərtək daşqınam,
Yer, Göyə vurğun ürək,
Sinəmdən uçan mələk.
Aləmləri dolaşır,
Dağdan zirvəyə aşır.
Gözümün yuxuları,
Ruhumun qorxuları
Atəşlərə əsirdi,
Yer, Göy özü də sirdi.

Bu yay bir başqa yaydı,
Odu yellərə vaydı,
Könlümdə bilməcələr,
Qəmi udur gecələr.
Ürəyimlə xəlbəti
Ovlayır məhəbbəti.
Ulduzlar Ayı güdür,
Zülmətin bağrın didir.

Lal gecəylə üz-üzə,
İlham veririk sözə.
Qanadlanır diləklər,
Can, can deyir ürəklər.
Sevdamız qəlbdən uca,
Hər qəlb bir ruha baca.
Səadətdən uçuruq,
Xəyalları qucuruq.
Sevdamız şirinləşir.
Eşqimiz dərinləşir.
Qələm əlin mehmanı,
Xoşbəxt eyləyir canı,
Bu yayın atəşinə,
Yandıran Günəşinə,
Səcdədədir ürəyim.
Bilməm nədən, fələyim?
Nə həşirdi, nə haydı?
Bu yay bir başqa yaydı.

30.07.2000.

BULUD GÖZÜNDƏN YAŞ AXIR...

Yerdən göyə qan çıxanda,
Fələyin qəlbin sıxanda,
Külək buludu yıxanda,
Şimşək səmaya od çaxır,
Bulud gözündən yaş axır.

Tökəndə adəm qanını,
Verəndə haqqa canını,
Matəm edəndə anını,
Dünyanı başsız buraxır,
Bulud gözündən yaş axır.

Səmanın əldə qılıncı,
Yerə çatarmış bir ucu,
Boynuna düşmüş şər suçu,
İlahi, deyil ki, axır,
Bulud gözündən yaş axır.

Allahım, bu nə sitəmdi?
Gah toydu, gah matəmdi,
Dünya həm qəmdi, həm dəmdi,
Ürək yandıran göz baxır.
Bulud gözündən yaş axır.

Çoxu bürünüb qumaşa,
Dönüb çoxunda qəlb daşa,
Verib yer ilə baş-başa,
Hey qəlb yandırıb, can yaxır...
Bulud gözündən yaş axır.

Nədir, İlahi, bu gediş?
Düşüb çətinə hər bir iş,
Nahaq dilləri kəsməz diş!
Haqqın bağrına ox taxır.

Bulud gözündən yaş axır.

7.01.2000.

GÖYLƏRİN AĞ YAĞIŞI

Gözlərdən nəmi yuyur
Mum eyləyir sərt qışı.
Könüldən qəmi yuyur
Göylərin ağ yağışı.

Ələnər daş-divara,
Gecə, gündüz avara,
Sussuz torpağa çara
Göylərin ağ yağışı.

İsladar bağ-bağçanı,
Selə tutar qaçanı,
Üşüdər təndə canı
Göylərin ağ yağışı.

Yuyar gözdə yaşını,
Məzarların daşını,
Bilən varmı yaşını?
Göylərin ağ yağışı.

Buluddan inci çıxar,
Ərşə sevinci çıxar,

Torpağın dinci çıxar
Göylərin ağ yağışı.

Tut əlindən çıx göyə,
Gurşadlar döyə-döyə,
Haqqı var özün öyə
Göylərin ağ yağışı.

16.Xl.1999.

YAĞIŞLAR

Yağışlar fələyin axan göz yaşı,
Buludlar kədərdən dolan ürəyi.
Hər kiçik səyyarə göylərin daşı,
Hər ulduz səmanın zümrüd dirəyi.

Axşamlar parlayar göyün qoynunda,
İşıq leysanına düşər gecələr...
Ayın ulduzlarla səma oynunda
Qara köynəyində zülmət incələr.

Fələk gözlərindən axan yaşıyla
Yuyar bu dünyanın tökülən qanın.
Bəşər məzarlarda öz baş daşıyla
Dünyanın əlindən qurtarar canın!

Göylərin üzünü bulud alanda,
Asimanın qəlbi partlar kədərdən.
Şimşəklər səmanın saçın yolanda

Sanki can ayrılar tamam qədərdən.

Dünyanın başına yağanda yağış,
Fəqət candan çıxar dərdi doğrusu.
Gecənin bağrında açanda naxış,
Gedər gözlərindən şirin yuxusu.

Yağışlar səmanın şəfa bulağı,
Dönər şəlaləyə sular qismində.
Torpağın fəryadın alar qulağı
Aynatək parlayar yağış ismində.

Yağışlar çeşməyə can verən həyat,
Torpağın damardan axan qanıdır.
Ormana, bağçaya, bağa bir büsat,
Dünyanın, bəşərin, yerin canıdır.

Yağışlar səmanın axan göz yaşı,
Dünyanın bağrını dərddən yuyar hey,
Yanar əzablardan könlünün başı...
Dönər gurşadlara bu qəmli giley.

14.Xl.1999.

BAHAR YAĞMURLARI

Aparar soyuğun niskilin qəmin,
Yuyar gurşadıyla, sanki çölləri.
Sevincə bürüyər könül aləmin
Bahar yağmurları, bahar selləri.

Şimşəklər, buludlar necə ötüşər,
Candan sevənlərtək eşqlə öpüşər,
Göylərə bir dəli çaxnaşma düşər,
Bahar yağmurları, bahar selləri.

Otlar baş qaldırar torpağın altdan,
Düşər atın çapan o qış da atdan,
Yaşamaq qoxusu gələr həyatdan
Bahar yağmurları, bahar selləri.

Kiçik arxlar daşıb çaylara dönər,
Sızqa çeşmələrdə həyat döyünər,
Dəhnələr nəhirə dönüb öyünər
Bahar yağmurları, bahar selləri.

Çöllər leysanlara açar qoynunu,
O zərif bənövşə bükər boynunu,
Təbiət vəsf edər yazın oynunu
Bahar yağmurları, bahar selləri.

Ağaclar yamyaşıl donunu yuyar,
Bağlar yarpaqların hüsnünə uyar,
İlahi təbiət bu eşqi duyar.
Bahar yağmurları, bahar selləri.

Göylərin tərkində şimşəklər çapar,
Sanki gurultudan asiman qopar,
Vüsalın buludun qoynunda tapar

Bahar yağmurları, bahar selləri.

Buludlar göylərin döşün əməndə,
Boşalt ürəyini yuyunum mən də,
İsladım özümü çöldə, çəməndə
Bahar yağmurları, bahar selləri.

1.05.1999.

GÖYÇƏKDİ BAHAR

Bitdi çöl-çəməndə qışın savaşı,
Sevincdən buludun axdı göz yaşı,
Yaşıla bürüdü bahar dağ, daşı,
Güldü asimanda günəşin üzü,
Yaz heyrətə saldı gecə-gündüzü.

Çinarlar birboy da ucaldı göyə,
Zürafə hüsnüylə özünü öyə,
Şimşəklər çaxnaşdı buludu döyə,
Söyüdlər əyildi köksünə sarı,
Yer, Göy salamladı, sanki baharı.

Necə yaşılı don geyindi bağlar,
Çeşmələr torpağın döşündə çağlar,
Ruha qida verər ətirli çağlar,
Çünki bahar gəlib, İlahi, bizə,
Təzədən həyatdı o qəlbimizə.

Açar ağaclarda yarpaqlar bir-bir,
Gilavar bağların qoynunda xəlbir,

Xəlbəti küləklə kəpənək əlbir,
Çiçəkdən çiçəyə uçar bir anda.
Həyatdan köç edər güldən doyanda.

Dolaşar bağları quşların səsi,
Havadan duyular yazın nəfəsi,
Qışın əsiri yer qırar qəfəsi,
Sanki "Yallı" gedər baharla çöllər,
Baharın özütək al geyər ellər.

Odur təbiətin nazlı mələyi,
Coşdurar sinədə arzu, diləyi,
Yaşamaq eşqiylə dolan ürəyi
Diləklər üstünə qovar yel kimi,
Bahardır ürəyin yalnız həkimi.

Quşların cəh-cəhi bağda sazəndə,
Günəş od pərisi, bahar nazəndə,
Dağların boynuna dolanar çən də,
Qovar sis, dumanı o yaz yelləri,
Qıvrılar ilantək yağmur selləri.

Bahar səadəti dağın, daşın da,
Gəlindir çatılan ocaq başında,
Həyatdı buludun o göz yaşında,
Gözümüz önündə çiçəkdi bahar.
Bütün fəsillərdən göyçəkdi bahar.

30.04.1999.

PAYIZDA AÇILAN GÜLLƏR

Payızda açılan güllər hüzünlü
Üşüyər bostanlar, bağlar içində.
Küləyin əlində hey qaragünlü
Göz yaşı sel olar, ağlar içində.

Əsər başı üstə səba yelləri,
Titrər ayazlarda incə telləri,
Əyilər torpağa zərif belləri,
Təbiət duymayan dağlar içində.

Şaxtadan, sazaqdan ciyəri yanar,
Xəzan ayazında qəlbi dayanar,
Köksündə kədərlər, qəmlər oyanar
Dünyanın məlalı çağlar içində.

Göylər qaralanda təbiət solar,
O payız gülləri saçını yolar,
Vücudu, bənizi kədərli olar,
Ələm sevincini bağlar içində.

Qalmaz bağ-baxçanın xəzandan hayı,
Qalxar asimana güllərin vayı,
Payızın varından ah olar payı
Zərrə şadlığını dağlar içində.

Şadiman, payızın gülləri zərif,
Titrək yarpaqları, telləri zərif,
Eynini açmayır min cürə tərif,
Ah olar zamanlar, çağlar içində.

24.Xl.1999.

PAYIZDA GÖYƏRƏN OTLAR NƏ QƏMLİ?

Payızda göyərən otlar nə qəmli?
Üşüyər çəmənlər, çöllər içində.
Titrək baxışları, gözləri nəmli
Dumana bürünər yellər içində.

Payızda göyərən otların halı,
Niskilli qəlbimə tökər məlalı,
Fələyin davakar bu qeylü-qalı
Gurşada çevrilər sellər içində.

Yamyaşıl otların hüsnü pərişan,
Alar könlüm evin kədəri nişan,
O gözəl bahardan heç verməz nişan
Sızıltı duyular tellər içində.

Qışı haylayanda qasırğa, Xəzri,
Hər otun şəninə verər yer nəzri,
Sanki göy torpaqdan diləyər üzrü
Payızı danlayar illər içində.

Titrəyər səmanın köksündə şimşək,

Qışın gəlişinə etməz şübhə, şəkk,
Otlar boz düzlərdə üşüyəndə tək
Ağlayar sonalar göllər içində.

Payızda göyərən hər ot dad edər,
Soyuğun əlindən hey fəryad edər,
Üzün göyə tutar Rəbbi yad edər
Dili haray çəkər dillər içində.

Payızda göyərən otlar ağlayar,
Ümidin Allaha, haqqa bağlayar,
Tikanın, kolun da köksün dağlayar,
Bir həmdəm arayar güllər içində.

Şadiman, zamanın gedişi belə,
Verər hər canlının ömrünü yelə,
Qapını döyəndə əzrayıl hələ
Bir pənah tapmazsan ellər içində.

23.Xl.1999.

PAYIZ ÇİÇƏYİ

Əsdirir başında fələk yelləri,
Ələyir üstünə gurşad selləri,
Solur vücudunun yaşıl telləri,
Saraldır donunu, payız çiçəyi.
Gətirir sonunu, payız çiçəyi.

Sən ki, ormanların bir yaraşığı,
Sarı ot-əncərin oldun aşığı,

Ey bomboz çöllərin həyat işığı,
Nə incə mələksən, payız çiçəyi.
Torpağa ürəksən, payız çiçəyi.

Boylanıb baxırsan çəməndən, çöldən,
Sonalar seyrinə gəlibdi göldən,
De, mən necə doyum yamyaşıl teldən?
Duyğumu coşdurdun, payız çiçəyi.
Sellərtək daşdırdın, payız çiçəyi.

Baxıram göylərə qapqara bulud,
Hətta, xəzan çağı saralır palıd,
Titrək yarpaqların bir yanıqlı ud
Nə şərqi oxuyur, payız çiçəyi.
Ətrin qəm qoxuyur, payız çiçəyi.

Bağ-bağça ömrünü vurubdu başa,
Fəqət bənzəri var bir cansız daşa,
Şehin ləçəklərdə bənzər göz yaşa!
Qəlbi dağlayırsan, payız çiçəyi.
Yoxsa ağlayırsan, payız çiçəyi?

Kökündən qoparmaq səni çox ağır,
Üstünə fələyin leysanı yağır,
Tufanlara düşsən sən məni çağır -
Bir az sevgi istə, payız çiçəyi.
Alım könlüm üstə, payız çiçəyi.

Sən məndən canımı, ruhumu aldın,

Tənha səma altda kəməndə saldın,
Ovcumun içində ətrinlə qaldın,
Bu da bir eşqimi, payız çiçəyi?
Könlümlə məşqmi, payız çiçəyi?

Xəzanda göyərən otlar mükəddər,
Sənin də üstünü alıbdı kədər,
Sabah qarlı qışı gətirsə qədər...
Heç edər pöhrəni, payız çiçəyi.
Dondurar çöhrəni payız çiçəyi.

Niskilli çöllərin həyat sevinci,
Otlar arasında parlayan inci,
Ağrıyan könlümün qoy çıxsın dinci,
Gəl Şadimana yet, payız çiçəyi.
Könlünü yuva et, payız çiçəyi.

23.Xll.1999.

GÖYÜN GÖZÜNDƏN YAŞ AXIR

Soyuğu adam üşüdür,
Göy üzü yerə daş çaxır.
Bu da fələyin işidir,
Göyün gözündən yaş axır.

Nar təki şimşək çatlayır,
Buludun dizin qatlayır,

Dolmuş ürəyi partlayır,
Göyün gözündən yaş axır.

Külәkləri at üstədi,
Yəhəri min qat üstədi,
Bəşər əlində xəstədi,
Göyün gözündən yaş axır.

Damlalar dərddən qaradı,
Bilmir düşən yer haradı?
Köksünün içi yaradı,
Göyün gözündən yaş axır.

Üzündən şaddı deyirlər,
Hər şeyə yaddı deyirlər,
Bəs yeddi qatdı deyirlər,
Göyün gözündən yaş axır.

Ovub qəlbini kədəri,
Belə yazıbdı qədəri,
Bir sümük olub, bir dəri...
Göyün gözündən yaş axır.

Buludlar pərən-pərəndi,
Bıçaq sümüyə dirəndi,
Bu qəm görən çox sürəndi?
Göyün gözündən yaş axır.

Şadiman, gir qəm damına,

Çəksin səni qoy kamına,
İnnən belə de hamına
Göyün gözündən yaş axır.
23.Xl.1999.

KİMİYƏ ÖMÜR ACI, KİMİYƏ NƏŞTƏ TACI

AY AMAN

Hamı ölüb gedəsidi dünyadan
Əbədilik qalan kimdi ay aman?
Ömür keçir sanki iti röyadan
Bu cahanın olan kimdi ay aman?

Hər acıya, hər ağrıya, hər qəmə,
Ürəkləri dərdə basan hər dəmə,
Bəşər ilə çarpışan bu aləmə
Bulud təki dolan kimdi ay aman?

Bizdən əvvəl gələnlər nə gördülər?
Bu fələyin bağından ah dərdilər,
Haqq deyənin qollarını gərdilər,
Öz haqqını alan kimdi ay aman?

Oturmuşuq bu dünyanın belinə,
Şan verilir, şan bilməyən əlinə.
Bulaşırıq gözümüzün selinə
Öz saçını yolan kimdi ay aman?

Ağlar qalan bəbəklərdən yaş uçdu,
Dar ürəyə əyilməyən baş uçdu,
Ocaq söndü, barı çökdü, daş uçdu,
Ömrü boyu talan kimdi ay aman?

Zaman tutub əlimizdən aparır,
Sel coşanda kol-kosu tez qoparır,
Dəryalartək anlar üzə qabarır,
Açan kimdi, solan kimdi ay aman?

Şadimandan ürək edir əlhəzər,
Qopub içdən gecə-gündüz haqq gəzər,
Zəmanənin gərdişinə et nəzər,
Şərə zəfər çalan kimdi ay aman?

26.01.2000.

ƏBƏDİ KÖÇÜRDÜM

Deyirlər eşqidir dünyadan böyük,
Mən böyük bilirəm mənəviyyatı.
Ruhum bu bəşərə olmamaqçın yük
Əbədi köçürtdüm ora həyatı.

Cahan heç bir zaman tay ola bilməz

Bir təmiz, duyğulu mənəviyyata.
Ora ləkələr də iz sala bilməz
Əgər kök atıbsa ən dərin qata.

Mənəvi dünyası pak olan kəsin
Qəlbi hiylələrə can ata bilməz.
İçində batırar tamahın səsin
Könül rübabına kir qata bilməz.

Qırğına, ölümə batan yer üzü
Mənəvi dünyadan aslı qalıbdır.
Paklıqla çirkinlik çarpışar düzü
Orda hər ikisi yuva salıbdır.

Paklıq çirkinliyi devirər bir gün,
Əgər cəsur olub qələbə çalsa?
Cahanın bəxtindən açılar düyün
Təmiz mənəviyyat dünyanı alsa.

Onda nahaq qanlar tökülməz daha
Yerdə çiçək açar arzular bir-bir.
Çatar bu nidalar böyük Allaha,
Can olmaz Tanrının önündə əsir!

Deyirlər eşqidir dünyadan böyük,
Mən böyük bilirəm mənəviyyatı!
Ruhum bu bəşərə olmamaqçın yük
Əbədi köçürtdüm ora həyatı.

11.Xll.1999.

KÖNLÜMDƏN KEÇİR

Bu zaman necə sirli,
Qərinəli, əsrli,
İmarətli, qəsirli,
Hər addımda kəsirli,
Qəlbimin qanın içir.
Mənim könlümdən keçir.

Daşdan çıxır hər işi,
Əmmalıdır gedişi,
Qurddan itidir dişi,
Haqqlı, haqqsız gərdişi,
Bağrımın yolun seçir.
Mənim könlümdən keçir.

Səadəti bir damcı
Qəmi zəhərdən acı,
Əllərdədi haqq tacı...
Necə nəşəmi biçir.
Mənim könlümdən keçir.

Üzümə gülməyi var,
Hər qəmi bilməyi var,
Sonra da bölməyi var,
Dərdindən ölməyi var,
Hər ana, dəmə köçür.

Mənim könlümdən keçir.

Demə varlığın əbəs,
Cahan olsa da qəfəs,
Almaq üçün bir nəfəs,
Dəli yellər təki əs,
Gətirmə hər işdə nəhs,
Zalimin yolunu kəs,
Göyə, yerə salıb səs,
Ey Şadiman, niyə bəs?
Zaman eyləmir əcir, -
Mənim könlümdən keçir.

10.Xll.1999.

AY BU KÖNÜL YOXSULU

Çatsa ən uca ada,
Dahi olsa dünyada,
Varmı bəşərə fayda?
Yetişməyirsə dada,
Varlığı tikan kolu
Ay bu könül yoxsulu.

Ürəkdə heç nəyi yox,
İnsanlığa səyi yox,
Heç bir şeydə rəyi yox,
Sanki cansız heyi yox,
Olar tamahın qulu
Ay bu könül yoxsulu.

Fikri, zikri sərvətdir,
Qazandığı lənətdir,
Allaha xəyanədir!
Zənn elər dəyanətdir,
Düşünər bu haqq yolu,
Ay bu könül yoxsulu.

Hiyləsi başdan aşar,
Haramla pıçıldaşar,
İstəyi aşıb, daşar,
Dağı min dağa qoşar,
Cibləri haram dolu!...
Ay bu könül yoxsulu.

Başlara ağıl qoyar,
Özünü müdrik sayar,
Öz camalına uyar,
Yığdığından heç doyar?
Sanar özünü ulu,
Ay bu könül yoxsulu.

Xoş olar ahdan, vaydan,
Pul qoparar röyadan,
Sanki gəlibdi Aydan,
Köç edib bu dünyadan
Getməz ki, üzüsulu -
Ay bu könül yoxsulu.

11.Xll.1999.

AĞRIYAR

Dərdi-sərlə qaynayar qan
Bədən üstə baş ağrıyar.
Zülümlərdən inciyər can
Gözlərində yaş ağrıyar.

Ağıl çəkər hər cəfanı,
Ürək dadar hey səfanı,
Göz görməz heç bir vəfanı
Həm göz, həm də qaş ağrıyar.

Qaçar zaman dərd əlindən,
Düşməz yerə şər belindən,
Asılmışıq haqq telindən
Həm ömür, həm yaş ağrıyar.

Hər sifətdə min bir boyaq,
Ayaqlayar yeri ayaq,
Torpaq sanmaz onu dayaq
Daş üstündə daş ağrıyar.

27.01.2000.

GÜNAH EDƏNİ

Hər insan içində bir şeytan yatır,
Gah əsir eyləyir, gah əsir olur.

Onu dəf eləyən amala çatır,
Şeytanı qəlbində yalnız sirr olur.

Hər zaman şeytandan güclü olan kəs,
Ən ali, ən yüksək cəlala çatır.
Şeytan kəsiləndə varlığa qəfəs
O varlıq yiyəsi xəyala çatır.

İblislə bir yerdə doğulur adəm,
Onunla süd əmir ana döşündən,
İlk dəfə torpağa qoyanda qədəm,
Onunla zövq alır ilk yerişindən.

İnsan böyüdükcə iblis böyüyür,
Bəndənin içindən boylanır o da.
Sanki bəşər təki varlığın öyür,
Atır can yiyəsin çox zaman oda.

Çoxları qul olur şər mələyinə,
Gah yalan danışır, gah haram yeyir.
Yatır günahlar da lap ürəyinə,
Özün aqil sanır, özündən deyir.

Alır vücudunu şeytanı ələ,
Ona höküm verir cəlladlar sayaq.
Qan tökür, ev yıxır belədən-belə,
Sanır naqisliyi özünə dayaq.

Bütün yer üzünün günahlarını,
Nə dəvə daşıyar, nə də ki bərə.
Bəşər sinəsinin bu ahlarını,
Nə dərya götürər, nə də ki dərə.

Ölçüyə gəlməyən bu zülümlərin
Hakimi, məhkumu şeytandı yalnız.
Məzarlar tutmayan o ölümlərin
Başları üstündə ruhları yalqız.

Bütün əzabların yükün çəkən hiss,
Suçlunu, suçsuzu ararıq belə.
Bizim içimizdən boylanan iblis
Düşməyib soyuğa, istiyə hələ.

Yaşayar sinədə min bir diləklə,
Qəlbləri ağrıya, acıya bükər,
Elə dava-dalaş salar ürəklə,
O hara istəsə ağılı çəkər.

Kim öz iblisinə qələbə çalır,
O iki dünyaya rəhmət qazanır.
O kəsin ürəyin şeytanı alır,
Rəbbin qapısına yolu uzanır.

Hey haqqı tapdayıb haram yeyənlər,
Şeytanın əlində oyuncaq oldu.
Hər cür hiylələrdə varam deyənlər,
İblisin qəlbinə bir ocaq oldu.

Heç kəs şeytanına söyləməyir pis,
Özündən şeytanı güclü olanda.
Bizi öz könlünə qul edən iblis,
Bizdən uca olur ağlı alanda.

Bəşər öz evini iblislə yıxar,
Çox vaxt məğlub olar öz şeytanına.
Bədəndən can ilə şeytan da çıxar,
Qayıdıb gəlməkçin ruhun yanına.

Şadiman, Allahın qanunu belə,
Şeytanla sınayır Tanrı bəndəni.
Heç vaxt bağışlamıb İlahi hələ,
İblisə qul olub günah edəni?!...

27.Xl.1999.

BAŞ ÜRƏYİN ŞAHIDIR

Baş ürəyin şahıdır,
Vücudun Allahıdır,
Hər ömrün sabahıdır!
İnsanı alçaldan o,
Səbəbsiz qocaldan o.

Bənzəri var günəşə,
Qəlbi yaxar atəşə,
Hiss, həyəcan, əndişə,

Onun əmirilədir.
Hər şey səbirilədir.

Can bəla başdan tapar,
Bəbəklərdə yaş çapar..
Ürək yolundan sapar!
Səhv atanda addımı,
Uçub tökülər damı!...

14.01.1999.

ŞEYTAN YAŞAR

Hər ürək içində bir şeytan yaşar,
Əgər izin versən həddini aşar,
Tamahla, hiyləylə hey pıçıldaşar,
Çeşmətək sinədən qaynayıb daşar,
Getməz idraklardan şeytan havası,
Bitməz vicdan ilə bir an davası.

Hey çapdı atını qəlbdə sağ, sola,
Gəlmədi ömründə heç o haqq yola,
İnsan şüurunda eylədi bala,
Yapdı minarələr, yapdı çox qala,
Dağıtdı bəşərin cahi-cəlalın,
Artırdı günbəgün acı məlalın.

İblis cövlan edir hər dağda, daşda,
Şeytan zühur etdi beyində, başda,
Əlindən qalmadı gözlərdə yaş da,
Onun barmağı var hər bir savaşda,

Odur məmləkətlər qanla bələnib,
Onunçun dünyada haqq güllələnib.
24.Xll.1999.

BİR QÜRBƏT QUŞ UYAM

Bir qürbət quşuyam mən bu dünyanın,
Uçuram zamanın qanadlarıyla,
Naləsi yamanmış hər keçən anın,
Batmışam bəşərin fəryadlarıyla.

Harayım boğulub içdə səs kimi,
Sıxır canım məni bir qəfəs kimi,
Ömür gəldi-gedər xoş həvəs kimi,
Havalı cahanın imdadlarıyla.

Utancaq tarixin özü də ləkə,
Qalmayıb amanı hər zülmü çəkə,
Bitməyir dünyada savaş, mərəkə,
Tanrıya bəllidir bərbadlarıyla.

Zaman ki, tapınır qovhaqovuyla,
Bəşər də tanınır min bir ovuyla,
Allaha görk olur öz söz-sovuyla,
Ləkəli, ləkəsiz övladlarıyla.

Gələnlər dünyadan doyan deyillər,
Gəldilər bir-birin sayan deyillər,

Şirin canlarına həyan deyillər,
Gedənlər qalırlar öz adlarıyla.

Bir qurbət quşuyam sinəsi yanıq,
Ürəyi yaralı, qanadı sınıq,
Hamımız həyatda canlı insanıq,
Dillər niyə qabar bəs dadlarıyla?

11.07.2001 (Pirallahı)

ÖMÜRLƏR

Var yaxşı-yaman bir üzü,
Var ürəyində od-közü,
Sirli gecəsi, gündüzü,
Şam təki sönər ömürlər,
Xəyala dönər ömürlər.

Hey baharında açılar,
Nuru günəşə saçılar,
Qocaldı, əldən qaçılar,
Şahlıqdan enər ömürlər,
Xəyala dönər ömürlər.

Səadəti an qədərdi,
Şirinliyi can qədərdi,
Hayıf ki, əldən gedərdi,
Şərqitək dinər ömürlər,
Xəyala dönər ömürlər.

Çeşmələr təki hayqırar,
Fəryadı, heyhat hay qırar,
Bəxtiyarlığı vay qırar,
Zirvəyə sinər ömürlər,
Xəyala dönər ömürlər.

Zamanla elə döyüşər,
Hər ildə halı dəyişər,
Çox gününə də şər düşər,
Simurqa çönər ömürlər,
Xəyala dönər ömürlər.

Gəncliyi çağlar dənizmiş,
Hər şeydən bizə əzizimiş,
Fələyimizə kənizmiş,
Atından yenər ömürlər,
Xəyala dönər ömürlər.

Nədir, Şadiman, tələsər,
Başında qovğa hey əsər,
Edər ürəyi can-bəsər,
Sanar bir hünər ömürlər,
Xəyala dönər ömürlər.

20.09.2001. Pirallahı

MƏN İNSAN
AXTARIRAM

Günü günorta çağı,
Tutub əldə çırağı,
Küçələrdən keçirəm,
Hər gözdən qəm içirəm,
Aləmi seyr edirəm.
Yorulmadan gedirəm,
Ağında, qarasında,
Kütlənin sırasında,
Gözüm gəzir ac təki,
Könlümə əlac təki.
İzdihamı yarıram,
Mən insan axtarıram.

Hərənin öz dünyası,
Çoxu canından ası,
Kiminin cibi boşdu,
Kiminin qəlbi daşdı.
Biri lap göydə gəzir,
Addımı yeri əzir.
Neçə könlü məkirli,
Ürəyi, qəlbi kirli.
Ötür keçir yanımdan,
Haray qopur canımdan...
Yolun salır qanımdan.
Baxıram bu üzlərə.
O davalı gözlərə,
Ürəyimi qəm alır,
Gözüm gözlərdə qalır.
Min bir məna arıram,

Mən insan axtarıram.

Əqidəsi puçları,
Sinəsində suçları,
Qovuram baxışımla,
Gözdən axan yaşımla!
Deyirəm, İlahi, kaş
Ağılı, idrakı daş,
Keçməyə heç yanımdan,
Bu ilham ünvanımdan.
Gözüm gəzir üzləri,
Ürəklərin düzləri
Yoxuşundan az imiş,
Adəm nə dayaz imiş?
İçində iblis yağı,
Çox əməli bayağı,
Ötür keçir yel kimi,
Şeytan onun hakimi.
Küçə qaynar adamla,
Bu şəhər dolu damla,
Harasa tələsən var,
Taleyindən küsən var.
Baxır yanır ürəyim,
İmdada yet, fələyim!
İnsanlar yaxınında,
Bu adəm axınında
Ürəklərin pası bol,
Kədəri bol, yası bol,
Dilində duası bol...

Könlə ümid sarıram,
Mən insan axtarıram.
Mən insan axtarıram.
5.02.2000 Gəmidə.

GÖRDÜM

Hər bəxtin səadət qapısı bağlı,
Hər könlün içini yaralı gördüm.
Bir sinə varmı ki, olmasın dağlı,
Nəşəni sinədən aralı gördüm.

Elə təmizlikdən dəm vurdu hamı,
Elə göz olmayıb qalmasın kamı,
Çökərkən ömürün o həyat damı,
Vicdanı ortada qaralı gördüm.

Düşəndə işlərin yeddi düyünə,
Ağıl əzab verər yazıq beyinə,
Sarı don geyinib güllər əyinə,
Həyat bağçasını saralı gördüm.

Tanrı imtahana çəkir hey bizi,
Qurub qəm üstündə bu təxtimizi,
Bizə yar olmayan o bəxtimizi
Tale çöllərinin maralı gördüm.

Çirkin ürəkliyə şöhrət, san asan,
Şöhrətin yolunda külünk vurar can,

Son anda enəndə məzara insan...
Harada gəzirdi, haralı gördüm.
28.Xll.1999.

OLMASIN

Tökülsün könülə səadət, şadlıq,
Qəlbi dərdə salan kədər olmasın.
Bəxtin sarayına qonsun abadlıq,
Hər canı üşüdən qədər olmasın.

Gözlər heç görməsin ələm yaşları,
Sevinc olsun qəlbin can sirdaşları,
Dərdi-sər çatmasın heç vaxt qaşları,
Günün bir anı da hədər olmasın.

Zamandı başımız üstündə uçan,
Bizi qocaltmaqçın ömrə əl açan,
Vaxtsız bədənində canını qucan,
Əzrayıl qapını güdər olmasın!

Onsuz da çox deyil insanın ömrü,
Əymək istəyəndə Rəbb əyir dəmri,
Kaş haqqa yönələ fələyin əmri,
Dünyadan qismətsiz gedər olmasın...

Şadiman, pozulmaz Tanrı qoyan qol,
İstəsən buludtək hey boşalıb dol,

Bəşər kimliyini dərk etsin bir y
ol,
Özünə hər zülmü edər olmasın.
5.05.2000.

BƏDƏNİN ŞAHI

Baş bədənin şahıdı,
Ürəyin allahıdı,
Bəşərin günahıdı,
Odur bizi bişirən,
Bəlalara düşürən.

O hər təndən ucadı,
Tanrımıza bacadı,
Düşündükcə qocadı,
Ondan keçir işimiz,
Zamanla gərdişimiz.

Saat təki yoldadı,
Gücü qıçda, qoldadı,
Öz canıyla qaldadı,
Ölənədək döyüşər,
Dünyasını dəyişər.

Başdan başlanır həyat,
O güclü çapan Qırat,
Vardır onda neçə qat?
Açılmayan sirri var,

Hər qatında dürrü var.

26.06.2001. Pirallahı

OĞRU

Bəşər oğurluqla məşğul dünyada,
Bir gündə səbəbdi min bir fəryada.
Biri rüşvət alıb hər gün cib soyur,
Neçə imkansızın ürəyin oyur.
Kiminə oğurluq gündəlik peşə,
Çəkir zənginlərin ürəyin şişə.
Kimi bir özgənin yığdığı varı,
Dədəmalı təki eyləyir yarı.
Kimi könüllərdən közü oğurlar,
Kimi bir misrayçın sözü oğurlar,
Kimi sinələrdən ürək oğurlar,
Kimi fırıldaqdan kələk oğurlar.
Kimi ocağından külü oğurlar.
Kimi də bağından gülü oğurlar.

Bəşər bir-birini soymaqla məşğul,
Ayağının altın oymaqla məşğul.
Kimi şan-şöhrətə ucalmaq üçün,
Gecələr yatmayır çeynəyir için.
Mininə alçalsın, qul olsun nə qəm?
Yalançı şöhrətdən təki olsun dəm.
Çoxu mənliyini verdi şərəfə,
Kiminsə önündə çökdü min dəfə.
Çox vaxt ucalmaqçın yandıran qəlbin,
Görmür yıxılanda dərənin dibin.

Kimi özgəsinin məhəbbətini,
Müqəddəs, ilahi səadətini,
Sanki iblis təki keçirtdi ələ,
Qurdu bir bədbəxtin eşqinə tələ.
Kim xəstə ruhuna dad oğurlayır.
Kimi də özünə ad oğurlayır.
Hamı oğurluqla məşğul dünyada,
Lakin gətirmirik bircə an yada,
Bizdən yuxarıda Allahımız var,
Bilmirik heç neçə sabahamız var...
Tanrının əzrayıl bir mələyi var,
Ona da oğurluq ilahidən yar.
Hər şeyin oğrusu olan insanın,
Bir gün o əzrayıl oğurlar canın!...

4.02.2001.

DƏRD YÜKÜ

Hamının dərd yü
kü olan adamın,
Dərdinin yükünü çəkən tapılmaz.
İlahi, bəs niyə qəm əyən damın
Qəminin sinəsi dərddən çapılmaz?

Dağ yırta bilərmi dumanın şalın,
Çatsa da yeddi qat göyə qüdrəti.
Gedənlər aparmaz dünyanın malın
Yığsa da üst-üstə varı, sərvəti.

Hamının dərd yükü olmağa nə var,
Əgər gücün yetsə yükü çəkməyə.
Dərdi dərd aparar, dərdi dərd yuvar,
Yeni dərd cücərdib qəlbdə əkməyə.

Hamının dərd yükü olan könlümə
Dərdinin yükünü çəkən görmə
dim.
Bütün diləkləri talan könlümə
Bir ümid sarayı tikən görmədim.

12.06.2001. Pirallahı

KASIB ADAM

Ürəyi mərd kasıb adam,
Dərdi ona namərd adam,
Kasıb ikən ey mərd olan,
Yoxsulluğu bir dərd olan,
Nə varın var, nə dövlətin,
Çox-çox uca səadətin.

Haram tikə yeməyirsən,
Özünə şah deməyirsən,
Nə var, nə yox bilməyirsən,
Gündə yüz yol ölməyirsən,
Rəbb yanında haqqın uca,
Halallığın layiq taca,
Tapdığına şükür dedin,

Nə qazandın onu yedin,
Azad quşsan heç qorxun yox,
Nə azın var, nə çoxun yox,
Qorxa-qorxa gəzməyirsən,
Ürəyini üzməyirsən,
Yatağında yuxun qaçmır,
Ləyaqətin heç əl açmır,
Qapın açıq qonağına,
Şükürlüsən növrağına,
Özün kasıb, uşağın bol,
Hara getsən qorxusuz yol,
Cangüdənlər aramazsan,
Oğurlura yaramazsan,
Qapında heç qıfıl olmaz,
Ürəyinə şübhə dolmaz,
Qorxularla əsməzsən ki,
Taleyindən küsməzsən ki,
Mənliyini alçatmazsan,
Özünü oda atmazsan,
Şükür deməmiş yatmazsan,
Bu dünyadan köçəndə də,
Ölüm camın içəndə də,
Bir həsirin, bir yesirin,
Nə bir varın, nə bir sirrin,
Səni rahət dəfn edərlər,
Məzarını nə güdərlər...
Evin təki qəbrin sadə,
Heç kəs qalmaz bu dünyadə.
Bəşər Rəbbin köləsidi,

Hamı bir gün öləsidi!
Ürəyi mərd kasıb adam,
Bir taleyin, bir uçuq dam.
9.04.2001.

BİR GÜN VARSAN

Mən,mən deyib öyünmə,
Canı üzüb döyünmə,
Ucuzlaşıb deyinmə,
Ömrə bel bağlama çox,
Bir gün varsan, bir gun yox.

Haram etmə mayanı,
Gəl itirmə həyanı,
Çırpma daşa qayanı,
Elə bir qüdrətin yox,
Bir gün varsan, bir gün yox.

Hərzə-Hərzə danışma,
Hər bir işə qarışma,
Ürəyinlə yarışma,
Fələk vuran zərbə ox,
Bir gün varsan, bir gün yox.

Bizdən əvvəl gəldilər,
Qəlbi dərdlə dəldilər,
Gün gəldi ki, öldülər,

Tanrı bilməz nə ac, tox,
Bir gün varsan, bir gün yox.

Fələyin qəm sarayı,
Batır içdə harayı,
Gedər ömrünün hayı,
Kimə qaldı ki, az, çox,
Bir gün varsan, bir gün yox.

Dünyadan kim yarıdı,
Kim ki, kimi darıdı,
Fələk onu arıdı...
Gələnlə etdi hə,yox,
Bir gün varsan,bir gün yox.

Bağlanma felə,fəndə,
Biz ki Rəbbə daməndə,
Yolunu azan bəndə,
Nəfisinə bıçaq sox,
Bir gün varsan,bir gün yox

Ömrün bəxti kəm qaldı,
Haqq gözündə nəm qaldı,
Şadimana qəm qaldı...
Etmə,könül, hey ah,ox
Bir gün varsan, bir gün yox.

13.04.2001. Neft daşları.

YANDIRIR BƏŞƏRİN İÇİN

Günəş öz gözündən Aya nur verir,
Zülmətin üzünü ağartmaq üçün.
Kainat dünyaya bir qürur verir,
Bu qürur yandırır bəşərin için.

Zaman öz atını çapır ley təki,
Əzən əziləni günahkar sanır.
Tökülür qədəhə ömür mey təki,
Qədəh boşalantək həyat dayanır...

Bir-birinə yağı başda fikirlər,
Ağıl yiyəsini yoldan azdırır.
Dolaşıb dünyaya kirli məkirlər,
Ölənin özünə qəbir qazdırır.

Hər səhər özüylə gətirir ələm,
Gecənin özü də sabahdan qaçır.
Əkilən fidanlar olmamış qələm,
Torpağın bağrına yararlar açır.

Bəşərin felindən doyub kainat,
Vurur mizrabını yerin siminə.
İnsana canından bu şirin həyat,
Bağlıdır Tanrının bircə himinə.

Heç kəs düşünməyir apardığı nə?
Zamanın köksünü didir şir təki.
Dünyanın dərdini yazmaq ənənə,

Tarix özü böyük bir naşir təki.

Gecənin köksündə sayrışan ulduz,
Əfsus qaranlığa, sanki bıçaqdır.
Olub sinələrdə ürəklər də buz,
Ah bu nə zamandı, ah bu nə çağdı.

Bizi ayaq üstə gəzdirdikcə hey,
Cahan fırlandıqca, baş da fırlanır.
Doğulub öləndən sinədə giley,
Gözümüz içində yaş da fırlanır.
Heç nəyin qədrini bilməyən insan,
Öləndə canından bərk-bərk yapışır.
Ona şirin gəlir hər bir ötən an,
Ruhu uçanadək cismi çarpışır.

Bu boyda dünyanı isidən günəş,
Niyə alovuyla yandırmaz özün?
Bəşərin köksündən sıçrayan atəş,
Bəs neçin cahanın qarsıdır üzün.

Niyə ac yaratdı Tanrı bəşəri,
Odur ki, dünyadan doymayır gözü.
Rəbb ələ alaydı ömürlük şəri,
Necə ələ alıb gecə-gündüzü.

Günəş öz gözündən Aya nur verir,
Zülmətin üzünü ağartmaq üçün.
Kainat dünyaya bir qürur verir,

Bu qürur yandırır bəşərin için

14.03.2001 Neft daşları.

DEYƏR

İlahi, diləklər dəryasayağı,
Yağışa yağ deyər, selə yet deyər.
Dəyəndə şadlığın canə ayağı,
Kədərə dağ dəyər, dilə yet deyər.

Cahanın cəlalı Tanrıya çıraq,
Çiskini dağların saçına daraq,
Sinəsi nalənin ahından iraq,
Nə dadlı çağ deyər, yelə yet deyər.

İlahi siləndə ağrı-acını,
Zinətə salanda tale tacını,
Aranda dərdinin hər əlacını,
Canına sağ deyər, ilə yet deyər

Hər tən ki, hər cana qızılı lalə,
Hər kəsdən asılıdı sala hər halə,
Elə ki, sinəni əridir nalə,
Qaraya ağ deyər,elə yet deyər.

İdrakdı ağılın yeganə şahı,
Əkizdi içində naləsi, ahı,
Canı səyyarədə gəzər Allahı...

Sinəyə yağ deyər,telə yet deyər

27.04.2001

OLAR

Ağıl başa tac olanda,
Can bədənə bəzək olar.
Hiss idrakdan bac alanda,
Qəlb ayağa xizək olar.

Şüuruna şəri tökmə,
Tamaha qul olub çökmə,
Bacarırsan yükün çəkmə,
Çəksən könlün təzək olar.

Ömür ötən quşa bənzər,
Bəbəkdəki yaşa bənzər,
Üstündə daş-qaşa bənzər,
Üstü bəzək-düzək olar.

Sinəndəki qəlbi qoru,
Bürüməsin hiylə toru,
Əgər varsa haqqın qoru,
Ürək cana özək olar.

Özün yerdə Rəbb sayanlar...
Allahlığı dəb sayanlar,
Bu dünyanı həb sayanlar,

Göydə,yerdə Rəbb tək olar !...

Ey Şadiman,can gedəri,
An, zamanın əldə zəri,
Əzrayılın yolu bəri,
Olsa, tənin kəsək olar.
29.11.2001.

GƏRƏK

Şərəf də ucadı,namus da uca,
Kimsə ayaqlara atmasın gərək.
Dünyada təmiz ad layiqdi taca,
Heç kəs əyriliyi tutmasın gərək.

İlahi bir ömrü bəxş edib bizə,
Unutma, yolların yoxuşu nizə,
Edək yaxşılığı dönsün dənizə,
Hiylə pərdəsini tutan bənizə
Özünü bəşərə qatmasın gərək

Qoy təmiz ad qoyaq fani dünyada,
Şərəfsiz ömürdən kimə nə fayda?
Buluddan özünü qoruyur Ay da,
Əzəldən belədir cahanda qayda
Doğulan çirkaba batmasın gərək.

Çalış olmayasan nəfisin qulu,

Sınaqlarla dolu bu həyat yolu,
Gurşadlar aparır tikanı,kolu,
Fələyin qoyduğu imzanı, qolu
Heç kəs tamahına satmasın gərək.

Eşq də ötəridi, gənclikdə əlbət,
Qoru pozulmasın arada nisbət,
Sonradan hönkürüb ağlama xəlbət,
Gül ötəri hissə deyib məhəbbət...
Bülbülün qoynunda yatmasın gərək.

Dünyanın qulağı deyildir ki,kar,
Hər kəsin qabında olan aşikar,
Zaman eyləməyir kimsəni inkar,
Hər çatan etməsin zirvəni şikar
Layiqsiz şöhrətə çatmasın gərək.

Sanma, ey Şadiman, bu həyat sadə,
Hər ömür zamanın əlində badə,
Badə içiləndə dəm qalır dadə,
Bəşər öləcəyin salmayıb yadə
Hiyləsin dünyaya çatmasın gərək.

28.Xl.2001.

ARZULAR

Vuran ürəklərin qəlb məsləkdaşı,
İnsanı güldürür hər qədəm başı,
Baxmayır müdrikdir, ya da ki naşı,
Hər duyan ürəyə sirdaş arzular,

İnsan taleyinə qardaş arzular.

Bircə dəqiqədə könlü şad edən,
Qorxağın, namərdin bağrını didən,
Bir anda köməksiz qəlbi isidən,
Ömrün hər gününə mayak arzular,
Canlı kainata dayaq arzular.

Qoymaz ki, naümid heç bir nəfəri,
Qəlblərin ilk kəşfi, böyük səfəri,
Açılan sabahın yeni zəfəri,
İnsan taleyinin özü arzular,
Hər bir qələbənin gözü arzular.

O qurub yaradan nəcib əllərin,
Qəlblərə ruh verən tuti dillərin,
Yaş üstünə gələn saysız illərin,
Ürəyi, nəfəsi, canı arzular,
Vuran nəbzlərin qanı arzular.

Körpəyə, cavana, qocaya həmdəm,
Könüllərin dostu, arxası hər dəm,
Dərdli ürəklərdə qoymaz bircə qəm,
Dərmansız dərdlərə şəfa arzular,
Saf düzlük, etibar, vəfa arzular.

İlk anda, ilk sözə sadiq qalana,
O ilk məhəbbətdən doğan yalana,
Ürəyi ömürlük dərdə salana

Ən böyük məsləhət, dirək arzular,
Ürəyi xəstəyə ürək arzular.

İllərlə yataqda xəstə olana,
Varlığı qüssəylə dərdlə dolana,
Sevinclə şadlıqla şərik hər ana,
Ən ülvü, ən yeni həyat arzular,
Tükənməz xoşbəxtlik, büsat arzular.

Altun əməllərin qəlbə ələnir,
Sayəndə ürəklər eşqə bələnir,
Əlindən qüssələr çöldə dilənir,
Daim gülümsərdir bəniz arzular,
Coşğun tələtümlü dəniz arzular.

Ürəkdə qələbən sonsuz bəslənir,
Ölməz sinfonyadır nəşən səslənir,
Duyğular üstünə duyğular enir,
Parlaq müjdələri pak iz arzular,
Şadlıqla, sevinclə əkiz arzular.

Sənin böyüklüyün dəniz qədərdir,
Bəzən sonu şadlıq, bəzən kədərdir,
Bəzən müqəddəsdir, bəzən hədərdir,
Ay sirli, söhbətli, sözlü arzular,
Ay odlu, alovlu közlü arzular.

Həqiqət, xəyanət olmuş ocağın,
Gah düzlük, gah pislik, sənin bucağın.

Ya ölüm, ya həyat sirli qucağın...
Tarixə şan-şöhrət, şərəf arzular,
Ay pak vicdanlara əşrəf arzular.

Bəzən tikir ellər, obalar salır,
Bəzən də zamanı geriyə salır,
Bəzən nota dönüb şadlıqlar çalır,
Gah qəmli, qüssəli ağlar arzular,
Gah çılğın gurlayar, çağlar arzular.

O əqil, düşüncə yolun dananda,
Büdrəyib özünü şərə yananda,
Gözüylə arayıb kömək ananda,
Hamıya dar gündə təbib arzular,
Tənha könüllərə həbib arzular.

Fəqət, insan adlı bir cəmiyyətin,
Daim ömür edən bəşəriyyətin,
Ürəklərə keçən əbədiyyətin,
Susmaz nəğməsidir bil ki, arzular,
Bunu deyə bilmir dil ki, arzular?

Torpaq üstə gəzən canlı xilqətin,
Sel kimi gurlayan pak həqiqətin,
Min illər çağlayan qalibiyyətin,
Duyğusu, amalı, özü arzular,
Aqil şüurların sözü arzular.

Çılğın düşüncələr sirlər ümmanı,

Şirin xəyalların röya dumanı,
Sanki quş qanadlı əsrin zamanı,
Əzəl ixtiyarı, kamı arzular,
Ey könül ləzəti, tamı arzular.

İnan tükənməyən bir ülviyyətin,
Ən ali, ən sonsuz səmimiyyətin,
Hər şeylə ölçülən saf kəmiyyətin,
Dövləti arzular, varı arzular,
Duyan ürəklərin yarı arzular.

Gah qəzəbə, gah da bir kinə dönür,
Ya od atəş olur, ya da ki, sönür,
Hərdən namərdliklə, mərdliklə dinir,
Bəzən əyriliyi quran arzular,
Lapdan xəzri, tufan, boran arzular...

Birdən keşməkeşli necə gedişi?
Qəlbə hakim olan şərdir hər işi,
Gahdan acı olur şirin gülüşü,
Bəzən etibarsız olur arzular.
Niyə barlı, barsız solur arzular?

Neylim kainata fitnən yamandır,
Gah aydın, gah çiskin, gah da dumandır,
Sirli əməlləri oxsuz kamandır,
Çəkir kainata keşik arzular...
Ay bütün cahana beşik arzular.

Haqsızlıq görəndə dərddən boğulan,
Düzlük beşiyində ey pak doğulan,
Ehtiras odunda hərdən yuğrulan,
Dəyənət, əzəmət seli arzular,
Cəsarət, mətanət eli arzular.
Hərdən şirin, şəkər, hərdənsə acı,
Aqil şan-şöhrətin başların tacı,
Şücaət, şəfaqət əqlin turacı,
Könlü bülbül təki açan arzular,
Qartaltək zirvəyə qaçan arzular.

Beyinin, şüurun, zehnin aynası,
Azad duyğuların nazlı sonası,
Əzəl insanlağın dahi anası,
Hərdən mərhəmətə dönən arzular,
Sonu çatan şamtək sönən arzular.

Bu günün, sabahın təmiz əməli,
Yaşamaq eşqiylə yaradn əli,
Xoşbəxt gələcəyin azad təməli,
Milyon könüllərə səda arzular,
Məğrur xoşbəxtliyə ada arzular.

İnsan, kainata şaqraq gəlişin,
Dodaq təbəssümün, incə gülüşün,
Bu fani dünyada hey yüksəlişin,
O çağlar könlünə həyan arzular,
O sərban ömürə əyan arzular.

21.03.1978 /Yasamal/

HƏKİMLƏR

Həkimlər, bir dərman icad eyləyin,
Nurlu ömürləri uzatmaq üçün.
Siz allah bəşərə nicat eyləyin,
Dünyanın əzabın azaltmaq üçün.

Həkimlər, göylərdə ulduzu sönən
Kor olan fələyin çırağı olun.
Əzəldən taleyi yolundan dönən
Ölən ümidlərin varağı olun.

Elə dərman tapın ürəyimizə,
Nə çox şirin olsun, nə də çox acı.
Ölüncə ağrısız can versin bizə,
Min bir dərdimizə tapsın əlacı.

Həkimlər, bədəndən pak canı gedən,
Solan ömürlərin olun işığı.
Bütün Yeri, Göyü bəzəkli edən
Bəşərdi dünyanın hey yaraşığı.

İmdada möhtacdı yataqda xəstə,
Sağalmaz dərdlərə şəfa tapaydız.
Həyatla döyünür ürək can üstə,
Ölümün özünə vəfa tapaydız.

Rəbb elə yaradıb insaniyyəti,
Dəvayla, dərmanla bağlıdır sizə.
Qoymayın qırıla insan həyatı,
Vaxtsız matəm düşə bu evimizə!...

Həkimlər, bir dərman icad eləyin,
Qoy o kor qəlblərə işıq, nur olsun.
İçdiyiniz andı siz yad eyləyin,
Yolunuz üstündə qoy uğur olsun.

Heç vaxt itirməsin öz şərəfini,
Dünyada müqəddəs pak həkim adı.
Qoru yer üzünün sən əşrəfini,
Xəstə ürəklərdən kəs o fəryadı.

Həkimlər, əksiltmin siz mərhəməti,
Etməyin tamaha fəda pak andı.
Mümkünsə hər dərddə sədd qoyun qəti,
Axı bu dünyada ən şirin candı.

Həkimlər, haqq qoymun insanın üstə,
Hər dərdə düşənin imkanı varmı?
Əzrayıl güdükçü hər canın üstə,
Ölümün zamanı, məkanı varmı?

Həkimlər, bir dərman icad eyləyin,
Nurlu ömürləri uzatmaq üçün.
Siz Allah bəşərə nicat eyləyin,
Dünyanın əzabın azaltmaq üçün.

15/16.03.2001.

KÜLƏYİ ÖTƏN GƏMİ

Ah, yenə izdiham, dəniz limanı...!
Yaman külək əsir, üşüdür canı.
Köpüklü dalğalar necə rəqs edir,
Dəniz neftçiləri növbəyə gedir.
“General Əsədov” gəmisi durur,
Dəniz limanında lövbərin vurur.

Adamlar atdıqca pilləyə ayaq,
Xəzər qəh-qəh çəkir dəlilər sayaq.
Bir azdan neftçilər yerlərin tutur,
Çoxu ayaq üstə, çoxu da yatır.
Gəmi yola düşür Neft daşlarına,
Dalğalar can atır oda sarına.
Necə külək əsir, rüzgar qorxulu,
Hələ ləpələrin çoxu yuxulu.
Top təki atdıqca dalğa gəmini,
İtirir binəva tamam çəmini.
Gəmi ləngər vurur, başlar gicəlir,
Yorğun ürəkləri ah-aman dəlir!
Hələ altı saat yol getməliyik,
O mənzil başına biz yetməliyik.
Dənizdə fırtına, dənizdə külək,
Bizi imtahana çəkir bu fələk,
Dalğalar üstündə gəmi yel təki,
Sanki taleyimiz saçda tel təki.

Gərir küləklərin biləyin gəmi,
Elə heyran edir dilsiz aləmi.
Dalğalar şığıyır hey üstümüzə,
Fəqət, dişlərini qıcıyır bizə!

Pulun daşdan çıxır, zəhmət adamı,
Qoymasın könlündə küləklər kamı.
Üstünüzdə olsun Allahın gözü,
Tanrı söndürməsin ürəkdə közü,
İşiniz daima yolunda olsun,
Sizə kəm baxanın gözü oyulsun.

Gəmimiz yetişir Neft daşlarına,
Bənzər dəli dalğa göz yaşlarına!
Son qoyur qəlblərin o ah-zarına,
Könüllər qovuşur öz ilqarına.
Ah, necə dəlisən, cənub küləyi,
Ey ünsüz göylərin şıltaq mələyi.
İndi necə düşək bu dalğa ilə?
Yandırıb ürəyi döndərmə külə.
Bəlkə rəhm edəsən, gələsən dilə?
Çevirmə zamanın anların ilə.

Özülə yan alır, dayanır gəmi,
Qayğıya, zəhmətə boyanır gəmi.
Piləkən qoyulur birinci qata,
O yorğun ayaqlar özülə çata.
Fəqət, aman vermir külək bir an da,
Ah, aman duyulur, sanki hər canda!

Cəmi iki nəfər düşür özülə,
Dalğalar bənzəyir bir azğın filə,
Piləkan yığılır birinci qatdan,
İki əl yapışır, hənuz həyatdan...
Dalğalar gəmiylə şirtək savaşır,
Yorğun adamların səbiri daşır.
Qoyulur ikinci qata piləkan,
Azğın dalğalara bata piləkan.
Adamlar piləkan üstündə əsir,
Gəmi yırğalanır, canlar tələsir...
Özünü özülə çatdırmaq üçün,
Allahım, bu qəfil fırtına neyçün?!
Əsən pillələrdən adamlar qaçır,
Xəzər əjdahatək, sanki od saçır,
Ağır çantalar da əllərdə nalan,
Düşənə mərd deyir, arxada qalan.
Mən də çətinliklə düşürəm ordan...
Qoparıb qaçıram könlümü dardan!
Düşənlər qalana acıyır necə?
Sanki lap aşacaq gəmi indicə.
Tökülür adamlar gəmidən hamı,
Qalır ürəyində küləyin kamı.
Düşənlər düşürlər, fəqət gedənlər...
Onların sevincin ləpələr dənlər.
Ötür pillələri ayaqlar bir-bir,
Göyərtə əlçatmaz, göyərtə nə sir?
Necə yellənçəktək yellənir gəmi,
Sanki nalə çəkir dillənir gəmi.
Yığıb adamları o düşür yola,

Qalır Neft adamı Xəzərə qala!
Çörəyi dənizdən çıxan adamlar,
Hər cür əzabları ürəkdə damlar!...

6.02.2000

DƏRD AĞILARI

Dərd gəldi soruşmadan,
Halıma qarışmadan,
Mənlə söz güləşdirdi,
Usandım yarışmadan.

Dərd gəldi daddı məni,
Arıtək uddu məni,
Min ilin ölüsünə
Nə yaman qatdı məni?

Dərdə səddim olmadı,
Əydi qəddim olmadı,
Üst-üstdən çəkdi dağı
Haya həddim olmadı.

Dərdimə tay tapmadım,
Saymağa say tapmadım,
Gəzdim obanı, eli,
Bir belə vay tapmadım.

Dərdin bostanı göydü,
Artdı özünü öydü,

Mən dərdə neylədim ki,
Elə başıma döydü.

Dərd canımı aradı,
Arayıban arıdı,
Elə vurulub deyən
Bu könlümün yarıdı.

Dərddən can alan olmaz,
Etdiyi yalan olmaz,
Çıxart bazar, dükana
Onu heç alan olmaz.
Dərdini köz eyləmə,
Etdiyin söz eyləmə,
Səndən üz çevirəndə
Sən ona göz eyləmə.

Dərdin dumanı olmaz,
Yaxşı, yamanı olmaz,
Dərd əgər içindəsə
Gedən zamanı olmaz.

Dərdə sovqat deməzlər,
Yaxşı ovqat deməzlər,
Salsa səni tələyə
Ova ov qat deməzlər.

Dərddən saray yapılmaz,
Yapılıbsa çapılmaz,

Dolaş bütün cahanı
Dərdimə tay tapılmaz.

Dərd, çırağın sönəydi,
Göy başına enəydi,
O günüm şad olardı
Məndən üzün dönəydi.

Dərdin üzü boz imiş,
Ürəyi bumbuz imiş,
Hamıya acı canım
Dərd üçün ulduz imiş.

Dərdi kim deyir görüm?
Eyləyim seyir, görüm,
Kim görüb ki, dünyada?
Mən də bir xeyr görüm?

Dərd qəlb tacı deməzlər,
Hər əlacı deməzlər,
Hansı dərd bal dadıb ki,
Ona acı deməzlər?

Dərd düyünümə düşsün,,
Səsi ünümə düşsün,
Heç kəsi istəmirəm,
Mənim günümə düşsün.

Mizrab telə gəlməmiş,

Könül ələ gəlməmiş,
Gülüm kolunda soldu
Xəzan hələ gəlməmiş.

Sinəmdə dağı neylim?
Dilimdə ağı neylim?
Üzümə gülənlərim
Arxamda yağı neylim?

Könlə əlacı neylim?
Ağartdı saçı neylim?
Kimsəyə dəyməz canım,
Hamıya acı neylim?

Nəşəm göyə sovuldu,
Yuvasından qovuldu,
Ömrüm çay daşı təki,
Selə düşdü ovuldu.

İpək aldım boz gəldi,
Min arşınım yüz gəldi,
Niyə mənim xəzanım,
Bağça, bağdan tez gəldi?

Qələmimi qəm doğdu,
Gözlərimi nəm doğdu,
Nəşəni, ya ələmi
Rəbb əmriylə dəm doğdu?

Təbimdən qala yapdım,
Dörd yanı qaya çapdım,
Cumdum söz dəryasına
Sədəfdən inci tapdım.

Can ürəyə tən olmaz,
Nə bədən, nə tən olmaz,
Sevmə qərib ölkəni,
Sevsən də vətən olmaz!

Ölənlə ki, ölməzlər,
Məzarı tən bölməzlər,
Şadiman qan ağlayır,
Bir haraya gəlməzlər.
29.06.2001.

MÜJDƏ YUVASI

Təzə il, könlümün müjdə yuvası,
Sən təzə əsri gətirdin bizə.
Dünyanın dilinin Tanrı duası
Qonsun sülhün quşu qoy evimizə.

Təzə il, çarə et göz yaşımıza,
Qoy dünya evində savaş olmasın.
Hiylə yol tapmasın heç başımıza.
Bir ana gözləri qəmdən dolmasın.

Güllə tökülməsin gülə, çiçəyə,
Gəlişi xoş olsun təzə eranın.
Sülh təzə əsrdə dönsün gerçəyə
Bəzəsin dünyanın hər gələn anın.

Onsuz da ölümdür sonu insanın,
Gülləyə, vuruşa, qana nə halət?
Fitnədən olmasın donu insanın,
Dünyanı əlinə alsın ədalət.

Təzə il, bizim də könlümüz nalan,
Yurdumuz, yuvamız, elimiz əsir.
Ya olsun bu dünya büsbütün talan,
Ya haqqa yer versin bu təzə əsr!

Təzə il, duyğular qoy çiçəklənsin,
Zamanın nəbizin sülh cilovlasın.
Dünyada həqiqət hey gerçəklənsin,
Bu yer kürrəsindən zülmü qovlasın.

Meydan oxumasın din-dinə heyhat,
Dinlərdən yuxarıda Allah ki durur.
Gözəl duyğularla coşsun bu həyat,
Dünyanı əzəldən insanlar qurur.
Təzə il, baxışın, yerişin təmiz,
Təmizlik iz salsın dünya evinə.
Hiylələr, fitnələr çöksün haqqa diz,
Kaş bütün kürrəmiz bir yol sevinə?

Zülümlə didməyək bir-birimizi,
Allah bəndələri qoy dinclik tapsın.
Çiçəklər ovlasın hey əlimizi,
Könül göylərində diləklər çapsın.

Təzə il, könlümün müjdə yuvası,
Sən təzə əsri gətirdin bizə.
Dünyanın dilinin tanrı duası
Qonsun sülhün quşu qoy evimizə.

31.Xll.2000.

TAPDANAN HAQQLAR

Tapdanır insanın hər yerdə haqqı,
Ayırd etmək olmur nahaqla haqqı.
Hər canın acısı ərşə bülənddi,
Dünya başdan-başa hiylədi, fənddi.
Ağlayan gözlərdə yaş da qalmayıb,
Hər şeyi düşünən başda qalmayıb.
Allah da, Tanrı da, Rəbb də kasıbın,
Yoxdur haqsızlığın çəkən hesabın.
Kim-kimi tapdadı, kim-kimi əzdi,
Yalan ayaq tutub dünyanı gəzdi,
Hiyləylə çəkilir başa fitnə, şər,
Düşüb ayaqlara inləyir bəşər.
Allahdan qorxusu yoxdur çoxunun,
Ürəyə tuşlanan zülüm oxunun

Yarası sağalmır ölənə qədər.
Kasıbın dünyaya gəlməsi hədər.
Hər yerdə tapdanan hqqımız nalan,
İçimiz, bağrımız, sinəmiz talan.
Əzilən ümidlər pərən-pərəndi,
Hər cəfaya dözən dünya ərəndi.
Elə ədalətdən dəm vurur bəşər,
Demir ki, içində yuva salan şər.
Çalxadır nehrətək dünyanın için,
Bu qanlar, qırğınlar, ölümlər neçin?
Düzlükdən danışır hər addım hamı,
Uçur başımıza Allahın damı!
Titrəyir yerin də bağrı qanlardan,
Tanrı cana doyub bu divanlardan...
Niyə zənginlərin Allahı yoxdur?
Niyə Allahsızın qarını toxdur?
Dünyada ağadır haram yeyənlər,
Özün Tanrı sayıb varın öyənlər.
Hər yerdə tapdanan könlümüz ağlar,
Çəkilir üst-üstdən sinəyə dağlar.
Kilsə də, məscid də acın pənahı,
Niyə imkanlının yoxdur Allahı?!
Sinəmiz içində könlümüz naçar,
Namusa, şərəfə hiylədir açar.
İşi rəvan gedər yalnız məddahın,
Haqsızlar məzarlar haqlının ahın,
Dünya duyanlara bir çətin yoldu,
Bu yolun yırtığı, yamağı boldu.
Məzardır anlayan başlara ömür,

Bu ömrün sabahı qapqara kömür,
Zaman içirdikcə zəhər camını,
Aldı duyanlardan min yol kamını.
Əzilənin haqqı dünyadan böyük,
Hamımız dünyanın boyununda yük.
Bizdən səadəti əsirgəyən Rəbb,
Veribdi həyatı bizə acı həb.
Onun səfasından cəfası ağır,
Odur ki, başlara od-alov yağır.
Haçan gələcək ki, o məşhər günü,
Zülümün, hiylənin yarsın köksünü.
Bir yolluq dünyanın axıtsın qanın.
Qurtarsın bəşərin hiylədən canın.
Çəkilibdi başa hiylə, qan, qada,
Haçan olacaqdır düzlük dünyada?
Yalanlar, böhtanlar çəkilir başa,
Dönübdü bəşərin ürəyi daşa.
Bağrımı yandırır bu düşüncələr.
Ömrümtək varlığım, qəlbim incələr.
Zaman da baxtımtək yığıb köçünü,
Yandırır atəşlə, odla içini.
Hicranı bol olan bu Şadimanın,
Dondurar dünyanın sazağı canın.

19/20.01.2001.

DAŞ EYLƏ, ALLAH!

Son qoy bu dünyanın matəmlərinə,
Hər zülmün yuvasın faş eylə, Allah.
Ya dözmə fələyin sitəmlərinə,

Ya mənim könlümü daş eylə, Allah.

Sonu axşam olur gələn gündüzün,
Hiylələr bürüyüb, vallah Yer üzün,
Ya çiçəktək açdır sevincin üzün,
Ya mənim könlümü daş eylə, Allah.

Hər tərəfdə ağrı, hər tərəfdə ac,
Şərəfli, şərəfsiz başa qoyur tac,
Ya gəl bu dərdlərə bir yol et əlac,
Ya mənim könlümü daş eylə, Allah.

Görəndə körpənin dərdi dağ boyda,
Əyilir fəraqdan Günəş də,
Ay da,
Ya bu Yer üzünə qoy qanun, qayda,
Ya mənim könlümü daş eylə, Allah.

Dilsiz ağacların kəsilir başı,
Satılır çox yurdun torpağı, daşı,
Ya vicdan qulu et bədəndə başı!
Ya mənim könlümü daş eylə, Allah.

9.05.2000.

İŞIQ VER MƏNƏ

İlahi, azacıq işıq ver mənə,
Qoy səpim dünyanın kor gözlərinə.

Ruhlar fəqan ilə yetməsin sənə,
Qayıtsın insanlar qoy özlərinə.

İlahi, azacıq işıq ver mənə,
Bənzəri olmasın onun heç nəyə.
Bu işıq od qoysun dumana, çənə,
Onun hər zərrəsi zülməti əyə.

İlahi, azacıq işıq ver mənə,
Şəfəqi azalıb səhərlərin də.
Haqq ayaqlar altda itməsin yenə,
Batmasın dünyanın qəhərlərində.
6.08.2000.

HAQDAN GƏLƏN SƏSLƏR

Boğdu məni bu ələmlər,
Bəşər etdi könlə qəsdlər.
Bitməzmi heç böylə dəmlər?
Siz ey haqdan gələn səslər.

Ciyərimə dolduz mehtək,
Çapdız qəlbdə bir fatehtək,
Bəbəklərdə doğduz şehtək,
Siz ey haqdan gələn səslər.

Tapmadım heç bir dəm aram,
Sağalmadı könül yaram,
Ürəyimi eylədiz ram,
Siz ey haqdan gələn səslər.

Alışdıqca közüm artdı,
Tale qəlbə zəhər qatdı,
Məni adəm oda atdı!
Siz ey haqdan gələn səslər.

Hey apardız iqtidarı,
Ümidlərim yolda yarı,
Qəlbdə nə var böldüz yarı,
Siz ey haqdan gələn səslər.

Canım çıxdı boğazımdan,
Tel qırıldı qəlb sazımdan,
Dilim qopdu ağızımdan!
Siz ey haqdan gələn səslər.

Can dedikcə canım yandı,
Gündə min yol qəlb dayandı,
Könül oda hey boyandı,
Siz ey haqdan gələn səslər.

Hər gecəmə layla olduz,
Hey nəşəylə, vayla olduz,
Bağrıma nə hayla dolduz?

Siz ey haqdan gələn səslər.

Ürəyimi alın çəndən,
Qırmın könül telin dən-dən,
İstəyiniz nədir məndən?
Siz ey haqdan gələn səslər.

Sanki qəlbi yel eylədiz,
Diləyi tel-tel eylədiz,
Gözdə yaşı sel eylədiz,
Siz ey haqdan gələn səslər.

Könlümü nə qovhaqovdu?
Kədər məni satdı, sovdu,
İçimdə bu nə alovdu?!
Siz ey haqdan gələn səslər.

Bəbəklərdə doğdu nəmlər,
Ürəyimi boğdu qəmlər,
Bitmədi ki, bu ələmlər?
Siz ey haqdan gələn səslər.

Nə vaxt girdiz otağıma,
Pıçıldadız qulağıma,
Hey qor tökdüz yatağıma!
Siz ey haqdan gələn səslər.

Evimdə bir mələkmisiz?
Qəlb içində diləkmisiz?

Hər yük çəkən ürəkmisiz?
Siz ey haqdan gələn səslər.

Canımdakı köz ovuldu,
Qəlbdən göyə kül sovuldu,
Şadiman ki, Rəbbə quldu!...
Siz ey haqdan gələn səslər.
18.03.2000. Pirallahı

ALLAHIM

Ömür sarayından düşdükcə daşlar
Pozulur hər işin çəmi, Allahım.
Kəhriztək bəbəyə dolduqca yaşlar
Artar gözlərimin nəmi, Allahım.

Dolan ürəyimi boşaltmaq çətin,
Etiraf şərəfi səmimiyyətin!
Mən mətin bilmişdim, qəlbimi mətin,
Bəs nədir könlümün qəmi, Allahım?

Güldürə bilməyir məni bu zaman,
Hər yandan könlümə dolur ah, aman,
Çıxır yolum üstə bəs niyə hər an?
Hər işin kəsiri, kəmi, Allahım?!

Bitib tükənməyir haqdan divanım,
Qapımdan kimdir ki, şəri qovanım?

Fələyin yadından çıxmaz ünvanım -
Artırar dərd verən dəmi, Allahım.

Fələk həvəskardır hey baş qatmağa,
Niskilli könlümü dərdə atmağa,
Qoymur Şadimanı gecə yatmağa...
Könlümün həm zili, bəmi, Allahım.
12.Xll.1999.

GÜLDÜRMƏDİ

Qəh-qəh çəkdi əzabıma,
Zülüm etdi bildirmədi.
Zəhər tökdü qəlb qabıma,
Fələk məni güldürmədi.

Gözlərimdə yaşı uddu,
Ürəyimi qəmə tutdu,
Niyə könlü bəs unutdu?
Fələk məni güldürmədi.

Harayımdan aləm yandı,
Zaman durdu, vaxt dayandı,
Fəryadımdan haqq oyandı,
Fələk məni güldürmədi.

Mən ona can söylədim ki,
Qurbanlıq can eylədim ki,
Mən fələyə neylədim ki,

Fələk məni güldürmədi.

Ürəyimi etdi sipər,
İstəyimə çəkdi çəpər,
Duymadım heç ondan təpər,
Fələk məni güldürmədi.

Şadimanın dərdi çin-çin,
Ağlar könlü için-için,
Bilmirəm ki, Rəbbim neçin?
Fələk məni güldürmədi.

5.07.2001. Pirallahı.

UCALDAQ İSLAMI

Olub məşhədi, hacı,
Müsəlman qardaş, bacı.
Yeyirlər haram filan,
Çoxunda iman yalan.
On dəfə gedir haca,
Etməyir kömək aca,
Qəm qatmaz əhvalına,
Etməz fəna halına,
Dünənki toyda özüm,
Gördü bir hacı gözüm,
Alıb ikranı ələ,
Etmədi uf da belə.
Yedi kabab sayağı,

Güldü sonra bayağı.
Dedi Rəbb nemətidi.
İlahi qismətidi.
Meyisim çəksə əgər,
Günahdı yemək məgər?
Məşhədə, Haca gedən,
Haqqı ziyarət edən,
Doydura bircə acı,
Edə yetmə əlacı.
Su çəkə, məktəb açа,
El içində nur saça.
Demirəm getmə Haca,
Allahın yolu uca,
Qonuma-qonşuna bax,
Qazanda aşına bax,
Yetim tələşına bax,
Sal yerə bişmişini,
Çağır bir ac kişini,
Eylə savab, işini
Düzəldər Allah özü.
Odur xəlq edən bizi,
İslamın dini uca,
Deyir kömək et aca.
Millətin yarı işsiz,
Qalıb qazanı bişsiz.
Ziyarət də burdadı,
Xeyrat də burdadı.
Küçədə ac uşaqlar,
Kirlə dolu qurşaqlar...

Səkilərdə dolaşır,
Toz, torpağa bulaşır.
Kimi pulsuz, çörəksiz,
Kimi pullu ürəksiz,
Vətənin könlü yarə,
Bunlara edək çarə.
Müsəlman qardaş, bacı,
Quranın səvab tacı.
İslamı şövqləndirək,
İşığın rövqləndirək.
Bir ayağımız burda,
Bir ayağımız gorda.
Fələk bizə nə yazar?
Müdhiş ölüm, dar məzar!
Ucaldağın islamı,
Bunu düşünsün hamı.

1.XI.2001.

KİŞİDİ BU

Hiylə, fitnə başına tac
Hər dərdinə şərab əlac,
Arvad, uşaq evində ac,
Kişinin öz işidi bu,
Kişidi bu, kişidi bu.

Heç eyləməz cəfa cana,
Nə düşüb ki, oda yana,

Butulkadı bacı, ana,
Kişinin öz işidi bu,
Kişidi bu, kişidi bu.

Arağ verin qoy dəmlənsin,
Paprosundan göz nəmlənsin,
Dil şərabla hey təmlənsin,
Kişinin öz işidi bu,
Kişidi bu, kişidi bu.

İşi atıb evdə yatsın,
Arvad, uşaq batır batsın,
Tək arağa əli çatsın,
Kişinin öz işidi bu,
Kişidi bu, kişidi bu.

Dil-dodağa şərab nəşə,
Evdə yataq rahat guşə,
Hey düşsə də dilə, dişə,
Kişinin öz işidi bu,
Kişidi bu, kişidi bu.

Arvad düşsün dağa, daşa,
Uşaq acsa döysün başa,
Bu da ona bir tamaşa,
Kişinin öz işidi bu,
Kişidi bu, kişidi bu.
Tula kökdən gələr tazı,
Bazu getməz yeməz azı,

Niyə çəksin uşaq nazı
Gopla vursun göydə qazı,
Kişinin öz işidi bu,
Kişidi bu, kişidi bu.

Hey hamını evdə danlar,
Xoruz təki bərkdən banlar,
Nə namus, nə vicdan anlar,
Kişinin öz işidi bu,
Kişidi bu, kişidi bu.

Ona, buna borca gedər,
Qarınına qulluq edər,
Butulkanın dibin güdər,
Kişinin öz işidi bu,
Kişidi bu, kişidi bu.

Sərxoşluqdu zövqü-səfa,
Arvad, uşaqda nə vəfa?
Çəkdirməyir cana cəfa,
Kişinin öz işidi bu,
Kişidi bu, kişidi bu.

Yalanı dildən düşməyir,
Borca kimə ilişməyir,
Ağız-dodaq bitişməyir,
Kişinin öz işidi bu,
Kişidi bu, kişidi bu.

Ailəsini tənbeh edər,
Can qədəhə şəbeh edər,
Öz-özünü valeh edər,
Kişinin öz işidi bu,
Kişidi bu, kişidi bu.

Balaların gözü yaşlı,
Arvadının başı daşlı,
Ana doğub yaxşı-başlı,
Kişinin öz işidi bu,
Kişidi bu, kişidi bu.

Vurulub öz cəmalına,
Kimsə tənmi kəmalına,
Gözün dikər yad malına,
Kişinin öz işidi bu,
Kişidi bu, kişidi bu.

İçində iblis yerləşər,
Paxıllığı bağrın deşər,
Ayaqlara enər, düşər,
Kişinin öz işidi bu,
Kişidi bu, kişidi bu.

İtiribdi namus, arı,
İçki, siqar könül yarı,
Qədəhində şərab yarı,
Kişinin öz işidi bu,

Kişidi bu, kişidi bu.

Can qalacaq, bir də araq,
Ömür ötür varaq-varaq,
Əhvalını gəlin soraq,
Onunla nöş ara vuraq?
Kişinin öz işidi bu,
Kişidi bu, kişidi bu.

30.X.2001.

GÖZÜNÜN İŞIĞIN ALMA

Sənə yalvarıram, sən ey Yaradan,
Sənindi bu ürək, bu könül, bu can.
Yoluna qurbandı damarımda qan,
Bu fani bəndənə biganə olma,
Anamın gözünün işığın alma.

Sənə and verirəm ucalığına,
Könlümü döndərmə kədər dağına,
Rəhm eylə, Allahım, qocalığına,
Bu qədər könlümü möhnətə salma,
Anamın gözünün işığın alma.

O ki, taleyimin ömür tacıdı,
Ana qəmin çəkmək qəlbə acıdı,
Bütün dərdlərimin hər əlacıdı,
Sən ey xeyirxahım, xeyrdən qalma,

Anamın gözünün işığın alma.

Al bu ürəyimi sinəmdən qopar,
İstəsən tənimi məzara apar,
Gözümün nurun al, səndən nur tapar,
Saplağı olmadan durarmı alma?
Anamın gözünün işığın alma.

Taleyi sən yazıb, sən də pozarsan,
Kimə çox, kimə az ömür yazarsan,
Əlimizlə bizə qəbir qazarsan,
Yerin, göyün şahı qəzəblə dolma,
Anamın gözünün işığın alma.

Verdiyin həyatdı bəşərin kamı,
İlahi, gəl eşit sən bu ricamı,
Sənin əlindədi o ömür camı,
Onu müsibətlə daşlara çalma,
Anamın gözünün işığın alma.

Hökmün qarşısında Şadiman nəçi?
Yollar yorğunudu bu ömür köçü,
Bitməz əzrayılın heç biçhabiçi...
Ömrün son şərqisin amansız çalma,
Anamın gözünün işığın alma.
Anamın gözünün işığın alma.

29.08.2001.

ÖTMƏYƏCƏKDİ

Uyma bu dünyanın ahi-zarına,
Uysan da könlündən getməyəcəkdi.
Aldanma ötəri şirin varına,
Aldansan sevdası biltməyəcəkdi.

Bəzən yaxşılığa edilər pislik,
Tamah güc gələndə mala hərislik,
Alsa ürəyini ələ xəbislik,
Dadına ağılın yetməyəcəkdi.

Dünyadan nə alıb, nə aparırıq?
Zülümlə taledən gün qoparırıq,
Niyə bir-birini gözlə darırıq?
Darsaq da bir fayda etməyəcəkdi.

Ya yamanlıq eylə, ya da ki, xeyir,
Mədəndə haramı halaltək əyir.
Edilən müqəddəs kitablar deyir: -
Tanrı hüzurunda itməyəcəkdi!

Bəşər Rəbb əlində bir tabaq xəmir,
Mələk özbaşına sözünü demir,
Allahın evindən gəlməsə əmir,
Quşun da qanadın ütməyəcəkdi.

Şadiman, çırpınma yazıq, biçarə,

Bəndəyə gəlibsə haqdan, nə çarə?
Salsan da qapını qıfıl, açarə
Rəbbin nəzərindən ötməyəcəkdi.

3.07.2001.

HAMI ŞETR YAZIR

“Hamının şer yazmasından
şikayətlənən bir şair qardaşa!”

Hamı şer yazır deyirsən zala,
Niyə narahatsan, ay şair qardaş?
Salıb ürəyini qəmə, məlala,
Bunu bir dərd təki eyləyirsən faş.

Varsa qələmində iqtidar, hünər,
Niyə ürəyində şübhələr gəzir?
Bəlkə qorxursanki tərifin enər,
Onunçün könlünü əzablar üzür.

Deyirsən bəs niyə mühəndis, həkim,
Alim də, fəhlə də şerlər yazır?
Fitrən istedadın varsa, söylə, kim?
Sənin yazdığına quyular qazır.

Bəlkə qorxursan ki, özündən qabaq,
Yazdığın şerlər ölüb gedəcək?
Adın da batacaq sözündən qabaq,

Sənin kimliyini sübut edəcək.

Min il torpaq altda qızıl qalsa da,
İtirmir əvvlki parıltısını.
Günəşin üzünü bulud alsa da,
Yenə də göstərir sarıltısını.

Siz ey şairliyi peşə sayanlar,
Vallah mühəndislik, həkimlik peşə.
Bir sətir misrayçın sinə oyanlar,
Şer parça deyil ləkələr düşə.

O ki, qəlb içinə düşən bir atəş,
Allahın verdiyi nemətdi şeir.
Bütün zamanlarda parlayan Günəş,
Şairin özütək heyrətdi şeir...

Hamı şeir yazır, deyirsən zala,
Yazan bol olanda qiymət də artır.
Yapdınsa şerdən ən uca qala,
Qalanın ucası zirvəyə çatır.

11.06.2000.

OLMAZ

Fələk mənə edər cəfa,
Cəfadan heç bezar olmaz.
Hər könüldə olsa vəfa,
Məhəbbətə azar olmaz.

Solar güllər xəzan vaxtı,
Hər çəməndən gülzar olmaz.
Sevən qəlbin əhdi varsa,
Sevdiyinə dil zar olmaz,
Bir-birini duysa bəşər,
Hər təndən tez məzar olmaz.
İnsan elə varlıqdır ki,
Tanrı kimi o var olmaz.
Duyğulardan qopsa şeir,
Eldən ona həzar olmaz.
İlham ki, var Allahdandı,
Hər yetəndən yazar olmaz.

28.08.2001.

TÜLKÜ XİSLƏTLİ ADAM

Boyu bir balaca,hiyləsi böyük,
Dünyanın özünə dünya boyda yük.
O murdar xislətin içində gizlər,
Qohumu,qonşunu,hamını bizlər.
Hərdən bir dilənçi,hərdən pinəçi,
Heç kəsə göynəməz könlünün içi.
Paxıllıq qəlbini dağıdar, deşər,
İçində ən böyük iblis yerləşər.
O zülüm eyləyər hey arvadına,
Üç uşaq anası bədbəxt qadına.
Yalnız qulluq edər öz boğazına,
Yeməkçin yaranmış lağ-lağ ağzına.

Canını hamıdan artıq istəyər,
Kişiyəm, deyərək özünü öyər.
Özgə uşaqlara baxar balalar,
Bir parça çörəyçin saralıb-solar.
Qadın ürəyində çəkər bu dərdi,
Bəxtinə çıxardıb Tanrı namərdi.
Bütün cavanlığı solub puç olub,
Dünyaya gəlməkmi ona suç olub?
Sığınıb namusa, ismətə qadın,
Batırıb köksündə ahın, fəryadın.
Bir parça çörəyə möhtac diləyi,
Partlayır ələmdən, dərddən ürəyi.
Kimi bir övladın həsrətin çəkər,
Kimi də şüursuz hey əkib, tökər.
Ondakı böyütmək məqamı yetər,
Sinəsi içində bir tikan bitər.
Nədir körpələrin görən günahı?
Tutar bir gün sizi onların ahı!
Boyu bir balaca əməli zəhər,
Ömrünü keçirir fəndlə bir təhər.
Özü qəh-qəh çəkər öz əməlinə,
O tülkü xisləti zinət əlinə.
Qohumdan, qonşudan qalsa da dala,
Tökər tuluğuna hey bala-bala.
Arağdan, çaxırdan sipirtdən vurar,
Baş yekə beyini, düşüncəsi dar.
Balalar sərgərdan, balalar nalan,
O tülkü xislətə qarındı qalan.
Faş edər dilənçi, murdar adını,

Salar qapı-qapı öz arvadını!
Elə hiylələrlə canın saxlayar,
Beyindən laxlayar, başdan laxlayar.
Hərə öz nəslinə kökünə bağlı,
Kök ilə, soy ilə fırladar ağlı.
Naqisin balası naqis olacaq,
Aqilin balası aqil qalacaq.
O iblis xislətlər nə qədər ki, var,
Fələk hamımızın burunun ovar!
Qurunun oduna yaş yanar axı,
Ürək vurmaq üçün baş yanar axı.
O tülkü xislətin yeri cəhənnəm,
Bu fani dünyada dünya ona dəm.
O murdar tuluğun doldursun hələ,
Versin balaların haqqını yelə.
O kölə qadını əritsin şamtək.
Dərdini şişirtsin ürəkdə damtək.
Hər şeyi biləndi, görəndi Tanrı,
Hamının əməlin böləndi Tanrı.
Onun da cəzası yetişər, gələr,
Onun da etdiyin İlahi bölər.
Qoy hələ unutsun öz Allahını,
Qədəhlərə töksün o günahını.
Şərabla çimdirər mələklər onu,
Zənn edən məzardır həyatın sonu,
Görəcək Allahın qadirliyini,
Bizlərdən yüksəkdə nadirliyini.
Onda yetməyəcək kimsə dadına,
Özü batacaqdır öz fəryadına!

Hər şeyi, hamını görəndi Tanrı,
Bəşərin haqqını verəndi Tanrı.

22.08.2001. Pirallahı

BİRDİR HAQQA YOL

Görkəmi insan,
Şeytana bənzər,
Bir belə asan
Qəlbdə kin gəzər.
İçdə böylə şər,
Necə yerləşər?

Biz ki, hamımız,
Adəm övladı.
Birdi damımız,
Asiman adı,
Vallah, ay bəşər,
Yer, Göy birləşər.

Gəlin can deyək,
Bir-birimizə.
Şərə yan deyək,
Qan çıxıb dizə.
Ey şər adamı,
İnsandı hamı.

Ömür çox qısa,
Qara, ağ çağı,

Batırıb yasa
Çəkməyən dağı.
Uçar damımız,
Ölər kamımız.

Paxıllıq deşər,
Qəlbin içini.
Ayağa düşər
Al
lahın dini...
Hər şər ürəkdə,
Ağlar fələk də.

Bəşərin sonu
Məzarda bitər.
Cırıb şər donu
Düzlüyə yetər -
Yalnız qananlar,
Haqqa yananlar.

Ey şər adamı,
Anla bircə yol,
İnsandı hamı.
Qoyma şərə qol.
Pislik yamandı,
Etmə amandı.

Əgər içini
Hiylə didirsə,

Ömür biçini
Kinlə gedirsə,
Ayıltma şəri,
Udar bəşəri.

Çünki bu həyat
Deyil əbədi.
Qəlbə xeyri qat
Ürək məbədi.
Ömür, gün asan,
Olsun ey insan.

Bir gün əzrayıl
Döyər qapını...
Taleyə mail
Ömür sapını
Qırar yel təki,
Yuvar sel təki.
Darar tel təki.
Rəbbin adəmi,
Nə zili, bəmi?
Ayığı, dəmi,
Qiymətini bil,
Hörmətini bil.

Bizdən sonraya
Xeyir, şər qalar.
Düşəndə vaya
Ömrümüz solar.

Zəhmətimiz bol,
Birdir haqqa yol.
8.03.2000.

ÇIXAR CANI YOXSULUN

Dərdlərinə çarə hanı yoxsulun?
Bundan sonra çıxar canı yoxsulun!

İtiribdi çoxdan varı-mülkünü,
Mehman edib qəlbə qorxu-hürkünü,
Çörək üçün satıb köhnə kürkünü,
Qaralıbdı yaman qanı yoxsulun.
Bundan sonra çıxar canı yoxsulun.

Haram cibli tikir hündür imarət,
Sonra gedib hacı edir ziyarət,
Vicdan qarət, iman qarət, din qarət,
Əhvalını yaxşı tanı yoxsulun,
Bundan sonra çıxar canı yoxsulun.

Quru evin heç-neçəyə satıbdı,
İnnən belə Aşqabadtək batıbdı,
Olan-qalan bəxti daha yatıbdı,
Oğul, uşaq dolu yanı yoxsulun,
Bundan sonra çıxar canı yoxsulun.

Kim çatıbdı bu dünyada karına?
Sığınıbdı namusuna, arına,
Quru çörək tapmayır heç qarına,
Batdı qalan adı, sanı yoxsulun,
Bundan sonra çıxar canı yoxsulun.

Fələk yoxdan daş yağdırıb başına,
Heç baxmayır gözdən axan yaşına,
Divan tutub daş üstündə daşına,
Damarında donub qanı yoxsulun,
Bundan sonra çıxar canı yoxsulun.

Hey səbrinin ağzın duzla ovubdu,
Nəyi varsa hər gün satıb-sovubdu,
Şər, xətanı özündən yan qovubdu,
Dərdi çoxdu tükü sanı yoxsulun,
Bundan sonra çıxar canı yoxsulun.

Külfətinin baxa bilmir gözünə,
Nifrət edir yağı təki özünə,
Çıxmayır ki, daha millət üzünə?
Aləmə var hər nişanı yoxsulun,
Bundan sonra çıxar canı yoxsulun.

İş tapmayır kasıbçılıq eləyə,
Həsrət qalıb evində hər diləyə,
Az qalıbdı quzu təki mələyə,
Qarə gəlib daha anı yoxsulun,

Bundan sonra çıxar canı yoxsulun.

Varlıların çox rəngbərəng maşını,
Ona tərəf heç fırlatmır başını,
Görəndə də çatır yaytək qaşını,
Bitməz daha heç divanı yoxsulun,
Bundan sonra çıxar canı yoxsulun.

Gündən-günə suyu yaman bulanır,
Dükan gördü elə ağzı sulanır,
Öz evini satmaq ilə dolanır,
Gəlib yenə pis zamanı yoxsulun,
Bundan sonra çıxar canı yoxsulun.

Evin satıb dəyişdirmək peşəsi,
Ciyər dərddən dağ-dağ olub şişəsi,
Yoxdu daha doğma isti guşəsi,
Hey dəyişər ev ünvanı yoxsulun,
Bundan sonra çıxar canı yoxsulun.

Ev dəllalı olanlar da şellənir,
Kasıbların bellərində yellənir,
Açdıqları ofislərdə tellənir,
Süfrəsində yox yavanı yoxsulun,
Bundan sonra çıxar canı yoxsulun.

Baş açmıram bu fələyin işindən,
Təmizləri hey keçirir dişindən,
Uzaq düşüb çox ev öz biş-düşündən,

Halına yox mehribanı yoxsulun,
Bundan sonra çıxar canı yoxsulun.

Ey Şadiman, çoxları can üstədi,
Ac qalmaqdan çox mədələr xəstədi,
Hiylə, fitnə, yalanlar üst-üstədi,
Qalmayıbdı ah-amanı yoxsulun!
Bundan sonra çıxar canı yoxsulun.
13.05.2001.

KİM KİMƏ

Özbaşınalıq ayaq tutur, yürüyür,
Bir-birini alıb satan kim kimə?
Ac da, tox da bazarlarda çürüyür,
Haqqı danan, haqqa satan, kim kimə?

Möhtəkirlər soyur xalqın cibini,
Yalayırlar dükanların dibini,
Kasıb necə saxlaya el dəbini?!
Duz çörəklə başın qatan, kim kimə?

Gedənlərə qalanlar gor qazarlar,
Ölənləri öldürənlər məzarlar,
Ölmü əcəl ünvanına yazarlar...
Doldu, Allah, şəhidlərlə məzarlar!
Əzrayıla böhtan atan, kim kimə?

Oğurluqla, əyriliklə ucalan,
Quruş üçün qəpik güdüb qəlb çalan,
İlahinin sınağında alçalan...
Haram yolla özün tutan, kim kimə?

Ağız dadar əzab çəkər azılar,
Bir tikəyçin yolun azar bazular,
Hər iş fələk kitabına yazılar,
Məhşər günü sinə yırtan, kim kimə?

Səyyarəmiz yırğalanan gəmidi,
Sübhün şehi gözlərinin nəmidi,
Ölmək dərddən qurtulmağın çəmidi...
Bəxti udan, bəxti yatan, kim kimə?!

9.03.1994

ARAN YOXDU

Tale məni saldı qəmə,
Dustaq etdi bu aləmə,
Gözlərimi atdı nəmə,
Bağçasından pay vermədi.
Bir yol mənə hay vermədi.

Hey dağıtdı tifaqımı,
Fələklə ittifaqımı,
Saldı qəlblə nifaqımı,
Gözlərimdə yaş ağladı.
Fəryadımdan daş ağladı.

Can dedikcə canım yandı,
Damarımda qanım yandı,
Hər saatım, anım yandı,
Tale ahdan oyanmadı,
Tərəfimdə dayanmadı.

Ağladıqca kor bəxtimə,
Dərdim çıxdı qəm təxtimə,
Fələk, buna sən bəxt demə,
Dünya boyda qəmim oldu.
Dərd dəryada gəmim oldu.

Tale dadın, duzun zəhər,
Vermədi heç bağın bəhər,
Oldun dəli, dolu kəhər,
Qaçıb getdin uzaqlara.
Könlü atdın sazaqlara.

Tale səni gəzər oldum,
Əzabına dözər oldum,
Bəxt yolunu bəzər oldum,
Gəlib ordan keçmədin heç.
Məni yaddan seçmədin heç.

Neyləyim ki, qəmin sına?
Bir gələsən qəm yasına,
Sına, tale, məni sına,
Səndən hesab soran yoxdu.
Mənimlə heç aran yoxdu?!...

27.XII.1999.

İSTƏYİR

Dərd çıxıb həsrət dağına
Yıxmağa adam istəyir.
Taxıbdı nal ayağına
Çıxmağa hər dam istəyir.

Nəşəni qoyub avara,
Olubdu səbəb ah, zara
Bəşərə vurmaqçın yara
Tanrıdan ilham istəyir.

Sındırıb qəlbin qolunu,
Kəsibdi sevda yolunu,
Bilməyir heç sağ-solunu
Hər ürəkdən kam istəyir.

Çağladar hər göz yaşını,
Ağrıdar insan başını,
Ətəkdən tökməz daşını
Hamını nakam istəyir.

5.02.2000. Pirallahı

DOLDU GETDİ

Ürəyim doldu getdi,

Çiçəktək soldu getdi,
Ömür qədər əlində
Çətin bir yoldu getdi.

Fələk yağdırdı qarın,
Dondurdu qəlb baharın,
Dərmədim könül barın
O da zay oldu getdi.

Eşqin sehirnə düşdüm,
Yaman mehrinə düşdüm,
Bu sevda küləkləri
Saçımı yoldu getdi.

Hicran ölümlə birdi,
Könül qapımdan girdi,
Can atdım ki, gizlənim
Məni də buldu getdi.

Bu Şadiman ilhamla,
Ürəyi dolu kamla,
Dünya üzü adamla
Boşaldı, doldu getdi!...

28.Xll.1999.

TƏNHA QADIN

Sənin bir halına yananın yoxmu?
Ömrünü, gününü ananın yoxmu?

Bu fəna bəxtini qananın yoxmu?
Alnına talesiz yazılıb adın,
Ay gözükölgəli, ay tənha qadın.

Səndən İlahi də çeviribmi üz?
Olurmu fələyin yolları heç düz?
Bu acı məlalın gəl bağrını üz
Göyün nəfəsini kəsib fəryadın,
Ay gözükölgəli, ay tənha qadın.

Niyə bu dynyaya gəlmisən nalan?
Ömür ötür keçir büsbütün talan,
Könlün qan ağlayır, gülüşün yalan...
Duya bildinmi heç həyatın dadın?
Ay gözükölgəli, ay tənha qadın.

Sənin addımına hey göz qoyarlar,
Qəlbinə dəyərlər, könlü oyarlar,
O qara bəxtini nə vaxt duyarlar?
Yetməyir heç kəsə niyə imdadın?
Ay gözükölgəli, ay tənha qadın.

Axır göz yaşları niyə içinə?
Ömrün bu tək evdə necə keçinə?
Qəlb cavab axtarır niyə, neyçinə?
Qapını açırmı yaxının, yadın?
Ay gözükölgəli, ay tənha qadın.

Gecələr sinəndən ahın yüksələr,

Evin divarları üstünə gələr,
Ürəyin hər səsə, hər ünə mələr!
Soyuq bir təsəllin varsa övladın...
Ay gözükölgəli, ay tənha qadın.

Qorxarsan işığı keçirəsən bir,
Eşqin, sevgin, hissin gecənə qəsir,
Xəyalın çin olmaz vüsala əsir,
Bayquşlar bəzəyər yurdun bərbadın,
Ay gözükölgəli, ay tənha qadın.

Sənə hansı qara ləkə yaxılmaz?
Üzünə bir təmiz eşqlə baxılmaz,
Bəxtin bağlı yolu niyə yıxılmaz?
Boğar göz yaşların göyün gurşadın,
Ay gözükölgəli, ay tənha qadın.

Köçüb yar-yoldaşın xəyalınamı?
Əllərin yetməyir vüsalınamı?
Bir yanan tapılıb de halınamı?
Qapında nə işi eviabadın?
Ay gözükölgəli, ay tənha qadın.

Fələk taleyinə niyə qəm yazıb?
Bəxtinmi gecikib, yollarmı azıb?
Acı dərdlərinə bir məzar qazıb
Dadasan dünyanın şadlığın, şadın,
Ay gözükölgəli, ay tənha qadın.

Şadiman gözündə görür qəm izi,
Ömrün tufanında solan bənizi,
Ayıq ol! Batırar həyat dənizi...
Yetənə yanmasın qoy könül odun,
Ay gözükölgəli, ay tənha qadın.
Ay gözükölgəli, ay tənha qadın.
14.08.2001.

BU HƏYAT YOLLARINDA

Yuxladı taleyimiz
Fələyin qollarında.
Könül sızlar neyimiz
Bu həyat yollarında.

Çırpındıq külək kimi,
Ələndik ələk kimi,
Döyündük ürək kimi
Bu həyat yollarında.

Günlər bir-bir yetişdi,
Acı-şirin ötüşdü,
Yükü ürəyə düşdü
Bu həyat yollarında.

Kimiyə ömür acı,

Kimiyə nəşə tacı,
Səadətin əlacı
Bu həyat yollarında.

Fələk bizdən yuxarı,
Şər gündüzdən yuxarı,
Bəxtimizin axarı
Bu həyat yollarında.

Can bədənə qovuşar,
Hər acımız sovuşar,
Sevgilər aşıb-daşar,
Bu həyat yollarında.

Şadiman, tənində can,
Qoyma boş ötsün hər an,
Şam təki alışıb yan...
Bu həyat yollarında.

14.09.1999

QALANDI

Ey pisliyi qan yaddaşı edənlər,
Naqisliyin arxasınca gedənlər,
Zülm ilə ürəkləri didənlər,
Torpaq bizi əvvəl-axır alandı,
Ya yaxşılıq, ya yamanlıq qalandı.

Kim apardı özüylə var-dövləti?

Gizlətməyin künc-bucaqda sərvəti,
Bir düşünün bu zavallı milləti,
Bəsdir dərdlər sinəmizə qalandı,
Ya yaxşılıq, ya yamanlıq qalandı.

Çarpışmada, vuruşmada beyinlər,
Bər-bəzəkdən doymayır ki, əyinlər,
Açılmayır doğulandan eyinlər,
Fələk bizə son laylanı çalandı,
Ya yaxşılıq, ya yamanlıq qalandı.

Zeynalabdin millətinə oğuldu,
Xalqı üçün bu dünyada doğuldu,
İdrakıyla səfalətlər boğuldu,
İnsanlıqdan qeyri hər şey yalandı,
Ya yaxşılıq, ya yamanlıq qalandı.

Günahımız min bir çaydı, dənizdi.
Adəm ki, var İlahiyə kənizdi,
Rəbb önündə kim büllurdu, təmizdi?
Zalım əcəl boynuna qol salandı,
Ya yaxşılıq, ya yamanlıq qalandı.

Allah görmüb bu cahandan doyanı,
Titrəyəndə göy dağıdar qayanı,
Haqq eşqinə itirməyin həyanı,
Bəşər yerin çiyininə palandı,
Ya yaxşılıq, ya yamanlıq qalandı.

Demin Tanrı niyə yerə enməyir?
Yandırırıq, dağıdırıq, dinməyir,
Ölən haqqın dərgahına dönməyir,
Nə canlı var İlahidən olandı,
Ya yaxşılıq, ya yamanlıq qalandı.
İdrakının barın yeyər doğulan,
Birmi, minmi ürəkləri dağılan,
Damla-damla gölə dönür yığılan,
Yazda açan payızında solandı,
Ya yaxşılıq, ya yamanlıq qalandı.

Ey cəfakeş dünyamızın insanı,
Yer, göy tökür gözlərindən leysanı,
Yaxşılıqdır can yolunun asanı,
bəsdir cahan əlimizdə talandı,
Ya yaxşılıq, ya yamanlıq qalandı.

Şadimanın arayarlar sözünü,
Çevirərlər astarını, üzünü,
Arayarkən heç görməzlər üzünü...
Qəbri üstə haqqı saçın yolandı,
Ya yaxşılıq, ya yamanlıq qalandı.
29.07.2001.

ƏLƏBAXAN

Alışmadın heç zəhmətə,
Adın layiq nə hörmətə?
Ağlın kəsməz mərifətə,

Ədalısan, ələbaxan,
Sevdalısan, ələbaxan.

Can saxlamaq olub peşən,
Yeyib, içmək, yatmaq nəşən,
Yatağındır rahat guşən,
Nə kədərin, nə əndişən?
Cin, əcinə, ələbaxan,
Nə vecinə, ələbaxan.

Gözün özgə cibə baxar,
Ürəyini oda yaxar,
Bərəkətin hardan axar?
Nə biləsən, ələbaxan,
Nə köləsən, ələbaxan.

Dikib gözün özgə vara,
Yaxma ona, buna qara,
Bu yol çəkir səni hara?
Ağlın çaşır, ələbaxan,
Yoxsa daşır, ələbaxan?

Oğul-uşaq dolu damın,
Yığ dövrənə işlət hamın,
Ürəyində çoxdu kamın,
Nə əmirdi, ələbaxan,
Bir ömürdü, ələbaxan.

Sanki göyün qurşağısan,

Hələ ana uşağısan,
Sən hamıdan aşağısan,
Özün gəda ələbaxan
Hardan əda, ələbaxan?

Olma onun-bunun qulu,
Ay ananın qənd oğulu,
Tök cibinə ye noğulu,
Ötsün ünün, ələbaxan,
Keçsin günün, ələbaxan.

Ananın gül balasısan,
Soy-kökünün olasısan,
Ocağında qalasısan,
Qonşunu yax, ələbaxan,
Canına bax, ələbaxan.

Atan, anan sağdı hələ,
Çək sığalı belə telə,
Ver fikiri, dərdi yelə,
Nə bayıra, nə də çölə
Getməyəsən, ələbaxan,
İtməyəsən, ələbaxan.

Yorğanını çək başına,
Zəhər qatma heç aşına,
Atan fikirdən daşına...
Öləcəksə kül başına!
Ölməsin ha, özbaşına,

Tək qalarsan, ələbaxan,
Zay olarsan, ələbaxan.
Vay olarsan, ələbaxan.
16.07.2001.

XATIRLAMALAR

ŞAİRİMİZ

Bəxtiyar Vahabzadəyə

Artır gündən-günə el möhnəti,
Haram yeyənlərinin qüdrəti,
Satılır məmləkətin sərvəti,
Qul olub ac-yalavac milləti,
Nədi bu köləliyin niyyəti?
Düşüb ayağa vətən hörməti,
Ey ürəyi yanan şairimiz,
Vətən dərdini anan şairimiz.

Niyə Xuda verir qəmi bizə?
Bəxş edir bu ağlar dəmi bizə,
Üz-gözü bulayan nəmi bizə,
Vermədi bir şirin təmi bizə,
Yoxmu heç bir dolu zəmi bizə?
Güldürür hey bu aləmi bizə,

Ey ürəyi yanan şairimiz,
Vətən dərdini anan şairimiz.

Duydum Sabir təki fəryadını,
Çox qürurla çəkirəm adını,
Eşidə Rəbb elə imdadını,
Yad edə bu vətən övladını,
Görmürəm indi elin şadını,
Alçalır millətin qız, qadını...
Ey ürəyi yanan şairimiz,
Vətən dərdini anan şairimiz.

Derlər ki, tükənməz varımız,
Niyə artır elə ah-zarımız?
Bitmirmi tarlada dən, darımız
Yox olub əhdi və ilqarımız,
Düşüb ayaqlara vüqarımız,
Yetməyir millətə heç karımız,
Ey ürəyi yanan şairimiz,
Vətən dərdini anan şairimiz.

Getdi əldən Qarabağ gülzarı,
Artdı cigərimizin azarı,
Vətəni etdilər qul bazarı,
Batırırlar sinədə həzarı,
Andırır bu ölkə bir məzarı,
Ağladır hey həqiqi yazarı,
Ey ürəyi yanan şairimiz,
Vətən dərdini anan şairimiz.

Yandırar qəlbimizi sözlərin,
Qəm girdabına tuş gözlərin,
Tökülür vərəqlərə közlərin,
Qalacaq şeirdə pak izlərin,
Gecədən çox qəmi gündüzlərin,
Sən böyük şairisən bizlərin,
Ey ürəyi yanan şairimiz,
Vətən dərdini anan şairimiz.

Xuda qoya bir haqqı yoluna,
Verə qüdrəti, gücü qoluna,
Məmləkətin xilası buluna,
Baxıla diqqət ilə sağ, soluna,
Dərdimizə bir çarə oluna,
Kaş tapıla əlac el halına,
Ey ürəyi yanan şairimiz,
Vətən dərdini anan şairimiz.

Yoxdur elin çadırlarda günü,
Açan yoxmu bu tilsim düyünü?
Batır xəlqimizin içdə ünü,
Çıxarmaq olmur xörək iyini,
Kəsdilər bu millətin heyini,
Talayır bu müsibət beyini,
Ey ürəyi yanan şairimiz,
Vətən dərdini anan şairimiz.

Günbəgündən bu vətən ac oldu,

Bu necə dərdlərə əlac oldu?
Əcnəbiyə varımız tac oldu,
Şərəfimiz yaman hərac oldu,
Bir qarın çörəyə din xaç oldu,
Bu millət niyə naəlac oldu?
Ey ürəyi yanan şairimiz,
Vətən dərdini anan şairimiz.

Gülməyir üzümüz heç Xudadan,
Niyə qurtulmayırıq qadadan?
Haram yeyən yapışıb ədadan,
Tellənir hər cürə xoş sədadan,
Qopur fəryadımız can odadan,
Hara qaçım gedim de adadan?
Ey ürəyi yanan şairimiz,
Vətən dərdini anan şairimiz.

Bizə çatanda zaman qan oldu,
Elə fəqanə düşən can oldu,
Millətin dərdinə büryan oldu,
Məmləkət soyuldu, üryan oldu,
Tapdanan ayaqda ad-san oldu,
Ciyərimiz niyə şan-şan oldu?!
Ey ürəyi yanan şairimiz,
Vətən dərdini anan şairimiz.

Necə qanə batıb torpağımız,
Saralır bağımız, yarpağımız,

Şişir sinədə hey qəm dağımız,
Olacaqmı görən xoş çağımız?
Pərişandı hələ bayrağımız,
Baxır qəh-qəh çəkir bəd yağımız,
Ey ürəyi yanan şairimiz,
Vətən dərdini anan şairimiz.

Bir çoxu lap günaha suvaşır,
Talıyanlar da zirvələr aşır,
Yenə də dərdlərimiz baş aşır
Tükənib eldə səbir də daşır,
Şərlə şeytan elə pıçıldaşır,
Yağı, düşmən yaramızı qaşır,
Ey ürəyi yanan şairimiz,
Vətən dərdini anan şairimiz.

Şadimanı qınayır hər yetən,
Candan əziz olur ana vətən,
Odu sinəmiz içində bitən,
Nə gələr ki, elə dünyada tən?
Olub ruhumuza əbədi tən,
Bədənimiz ona olacaq dən,
Ey ürəyi yanan şairimiz,
Vətən dərdini anan şairimiz.

6.02.2002.

BU AD GÜNÜNDƏ

“Xəzərdənizneftgeofizika” trestinin müdiri
Məmmədov Hacıağa oğlu Rafiq müəllimin ad
günü münasibəti ilə!

Qərq olsun sevincə qəlbiniz, dostlar,
Könlü büsat alsın bu ad günündə.
İnsanlıq adına deyilsin tostlar...
Şadlıqlar ucalsın bu ad günündə.

Uçur saatımız əldən yel təki,
Qırılır ömürdən anlar tel təki,
Çağlasın nəşələr çılğın sel təki
Qəmə zəfər çalsın bu ad günündə.

Fərəhi çox olsun diləyimizin,
Çökməsin özülü dirəyimizin,
İlahi, çırpınan ürəyimizin
Ruhu qanad çalsın bu ad günündə.

İnsanlar, dünyanın baş tacıyıq biz,
Bir damcı sevincin möhtacıyıq biz,
Ah, bu xoş saatlar qoysun qəlbdə iz...
Sinədə yurd salsın bu ad günündə.

Hər ömrün acısı, şirini olur,
Hər ömrün ağacı yarpaqla dolur,
Payızı yetəndə açılan solur,
Xoş xatirə qalsın bu ad günündə.

Görməsin ürəklər sinə dağlığı,
Heç vaxt qırılmasın könül bağlığı!
Rəbbim, səbəbkarə ver can sağlığı...
Kədərdən bac alsın bu ad günündə.
Dərdi-sər azalsın bu ad günündə.

1.05.2000.

VALEH QARDAŞ

Yaman bürüyübdü hiylə hər yanı,
Qalmayıb adamda üz, Valeh qardaş.
Gedir göz görəli başda tük sanı,
Əyrini badına düz, Valeh qardaş.

Ürəkdən süzülür dilimizə ah,
Tutub bu dünyanı dolanır günah,
Hər qəlbin köksünə qalanır günah,
Olur hər saatda yüz, Valeh qardaş.

Harayı min-mindi bu dilimizin,
Hər günü fəqandı hey ilimizin,
Bizim adəm adlı nəsilimizin,
Gəl indi halına döz, valeh qardaş.

Yalanlar qiymətdən salıb adamı,
Çökür zərrə-zərrə bu adəm damı,
Düzlükdən dəm vurur dünyada hamı,
Düşübdü qiymətdən söz, Valeh qardaş.

Kişilər doğulur yalan danışan,
Dildə bircə anda min dağı aşan,
Hiyləylə bir yerdə yanıb alışan,
Qalmayıb ürəkdə köz, Valeh qar
daş.

Ürəklər sinələr dərdlə çapılır,
Yaxşının köksünə kədər yapılır,
Haqqın ürəyinə bıçaq sapılır,
Dözmür gördüyünə göz, Valeh qardaş.

Zalım zəmanədə dünya pinəçi,
Əriyir şam təki könlümün içi,
Ayaqlara düşən haqqımız nəçi?
Bükülür yoxuşda diz, Valeh qardaş.

Bürüyüb sitəmlər könlümün yanın,
Acı dəmlər alıb bu yazıq canın,
Qələmi odlayan bu Şadimanın,
Yazdığın kitaba düz, Valeh qardaş.

1.04.2000. Pirallahı

HEÇ İNSAF GÖRMƏDİM

Həyatdan vaxtsız getmiş
Zemfira Ağaqulu qızı Ağayevaya!

Bütün arzuların qaldı ürəkdə,
Soldu ümidlərin payıztək yaman.
Heç insaf görmədim mən bu fələkdə,
Dünyadan yaxşını aldı çox zaman.

Sən ki, qönçəsiydin növrəstə bağın,
Saysız diləklərin coşqun sel təki.
Söndü bircə anda o gənclik çağın,
Qırıldı ömürün saçda tel təki.

Sən elə sadəydin, elə mehriban,
Mələk gözəlliyin əşrəfi, tacı.
Könlündə coşardı duyğular hər an...
Dərdinə tapmadı kimsə əlacı.

Şeirlər yazardın hamıdan gizli,
Sinəndə arzular qopmuşdu oddan.
Ey ürkək baxışlı, ey aybənizli,
Çıxarmaq olarmı heç səni yaddan?!

Girdin instituta öz kamalınla,
Qapısın açmaqçın ədəbiyyatın.
Duyğunla, arzunla, pak amalınla
Hey çiçəklənirdi o şən həyatın.

Sən elə gözəldin mələyəbənzər,
Haqqın nuru vardı baxışlarında.
Hardan dəydi sənə bəd göz, bəd nəzər,
Soldun fələyinmi sərt qışlarında?

Rüzgarın tufanı əsdi qəfildən,
Qırıldı həyatın boyunbağıtək.
Ölüm başın üstün kəsdi qəfildən,
Yolunun üstündə durdu yağıtək.

Hələ tər qönçəydi o diləklərin,
Ömrün baharında soldu həyatın.
Səni candan sevən pak ürəklərin
Yandırdın, dağıtdın ən dərin qatın.

Özündən əvvəlmi doğuldu dərdin?
O məsum könlünü qoparmaq üçün.
Barğına, köksünə dağıldı dərdin,
Səni bu həyatdan aparmaq üçün.

Sənin o şirmayı, o ağ əllərin,
Gəzərdi piano dilləri üstə.
Uz
un hörüyünü gəzən tellərin,
Öpərdi üzünü həzin, ahəstə.

Sən ki, pərvazlanan göllər sonası,
Nəğmələr əlində qanad açardı.
Olardı duyğular könlün anası
Qəlbin göylərində quştək uçardı.

Soldurdu gül təki bu fələk səni,
Sanki olmamışdın heç bu dünyada.

Ananın qəlbinə yüklədi çəni,
Batırdı onun da könlün fəryada?!

Hərdən xəyalıma gəlir cəmalın,
Baxışın, duruşun, yerişin nurlu.
Yenə əvvəlkitək ağlın, kəmalın,
O xanım görkəmin necə qürurlu.

Səni sevənlərin ürəklərində
Heykələ döndərdin o az ömrünü.
Dondu bir buz təki diləklərin də,
Heç pozmaq olarmı Rəbbin əmrini?

Bütün arzuların qaldı ürəkdə,
Soldu umidlərin payıztək yaman.
Heç insaf görmədim mən bu fələkdə
Dünyadan yaxşını aldı çox zaman.

9.03.2000.

AY ŞÖVKƏT

Şövkət Hicran İmamiyə

Vallah şair doğulmusan binadan,
Vurulmuşam ülfətinə, ay Şövkət.
Allah səni pak yetirib anadan,
Əsir oldum hörmətinə, ay Şövkət.

Güney dərdi niskil deyil, qubardır,
Sinəmizdə ayrılıqdan qəm vardır,
Hər buz üzlü qışın sonu bahardır,
Rəbb son qoysun zillətinə, ay Şövkət.

Məmləkətin qəlbdə dərdin yaşatdın,
Ürəyini vərəqlərə boşaltdın,
Yurd eşqiylə sən ki, hicran yaratdın...
Bir ziyasan millətinə, ay Şövkət.

Darılmadın acılardan keçəndə,
İlhamının çeşməsindən içəndə,
Bir pak ürək bəsləyirsən o təndə,
Səbəbsən qəlb heyrətinə, ay Şövkət.

Sənin təki canı yanan görmədim,
Sənin təki haqqı qanan görmədim,
Dostu üçün özün danan görmədim,
Heyran oldum qüdrətinə, ay Şövkət.

Ürəyində Azərbaycan ağrısı,
Könlün olub bu sevdanın oğrusu,
Dünyada yox sənə bənzər doğrusu,
Layiqsən el qiymətinə, ay Şövkət.

Şadimanı heyran etdi qeyrətin,
Girdi könlə mələksima surətin,
Rəbbə çatsın qəlbdə hər bir niyyətin...
Yollar açsın sənətinə, ay Şövkət.

2.XI.2001.

AY AMAN

Şövkət Hicran İmamiyə

Nə müddətdi səndən ayrı gəzirəm,
Hicran girib aramıza ay aman.
Mələküzlüm, hər cəfana dözürəm,
Qəm köz basır yaramıza, ay aman.

Ürəyinin arasında daşınam,
Sil yaylığa gözdən axan yaşınam,
Səbəb olma bu sevdadan daşınam,
Hicran deyir qaramıza, ay aman.

Səadəti çiçək deyil əkəsən,
Bülbülsənmi qəlb bağında səkəsən?
Mən deyilsən bu sevdadan çəkəsən,
Həsrət milin gözlərinə çəkəsən,
Nə əlacdı çaramıza, ay aman.

Şadimana hicran etdi möhnəti,
Çırpdı daşa Tanrı verən möhləti,
Boynumuza qoydu sevda minnəti,
Böldü könlü ayrılığın zilləti
Dağ çəkdi qəlb yaramıza, ay aman.

31.X.2001.

GÜLLƏR SƏPİLƏR

Türk şərqiçisi Barış Mançunun ruhuna

Vaxtsız ölümünə bütün Türkiyə
Tökdü gözlərindən acı göz yaşı.
Gəzdin bu dünyanı dost deyə-deyə
Özün də adıntək sevdi barışı.

Körpə dodaqlarda dolaşdı adın,
Sənin şərqilərin uçan quş oldu.
Hər nəğmən dodaqda sinə fəryadın
Könüllər dolaşdı, qəlbə tuş oldu.

Sən barış aradın ölkəbəölkə,
Körpə ürəkləri yaşatmaq üçün.
Dünyanın qəm yükün hey çəkə-çəkə
Oxudun ürəyi boşaltmaq üçün.

Dərvişə bənzəyən o görkəminlə
Səyyarlarsayağı ömür yaşadın.
Gah nəşən, gah da ki, o ələminlə
Tanrının özünə yetişdi dadın.

Sənin yoxluğuna qəm tutar bəşər,
Ağlayar yasına məsum körpələr.
Əllərin payına çiçəklər düşər,

Məzarın üstünə güllər səpilər!

Allah nə ilahi bir ömür yazır,
Ölməzlik adını daşıyanlara.
Məbədlər içində məzarlar qazır...
Əbədi qəlblərdə yaşayanlara?!...
26.02.1999

MƏZARSIZ QALAN ŞAİR

Mikayıl Müşfiqin müqəddəs ruhuna!

Ürəyini çaldılar,
Önündə alçaldılar,
Zindanlara saldılar...
Ocağı talan şair,
Məzarsız qalan şair.

Nəğməli bülbül oldun,
Tez saralan gül oldun,
Sən ki, haqqa dil oldun,
Bağrı qan olan şair.
Məzarsız qalan şair.

Qəfəslər evinmi oy?
Qorxaqlar divinmi oy?

Quruldu haqqına toy!
Şah oldu yalan, şair.
Məzarsız qalan şair.

Gözündə kamın qaldı,
Coşqun ilhamın qaldı,
Yiyəsiz damın qaldı!...
Olmadı balan şair.
Məzarsız qalan şair.

Dildə sözün kəsildi,
Zülm edən naəsildi,
O illər nə nəhs ildi?
Dil oldu nalan şair.
Məzarsız qalan şair.

Yetmədi haqqa ünün,
Nə qara oldu günün,
Dərd oldu toy-düyün,
Könlü qəm çalan şair.
Məzarsız qalan şair.

Tapdılar sənə ünvan,
Qurdular qanlı divan,
Boş qaldı isti yuvan...
Xəzansız solan şair.
Məzarsız qalan şair.

Xızıda yurd pərişan,

Əldə silahlar şan-şan,
Aldı köksünü nişan,
Pak ürəyi bircə an
Güllələ dolan şair...
Məzarsız qalan şair.

Kimlər durdu qəsdinə,
Şər yeritdi üstünə?
Şadiman o büstünə
Mehrini salan şair.
Məzarsız qalan şair.
29.08.1999.

İTGİ

Dünyada doğulandan,
Dərdi-sərdə boğulandan,
Əl açırıq xəyallara,
Tuş oluruq qeylü-qallara.
Zirvələrçin çırpınırıq,
Ümidlərə tapınırıq,
Özümüzə qapanırıq,
Ağlımızı uca sanırıq,
Yan-yörəmizi danırıq.
Bəzən elə varlanırıq,
Uçruma yuvarlanırıq...!
İtirdikcə adiləşirik,
Hər itgiyə vadiləşirik,

Əvvəl arımızı,
Sonra varımızı,
Ən nəhayət yarımızı
İtiririk,
İtgiləri haqqa yetiririk.
Gün gəlirki sözümüzü,
Sonra görən gözümüzü,
Sonra iti dizimizi,
Ən sonunda özümüzü
Əbədilik itiririk,
Ömrü belə bitiririk...
Hamımızçın birdi itgi,
Bəxtimizə pirdi itgi,
Rəbb əlində sirdi itgi.

18.Xl.2001.

NİYƏ TEZ OLUR?

Məhəbbət ürəkdə bir inci təki,
Düşür qəlb evinə orda iz olur.
Gəlir ömrümüzə birinci təki,
Ayrılıq həyatda niyə tez olur?

Zamanı, saatı, anı qabaqlar,
Ötər ömrümüzdən o şirin çağlar,
Elə dadlı gələr bizə qabaqlar,
Ayrılıq həyatda niyə tez olur?

Vüsalı qoyubdu gözləri yaşlı,
Onuntək varmıdır əjdahabaşlı?
Salar barmaqlardan üzüyü qaşlı,
Ayrılıq həyatda niyə tez olur?

Heç kəsə rəhm etməz, heç kəsə yanmaz.
De hansı qapıda bir yol dayanmaz?
Ürəyi xeyirə, haqqa oyanmaz,
Ayrılıq həyatda niyə tez olur?

De hansı sinəni yaralamayıb?
Yarını yarından aralamayıb?
Hansı adın üstün qaralamayıb?
Ayrılıq həyatda niyə tez olur?

Hamını qul edər o istəyinə,
Tökər gözlərindən yaş ətəyinə,
Çatmasa əl çəkməz öz itiyinə,
Ayrılıq həyatda niyə tez olur?

Şadiman, sevgilər aşıb-daşanda,
Könül sevdiyilə pıçıldaşanda,
Duyğular, diləklər başdan aşanda,
Ayrılıq həyatda niyə tez olur?

28.08.2001.

MƏKTƏB İLLƏRİ

Unutmaq çətindi səni bir an da,
Qaldın xəyal təki ürəkdə, canda,
Mən səni tapmaram heç bir ünvanda,
Uşaqlığa vida məktəb illəri,
Əlvida, əlvida məktəb illəri!

Gözlərim yuxumda hey səni arar,
Məni o günlərə alıb aparar,
Həsrətin içimdə tufan qoparar,
Könlümdə xoş səda məktəb illəri,
Əlvida, əlvida məktəb illəri!

Nazlı uşaqlığım qaldı qoynunda,
Hər bir qayğımın yükü boynunda,
İşvəli həyatın mələk oynunda
Hər körpənə əda məktəb illəri,
Əlvida, əlvida məktəb illəri!

Ey ömrün ən dadlı, şirin nağılı,
Bulaqtək çağlatdın ürəyi, ağlı,
Qulunam qapında qolları bağlı,
Canım sənə fəda məktəb illəri,
Əlvida, əlvida məktəb illəri!

Ey qranit yuvam, dürlü məkanım,
Həyata baxışım, ilkin təkanım,
Ey isti ocağım, ədəb-ərkanım,
Dilimdə pak nida məktəb illəri,
Əlvida, əlvida məktəb illəri!

Nurlu müəllimin müqəddəs, əziz,
Ey dünya üzündə ən pak, ən təmiz,
Həm sənə minnətdar, həm borcluyuq biz,
Sözümə mübtəda məktəb illəri,
Əlvida, əlvida məktəb illəri!

Sinəmin içində əziz xətirin,
Könlümə dastandır hər bir sətirin,
Burnumdan getməyir rayihən, ətrin...
Ey ruhuma qida məktəb illəri,
Əlvida, əlvida məktəb illəri!

28.04.2001.

GEOFİZİKLƏR

Həmişə şadlıqlar görsün gözünüz,
Şəri ucalmasın, geofiziklər.
Qoy ali yerlərdə keçsin sözünüz
Könlünüz solmasın, geofiziklər.

Həyatın yolları nə qədər çətin,
Acısı çox olur bəşəriyyətin,
Üzü nurlu olsun hər saf niyyətin,
Qəmə yer qalmasın, geofiziklər.

Peşəniz nə qədər olsa da ağır,
Yamanlıq görməsin heç sinə, bağır,

Xoşbətxlik əməkdən, zəhmətdən doğur,
Qəlbi dərd almasın, geofiziklər.

Çağlasın daima gül həyatınız,
Heç vaxt büdrəməsin tale atınız,
Qoy uğurlu gəlsin hər saatınız,
Gözünüz dolmasın, geofiziklər.

Səadət sizlərə daim yar olsun,
Həyat aləminiz qoy bahar olsun,
Tale bağçasında min bir bar olsun.
Kədər, qəm olmasın, geofiziklər.

30.Xll.1999. Pirallahı.

TALE SƏNİN ÜZÜN DÖNSÜN

MƏNƏ

Tale sənin uzun dönsun
Zülüm etdin yaman mənə.
Necə söylə bəxt öyünsün
Eyləmədin aman mənə

Bağ-bağçada quş olmuşam,
Üşütmüsən qış olmuşam,
Qapındaca daş olmuşam

Bir vermədin zaman mənə

Tale qəlbim göy buludu,
Hey ağlayır sinəm udu,
Viran edib sən umudu
Ömrü etdin kaman mənə.

Gəzdim səni özüm kimi ,
Aqzımda sözüm kimi,
Hey ağladın gözüm kimi ,
Bir vermədin aman mənə

Şadimandan dad eylədin,
Dərdlə məni yad eylədin,
Bilsəydin bir sən neylədin
Eyləməzdin yaman mənə?!

26.01.2000.

MƏN ELƏ TƏNHAYAM...

Mən elə tənhayam bu dünyada ki,
Getdi istəklərim elə bada ki,
Biganə bəxtimin dolmuş buludu,
İçimin arzusun leysanla yudu...
Soldu könülümün qalan umudu.

Mən elə tənhayam bu dünyada ki,
Kəsdi başım üstün elə qada ki,

Hər gələn özünə bir insan dedi,
Dünyanın işləri çox asan dedi,
Can dediklərim də mənə qan dedi.

Mən elə tənhayam bu dünyada ki,
Dönmüşəm cahanda elə yada ki...
Ürək verdiklərim qəlbimi diddi,
Mənə dərd verdikcə kamına yetdi,
Həyatın sevinci gözümdə itdi!

Mən elə tənhayam bu dünyada ki,
Atmışam özümü elə oda ki,
Yanıb kül oluram gündə min kərə,
Önümdə uçrum, sıldırım dərə.
Dəryada batıram yoxmu bir bərə.

Mən elə tənhayam bu dünyada ki,
Cahan, sanki boşluq soyuq ada ki,
Hənuz ürəyimdə donub buzlaşıb,
Yaşamaq həvəsi lap ucuzlaşıb,
İblislə insanlıq yəni uzlaşıb?!

Mən elə tənhayam bu dünyada ki,
Dünyanın özü də bir röyada ki,
Ayılsa insanlıq bütün batacaq,
Torpaqlar altında bəşər yatacaq.
Allah bir-birinə bizi qatacaq.

Mən elə tənhayam bu dünyada ki,

Tanrım rəhm eləyə yetə dadə ki,
Silə ürəklərdən iblisin izin,
İçində şeytanlar bəşərimizin.
Oduyla oynayır yer şərimizin.

Mən elə tənhayam bu dünyada ki,
Yetişən olmadı heç fəryada ki,
Səhərə axışan bu adamların,
Min bir hiylə ilə dolu damların...
Fələk gözdə qoyar bir gün kamların!...

Mən elə tənhayam bu dünyada ki,
Özüm də özümçin döndüm yada ki,
Elə bu dünyadan qaçmağım gəlir!
Quş təki göylərə uçmağım gəlir.
Ölümü min əllə qucmağım gəlir!
Mən elə tənhayam bu dünyada ki...

12.09.1999.

DÖNƏR YAĞIŞA

Kədərim buludun gözlərində yaş,
Damlanı dəryaya çevirər bir an.
Yerlə göy arası hey çarpışar baş,
Çırpınar bədəndən çıxmaq üçün can.

Sanki nəhrə bənzər dünyanın özü,

Artan nəhir qəlbin dəryası olar.
İçimdə ağlayar dilimin sözü,
Yuxulu gecəmin röyası olar.

Zülmət ovsunlayar sabahlarımı,
Amma dan yerinə kəsilər qənim.
Bağrıma saplanan bu ahlarımı
Əzablar içində daşıyar tənim.

Şadiman, bəxtimiz taleyin udu,
Hər simin harayı qonar baxışa.
Hər insan fələyin dolan buludu,
Ömrünün son günü dönər yağışa...

1.08.1999.

BİR QÜVVƏ VARMIDIR?

Ürəklər quzeyin zərif çiçəyi,
Ələnir başına dünyanın şehi.
Qəm oldu bəxtlərin tale gerçəyi,
Qəlb savaş səhnəsi, ümid fatehi.

Ömür yollarının yoxuşu nə çox?
Büdrəyib yıxılan anları sonsuz.
Çoxdan yapışanlar bir gün olur yox,
Həyat təsəvvürə gəlmir oyunsuz.

Çəkir ürəkləri acılar dara,
Qaçmaq istəyənə qurtuluş hanı?
Yalanlar kəf gəlir əhdə, ilqara,
Yandırır sinənin ahı zamanı.

Dərddən qaçanları dərd tutur bəzən,
Ovçu tilovuna düşən balıqtək.
Canı bir gül təki bədəndən üzən
Bir qüvvə varmıdır, eyvah xalıqtək?

1.05.1999.

BU DA BİR ÖMÜRDÜ

Günüm əllərimdən uçur yel təki,
Yükünü çiynimdə daşıyıram mən.
Qırılır anlarım saçda tel təki,
Bu da bir ömürdü yaşayıram mən.

Tale küləkləri elə sərt əs
ir,
Vurub uçurmağa, sanki tələsir,
Könlümü, bəxtimi eyləyib əsir
Bu da bir ömürdü yaşayıram mən.

Keçir bu həyatım dəryanın üstə,
Yuxum xumarlanır röyanın üstə,
Təbib haraylayan ürəyim xəstə...
Bu da bir ömürdü yaşayıram mən.

Baxıram dünyaya gözüm göynəyir,
Həyatın zərbəsi könlümə dəyir,
Həm yoxuş, həm eniş qəddimi əyir,
Bu da bir ömürdü yaşayıram mən.

Kədərim il boyu sevincim bir an,
Cumur qəmləriylə üstümə hər yan,
Hərzə gedişlərdən hey qaralır qan,
Bu da bir ömürdü yaşayıram mən.

Boylanır içimdən çinartək qəmim,
Kədərdən yaranıb həyat aləmim,
Dərdin ağrısından doğulur dəmim,
Bu da bir ömürdü yaşayıram mən.
28.Xll.1999.

YAŞAYIŞ DEYİL

Könlümü donduran bu çiskin, sazaq,
Kədər tufanıdı qarlı qış deyil.
Düşmüşəm ömürlük bəxtimdən uzaq
Mənim yaşayışım yaşayış deyil.

Ələm göylərinin danı sökülür,
Hicran şəfəqləri qəlbə tökülür,
İçimin ağrısı üzümə gülür,
Mənim yaşayışım yaşayış deyil.

Dünyanın ağrısı canda gül açır,
Hər kədərli baxış anda dil açır,
Dərdlərin əlindən ömür də qaçır,
Mənim yaşayışım yaşayış deyil.

Bütün saatlarda dərdə tuşam, tuş,
Keçirir boğazdan qəm eyləyir nuş!
Çıxıb adamlıqdan bir olaydım quş...
Mənim yaşayışım yaşayış deyil.

İçimdən boylanan ürək də görür,
Başımın üstündə fələk də görür,
İblis də, şeytan də, mələk də görür,
Mənim yaşayışım yaşayış deyil.

Könlümlə boğulur içdə gileyim,
Qəmimi üzümə çalan bir neyim,
Dərdimi çəkəsi kimim var deyim?
Mənim yaşayışım yaşayış deyil.

Ağlayır ahıma sinəmin başı,
Min bir çeşmə doğur gözümün yaşı!
Düşübdü başıma ələmin daşı,
Mənim yaşayışım yaşayış deyil.

28.Xll.1999.

ATA

Yanan ürəyinin qonub başına,
Qəmini qəmimə çataydım, ata.
Dönəydim fələyin bir sirdaşına...
Bu dərdi özünə sataydım, ata.

Qurtulub azarın əlindən bir an,
Yenə də şövq ilə alışaydı can,
Coşaydı damarda bumbuz olan qan
Hey xoş məramlara çataydın, ata.

Uçaydı könlündən ələm tələşı,
Sevinclə dolaydı qəlbinin başı,
Kədərin başına salaydın daşı
Şadlığın əlindən tutaydın, ata.

Mərəz girməyəydi heç yatağına,
Günəş nur tökəydi o otağına,
Bir şimşək düşəydi azar bağına
Dərdini odlara ataydın, ata.

Fələyin əlindən düşə tərəzi,
Bəxtinə əbədi sönə qərəzi,
Alaydı bir yolluq səndən mərəzi...
Gecələr bir rahat yataydın, ata!

12.07.1999.

BİLMİRƏM

Qəm çəkib könlümü şişə, ay ata.
Sənin bu halına dözə bilmirəm.
Azarın əlimə düşə, ay ata,
Axı bu dərdinlə gəzə bilmirəm.

Vücüdun əriyən dağların qarı,
Fələk yaman qıydı, atam, ah-zarı,
Mən ki, sızlayıram hey zarı-zarı
Acını köksümdən üzə bilmirəm.

Dərdin ürəyimin düşsün başına,
Dözə bilməyirəm o göz yaşına,
Fələk zəhər qatdı yaman aşına
Mən qəmin başını əzə bilmirəm.

Canım fəda olsun sənə, ay ata,
Tanrı hər addımda dadına çata,
Əzəldən fələkdir hakim həyata...
Niyə ələm verir bizə bilmirəm.

12.07.1999.

QONMAZ

Səadət tale quşu
Uçub hər başa qonmaz.
Tapıb qəlb uçulmuşu
Min il də yaşa qonmaz.

Haylasan səsin çatmaz,
Yatsan səni oyatmaz,
Gəlib qəminə batıb
Gözdəki yaşa qonmaz.

Ağla haraya gəlməz,
Bəxtlə araya gəlməz,
Uçar gur saraylara
Gəlib dam, daşa qonmaz.

Səadət şıltaq gəlin,
Tuta bilməzsən əlin,
Ömrünün yuvasına
Sənlə qoşa qonmaz.

Qurub bəxtimə toyu,
Gözlərəm ömrüm boyu,
Uçub küskün könlümə
Bəs niyə, haşa, qonmaz.

Şadiman, səadət var,
O da pul, paraya yar,
Tərəfin tutma onun
Demə daş-qaşa qonmaz.

28.Xll.1999.

KİMSƏLƏR BİLMƏZ AHIMI

Taleyimin gözlərindən tökülər yaşı,
Həyatda baş açmaz naşı.
Cığırının izi itə-itə,
Yollarında kədər bitə-bitə,
Zamanı üstünə yollayar,
Hər günümü kədərlə qollayar.
Nə könlümdən yüksələn aha,
Nə törətdiyi günaha baxar,
Elə ürəyimi yandırıb yaxar.
Arxamca kədərə bürünmüş günlərim baxar...
Mən taleyin dolaylarında,
Zamanın sümükləri üşüdən qarında.
Donmaqda,
Bütün müsibətlər önündə dayanmaqda.
Kimsələr bilməz ahımı,
Haraya çağıraram Allahımı?!...

4.Xll.1999.

MƏN ÖLÜB GEDƏNDƏ

Bacım Mirvariyə

Qovrulur içimdə yanır ürəyim,
Sənin fəğanına yetişmir əlim,
Uçub nə zamandan ümid dirəyim,
Titrəyib özülüm çöküb təməlim.

Ağlayan dilimdə sözlər buluddu,
Yağır üst-başıma gurşadlar təki.
Bu divana könlüm yanıqlı uddu,
İndi mənə baxır o yadlar təki.

Canımdan çıxmayır kədər bircə an,
Əridir vücudu yanan şam kimi.
Çöküb bu dünyanın acısı yaman,
Ağrılı başıma uçan dam kimi.

Məni sevindirmir dünyada heçnə,
Könlümün içində qəm bişirirəm,
Ağlayır gözümün gününə sinə,
Gözümün evinə nəm düşürürəm.

Baxıram ətrafa hər yerdə kədər,
Mən boğa bilmirəm həyəcanımı.
Tutub əllərimdən bərk-bərk bu qədər...
Qopara bilmirəm şirin canımı.

Çıxıb boylanıram hər gün yoluna,
Sənin kədərlərin könlümü əzir.
Dolaşıb boyunum qəmin qoluna,
Məni boğmaq üçün bir fürsət gəzir.

Allahdan günahmı üstümdə söylə?
Sənin əzabların məndən boylanır.
Elə bir zülümə düşmüşəm öylə,

Dərdlərim başıma yertək haylanır.

Salmaq istəyirəm bağrıma səni,
Qopasan dünyanın iztirabından!...
Burax o qəlbinin evinə məni,
Zəhəri boşaldım tale qabından.
Sən ki, buraxmırsan məni yaxına,
Qalmısan bəxtinin zülümləriylə.
Gəl biz də qoşulaq o mərd axına,
Birləşək fələyin ölümləriylə.

Dərdin bu sinəmdə elə od qalar,
Bacasız könlümü boğar bu tüstü.
Bilirəm qəlbinə təsəlli olar...
Mən ölüb gedəndə qəbrimin üstü!...
25.Xll.1999.

ÜRƏYİM DOLAN VAXTI

Kədər ürəyi alar,
Alıb qoynuna salar,
Tellərimi qəm darar,
Haylayar hicran baxtı
Ürəyim dolan vaxtı.

Əlim yerdən üzülər,
Sözlər köksə süzülər,

Misralarım düzülər,
Qəlbdə ilhamın taxtı,
Ürəyim dolan vaxtı.

Tale məndən yan qaçdı,
Bədənimdən can qaçdı,
Qaçıb qapımı açdı,
Dərdi başıma çaxdı.
Ürəyim dolan vaxtı.

Közüm ocağı aşdı,
İçim qaynayıb, daşdı,
Gözdən axan nə yaşdı?
Məni yandırıb yaxdı,
Ürəyim dolan vaxtı.

Zaman təki gərildim,
Torpaqlara sərildim,
Min yol ölüb-dirildim,
Allah üzümə baxdı.
Ürəyim dolan vaxtı.

Şadiman nə sevinə?
Təbi dönüb divinə,
Rəbbim, gəl qəlb evinə
Al apar bu xoşbaxtı.
Ürəyim dolan vaxtı.

23.Xll.1999.

NƏ TALESİZ BƏNDƏYƏMMİŞ

Dərd çıxıb ceyran dağına,
İlahi, nə gündəyəmmiş.
Düşmüşəm qəm ayağına,
Nə talesiz bəndəyəmmiş.

Günüm keçir qəm içində,
Bu gözlərim nəm içində,
Allahım, bu dəm içində
Nə talesiz bəndəyəmmiş.

Bu hesabsız sabahlarım,
Qan utdurur, qan ahlarım,
Bilməm nədir günahlarım?
Nə talesiz bəndəyəmmiş.

Bu dünyaya gəlməyim nə?
Gəlib qəmin bilməyim nə?
Bilib dərdin ölməyim nə?
Nə talesiz bəndəyəmmiş.

Əzabımın sonu olmaz,
Bir işimin yönü olmaz,
Hansı zülmün donu olmaz,
Nə talesiz bəndəyəmmiş.

Hicran udub vüsalımı,

Kimə deyim bu halımı?
Tanrı sormaz əhvalımı,
Nə talesiz bəndəyəmmiş.

Şadimanı aran varmı?
Qəmlərini yoran varmı?
Fələk, məntək yaran varmı?
Nə talesiz bəndəyəmmiş.

3.08.2001. / Pirallahı.

GİLEYLİ

Bir-birinə baxırıq bir yağıtək,
İçimizdən qopur kədər ağıtək,
Dağ çəkirik sinəyə qəm dağıtək,
Döyüşürük, ömür keçib bir xeyli,
Mən taledən, tale məndən gileyli.

Gah mən, gah da dərd əlindən o ahlar,
Üstbəüstdən çin-çin olar günahlar,
Hay-harayla açılar hey sabahlar,
Ruhumuzun olmaz bizə heç meyli,
Mən taledən, tale məndən gileyli.

Eşqə düşüb alışarıq şam təki,
Yanıb oda qarışarıq şam təki,
Köztək külə sarışarıq şam təki,
Nə edim ki, o Məcnundu mən Leyli

Mən taledən, tale məndən gileyli.

Fəqan edər içimizin naləsi,
Qanə düşüb dağların al laləsi,
Ayağlanıb bağrımızın taləsi,
Könlümüzün hər duyğusu bir neyli,
Mən taledən, tale məndən gileyli.

Başımızın sevdaları bitməyir,
Zaman ötür əl ki, ona yetməyir,
Qismətlə heç ruhum yola getməyir,
Hey döyürlər bir-birini ürəyli,
Mən taledən, tale məndən gileyli.

8.08.2001.

ÇIXAR MƏNİ

Dünyanın üzündə qorxu görürəm,
Bu qorxu öldürər, ya yıxar məni.
Sanki doğulandan yuxu görürəm,
Allah, adamlıqdan gəl çıxar məni.

Ya ulduzun olum, ya dağın olum,
Qatı zülmətinə çırağın olum,
Fələyin əlində varağın olum,
Allah, adamlıqdan gəl çıxar məni.

Mən daha bəşərtək qala bilmirəm,

Göründüyüm təki ola bilmirəm,
Sal hansı şəkilə, hala bilmirəm,
Allah, adamlıqdan gəl çıxar məni.

Döndər göylərində ağ buludlara,
Döndər ormanlarda sərt palıdlara,
Döndər haray çəkən yanan udlara,
Allah, adamlıqdan gəl çıxar məni.

Uca zirvələrin qaşına dönüm,
Qaynar çeşmələrin yaşına dönüm,
Mən sənin dünyanın başına dönüm,
Allah, adamlıqdan gəl çıxar məni.

Bəyaz çöllərində çiçəktək açım,
Qartaltək zirvədən zirvəyə uçum,
Sənin dərgahına necə əl açım?
Allah, adamlıqdan gəl çıxar məni.

Qoyma ağrılardan ah-zar olmayım,
Bu fani dünyaya azar olmayım,
Ayaqlar altında məzar olmayım,
Allah, adamlıqdan gəl çıxar məni.

Məni qınamasın bu bəni-bəşər,
Onun dərdlərindən ürəyim şişər,
Yazıq bəndənə də bir yol haqq düşər!
Allah, adamlıqdan gəl çıxar məni.

6.09.2001. /Pirallahı/

YAZIĞIM GƏLİR

Tökülür üstümə kədər, qəm çəni,
Bağrımın başını acılar dəlir.
Bu can ki, İlahi, yandırır təni,
Özümün özümə yazığım gəlir.

Bu sinəm qopmayır hicran odundan,
Qurtula bilmirəm qəlb fəryadından,
Etiraf edirəm könlün adından,
Özümün özümə yazığım gəlir.

Nədən bu ürəyim qurtarmaz qəmdən?
Bəbəklər ayrıla bilməyir nəmdən,
Ağrılar üst-üstə yüklənir dəmdən,
Özümün özümə yazığım gəlir.

Könlümün içinə ağrı yüklənir,
Qərib ümidlərim, heyhat təklənir,
Günlərim darıtək hey ələklənir,
Özümün özümə yazığım gəlir.

Ürəkmi ağlayır, ya bağırımmı?
Sinə paralanır, ya ağırımmı?
Boğulum dərddlərdən, ya bağırımmı?
Özümün özümə yazığım gəlir.

Günlər kəmənd atır uçan aylara,

Ürəyim yas tutub ahı-vaylara,
Bir kimsə yetişməz bu haraylara?
Özümün özümə yazığım gəlir.

Allah, kaş Şadiman doğulmayaydı,
Doğulub dərdlərdən boğulmayaydı,
Ölüb heç torpağa dağılmayaydı,
Özümün özümə yazığım gəlir.

6.08.2001. /Pirallahı/

ALA BİLMİRƏM

Üzülmüşəm əzabların əlində,
Ağ görürəm vüsalımın telində,
Boğulmuşam gözlərimin selində,
Bu dünyada daha qala bilmirəm,
Ürəyimi dərddən ala bilmirəm.

Saatlarım ömrə balta vuranda,
Kədərlərim bağrı ahla yaranda,
Varlığımı acı həsrət saranda,
Öz könlümdə yuva sala bilmirəm,
Ürəyimi dərddən ala bilmirəm.

Hey çaxnaşır qəlb içində duyğular,
Alar başım üstün hər an qayğılar,
Həyat özü acı, şirin uyğular,
Hamı təki niyə ola bilmirəm,

Ürəyimi dərddən ala bilmirəm.

Əsir olmuş bağrın için qəm udur,
Gözlərimi kipriklərdən nəm udur,
Ömrü acı yellərindən dəm udur,
Acılara zəfər çala bilmirəm,
Ürəyimi dərddən ala bilmirəm.

13.09.2001. / Pirallahı/

KÖNÜL AĞRISI

Qəlb dözmür dərd dağına,
Bu dərd nə vaxt dağına?
Dünyada şirin canım,
Düşdü dərd qabağına.

Gözlər tökür qan, yaşı,
Yandı bağrımın başı.
Ürəyim, nə biləydi?
Sən çox bilmiş, mən naşı?

Fələk könlü qan etdi,
Bağrı
ma üsyan etdi.
Hamıya can söylədim,
Canımı büryan etdi.

Oldum canımdan ası,
Qurdum könlümə yası.

Fələk məni qarğıdı,
Qurudu dil duası.

8.09.1988.

KEÇƏN HƏR GÜNÜM

Sən ey həyatımdan keçən hər günüm,
Ey həm kədərlərim, həm də düyünüm,
Sənin zərrələrin həm sədam, ünüm,
Səndən itirdiyim ömrümdən gedir,
İtgilər könlümü dərbədər edir.

Günümüz xaliqdən anlara bağlı,
Hər acı möhnətdən sinəsi dağlı,
Didir, parçalayır hər idrak ağlı,
Anımızdan doğur həyat işığı,
Zamandır bəşərin pak yaraşığı.

Anlarla birləşir ömrün kamalı,
Odur yaranandan həyat amalı,
Dəqiqə açdırır gültək cəmalı,
Hər günün zərrəsi ondan başlayır,
Onun zərbəsindən ömür yaşlayır...

Sən ey həyatımın saatları gəl,
Sənin əllərində titrəməsin əl,
Mənimlə zirvələr fövqünə yüksəl,
Nəşəsi, qəmi var gələn anın da,

Yoxdur bir dincliyi Şadimanın da.

31.03.2000. /Pirallahı/

***

Ey fələk, vermisən bu canı mənə,
Allahdan izinsiz ala bilmirsən.
Yanır əzablarda bu miskin sinə,
Onun tellərini çala bilmirsən.

1.07.2000

ELƏ TƏNHAYAM Kİ...

Elə tənhayam ki, bu dünyada mən,
Heç nə sevindirmir bir diləyimi.
Sinəmdə sisləşən kədərlərim çən,
Üzür tənhalıqlar bu ürəyimi.

Elə tənhayam ki, bu Yer üzündə,
Ağırya-acıya əsir olmuşam.
Alahim, bəs niyə dərdin gözündə
Əliylə yapılan qəsir olmuşam?!

Elə tənhayam ki, yoxdur bir kə
sim,
Adamlar içimdə dərdimi damlar.
Boğulur boğazda fırtına səsim,
Qəlbimə dünyanın əzabı damlar!...

6.08.2000.

NƏDİ?

Bu ağlayan diləyimi
Ağlatmağa gərək nədi?
Özü sınan ürəyimi
Sındırmaqçın ürək nədi?

Zaman uçur başım üstə,
Qanadları nə ahəstə,
Qəlbdə ağlar bu şikəstə,
Haray çəkən dilək nədi?

Gözdə yaşım daşa-daşa,
Min bir seli verdi başa,
Bacarırsan indi yaşa
Gör qurulan kələk nədi?

Dünya altun doyanlarçın,
Sərvətinə uyanlarçın,
Kamı gözdə qoyanlarçın
Kamı verən mələk nədi?

Alov qaldı şam altında,
Könül yandı kam altında,
Rəbb uçurdan dam altında
Polad olsa dirək nədi?!...

21.01.2001.

HARƏDİ?

Qara başın dərdlə dolsa,
Qə
lb yanında nakərədi?
Qismətinə olan olsa
Ağlamağın bekarədi.

Qorusaq da canımızı,
Fələk güdür anımızı,
Bir gün tökər qanımızı,
Hər nə varsa şikarədi.

Yamanlığı edən kəslər,
Can evində şeytan bəslər,
Əsli üzün haqdan həslər,
Xarə qalan da xarədi.

Dünya özü bir pilləkən,
Çarmıxında haqqı əkən,
Hər pilləsi bir can çəkən
Evlər yıxan pul-parədir.

Can itirib etibarın,
Dada bilmir heç nübarın,
Torpaq yeyər bir gün barın
Könlün üzü ah-zarədi.

Gedənləri yer gözləyər,
Sinəsində əzizləyər,
Gələnləri Rəbb izləyər,
Bu gethaget dübarədi!

Əvvəl ucu bizlə qalan,
Bizlə özün zülmə salan,
Son ucunda bizdən olan
Bədəndə can avarədi.
Laqeydliyi siz buraxın,
Ey adamlar, gəlin yaxın,
Ürəyimi açın baxın
Yarəsiz bir yer harədi?!

1.05.2001.

AMAN

Ürəyimin qara başı
Yandı ay aman, ay aman.
Gözlərimin sevinc yaşı
Dondu ay aman, ay aman.

Bu dünyaya gəlməyimiz,
Gəlib halın bilməyimiz,
Bilib sonra ölməyimiz
Sondu ay aman, ay aman.

İnsanın sirdir qurluşu,
Getdi başdan ağlı, huşu,

Boş başlara şahlıq quşu
Qondu ay aman, ay aman.

Nə gətirdik, nə apardıq,
Bəxt əlindən gün qopardıq,
Dilimizlə sinə yardıq
Qan
dı ay aman, ay aman.

Bizdən-bizə hey dad edən,
Tanrımızı çox yad edən,
İçimizdə fəryad edən
Candı ay aman, ay aman.

Fələyin gördük üzünü,
Ələyib yığdı üzünü,
Qəbrlərin daş üzünü
Yondu ay aman, ay aman.

Nədir bizdən haqqa qalan,
Pərdələnib haqla yalan,
Hər yalanın sonu talan,
Qandı ay aman, ay aman.

Ömrümüzü tapıb düşən,
Qəlbimizə hopub düşən,
Zərrə-zərrə qopub düşən
Andı ay aman, ay aman.

Torpaqla ki, hasil bədən,
Torpağa da olacaq dən,
Kim gəldi ki, Rəbb ilə tən?
Yaranannan hər cana tən
Dondu ay aman, ay aman.

12.01.2001.

ELƏ QƏRİBƏM Kİ...

Elə qəribəm ki, bu dünyada mən,
Getməyə nə yerim, nə məkanım var.
İçimdə baş-başa yatıb duman, çən,
Candan qurtulmağa nə imkanım var?

Elə qəribəm ki, göy-yer arası,
Dərin bir boşluğa düşüb qalmışam.
Boğulur zülmətdə gözüm qarası
Dərdin qara yerin satın almışam.

Hər yandan üstümə ələm yüklənir,
Özündən böyükmüş ürəyin dərdi.
Ələmdən qaçdıqca qəm böyüklənir,
Ömrümün hər günü təzə dərd dərdi.

Elə qəribəm ki, bu qəribliyi
Sinəmdən qoparıb ata bilmirəm.
Necə nəşəliymiş həyatın iyi

Onun əzabına bata bilmirəm.

11.06.2001. Pirallahı

GƏLMƏSƏ

Əzrayıl canı alarmı?
Zaman gəlməsə, gəlməsə,
Evində köçün salarmı?
Divan gəlməsə, gəlməsə.

İllər ömürü dolana,
Kim dəyər şirin balana?
Allahdan çanı alana
Ünvan gəlməsə, gəlməsə.

Ay, gün olmasa saralmaz,
Dag, qış görməsə qar almaz,
Zirvə gözündə qaralmaz
Duman gəlməsə, gəlməsə.

Ürəkdən yara silinməz,
Yaxılan qara silinməz,
Yaxşının qədri bilinməz
Yaman gəlməsə, gəlməsə.

De dərd ürəyi taparmı?

Tapıbda onu qaparmı?
Sinədən heç ah qoparmı?
Aman gəlməsə, gəlməsə.

Tamah yıxan ev dikəlməz,
Paxılın varı yekəlməz,
Tən məzarına dar gəlməz
Son an gəlməsə, gəlməsə.

Şadiman, çıxma əksimə,
Əl vurma yanan köksümə,
Neylər mizrabın boş simə-
Kaman gəlməsə, gəlməsə?

11. 06. 2001
Pirallahı

DƏRD

Elə doğulandan giririk dərdə,
Gah mərdə dönürük, gah da namərdə,
Dərd yıxır, dağıdır dirəyimizi,
O yeyir icərdən ürəyimizi.
Dünyada hər şeyin səbəbi dərddi,
Bəşər qarşısında səddi, sərhəddi.
Hərə öz dərdindən əriyir şamtək,
Alır sinələri o bir axşamtək.
Varlının canını qorumağ dərdi,
Yığdığin birbəbir arımağ dərdi.

Qızın ər evində yarımağ dərdi,
Ya ata evində qarımağ dərdi.
Oglanın ev dərdi, pul-para dərdi...
Ürəyə vurulan hər yara dərdi,
Çoxunun şan-şərəf, ucalmağ dərdi.
Şöhrətə çatanda qocalmağ dərdi,
Atanın, ananın övlad vəfası,
Böyütmək, yerbəyer etmək cafası.
Övladın ataya, anaya borcu,
Bu bağlılığların görünmür ucu....
Bəxtinə səadət gətirmək dərdi,
Sonradan onu da itirmək dərdi.
Dərdlər xırda-xırda, dərdlər birbəbir,
Bizi yrəyindən keçirən xəlbir.
İşqal altda olan torpagin dərdi,
Yağıya alçalmış papağın dərdi!
Dildən məcbur çıxan yalanın dərdi,
Haqqı misqal-misqal talanın dərdi
Dünyanı dolaşan zülümlər dərdi,
Vaxtı bilinməyən ölümlər dərdi.
Ev dərdi, iş dərdi, çay-çörək dərdi,
Həyat axınında bir dirək dərdi.
Çox vaxt başımızın boy atıb dərdi
İçdə çiçəkləyən ümidi dərdi!
Tapa bilərsizmi dərdsiz bir ürək?
Onu da xəlbəti əyməsin fələk.
Dərdlər sinəmizi tapır sel təki,
Sonra hey orada çapır yel təki.

Dönür içimizdə, sanki fərya
da,
Yandırır ürəyi, sinəni oda.
Zəngin də, kasıb da onun əsiri,
Bəlkə o Allahın açılmaz sirri.
Verdi ömürləri büsbütün bada,
Heç dərddən qurtulan varmı dünyada?!

30/31.01.2001.

QAÇMAQ OLMAZ

Taleyin acısı bol,
Ömür adlı uzun yol,
Gözünü çəkməz biryol,
Ondan baş açmaq olmaz,
Taledən qaçmaq olmaz.

Tökər barına qəmi,
Gözdə ovudar nəmi,
Verməz sənə aləmi,
Göyündə uçmaq olmaz,
Taledən qaçmaq olmaz.

Salar könlünə atəş,
Sanarsan odlu günəş,
Eyləyər ürəyin qəş,
Nur olub saçmaq olmaz,
Taledən qaçmaq olmaz.

Kim yetib məhəbbətə?
O ilahi xilqətə,
Düşəndə müsibətə,
Qapısın açmaq olmaz,
Taledən qaçmaq olmaz.

Gah gözünü ağladar,
Gah sevinclə bağladar,
Ürəyini dağladar,
Ona dərd açmaq olmaz,
Taledən qaçmaq olmaz.

Buraxmaz yedəyindən,
Verməz bal pətəyindən,
Yapışar ətəyindən,
Əlindən qaçmaq olmaz,
Taledən qaçmaq olmaz.
Onda ömrün dərmanı,
O verməsə fərmanı,
Əzrayıl almaz canı?
Məzarı qucmaq olmaz...
Taledən qaçmaq olmaz.

Üzü dərdə, qəmədi,
Heç kəsə can demədi,
Kimin başın yemədi?...
Fələkçin acmaq olmaz,
Taledən qaçmaq olmaz.

Bəşər əlində oyun,
Dənləyər kökün, soyun,
Ey insanlar, bir duyun,
Ona əl açmaq olmaz,
Taledən qaçmaq olmaz.

Ömrə aman verməyir,
Kimi gözü görməyir?
Kimin qolun gərməyir?
Bağından bar dərməyir?
Onu ki, suçmaq olmaz,
Taledən qaçmaq olmaz.

İnsan gəldi-gedərmiş,
Onu fələk güdərmiş,
Haqqa təslim edərmiş,
Dişini qıcmaq olmaz,
Taledən qaçmaq olmaz.

Az-az xoşbaxtınız var,
Bir ömür baxtımız var,
Baxt içrə taxtımız var?...
Bu sirri açmaq olmaz,
Taledən qaçmaq olmaz.

Mən taleyə daməndə,
Salıb məni kəməndə,
Bilməm nə görüb məndə?
Canı qoymayır təndə,

Neylim dil açmaq olmaz.
Taledən qaçmaq olmaz.
Şadiman, etmə nazı,
Ömrün qalıbdı azı,
Olma bəxtdən narazı,
Qırılsa könül sazı
Fələyi sancmaq olmaz,
Taledən qaçmaq olmaz.

16.05.2001.

İKİ DAMLA YAŞ

Gözümdən iki damla yaş
Axdı ağ vərəq üstə.
Ağ vərəq də könlüm təki oldu xəstə.
Ölən anlarımı yudu, tabutladı,
Ümidlərimi qatladı.
İki damla yaş...
Canıma dedi sirdaş,
Məni tənhalığa apardı,
İçimdə tufan qopardı.
Canıma sirdaş olana bax,
Gözümdə yaş olana bax.

17.03.2001.

ANA CANDAN ƏZİZDİ

Laylası dağlar aşar,

Ürəkdə, qanda yaşar,
Dilə gəlib danışar,
Mələklərtək təmizdi,
Ana candan əzizdi.

Sinədə bala eşqi,
Bitib tükənməz şövqü,
Həyattək uca zövqü,
Coşub-daşan dənizdi,
Ana candan əzizdi.

Unudar şad gəncliyi,
Heç olmaz ki, dincliyi,
Balasından inciyi,
Nə zərrədi, nə izdi,
Ana candan əzizdi.

Üzü Tanrı Günəşi,
Sinəmizin atəşi,
Yalnız yanmaqdı işi,
Nə ilahi bənizdi,
Ana candan əzizdi.

Ürəyi haqqa baca,
Layiq şərəfə, taca,
Yeri ucadan uca,
Dünyamıza Hörmüzdü,
Ana candan əzizdi.

1.05.2001.

ETMİR Kİ, ETMİR

Mən dərddən yarandım, yoxsa dərd məndən?
Heç zülmü, sitəmi bitmir ki, bitmir.
Ayrıla bilməyir bağırdan, təndən,
Çıxıb bu sinəmdən getmir ki, getmir.

Zəhərli ox təki ağrı-acılar,
Ürəyim başına qəfil sancılar,
Könlümün qapısı qəmə açılar...
Əllərim şadlığa yetmir ki, yetmir.

Axan göz yaşlarım dönübdü çaya,
Batırıb qəlbimi kədərə, vaya,
Bilməm nə etmişəm dərdə, xudaya?
Zirvə dumanıtək itmir ki, itmir!

De kimdən imdadın diləsin canım?
Ya Rəbb, sənə qalıb bircə gümanım,
Ələmsiz, qüssəsiz gəlmir zamanım
Nəşə qəlb bağında bitmir ki, bitmir.

Şadiman özünə bulmadı çarə,
Düşüb biyabanə qaldı avarə,
Aləm yaş axıdır mən dilizarə,
Dərd mənə rəhmini etmir ki, etmir.

12.05.2001.

GÜNAHINI KİM Y”YACAQ?

Fələk səndən canı alsa,
Alıb daştək göyü çalsa,
Göy bağrına bir xal salsa
Kim gələr qəlb sarayına?
Ürəyinin harayına?

Donan qan da durulmaz ki,
Bədən candan qırılmaz ki,
Tən məzara vurulmaz ki?
Əzrayıl qol qoymasaydı,
Hər ruha yol qoymasaydı.

Gələn bilmir gedər haçan?
Yuvasın Rəbb didər haçan?
Onu torpaq edər haçan?
Ömür qaçar tutmaq olmaz,
Başını heç qatmaq olmaz.

Hansı qapı döyülmədi?
Hansı bədən üyülmədi?
Hansı başa döyülmədi?
Fələk ac, tox ayırmaz ki,
Bir kimsəni doyurmaz ki...

Dərdin bulan yox bəşərin,
Caynağına keçib şərin,

Məzarını qazar dərin,
Düşən ordan çıxmayıbdı,
Gor evini yıxmayıbdı.

İdrakda hər fəna puçdu,
Hər fənalıq cana suçdu,
Ruh bədəndən bir gün uçdu
Haqq dərgaha kim qoyacaq?
Günahını kim yuyacaq?

Şadiman, az yor idrakı,
O ki, bədən, can həlakı,
Rəbb dünyaya verməz pakı,
Çırpınmağın nə halətdi?
İdrak cana bir alətdi.

1.05.2001.

FİKİR ELƏMƏ

Bütün əzabları özüm çəkəcəm,
Sən fikir eləmə qəm, kədərimə.
Yazıq ürəyimə dözüm əkəcəm,
Belə üsyan etmə bu qədərimə.

Qəmdən qurtulmağın yolu çox çətin,
Düşünən başlara dar ağacıdır.
Mənə ağır olan sənin xiffətin,
Fikirin özü də qəlbə acıdır.

Mən qara taleyin oldum əsiri,
Qara gözlərimdən tökərəm yaşı.
Sən fikir eləmə bu haqqın sirri.
Həmişə qal görər dərd çəkən başı.

Əgər diqqət etsən hər əzabımı,
Çoxdan ürəyimdə əkib, biçirəm.
Heç bir zülüm, sitəm qırmaz tabımı.
Könül qədəhindən dözüm içirəm.

Ümidim sitəmin dəmir heykəli,
Dözür soyuqqanlı buz baxışlara.
Vurur bu əzabkeş taleyin əli
Ömür xalısında rəng naxışlara.

Gözdən gilə-gilə axan yaşımla,
Suladım bəxtimdə bitən gülləri.
Mənim fikir adlı can sirdaşımla
Toxudum ömrümə zaman tülləri.

Sən fikir eləmə, əzizim, belə
Min fikir bir borcu ödəmir axı?
Ürəyim olsa da dənizim belə
Çürüyür sularda saf dəmir axı?

Mən tale gəmisi batmış bir kəsəm,
Məndən sevinc ummaq rəvamı söylə?
Nəşəsi içində boğulan səsəm,
Batan səsə nalə dəvamı söylə?

Sən fikir eləmə, gözlərim gülür,
Qara göz yaşlarım qəlbimə axır.
Demə ki, bu könlüm əzabdan ölür,
Hər zülümə, sitəmə olacaq axır.

Özüm də bilmirəm, nədəndi vallah?
Mənim qara başım dərdə alışıb.
Ürəiymdən qopan hər nalə, hər ah,
Qəlbin ocağına yanıb qarışıb.

25.04.2001.

OLAR

Fələk könlə vəfa qılmaz,
Könül candan bezar olar.
Ürək ağlar, odu qalmaz,
Can içində azar olar.

Dilim fəryad çəkər ahdan,
Səda gəlməz heç Allahdan...
Şişib dünya hər günahdan,
İçi mənə məzar olar.

Yanar cigər, yanar bağır,
Bir kimsəyə yetməz, çağır,
Fələk edər cəfa ağır
Dil ağızdan həzar olar.

Gözlərimdən çeşmə doğar,

Bəbəkləri tutub boğar,
Qəlb səhrama hicran yağar,
Bu səhradan gülzar olar.

Üzü gülməz heç taleyin,
Edər üzə hey gileyin,
Zaman kəsər yolun heyin,
Yoxuş mənə güzar olar.

Vəfa qılmaz Rəbb adəmə,
Salar könlü dəmdən-dəmə,
Göz bulanar acı nəmə,
Sinəmdə hey ah-zar olar.

Zaman yapar saray andan,
Nalə qalxar hər bir yandan,
Tən ayrılar mələk candan...
Əl məzarı qazar olar.

Can cisimdən qopar hənuz,
Öz ulduzun tapar hənuz,
İçimdə dərd çapar hənuz,
Könül mülküm bazar olar.

Cəfalar hey başdan aşar.
Yazıq ürək qəmlə yaşar,
Ey Şadiman, təbim daşar
Əlim ahdan yazar olar...!

8.XI.2001.

GƏLMƏDİ

Dərd məni qoydu kamana,
Baxmadı heç ah-amana,
Düşdü bu bəxtim dumana,
Ağrımı niyə bölmədi?
Səslədim getdi, gəlmədi.

Taleyin quşu uçdumu?
Yuvamı gəlib qucdumu?
Ömrümə qanlı suçdumu?
Üzümə bir yol gülmədi,
Səslədim getdi, gəlmədi.

Sındırdı könlü caladı,
Dağıtdı bağrı taladı,
Ürəyə atəş qaladı,
Tanrıya yetdi gəlmədi,
Səslədim getdi, gəlmədi.

Yollara baxdım saraldım,
Həsrətə düşdüm daraldım,
Günəştək batdım, qaraldım,
Aləm bildi, o bilmədi
Səslədim getdi, gəlmədi.

Bulağa həsrət kuzədi

Qılıncı sınmış nizədi,
Sevdası vallah üzədi,
Yaşımı gözdən silmədi,
Səslədim getdi, gəlmədi.

Ömrümdə tale qınağı,
Yolunda zaman sınğaı,
Sinəmdə qəm yığınağı,
Fələyim dərddən ölmədi,
Səslədim getdi, gəlmədi.

30.X.2001.

ÇIXMADIM SÖZÜNDƏN

Kədər sap etdi ürəyi,
Keçirtdi iynə gözündən.
Uçurtdu-tökdü dirəyi,
Taleyin düşdüm gözündən.

Sinəmdə çəni görmədi.
Can aldı təni görmədi,
Yanında məni görmədi,
Alışdım yandım közündən.

Hayladım səsisim yetmədi,
Qəmimə fəna etmədi,
Mənimlə yola getmədi,
Kam aldı özü-özündən.

Taleyim qəmə sarıldı,
Gözümdə nəmə sarıldı,
Görənin bağrı yarıldı,
Ürəyim dəli üzündən.

Qapısı bağlı qaladı,
İçimə atəş qaladı,
Ürəyi çapdı, taladı,
Çıxmadım tale sözündən.

30.X.2001.

MƏNİM ÜRƏYİMİ ÖZÜMƏ VERİN

DONUB QALARAM

Mən həyat gözündən tökülən yaşam,
Dəryalar boğular həyəcanımdan.
Ələmlər içində ağrılı başam
Dünyanın ağrısı çıxmaz canımdan.

Zaman məhvərindən qopan bir mehəm,
Oxşaram naləli bu gündüzləri.
Sübhün gözlərində boğulan şehəm,
Damlamla sularam yanan düzləri.

Buluda dönərəm susuz çəməndə,
Yanan çiçəkləri ovutmaq üçün.

Bulaq çeşməsini tapıbdı məndə
Alışan köksünü sovutmaq üçün.

O müdhiş gecənin qaranlığında
Ayın gözlərinə çıraq olaram.
Çirkin ürəklərin viranlığında
Dönüb bir heykələ donub qalaram.

17.03.1999
Pirallahı

BƏXTİMƏ QƏM DÜŞÜB

Qəlb acı həsrətin hicran naləsi
Fəryada dönübdü diləklərində.
Ürək çəmənzarın tənha laləsi
Solubdu rüzgarın küləklərində.

Gözümün yaşından susar buludlar
Yağışı, dolunu unudar bütün.
Ürəyimin başı elə buludlar
Səcdəsinə gələr qəm adlı bütün.

Qara çadrasıyla öyünən gecə
Könül atəşimlə oda boyanar.
Səhər zülmətlərdə uyuyar becə
Mən fəryad çəkərəm o da oyanar.

Sökülər dan yeri sədalarımla,

Dünya ürəyimdən alar atəşi.
Göylərə Kə`bətək fədalarımla,
Doğar səmaların parlaq günəşi.

Zaman nəğməsinə dönüb coşaram,
Səhərin atəşli dodaqlarında.
Bülbültək güllərlə pıçıldaşaram
Könül bağçasının budaqlarında.

Nalədən, fəğandan qurtulmaq çətin,
Ürəkdə yeri var ah, amanın da.
Hər kiçik zərrəsi bəşəriyyətin
Hayıf ki, yetişmir heç zamanında.

18.03.1999
Pirallahı

XƏYAL MƏLƏYİ

Könlümün göyləri tutulan vaxtı,
Qurar ürəyimin içində taxtı,
Oyadar yuxudan yenə də baxtı,
Alar əllərimdən nazlı diləyi,
Ah xəyal mələyi, xəyal mələyi.

Baxmaz zamanımın qaçhaqaçına,
Zirvələr başında dönər laçına,
Lalələr, nərgizlər düzər saçına,
Sanki ovsunlayar göyü, fələyi,

Ah xəyal mələyi, xəyal mələyi.

Qəlbimin göyündə gəzər ahəstə,
Uçar düyğuların sinəsi üstə,
Desəm ki, gəl məndən ruhumu istə,
Qoparar sinəmdən alar ürəyi,
Ah xəyal mələyi, xəyal mələyi.

Qaçar səmalara şıltaq yel təki,
Kükrüyər, çırpınar dağda sel təki,
Qəlbim sığal verər ona tel təki,
Coşqun arzuları ələr ələyi,
Ah xəyal mələyi, xəyal mələyi.

Alar yuxuların qoynuna məni,
Bağrımın içində çiskini, çəni,
Könül dəryasında titrər yelkəni...
Qəlbimi almaqçın qurar kələyi,
Ah xəyal mələyi, xəyal mələyi.

Şikarı olaram bu səadətin,
Dadlı dünyasından ayrılmaq çətin,
Körpətək duyğulu o ülviyyətin,
Gül-çiçək qoxuyar nurlu bələyi!
Ah xəyal mələyi, xəyal mələyi.

Vaxtımız əlində fırtına quşu,
Endirib qaldırdın qəlb uçulmuşu,
Tək sənə bəllidir könlün qurluşu,

Sınmaya onun da zümrüd dirəyi,
Ah xəyal mələyi, xəyal mələyi.

Ruhun qarşısında Şadiman nəçi?
Tale qapısında sənsən gözətçi,
Göynəyir könlümün, qəlbimin içi,
Bağrı ovutmaqçın artırar səyi...
Ah xəyal mələyi, xəyal mələyi.
13.12.1999

GƏTİRMƏYƏYDİ

Mənim varlığıma hökm edən fələk
İçimdə dərdi-qəm bitirməyəydi.
Verəydi köksümə bir hissiz ürək
Hisslərin içində itirməyəydi.

Çataydı könlümün bir yol dadına,
Özü yetişəydi qəlbin adına,
İnanıb qəmimin ah-fəryadına
Əlini əlimə yetirməyəydi.

Dərdi döndərəydi sinəmdə daşa,
Çeşmə etməyəydi bəbəyi yaşa,
Fələk bu dünyanı sanıb tamaşa
Üstümdən əlini götürməyəydi.

Madam
ki, başıma qəm tökəcəkdi,
Qəlbimi bağında dərd əkəcəkdi,
Bəxtimin üstündən xətt çəkəcəkdi...
Heç məni dünyaya gətirməyəydi!...

17.05.1999

ÜZÜMƏ GÜLƏR

Qəlbim öz odunda elə qovrular,
Ocağa sıçramış bir damcı yağtək.
Anlarım küləşmi mehdən sovrular?
Solar aralıqda ümidlərim tək.

Ürəyim qaraya bürünər yenə,
Çağrılmaz gecənin qaranlığıtək.
Çırpınar zülmətin içində sinə
Abad bir məkanın viranlığıtək.

Ürək təndən çıxar bağrım yarılar,
Gəzər üfüqlərin ətəklərində.
Anlarım şirədən doyan arılar,
Uçuşar könlümün pətəklərində.

Zamanım qısılar köksümə bir an
İçimin ağrısı qəlbimi dələr.
Gecələr bağrımdan qopub çıxar can

Dadlı röyalarla üzümə gülər.

Sabaha hamilə olan axşamın
Ağrılar içində ötər saatı.
Tanrı yandırsa da hər bəxtin şamın
Bir tükdən asılı insan həyatı!...

1.08.1999

KİMSƏ ÜRƏYİMƏ TOXUNMAYAYDI

Kaş bir bu dünyadan qaça biləydim,
Ünvanım heç dildə oxunmayaydı.
Başqa səyyarəyə uça biləydim,
Kimsə ürəyimə toxunmayaydı.

Bu sınıq bəxtimə kəsilib ası,
Başımda sınaydı könlün əsası,
Alaydım özümdən özüm qisası
Kimsə ürəyimə toxunmayaydı.

Mənə dərd verənlər mənsizləşəydi,
Qəlbin asimanı çənsizləşəydi,
Könlümə bir yeni nəğmə düşəydi...
Kimsə ürəyimə toxunmayaydı.

Uçaydım yellərtək göyün üzünə,
Düşəydim buludun axan gözünə,

Dönəydim leysanın mən də özünə
Kimsə ürəyimə toxunmayaydı.

Sellərdən soraydı fələk ismimi,
Çırpaydı daşlara sular cismimi,
Fəryada gələndə könlümün simi
Kimsə ürəyimə toxunmayaydı.

Üzəydim qəlbləri boğan dərdləri,
Dünyadan qovaydım mən namərdləri!
Qoparıb ataydım bu sərhədləri...
Kimsə ürəyimə toxunmayaydı.

Canım boğazımdan çıxsaydı nə qəm?
Ölüb dirilirəm mən taleyi kəm,
Varağa yaş töküb yananda qələm...
Kimsə ürəyimə toxunmayaydı.

13-14.05.1999

BİR QƏRİB QUŞ UYAM...

Bir qərib quşuyam mən bu dünyanın,
Uçaram könlümün qəm havasında.
Uyaram gecədən doğan röyanın
Tanrıya üz tutan haqq düasında.

Ələmlər bağrımda çapar sağ, sola,
Yüyənə gəlməyən kəhərlər təki.

Niskilli qəlbimə yapıbdır qala
Buludu hönkürdən qəhərlər təki.

Dünyanın yolçusu olandan bəri,
Soldu ümidlərim cığırlarında.
Zaman əllərində bükdü illəri,
Çatdı ocağını bağırların da.

Bir qərib quşuyam mən bu dünyanın,
Mənim ünvanımı fələkdən sorun.
Uymuşam qanadı üstə röyanın,
Düşmüşəm içinə qəm adlı torun.

28.06.1999

ARAYIR

Ürəyimin dolub başı
Bu gözlərim yaş arayır.
Qəlb yerinə ağıl naşı
Ağrı bilməz daş arayır.

Duyğularım dağdan uca,
Ocağıma olub baca,
Hər günümə aca-aca
Hər şeyi çaş-baş arayır.

Qəlb barımdan qəm adlayıb,
Könül bağın hey budayıb,

Bağrın içi buludlayıb
Göz yerində qaş arayır.

Zaman qovur anı elə,
Vermək üçün ömrü yelə,
Ağ cığırı salır telə
Qocaltmaqçın yaş arayır.

İdrak qəlbin yüyürəyi,
Sanma könlü can dirəyi,
Əzizləmə çox ürəyi
Hər müşkülü baş arayır!...

6.02.2000
Gəmidə

SORAĞINDAYAM

Siz ey
ürəyimə yaxın adamlar,
Bu yazıq könlümü dərdlə oymayın.
Ələmdən bağrıma yapılıb damlar,
Siz onu sinəmə yaxın qoymayın.

Kədərin dünyada çəpəri olmur,
Bir damcı sevincə quyular dərin.
Qəmin hansı ürək sipəri olmur,
Nərd taxtası dünya, itirib zərin.

Siz ey ürəyimə yaxın adamlar,
Sizi yaxınlıqdan çıxarımmı mən?
Boğulub köksümdə üst-üstə kamlar,
Siz də tələsməyin ora düşsün çən.

Bütün dərdlər, qəmlər könlümdən başlar,
Mənim ürəyimdən gedir dərdə yol.
Dərdin də bağrını dərd özü daşlar,
İnsan bəndəsinin onsuz qəmi bol.

Siz ey ürəyimə yaxın adamlar,
Başıma dəyəydi yaxşılığınız.
Güllələr sinəmi, ələm e`damlar,
Necə iblisvari bu qılığınız.

Həyat başdan-başa könlümə zülüm,
Sanki bir məzarın qırağındayam.
Hər canı bədəndə izləyən ölüm,
Ah, necə mən sənin sorağındayam!
28.06.2001

QƏMSİZ ÖTÜŞƏN DEYİLƏM

Gecələr içimdə ağlayan neyəm,
Gündüzlər sinədən qopan naləyəm
,
Düşüb parçalanmış bir piyaləyəm,

Sınmışam, bitişən deyiləm daha,
Mən qəmsiz ötüşən deyiləm daha.

Tək-tək sevincim də kədərə yükdü,
Dünyanın özündən qəmim böyükdü,
Könlüm min bir yerdən qırıq, sökükdü,
Batmışam büsbütün ələmə, aha,
Mən qəmsiz ötüşən deyiləm daha.

Nəm kirpiklərimdə salıbdı yuva,
Ciyər zənn eləyir dərd özü hava,
Ürək elə bilir hər ahı dua,
Üzümün gülməyi qalıb Allaha.
Mən qəmsiz ötüşən deyiləm daha.

Dağıdıb bağrımı ələm büsbütün,
Qırılıb könlümdə hər dirək, sütun,
Səcdəsi olmuşam qəm adlı bütün,
Gecədən çıxıram ahla sabaha.
Mən qəmsiz ötüşən deyiləm daha.

Dildə e`lan etdim şadimanlığı,
Aşkar etməməkçin peşimanlığı,
Mən necə gizlədim bu yamanlığı,
Nəş`əyə yetişən deyiləm daha.
Mən qəmsiz ötüşən deyiləm daha.

5.12.1999

İLHAM PƏRİSİ

Ah, ilham pərisi, bu zülmət gecə,
Könlümün evinə gəlmisən necə?
Hissim, həyacanım yenə əlində,
İncəlik, lətiflik tuti dilində,
Dadlı duyğuların qəlbimi bəzər,
Ruhumun bağında mələyə bənzər.
Büküb ürəyimi o atəşinə,
Dönmüsən bəxtimin sən günəşinə.

Ah, ilham pərisi, bu gecə yarı,
Gətirdin könlümə əhdi-ilqarı,
Bağında açılan çiçəklərinlə,
Bağrımı odlayan diləklərinlə,
Sarmısan canımı sevgili yartək,
Qoynu ətir qoxan nurlu bahartək.
Ürək süfrəsinə sevda düzürsən,
Könül qədəhinə duyğu süzürsən.

Ah, ilham pərisi, təndə can varkən,
Bu vəfalı dünyam könlümə yarkən,
Gəl oynat qəlbimin duyğularını,
Unudaq cahanın qayğılarını.
Coşqun buludlartək dolub-boşalaq,
Bu qara zülməti edək daş-qalaq,
Uçaq asimana mələklər sayaq.
Yuxulasın kainat biz isə oyaq!..

Ah, ilham pərisi, hardan qaçmısan?
Könlümün qapısın necə açmısan?
Mən ki, qol-boyundum yuxularımla,
Qəlbi əsir edən qorxularımla.
İzin ver, bağrıma basım qoy səni,
Yenə tələtümə gətirdin məni.
Çıxaq duyğuların seyrangahına,
Dönək hər sətirin yanan ahına!

Ah, ilham pərisi, bu könül odam,
Sənsiz mən də orda qəribəm, yadam.
Sənin atəşinə yanar ocağım,
Duyğuyla sevgiylə dolu qucağım,
Səni uca Tanrım göndərib mənə.
Könlümün qapısın göstərib sənə,
Eşqin ürəyimin içində bitər,
Sənin̂çin ölürəm mən səndən betər.

Ah, ilham pərisi, bu gecə vaxtı,
Qurmusan evimin ağzında taxtı,
Qapımı ahəstə elə açırsan,
Qaranlıq içində işıq saçırsan.
Doğub göylərində həyat günəşi,
Düşüb ayağına zülmətin nə`şi,
Bütün vücudumu almısan ələ,
Tutmuşam sənin̂lə yenə əl-ələ.

Ah, ilham pərisi, könlümü qopar,

Məni də özünlə dünyadan apar,
Birgə qanad açım, uçum sənlə,
Ey incə mələyim, gəl məni dinlə,
Ağrıyan könlümə bir yuva ara,
Qoyum ürəyimi əbədi ora!...
Rahatlıq tapmadım mənki bir dəm də,
Gəzdirə bilmirəm onu sinəmdə.

Ah, ilham pərisi, baxışın incə,
Ötməsin axşamın anları becə.
Dönək gecəmizin təranəsinə,
Bir şirinlik qataq incə səsinə.
Darayaq zülmətin qara telini,
Qucaq nurlu ayın incə belini.
Ürəyi oynasın ötən anın da,
Qoy həyat qaynasın donan qanında!

Ah, ilham pərisi, gəlişin təzə,
Bəzə, ürəyimi əl-alvan bəzə.
Gedək mehman olaq vüsal bağına,
Qalxaq duyğuların ucalığına.
Silək gözlərimdən niskili, qəmi,
Şadlığa bələnsin könül aləmi.
Yetir Şadimanın qəlbini dada,
Bundan da gözəl şey nədir dünyada?!..

26.09.1999

ÖZÜMƏ VERİN

Niyə köks içindən onu qopartdız?
Məgər bilməyirsiz heç qəlbin yerin?
Siz Allah, söyləyin haraya atdız?
Atanda min yerdən yə`qin qanatdız,
Mənim ürəyimi özümə verin.

O ki, əldən-ələ gəzməli deyil,
Tərlantək, şahintək, süzməli deyil,
Sonatək göllərdə üzməli deyil,
Bu tezkən tənimi üzməli deyil.
Mənim ürəyimi özümə verin.

O ki, dönən deyil vallah Günəşə,
Axı yandırarsız oda, atəşə,
Mənimtək sizə də heç verməz nəş`ə,
Çoxdan çəkib onu dərd, ələm şişə,
Mənim ürəyimi özümə verin.

Bəsdir dərdə, qəmə yüklədiz onu,
Anasız uşaqtək təklədiz onu,
Geydirdiz əyninə fəlakət donu,
Hər bir yaxşılığın pislikmi sonu?
Mənim ürəyimi özümə verin.

Aldız taqətimi əlimdən daha,
Dünyaya gəlməyim mənə çox baha,
Batırmın könlümü naləyə, aha,

Sizə and verirəm Böyük Allaha,
Mənim ürəyimi özümə verin.

Özgə ürəyə bel bağlamaq olmaz,
Bu qədər köz basıb dağlamaq olmaz,
Belə haray çəkib çağlamaq olmaz,
Ürək, ürək deyib ağlamaq olmaz,
Mənim ürəyimi özümə verin.

Tənimdən ucadır onun varlığı,
Onsuz da kədərdir həyat yarlığı,
Yoxdur bir kimsəyə vallah darlığı,
Sınaqdan çıxıbdır e`tibarlığı
Mənim ürəyimi özümə verin.

Almayın əlimdən siz taqətimi,
Qoparıb atmayın həqiqətimi,
Çatdırın siz ona sədaqətimi,
E`lan eyləməyin müsibətimi,
Mənim ürəyimi özümə verin.

Başıma Allahın göyləri enər,
Sinəmin içində kədər döyünər,
Naqislik sayılmaz dünyada hünər,
Allah bəndələri haqqla öyünər,
Mənim ürəyimi özümə verin.

Siz Allah rəhminiz olsun bir mənə,
Canımdan artıqdır, vacibdir tənə,

Onsuz da batmışam dumana, çənə,
Qoymayın bədənim torpağa enə,
Mənim ürəyimi özümə verin.

28.12.1999

ADAM OLMAYIM

Allah, məni quş elə,
Buludlara yaş elə,
Səmalara nuş elə,
Dərd dolu dam olmayım.
Təki adam olmayım.

Tap könlümə bir guşə,
Çəkilməyim mən şişə,
Olmasın kədər peşə,
Ağrıya tam olmayım,
Təki adam olmayım.

Məni ulduza döndər,
Bir sınıq saza döndər,
Gülüzlü yaza döndər,
Qəmə e`dam olmayım.
Təki adam olmayım.

Allah, məni daş elə,
Qayalara qaş elə,

Zirvələrə baş elə,
İblisə kam olmayım,
Təki adam olmayım.

Dəli, coşğun çay olum,
Dəryalara tay olum,
Şimşəyə haray olum,
Dilə badam olmayım,
Təki adam olmayım.

Məni Günəşə çevir,
Yanan atəşə çevir,
Ünyetməz ərşə çevir,
Bir sönən şam olmayım,
Təki adam olmayım.

Allah, haqqın alidi,
Dünya sənə xalidi,
Bəşər qeylü-qalidi,
Şadiman ki, halidi,
Hər ələ cam olmayım.
Təki adam olmayım.
Təki adam olmayım.

3.09.2001

OVUNDURA BİLMƏZ

Günəşin ağzından çıxan bir odam,
Dünyanın bağrından qopan fəryadam,
Alışar ahlardan bu könül odam,
Qaçar harayımdan əsən küləklər,
Məni ovundura bilməz fələklər.

Gözlərim gurşadı boğar beşikdə,
Mənim göz yaşlarım yağar eşikdə,
Ürəyim dünyaya yanar keşikdə,
Qopar bağrımdan uçar diləklər,
Məni ovundura bilməz fələklər.

Qəlbə tən gəlməkdə zirvələr naşı,
Dərdlərə ocaqdır könlümün başı,
Oyatmaz hayqırtım dostu, sirdaşı,
Zaman da ömrümün anın ələklər,
Məni ovundura bilməz fələklər.

Könlümün istəyi gözündə donar,
Gecə də, gündüz də bu qəlbim yanar,
Ahım bu dünyanı gəzib dolanar,
Qoynuma sığınıb qalar biləklər,
Məni ovundura bilməz fələklər.

Sinəmi tutmayan dərdlər ağlaşar,
Hörümçək torutək elə bağlaşar,
Hər biri böyüyər, şişər, dağlaşar,
Heç könlü anlamaz, duymaz ürəklər,

Məni ovundura bilməz fələklər.

Baş alıb dünyadan getmək istərəm,
Ayı, Günəşi də ötmək istərəm,
Zamanın gözündən itmək istərəm,
Saatlar ömürə qurar kələklər,
Məni ovundura bilməz fələklər.

Çıxıb adamlıqdan olaram ulduz,
Göydə səyyarəmiz nə nazəndə qız?
Üşüdən baxışlar kipriyimdə buz,
Dünyanın qəmləri könlümü təklər,
Məni ovundura bilməz fələklər.

Şadiman, göy qopar bu fəraqıma,
Buludlar, şimşəklər dözməz ağıma,
Öz könlüm, öz qəlbim dönər yağıma,
Ahımdan alışıb yanar mələklər,
Məni ovundura bilməz fələklər.
Məni ovundura bilməz fələklər.

17.08.2001

TAPMAZ ARAM

Sinəmdən od, atəş qalxar,
Hey Günəşin köksün yaxar,
Qəlb buludlar, şimşək çaxar,

Qövr eləyər elə yaram,
Heç bu könlüm tapmaz aram.

Gözlərimin yaşı daşar,
Ürəyimdə həsrət yaşar,
Hər günə qəm şərqi qoşar,
Həm nəş`ə, həm ahi-zaram,
Heç bu könlüm tapmaz aram.

Dərdim çıxar dağ başına,
Qalar ürək özbaşına,
Sel vurular göz yaşına,
Segah üstə yanan taram,
Heç bu könlüm tapmaz aram.

İlahinin bu bəşəri,
Özündən tez doğub şəri,
Sümüyünə dondu dəri,
Adəmitək mən də varam,
Heç bu könlüm tapmaz aram.

Dərviş olub gəzəniyəm,
Ürəyini üzəniyəm,
Qarışqasın əzəniyəm,
Adəmliklə Rəbbə xaram,
Heç bu könlüm tapmaz aram.

Şişirtdikcə özümüzü,
Gizlədərik üzümüzü,

Haqq bükəndə dizimizi,
Deyərik ki, koram, karam,
Heç bu könlüm tapmaz aram.

Ürək bərbad olan yerdə,
Qəlbim düşüb qalan yerdə,
Bağrı ilan çalan yerdə,
Əhvalımı kimdən soram?
Heç bu könlüm tapmaz aram.

Dil diş altda boğulursa,
Cindən şeytan doğulursa,
Dünya qopub dağılırsa,
Öz canıma özüm saram,
Heç bu könlüm tapmaz aram.

Sinəm bimar ola-ola,
Ürəyə qəm dola-dola,
Bəni-bəşər gəlmir yola,
Yoxdan varam nədir çaram?
Heç bu könlüm tapmaz aram.

Allah verdi bu canımı,
Yerdə saldı ünvanımı,
Bir gün qurar divanımı,
Budağında solan baram,
Heç bu könlüm tapmaz aram.

Üşüyürəm meh altında,

Qaldı tellər şeh altında,
Zaman çapır öz atında,
Zirvələrə bəyaz qaram,
Heç bu könlüm tapmaz aram.

Ey Şadiman, misra gələr,
Ürəyinə qəm ələyər,
Bir quzutək hey mələyər,
Qəfəsimə elə daram,
Heç bu könlüm tapmaz aram.

1.09.2001

BƏS ETMƏZ

Elə dolmuşam ki, yaz buludutək,
Könlü ovutmağa zaman bəs etməz.
Ağlayar ürəyim elin udutək,
Dərdini udmağa kaman bəs etməz.

Bir kimsə halımı duymadı nədən?
Ürəyin əlində ögardı bədən,
Canıma, ruhuma zülümlər edən,
Qorxuram etdiyin yaman bəs etməz.

İnsanı sükut yox, haray, hay qırar,

Sinəmə çəkilən dağlar hayqırar,
Duyğular özünü zirvəyə vurar...
Üstünü almağa duman bəs etməz.

Yalvarıb fələkdən imdad dilərəm,
Ürəkdə ağlaram, üzdə gülərəm,
Hər ağrı-acıya min yol ölərəm!
Bağrımdan çığıran aman bəs etməz.

Dünya zəncirlənib iblis əlində,
Bir yaxşı çaşbaşdı min pis əlində,
Əzəldən beynimiz qul hiss əlində,
Ona haqdan gələn iman bəs etməz.

Nə qədər ürəkdə hiylə, şər yatır,
Nə qədər at varkən törəyir qatır,
İblisin qoynunda şahmarlar yatır...
Tanrıya edilən guman bəs etməz.

Şadiman anlamaz bu müşkülləri,
Yanan ürəyinin qaldı külləri,
Hər misra ağladar tuti dilləri,
Göz yaşın yığmağa umman bəs etməz.

29.08.2001

GETMƏYİM GƏLİR

Elə yorulmuşam mən bu cahanda,

Rahatlıq tapmıram heç bir ünvanda,
Gəl möcuzə göstər, Allah, bir anda,
Bu fani dünyadan itməyim gəlir,
Ayrı planetə getməyim gəlir.

Üzür idrakımı, üzür suallar,
Çıxıb axırıma bu qeylü-qallar,
Bilməm nə vaxtacan çəkər bu hallar?...
Ulduztək səmada bitməyim gəlir,
Ayrı planetə getməyim gəlir.

Ötür saatlarım hali-pərişan,
Günümün, ayımın ürəyi şan-şan,
Verməyir şadlıqdan, nəş`ədən nişan,
Dərin dəryalara yetməyim gəlir,
Ayrı planetə getməyim gəlir.

Doğmalar yad olub özümə mənim,
Dodağım alışır sözümə mənim,
Qor üstə qor düşür közümə mənim,
Ürəyin özünü ötməyim gəlir,
Ayrı planetə getməyim gəlir.

Bir kimsə bilməyir bu əhvalımı,
Kimim var, söyləyim kimə halımı?
Könül götürməyir bu zavalımı,
Ağlımı divanə etməyim gəlir,
Ayrı planetə getməyim gəlir.

Qınamayın məni, siz ey adamlar,
Dərdiniz könlümün içini damlar,
Hiylə, şər yuvası saraylar, damlar,
Zamanın qanadın ütməyim gəlir,
Ayrı planetə getməyim gəlir.

Şadiman nə gördü, nə aparacaq?
Bu gidi dünyadan nə qoparacaq,
Nəyi itirib ki, nəyi aracaq?
Bir qəmli dastantək bitməyib gəlir,
Ayrı planetə getməyim gəlir.

3.09.2001

ÜRƏYİM AĞLAYIR

Üzümə gülənlər arxamda yağı,
Çəkilib sinəmə qəm, kədər dağı,
Dilim qan ağlayır, ürəyim ağı,
Acılar könlümdən getməz heç zaman,
Yaman vurulubdur, qəlbimə yaman.

Ağlar ürəyimdə bütün diləklər,
Fələk anlarımı untək ələklər,
Bir körpə cocuqtək ömrü bələklər,
Baxaram çarəsiz ötən illərə,
Sazaqdan buz tutmuş bəyaz tellərə.

Sızlar könül simi tar, kamanım yox,

Muraza yetməyə bir zamanım yox,
Kəsilib taqətim heç amanım yox,
Dolanıb köksümə qəm qurşaq kimi,
Ürəyim ağlayır bir uşaq kimi.

2.12.2000

TƏK QALIM

Almayın məni qəmdən,
Qurtarmım gözü nəmdən,
Qırılım bu aləmdən,
Dəyişsin min yol halım,
Qoy özümlə tək qalım.

Canı alsın əndişə,
Çəksin könlümü şişə,
Arayım tənha guşə,
Min cür xəyala dalım,
Qoy özümlə tək qalım.

Ağladım ürəyimi,
Yandırım diləyimi,
Tapım eşq mələyimi,
Qoynunda yuva salım,
Qoy özümlə tək qalım.

Dünyadan uzaqlaşım,

Buz olum sazaqlaşım,
Seltək çağlayım, daşım,
Qəmə qələbə çalım,
Qoy özümlə tək qalım.

Candan çıxmasın acım,
Tək Tanrıya əl açım,
Qələm olsun əlacım,
Gecəm şəkərim, balım,
Qoy özümlə tək qalım.

Bundan gözəl nə var ki,
Duyğular elə var ki,
Ürəyə, qəlbə yar ki,
Kağız, qələm vüsalım,
Qoy özümlə tək qalım.

Havalansın saatım,
Qanadlansın büsatım,
Batsın şe`rə həyatım,
Misralar dünya varım,
Qoy özümlə tək qalım.

Dərdlərim axın-axın,
Gəlməyin belə yaxın,
Məni rahat buraxın,
Bir az xəyala dalım,
Qoy özümlə tək qalım.

25.09.2001

Pirallahı

ÜRƏYİM KİMİ

Varmı görən dünyada
Zalım fələyim kimi?
Özünü salan oda
Mənim ürəyim kimi?

Dərdi özündən uca,
Hər dərdinə bir baca,
qalıb hansı əlaca,
Mənim ürəyim kimi?

Hansı göz belə yaşdı
Axdı sinədən daşdı,
Dərdləriylə sirdaşdı
Mənim ürəyim kimi?

Kimin qəlb ahı olar,
Ahı günahı olar
Kədər Allahı olar
Mənim ürəyim kimi?

Qəm sarayı yapılmaz,
Yapılarsa çapılmaz,
Gəz dünyanı tapılmaz,
Mənim ürəyim kimi?

1.08.2001

UÇAN BİR QUŞAM

Zirvədən zirvəyə uçan bir quşam,
Tufan qıra bilməz qanadlarımı.
Neçə yol dünyaya bəlkə tanışam...?
Yer, Göy udarmı heç fəryadlarımı?

Ömrümün boynuna çatılan çatı,
Tanrının gözündən yayınan deyil.
Yaradana bağlı insan həyatı,
Bəşərin harayı-hayınan deyil.

Zirvələr fövqünə ayaq basarkən,
Ayağım altında daş-kəsək dolu.
Qəmlər dar ağacdan könlü asarkən,
Axır gözlərimdən hey gurşad, dolu.

Hər acı baxışdan ürəyim susur,
Qara buludlartək dolmaqçın müdam.
Acılar əlində könlüm qan qusur,
Sanki hava donub boğulur adam!

Hər baxış, hər gülüş qəlbi ovutmur,
Diləklər diləyə bağlı sim təki.
Bu yanan köksümü Yer, Göy sovutmur,
Səma alovlanır lap köksüm təki.

Mənim könül dünyam dünyaya sığmır,
Köpüklü sellərtək kükrəyir axır,
Fələk qəmlərimin ipini yığmır,
Bu acı taleyim mənə kəm baxır.

Dözmür yamanlığa, dözmür sitəmə,
Ürəyim ağlayır hey həzin-həzin.
Nəş`əm qan uddurur içdə matəmə,
Coşdurur içimdə sevda dənizin.

Yapışıb qədərin yaxasından mən,
Acı dərdlərimə dərman istərəm.
Canımla üsyanda bu divanə tən,
Onun haqqlarına fərman istərəm.

Şadiman dünyadan yığışıb gedər,
Onu axtararlar, əl-əl gəzərlər.
Məzarı özünə bir dünya edər,
Ondan sevdasını çəkməz nəzərlər.

31.07.2001

OLAN OLMUŞ

Acılar sarılıb bağrıma,
Soyuqluq qatar ağrıma
Bumbuz gecənin ayazı,
Kimin alnına yazılıb
böylə bir yazı?

İçimdə diləklər sərgərdan,
həyatdan usanmış can,
Əzrayılla ulaşmada,
Qəmlə yuvarlaqlaşmada.
Hər bəladan hali,
Zamanımdan ali
Bir ömür yaşanmaqda,
Könül atəşlərə yanmaqda,
Bəmbəyaz tale varaqlarım tükənməkdə,
Ömrümün arabası yollarından dönməkdə.
Titrəyən ümidlərim düşüb
zamanın ayaqlarına,
Bir aman diləyir vüqarına.
Tale atım qanadlı,
Günlərim fəryadlı,
Ahımdan mələr,
Qismətim nələr...
İçimdə dünyanın ahı,
Ümidlərə tapınan Şadiman dahi.
Parlaq Günəşim solmuş,
Keçən keçmiş, olan olmuş...

6.11.1994

TİTRƏYƏN ŞAM

Başımın üstündə dağ təki ağır dam,
Masamın üstündə tənha qızılgül və titrək şam.
Qapqara çadraya bürünmüş mə`sum axşam.

Könlüm yaz buludutək dopdolu,
Enişli, yoxuşlu bu tale yolu.
Titrəyir içimdə niskillərim,
Açılmayan müşküllərim.

Könlüm sevda zindanında məhbustək,
Acılar üstümə qəm tökür ətək-ətək,
Sıxılıram gecənin tənhalığından,
Bir ilə dönür an,
Qəlbim atəşlərdən büryan,
Nə əhvalımı soran var,
Nə könlümü aran var,
Nə də halıma qalan,
Ürək büsbütün talan,
İşığı keçmiş şam da ömrü başa yetirmiş,
Qəmli həyat dastanını bitirmiş,
Mənsə həyatla çarpışmada,
İlhamla pıçıllaşmada.
Bu da könlümə Tanrıdan paydır,
Tufanı bitməz bəxtimə vaydır!
Hey döyəcləyir məni acı küləklərlə,
Yağmuru usanmaz fələklərlə.
Allahımdan aman diləməz,
Sabahıma duman diləməz,
Titrəyən göz yaşlarımla qol-boyun,

Bitib-tükənməz bu oyun.
Mürəkkəbi qurumuş qələmimi,
İsladıram göz yaşımla,

Tələşdayam ağrılı başımla,
Rüzgarı susmuş könlüm gərgin,
Qəmlərdən usanmış həyatım didərgin.
Sabahımın ümidləri yollarda veyil,
Ömrüm ki, bu qovğalardan qurtaran deyil.
Kəsib qapımın ağzını axşam,
Masamın üstündə işığı keçmiş şam...

6.11.1994

QƏRİBƏM

Bu adamla dolu dünya mənə yad,
Çəkir ürəyimin fəqanları dad,
Bu xərabə könlüm olmadı abad,
Səadət barımı iblislər dərib,
Allah, bu dünyada qəribəm, qərib.

Gözümdə yaşlarım şimşəktək çaxır,
Fələyin qəm seli üstümdən axır,
Heç acı dərdlərə olmadı axır.
Könlümü neçə yol qəm yuyub sərib,
Allah, bu dünyada qəribəm, qərib.

Bəşər ram olubdu pis niyyətlərə,
Boğazdan yuxarı ibadətlərə!
Ürək uyuşmayır yad sifətlərə,
Zülümlər bəxtimin qolların gərib,
Allah, bu dünyada qəribəm, qərib.

Fələk kədərimlə giribdi bəhsə,
Tutub ürəyimi salıb qəfəsə,
Mənə dərd verməkçin düşüb həvəsə,
Yığıb əzabları qəlbə göndərib,
Allah, bu dünyada qəribəm, qərib.

Canım ağılımdan olubdu ası,
O da ürəyimə qurubdu yası,
Taleyin əlində qəm dolu tası,
Könlümə cahanın ahın əndərib,
Allah, bu dünyada qəribəm, qərib.

Ağlar ürəyimin ahı gileyə,
Dönüb mənim təki bir qəmli neyə,
Şadiman, bilmirəm bu fələk niyə?
Viranə bəxtimi yoldan döndərib,
Allah, bu dünyada qəribəm, qərib.

3.02.2000
Pirallahı

QURUMAYIR NƏM

Mənim əzablarım içimdə gəzir,
O sərt addımlarla könlümü əzir.
Qəlbimdən başlayır dünyanın qəmi,
dərdə batırmışam bütün aləmi.
Mənimlə doğulub yəqin ki, bu qəm,

Odur ki, gözümdən qurumayır nəm.
Dəniz ürəyimdə qopub fırtına,
Keçib dalğaların yeddi qatına.
Ağlar sinəmdəki bütün duyğular,
Umar bu narahat qəlbdən sayğılar,
Hər şeyin ağrısın çəkir ürəyim,
Bilmirəm onunla, Allah, neyləyim?
Necə narahatdı mənimtək hər dəm,
Odur ki, gözümdən qurumayır nəm?!...

19.02.2000
Gəmidə

KİMİM VAR AXI?

Tellərin cəfası mizrablarındı,
Ömür acılarda keçən bir yuxu.
Taleyin zülümü əzablarındı...
Mənim bu dünyada kimim var axı?

Tənha yelkəniyəm böyük dəryanın,
Dəli küləyiyəm coşqun dünyanın,
Əsiri olmuşam, vallah röyanın,
Mənim bu dünyada kimim var axı?

Suçludu, suçsuzdu - bu taleyimdi,
Ürəyim sinəmdə ağlar neyimdi,
Göz yaşım bəbəkdə sərxoş meyimdi,
Mənim bu dünyada kimim var axı?

Əzəldən bəxtimiz bir uçuq kaha,

Salır sinələri kədərə, aha,
Ağrıdan, acıdan nə deyim daha?
Mənim bu dünyada kimim var axı?

1.07.2000

***

Ah, necə tənhayam, mən bu dünyada,
Kədərlər içimi boğur tüstütək,
Salır acılarım könlümü oda,
Bişirir qəlbimi yayda istitək.

9.06.2000

HALINA SÖZÜ YANACAQ

Sinə dağladan könlümü
Kim bircə anlıq anacaq?
Özün ağladan könlümü
Kim mənim təki sanacaq?

Dönübdü bağrım küləşə,
Əl açır göydə günəşə,
Qəlbimdə sönən atəşə
Hansı pərvanə yanacaq?
Uçubsa tale dirəyin,
Düşər didərgin diləyin,
Söyləyin ağlar ürəyin
Kim duyğulu
rım danacaq?

Könlüm andırar quzunu,
Araram gecə uzunu,
Əritməsəm qəlb buzunu
Büsbütün yer, göy donacaq.

Qəm qara edib günümü,
Batırıb içdə ünümü,
Siz sındırmayın könlümü,
Qəmimdən özü sınacaq.

İçin göz yaşı kədərdi,
Verər düşünən baş dərdi,
Demin Şadiman gedərdi...
Halına sözü yanacaq.

20.01.2001

ÜRƏYİMİN DOLAN VAXTI

Könlün şehi gözə düşür,
Qəm qəlbimi alan vaxtı,
Sinəm odu közə düşür,
Ürəyimin dolan vaxtı.

Alışaram için-için,
Od bürüyər qəlbin için,
Can ayrılar təndən neçin?
Ürəyimin dolan vaxtı.

Havalanar bağrım uçar,
Edər ömrü əldə naçar,
Qəlb sinəmdən çıxıb qaçar
Ürəyimin dolan vaxtı.

Bənzər ruhum mələklərə,
Dönər coşqun küləklərə,
Uçar qonar fələklərə
Ürəyimin dolan vaxtı.
Qərib olar qəlb, Allahım,
Qalxar ərşə gecə ahım,
Açılmaz ki, heç sabahım
Ürəyimin dolan vaxtı.

Şadimanın çıxar canı,
Başlar könül, qəlb divanı,
Unudar bu can ünvanı
Ürəyimin dolan vaxtı.

21.05.2000

DÖNMƏYİR Kİ?

Ruhun göydə hey dolaşır,
Dolaşdıqca cilalaşır,
Kainatda aşıb-daşır,
En deyirəm, enməyir ki?
Öz yerinə dönməyir ki?

Ayaqlarım yerdə gəzir,

Bu torpağı dən-dən əzir,
Səma dərya-ruhum üzür
Yen deyirəm yenməyir ki?
Öz yerinə dönməyir ki?

Yalvarıram gəl köksümə,
Bu könlümdə dəymə simə,
Tapmısanmı tay əksimə?
Harayıma dinməyir ki?
Öz yerinə dönməyir ki?

Saatlarım çəkir nalə,
Niyə yetməz heç vüsalə?
Ulduz-ulduz, talə-talə
Göydə yanır sönməyir ki?
Öz yerinə dönməyir ki?

Cismi üzür hey əndişə,
Çəkir bağrı hicran şişə,
Yaxşı tapıb isti güşə
Göydə yanır sönməyir ki?
Öz yerinə dönməyir ki?

Ruhum göydə uçduqca hey,
Elə s
ızlar, sanki bir ney,
Ey Şadiman, qalmayıb hey,
Mənə tərəf çönməyir ki?
Öz yerinə dönməyir ki?

1.05.2001

ALAN OLAYDI

Dilimin içində batdı duası,
Dağıldı qəlbimn nəş`ə yuvası,
Ələm dəryasının sinəm qəvvası,
Bəxtimin odası talan olaydı,
Məni bu taledən alan olaydı.

Görmədim kimsədən mehribanlığı,
Həyatdan canımtək pasibanlığı,
Süzüldü könlümün dərddən canlığı,
Dünyaya gəlməyim yalan olaydı,
Məni bu taledən alan olaydı.

Əzəldən ikidi cahanın üzü,
Fırladır əlində gecə-gendüzü,
Diləyim budur ki, Tanrıdan düzü
Cismimi məzara salan olaydı,
Məni bu taledən alan olaydı.

İlahi hökmüylə bəxtə bağlaşdıq,
Gah sevincə batdıq, gah da ağlaşdıq,
Həm dastana döndük, həm nağıllaşdıq,
Olmuşa nə halət? Olan olaydı,
Məni bu taledən alan olaydı.

Yoxdu heç fələyin mənlə arası,
Yaramın üstündə bitir yarası,
Deyin ürəyimin sağ var harası?
Ya susub, ya mənlə qalan olaydı,
Məni bu taledən alan olaydı.

Tale əsirgədi qəlbdən diləyin,
Dünyada açmadı mənə ürəyin,
Şadiman əsiri oldu fələyin,
O da könlüm kimi nalan olaydı,
Məni bu taledən alan olaydı.

13.04.2001

TƏK BURAXMAYIN

Siz ey ətrafımda gəzən insanlar,
Yazıq ürəyimi dərdlə yaxmayın.
Nə haqqımı duyar, nə də dil anlar.
Məni bu talelə tək buraxmayın.

Suallar içində keçər həyatım,
Yorular yollarda bu könül atım,
Kədər havasıyla coşar həyatım
Məni bu talelə tək buraxmayın.

Kaş görə biləydim üzləri donsuz,
Ömür deyildir ki, dünyada sonsuz,
Nə xoş gün var mənə, nə həyat onsuz,
Məni bu talelə tək buraxmayın.

Ötür hey anlarım gah xoş, gah acı,
Bu sınıq könlümün yoxdur əlacı,
Həm başım bəlası, həm başım tacı,
Məni bu talelə tək buraxmayın.

Qoydu gözlərimdə çox diləyimi,
Yıxdı öz əliylə bəxt dirəyimi,
Qoymayın yandıra o, ürəyimi,
Məni bu talelə tək buraxmayın.

Siz ey ürəyimə yaxın adamlar,
Qəm tutub könlümü sinəmdə damlar,
Ağlar qəlbim kimii ürəkdə kamlar,
Məni bu talelə tək buraxmayın.

Dünyanın ağrısı gözdə yaş olub,
Bəşərə əzabı verən baş olub,
Deməyin sinədə ürək daş olub
Məni bu talelə tək buraxmayın.

Fələk bir dəryadı Şadiman ovu,
Yamanca gətirir əldə tilovu,
Udar qədərimin odu, alovu,
Məni bu talelə tək buraxmayın.

Məni bu talelə tək buraxmayın.

14.03.2001

KİMDƏN ÖYRƏNDİN?

Ey öz alovuna tutuşan ürək,
Alışıb yanmağı kimdən öyrəndin?
Dəli duyğularla atışan ürək
Özünü danmağı kimdən öyrəndin?

Bir kimsə bilməzdi könül odumu,
Ərzə bəyan etdin cümlə-adımı,
Qopardıb sinəmdə ah-fəryadımı
Candan usanmağı kimdən öyrəndin?

Məni Məcnun etdi bihudəliyin,
Yerlərə, Göylərə alüdəliyin,
Hər acı, ağrıdan halidəliyin
Durmadan anmağı kimdən öyrəndin?

Kaş mənim sinəmdə doğulmayaydın,
Zülümdən, sitəmdən boğulmayaydın,
Yüz yol parçalanıb dağılmayaydın,
Zərrəni sanmağı kimdən öyrəndin?

Sən mənim başıma ürək olmadın,
Gözümün yaşından heç ovulmadın,
Külümtək göylərə ki, sovrulmadın,

Hər şeyi qanmağı kimdən öyrəndin?

17.03.2001

ƏSƏR

Ömrümüz qürbətlərə düşmüş qatar,
Azıb yollarda yatar,
Anları zamanın pəncərəsindən asa-asa,
Batırar özünü yasa.
Ümidsizliklərə qapılar,
Vulkana düşmüş dağ təki çapılar.
Xəyalın gözüylə baxar dünyaya,
Düşər şirin xülyaya.
Özünə saray yapar səadətindən,
Qurtala bilməz bu adətindən.
Ömrümüz əmrə məhkum,
Gah da özünə hakim.
Saat əqrəbi,
Bir yerdə durmağı götürməz təbi.
Həzin mehtək əsər,
Haraya isə tələsər...
Elə hey əsər.
Canımız üçün,
Əbədi olmayan ünvanımız üçün.

17.03.2001

BACARMIRAM NEYLƏYİM?

Alışıbdı sinəm içi ocaqtək,
Bu ocağın külündən nə eyləyim?
Dərd yarmazdı bağrı iti bıçaqtək,
Ürəyimlə bacarmıram neyləyim?

Hər baxışın qəmi gözdə nəmlənir,
Sərxoş könlüm hər zülümə dəmlənir,
Hər haraya, hər fəryada qəmlənir,
Ürəyimlə bacarmıram neyləyim?

Xəmirimi Tanrı belə yoğurdu,
Yazıq anam gül qoynundan doğurdu,
Nə zamandan ələm çəkmək uğurdu?
Ürəyimlə bacarmıram neyləyim?
Dərd başımdan ləpə vurur sel təki,
Sevincimi əldən qapır yel təki,
Çapır könlü torpaq çapan bel təki,
Ürəyimlə bacarmıram neyləyim?

Qəbirləri bəzər o ət bədənlər,
Lal məzarı tənə zinət edənlər,
Nə apardı budünyadan gedənlər?
Ürəyimlə bacarmıram neyləyim?

İtib-batıb dumanlarda nəş`əsi,
Dərd məkanı, dərd yığını guşəsi,

Yandırmaqdı gecə-gündüz peşəsi,
Ürəyimlə bacarmıram neyləyim?

Bu da mənə kor fələyin qurğusu,
Ələmləri sevincimin oğrusu,
Ey Şadiman, mən nə edim doğrusu?
Ürəyimlə bacarmıram neyləyim?

14.05.2001

NEYLƏYİM Kİ...

Bir itki var ürəyimin içində,
Bu itkini sağaldan bir çarə yox.
Həsrət, hicran gecə, gündüz biçində,
Sinəmdəki yaram təki yarə yox.

Saralıram bulud almış günəştək,
Ahım tutub asimanı neyləyim?
Bu sinəmdə bir ürək var atəştək,
Hey yandırır yazıq canı neyləyim?

Fərağımdan buludlar yaş tökürlər,
Harayıma bir yetənim olmaz ki,..
Yaş tökdükcə ürəyimi sökürlər,
Qəlb yanmasa sinə dərddən dolmaz ki...

Mən çöllərin bir zərif bənövşəsi,
Rüzgarların sınağında əsirəm.
Ocaq çatıb könlümün hər guşəsi,

Əlçatmayan, ünyetməyən qəsirəm.

Göz yaşımdan bağırıma yaş damlar,
Bu itginin fəryadından boğullam.
Könlümdə sevincimi qəm damlar,
Neyləyim ki, ürəyimə mən qulam.

14.05.2001

DƏM İÇİNDƏ

Üzüm gülər, könlüm ağlar,
Qəm oturar dəm içində.
Sinədə dərd elə çağlar,
Göz bulaşar nəm içində.

Səsim qəlbi haraylayar,
Hicran mülkü saraylayar,
Acılarım hey vaylayar...
Zilim ağlar bəm içində.

Dodağımda sözüm donar,
Ocağımda közüm donar,
Haqq arayan gözüm donar,
Hər işim də kəm içində.

Ömrü, günü alıb qaçan,
Kim ondan baş açıb haçan?
Əlindən haqq quşu uçan,
Dünya zəhər təm içində.

Şadimanı naxoş sandım,
Hər acısın mən xoş sandım,
İçənləri sərxoş sandım,
İçməyənlər dəm içində.

17.11.2001

BAXA BİLMİRƏM

Mən ürəyimdə tufan dunyanın haqq səsiyəm,
Bütün Yer kürəsinin yanıqlı naləsiyəm,
Taleyimin əlində həyat piyaləsiyəm,
Düşüb bir gün torpağa parça-parça olacam,
Cahanın bağırında fəryad təki qalacam.
Yenə də duyğularım köpürür sellər təki,
Könlüm elə ağlayır yanıqlı dillər təki,
Sinə içində atəş bozarıb küllər təki,
Ayrıla bilmirəm heç bu sevda yuxusundan,
daha sevə bilmirəm həsrətin qorxusundan...

Məndə atəşi boldu gur yanan ocaqların,
Bağrımda laylası var ötüb keçən çağların,
Divanəsi olmuşam bu ürəyim ağların!
Xəyallarım öcəşir sevda dənizlərində,
Anlarım itir-batır həyatın izlərində.

Kainatın köksündə qovruluram kürrətək,
Vurnuxuram dəryada yolun azmış bərətək,
Göyün bağrından qopub düşdüm yerə zərrətək,

Odur ki, çırpınıram Göylə Yer arasında,
Göydə ulduzum parlar ulduzlar sırasında...

Mən boş yerə qələmi könlə əsir etmədim,
İlhamın qapısına qəlb coşmasa getmədim,
Doğulub haqq aradım, əfsus haqqa yetmədim,
Duyğularım qartaltək qayanı yuva edər,
Dil könlümün eşqinə Allaha dua edər.

Bir həqiqət quşuyam həyatın bağçasında,
Diləklərim şan-şandır bu könül boğçasında,
Qopub ürəyim təndən qalıb can taxçasında,
Min illik bir palıdam tufanlara dözürəm,
Dəryaların dibində bir qəvvasam üzürəm.

Siz məni aramayın adamların içində,
Hiylə, fitnə, qəm dolu bu damların içində,
Min cürə ləzzət alan bu kamların içində,
Bir gecəlik işığı - bu şamların içində
Titrədir vücudumu ürəyimin nərəsi,
Qəlbi özüylə bahəm fırladır Yer kürrəsi.

Dolub bağrım içinə Yerin, Göyün atəşi,
Sinəmin alovları ram eyləyir Günəşi,
Tapmayır məzarını heç fəraqımın nəş`i,
Boğulubdu zülümlər zamanın göz yaşında!
Cahanın acıları ürəyimin başında.

Şadiman ki, dünyadan elə-belə keçmədi,

Duyğu çeşmələrindən boş yerə su içmədi,
Bu ilham da səbəbsiz ürəyimi seçmədi,
İlahinin hökmündən çıxa bilmirəm neylim?
Bu dünyaya hamıtək baxa bilmirəm neylim?

13.11.2001

DƏLİ ÜRƏK

Tutub varlığımı qəmə çuğluyan,
Ey sevincdən gülən, dərddən ağlayan,
Alovla, atəşlə könül dağlayan,
Qəlbi incilərlə sərraf bağlayan,
Qaynar bulaqlartək coşan, çağlayan,
İnci dəryasından çələng bağlayan,
Gah şimşək, fırtına, gah da ki, külək,
Coşqun təbiətli, ey dəli ürək.

Bu sakit qəlbimi sözlə oxlayan,
Çılğın xəyalları yoldan saxlayan,
Hər kiçik kəlməni günlə yoxlayan,
Haqsızlıq görəndə dözmüb laxlayan,
İlham otağında sözlə yuxlayan,
Şe`r gülzarından güllər qoxlayan,
Gah şimşək, fırtına, gah da ki, külək,
Coşqun təbiətli, ey dəli ürək.

Xəyal körfəzində üzgüçü olur,
Bahartək açılır, payıztək solur,

Ümid girdabından təsəlli alır,
Məni söz pərimin çölünə salır,
Əngin səmalartək xəyala dalır,
Eşqi kaman olur şadlıqlar çalır,
Gah şimşək, fırtına, gah da ki, külək,
Coşqun təbiətli, ey dəli ürək.

Bu odlu torpaqda odlara dönür,
Qartal asimanın köksünə enir,
Yalçın qayaların başına sinir,
Röyalar uçanda quştək diksnir,
qaynar təbiətə susmayır, dinir,
Arzusu daşanda xəyalı sönür,
Gah şimşək, fırtına, gah da ki, külək,
Coşqun təbiətli, ey dəli ürək.

Alov dilləritək şö`lələr çəkər,
Könül bulağında sonatək səkər,
İlhamın barını ortaya tökər,
Duyğu bağçasında gövhərlər əkər,
Kədərin evini şadlıqla sökər,
Sevincdən bir qəsir, bir saray tikər,
Gah şimşək, fırtına, gah da ki, külək,
Coşqun təbiətli, ey dəli ürək.

Gur şəlalələrtək zirvədən içər,
Hər acı söz-sovu qəzəblə biçər,
Şadlığın evini pak mənzil seçər,
Enişdən, yoxuşdan əzimlə keçər,

O söz boğçasının ağzını açar,
Gah şimşək, fırtına, gah da ki, külək,
Coşqun təbiətli, ey dəli ürək.

4 aprel 1972
Siyəzən

DOLAN VAXTI

Könül göyün bulud alar,
Şimşək ora yolun salar,
Ümidlərim tənha qalar,
Bürüyər çən, duman baxtı,
Ürəyimin dolan vaxtı.

Diləklərim çaxıb keçər,
Bağrım başın yaxıb keçər,
Bəxt ulduzum axıb keçər,
Kədər qəlbdə qurar taxtı,
Ürəyimin dolan vaxtı.

Kül altında közü neynim?
Qəlb içində sözü neynim?
Çapdı göyə, yerə beynim,
Min bir xəyal qəlbdən axdı,
Ürəyimin dolan vaxtı.

Gözdə yaşı dərya yudu,
Çeşmələrin köksün oydu,

Duyğuları başsız qoydu,
Şimşəklərtək könlüm çaxdı,
Ürəyimin dolan vaxtı.

Bu sinəmdə söz göyərdi,
Kül altında köz göyərdi,
Misralar göz-göz göyərdi,
Vərəqlərim uddu vaxtı,
Ürəyimin dolan vaxtı.

Şadimana həyat odu,
Bir Günəşdi sönməz odu,
Nalə çəkən könül udu,
Bu sinəmin için yaxdı,
Ürəyimin dolan vaxtı.

6.02.2001

MƏHƏBBƏT BİR BƏLADIR Kİ ...

ÖZÜNDƏN SORUŞ

Əksin həkk olunub baxışlarıma,
Səni sevdiyimi gözündən soruş.
Könül xalısının naxışlarına
Min bir rənglər salan izindən soruş.

Kənardan yad təki baxan bu eşqi,
Qəlbimi atəşlə yaxan bu eşqi,
Könlümü hicranla sıxan bu eşqi
Dilini odlayan sözündən soruş.

Sevgim bahar təki qonub çöhrənə,
Vəfa göylərində dönüb Zöhrənə,
Sevmirəm sözünü deyirsən mənə
Məni sevdiyini üzündən soruş.

Yoxdu qəlb içində sevginin sonu,
Biçsən də ürəyə ayrılıq donu,
Sevgilim, sinəmdə axtarma onu,
Mənim ürəyimi özündən soruş.

8.XI.1999
Gəmidə

QOVA BİLMİRƏM

Sənin o ilahi məhəbbətini
Borandan, tufandan, qardan qorudum.
Bükdüm ürəyimə səadətini
Qəfəsdən, zindandan, dardan qorudum.

Günəşə tuş olmuş qar dənəsitək
Əridim ah ilə baxışlarında,

Ağlayan, üşüyən yar sinəsitək
İslandım həsrətin yağışlarında.

Mən canda axtardım hey sevdamızı,
Onu duyğularda tapa bilmədim.
Diləklər öldürən bu ədamızı
Bisütun dağı tək çapa bilmədim.

Hicran otağında vüsalımız gül,
Əsdirdi baxışda qədər küləyi.
Xəzan bağçasında açılan bir gül
Sanki payızların solğun mələyi.

Xəyalın gözümdə əsir olandan
Evimin ən əziz qonağı olub.
Eşqin ürəyimdə bir sirr olandan
Könlümün, qəlbimin qınağı olub.

Gözümdən bağrıma axır göz yaşı,
Sevgilim, duyğunu yuva bilmirəm.
Dərddən sızıllayır qəlbimin başı,
Səni ürəyimdən qova bilmərəm.

26.XI.1999

HAQQA UCALIR

Çəkdin ürəyimə hicran dağını,
Bunu düşünmədən eylədin bəlkə.
Dağıtdın eşqimin xoş növrağını,
Etdin ki, qədərim bu qəmi çəkə.

Sənin həsrətinə düşəndən bəri
Zülmətlər sabahın nurunu aldı.
Ayrılıq içində qalan günlərim
Kədəri ən dərin quyuya saldı.

Üstümə ələndi qəm yağışları,
Sel oldu gözümün yaşından betər.
Axır ürəyimə həsrət yaşları,
Varlığım boğulub içində itər.

Gecələr üstümə gərdi qanadın,
Ağladı ürəyim gözdən xəbərsiz.
Bəlkə də sən məni yüz yol qınadın,
Dodaqdan, ağızdan, sözdən xəbərsiz.

Bəlkə söyləyəndə “sevmirəm” sözün,
Dilinin dediyin ürək demədi?
Bəlkə də, indi də ağlayır gözün...
Qürurun, vüqarın enmədi nədi?

Sən çiçək aradın bir payız mənə,
Xəzan ayağına atmaqçın eşqi.
Dedin, çələng hörrəm güllərdən sənə,

Payız nisgilinə qatmaqçın eşqi?

Sənin məhəbbətin indi də məndə,
Ürəyin ən dərin qatında qalır.
Bunu gec də olsa biləsən sən də,
Eşqə sadiq qalan haqqa ucalır.

26.XI.1999

DEMƏ SƏN DAHA

Məhəbbət ürəyə, cana baş qoyar,
Onu batırmazlar kədərə, aha.
Sevənlər sevgini gözlərdən duyar,
Gəl buna məhəbbət demə sən daha.

Hicran eşq sarayı yudu qəlbimtək,
Ürək haray çəkdi könül udutək,
Ağladıb könlümü yaz buludutək
Gəl buna məhəbbət demə sən daha.

Məhəbbət, ürəkdə canda yaşayır,
Bədəndə, damarda, qanda yaşayır,
Ən şirin, ən əziz anda yaşayır,
Gəl buna məhəbbət demə sən daha.

Yıxılsın hicranlar qoy təməlindən,
Can acılar çəkir hər əməlindən,

Ölən ki, deyilik bu eşq əlindən,
Gəl buna məhəbbət demə sən daha.

Kim zəhər udmayıb eşqin dadından,
Çıxar hafizəndən, çıxar yadından,
Ürəyin, könlün, qəlbin adından
Gəl buna məhəbbət demə sən daha.

Ağlaram gizlicə öz taleyimə,
Uyub qalmayasan bu gileyimə,
Bu sevgi dönübdü könül neyimə,
Gəl buna məhəbbət demə sən daha.

Eşqi özümüzə etməyək qınaq,
Sınmışıq, bu yolda yenə də sınaq,
İkimiz bir yerdə yüz ildə yanaq
Gəl buna məhəbbət demə sən daha.
Gəl buna məhəbbət demə sən daha.

26.XI.1999

UNUTMAQ OLMUR

Qəlbdə ayrılıq yarası
İtkinin yeri dolmur ki...
Xəyalın ciyər-parası
Səni unutmaq olmur ki...

Allahıma əl açaram,
Gecələrimdən qaçaram,
Könlümü hara qaçıram?
Səni unutmaq olmur ki...

Gözümdən qovub yuxunu,
Uduram dərdtək qorxunu,
Duyuram canda qoxunu
Səni unutmaq olmur ki...

Şadiman əydi qəm qəddi,
Əzablar qəlbi göynətdi,
Möhnət içində möhnətdi,
Səni unutmaq olmur ki...
12.09.1999

BU SEVGİ Kİ, VAR

Mənim dünya boyda bu sevgim ki, var,
Həyat yollarında təkcə sənə yar,
Dözərəm dünyanın həsrətlərinə
Bilmirəm dünyada nədir ahi-zar.

Sən mənim canımdan artıqsan mənə,
Salmaram könlümü dumana, çənə,
Yenidən bir ömür versəydi Tanrı
Yenə də qayıdıb gələrdim sənə.

Baharı yetişən çiçəklər kimi,
Olardım rüzgarın güclü həkimi.
Güzarın düşəndə şux çəmənlərə
Onda eyləyərdim sənə ərkimi.

Adın dilimdədi sənin hər zaman,
Səninlə bir vurur damarımda qan,
Bir can verilibdi Tanrıdan mənə
Onu da yolunda verərdim hər an.

Sən mənim bəxtimə ümid yelkənim,
Sevgidən könlümə saray tikənim.
Şadiman neylərdi sənsiz həyatda?
Mənim hər dərdimi sənsən çəkənim.

11.09.1999

SORUŞ

Eşqimi məşələ dönən ürəyin
Yanan ocağının odundan soruş.
Həyatda zirvələr aşan diləyin
Qəlbə fərəh verən dadından soruş.

Eşq ki, gah zəhərli, gah şirin yuxu,
Sevgi qönçəsindən yayılan qoxu,
Qəlbə yara açar ayrılıq oxu,
Bu yolda ömrümün badından soruş.

Məhəbbət ötəri duyğumu məgər?
Ucuz tutanları düz yoldan əgər,
Mənim bu eşqimi duymursan əgər
Bunu yaxınından, yadından soruş.

Kəssə qapımızı ayrılıq dəmi,
Gözdən qurumasa həsrətin nəmi,
İnsafsız qəlbindən hicrə məlhəmi
Sən mənim könlümün adından soruş.

28.07.1999

MƏNİM EŞQİM

Alıbdı əlimdən iqtidarımı,
Bütün vücüdüma bu Allah eşqim.
Candan əziz tutur vəfadarını,
Mənim sultan eşqim, mənim şah eşqim.

Pozulub əliylə könül səhmanı,
Tapılmaz axtarsan dərdə dərmanı,
Gündə min cürədir hökmü, fərmanı,
Mənim sultan eşqim, mənim şah eşqim.

Kimsədən sormayın bu dərdə çarə,
Onun əmirindən çıxan nəkarə,
Dilini öyrədib əhdə inkarə
Mənim sultan eşqim, mənim şah eşqim.

Könlümü yandırmaq olubdu işi,
Yanında yalandı ərşin Günəşi,
Sinəmin içinə töküb atəşi
Mənim sultan eşqim, mənim şah eşqim.

Şadiman, kimsəni canə buraxmaz,
Hər çıxan çeşməylə qaynayıb axmaz,
Vallah ürəyimtək bir ürək yaxmaz,
Mənim sultan eşqim, mənim şah eşqim.

1.08.2001

ÖZÜMDƏN KÜSÜRƏM

Bütün varlığımı dərd paralayır,
Fələk bu yazını hey qaralayır,
Qapımın ağzını qəm qaralayır,
Dönür bu ürəyim imandan, dindən,
Özümdən küsürəm küsəndə səndən.

Rüzgarın qadası əsir başımda,
Bitir niskillərim hər göz yaşımda,
Xəyalın heykələ dönür qarşımda,
Mən onnan ayrıla bilməyən gündən,
Özümdən küsürəm küsəndə səndən.

Döyürəm başıma dəlilərsayaq,

Tapmıram köksümə heç yerdə dayaq,
Olursan yuxuma bir qərib mayaq,
Zülmətdə gur işıq saçırsan gendən,
Özümdən küsürəm küsəndə səndən.

Başlayır sinəmdə çılğın fırtına,
Minirəm dərdimin hicran atına,
Son qoya bilmirəm qəm saatına,
Qurtulmaq olmayır dumandan, çəndən,
Özümdən küsürəm küsəndə səndən.

Mənimçün dünyanın dadı dəyişir,
Sinəmdə ürəklə həsrət döyüşür,
Düşür varlığıma bir haray, həşir,
Can qopmaq istəyir bədəndən, təndən,
Özümdən küsürəm küsəndə səndən.

Hicran ağrıları canımdan çıxmır,
Ürəyim inciyir üzümə baxmır,
Öz könlüm evinə məni buraxmır,
Bağrım paralanır almaztək dən-dən,
Özümdən küsürəm küsəndə səndən.

Sənsiz ağzımın dəyişir təmi,
Gözümdə tor qurur o məlal nəmi,
İtir həyatımın ömrümün çəmi,
Sorma bu sevginin ülfətin məndən,
Özümdən küsürəm küsəndə səndən.

16.05.2001

SƏADƏTİN

Yarım, bilərziktəki,
Dolanaram qoluna.
Sorağın alan təki,
Mən çıxaram yoluna.

Nə qədər ki, çiçək var,
Tökərəm qucağına.
Aç qapını gəlim, yar,
Qızınım ocağına.

Əgər gəlsən, izinə
Qəlbi çıraq tutaram.
O sevda dənizinə
Ürəyimi ataram.

Sevgilim, bu cahanın
Qəmindən çıxmaq çətin.
Evin yıxar hicranın
Tək sənin səadətin.

18.07.1999

AMAN YARIM

Dünya gözəl, sevgi şirin, ömür az,
Sən olmusan həyatıma bahar, yaz,
Sevənlərə çox yaraşır işvə, naz,
Kədər nədir bilməyəsən gül, yarım,
Aman yarım, gözəl yarım, gül yarım.

Heç sevdadan doyan varmı dünyada?
Eşqimizə heyran olub dünya da.
Axtarmayım gül üzünü röyada,
Könlümə gəl hər dərdimi bil yarım,
Aman yarım, gözəl yarım, gül yarım.

Saf ürəkdir məhəbbətin adası,
Təmiz eşqdir yaşamağın faydası,
Xiffət çəkmək sevənlərin qaydası,
Eşq nəğməsin sənə söylər dil yarım,
Aman yarım, gözəl yarım, gül yarım.

Candan əziz sandım səni canıma,
Mələksima, nur verirsən anıma,
Durma gendə bir gəl mənim yanıma,
Cilvələnir ürəyimdə tel yarım,
Aman yarım, gözəl yarım, gül yarım.

Şadimandan üz çevirmə amandı,
Ayrılıq ki, ölümdən də yamandı,
Heç unutma dilindəki o andı,
Alışdırıb qəlbi etmə kül yarım,
Aman yarım, gözəl yarım, gül yarım.

18.03.2001

SOYUMAYACAQ

Xəyalın tapmasa yuxu gözümlə
Ağlağan uşaqtək uyumayacaq.
Atəşin bir ocaq çatıb közümlə,
Bu eşqin heç zaman soyumayacaq.

Hicranın könlümün gözünü ovsa,
Gizlərəm içimdə müsibətimi.
Bu eşqin sinəmə düşmüş alovsa,
Ataram atəşə məhəbbətimi...

Gecənin göyündə sevgimiz qəmər,
O görüş yerinə nur səpmək üçün.
Ulduzlar zülmətdən asılan kəmər,
Eşqin dodağından hey öpmək üçün.

Səadət arayan gecəquşular,
Mələk sevdamıza dəlitək uyar.
Anlara məhəbbət nağılı aşlar,
Sevən könlümüzü bu yer, göy duyar.

Hər yerdən təzəlik yağar dünyaya,
Nə güllə qoxusu, nə ah, nə nalə.
Bənzər bu gecəmiz, sanki xülyaya,
Vüsal bağçasında eşqimiz lalə.

Sevda bulağından su içər zaman,
Ömrün anlarına nur qatmaq üçün,
İtər içimizdən həm ah, həm aman,
Eşqi yuxusundan oyatmaq üçün.

Nə qədər sən varsan, o qədər də mən
Ürəyim könlümdən sevgi uyacaq.
Nə qədər canımla sevdadadır tən
Bu eşqin heç zaman soyumayacaq.

16.05.2001

DEYƏ BİLMİR

Nədəndir sevdalı gəzirsən yenə,
Baxışın qəlbimə qal deyə bilmir.
Gözlərin məhəbbət oxuyur mənə
Bir yolluq könlümü al deyə bilmir.

Mən hicran dəlisi, sən çılğın rüzgar,
Qalmısan eşqimin yolunda ögar,
Sevgim ürəyinə eyləməyir kar
O eşq nəğməsini çal deyə bilmir.

Bu necə istəkdi, bu necə dilək?
Heç bu məhəbbətdən baş açmır fələk,
Mən sevda göyündə qanadlı mələk
Yolunu sinəmdən sal deyə bilmir.

İlahi neyləsin fələk döyənə?
Hicranın yolunu qəlbə əyənə,
Ağlım əsir olub könül deyənə
Ürəkdə bu necə hal deyə bilmir.

Tökülür vüsalın odu gözümdən,
Mənə inanmırsan soruş özündən,
Dilin lal olubdu eşqin üzündən
Salmısan bağrıma xal deyə bilmir.

Nədir iki qəlbin can müsibəti,
Könlün əsir edib bu məhəbbəti,
Niyə Şadimana gəlib xəlbəti
Qolunu boynuna sal deyə bilmir.

16.05.2001

ÇİÇƏK GƏTİRDİN

Sən mənə tənha bir çiçək gətirdin,
O çiçək titrədi baxışlarıntək.
Gözəl təbiətdən mələk yetirdin
Niyə özün təki o çiçək də tək.

Baxdım həzin-həzin titrək mələyə,
Qışın bu soyuqluq verən çağında.
Qoymadım ovcumda çiçək titrəyə
Şaxtanın, sazağın qəm ayağında.

Kolundan didərgin düşmüş çiçəyi
İstədim isidim könül odumla.
Toxundu əlimə zərif ləçəyi
Yapışdı ovcuma soyuq bir damla.

Allahım, görəsən bu göz yaşımı?
Onu dərən zaman ağlamış nalan.
Çiçək soyuq qışın can sirdaşımı?
Son anda həsrətmiş çiçəyə qalan.

Mən də müntəzirəm, o da müntəzir,
O hicrana əsir, mənsə vüsala.
Könlümün içində bir möhnət gəzir,
Sevgilim, de necə dözək bu hala?!

Verdiyin o çiçək sevda sevinci,
O titrək mələyi atdın həsrətə.
Sənin əllərində can verən inci
Bəlkə cığır imiş o səadətə.

Sən mənə bir tənha çiçək gətirdin,
Kaş ki, qırmayaydın onu kolundan.
Əlimdə bir məsum varlıq bitirdin,
Qopartdın həyatı onun yolundan.

Sənin məhəbbətin könlümə əziz,
Qəlbə hədiyyəsən sən ki, həyatda.
Eşqin çiçəksiz də nəğməli dəniz,

Ömrə səadətdi o hər saatda.

13.01.2001

YARALI QOYDUN

Dikəldi içimdən asimana ah,
Sən yara vurduqca yara üstünə.
O gün ki, eşqini bildim qibləgah
Çevrildi ürəyim hicran büstünə.

Etdin özününki ürəyimi sən,
Mən onu əlindən qoparmadım ki...
Nə gizlədə bildim bu könlümü mən,
Nə səndən uzağa aparmadım ki.

Köçdən ayrı düşmüş qərib durnatək,
Qondun taleyimin pəncərəsinə.
Ürəyim içimdə boğulan tütək
Dönmədin bircə yol onun səsinə.
Alışdım, alovum bir dama döndü,
Sovurdun külümü göyə, bilmədin.
Hicran ürəyində hey kama döndü,
Sən onun qəlbinə dəyə bilmədin.

Səadət aradın, səadət hanı?
Sən onun bəxtini qaralı qoydun.
Batırdın əzaba hər iki canı
Hər iki ürəyi yaralı qoydun!...

1.10.1999

ÜRƏYİMDƏSƏN

Mənim qolu bağlı məhəbbətimi,
Sən əsir etmisən öz istəyinə.
Könül naləsitək səadətimi
Salmısan hicranın qəm tütəyinə.

Harayım boğulub içdə ah kimi,
Göz yaşı iz salıb yanaqlarımda.
Gözləyirəm səni al sabah kimi,
Səsin bir şərqidir qulaqlarımda.

Xatirən sübhidə açılan hər dan,
Odlu baxışımda bir tülə bənzər.
Hara gedirəmsə mənimlə hər an
Gözlərim önündə xəyalın gəzər.

Səni sultan bildim könlümə neylim?
Ürəyim quluna, kölənə döndü.
Sənin kölgəndən də dönmədi meylim,
Tək sənin eşqinlə qəlbim döyündü.

Sənə yetişməyim qəmdən qurtuluş,
Həsrətin qəlbimdə yaralar açar.
Ü
rəyim köksümdə çırpınan bir quş...
Sənin ürəyinin yanına uçar.

Səni haraylayır könlüm hələ də,
Həyatda ən əziz diləyimdəsən.
Əzizim, həsrətdən ölsəm belə də,
Sən mənim əbədi ürəyimdəsən!...

14.XI.1999

TUTA BİLM

İRƏM

Səndən ayrı düşmüş məhəbbətimi,
Çıxarıb könlümdən ata bilmirəm.
Gözü yaşlı qalmış səadətimi
Özgə sevdalara qata bilmirəm.

Getmir gözlərimdən xəyalı eşqin,
Yandırır könlümü bu halı eşqin,
Od salıb sinəmə məlalı eşqin,
Gecədən sübhədək yata bilmirəm.

Surətin önündə lal olur dilim,
Qəmindən doğranır qəlb dilim-dilim,
İtmisən yuxumdan hey ilim-ilim,
Sənə röyada da çata bilmirəm.

Dağdan ağır olub hicranın qəmi,
Töküb bu könlümə hədsiz ələmi,
Yenə buludlayıb gözüm aləmi
Sisinə, çəninə bata bilmirəm.

Bitməyir sitəmi bu ayrılığın,
Alıb başım üstün dərd yığın-yığın,
Gəl, bu Şadimanın könlünə sığın,
Can çıxıb bədəndən tuta bilmirəm.

10.X.1999

YARIM

Edər qəlbə yamanı,
Ayrılıq ah, amanı,
Gəlsə vüsal zamanı
Bir yanımda qal, yarım.
Gəl, könlümü al yarım.

Çəmən çiçəksiz neylər?
Çiçək ləçəksiz neylər?
Sevgi ürəksiz neylər?
Boynuma qol sal yarım.
Gəl, könlümü al yarım.

Ürəyim səni çəkər,
İçimdə vüsal səkər,
Varmı dilin tək şəkər?
Dodaqları bal yarım.
Gəl, könlümü al yarım.

Onsuz ömür, gün qısa,
Batmasın ürək yasa,
Qoyma qəlbi qəm basa,

Başım üstün al yarım.
Gəl, könlümü al yarım.

Şadimanın canısan,
Ən bəxtəvər anısan,
Sən hicranı tanısan...
Ona zəfər çal yarım,
Gəl, könlümü al yarım.

29.X.1999

SEVMİŞƏM NİYƏ?

Ürəyim yas tutub bu hicranıma,
Uzaqdan vüsala can deyə-deyə.
Acı qalacaqmış şirin canıma,
Bilmirəm mən səni sevmişəm niyə?

Sən ki, sevincimi ram edəcəkdin,
Ürəkdə kədəri dam edəcəkdin,
Gedib hicranımla kam edəcəkdin,
Bilmirəm mən səni sevmişəm niyə?

Dondurdun bəbəkdə gülüşlərimi,
Həsrətə pay etdin görüşlərimi,
Hicran udacaqmış gəlişlərimi
Bilmirəm mən səni sevmişəm niyə?

Doğdu dəryalarla gözümdə yaşlar,

Kirpik leysanına düşdü baxışlar,
Hicranın könlümə ələm bağışlar
Bilmirəm mən səni sevmişəm niyə?

Mən bəxşiş görmədim qəmindən qeyri,
Dərd verdi eşqinin könlümə seyri,
Vüsala qəm vermək hicranın xeyri,
Bilmirəm mən səni sevmişəm niyə?

12.X.1999

GƏTİRMƏ DİLƏ

Gətirmə könlümün günahın dilə,
Belə yazılıbmış, bəxtimiz belə.

Çıxmadı eşqimiz bu canımızdan,
Hicran əl çəkmədi heç yanımızdan,
Tərk edib getmədi qəm anımızdan,
Bir bunu anlaya bilmədin ki, sən,
Səadət aradın, səadətin mən.

Döndərmə gözümü yaşını selə,
Gətirmə könlümün günahın dilə.

Dondu soyuqluqdan bəbəkdə yaşım,
Ayrılıq içimdən asılan daşım,
Vallah açılmadı həsrətdən başım,

Əritdi zülmətlər sabahımızı,
Tanrı eşitmədi heç ahımızı.

Ötdü ömrüm-günüm acı bəxt ilə,
Gətirmə könlümün günahın dilə?

Bizi bir-birinə yazıbmış fələk,
Həsrətin məzarın qazıbmış fələk,
Bu sevgi alında yazıbmış, fələk,
Məni qismətimə yetirmədin tez,
Gülü öz bağında bitirmədin tez.

Verdin həyatımı illərin yelə?
Gətirmə könlümün günahın dilə.
23.XI.1999

NƏ DƏ HƏYAT VAR

Əvvəlki illərə qayıdaydım kaş,
Mən səni sevəydim, əzizləyəydim.
Atıb vüsalının bulağına daş
Çağlayıb çeşmətək dənizləyəydim.

Pərişan telləri töküb çiynimə
Baxıb qızaraydım səni görəndə.
Geyəydim təzə bir donu əynimə
Sən gəzən çəməndən çiçək dərəndə.

Yolunun üstünə çıxaraq hər gün
Guya təsadüfü qarşılaşaydım.
Salıb bəxtimizə yenə səda, ün
Sənin xəyalınla pıçıldaşaydım.

Üzünə tamarzı qalaydım yenə,
Yuxuma gələydin gecələr gizli.
Sənin atəşinlə alışan sinə
Aşiqin olaydı, ey aybənizli.

Ondakı illərə qayıtsaydım mən,
Tək səni sevərdim yenidən, ey yar.
Mənim həyatımda olmasan ki, sən
Onda nə Şadiman, nə də həyat var.

5.02.2000
Pirallahı

QIYMAYIR

Mən yarımçın yanıb külə dönmüşəm,
Yar mənimçin bircə közə qıymayır.
Can deməkdən ağlar dilə dönmüşəm
Yarsa mənə şirin sözə qıymayır.

Məhəbbətin niskilləri beləmi?
Ahım tutub başdan-başa aləmi,
Eşitməyir qəlbdən qopan naləmi,
Mənə baxan odlu gözə qıymayır.

Ürəyimdən qopan yalnız o ahdı,
Hicranlarla tutuşan hər sabahdı,
Sevmək bilməm nə zamandan günahdı?
Eşqin bir yol vura üzə, qıymayır.

Düşürməyir qəlbi hicran dağından,
Qurtulmayır ayrılığın çağından,
Məhəbbətin sevgi dolu bağından
Vüsal gülün gəlib üzə, qıymayır.

Şadimandan nə qalacaq dünyaya?
Sən də onun saldın qəlbin hey vaya,
Deyirdim ki, yarım gələr bir haya
Gəlib qəmin bağrın üzə, qıymayır.

25.01.2000

MƏNİMÇÜN GƏLMİSƏN...

Mən səni cismani sevmədim, ey yar,
Girmisən qəlbimdə mənəviyyata.
Ruhunun köksünə könlüm baş qoyar
Mənimçin gəlmisən, çünki həyata.

İlahi əliylə mən bu dünyaya,
Sanki varlığından qopub gəlmişəm.

Könlüm səsə düşüb, qulağım haya,
Səni yer üzündə tapıb gəlmişəm.

Elə bil yetməsin yad duyğu ora
Ruhumun evində keşik çəkirsən.
Gecələr geyəndə əyninə qara
İlham göylərindən enən fikirsən.

Sən xəyal atını elə çapırsan,
Gəlib yetmək üçün duyğularıma.
O mələk libası hardan tapırsan,
Qarışıb itməkçün uyğularıma.

Sənin bənzərin yox, vallah, bəşərə
Sanki səmalardan enmisən yerə.
Batıb qalmamaqçın dünyada şərə
Anadan doğuldun sən mənə görə!...

Sən hardan biləsən ruhum quş təki
Başının üstündə uçur, əzizim.
Elə dua edər, Rəbbə elə ki,
Sənin addımına düşməkçin izim.

Sənə yarmı deyim ya ki, bir mələk,
Mərtəbən eşqidən ucadır, uca.
Əbədi gəlməkçün yanına ürək
Könlümün damından açmışam baca?!

Mən səni cismani sevə bilmirəm,

Bağlıdır ruhuna mənəvi dünyam.
Necə gəlib girir evə bilmirəm
Gecələr sənlə tapmışan röyam.

Mən səni cismani sevmədim, ey yar,
Girmisən qəlbimdə mənəviyyata.
Ruhunun köksünə könlüm baş qoyar...
Mənimçün gəlmisən, çünki həyata!...

2.12.1999

NƏ VAR

Mənə ürəyində olan eşqini
Sənin gözlərindən bilməyə nə var?
Könlümdə yurd, yuva salan eşqini
Hicranın qəlbimdən silməyə nə var?

Büllurtək safdırsa sənin niyyətin,
Qalmaz qapılarda heç səadətin.
Niskillər, acılar verən həsrətin
Yalandan üzünə gülməyə nə var?

Bitirmə sinədə hicran kolunu
Zəncirlə qəminin o əl-qolunu,
Salsan ürəyimdən sevgi yolunu
Sevgilim, dərdindən ölməyə nə var?

10.12.1999

OLDUM

Ey mənim könlümü ovlayan ovçu-
Vurdun ürəyimə yaralı oldum.
Bu dərddən Tanrıya mən ki, duaçı,
Atdığın nişanın maralı oldum.

Düşdüm hicranların qəm yatağına
Bir gələn olmadı heç otağına,
Qar düşdü könlümün sevda tağına
Sazaqdan, şaxtadan saralı oldum.

Ürək hə deyəndə, yox dedi dilim,
Doğradı bağırı qəm dilim-dilim,
Özüm də bilmədim nədən, sevgilim,
Niyə bu sevgidən aralı oldum?

Səndədi könlümün, qəlbimin canı,
Fələyin bəxşişin, əzizim tanı,
Kim poza bildi ki, fələk yazanı?
Mən ki, bəxt sarıdan qaralı oldum.

Etmə Şadimanı dərdindən xəstə
Sağ ikən sən məndən könlümü istə,
Yolunu salanda məzarım üstə
Sonradan demə ki, haralı oldum?!

10.12.1999

BİLDİM

Sənin boynubükük məhəbbətini
Həsrəti könlümü üzəndə bildim.
Çəkdim illər ilə hey xiffətini
Niskili könlümü əzəndə bildim.

Qəlbimin bağına uçdun meh təki,
Eşqin bəbəyində bəyaz şeh təki,
Aldın ürəyimi bir fateh təki:-
Orda qalib kimi gəzəndə bildim.

Axdı gözlərimdən qəm yağışları,
Saldı ürəyimə nəm naxışları,
Tutdum gözlərimdə o baxışları
Məni oğrun-oğrun süzəndə bildim.

Yandırdın hicranı çıxmaz külündən,
Eşqinə don biçdin qəlbin tülündən,
Sən könül bağımın sevda gülündən
Bağrıma çələnglər düzəndə bildim.

Hicran qoy keçməsin ürək yolundan,
Asılıb qalmasın heç əl-qolundan,
Yarım bu eşqimin sevgi kolundan
Təzə, tər çiçəklər üzəndə bildim.

Çəkənlər bilir ki, məhəbbət bəla,
Ona tutulanlar dərdə mübtəla,
Məni də o qəmə yazıb haqqtəla

Eşqin dəryasında üzəndə bildim.

10.12.1999

MƏNDƏN ƏSİRGƏMƏ

Donar gözlərimdə dünyanın özü,
Dərd çəkər üzümə naxışlarını,
Qəmlə əlçimlənər dilimin sözü
Məndən əsirgəmə baxışlarını.

Rəvamı sinəmdə ələm yuvası?
Qəm çalar könlümdə hicran havası,
Bitməz həsrətinlə vüsal davası,
Məndən əsirgəmə baxışlarını.

Mən ki, baxışının odunda qoram,
Yanar sinə, bağır heç tapmaz aram,
Sənin möhnətinlə qövr edər yaram,
Məndən əsirgəmə baxışlarını.

Qovğadan açılmaz bəlalı başım,
Səf çəkər ordu tək gözümə qaşım,
Titrər için-için kirpikdə yaşım...
Məndən əsirgəmə baxışlarını.

Sevsən ürəyinin qoru olaram,

Baxsan gözlərinin nuru olaram,
Xəzanım yetişər uru olaram
Məndən əsirgəmə baxışlarını.

30.04.1999

BİR SƏN OL

Bir sən ol, mən olum, bir uçuq kaha,
Heç nə istəmirəm Tanrıdan daha!
Səhər yelləritək bəxt cilvələnsin,
Ey yar, ömrümüzə şadlıq ələnsin.
Nə sərvət, nə dövlət, nə pul, nə para,
Heç zaman tay olmaz əhdə, ilqara.
Təmizliyə bağlı saf mənəviyyat,
Onun sayəsində bərqərar həyat.
Var, dövlət isidə bilməz ürəyi,
Sevgidir qəlblərin ürkək mələyi.

Bir sən ol, mən olum, bir uçuq kaha,
Düşüb var dərdinə batmayaq aha.
Yansın, şöTlələnsin könül şamımız,
Qalmasın ürəkdə həyat kamımız.
Ömür yollarında sevgi bələdçi,
Ona yuva olsun könlümün içi.

Bir sən ol, mən olum, bir uçuq kaha,
Bu həqiqi sevgi yetsin Allaha!...

19.02.2000
Gəmidə

HARASINDAYAM

Boylanıb baxırsan hələ yuxulu
Nə vaxtdı könlümün pəncərəsindən.
Büdrəsən çıxmağın daha qorxulu
Hicranın qaranlıq qəm dərəsindən.
Vüsala minnətçi duyğularımla
Qaldım həsrətinlə elə üz-üzə.
Təsəlli tapdıqca uyğularımla
Səni sevdiyimi vurmadım üzə.

Bitib tükənməyən könlüm qüssəsi
Dəryadan güc alan çeşməyə bənzər.
Sanki ürəyimin yarı hissəsi
Qopub varlığımdan dalınca gəzər.

Aldın əllərimdən səadətimi
Hicran zamanının gecəsi bürkü.
Unuda bilmədim bu adətimi
Elə ömrüm boyu çəkdim qəm yükü!

Görüşə minnətçi o lal axşamlar,
Sən vüsal atını minib çapırsan.
Ömrün başa vurub sönəndə şamlar
Yəqin yuxularda məni tapırsan.

Mən səni aradım aradığım bu
Varlıqla yoxluğun arasındayam.

Mənim də dünyaya yaradığım bu
Bilmirəm dünyanın harasındayam?..
31.08.1999

MƏN SƏNİ SEVMİŞƏM

Könlümə bükmüşəm məhəbbətini
Onu əzizləyib öyəcəyəm də.
Çəkmə ayrılığın heç xiffətini
Mən səni sevmişəm, sevəcəyəm də.

Çatmısan sinəmin içində ocaq,
Onun atəşiylə tənim yanacaq.
Könlümün bəzəyi eşqidir, ancaq
Mən səni sevmişəm, sevəcəyəm də.

Ağlına gətirmə ayrılıq gələr,
Vüsalın bəxtimin üzünə gülər.
Bir ürəyim var ki, dərdindən ölər,
Mən səni sevmişəm, sevəcəyəm də.
Canımdan artıqdır varlığın mənə,
Qoymaram başına duman ələnə,
Qapıma sevdalar duşub dilənə
Mən səni sevmişəm, sevəcəyəm də.

Kimdir səndən savay könlümə munis,
Ölüm acısından hicran özü pis,
Canı tərk eyləyən deyil ki, bu hiss?
Mən səni sevmişəm, sevəcəyəm də.

Ey yar, bu könlümdə xanəmanın var,
Təndə öz canım yox, sənin canın var,
Madam ki, dünyada Şadimanın var
Mən səni sevmişəm, sevəcəyəm də.
30.08.1999

BU EŞQ HARDAN GƏLDİ?

İçimdə təntimir həsrət yanğısı,
Titrəyir könlümün rüzgarı yenə.
Mən nə qədər çəkdim hicran ağrısı
Bu eşq hardan gəldi, İlahi mənə?

Gözümün yaşları bağrıma bulaq,
Ayrılıq sinəmi eyləyib oylaq,
Köksümə yığılıb dərd qalaq-qalaq
Bu eşq hardan gəldi, İlahi mənə?

Qurtula bilmirəm odundan bir an,
Qovrulur, alışır ocağında can,
Ahımdan naləyə bürünüb hər yan,
Bu eşq hardan gəldi, İlahi mənə?

Hər damla bəbəkdə bir çeşmə doğdu,
Selləri kükrəyib gözümü boğdu,
Döndü dəryalara özümü boğdu,
Bu eşq hardan gəldi, İlahi mənə?

Bu alın yazısı, bu bir bəxt acım,
Bilmirəm qapısın mən necə açım?
Nədir əzabından qopmaq əlacım?
Bu eşq hardan gəldi, İlahi mənə?

31.08.1999

QÜRBƏT QUŞUYAM

Mən ki, bu dünyanın qürbət quşuyam,
Sınıb qanadlarım düşüb torpağa.
Demə gözlərinin həsrət yaşıyam,
Demə ki, dözürəm mən necə dağa?

Mən sənin eşqinlə bir gün gələrəm,
Böyük sevgimizi tapşır Allaha.
Sənsən mənə həyat, sənsiz ölərəm,
Çəkmə gözlərini yolumdan daha!

Əbədi dəfn edib hicranımızı,
Zülm edək dünyanın ələmlərinə.
Duyğuyla köklənsin eşq canımızı
Baş vuraq sevginin aləmlərinə.

Demə vəfasızlır qürbət quşları,
Dünyanı özünə yurd sanır onlar.
Gözdən qəlbə axan hicran yaşları,
Ürəyin evində qurar divanlar.

5.09.1999

GƏLMİSƏN MƏNƏ

Sənin baxışının bənzəri yoxdur,
Od tökür sinəmə gözlərin yenə.
Üstündə iblisin nəzəri yoxdur,
Sən ayrı dünyadan gəlmisən mənə.

Könlümdə anbaan duyğular coşur,
Bahar selləritək qaynayıb daşır,
Ürkək xəyalınla hey pıçıldaşır...
Sən ayrı dünyadan gəlmisən mənə.

Eşqin şahin təki könlümü çalar,
Girib ürəyimin içində qalar,
Bütün vücudumu əlinə alar,
Sən ayrı dünyadan gəlmisən mənə.

Səndə rüzgarların coşqunluğu var,
Qərib durnalartək çaşqınlığı var,
Qəlbin dağ selitək daşqınlığı var,
Sən ayrı dünyadan gəlmisən mənə.

Dönür duyğuların gur leysanlara,
Bir həyat verirsən bu lal anlara.
Heç bənzərin yoxdur bu insanlara,
Sən ayrı dünyadan gəlmisən mənə.

6.12.1999
Pirallahı

SOLMAYIR

Səadət ovcuma qonan bəxt quşu,
Qanatma könlümü, batırma qana.
Niyə dağıdırsan qəlb uçulmuşu
Sonra da deyirsən məhəbbət buna?

Eşqin ürəyimin könül şamıdır,
O sönən deyil ki, nə gündüz, gecə.
Başımın üstündə hicran damıdır,
De, necə gəzdirim, bu qəmi necə?

Sən hardan biləsən məhəbbət nədi?
Axı sevməmisən ömründə bir yol.
Çoxdan bağlamısan bəräni, bənd
i,
Yoxdu o gülzara nə cığır, nə yol.

Çiçəkdən çiçəyə qonan meh təki,
Hey məqam axtarıb, məqam gəzirsən.
Gülləri sızladan bəyaz şeh təki
Ürəyi üşüdüb, könlü əzirsən.

Heç bunu anlaya bilmədin ki, sən
Hər istək, hər dilək məhəbbət olmaz.
Payız çiçəkləri çəmənlikdə çən,
Kim deyər bu təhər yaşıllığa yaz?

Bilmirəm sinəndə gəzdirdiyin nə?

Məhəbbət ürəkdən ayrı olmayır.
Salıb ayaqlara əzdirdiyin nə?
Düşüb torpaqlara rəngi solmayır.

26.11.1999

ŞÜKÜR EDİRƏM

Allaha, Tanrıya şükür edirəm
Mənim həyatımda olduğun üçün.
Sənsiz ruhum dönür, fikir edirəm,
Söylə zülmət olur bu Göy, Yer neçin?

Sən varsan hər şeyin durur həyatda,
Ürək öz yerində, qəlb öz yerində.
Ziyasan, Günəşsən sən kainatda,
Sənlə sevdası var bu yerin də.

Niyə bənzəmirsən de adamlara?
Təmiz, pak yaradıb səni Yaradan.
Bəxtimin evində sönən şamlara
İşıq ol, zülməti götür aradan.

Səndən qaranlıq da qaçır yel təki,
Sən uca göylərdən gələn nurumsan.
Dindir ürəyimi həzin tel təki,
Mənim həm vüqarım, həm qürurumsan.

Allaha, Tanrıya şükür edirəm,

Bu sevda həyatdı bir-birimizə.
Xəyala batıram, zikir edirəm,
Rəbbim çox görməsin bu eşqi bizə.
27.08.2001

UÇDU GİZLİCƏ

Könül cilvələndi yenə quş kimi,
Qəlbimin qapısın açdı gizlicə.
Köksümdən qopmağı qurtuluş kimi
Günəştək nurunu saçdı gizlicə.

Canımdan ayrıldı sevdalı təntək,
Gəzdi ormanların üstündə çəntək,
Düşdü çəmənlərin bağrına dəntək
Orda çiçək kimi açdı gizlicə.
Nə qədər söylədim, könül ağrıma,
Neyləyim dözmədi acı-ağrıma.
Tutdum ki, yenidən salım bağrıma...
Çıxdı əllərimdən qaçdı gizlicə.

Elə cəh-cəh vurdu bülbül sayağı,
Qəlbin budağından qopdu ayağı,
Sanki xatırlatdı titrək mayağı
Dəryalar üstünə uçdu gizlicə.
12.12.1999

NƏ SƏNİ TAPARAM

Donar üzümdə titrək baxışların,
Ürəyində yurd salar naxışların,
Min bir çalarlı xalı kimi,
Eşqimin amalı kimi.
Gözümdə titrəşər yaşlarım
Qışın sal buzu təki,
Zülmətin paltarını cırmış
Gecənin ulduzu təki.
Sənin göz yaşların boğular bəbəklərimdə,
Yenidən doğularsan diləklərimdə.
Acılardan qurtulmaq üçün
Röyalara atılmaq üçün,
Xəyal dünyasına cumaram,
Bir damla şehə dönüb
pəncərənin şüşəsinə damaram.
Oğrun-oğrun otağına baxaram,
Xəyalını yandırıb yaxaram.
Orada bir boşluq görərəm,
Və bu boşluğun qanadını gərərəm.
Birdən surətin şam təki yanar,
Pəncərənin o tayında dayanar.
Baxışlarımız toqquşar,
Ürəklərimiz pıçıldaşar,
Ümidlər könlümüzdə daşar.
Əlimlə şüşəni döyərəm,
Xəyalımın ürəyinə dəyərəm,
Yuxudan ayılan sayaq diksinərəm,
Xəyal dünyamdan yerə enərəm...

Nə duyğularda çaparam,
Nə də səni taparam?

4.03.2001

DƏLİ SEVDAN

Ürəyimin içini boyayıb atəşinə,
Həsrət çəkir könlümü nə müddətdi dişinə,
Yandırır qəlbi niyə bu hicran günəşinə?
Nə sonsuz işvə, ədan,
Bitməzmi dəli sevdan?

Baxışların həsrətin yoluna çəpər çəkib,
Aşıb, daşan qəminə könlümü sipər çəkib,
Ümidimi zamanın bağrına sipər çəkib.
Hey mənə dəydi qadan,
Bitməzmi dəli sevdan?

O könül qayığımı mən dəryamda batırdım,
Fırtınalar içində gur sulara yatırdım,
Bir zamanlar könlümü ayağına atırdım,
Sahilsiz qalıb adan,
Bitməzmi dəli sevdan?

4.03.2001

ÜRƏYİNİ ALIM YAR

Bu dünyada üzün gülsün həmişə,

Ürəyini heç tapmasın əndişə,
Sənin yerin qəlbimdə ən pak guşə,
Yarım bağrı səni ora salım yar,
Bir bizə gəl ürəyini alım yar.

Ürək doymaz nə eşqidən, sevdadan,
Uzaq olsun başımız qan-qadadan,
Necə keçim bu işvədən, ədadan,
Çiçəklərdən sənə barat alım yar,
Bir bizə gəl ürəyini alım yar.

Qəlbim yenə segah üstə köklənib,
Oda düşüb qəm əlində təklənib,
Ömür boyu tək vüsalın bəklənib,
Könül telin kaman təki çalım yar,
Bir bizə gəl ürəyini alım yar.

Şadimandan nə qalacaq dünyaya?
Salma onun sinəsini ah-vaya,
Qoy düşməsin qəlbin ağzı röyaya,
Ömrüm boyu bu sevdanla qalım yar,
Bir bizə gəl ürəyini alım yar.

18.03.2001

KÖNÜL ARASINDA

Arzum, eşqim oldu çin-çin
Nurlandırdı qəlbin için,
Alışıram için-için
Hicran ürək yarasında,
Sevgin könül arasında.

Səadətdən gözüm doymaz,
Fələk məni gözdən qoymaz,
Gəlsən hicran qəlbi oymaz,
Bəslərəm göz qarasında
Sevgin könül arasında.

Ucalığın dağ vüqarım,
Vəfadarım, pak ilqarım,
Yerin var, ey gözəl yarım
Ürəyimin parasında,
Sevgin könül arasında.

Candan əziz sevdim səni,
Sil kön
lündən çiskin, çəni,
Axtarma gəl, yarım, məni
Vəfasızlar sırasında,
Sevgin könül arasında.

Eşqə dayaq qətiyyətin
Gül açsın, yar, hər niyyətin
Bu dünyanın səadətin
Arama pul-parasında

Sevgin könül arasında.

Ayrılıqlar eşqə cani,
Hey incidər o insani,
Həyat fani, ölüm ani,
Kim bulundu çarasında,
Sevgin könül arasında.

Şadimandan umma hicran,
Sənə bağlı həm qəlb, həm can,
Tapım səni deyim yarcan
Bu cahanın harasında?
Sevgin könül arasında.

18.03.2001

MƏNƏ ƏMANƏT VER

Sən mənim könlümün titrək bir şamı,
Boya şəfəqinlə nura axşamı,
İsitsin könlümü isti əllərin,
Qəlbə dayaq olsun təsəllilərin.
Ərit atəşinlə soyuq buzları,
Parlasın qəlbimin qoy ulduzları.
Bir təravət gətir bu diləklərə,
Dönsün saf eşqimiz pak mələklərə.
Dolaşsın taleyin asimanında,
Sevdası şirindir hər bir anın da.
Sabahı bilinməz bu ömrümüzün,
Nəşəsi qısadır, kədəri uzun.

Budaqdan budağa qonan meh təki,
Otları qəhərlə qucan şeh təki,
Gözlərin alışıb yanmasın qəmdən,
Sən bir sevda ara bu xoş aləmdən.
Onsuz da qısadır hər ömrün sonu,
Bizi əsir edib bu bəxt oyunu.
Udub-uduzmaqdı taleyin işi,
Belədir fələklə Rəbbin gərdişi.
Ərit ürəyimdən qüssəni, ahı,
Qoy işvəli gəlsin ömrün sabahı.
Səndən mən nə sərvət, nə var istərəm,
Dəyanət, sədaqət ilqar istərəm.
Tale titrətməsin heç dirəyini,
Mənə əmanət ver o ürəyini...

5.02.2001

YETƏ BİLMƏRƏM

Gözüm gözünə baxar,
Qəlbi yandırıb yaxar,
Ürəyimdən qan axar,
Bataram sisə, çənə,
Yetə bilmərəm sənə.

Dodaqda sözüm yanar,
Sinəmdə közüm yanar,
İçimdə dözüm yanar,
Qəmin toy qurar mənə,

Yetə bilm
ərəm sənə.

Sel olar gözdə yaşım,
Açılmaz dərddən başım,
Həsrətin can sirdaşım,
Vurar vüsala tənə
Yetə bilmərəm sənə.

Ağızda dilim ağlar,
Qəlb dilim-dilim ağlar,
Bu ayım, ilim ağlar,
Can çıxar dönməz tənə,
Yetə bilmərəm sənə.

5.02.2001

SƏN GİZLİ GƏLMİSƏN...

Sən gizli gəlmisən bu ürəyimə
Gizli gedişinə gumanım da yox,
Elə sahib çıxdın hər diləyimə
Səndən ayrılmağa amanım da yox.

Bitib tükənməyən bu istəyimi,
Bilmirəm harada gizləyim axı?
Buraxmır hicranın hey ətəyimi,
Nə qədər yolunu gözləyim axı?

Bu başıbəlalı könlün evinə,
Hicranı sən necə buraxıb getdin?
Qoymadın ürəyi bir yol sevinə,
Sən ona yağıtək zülümlər etdin.

Mənim məhəbbətim boynu bükülü,
Getdiyin yollarda izlərə dönüb.
Sənsiz suyum zəhər, havam bürkülü,
Ürəyim ağlayan gözlərə dönüb.

Nədən bu talelə min yol oynadın?
Eşqimi aləmə bildirdin belə.
Bir çılğın bulaqtək qəlbdən qaynadın,
Onun sevincini öldürdün belə.

Sənə ay demişdim, ayım da batıb,
O günəş atəşim sönüb içimdə.
Bəxtim də sevgintək əbədi yatıb,
Məndən ürəyim də dönüb içimdə.

4.02.2001

DÖNƏN DEYİL

Sinəm yanır atəşinə
Ömrü boyu dönən deyil.
Göz qamaşır günəşinə,
Kor olsa da dinən deyil.

Odu keçməz saf ürəyəm,
Qəlbdə çağlar xoş diləyəm,
Eşq göyündə bir mələyəm,
Ruhum ordan enən deyil.

Fələk könlü yıxmayınca,
Eşqimə kəm baxmayınca,
Can boğazdan çıxmayınca,
Ürək səndən dönən deyil.

Sənsən toyum, büsatım da,
Dünyada xoş saatım da,
Hər şey yensə həyatımda
Məhəbbətin yenən deyil.

Gəl hicranı eylə seyir,
O səadət deyil, xeyir,
Ayrılığdan dilin deyir,
Nə yaxşı ki, sinən deyil.

Bu Şadiman sevda qulu,
Neynər malı, varı, pulu,
Ürəyimdə sevgin ulu...
Kimsə ora sinən deyil.

29.04.2001
Neft Daşları

O GÜN Kİ...

O gün ki, ayrıldı könül yolumuz,
Qaldım həsrətinin kədərləriylə.
Tale göylərindən yağdı dolumuz,
İslandıq vüsalın qədərləriylə...

Sanki ayrı düşdü təndən canımız,
Döndük İsa-Musa quşuna o gün.
Kökləndi sevgiyə, eşqə anımız,
Könül dünyasına düşdü səda, ün.

Hətta yuxuların dərinliyində
Toqquşdu hər zaman baxışlarımız,
Sısqa ümidlərin sərinliyində
Dondurdu baharı sərt qışlarımız.

Xəyalla birləşdi diləklərimiz,
Dolaşdı sevginin gumanlarında.
Ağlaya-ağlaya ürəklərimiz
İtdi bəxtimizin dumanlarında.

Ürəklər aparıb eşqimizi də,
Uçublar sevginin asimanına.
Yəqin ki, sevgilim, bir gün bizi də
Alıb apararlar onlar yanına!...

8.11.1999
Gəmidə

KÖNLÜMÜ TAPIR

Tufana düşmüşəm, tufana vallah,
Mən sənin gileyli baxışlarından.
Bizə rəhm eyləsin qorusun Allah
Həsrətin şıdırğı yağışlarından.

Nazına dözməyə səbrim çatmayır,
Elə hey könlümü ələkləyirsən.
Hicran əzabından ürək yatmayır,
Yuxuya verməkçün bələkləyirsən.

Açıb taleyinin sirr boğçasını
Büküb gizlədirsən məhəbbətini.
İndidən tutmusan bəxtin yasını
Sanki dəfn etmisən səadətini.

Tufana düşmüşəm, tufana vallah,
Hicran Xəzriləri sinəmdə çapır.
Bürüyüb bəxtimin göylərini çən,
Dünyanın acısı könlümü tapır.

8.11.1999
Gəmidə

DƏNİZ YARIM

Ürəyim doldu qəmdən,
Göz nalə çəkdi nəmdən,

Gəl insafa, sevgilim,
Qurtar məni bu dəmdən.

Ağızda dilim ağlar,
Zamanım, ilim ağlar,
Hicran yarası ağır,
Qəlb dilim-dilim ağlar.

Dərdindən ölən canım,
Hər qəmi bölən canım,
Əhd bağladım, sevgilim,
Əhdimi necə danım?
Üzüyün qaşı ollam,
Qaşının daşı ollam,
Bir yol mənə can desən
Ürəyin başı ollam.

Canımdan əziz yarım,
Eşqində təmiz yarım,
Şadimanın sevgisi
Tək sənə dəniz, yarım.

30.07.1999

SƏNSİZLƏDİM

Yarım, sənin yolunu
Sübhə təki gözlədim.
Gizləyib qəmdən bunu

Ürəkdə əzizlədim.

Kədər dolu qucağın
Sinədə həs
rət dağım,
Sönməsin od, ocağım
Səhərədək izlədim.

Aşdı qəmim başımdan,
Boğuldum göz yaşımdan,
Heç çıxmadın başımdan
Yamanca sənsizlədim.

27.01.2000

UZAQ DÜŞƏNDƏ

Dərdim başımdan aşar
Qəlbə sazaq düşəndə.
Gözümdə yaşım daşar
Səndən uzaq düşəndə.

Həsrət könlümü alar,
Alıb bağrına salar,
Bu göz yolunda qalar,
Səndən uzaq düşəndə.
At çapar içimdə qəm,
Verməz rahatlıq bir dəm,
Mənə dərd olar aləm

Səndən uzaq düşəndə.

Hicran qəlbdə birinci,
Olar kədərə inci,
Qapar əldən sevinci
Səndən uzaq düşəndə.
27.01.2000

UNUDAN DEYİLƏM

Memartək yanaqda hicranın əli,
Yapdı göz yaşımdan ələm heykəli,
Hisslərim ümidin əlində dəli,
Bu bəxt ki, məndə var qalıb Allaha,
Mən səni unudan deyiləm daha.

Xəyalın asılı qalar canımdan,
Qopara bilmərəm onu anımdan,
Hönkürür gecələr həyəcanımdan,
Fəzada ay, ulduz qaralsa aha,
Mən səni unudan deyiləm daha.

Hicran dənizində boğulsa içim,
Həsrət çeşmə olsa, vüsal bir içim,
Ömür çəmənində getsə də biçim...
Qəm qəlbi ələmlə atsa sabaha,
Mən səni unudan deyiləm daha.

Ümidim tuş olsa qəm yağışına,
Batsa gecələrim hicran yaşına,
Qalsa, bu ürəyim başlı-başına,
Gəlsə də könlümə bu qəmlər baha,
Mən səni unudan deyiləm daha.

Şadiman yansa da eşq atəşinə,
Ayrılıq çəksə də onu dişinə,
Dözərək taleyin bu gərdişinə,
Zülm edib canıma batsam günaha
Mən səni unudan deyiləm daha.

17.03.1999
Pirallahı

QURBAN ÖZÜM

Tale sənə yarısın,
Könlünə eşq sarısın,
Allah səni qorusun,
Bədnəzərdən, sevgilim,
Hər nəzərdən, sevgilim.

Ürəyimin odusan,
Həyatımın dadısan,
Salma qəlbə yadı sən,
Qısqanaram, sevgilim,
Odlanaram, sevgilim.

Gözümüz yaş olmasın,
Ayrılıq daş olmasın,
Qəmlə sirdaş olmasın,
Diləyimsən, sevgilim,
Ürəyimsən, sevgilim.

Eşqimiz dəniz olsun,
Aytək nurbəniz olsun,
Tanrıtək təmiz olsun,
Qəlbi gözəl, sevgilim,
Candan əzəl, sevgilim.

Sən Allahdan payımsan,
Dünyada harayımsan,
Məhəbbət sarayımsan.
Canım, gözüm, sevgilim,
Qurban özüm, sevgilim.

27.12.1999

DƏNİZ GÖZLÜM

Ürəyimin kamı sənin,
Qəlbi közlüm, lalə üzlüm.
Arzum, eşqim hamı sənin
Dəniz gözlüm, şirin sözlüm.

Dalğalartək coşmağın var,
Gurşadlartək daşmağın var,
Qəlb barısın aşmağın var,
Dəniz gözlüm, şirin sözlüm.

Ürəyimlə tən yarısan,
Demərəm qəm açarısan,
Sən canımın tək yarısan,
Dəniz gözlüm, şirin sözlüm.

Hər nəşədə qəmim var ki,
Gəl sevgili dəmim var ki,
Səndən qeyri kimim var ki,
Dəniz gözlüm, şirin sözlüm.

Sən könlümü istə məndən,
Yolun üstə edim dən-dən
Keçə bilməz ürək səndən,
Dəniz gözlüm, şirin sözlüm.

Ürək təşnə ürəyinə,
Dönüb röya mələyinə,
Düşmə hicran kələyinə,
Dəniz gözlüm, şirin sözlüm.

Şadimana ver könlünü
Eylə eşqə yer könlünü,
Sevsin bu göy, yer könlünü
Dəniz gözlüm, şirin sözlüm.

21.12.1999

ZAMAN BİLMƏZ
SEVGİLƏR

Dolaşar başımızda
Nə irız, nə yol bilər.
Bitər göz yaşımızda
Zaman bilməz sevgilər.

Seçər ürəyin için,
Sızlayar için-için,
Allahım, bilməm neçin?
Zaman bilməz sevgilər.

Qəlbimizin sükanı
Sinələrdir məkanı
Ram elər niyə canı?
Zaman bilməz sevgilər.

Bitər yolumuz üstə
Edər ürəyi xəstə
Dolar cana ahəstə
Zaman bilməz sevgilər.

Ürək, könül, can əsir,
Hicranı qəlbi kəsir,

Allahım, söylə nə sirr?
Zaman bilməz sevgilər.

Ürəklərdə şah olar,
Gah nəşə, gah ah olar,
Başımız üstün alar,
Zaman bilməz sevgilər.

Şadiman, nə möcüzə
Tanrıdan barat bizə
Dolar ürəyə, gözə...
Zaman bilməz sevgilər.
12.09.1999

O GEDƏN OLDU

Candan əziz bildiyim,
Gözündən nəm sildiyim,
Hey dərdindən öldüyüm,
Bu nə uzun bir yoldu?
Getdi, o gedən oldu.

Bu sinədə acılar,
Yaralarla açılar,
Yardan necə qaçılar?
Doldu ürəyim, doldu.

Getdi, o gedən oldu.

Könül onun möhtacı
Sevgilərimin tacı,
Bu qədər qəlbdə acı
Soldu, ümidim soldu.
Getdi, o gedən oldu.

Baxışlarım yollarda,
Qəm zənciri qollarda,
Bilmirəm qaldı harda?
Qəlb bu qəmə saç yoldu
Getdi, o gedən oldu.

11.09.1999

TEZ GƏL

Ağladıb güldürənim,
Can alıb öldürənim.
Mənim məsum eşqimi
Aləmə bildirənim.

Ömrü qar aldı, tez gəl.
Günüm qaraldı, tez gəl.

Yuxumda səni sordum,
Yorğun gözümü yordum,
Dedim gəlib keçərsən
Yol ayrıcında durdum.

Canımın canı, tez gəl,
Sənsiz gün hanı, tez gəl?

Hicran qurub vayımı,
Bir duyaydın hayımı,
Yerə vurma, sevgilim,
Mənim haqqı-sayımı.

Alışdı ahım, tez gəl.
Sənsən sabahım, tez gəl.

Şadimanın qəm yükü,
Ömrünün yolu bürkü,
Qonaq ol bu könlümə,
Oxuyum sənə türkü.

Həyatım puçdu, tez gəl,
Zamanım uçdu, tez gəl.

12.07.1999

DEYİR

Diləklərim havada,
Ürəyimlə davada,
Dilim haqqa duada,
Vəfadara can deyir,

Səhər, axşam yan deyir.

Canımın canı yarım,
Sənsiz can hanı, yarım?
Dünya gözəllə dolu
Sən məni tanı yarım.

Harayıma yetişən,
Yara açma bitişən,
Sənin ilə ötüşən,
Qəlb nə xoşdur an deyir,
Səhər, axşam, yan deyir.

Can var ki, cəfası var,
Can var ki, vəfası var,
Şadimanın, sevgilim,
Eşqinə səfası var.

Canımın canı yarım,
Sənsiz can hanı, yarım?
Dünya gözəllə dolu...
Sən məni tanı yarım.

12.07.1999

ALAN OLAYDI

Qurmusan içimdə hicran yuvası,
Kaş ora qəfildən talan olaydı.
Yetəydi dilimin haqqa duası

Məni bu həsrətdən alan olaydı.

Getməyir könlümdən heç ağrı, acı,
Ürəyim özünə tapmır əlacı,
Ömrümün, günümün kədərdi tacı,
Məni bu həsrətdən alan olaydı.

Min bir dərya doğdu gözdəki yaşdan,
Qurtula bilmədim mən bu savaşdan,
Getməyir sevdanın havası başdan,
Məni bu həsrətdən alan olaydı.

Hicran ürəyimdə sevinci damlar,
Könül yarasından elə qan damlar,
Acı fəğanımı duyan adamlar...
Məni bu həsrətdən alan olaydı.

28.06.1999
Neft Daşları

ELƏ ÜRƏYİMƏ DÜŞMÜSƏN YENƏ

Elə ürəyimə düşmüsən yenə,
Hər yerdən üstümə xəyalın gəlir.
Dönür İlahidən rənkarə sinə
Gözümün önünə cəmalın gəlir.
Çaşıb itirirəm yolu, irizi,
Gözümdə dünyanın rəngi dəyişir.
Ürəyim tapmaqçın bir-birimizi,

Qədərlə, ağılla hər gün döyüşür.

Hərdən ağlayıram öz gileyimə,
Göz yaşım içimi boğur sel təki.
Çatıb yetmək üçün kor taleyimə
Uçuram dünyanın üstə yel təki.

Elə ürəyimə düşmüsən yenə,
Damla su sevdalı dodaqlar kimi.
Qoyma ki, varlığım həsrətə enə,
Xəzana tuş olmuş sabahlar kimi...

Səni bu dünyadan ən şirin olan,
Candan əziz bildim canım qubarda.
Yalnız xəyalındır könlümə qalan,
Bəs səni arayım bilmirəm harda?

Elə ürəyimə düşmüsən yenə,
Xatirən artırır qəlb sevincimi.
Qiyməti olana nə mülk, nə binə,
Dəyəri qoruyur ən saf incini!

Elə ürəyimə düşmüsən yenə,
Sanki ayaqlarım yerdən üzülüb.
Çatmaq istəyirəm, əzizim, sənə,
Ocağım sovrulub, suyum süzülüb.

Elə ürəyimə düşmüsən yenə,
Xəyalın aparıb şadimanımı.

Əzizim, bu könlüm qalmasın mənə
Alıb aparmısan qəlbdən canımı!...

5.12.1999
Pirallahı

SƏN DEMƏ

Bütün duyğuları, tapıntıları,
Mən əsir etmişəm sənə, sən demə.
Könül büdrəməsi, sapıntıları.
Gəlib ayağına enə, sən demə.

Qalxır duyğularım hey bəmdən zilə,
Ürək də adamtək gələrmiş dilə,
Hicran əzabını mən bilə-bilə
Salmışam könlümü, çənə, sən demə.

Dəryalar doğulur hər göz yaşımdan,
Bu nə sevdadır ki, getməz başımdan...
Ölsəm eşq doğulur o baş daşımdan,
Alışar sevginlə yenə, sən demə.

Ağrında, acında, qadanda bildim,
Qəmini zəhər tək udanda bildim,
Hicran əzabını dadanda bildim,
Canımdan əzizsən mənə, sən demə!

5.12.1999

HİCRAN NƏĞMƏSİ

Uçdu qəlbimizin vüsal yuvası,
Didərgin düşübdü sevgimiz daha.
Getmir başımızdan eşqin havası,
Bizim taleyimiz qalıb Allaha.

Hicran yaramızın közün qopartdı,
Ağladı gecəmiz gündüz eşqinə.
Biz dərddən qaçdıqca dərdimiz artdı,
Ayrılıq gəlmədi imana, dinə.

Gözümüz axtardı biri-birini,
Dünənki məhəbbət nağıla döndü,
Kim açа bildi ki, eşqin sirrini?
Ürəyin yerində sevgi döyündü.

İndi xatirəyə döndü o günlər,
Əfsanə olubdu dünyalarımız.
Şirin yuxularda baxışlar inlər,
Xəyallar yaşayar röyalarımız.

31.08.1999

DOYMAYIR GÖZÜ

Baxışın sarmaşıq çiçəyi, yarım,
Dolaşıb könlümün pəncərəsinə.
Bir quru canımdı dünyada varım

O da qurban olsun sənin səsinə.

Bahardan xəzana gedir yaşımız,
Biz ki, əbədilik deyilik ki, ah!
Qarışıb zamana yaman başımız,
Necə tez ötüşür açılan sabah.

Təmiz sevgilərdi insana dəyər,
Onu duymayanın yazıq halına,
Kim ki, öz varıyla özünü öyər,
Qarışar özü də dünya malına.

Mənim səadətim sənինlə başlar,
O ki, son anadək son təməlimiz.
Bir gün qapımızı əzrayıl daşlar...
Üzülər dünyanı tutan əlimiz!

Hər ömür bir həyat nağılı, gülüm,
Onun müəllifi fələyin özü.
Elə ovsunladın ağılı, gülüm,
Şadimanın səndən doymayır gözü.

30.08.1999

GƏLİB ÇIXMADIN

Qəm evimdə şah oldu,
Tacı-təxtin yıxmadın.

Qəlbdən qopan ah oldu,
Bir sən gəlib çıxmadın.

Çiçəklər soldu getdi,
Qəm saçın yoldu getdi,
Buludlar doldu getdi,
Bir sən gəlib çıxmadın.

Bağrımı xəzan aldı,
Qolun boynuma saldı,
Qəlb qəm nəğməsi çaldı,
Bir sən gəlib çıxmadın.

Adın məndən soruldu,
Aləm mənə vuruldu,
Göz yollarda yoruldu...
Bir sən gəlib çıxmadın.

Dərd ürəkdə dam oldu,
De bu necə kam oldu?
Hər əzabım ram oldu,
Bir sən gəlib çıxmadın.

Könlün deyil ki, zərgər,
Əridib qəlbi əgər,
Gözüm yolunda ögar
Bir sən gəlib çıxmadın.

29.08.1999

ALAYDIN

Dağ başında qar ola
r,
Yara qalan yar olar,
Yarsız gün ah, zar olar,
Bir yanımda qalaydın,
Yar könlümü alaydın.

Canımdan əzizimsən,
Dalğalı dənizimsən,
Nə ülkər bənizimsən?
Boynuma qol salaydın
Yar könlümü alaydın.

Ürək səndən küsəndə
Dəli yeltək əsəndə,
Hicran yolu kəsəndə
Ayrılıqdan dolaydın
Yar könlümü alaydın.
Cənsiz qan qaralanda,
Bağrımı qar alanda,
Gül üzün saralanda,
Qəmə zəfər çalaydın,
Yar könlümü alaydın.

Şadimandan gün qaçar,
Dərdlərinə yol açar,

Ömür quş, əldən uçar...
Qanadını yolaydın,
Yar könlümü alaydın.
29.08.1999

BİLMİRƏM

Hicranın amansız yağımış, yağı
Saldı haçan məni dilə bilmirəm.
İlahi, könlümün bu nisgil çağı
Bu eşq hardan gəldi, bilə bilmirəm?

Gözümdə qurumur ayrılıq şehi,
Əsir taleyimdə hicranın mehi,
Oldun ürəyimin necə fatehi
Əksini oradan silə bilmirəm.

hər bəxtin taleyin məcarası var,
Hər eşqə hicranı olur zülümkar,
Elə müqəddəsmiş bu eşqin, ey yar,
Onu bir kimsəylə bölə bilmirəm.

Xəzandı könlümün budaqlarında,
Səsin düşüb qalıb otaqlarımda,
Donub gülüşlərim dodaqlarımda...
Min bir cəhd qılsam da gülə bilmirəm.

Ara Şadimanın qəlbini bir yol,

Yoxdur, səndən savay kimsələrə yol,
Əzrayıl misallım, qoy qətlimə qol!
Yoxsa öz xoşumla ölə bilmirəm.

29.08.1999

ÜRƏYİM ULDUZUNDU

Üzülər bədəndə can
Sənin qəmli halına.
Ömürdən qurban hər an
Sevgili xəyalına.

Çiçəyim deyim sənə,
Çiçək tez solur, gülüm.
Sənsiz qəlb düşür çənə
Gözlərim dolur, gülüm.

Düşmüsən ürəyimə
Yerə gün düşən kimi.
Sən hakim diləyimə
Çəmənə gülşən kimi.

Qurtar ömrü biçindən
Gəl bəxtimə sakin ol.
Ürəyimin içindən
Ürəyinə gedir yol.

Səndən danışır mənə
Yuxularım hər gecə.
Qoyma qanasın sinə
Qanın kəsərsən necə?

Sən gözümdə yaşımı
Etmə hər çeşməyə çay.
Bahar edib qışımı
Ətrini dünyaya yay.

Ayrılığa nə var ki,
Onun əli uzundu.
Şadiman elə yar ki,
Ürəyi ulduzundu.

30.09.1999

SONU OLMASIN

Gözdə göl olmasın hicran yaşları,
Xoşbəxt sevdamızın üzü solmasın.
Dərddən çatılmasın ömrün qaşları,
Allah, bu sevginin sonu olmasın.

O ki, ruha, hissə, bədənə candı,
Onun atəşinə ürəyim yandı.
Bir dəm pozulmasın bu könül andı!
Allah, bu sevginin sonu olmasın.

Səadətsiz könül dünyada heçdi,
Ürək istədiyin hər zaman seçdi,
Eşq yolunda yanan, odlanan içdi,
Allah, bu sevginin sonu olmasın.

Tanrı alsın əldən hicranımızı,
Şadlığa bələsin eşq canımızı,
Nurlara qərq etsin hər anımızı
Allah, bu sevginin sonu olmasın.

Yalnız məhəbbətdir ruhun mələyi,
Fələk əsdirməsin hicran küləyi,
Neynirəm eşqsiz vuran ürəyi?
Allah, bu sevginin sonu olmasın.

Qəlbdə yara açar ayrılıq izi,
Ya rəbb, ölənədək ayırma bizi,
Sən özün yaratdın bu eşqimizi!
Allah, bu sevginin sonu olmasın.
Allah, bu sevginin sonu olmasın.
27.09.1999

DOLANIM BAŞINA

Sən canımın canısan,
Sevgimin ünvanısan,
Eyləmə divanı sən,
Zülm etmə sirdaşına,

Yar, dolanım başına.

Hicrandan gözüm dolar,
Həsrət saçımı yolar,
De könlümü kim alar?
Bir bax gözüm yaşına,
Yar, dolanım başına.

Bəbəkdə yaşım çeşmə,
Batarsan ora düşmə,
Hicran yaramı eşmə,
Zəhər qatma aşına,
Yar, dolanım başına.

Dağların gözü çəndi,
Yanan bağırdı, təndi,
Ömür yeltək ötəndi,
Dərd gəlməsin başına,
Yar, dolanım başına.

Şadiman səndən uzaq,
Qəlbini basar sazaq,
Hicrana məzar qazaq,
Dön könlümün başına,
Yar, dolanım başına.

20.07.2001

DƏYMƏDÜŞƏR YAR

Özündən razı olar,
Dildə avazı olar,
Hər cürə nazı olar,
Aman dəymədüşər yar,
Yaman dəymədüşər yar.

Heç nədən dodaq büzər,
Baxışıyla can üzər,
Elə hey məni süzər,
Aman dəymədüşər yar,
Yaman dəymədüşər yar.

Sən ilahi xilqəti,
bəxtimin səadəti,
Gəl unut bu adəti,
Aman dəymədüşər yar,
Yaman dəymədüşər yar.

Şadiman canında can,
Onu öz könlündə an,
Salma aramıza qan,
Aman dəymədüşər yar,
Yaman dəymədüşər yar.

16.07.2001

GƏL YARIM

Baxışların tuti-tuti ötüşər,
Pünhan-pünhan imdadıma yetişər,
Ürəyimdə yaralarım bitişər,
Başım taxtı, könlüm baxtı, gəl yarım,
Ürəyimin dolan vaxtı, gəl yarım.

Bu sevdadan gizli-gizli yanaram,
Gecə-gündüz elə səni anaram,
Məhəbbəti baxışından qanaram,
Eylə məni qəlb xoşbaxtı, gəl yarım,
Ürəyimin dolan vaxtı, gəl yarım.

Ömür qısa, zaman uçur yel təki,
An qırılır saçımdakı tel təki,
Qoyma axsın gözdən yaşım sel təki,
Hicran mənə yaman baxdı, gəl yarım,
Ürəyimin dolan vaxtı, gəl yarım.

Könlüm hali bu sevginin odundan,
Doymaq olmur məhəbbətin dadından,
Söyləyirəm ürəyimin adından,
Eşqin odu könlü yaxdı, gəl yarım,
Ürəyimin dolan vaxtı, gəl yarım.

16.07.2001

ƏBƏDİ QOVUŞAYDIQ

Ürəyi dərd alıbdı
Yenə həsrət qalıbdı,
Gözlərim o gözünə.
O sevda dənizinə
Atılıb bir üzəydik,
Yeri, Göyü süzəydik,
Mələklər tək sehirli
Məhəbbətimiz sirli.
Alışaydıq, yanaydıq,
Odlara boyanaydıq.
Gözümüzün sevinci,
Hər damlası bir inci,
Parlayaydı Günəştək,
İçimizdə atəştək,
Bir ocaq çatılaydı,
Könlümüz atılaydı,
Bu sevdanın üstünə.
Durub qəmin qəsdinə
Acılardan çıxaydıq,
Gizli-gizli baxaydıq,
O sevginin gözünə
Atılaydıq közünə
Yanaydıq için-
için,
Arada hicran neçin?
İçimizdə bir atəş,
Odu tükənməz Günəş.
Yer, Göy ram olaydı,

Ürəkdə kam olaydı.
Bu sevdalı dünyanı,
Hər atəşli xülyanı,
Səadətlə oyaydıq,
Xəyallara uyaydıq.
Atışaydıq kədərlə,
Çarpışaydıq qədərlə.
Hər şey könlümüzcə,
Sevgilim, söylə necə?
Kədərdən sovuşaydıq,
Əbədi qovuşaydıq.

16.07.2001

YALVARIRAM

Yalvarıram gözlərinə
Gözlərimə heç baxmasın.
Yalvarıram izlərinə
Könlümdə iz buraxmasın.

Yalvarıram o Allaha,
İstəyimi tez aparsın.
Ürəyimdən gəlib daha
Bu sevgini tez qoparsın.

Yalvarıram fələklərə
Ümidimi ağlatmasın.
Sevgi dolu ürəklərə

Vüsal yolun bağlatmasın.

Yalvarıram aya, günə
Ömrümə qəm yükləməsin.
Ayrılığın bəd üzüylə
Ürəyimi təkləməsin.

Yalvarıram bu aləmə
Könlüm təki saralmasın.
Ağrımasın qəm, ələmə,
Gündüzünü qaraltmasın.

Yalvarıram Yaradana
Qəmi alsın bu sinəmdən.
Mən də şuxluq qatım cana
Zövq alım bir bu aləmdən.

Yalvarıram Şadimana
Hər yetənə can deməsin.
Yükləməsin dərdi cana
Ömrü boyu qəm yeməsin.

3.08.2001
Pirallahı

SEVGİ DOLU GÖZLƏRİN

Saldı bu eşqi dilə,

Sinəmdəki izlərin.
Alıb könlümü ələ
Sevgi dolu gözlərin.

Ürəyimlə oynayır,
Çeşmələrtək qaynayır,
Elə məni qınayır,
Sevgi dolu gözlərin.

Başımın bəlasıdır
Odlara salasıdır,
Hey mənlə qalasıdır,
Sevgi dolu gözlərin.

Hara getsəm yanımda,
Od-atəşi canımd
a,
Mehmandı ünvanımda
Sevgi dolu gözlərin.

Şadimanı unutmaz,
Gələr yuxusu yatmaz,
Heç zaman məni atmaz
Sevgi dolu gözlərin.
3.08.2001
Pirallahı

DOĞUM GÜNÜNDƏ

Bu gün sevgilimin pak doğum günü,
Mənə həm sevincdi, ah həm də kədər!
Vurub bəxtimizə fələk düyünü,
Ömrün günlərini can-bəsər edər...

Gəl tale atında uçma yel təki,
Külək deyilsən ki, göyü çalasan.
Axmasın anların coşğun sel təki,
Axı istəmirəm sən qocalasan.
Bu doğum günündə gözlərin gülsün,
Səadət bəxtində açsın yaz təki.
Yorğun ürəyinə sevinc tökülsün,
Qəlbinin sevdasın duyum göz təki.

Könlün bu həyatdan heç usanmasın,
Bütün diləklərin coşsun çağlasın.
Boş yerə hər kəsə qəlbin yanmasın,
Fələk zülmətlərin yolun bağlasın.

Oturaq üz-üzə sinəmiz dolu,
Xoş anlar diləyək doğum gününə.
Həm şirin, həm acı bu həyat yolu,
Könül avazlansın haraya, ünə.

Bu gün necə dadlı, necə əzizdi,
Sənin varlığıntək, sənin özüntək.
Dünyam da nurlanıb, sanki təmizdi,
Könlümə nur tökən odlu gözüntək.

Bir gurşad bəxş eylə ruhunla cana,
Bəxtinin göyünə yağım günündə.
Tanrı ömür versin bu Şadimana,
Sənə həyan olum doğum günündə.

4.08.2001
Pirallahı

NECƏ İSTƏMİRƏM

Düşür saçlarına cığırlar dən-dən
Doğma ocağıtək yurd salıb asan.
Tökülür yarpaqlar çinar ömürdən
Necə istəmirəm sən qocalasan.

Fələyin gərdişi yaman amansız,
Dağları qoymayır çənsiz, dumansız,
Ömrü verməyir ki, bizə zamansız
Necə istəmirəm sən qocalasan.

Zaman bəxtimizə Günəştək düşür,
Anların balıqmış əldən sürüşür,
Qaşlar arasında izlər görüşür
Necə istəmirəm sən qocalasan.
İlahi, qədərin işinə bax bir,
O bahar gəncliyə eyləməz səbir,
O şah cavanlığa Rəbb edə tədbir,
Necə istəmirəm sən qocalasan.

Dəyişə fərmanın yazını yazan,

Taleyin bağına gəlməsin xəzan,
Tapaydım zamana bir quyu qazan,
Necə istəmirəm sən qocalasan.

Gözündə kölgələr yuva salmaya
Çöhrənə payızın izi dolmaya,
Kimsə gəncliyindən ayrı olmaya...
Necə istəmirəm sən qocalasan.

Üzünü yormaya yorğun baxışlar
Çəkməyə çöhrənə qəmdən naxışlar,
Gəlməyə ömrünün bağına qışlar,
Necə istəmirəm sən qocalasan.

Sevgilim, demə ki, Şadiman dəli,
Uzadır Allahın göyünə əli,
Fələk yazan qanun olsa da bəlli...
Necə istəmirəm sən qocalasan.
29.07.2001

NƏ SEVDADI?

Gözlərimin röyası
Olma könüldən ası,
Quraq hicrana yası,
Sevgidə nə ədadı,
Bu sevda, nə sevdadı?

Alıb ağlımı başdan,
Ata bilmirəm başdan,
Hicranı ağır daşdan
Könlə dəyən qadadı,
Bu sevda, nə sevdadı?

Üzülüb əldən düşdüm,
Əcəb bəlaya düşdüm,
Könlümdən vaya düşdüm,
Məhəbbəti adadı,
Bu sevda, nə sevdadı?

Dilimdə adı gəzir,
Hicranı məni üzür,
Diləməz ki, bir üzür,
Könlündə yer yadadı
Bu sevda, nə sevdadı?

Ürəyimlə çarpışar,
Həsrətimlə tapışar
Elə qəmdən yapışar
Dilimdə zəhər dadı,
Bu sevda, nə sevdadı?

Məni könlə tay tutmaz,
Yanan qəlbi sovutmaz,
Şadimanı ovutmaz,
Harayım dünyadadı,
Bu sevda, nə sevdadı?

5.08.2001
Pirallahı

BELƏ TAPMIŞAM

Könül qapılarım açıq üzünə
Keçirsən önündən divanələrtək,
Mənsə vurularaq odlu gözünə
Dolandım başına pərvanələrtək.

Gecələr xəyalın gözümdə bitdi,
Şirin yuxularım sitəmim oldu.
Sinəmdən ürəyim uçaraq itdi,
Axşamlar əbədi matəmim oldu.

Hər yerdən gözümə xəyalın gəldi.
Sənin nəzərinlə baxdım həyata.
Ünyetməz göylərə ahım yüksəldi,
Döndüm bu dünyada bəxtsiz səyyada.
Həyatın marağı itdi gözümdə,
Mənə elə gəldi boşdu bu dünya,
Zülmət at oynatdı eşq gündüzündə,
Qapıldım əcayib zövqsüz xülyaya.

Mən qənim kəsildim hər diləyimə,
Hər şeyin üstündə əksini gördüm.
Hey üsyan eylədim bu ürəyimə

Sinəmdə çırpınan köksünü gördüm.

Çırpındım xəyallar içində nalan,
Surətin kabustək çəkilib getdi.
Titrəyən vücüdün büsbütün talan,
Üstümə hicranın tökülüb getdi.

Bağlıya bilmirəm könül qapımı,
Ah, necə gücsüzəm mən istəyimə!
Fələk də qırmayır ömür sapımı,
Keçirib caynağın bu ətəyimə.

Sevda ocağında, sevgi elində,
Sənin qəmlərindən saray yapmışam,
Özün xəyallarda, adın dilimdə
Səni bu dünyada belə tapmışam.

30.07.2001

MƏN NECƏ HƏSRƏTƏM

Suyun sevdasında olan balıqtək
Bir damcı sevgiyçin alışır sinə.
Asılıb köksümdən qəm yarılıqtək
Mən necə həsrətəm, həsrətəm sənə.

Açıram qapını üzünə hər gün,
Kədərin könlümdə qurub toy-düyün,
Zalım fələk vurub bəxtimə düyün,
Mən necə həsrətəm, həsrətəm sənə.

Bir damcıya aşiq səhra çiçəyi,
Məftun edə bilmir evdə dibçəyi,
Acından acıymış duymaq gerçəyi,
Mən necə həsrətəm, həsrətəm sənə.
Allaha, Tanrıya iman edirəm,
Bu dəli sevdaya peyman edirəm,
Əksini könlümə mehman edirəm,
Mən necə həsrətəm, həsrətəm sənə.

Ağlımın könlümə üsyanı bitmir,
Yanan ürəyimin büryanı bitmir,
Bağrımın fəryadı tək sənə yetmir,
Mən necə həsrətəm, həsrətəm sənə.

Gəzdirmək zülümmüş acı möhnəti
Hicranın necə də uzun möhləti
Unutmaq çətinmiş bu məhəbbəti,
Mən necə həsrətəm, həsrətəm sənə.

30.07.2001

HİCRAN OCAĞI

Yoxluğun içimə axan göz yaşı,
Qurtarmaz könlümün yelləri onu,
Ağlayır qəlbimin qüssədən başı,
Ovutmaz ömrümün illəri onu.

Ürəyim hönkürər səsi boğular,

Ağlayar altında qalan iz təki.
Könül dəryasında dalğa doğular,
Fırtınaya düşmüş bir dəniz təki.

Öz külüm közümü basar içimdə,
Atəşim kül altdan püskürüb qalxar,
Hicran ürəyimi asar içimdə
Sonradan çəkilib kənardan baxar.

Əlim üzüləndə səhərlərimdən,
Gecə yuxularda gəzərəm səni.
Boğazdan asılan qəhərlərimdən
Batar qəm selində könül yelkəni.

Ürəyim doludu ah-vaylar ilə,
Damla sevincimi qəm boğur mənim.
Sənsiz dil tapmayır qəlb aylar ilə,
Dünyanın özündən böyükdür çənim.
Sənin ovsununa düşəndən bəri,
Qəlbimin ki hökmü ağlımdan böyük.
Həsrətin sınağa çəkir illəri,
Taleyin çiynində ayrılığın yük.

Könlün yollarından həsrət yelləri,
Neyləyim, izini sovurur indi.
Gəl gör Şadimanı qəmin əlləri
Hicran ocağında qovurur indi.

5-6.03.2000

QOYMA BU SEVDAMIZ...

Uçar bədənimdən bu ruhum, bu can,
Sən gələn yollarda əsər bir mehtək.
Ormana, çəmənə, düzə sarılan
Ayağın altını öpər o şehtək.

Gözümdən çəkilər Tanrı yuxusu,
Gələn anlarını izləyər könül.
Üzər ürəyini hicran qorxusu,
Tək səni, tək səni gözləyər könül.

Qəlbim səcdə edər məhəbbətinə
Alışar şam təki, yanar şam təki.
Mən dözə bilmirəm bu xiffətinə
Şişər bağrımda dərdin dam təki.

Mənim qul olmayan bu ürəyimi,
Niyə o qəlbinə etmisən kölə?
Uçurtma, qaçırtma eşq mələyini
Qoyma ki, sevdamız əbədi ölə!

27.08.2001

AŞİQİ VAR

Çiçəkdən çiçəyə qonma arıtək,
Hər gülün çiçəyin öz məşuqu var,

Bil ki, fəsillərin xoş baharıtək
Hər sevən ürəyin öz aşiqi var.
Məhəbbət yandırır, yaxar qəlb için,
Getməz könüllərdən atəşi neçin?
Tərtəmiz, gül təki sevdalar üçün
Duyan könüllərin gur işığı var.

Bülbül həvəs edər gül budaqlara
Şeh düşər eşqidən bal dodaqlara.
O atəş odunu sal dodaqlara
Baxıb demə hələ yaraşığı var.

Nə var ki, gətirmək ürəyə çəni?
Qoyma ki, qəlbimin üzülsün dəni,
Gəl salım könlümün içinə səni,
Axı onun oddan qarışığı var.

Demə ki, səadət gözümdən itib,
Səndən savay hamı sevdaya yetib,
Demə ki, o eşqin qəlbdə tək bitib
Onun ürəyimtək sarmaşığı var.

21.12.1999

ŞAH OLUB SAZAQ

Mən sənin oduna yandığım təki,
Sən mənim oduma yanmadın heç vaxt.

Oldu məhəbbətim başıma sərki,
Eyləyə bilmədim könlümü xoşbaxt.

Tapmadım bir yuva hicrandan qeyri,
Yandırdı bağrımı onun havası.
Gözümdən itmədi sevginin seyri,
Kəsildi ürəyim eşqimə ası.

Mən sənin oduna yanıram hələ,
Sənin ki, ürəyin bu oddan uzaq.
Gəlməz bu könlümün atəşi ələ,
Sönən ocağıma şah olub sazaq.

3.04.2000
Pirallahı

BİZ Kİ, ÇOX SEVİRİK

Biz ki, çox sevirik biri-birini,
Vermərik hicrana ürək sirrini.

Canımız, qanımız bu eşqə bağlı,
Bu eşq bəxtimizin ömür nağılı,
Qalsın həsrətlərin qapısı bağlı,
Biz ki, çox sevirik biri-birini,
Vermərik hicrana ürək sirrini.

Sevgi alışdırır hey qanımızı,

Odlara qalayar bu canımızı,
Sevincə bələyər hər anımızı
Biz ki, çox sevirik biri-birini,
Vermərik hicrana ürək sirrini.

Səadət yaranıb həyatımızdan,
Fələk salmaz bizi eşq atımızdan,
Dünya cilalanar büsatımızdan,
Biz ki, çox sevirik biri-birini,
Vermərik hicrana ürək sirrini.

Harda təmizlik var, orada eşq var,
Həqiqi məhəbbət saf ürəyə yar,
Tanrının özü də paklığa uyar,
Biz ki, çox sevirik biri-birini,
Vermərik hicrana ürək sirrini.

Şadiman, eşqidə safsa niyyətin,
Demə ki, həqiqi sevgilər çətin,
Ömrü uzun olsun bu səadətin
Biz ki, çox sevirik biri-birini,
Vermərik hicrana ürək sirrini.

6.10.1999
Pirallahı

BİRLİKDƏ D”YAQ

Məlhəm et sinəmin yarasına sən,
Ən zərif duyğular sevgiyə dönsün.
Girim ürəyinin arasına mən
Qoy daha qəlbimiz birgə döyünsün.

Çiçəyin çarəsi bahardı, yazdı,
Onu qışın qarı dondurar axı?
Nə olsun sazağın üzü bəyazdı,
Donduran tufandı onun bədxaxı.

Mənim ürəyimə sən bahar gətir,
Məst olum ətrindən bülbüllər sayaq.
Könlümün mülkünü bürüsün ətir,
Qoy bu rayihəni birlikdə duyaq.

6.12.1999

YENƏ SƏNİN OLARAM

Yenə o gün gələydi
O vüsal aləmindən
Gözlərimiz güləydi.
Qopub hicran dəmindən
Gizlicə görüşəydik,
O illərə düşəydik.
Vüsal anı gələndə
Üzümüzə güləndə

Sanaydıq bəxtiyarıq
Necə sevgili yarıq.
Hey tutaydıq əl-ələ
Nəğmə qataydıq dilə,
Yellərlə öcəşəydik,
Sevinclə güləşəydik,
Çıxıb çölə, çəmənə,
Can deyib yasəmənə,
Çiçəkləri qucaydıq.
Qanadlanıb uçaydıq,
Qəfil qarşılaşanda,
Ürək coşub-daşanda,
Gözümüz ocaq çatıb,
Bizi odlara atıb,
Yandıraydı atəşə,
Bənzəyəydi günəşə,
Biz də odlar içində
Hicranları biçində.
Vüsal dəryaya bənzər,
Könül qayıq, eşq Xəzər.
Üzüb ləpələr üstə,
Nəğmə deyib ahəstə.
Gur suları yaraydıq,
Qəmin boynun vuraydıq.
Yenə o gün gələydi,
Ayrılıqlar öləydi,
Odlu baxışlarınla,
Qəlbə naxışlarınla
Yolum üstə duraydın,

Qəmin boynun vuraydın.
O gün gəlsə, əzizim,
Yenidən sevda bizim.
Yepyeni sevgilərlə
O sevdalı illərlə
Ürəyimə girərəm,
Qəmin qolun gərərəm,
Qol boynuna dolaram
Yenə sənin olaram!...

15.07.1999

GECƏ-GÜNDÜZÜK

Yenə də atəşin qəlbə köz basır,
Yandırır içimin diləklərini.
Hicranın bağrımı dirəkdən asır,
Ağladır göylərin mələklərini.

Dilimə dağ basır ayrılıq sözü,
Həsrətin könlümdən ayrılmır ki, heç.
Mənimtək od ilə bacarsan düzü
Gən yanan qəlbimin atəşindən keç.

Sənə acıq vermək üçün elə bil,
Mən dardan asmışam gecələrimi,
Bacara bilirsən göz yaşımdan sil,
İslanıb su olmuş küçələrimi!...

Doyub xəyalların bu ürəyimdən,
Uçur səmaların qoynuna yeltək,
Məni ayrı salıb qəm diləyimdən
Könlüm də qalıbdı mənim kimi tək.

Büküb hicranına ümidlərimi
Mən ki, ovutmaqçın layla çalıram.
Kədərə bürünmüş bu illərimi,
Dərin bir quyuya, sanki salıram!

Hicran başımızın üstünü alıb,
Dayanıb durmuşuq yenə üz-üzə.
Ürəkdə həsrətə heykəl ucalıb
Onu tikən kədər tərs baxır bizə.

Qoyub bir-birini acı fəqanda,
Şeytanın dilinə uyan da bizik.
Ürək haraylayır səni hər yanda
Tanrının hökmüylə gecə-gündüzük.

11.01.2000

SƏNİNÇİN

Eşqə yanan ürəyimi gəl oxşa,
Kül altında közüm qalıb səninçin.
Bənd olma heç bir ötəri baxışa,
Yollarında gözüm qalıb səninçin.

Sinəm yanır nə müddətdi oduna

İnsafa gəl bir yet onun dadına,
Ürəyimdə varaq-varaq adına
Yazılmamış sözüm qalıb sənincin.

Bu Şadiman eşqinlə şad dünyada,
Ömründən vermə saat, gün bada
Qoymaram ki, üstü alsın dərd, qada
Bu könlümdə dözüm qalıb sənincin.

31.03.2001

GƏL BİZİM TƏRƏFƏ

Şahanə məhəbbətə
Sevgilim, xoş ərəfə.
Düşüb gözəl niyyətə
Dur gəl bizim tərəfə.

Kolundan çiçək üzüm,
Yoluna bir-bir düzüm
Haylı gecə-gündüzüm,
Dur gəl bizim tərəfə.

Ömür zamandan qısa,
Qoyma onu qəm asa,
Hicranı basa-basa
Dur gəl bizim tərəfə.

Haraylar ayım, ilim,
İtər qəm ilim-ilim,

Səni səsləyir dilim
Dur gəl bizim tərəfə.

Sənə bənzər tay hanı?
Dolansan da hər yanı,
Candan ayırma canı
Belə qaraltma qanı
Dur gəl bizim tərəfə.

17.03.2001

İSTƏRƏM

Elə gözlərinin dəryalarında
Bir tənha qayıqtək itmək istərəm.
Ruhumla, canımla qopub sinəmdən
Sənin ürəyində bitmək istərəm.

Çıxarıb qəlbimdən ağrı-acını,
Arayıb, axtarıb eşq əlacını,
Qoyaraq başına sevda tacını
O könül zirvənə yetmək istərəm.
Ürəyim düşməyib heç dərdə belə,
Qurut göz yaşımı dönməsin selə,
Tutaram sənինlə vallah əl-ələ
Bu fani dünyadan getmək istərəm.

Vüsal olan yerdə ayrılıq nədi?
Olarmı bağırın hicran məbədi?

Bu könül evimə inan əbədi
Mən, sultan eşqini etmək istərəm.

Könlün ağlamasın bu xiffətimlə
Oxşa sevdamızı pak ülfətinlə
İlahi, şahanə məhəbbətinlə
Bütün sevgiləri ötmək istərəm.

Yandırıb atəşi eyləmə kültək
Bitirəm yolunda bir zərif gültək,
Çiçəyin nazını çəkən bülbültək
O könül bağında ötmək istərəm.

27.08.2001

NƏ LAZIM?

Salmısan könlümü dərmansız dərdə,
Daha oğrun-oğrun baxış nə lazım?
Gözümdə sel təki yaş olan yerdə
Buluddan tökülən yağış nə lazım?

Söylə, sevgi oldu bunun harası?
İtdi yollarında gözün qarası,
Vurmusan qəlbimə sevda yarası.
Xalıtək min yerdən naxış nə lazım?

Onsuz da üşüyür ürək, könül, can,
Donub damarlarda dövran edən qan,
Mənimtək çovğunda borandadı an,

Daha təbiətə bu qış nə lazım?

Dünyanın özü də haraya dönə,
Onsuz da harayım yetməyir sənə.
Ürək olan yerdə başa sal mənə,
Sinənin içində o daş nə lazım?
27.08.2001

NƏ HALƏT?

Sevgilim, incitmə şəkər dilini,
Baxış olan yerdə sözə nə halət?
Könlümün atəşi tutsun əlini,
Ürək olan yerdə gözə nə halət?

Onsuz da dünya fani dünyadı,
Gah zəhər andırır, gah da bal dadı,
Gedənə, gələnə bəllidi adı,
Sinəyə od qoyan izə nə halət?

Mən ki, hey yanıram başdan, binadan,
Ürəyim deyilmi o könül adan?
Ruhumdan, canımdan ey eşqi dadan,
Qəlbə atəş tökən közə nə halət?

Sevənlər sığınar, yalnız ismətə,
Köklənib dünyada hər şey nisbətə
Əzəldən ömrümüz bağlı qismətə
Daha dönük çıxan üzə nə halət?

Fələk soldurmasın eşq gülümüzü,
Heç vaxt susdurmasın bülbülümüzü,
Əgər ağladırsa bu könlümüzü...
Sevgiyə nə halət, bizə nə halət?!

27.08.2001

ÜMİD VER MƏNƏ

İynə ucu boyda ümid ver mənə,
Bu ümid ovutsun qoy ürəyimi.
Sənsiz işgəncədir bu göy, yer mənə,
Uçurtma sinəmdən eşq dirəyimi.

İynə ucu boyda ümidin özü,
Qaranlıq gözlərə işıqdır axı?
Sənsən kainatım, dilimin sözü
Sənə bu ürəyin aşiqdir axı?

Səndən doymaq olmur xəyallarda da,
Gözümün önündən gedən deyilsən.
Həsrət kabusu var vüsallarda da,
Əgər ayrılığa sarı əyilsən.

Dağıtma könlümün xanəmanını,
Hicranın boyunu göstərmə mənə.
Uçurd bu qəlbimin ah-amanını,
Hər qəmli göz yaşı bir zümrüd dənə.

İynə ucu boyda ümidin olum,
Gəl keçird könlünün tale sapından.
Düşübdü bəxtinə bu həyat yolum
Qovlama sevdanı belə qapından.
11.07.2001

HƏMİŞƏ

Sən bir dəniz oldun, mən isə bir sel,
Hey sənin qoynuna axdım həmişə.
Eşqilər içində eşqin zərif tel,
Könlümün uduna taxdım həmişə.

Gözümdən o yana gedəndə yandım,
Sənsiz hicr oduna daim boyandım,
Sən oldun, sevgilim, dilimdə andım,
Səni itirməkdən qorxdum həmişə.

Dolandı hey ruhum hər an qoluna,
Bir pərvanə təki döndüm quluna,
Dilimdən dualar qondu yoluna...
Sənə səcdəgahım baxdım həmişə.

Əlçatmaz səmaya döndün elə bil,
Sənə qovuşmaqçın haray çəkdi dil,
Artdı ürəyimdə eşqin ilbəil,
Könlümü yandırıb, yaxdın həmişə.

Dəyəri sonsuzdur sənlə anın da,
Meh olmaq istədim sənin yanında.
Bir şimşəyə döndüm asimanında
Sənin göylərində çaxdın həmişə.

Eşq varsa hicranın nədir mərəzi?
Sevgi bir incidir, ürək tərəzi,
Sənin varlığının yoxdur əvəzi,
Odur ki, yoluna çıxdım həmişə.

6.07.2000

SƏNDƏN AYRI DÜŞƏNDƏ

Gözdə yaşım dolanar
Qəlblə qəm görüşəndə.
Dolandıqca bulanar
Səndən ayrı düşəndə.

Ümidlər ansız qalar,
Ürəyim cansız qalar,
Könlüm ünvansız qalar
Səndən ayrı düşəndə.

Dil ağzımda quruyar,
Sözümü qəm darayar,
Gözüm səni arayar
Səndən ayrı düşəndə.

Yanıram hey şam təki,
Bir qərib axşam təki,
Dərdin şişər dam təki
Səndən ayrı düşəndə.

Qəlbimin ehtiyacı
Eşqin könlümün tacı,
Sənsiz zama
n, gün acı,
Səndən ayrı düşəndə.

Şadimandan gəzmə gen,
həyat şirin, dünya gen,
Hicran göylərindən en
Səndən ayrı düşəndə.
3.03.2001

VƏFASI YOXDUR

Deyirlər məhəbbət qəlblərə məlhəm,
Vüsalı zərrədir, cəfası çoxdur.
Dedin can verərəm bu eşqlə bahəm,
Neylim ürəyinin vəfası yoxdur.

Çağlaram çeşmətək bu eşqinlə mən,
Duyğular könlümü oxşar meh təki.

Xəyalın kirpiyə qonan çiskin, çən,
İsladır yanağı məhzun şeh təki.

Xatirən qapımdan girər soraqsız
Ayrılmaz könlümün xəyal bağından.
Gəzər qəlb telində hicran daraqsız
Mən qopa bilmərəm həsrət çağından.

Düşərəm minnətçi hey ayrılığa
Gəlib ürəyimi daha tapmasın.
Girməsin könlümlə bir də qılığa
Sinəmin içində atın çapmasın.

Sən mənim etdiyim minnətə baxma,
Eşitməz ayrılıq yalvarışımı.
Onunçun vücudum bir kiçik daxma
Yerdə qoymayacaq bircə daşımı.

Gəl qopar könlümdən məhəbbətini,
Mən əsir olmayım bu niskillərə.
Sənin o xəyali səadətini
Zaman qurban verib ötən illərə.

Deyirlər məhəbbət qəlblərə məlhəm,
Vüsalı zərrədir, cəfası çoxdur,
Dedim can verərəm bu eşqlə bahəm,
Neyləyim könlünün vəfası yoxdur.

13.12.1999

SƏNİ GÖZLƏDİM

Qaldı gözlərində yorğun gözlərim,
Bunu yaxınımdan, yaddan gizlədim,
Həsrət tufanında dondu izlərim,
Səni ürəyimdə hey əzizlədim,
Gecə də, gündüz də səni gözlədim.

Qarsıtdı sinəmi hicran təması,
Kəsildim ömrümə, günümə ası,
Bilməm necə oldun könlün qəvvası?
Səni ürəyimdə hey əzizlədim,
Gecə də, gündüz də səni gözlədim.

Duyğumu eşqinə köklədim hər vaxt,
Gözündən qanlı yaş axıtdı bu baxt,
Xatirən könlümdə qurdu tacı-taxt,
Səni ürəyimdə hey əzizlədim,
Gecə də, gündüz də səni gözlədim.

Gözümün önündə bitdi xəyalın,
Gecələr dadıma yetdi xəyalın,
Mənimlə hər yerə getdi xəyalın,
Səni ürəyimdə hey əzizlədim,
Gecə də, gündüz də səni gözlədim.

Tanrıdan gəlmişmi söylə, bu eşqin?

Bitdi can içində öylə bu eşqin,
Mənə zülüm etdi böylə bu eşqin,
Səni ürəyimdə hey əzizlədim,
Gecə də, gündüz də səni gözlədim.

Bir qətrə insafa nə olmuşdu bəs?
Yandım od içində çəkmədin nəfəs,
Könlünü özümə eylədin qəfəs,
Səni ürəyimdə hey əzizlədim,
Gecə də, gündüz də səni gözlədim.

Bitib tükənmədi bu müsibətim
Həsrət çəkmək oldu elə adətim,
Əlində oyuncaq bu səadətim,
Səni ürəyimdə hey əzizlədim,
Gecə də, gündüz də səni gözlədim.

Sən bir bəxtinə bax bu Şadimanın
Gündə neçə dəfə alırsan canın,
Süzdün qədəhinə tökülən qanın,
Səni ürəyimdə hey əzizlədim,
Gecə də, gündüz də səni gözlədim.
29.08.1999

MƏNLƏ DANIŞMIR Kİ...

Yenə kirpiyimdən yaş asılıbdı,

Vüsal bağçasından uçub bülbülüm.
Elə bil dilindən daş asılıbdı,
Mənlə danışmır ki, dınışmır gülüm.

Ötür dəqiqələr sükutla yenə,
Alışır qüssədən məlaldan sinə.
Allah, zülümkarım qəsd edir mənə,
Mənlə danışmır ki, dınışmır gülüm.

Dindirsəm dillə yox, başla hə deyir,
Ya gözlə, yada ki, qaşla hə deyir,
Dillə danışmır ki, görüm nə deyir,
Mənlə danışmır ki, dınışmır gülüm.

Könlün Şadimana açan olaydı,
Diliylə od, atəş saçan olaydı,
Kaş bağlı dilini açan olaydı,
Mənlə danışmır ki, dınışmır gülüm.

30.04.1999

SAĞALAN DEYİL

Açdın ürəyimdə hicran yarası,
Yalnız xəyallara salmışam meyil.
Bunun sevgi oldu söylə harası?
Bu yara ürəkdən sağalan deyil.

Saraldı xəzantək gumanlarım da,
Fəqana büründü zamanlarım da,
Bitdi acılarım, amanlarım da
Bu yara ürəkdən sağalan deyil.

Hicran məhəbbətin dağını aşdı,
Könlümün içində hər gün dolaşdı,
Xatirən gözümdə nə acı yaşdı?
Bu yara ürəkdən sağalan deyil.

Xəyalın sarmaşıq koluna bənzər,
Könül çiçəyinin bağrını üzər,
Qəlbimin içinə eylə bir nəzər
Bu yara ürəkdən sağalan deyil.

Şadiman qəm çəkir könlüylə bahəm,
Üandı atəşində bu könül sahəm,
Eyləsə təbiblər nə qədər məlhəm,
Bu yara ürəkdən sağalan deyil.

30.08.1999

DİLBİLMƏZ

Qalmışam naləm ilə,
Könül dolu qəm ilə,
Gözlərim yaş, nəm ilə,
Heç onu silməz oldun,

Əcəb dilbilməz oldun.

Dərdin sinəmdə ahdı,
Zülüm etmək günahdı,
Gecə ötüb sabahdı,
Niyə sən gəlməz oldun.
Əcəb dilbilməz oldun.

Ayrılıqda qəlb yandı,
Könül qəmə boyandı,
Yolunda kim dayandı?
Dərdimi bilməz oldun,
Əcəb dilbilməz oldun.

Seltək hər yerə axdın,
Məni yandırıb-yaxdın,
Qəlbə kimi buraxdın?
Üzümə gülməz oldun,
Əcəb dilbilməz oldun.

12.01.2000

GƏLMƏYƏSƏN GÖZƏ YAR

Ay Allahın bəlası,
Nə oldun qəlbdən ası?
Qurub hicrana yası
Gəl könlümü bəzə yar.

Gəlməyəsən gözə yar.

Ürəyim lalətək qan,
Salma gəl araya qan,
Can deyənə denən can,
Baxma hər yad sözə yar.
Gəlməyəsən gözə yar.

Çiçəktək ətirin var,
Yanımda xətirin var,
Güllərdən çətirin var,
Nə bəzəkdi üzə yar,
Gəlməyəsən gözə yar.

Canına canan mənəm,
Sənə ki, yanan mənəm,
Alışıb yanan mənəm,
Bax atəşə, közə yar,
Gəlməyəsən gözə yar.

Durnatək uçur zaman,
Ömür də ötür yaman,
İnciyib küsən zaman,
Vurma bunu üzə yar,
Gəlməyəsən gözə yar.

Rəbb qorusun ülfəti,
Könüldə saf niyyəti,
Allah bu səadəti...

Çox görməsin bizə yar!
Gəlməyəsən gözə yar.

10.01.2000

KƏDƏRİ DAN EYLƏMƏ

Çox demişəm yar sənə,
Könlümü qan eyləmə.
Batırıb qəlbi çənə
Ağrılı can eyləmə.

Sevgin göyün günəşi,
Artıq sevinci, nəş`i,
Töküb qəlbə atəşi
İçin büryan eyləmə.

Ayrılığın divan ki,
Könlüm ona ünvan ki,
Yananda elə yan ki,
Onu e`lan eyləmə.

Səadət başın tacı,
Sevgilərdir əlacı,
Nə et günümü acı,
Nə də bəyan eyləmə.

Qoyma dikəlsin ahı,

Alsın həsrət sabahı,
Hicranın könül şahı
Vüsalı an eyləmə.

İtmə qəm dumanında,
Qal könlümün yanında,
Sevgi asimanında
Kədəri dan eyləmə.

11.01.2000

NEYLƏSİN?

Dağ buluddan aralı,
Sisi, çəni neyləsin?
Min bir yerdən yaralı
Bu can təni neyləsin?

Könül gözü dolanda,
Küləyi saç yolanda,
Qəlb zəmisi solanda
Sünbül dəni neyləsin?

Gözümü yaş yuvanda,
Yuxuları qovanda,
Hicran könlü ovanda
Ürək məni neyləsin?

Baxt dediyin yatanda,

Ömrə qəmi qatanda,
Şadiman de bu anda
Söylə, səni neyləsin?

8.11.1999
Gəmidə

AY ÖMRÜMÜN MƏ`NASI

Sənsiz nədir bu həyat?
Ollam canımdan ası.
Gəl könlümə sevinc qat
Ay ömrümün mə`nası.

Dilimdən düşməz adın,
Mənəm sənin muradın,
Göstərmə hicran dadın
Ay ömrümün mə`nası.

Ayrılıqlara nə var?
Vüsalın burnun ovar,
Ürəyi satar, sovar
Ay ömrümün mə`nası.
Dövr edən qanım sənin,
Dəqiqəm, anım sənin,
Ən şirin canım sənin
Ay ömrümün mə`nası.

Gəl könlümü bir ara,

Dərdin salıbdı yara,
Bir həyatdı yar yara
Ay ömrümün mə`nası.

Sənsiz gözüm nəm olar,
Səadətim kəm olar,
Gəlişin aləm olar
Ay ömrümün mə`nası.

12.12.1999

ÖMRÜMƏ BƏZƏK YARIM

Hicranı üzək, yarım,
Ömrümə bəzək yarım,
Sənin eşqin dənizdi,
Könlüm ona kənizdi,
Ayrılıq əzabından
Saralan bu bənizdi.
Qəmləri əzək yarım.
Ömrümə bəzək yarım.

Sevgin həyat dirəyi,
Könül onun gərəyi,
Vallah bir himə bənddi
Dindirmə gəl ürəyi.
Bəxtə gül düzək yarım.
Ömrümə bəzək yarım.

Ömrü yelə sovurdum,
Öz bəxtimə tor qurdum,
Hicranın ocağında
Ürəyimi qovurdum.
Hicranı üzək yarım.
Ömrümə bəzək yarım.

11.09.1999

NUR VER

Canımın canı yarım,
Eşqə ünvanı yarım,
Könlümü düstaq edib
Etmə divanı yarım.

Qəlbimin gözü sənsən,
Ocaqda közü sənsən.

Sən yanımdan ötəndə,
Canım qalmadı təndə,
Elin gözü məndədi,
Mənim də gözüm səndə.

Talelə gərdişim yox,
Ürəyimlə işim yox.

Gəl baharın solmasın,
Gülüm sənsiz olmasın.
Nəşəmi bal eylə ki,

Ömür qəmə qalmasın.

Səndən ayrı anım yox,
Sənsiz təndə canım yox.

Bu sevgin qalan olsun,
Ayrılıq talan olsun,
Elə bəzə ömrümü
Gülüstan yalan olsun.

Bu eşq gəlməsin gözə,
Nur ver gecə, gündüzə.

13.07.2001

SƏNİ ELƏ SEVİRƏM Kİ...

Ürəyində məhəbbətim,
Mənim, sənin səadətin,
Sellər təki aşıb, daşır,
Duyğularla pıçıldaşır,
Eşqin doğur dürlü dəm ki,
Səni elə sevirəm ki...

Hicranına könlüm yatmaz,
Qəlb ölsə də səni atmaz,
Qurtar məni işgəncədən,
Qurtulsun bu can gecədən,
Gözdə çeşmə olub dəm ki,
Səni elə sevirəm ki...

Ümidinə saray yapdım,
Bu dünyada səni tapdım,
Qiymətin bil uca adın,
Qoyma olsun eşqin yadın,
Qəlbi üzən hicran qəm ki,
Səni elə sevirəm ki...

Qəlbdən çıxmaz bu atəşin,
Mən ki, sənin al Günəşin,
Göz su içməz heç hicrandan,
Ayrılmasın bədən candan,
Zaman uzun ömür kəm ki,
Səni elə sevirəm ki...

Can dildarım, atma məni,
Yadlara tay tutma məni,
Sənə bağlı bu ülfətim,
Ölənədək sədaqətim.
Hicran içdə acı təm ki,
Səni elə sevirəm ki...

Şadimandan üz döndərmə,
Qəlbə kədər, qəm əndərmə,
Sənsiz ürək, bağır xəstə,
Könül nəğməm nə ahəstə?
Niyə olsun zilim bəm ki?
Səni elə sevirəm ki...

13.07.2001

DƏRDİMDƏN HEÇ ÖLƏRSƏNMİ?

Bir deyəcək sözüm vardı,
Bu sözümə gülərsənmi?
Ürəyimdə eşq qubardı,
Qubarımı bölərsənmi?

Həsrətindən gözüm gülməz,
Hər könülə qəm tökülməz,
Qaranlıqlar heç çökülməz,
Fəqanımı bilərsənmi?

Hər sinədə sevda bitməz,
Könlə girsə heç vaxt itməz,
Həqiqi eşq sona yetməz,
Qəlbə düşsə silərsənmi?

Könül ocağı tutaşdı,
Ürək laldı, yoxsa daşdı?
Hicran gözdən axan yaşdı,
Onu mənə dilərsənmi?

Sanma ki, bu eşq oyunu,
Qurma qəlbdə qəlb toyunu,
Bir ovuc ümid suyunu
Ürəyimə çilərsənmi?

Qorxuram göz yağışından,
Həsrətin qəm naxışından,
Məhəbbətin baxışından
Bu sinəmə ələrsənmi?

Şadimanı al qadadan,
Sevgi tapdı kim ədadan?
Məcnun olub bu sevdadan
Dərdimdən heç ölərsənmi?

3.07.2001

SƏN İLAHİ QİSMƏTİM

Sənə tilsim etmədim,
Dualara getmədim,
Yollarında bitmədim,
Sən şərəfim, ismətim,
Sən ilahi qismətim.

Səndən eşqim dönməz ki,
Məhəbbətim sönməz ki,
Vüqarından enməz ki,

Sən şərəfim, ismətim,
Sən ilahi qismətim.

Göylərimin ulduzu,
Bəxtimin dadı, duzu,
Bu eşqim mələr quzu,
Sən şərəfim, ismətim,
Sən ilahi qismətim.

Fələkdən alın yazım,
Könül duyğum, avazım,
Həsrət sinə ayazım,
Sən şərəfim, ismətim,
Sən ilahi qismətim.

Eşqə canım demişəm,
Qəlb ünvanım demişəm,
Qoyma yanım demişəm,
Sən şərəfim, ismətim,
Sən ilahi qismətim.

6.08.2001
Pirallahı

SOLMAZ BELƏ

Yar belə, olmaz belə,
Sevənlər solmaz belə.

Mən canına can dedim,

Mənim təki yan dedim,
Həsrətə üsyan dedim,
Qəlbə qəm dolmaz belə,
Sevənlər solmaz belə.
Qəm verər işgəncələr,
Könlüm, qəlbim incələr,
Yanar şamtək gecələr,
Mehrini salmaz belə,
Yar belə, olmaz belə.

Bu Şadiman alışar,
Yanıb oda qarışar,
Tale ilə barışar,
Sevdalı olmaz belə,
Sevənlər solmaz belə.

6.09.2001
Pirallahı

GİZLİCƏ

Yenə baxışında parlayır atəş,
Bu atəş könlümü yaxır gizlicə.
Ürəyin üşüyən bağrıma Günəş,
Gözlərin gözümdə çaxır gizlicə.

Ömrünün günləri düşməsin çənə,
Əlinlə dünyanı vermisən mənə,
Sevgilim, bir müjdə qoy deyim sənə,
Könlümdən sevdamız axır gizlicə.

Rəbb gözdə qoymasın muradımızı,
içdə batırmasın fəryadımızı,
Eşitsin İlahi imdadımızı,
Olmasın sevdamız axır gizlicə.

Səni baxışıma büküm saxlayım,
Vüsalla hicranın bağrın oxlayım,
Söylə, ürəyini necə yoxlayım?
Gözlərim
yoluna baxır gizlicə.

6.08.2001
Pirallahı

AĞLAMA, SEVDALIM

Canım, nakam etmə bu sevgimizi,
Sənə gözbəbəyim demişəm elə.
Leysana, gurşada batırma gözü
Ağlama, sevdalım, ağlama belə.
Bu eşq başımızdan sovuşan deyil,
Könlümüz özgəyə yovuşan deyil,
Həqiqi məhəbbət qovuşan deyil,
Ağlama, sevdalım, ağlama belə.

Dünyanın nəş`əsi ələmi ovar,
Dağın da dağ dərdi, dağ ağrısı var.
İlahi hər qəmi könlündən qovar,
Ağlama, sevdalım, ağlama belə.

Zülmətdə ulduzlar sayrışarmı heç?
Odsuz ürəyə köz qarışarmı heç?
Könül ayrılıqla barışarmı heç?
Ağlama, sevdalım, ağlama belə.

Hicrana yumulmaz bəbəklərimiz,
Zirvələr çalacaq diləklərimiz,
Bir yerdə vuracaq ürəklərimiz,
Ağlama, sevdalım, ağlama belə.

6.08.2001
Pirallahı

AĞLADI FƏLƏKLƏR

Ağladı fələklər fəryadlarıma,
Ahımdan dünyanın beli büküldü,
Təkcə sən baxmadın imdadlarıma,
Gözümdən gurşadlar axdı töküldü.

Zamanın yolundan döndü, dayandı,
Üzüldü canımdan bir-bir ələmlər.
Bütün sevinclərim sinəmdə yandı,
Mənə kədər verdi sənsiz bu dəmlər.

Hicran əzabından üşüdü canım,
Yerlərə, Göylərə üsyan eylədim.
Sənə bağlı qaldı könül ünvanım,
Dərdimi divara, daşa söylədim.

Əridi şam təki günlərim bir-bir,
Ayımı, ilimi yaxdım ahlara.
Eşqinə əlinlə qazıdım qəbir,
Niyə səbəb oldun bu günahlara?
Xəyalın gözümün önündə bitdi,
Hara boylandımsa mən səni gördüm.
Bütün kainata harayım yetdi,
Bir an tükənmədi bu sevda dərdim.

Sənsə biganəlik etdin əzəldən,
Biganə sevginin ölümmüş sonu.
Bu eşq sarayımı ovdun təməldən,
Əynimdən çıxmadı ayrılıq donu.

Xəyalım at çapdı ötən illərə,
Hər şeyi yenidən başlamaq üçün.
Zaman ömrümüzü verdi yellərə,
Bir bunu anlayıb duymadın neçin?

Bu könül evimin sultanı olan,
Uca məhəbbətim ucadır mənə.
Sanma ki, həqiqi sevgilər yalan,
Onu qocaldaram vermərəm sənə.

5.08.2001
Pirallahı

DÖNƏN DEYİLƏM

Məni yıxsa ələmlər,
Ağlasa bu aləmlər,
Gözümü ovsa nəmlər,
Sanma qəmə əyiləm,
Səndən dönən deyiləm.

Hicranın durub gəlsə,
Könlümün gözün dəlsə,
Ahım ərşə yüksəlsə,
Sanma qəmə əyiləm,
Səndən dönən deyiləm.

Demə artar tələşım,
Açılmaz dərddən başım,
Eşit könül sirdaşım,
Sanma qəmə əyiləm,
Səndən dönən deyiləm.
Bu könlüm sənə müjdə,
Olmayasan pəjmürdə,
Eşq sarayım ömürdə,
Sanma qəmə əyiləm,
Səndən dönən deyiləm.

Sənsən dünya işığı,
Bəxtimin yaraşığı,
Sevdam qəlb sarmaşığı,
Sanma qəmə əyiləm,
Səndən dönən deyiləm.

6.08.2001

SƏNİN MƏHƏBBƏTİN

Sənin məhəbbətin,
İlahi ülfətin,
Ürəyimin oduna,
Atəşinə bükərəm,
Hicran zamanları,
Acısını çəkərəm.
Dadından doymaq çətin,
Nə şirin səadətin.
Sənin məhəbbətini
yuxuma köçürərəm.
Sevgi çeşmələrindən
Eşq suyu içirərəm.
Səni unutmaq çətin,
Nə şirinmiş məhəbbətin.

17.07.1999

YAŞAT BU ÖMRÜ

Səni çox sevirəm, ey ayqabaqlım,
Könlü duyğularla dolu tabaqlım.
Bəslə dilәkləri qəlbində bir-bir,
Sevda bir dənizdi, sevdaya nə sirr?
O mələk çöhrəni döndərmə məndən,
Könül gülüstanın qutar bu çəndən.

Açsın gülzarının güllər bağçası.
Tək mənə açılsın könül boğçası.
Sənsən səadətim, sənsən büsatım,
Tək sənə bağlıdır sevgi həyatım.
Sən yoxsan, dünyam da yoxdu mənimçin,
Sevda yollarına düz eşqi çin-çin.
Sənin ürəyinlə durur varlığım,
Bu ömrə, həyata vəfadarlığım.
Mən əsir olmuşam hər istəyinə,
Bağlanıb qalmışam hər diləyinə.
Səni çox sevirəm, ey ayqabaqlım,
Sənsiz dəlilərtək puç olar ağlım.
Sənsən şüuruma, hissimə qida,
Canımı istərsən, can sənə fəda.
Üzünü döndərib getmə uzağa,
Mən dözsəm, ürəyim dözməz bu dağa!
Sən ki, İlahidən mükafatımsan,
Özümsən, yarımsan, bu həyatımsan,
İlahi eşqinin qəsiriyəm mən,
O yanan könlünün əsiriyəm mən.
Versən bu eşqimi əgər ki, bada,
Həyata əlvida, ömrə əlvida.
Pozma ilahidən gələn o əmri,
Yaşat, ayqabaqlım, yaşat bu ömrü.

14.08.2001

SEVMİR

Könül sarayını açmır üzümə,
Bu necə fərmandı, bu necə əmir?
Həsrətdən bir pərdə çəkib gözümə,
Mən onu sevirəm, o məni sevmir.

Bu dəli sevdadan hekayət təki,
Allaha, Tanrıya şikayət təki,
Sultanına aşiq rəiyyət təki
Mən onu sevirəm, o məni sevmir.

Eşq qəlbə düşəndə sonu olmayır,
Həqiqi sevginin donu olmayır,
Bu lal məhəbbətim heç duyulmayır,
Mən onu sevirəm, o məni sevmir.
Olmuşam könlümün buyruq kənizi,
Boğur ürəyimi sevda dənizi,
Görənlər bəxtiyar sanırlar bizi...
Mən onu sevirəm, o məni sevmir.

Qırmayın qəlbləri, siz ey adamlar,
Gözdə qalmasın qoy heç zaman kamlar,
Tutub ürəyimi bu hicran damlar...
Mən onu sevirəm, o məni sevmir.

Gözlərim yorulub baxmaqdan yola,
Niyə ürəyimlə getməyir yola?
Niyə bu insafsız gəlməyir yola?
Mən onu sevirəm, o məni sevmir.

13.08.2001

MƏNİM MƏHƏBBƏTİM

Sənə çox yaraşır sevinc, təbəssüm,
Belə xəyallara dalma, əzizim.
Könlünə bağlıdır bu sevgi hissim,
Sənsən həyatımda sevda dənizim.

Qorxuram xəyalın dərinliyindən,
Xəyallar götürər aparar səni.
Doydurar könlünü şirinliyindən,
Alıb ürəyindən qoparar səni.

Gözlərin haraya dikilib qalıb,
Xəyallar qürbəti duymayan quşdu.
Sinəmdən eşqinə saray ucalıb,
Mənim məhəbbətim saraya tuşdu.

14.08.2001

NİYƏ İNANMIŞAM?

Bu fani dünyada qəm mənə qaldı,
Döndü ürəyimdə eşq şikayətə.
Acılı, kədərli dəm mənə qaldı,
Niyə inanmışam bu məhəbbətə?

İllərlə ömrümü veribdi bada,

Salıbdı könlümü atəşə, oda,
Dəryalar içində əlçatmaz ada,
Niyə inanmışam bu məhəbbətə?

Xiffətin çəkməkdən qalmadı canım,
Düşüb möhnətinə dərd çəkir anım,
Ayrılıq əbədi könül ünvanım,
Niyə inanmışam bu məhəbbətə?

Sevgi şad eyləyib söylə kimləri?
Dərdim cana yığıb hey həkimləri,
Qırıb ürəyimdən sevda simləri,
Niyə inanmışam bu məhəbbətə?

Gəzir mənim təki havalı könül,
Allaha, Tanrıya dualı könül,
Verir öz-özünə sualı könül: -
Niyə inanmışam bu məhəbbətə?

Fəraqım əridir göylərin əngin,
Çalır qulağımda kədərin zəngin,
Mənim ki, ürəyim, bağırım zəngin,
Niyə inanmışam bu məhəbbətə?

13.08.2001

SEVGİMİZ

Ürəkdə diləklər verər baş-başa,
Duyğunu duyğuya qatar sevgimiz.
Dönər sinəmizlə canlı sirdaşa,
Baş qoyub könüldə yatar sevgimiz.

Aləmə vüs`ətdi səadətimiz,
Həyadı, ismətdi səadətimiz,
Tanrıdan qismətdi səadətimiz,
Qismətin əlindən tutar sevgimiz.

Dünyanın nurudu ruha təpilər,
Sabahın şehitək cana səpilər,
Uşaqtək sevilər, elə öpülər,
Sinədən məlalı atar sevgimiz.

Hey oturub-durar qəlbə can deyər,
Könül ocağına elə yan deyər,
Qəmin yolun kəsər qana qan deyər,
Şadlığa, sevincə batar sevgimiz.

Fələyin başında qadalar ola,
Dünyada nə qədər sevdalar ola,
Hey nazlar, işvələr, ədalar ola
Yenə könlümüzü tutar sevgimiz.

Şadiman, Rəbb gülüb bu üzümüzə,
Məhəbbət Allahdan baratdı bizə,
İlahi, gəlməsin nəzərə, gözə,

Gələrsə vallahi batar sevgimiz.

13.08.2001

BU SEVGİ NƏ İMİŞ...

Qəl
bdə ümidlərim sönür şam təki,
Həsrətim uzanır açılmır sabah.
Qaralır bu dünyam bir axşam təki,
Bu sevgi nə imiş, nə imiş, Allah?

Vüsalım payızın üzütək sarı,
Ayrılıq zirvənin bəmbəyaz qarı,
Qurtarmır sinəmin könül ah-zarı,
Bu sevgi nə imiş, nə imiş, Allah?

Vüqarın göylərdən endirə bilməm,
Atəşin Günəştək söndürə bilməm,
Ürəyi yolundan döndərə bilməm,
Bu sevgi nə imiş, nə imiş, Allah?

Getmir qulağımdan eşqin bəstəsi,
Asılıb könlümdən qəm şikəstəsi,
Edibdi bağrımı sevda xəstəsi,
Bu sevgi nə imiş, nə imiş, Allah?

Söndürüb göylərdən bəxt ulduzumu,
Sinəm xatırladır mələr quzunu,

Şadiman ağlayır ömrü uzunu,
Bu sevgi nə imiş, nə imiş, Allah?
13.08.2001

SAXLAYACAĞAM

Xəyalın olacaq həsrətə bıçaq,
Hicran əzabından çıxacaq qoçaq,
Könlün sevgimizin eşqiylə ocaq,
Onun atəşiylə yuxlayacağam.
Səni ürəyimdə saxlayacağam.

Mən başa vuracam sənsiz illəri,
Bəmbəyaz edəcəm qara telləri,
Açaçaq könlümdə hicran gülləri
Onu vüsal bilib qoxlayacağam.
Səni ürəyimdə saxlayacağam.

Salıb ayrılığın evinə talan,
Elə zənn edəcəm bu həsrət yalan,
Uçacam maleykə qismində bir an,
Halını soracam, yoxlayacağam.
Səni ürəyimdə saxlayacağam.

Çəkib Şadimanı hər an sınağa,
Dözəcəm qəlb mənə edən qınağa,
Könlümün evinə dərd yağa-yağa...
Ayrılığın köksün oxlayacağam.

Səni ürəyimdə saxlayacağam.

17.01.1999

MƏNƏM

Sən məndən gizləmə baxışlarını,
Onu yandıran da, yaxan da mənəm.
Yağdırıb həsrətin yağışlarını
Sinəndə şimşəktək çaxan da mənəm.

Ərit ürəyini donduran buzu,
O tale qapında bəxt mələr quzu,
Sevgi göylərinin yanar ulduzu -
Hicrində saralıb axan da mənəm.

Çəkmə səbirimi sən imtahanə,
Birdəfə gəlmişik biz ki, cahanə,
Qəfil təsadüfü edib bahanə
Ay yazıq, üzünə baxan da mənəm.

Sən məndən gizləmə baxışlarını,
Ə
rit ayrılığın sərt qışlarını,
Axıdıb yolunda göz yaşlarını
Eşqin dəryasına axan da mənəm.

Qəfil atəş olub dollam canına,
Dönərəm damarda axan qanına,
Qor olub gecənin vüsal anına

Həsrətin evini yıxan da mənəm.

12.12.1998

Pirallahı

MƏNİ GÖZLƏRİMİN YAŞINDAN QORU

Dəmir barmağlığa salsa gözü nəm,
Çinartək köksündə boy atsa ələm,
Qəlbi cəfalarla üzsə bu aləm,
Sönməsin, sevgilim, sinənin qoru,
Məni gözlərimin yaşından qoru.

Dərd ürək içində həlqələnəndə,
Ağrıya, acıya qəlb bələnəndə,
Sözlərim dilimdə güllələnəndə
Bağrımda gedəndə qəm vurhavuru,
Məni gözlərimin yaşından qoru.

Zinətdə zənn etmə mükafatımı,
Sadəlikdə ara bu həyatımı,
Vara dəyişmərəm xoş saatımı,
Bədənə zindandır ürəyin koru,
Məni gözlərimin yaşından qoru.
Ayaqlar altına düşəndə mənlik,
Şərəfsiz bir həyat olur gülşənlik,
Dünyanın bir üzü bəşərə şənlik,
O üzü toxusa qəlbimə toru,

Məni gözlərimin yaşından qoru.

Ötəndə ürəyin boranlı qışı,
Sevgilim, zənn eylə tale naxışı,
Ərzi bürüyəndə bahar yağışı...
Çaylar çıxa bilməz sellərdən duru,
Məni gözlərimin yaşından qoru.

Sevgilim, bəxtimiz anlardan aslı,
Bir ucu sevincli, bir ucu yaslı,
Ağıl var ürəyin önündə paslı...
Bəşərin zamanla vaxt yorhayoru
Məni gözlərimin yaşından qoru.
Məni gözlərimin yaşından qoru.

7-8.12.1998

O GÜN

O gün
bir küçədə gəldik üz-üzə,
Ürəkdən xəbərsiz alışdı canlar.
Zaman xatırladı o eşqi bizə,
Lövbərsiz gəmiyə bənzədi anlar.

Donub ikimiz də qaldıq, o yerdə,
Nə dillər danışdı, nə qəlblər dindi.
Bir anlıq səcdəyə döndü o yer də,
Yuxulu xəyallar özü diksindi.

Sənin bəbəklərin şimşəyə döndü,
Alışdı bağrımın asimanında.
Elə bil könüllər eşqlə döyündü...
Qovruldu zamanın dar gumanında.

Ötən xatirələr baharda qartək,
Əridi anların yoxuşlarında.
Qaldı aralıqda o sevgimiz tək
Döndü bir xəyala baxışlarında.
Dəqiqə ötüşdü, sanki bir ilğım,
Budaqdan yarpaqtək ayrıldı yollar...
Bizim sevgimizin həsrəti lağım
Udar məhəbbəti, məzara yollar?

4.12.1999

ÇAĞIRSAN

Çağırsan, gələrəm görüş yerinə
O vüsal anların yaşatmaq üçün.
Səni əvvəlkitək sevərəm yenə
Eşqi sevdalara oxşatmaq üçün.

Çağırsan könlümü götürüb gəlləm,
Onu əzizləyib ovutmaq üçün.
Hicran nağılını bitirib gəlləm,
Həsrətin ocağın sovutmaq üçün.

Çağırsan tərlantək qanad açaram,

Yayın ilğımında, qışın qarında.
Günüm, dəqiqəm də tapmayır aram
Alışar sevginin duyğularında.

Çağırsan gələrəm görüş yerinə,
Geriyə səslərəm sənsiz günləri.
Mən vüsal deyərəm günün birinə
Açaram bəxtimdən bu düyünləri.

Baxışın könlünün yolunda qalıb
Onu ovutmağa bəsdir bircə an.
O görüş yeri də dərddən qocalıb...
Çağırsan nə qəm ki, çağırmayırsan.

5.12.1998

HEÇ QƏRAR TUTMAYIR

Sən mənim gecəmin töhfə işığı,
Bu işıq sabahın ağ göyərçini.
Eşqin qəlb bağımın bir sarmaşığı
Bürüyüb ürəyin, könlün içini.

Sənin işığınla zülmət boğular,
Ay, ulduz axşamın seyrinə gələr.
Gecənin bətnindən səhər doğular,
Gündüz eşqimizin mehrinə gələr.

Sən elə işıqsan bu işıqla mən,

Hey yarıb keçərəm qaranlıqları.
Bükülür göylərin ətəyinə çən,
Yox olur zülmətin viranlıqları.

Sən mənim gecəmin töhfə işığı,
Onu söndürməyə qıymasın fələk.
O gündən ki, olub könül aşiğı
Heç qərar tutmayır bir yerdə ürək.

14.12.1998
Pirallahı

ELƏ YANDIRIB Kİ...

Elə yandırıb ki, könlümün için,
Qəlbimdən sorulub getməz bu ağrı.
Günahım nədir ki, əzabın neçin -
Basar od içinə qovurar bağrı?

Sənə əsər etməz bir zərrə dərdim
Ahımdan fələyin gözü yaş olar.
Elə ürəyimi ayağa sərdin
Addımın altında dönüb daş olar.

Sənin xəyalına tutub üzümü
Aman diləyirəm mən bircə anlıq.
O da ovutmayır daha gözümü
Ondan da duymuram bir canyananlıq.

Dərdin ürəyimə çöküb dağ təki,
Gəzdirə bilmirəm onu sinəmdə.
Qəm qəlbin gözündən keçir yağ təki,
Kirpik əsir olub hələ də nəmdə.

Tutub boğazımdan dərd ikiəlli,
Boğur vücudumu bir cəllad kimi.
Qəlbdə duyğuların deyil ki, bəlli
Doğmalıq görmədi səndən yad kimi.

Mənim zülümümü anlayıb duyub,
Bir rəhmə gələydi o ürəiyn kaş.
Qəlbimin evini sahibsiz qoyub,
O qalib könlünü etməyəydin daş.

Elə yandırdın ki, könlümü elə,
Nə ki, zərrə odum, külüm qalmadı.
Könül sözlərimi sən verdin yelə
Alışan ağızda dilim qalmadı.

25.12.1999

SƏADƏT ARADIM

Səadət aradım, səadətim boş,
Səni yerdə, göydə gəzirəm indi.
Zülmət gecələrdə yuxular sərxoş,
Özüm öz könlümü üzürəm indi.

Nə sən heç insafa gələ bilmədin,

Nə mən ürəyimdən keçə bilmədim.
Bihudə sirrini bilə bilmədim,
Sevda bulağından içə bilmədim.

Səadət aradım, səadət hanı?
Sinəmdə əbədi məzara döndü.
Ayrılıq üşütdü bədəndə canı,
Hicranın bağçası gülzara döndü.

Hər yanda axtardı gözlərim səni,
Sənə oxşayanlar gəzdim küçədə.
Röyalar ovutdu gecələr məni
Bir yeni eşq tapdım bu bilməcədə.

Mənim xəyal sevgim doğuldu təndən,
Bükdüm arzulara, diləyə onu.
Sanki Rəbb qopartdı bü dərdi məndən,
Təzə dərd gətirdi bu dərdin sonu.

Anladım sənsizlik bir boşluq mənə,
Düşmüşəm çəkisiz yad səyyarəyə.
Hicranın əbədi naxoşluq mənə,
Nədən düşdü həsrət böylə arəyə?

Səadət aradım, səadət yazıq,
Başa ikiəlli döyür müddətdi.
Biz ki, kökdən düşmüş bir sınıq sazıq,
Bəlkə bunun özü bir səadətdi?!

12. 05.2001

QAYITMAYACAQ

Soyuq yatağıma girsə gecələr,
Ağlağan könlümü uyutmayacaq.
Öldürüb-dirildən bu bilməcələr
Fəqət, yanan köksü soyutmayacaq.

Əksin gözlərimə kəsilib yağı,
Bu dəli sevdada hər şey bayağı
İçimdən dünyaya dərd olan ağı
Bir sənin könlünü ayıltmayacaq.

Hər gün xəyalların döyər qapını,
Qurar ümidinin vüsal sapını,
Bu bəxtsiz taleyin tarpatapını
Səndə o ürək var bayıltmayacaq.

Məzarla dağ olmuş acı-ağrını,
Qəbul et şahanə bu sərt doğrunu.
Sevdayla alışan, yanan bağrını,
Pakanə sevgilər ovutmayacaq.

Düşsən o illərin oğrun izinə,
Min yol baş vursan da eşq dənizinə
Şadiman bəxtinə düşmüş xəzinə
Bir də o zamanlar qayıtmayacaq.

20.08.1995

QAYIT

Dolanıb gəzirəm neçə müddətdi
Sənin gözlərinin havasıyla mən.
Əydi bu məhəbbət qaməti, qəddi,
Bir şəfa bulmadım davasıyla mən.

Ürəkdən eşqini çıxartmaq çətin,
Surətin əriyib gözdə qalmayıb.
Üzdü bu könlümü sənin xiffətin,
Ocağım kül olub köz də qalmayıb.

Elə bil bu ömür yaşanmır, sanki
Bağlanıb qalıbdı sənli günlərə.
Ayrılıq ömürə elə divan ki,
Saldı taleyimi hey düyünlərə.

Səni unutmağım mənə işgəncə
Səni xatırlamaq ondan da zülüm.
Sevgi gündüzümü eylədi gecə,
Onu düşünmək də, danmaq da ölüm.

Ötüşən illəri burax geriyə,
Alışan sevgili çağları səslə,
Elə qayıt gəl ki, hicran əriyə,
Yenidən eşqilər yansın həvəslə.

Bizdən nə qalacaq kiçik xatirat?
Onu da verməyək hicrana qurban.
Acıyla, şirinlə doludu həyat,
Doğulub bir anda, bitəcək bir an.

Qayıt, o sevdalı illərə qayıt,
Tələsmə sevgini məzarlamaqçın.
Həsrətlə alışan dillərə qayıt,
Xaraba könlümü gülzarlamaqçın.
15.05.2001

İNAN SƏN BUNA

Sənin atəşinlə könlüm alışar,
Qoyma o alovdan vücüdüm yana.
Hər günüm, sabahım sənlə yaşar,
Sevgilim, sevdiyim, inan sən buna.

Ən şirin diləklər könlümdən uçar,
Sənin ürəyinin yanına qaçar,
Pəncərən önündə hər gün gül açar,
Sevgilim, sevdiyim, inan sən buna.

Hicran əzabının sonu qəm olur,
Göz acı həsrətdən hər gün nəm olur,
Sevənçin bu dünya xoş aləm olur,
Sevgilim, sevdiyim, inan sən buna.

Bütün diləklərim tanrı fövqündə
Nəfəsim, havam da sənin zövqündə.
Ummanlar yaratdın bu can şövqündə
Sevgilim, sevdiyim, inan sən buna.

Qələmim də sənsən, yazım da sənsən,
Ədam da, işvəm də, nazım da sənsən.
Qurbandı, canımı qurban da desən
Sevgilim, sevdiyim, inan sən buna.

26.11.1999

NİYƏ ƏSİR OLDUM?

Niyə əsir oldum mən bu eşqinə,
Düşdü ağızlara, dillərə adım.
Nə könlü gətirə bilmədim dinə,
Nə sənə yetmədi acı fəryadım.

İndi niskillərin əlində ögar,
Çarpışır, vuruşur könlüm qəm ilə,
Çadralı günlərim geyinibdi tar,
Kəsibdi ülfətin bu aləm ilə.

Əlimdə ağlardı kağız, qələm də,
Gözümün yaşları mürəkkəb olub.
Titrəyir səyyarə acı aləmdə,
Ürək də buludlu göylərtək dolub.

Qoluna qandallar vuraq möhnətin
Ayrılan ürəklər yenə birləşsin.
Qəlbi bir-birindən qopartmaq çətin,
Eşqin ocağına bu atəş düşsün.

Bilirəm bitməzdi bu eşq nağılı,
Onu Şadimandan ayırmaq müşkül,
Qalmasın sevginin qapısı bağlı,
Qopsun ömrümüzdən bir yolluq niskil.

6.11.1994.

NEYLƏYİM?

Elə tələsirəm görməyə səni,
Dilimdən düşməyir adın neyləyim?
Yaxır atəşlərə bu sevgi məni,
Qəlbdə ocaq çatıb odun neyləyim?

Sevənlər tapmazmı eşqə əlacı?
Sevgin ilahidən bir sevgi tacı,
Dilimə dağ basan hicranın acı,
İnsaf et bir söylə dadın neyləyim?

Özünü bənzətmə vəfasızlara,
Sevgi könül verməz cəfasızlara,
Heç nə qismət olmaz səfasızlara
Olsa bu məhəbbət yadın neyləyim?

17.03.2001

BİLƏ-BİLƏ

Canımda hələ də hicran ağrısı,
Alışıb yanıram sən bilə-bilə,
Bilmirəm hayana gedim doğrusu,
Yolumda sis, duman, çən bilə-bilə.

Ürəyim atlanır görməyə səni,
Belə unudarmı sevən sevəni?
Bəxtin göylərinə çilədin çəni,
Düşdü saçlarıma dən bilə-bilə.

De kim nəzərlədi bu sevdamızı?
Eşqdən uca tutduq hey ədamızı.
Başdan əksiltmədi qəm qadamızı,
Yandı sinə, bağır, tən bilə-bilə.

17.03.2001

DÖNMƏZ MƏNƏM

Göylərində günəş ollam,
Ürəyində atəş ollam,
Yandırarsan küləş ollam,
Vüqarımdan enməz mənəm,
Bu sevdadan dönməz mənəm.

Ayrılığın qorxularım,

Çaş-baş düşən yuxularım,
Sinəmdə qəm qoxularım,
Əzabına dinməz mənəm
Bu sevdadan dönməz mənəm.

Ürəyim ağ varaq təki,
Biçdin onu oraq təki,
Gecələri çıraq təki,
Zülmətində sönməz mənəm,
Bu sevdadan dönməz mənəm.

17.03.2001

İNCİDİ

O gün nə biganə ötdün yanımdan,
Qəlbimin bağında güllər incidi.
Eşqin çıxmadı ki, bir an canımdan,
Ürəyim titrədi tellər incidi.

O vüsal günlərim qəmlə barışdı,
Ayrılıq odundan sinəm alışdı,
Qəlbim hissə-hissə oda qarışdı,
Könül ocağında küllər incidi.
Düşdü bir-birindən ayrı ünvanlar,
Həsrətin könlümə etdi divanlar,
Vüsal duyğusuyla alışdı anlar,
Öm
rümü tərk edən illər incidi.

Qəlbdə sevgi yoxsa həsrət bəhanə,
Ürəkdə eşq varsa sevgi şahanə,
Tale oyununda boş qaldı xanə,
Bir zaman can deyən dillər incidi.

Ərşə büləndoldu ahım, amanım,
Gecə də, gündüz də yandı gumanım.
Bitib tükənmədi həsrət zamanım,
Gözümdə kükrəyən sellər incidi.

Qəlb fəğan eylədi yetmədi dadə,
Verdin həyatımı, ömrümü badə,
Eşqi qurban etdim həddən ziyadə,
Ələmimdən hali ellər incidi.

Hicranın önündə Şadiman nəçi?
Göynəyir bağrımın, könlümün içi,
Olub ürəyimin özü dərd içi,
Ahımdan ürpəşən yellər incidi.

3.04.2001

MƏHƏBBƏTİNƏ QURBAN

İçində tüğyan edən,
Sədaqətinə qurban.
Qəlbin evinə gedən
Məhəbbətinə qurban.

Səndən başqa yarım yox,
Özgəyə ilqarım yox,
Eşqdən qeyri varım yox,
Məhəbbətinə qurban.

Dözərək şux nazına,
Bülbültək avazına
Gəl ömrümün yazına
Məhəbbətinə qurban.
Sevgin nazəndə mələk,
Gəlməsin hicran kələk,
Vursun şövqünlə ürək
Məhəbbətinə qurban.

3.04.2001

NECƏ KEÇİM?

Alıb ürəyimi atəşə saldı,
Alışır bağırım, alışır içim.
Hicranın yolunu Günəşə saldı,
Belə məhəbbətdən mən necə keçim?

Deyirlər sevəni Allah da sevər,
Dünyaya nur verən sabah da sevər,
Sevgi günahdırsa günah da sevər,
Belə məhəbbətdən mən necə keçim?

Ucaldıbdı ərşə eşq sarayımı
Nəşənin əliylə boğub vayımı,

Duyur bir baxışla hay-harayımı
Belə məhəbbətdən mən necə keçim?

Bu sevda könlümə pərişan deməz,
Qəlbimi hicrana heç nişan deməz,
Bağrımı bu eşqə necə şan deməz?
Belə məhəbbətdən mən necə keçim?

Şövqüylə sinəmə səadət damlar,
Tutub ayrılığı həbs edər, damlar,
Dünyada saf eşqə həsrət adamlar,
Belə məhəbbətdən mən necə keçim?

17.03.2001

BU MƏHƏBBƏTİ

Elə bil könlümə nur yağır, Allah,
Yarpaqtək titrəyir ürək xəlbəti.
Yanır atəşlərə qəlb, bağır, Allah,
Tanrı çox görməsin bu məhəbbəti.
Ürəyə ruh verən sevdası şirin,
İşvəsi, qəmzəsi, ədası şirin,
Min kərə can alan qadası şirin,
Tanrı çox görməsin bu məhəbbəti.

Aləm heyrətdədi ilqarımıza,
Sevgi atəş tökür qəlb qarımıza,

Yer, Göy vurğun olub eşq varımıza,
Tanrı çox görməsin bu məhəbbəti.

Sanki çılğın seldi bu nur ummanı,
Taleyin göyündən udub dumanı.
Bitib tükənməsin sevda zamanı
Tanrı çox görməsin bu məhəbbəti.

Fələk isindirsin eşqlə yuvamı,
Almasın başımdan sevda havamı,
Eşitsin dilimdən qopan duamı,
Tanrı çox görməsin bu məhəbbəti.

17.04.2001

VƏFA NƏ LAZIM?

Hicran payızına düşdü güzarım,
Boğuldu bülbültək içdə avazım.
Bürüyüb könlümün için ah-zarım
Belə vəfasıza vəfa nə lazım?

Boğdu ürəyimi hicran dənizi,
Batırdı sularda itirdi izi,
Baxan zənn eləyir bəxtəvər bizi,
Belə vəfasıza vəfa nə lazım?

Gözümün içində yuxum da əsir,
Şaxtası, ayazı könlümü kəsir,
Yapıbdı bağrıma hicrandan qəsir,

Belə vəfasıza vəfa nə lazım?

Elə gizli-gizli eşqə yananlar,
Sevdaya düşməyən necə dil anlar?
Mənə zindandan da ağırdı anlar
Belə vəfasıza vəfa nə lazım?

Gözümün könlümə gurşadlar yağır,
Ayrılıq əzabı ürəyə ağır,
Yandı, ey Şadiman, sinə, can, bağır,
Belə vəfasıza vəfa nə lazım?

17.04.2001

UNUTMAQ ÜÇÜN

Dolaydım könlünə xoş dilək kimi,
Eşqinə inamı yaratmaq üçün.
Köçəydim sinənə bir ürək kimi
Sənin ürəyini yaşatmaq üçün.

Sevdanın yoları deyil ki, hamar,
Qəm tuğyan edəndə qəlbə qəm damar.
Olaram məhəbbət yolunda memar,
Eşqinə məbədi ucaltmaq üçün.

Qəlbim fəğan edər tardakı teltək,
Azaram ırızın itirmiş seltək,
Könül pəncərəni döyərəm yeltək...

Yatmış duyğuları oyatmaq üçün.

Xatirən Ay olar gecə uzunu,
Araram yuxumda bəxt ulduzunu,
Basaram könlümə hicran buzunu
Yanan ürəyimi soyutmaq üçün.

Həsrət ünvan tapdı qorxularımda,
Ətirin gül açdı qoxularımda,
Səni axtarıram yuxularımda
Qəlbi xəyalınla ovutmaq üçün.

Naləmdən ağladı həm dağ, həm dərə,
Mən minnətçi düşdüm ötən illərə,
Yalvardım ürəyə gündə min kərə
Bu eşqi əbədi unutmaq üçün.

16.03.2001

BİR CANIM VAR

Məhəbbətin simurğ quşu,
Aldı əldən əqli, huşu,
Bu ürəyim vurulmuşu,
Gəl divana çəkmə belə,
İmtahana çəkmə belə.

Bu könlümə qan uddurma

Baxışınla ovundurma,
Sevdalımsan, gendə durma,
Hicranına heç dözmərəm,
Bu eşqindən əl üzmərəm.

Səndən qeyri yarım olmaz,
Sevgin var ah-zarım olmaz,
Bu can ki var, yarım olmaz,
Gəl dolan gəz bu yerlərdə,
Bir çiçək üz bu yerlərdə.

Ürəyimə düşən adam,
Bu hicrana dəysin qadam,
Əhdini heç pozar adam?
Eşqin yetə dada sənin,
Bir canın var o da sənin.

17.04.2001

NİYƏ GETDİN?

Dərdin çəkir könlü şişə,
Sıxır qəlbi hey əndişə
Necə dözüm bu gərdişə,
Dönüb gözüm yaşı selə,
Niyə getdin, yarım, belə?

Göz yaşımdan daş göyərib,
Bəbəyimdə yaş göyərib,

Ağlın şahı baş göyərib,
Haray salıb eldən-elə
Niyə getdin, yarım, belə?
Ürəyimdə sözüm qaldı,
Kül altında közüm qaldı,
Yollarında gözüm qaldı,
Verdin eşqi nə tez yelə?
Niyə getdin, yarım, belə?

Şadimanda bir can vardı,
O da təkcə sənə yardı,
Dedim dünya sənsiz dardı,
Demədim ki, zülüm elə,
Niyə getdin, yarım belə?
20.08.2000

DAHA DÖNMƏZ

Bir həsrətin tikanına tuş oldum,
Heç qırıla bilmədim ki, kollardan,
Qanadını tufan qıran quş oldum,
Daha dönməz bu gözlərim yollardan.

Məhəbbətim qayalara daş oldu,
Damla-damla bəbəyimdə yaş oldu,
Hər bir dərddən ürəyimdə baş oldu,
Daha dönməz bu gözlərim yollardan.

Ümidlərin kölgəsində süründüm,

Hicranların dumanına büründüm,
Ulduz təki zülmətlərdə göründüm,
Daha dönməz bu gözlərim yollardan.

Ürəyimdə dərdin dönüb dam oldu,
İzlərində düşüb qalan şam oldu,
Bir Şadiman, bir qəm, bir də dam oldu...
Daha dönməz bu gözlərim yollardan.

20.08.2000

QUBAR BAĞLAR

Dərd içimdə qubar bağlar,
Səni gəzib soraqlaram.
Könlüm elə həzin ağlar,
Qəm kitabın varaqlaram.
Sənlə olar hər diləyim,
Sənsiz tapmaz cəm ürəyim,
Mehman olar qəm mələyim,
Tellərini daraqlaram.

Xəyalların yuxu olar,
Dərdin hicran oxu olar,
Eşq zəmimə həsrət dolar,
Eşqlə birgə oraqlaram.

24.08.2000

YADINDAMI?

Yadındamı o illər?
Eşqlə yanğılı dillər,
Alışardı, yanardı,
Zamanım dayanardı.
Sənsiz dünyam küsərdi,
Ümidimi kəsərdi.
Xəyallarım uçardı,
Tez yanına qaçardı.
Küsüşüb barışardıq,
Od olub alışardıq.
Yadındamı bir səhər?
Aldı könlümü qəhər,
Sənsiz həyat daraldı,
Gözümdə gün qaraldı.
Küləklər sayaq əsdim,
Görüşünə tələsdim.
Qıvrıldım ilan təki,
Gözüm görmədi səki,
Eşqin çapdı başımda,
Səni gördüm qarşımda.

Yadındamı səadət?
Cantək sevgili həyat,
Könlümüzə yar idi,
Həsrət, vüsal var idi.
Sellər təki coşardıq,
Çeşmələrtək daşardıq.

Bizə dünyada əziz,
Həm duyğulu, həm təmiz,
Saf məhəbbət nəsibmiş,
Üstümüzdə əsibmiş.

Yadındamı o vaxtlar?
Ayrı yanardı baxtlar,
Alışardı
m oduna,
Heç düşməzdim yadına.
Öz içimdə yanardım,
Səni dünyam sanardım.
Sənsə çəkib özünü,
Yan tutardın üzünü.
Məni oda atardın,
Yuxuları qatardın.

Yadındamı küləklər?
O göy atlı mələklər,
Darayardı telimi,
Qucaqlardı belimi,
Dodağımda gülüşlər,
O xəyali görüşlər...
Yuxumuza gələrdi,
Həsrət dərddən ölərdi.
Səni mənə yar edən,
Bağrımın başın didən,
Yuxumu qısqanardım,
Gizli-gizli yanardım...

Yadındamı, sevgilim?
Sənsiz ağlar
dı ilim.
Dərd başımdan aşardı,
İçimdə dolaşardı,
Həyat adiləşərdi.
Can gözümdən düşərdi.
Könlüm səni arardı.
Qəlbimi dərd sarardı.
Ağlardım için-için,
Sənin o sevgin üçün,
Demə ki, bu eşqimiz,
Qoymayıb qəlbimdə iz,
Kökü gedib dərinə,
Ürəyimin yerinə,
Sənin sevgin yerləşib,
Əbədi sehirləşib.

15.02.2000

SƏADƏTİN

Telefon telindən
Gəldi o xoş səsin.
Bal yağdı dilindən
Dad verdi nəfəsin.

həsrətli ürəyin

Sevinci nazladı.
Gül açdı diləyin
Qəlbimdə yazladı.

Telefon telinin
Sehiri var imiş,
O şirin dilinin
Mehiri var imiş.

Telefon gətirdi,
Saf məhəbbətimi,
Evimə yetirdi
Bu səadətimi.

15.02.2001

ÇOX SEVİRƏM MƏN

Sən varsan, eşqliyəm bütün aləmə,
Sevgin mirvaritək könlümdə dən, dən.
Sevdanla bağlıyam hər çılğın dəmə,
Səni öz canımdan çox sevirəm mən.

Bilmirəm nədəndi, bu duyğu məndə?
Bütün səadətim, həyatım səndə,
Vüsalının əli qəmi döyəndə
Səni öz canımdan çox sevirəm mən.
Eşqə Tanrısanmı, ya mələksənmi?

Qəlbi əsir edən şux diləksənmi?
Sinəmin içində bir ürəksənmi?
Səni öz camımdan çox sevirəm mən.

Bu könül mülkümü almısan ələ,
Orda at çapırsan belədən-belə,
Elə uymuşam ki, könlümə elə,
Səni öz canımdan çox sevirəm mən.

Aldın ixtityarın bu Şadimanın,
Gəlintək bəzədin onun hər anın,
Tökmə hicranınla könlümün qanın
Səni öz canımdan çox sevirəm mən.

31.12.2000

HİCRAN ŞƏRQİSİ

Sevgim sənə yad oldu,
Dilimdə imdad oldu,
Səni sevən könlümün
Hər ahı fəryad oldu.

Hicran sona yetməzmi?
İşgəncələr bitməzmi?

Dedim dənizin olum,
Gülər bənizin olum,
Sən getdiyin yollarda
Düşdüm ki, izin olum.

Gəl qurtar məni çəndən,
Bu hicranlı aləmdən.

Badam gül açanda gəl,
Könlüm dil açanda gəl,
Ürək çıxıb sinəmdən
Yanına uçanda gəl.

Dilim yetməyir sənə,
Səsimə səs versənə?

28.12.2000

GƏLMİSƏN MƏNƏ

Sənin baxışının bənzəri yoxdur,
Od tökür sinəmə gözlərin yenə.
Üstündə iblisin nəzəri yoxdur,
Sən ayrı dünyadan gəlmisən mənə.

Könlümdə anbaan duyğular coşur,
Bahar selləritək qaynayıb daşır,
Ürkək xəyalınla hey pıçıldaşır,
Sən ayrı dünyadan gəlmisən mənə.

Eşqin şahin təki könlümü çalar,
Girib ürəyimin içində qalar,
Bütün vücudumu əlinə alar,
Sən ayrı dünyadan gəlmisən mənə.

Səndə rüzgarların coşqunluğu var,
Qərib durnalartək çaşqınlığı var,
Qəlbin dağ selitək daşqınlığı var,
Sən ayrı dünyadan gəlmisən mənə.

Dönür duyğuların gur leysanlara,
Bir həyat verirsən bu lal anlara,
Heç bənzərin yoxdu bu insanlara...
Sən ayrı dünyadan gəlmisən mənə.

6.12.1999
Pirallahı

HARDAN GƏLDİ?

Bağlıdı könül qapım,
Açanı hansı əldi?
Baisi necə tapım,
Bu sevgi hardan gəldi?

Duyğum olub göyərdi,
Ən qiymətli dəyərdi,
Ürək özün öyərdi,
Bu sevgi hardan gəldi?
Bəxtdən sevdamı qapdı,
Qəlbim evində çapdı,
Könlümü necə tapdı?
Bu sevgi hardan gəldi?

Başdan fikri dağılmaz,
Sevsə aləm dağılmaz,
Gözüm yoldan yığılmaz,
Bu sevgi hardan gəldi?

Şadimanı aldatdı,
Sevdasıyla baş qatdı,
Girib könlümdə yatdı,
Bu sevgi
hardan gəldi?

13.11.2001

DEYİL

Üz çevirib getmə belə,
Könül səndən dönən deyil.
Səmalarda uçar elə,
O, səmadan enən deyil.

Ey gülüzlüm, gəl yanıma,
Alov düşsün hicranıma,
Tök atəşi bu canıma,
Atəşinə dinən deyil.

Əgər etsən bağra cəfa,
Gözləmə heç ondan vəfa,
Kim gördü ki, qəmdən səfa?
Yendir qəlbi, yenən deyil.

Əğyarlara yanma, amma
Onlradan heç vəfa umma,
Sevdatək hər qəlbə damma,
Külə həsrət sinən deyil.

Elə bilmə Şadimanı,
Alırsansa gəl al canı,
Yada satma bu ünvanı,
Satsan əgər binən deyil.

10.11.2001

BİLMİRƏM

Soruşuram yarımdan,
Söylə niyə gülmürəm?
Agah ol ah-zarımdan,
Elə deyir bilmirəm.

Belə də sevda olar?
Bir belə əda olar?
Bu qədər qada olar?
Elə deyir bilmirəm.

Zalımın nə işinə?
Qəm olub könlə təşnə,
Çəkir qəlbi dişinə,
Elə deyir bilmirəm.

göy ağlar əzabıma,
Ürək dözməz tabıma,
Qəm tökür qəlb qabıma,
Elə deyir bilmirəm.

Ey Şadiman, nə sirdi?
Möcüzədi, sehirdi,
Deyirəm nə mehirdi?
Elə deyir bilmirəm.

27.11.2001

VAR EŞQİDƏ

Sən ey eşqə edən cəfa,
Nə heyrətlər var eşqidə?
Əgər qılsan ona vəfa,
Səadətlər var eşqidə.

Hicrə bulma rəva canı,
Onun ki, heç yox ünvanı,
Başlar könlə qəm divanı
Müsibətlər var eşqidə.

Ömür elə ötür yeltək,
Gedən gedər tutma eltək,
Qəlbdən qəlbə yol sal teltək,
Hekayətlər var eşqidə.

Ötürmə heç zamanı ki,
Sev bir mələk simanı ki,
Unutma din-imanı ki,
İbadətlər var eşqidə.

Uyan sevgi dərgahına,
Şükür eylər Allahına,
Səbəb olma qəlb ahına,
İtaətlər var eşqidə.

Sevda çağlar bəhərlərdən,
Gecə ağlar qəhərlərdən,
Həsrət gülər səhərlərdən,
Əziyyətlər var eşqidə.

Qəlbdə ahlar zəban olar,
Qəm ayağa daban olar,
Ürək elə sərban olar...
Nə zillətlər var eşqidə?!

Ey Şadiman, bu nə sevda?
Canı ona eylə fəda,
Tən gəlməyir eşqlə əda,
Məhəbbətlər var eşqidə.

10.11.2001

ÇAĞLAYARAM

Ürək eşqdən oda düşər,

Xəyala bel bağlayaram.
ilk məhəbbət yada düşər...
Həzin-həzin ağlayaram.

Ötən günlər getdi gəlməz,
Sabahını kimsə bilməz,
Nəş`əm məndən qabaq ölməz,
Qəm qapısın bağlayaram.
Hicran qəlbə otaq oldu,
Ürəyimlə ortaq oldu,
Taleyimə yataq oldu,
Necə tutub dağlayaram?!

Ey Şadiman, etmə həzər,
Ömür vaxtın üstə gəzər,
Canım qələm vərəq bəzər...
Zaman-zaman çağlayaram.
31.10.2001

İLK MƏHƏBBƏT

Salırsan qəlbləri dərmansız dərdə,
Dəvasın nə loğman, nə həkim tapır.
qarşında diz çökür igid də, ər də,
Dərdinin dərmanın söylə kim tapır?

Bir zaman Qeysi Məcnun eylədin,
Leylini dillərdən dillərə saldın.
Əslini, Kərəmi de bir neylədin?

Onları kül edib guya kam aldın!

Bir vaxtlar Fərhada Şirin eşqiylə,
Bisutun dağını parçalatmısan.
Söylə, ilk məhəbbət nə əsas ilə,
Qəlbləri bu ağır dərdə atmısan?!

Çox könüllər oldu səndən yaralı,
Qoydun sinələri dərd, qəm içində.
Toruna düşəndən qəlbim saralı,
Qoymusan gözümü yaş, nəm içində.

1973 / TAĞAY

GƏLSİN

Mən vüsal həsrətli, sən hicran acı,
Qəlbin bu sevdaya imanə gəlsin.
Eşqidir könlümün başının tacı,
Bu tacın şövqünə peymanə gəlsin.

Gedibdi ömrümdən həyatın dadı,
O can ki, bu cana etmir imdadı,
Ərşi də yandırır ürək fəryadı,
O sevgin bağrıma amanə gəlsin.

Saldın məhəbbəti sən dildən dilə,
Artdı bu istəyin qovğası elə,
Hicranın dağ çəkir belədən belə,

Ahıma, naləmə zamanə gəlsin.

Əsdirir xəyalın eşq dirəyimi,
Salmısan qapına bu ürəyimi,
Vurur həsrət oxu hey kürəyimi,
Çıxan ox qayıdıb kamanə gəlsin.

Tutulub könlümün göyləri yenə,
Buludlar ağlaşır şimşəyə dönə,
O eşqin mələktək fələkdən enə,
qoymaram çiskinə, dumana gəlsin.

Demə ki, Şadiman əğyarı tutdu,
Bu dəli sevdanı tamam unutdu,
Qapında sərgərdan qalan umuddu...
zənn etmə dəryalar ummana gəlsin.

24.10.2001
Pirallahı

EY YAR

Sənin qərib düşmüş məhəbbətinə
Min kərə ürəkdən can dedim, ey yar,
Şükür edib tanrının səadətinə
Sən də mənim təki yan dedim, ey yar.

Həsrətə düşəndə vüsal xoş olar,
Gözlərdən yanağa düşən yaş olar,
Məhəbbət olmayan ürək daş olar,
Sən bu gerçəkliyi an dedim, ey yar.

Yamandır hicrana qəlbin dözməyi,
Möhnət dəryasında könlün üzməyi,
Kimdən öyrənmisən bağrı üzməyi?
Qəmindən ürəyim qan dedim, ey yar.
Əhdi-peymanımız bir söylə hanı?
Basıbdır fəğanın yenə hər yanı,
Niyə qınayırsan bu Şadimanı?
Yolunda qurbalıq can dedim, ey yar.

10.12.1999

MƏHƏBBƏT BİR BƏLADIR Kİ...

Məhəbbət bir bəladır ki,
Qəlbə düşsə üz eyləyər.
Bir keçilməz qaladır ki,
Dərdin birsə yüz eyləyər.

Hicranlar at oynatdıqca,
Məhəbbət hey fəryad etdi.
Ürəyim eşq qaynatdıqca
Çox diləyi abad etdi.

Kimlərin ki, üzü güldü
Məhəbbətin bəlasından?
Hansı ürək aşa bildi
Onun uca qalasından?

Yollarında hicran izi
Acıları bitmədi ki,
Döyündürdü qəlbimizi
Ürəklərdən getmədi ki...

Məhəbbət bir bəxt məkanı
Yandırar öz sevda şamın.
Hər qəlbdə yox kəhkəşanı
Çəkmədi hər ürək kamın.

Məhəbbət ki, qədər quşu
Gələn yolun bilən də yox.
Dağıdar qəlb uçulmuşu
Sitəm verər ürəyə çox.

Məhəbbət bir qəm yuvası,
Sökən kimdi, tikən kimdi?
Getməz başdan eşq havası
Onu qəlbdə əkən kimdi?

27-28.12.1999

DÖZƏ BİLMİRƏM

Öldürdü qəlbimi eşqinin qəmi,
Quruda biləydim gözündə nəmi,
Tək sənin əsirin könül aləmi,
Səndən ümidimi üzə bilmirəm,
Vallah ayrılığa dözə bilmirəm.

Sənin atəşinlə alışır ürək,
Sənin varlığına qul olub dilək,
Qəlbdə məhəbbətin nazəndə mələk,
Əksini könlümdən heç vaxt silmərəm,
Vallah ayrılığa dözə bilmərəm.

Sən varsan dünyam var, kainatım var,
Ünlü səadətim, xoş büsatım var,
Bu bədəndə canım, bu həyatım var,
Sənsiz gülüş solar daha gülmərəm,
Vallah ayrılığa dözə bilmərəm.

Yaşat qol-qanadım, yaşat varlığı,
Havamtək, suyumtək bəxtiyarlığı,
Gəl göstərmə mənə könül darlığı,
Nə qədər sən varsan, sağam ölmərəm,
Vallah ayrılığa dözə bilmərəm.

3.09.2001

SƏN ALLAH
/deyişmə/

Deyirsən məhəbbət könlümə yaddı,
Əvvəli, axırı ahdı, fəryaddı,
Həsrətin zəhərtək çoxları daddı,
Məni də odlara salma, sən Allah,
Könlümü sinəmdən alma, sən Allah.

Deyirsən sevgidi qəlblərə çıraq,

Ondan heç düşməsin bir ürək iraq,
Aç bu ürəyimi sən varaq-varaq,
Oxu misra-misra, gülüm, sən Allah,
Tək səni arayır dilim sən Allah.
Deyirsən sevgidi qəlbin əlacı,
Odur ta qədimdən başların tacı,
Vüsalı şirinsə, hicranı acı,
Məni sellərinə atma sən Allah,
Könlümə dərd yükü çatma sən Allah.

Olar məhəbbətsiz günümüz gecə,
Səsimiz, sədamız, ünümüz gecə,
Necə yaşayarıq, eşqisiz necə?
Dadlı sevdalara dalaq sən Allah,
Sevginin qadasın alaq sən Allah.
19.11.2000

UNUDA BİLMƏRƏM

Fələk sevgimizin yolun bağlasa,
Töksə üstümüzə çəni, sevgilim,
Gözlər için-için eşqə ağlasa,
Unuda bilmərəm səni, sevgilim.

Sinəmə tökülər dünyanın qəmi,
Gözdə yuva salar həsrətin nəmi,
Bürüyər büsbütün ahım aləmi,
Unuda bilmərəm səni, sevgilim.

Hər şey ögeyləşər mənə yad təki,
Qəhər boğar qəlbi bir fəryad təki,
Mən necə edərəm könlümə ərki?
Unuda bilmərəm səni, sevgilim.

Amandı, əlimi üzmə əlimdən,
Asılıb dünyanın qəmi telimdən,
Mən ki, söyləyirəm bunu dilimdən,
Unuda bilmərəm səni, sevgilim.

19.11.2000

MƏN DÖNÜM

Nə zamandı getmisən,
Dönmüşəm göz yaşına.
Könlümü qan etmisən,
Qoy mən dönüm başına.
Sən can içində canım,
Qoyma qəminlə yanım,
Sənsən könül ünvanım,
Qoy mən dönüm başına.

Səndən ürək soyumaz,
Bu gözlərin uyumaz,
Həsrəti qan-yaş yumaz,
Qoy mən dönüm başına.

Hicran dağların qarı,
Yar aramazmı yarı?

Ay ömrümün baharı
Qoy mən dönüm başına.
2.09.2001

SƏNSİZLİYİMDİ

Gözlərimin qəm şehi,
Mənim sənsizliyimdi.
İçimdə hicran mehi
Mənim sənsizliyimdi.

Bulud təki dolmağım,
Yar, çarəsiz olmağım,
Yollarında qalmağım
Mənim sənsizliyimdi.

Öz-özümdən küsməyim,
Küləklərtək əsməyim,
Sabaha tələsməyim
Mənim sənsizliyimdi.

Sellər təki daşmağım,
Qəm dağını aşmağım,
Qəlblə pıçıldaşmağım,
Mənim sənsizliyimdi.

Öz-özümdən qaçmağım,
Umidə əl açmağım,
Xəyallarda uçmağım

Mənim sənsizliyimdi.
Könlümə günahlarım,
İçimdəki ahlarım,
Həsrətli sabahlarım
Mənim sənsizliyimdi.

10.09.1999

BURAXMA

Doldurub içimə hicran ağrısı,
Sən mənim könlümü odlara yaxma.
Səndən əziz yoxdu qəlbə doğrusu
Sən onun başında şimşəktək çaxma.

Vallah həsrətinə dözməyim çətin,
Allah eləməsin görüm sifətin,
Mən çəkə bilmirəm sevgi xiffətin,
Sən o ayrılığın üzünə baxma.

Sev dəli istəklə Şadimanını,
Mənsiz keçirmə gəl bircə anını,
Mənimçin müqəddəs şirin canını
Özgə sevdalara, yarım, buraxma.

7.01.2000

HARDAN GƏLDİ?

Könlüm bənzər bir bağa,
Gülünü tikan dərdi.
Qəlbə qəm yağa-yağa
Bu sevgi hardan gəldi?

Çıxmaz canımdan özü,
Ürəkdə keçməz közü,
İlahi, bilməm düzü
Bu sevgi hardan gəldi?

Ağrısı candan keçir,
Həsrəti qanım içir,
Həm mö`cüzə, həm də sirr,
Bu sevgi hardan gəldi?

Duyğularım baş-başa,
Röyalarda tamaşa,
Dönüb qəlblə sirdaşa,
Bu sevgi hardan gəldi?

Ölər nəş`əndən ahım,
Gülər üzə sabahım,
Söyləsənə, Allahım,
Bu sevgi hardan gəldi?
Yoxsa ki, səndən gəldi?!

11.01.2000

SEVMİRSƏN DAHA

Alışan içimdə tikan göyərib,
Batırıb könlümü qüssəyə, aha,
Qəlbində həsrətə məkan göyərib,
Sən məni sevmirsən, sevmirsən daha.

Sınıq ümidimə tikmişdim yuva,
Sanırdım köksümə eşqini hava,
Mən idim dilində, sanki bir dua
Sən məni sevmirsən, sevmirsən daha.

Rəvamı könlümə hicran əzabı?
Kəsildi qəlbimin qalmadı tabı,
Gəl çək ürəyimlə bir yol hesabı,
Sən məni sevmirsən, sevmirsən daha.

Yaman əzizlədin bu səadəti,
Sandım ki, bəxtimin eşq ibadəti,
Öyrətdin bağrıma hicran adəti,
Sən məni sevmirsən, sevmirsən daha.

Zənn etdim vüsalın əridib buzu,
Üşüyən qəlbimin sönüb ulduzu,
Ürəyim yolunda bir mələr quzu,
Sən məni sevmirsən, sevmirsən daha.

Fələk də ah edirdi bu ülfətinə,
Özgəyə yol açan səadətinə,

Şadiman mat qalıb məhəbbətinə,
Sən məni sevmirsən, sevmirsən daha.
29.07.2001

AMANDIR

Mənim ürəyimin eşqi, gümanı,
Onu atəşlərə yaxma, amandır.
Başımdan getməyir hicran dumanı,
Sən də şimşək olub çaxma, amandır.

Dərdindən ölürəm düşmüşəm xəstə,
Gör nələr çəkmişəm mən sənin üstə,
Təndə bir canım var, gəl, onu istə
Verməsəm üzümə baxma, amandır.

Bilirsən sevirəm səni ürəkdən,
Bu eşq mənə gəlib, vallah fələkdən,
Keçirib ömrümü hər gün ələkdən
Sellərtək hər səmtə axma, amandır.

Eşqin ürəyimin könül mə`bədi,
Qəlbimdə yeri var onun əbədi,
Əlində bəxtimin şamdanı, nədi?
Ora hicran şamı taxma, amandır.

Könül zirvəsində qanad açmısan,

Zirvədən-zirvəyə yeltək qaçmısan,
Nədir günəş təki şö`lə saçmısan?
Könlümün dağına qalxma, amandır.

11.09.1999

RƏVAYƏTLƏR

QİSMƏT ALLAHDANDI

Belə nəql edirlər kasıb bir kişi,
Kotanla yer sürüb əkməkmiş işi.
Çətin güzəranla keçirərdi gün,
Yoxsulluq köksünün başında düyün.
Bir səhər kotanla yer şumlayarkən,
Sürdüyü tarlanı hey tumlayarkən,
Şum altdan bir dəmir küpə göründü,
Kişi götürməyə onu ərindi.
Ayağıyla vurub atdı kənarə,
Yenə işin gördü hey qanı qarə.
Axşam oldu kasıb döndü evinə,

Danışdı işindən arvad sevinə.
Kişi bardaş qurub süfrə başında,
Dedi: - “ağrısı çox qoca yaşın da.
Torpqda işləmək güc tələb edir,
Mənim də günlərim ömürdən gedir.
Əkdiyim ödəmir üst-başımızı,
Yoxsulluq axıdır göz yaşımızı.
Səhər tezdən yeri şumlayarkən mən,
Az qaldı kotan da çıxsın əlimdən.
Bir dəmir küpəyə ilişdi qaldı,
Güc vurdum qolumdan gücümü aldı.
Ərindim qaldırım baxım bir ona,
Vurub ayağımla atdım o yana.
Qismət Allahdandı, Allah istəsə,
Qoymaz vücudumu aclıqdan əsə.
Bacadan başıma tökər sərvəti...
Var ilə sayılır kişi hörməti”.

Bu vaxt qonşu arvad qapı dalında,
Sanki heç deyildi o öz halında.
Eşidib o dəmir küpə söhbətin,
Qaçdı oğurlasın özgə qismətin.
Gecəylə tarlaya üz tutub getdi,
Elə təngənəfəs küpəyə yetdi.
Açdı ağızını dəmir küpənin,
Üç zəhərli ilan ürpətdi tənin.
Tez ağzın bağladı küpənin qadın,
Batırdı içində qorxu fəryadın.
Arvad hikkə ilə küpəni aldı,

O hiylə pərisin qoynuna saldı.
Dedi: - “Qonşununki fitnəsidir bu,
Bacadan ataram lap bəsidi bu.
Arvad da, kişi də qoy ölsün getsin,
Gecəykən onların işləri bitsin.
Duyub yə`qin mənim ayaq səsimi,
O çoxdan bilirdi var həvəsimi.
Tələyə salmaqmış niyyəti onun,
Ölməkdir bu gecə qiyməti onun”.
Dırmaşır kasıbın damına səssiz,
Bacanın önündə arvad çökür diz.
Açaraq küpənin ağzını bir az,
Qorxudan üzünün rəngi bəmbəyaz.
Buraxır bacadan o dəmir qabı,
Gördüyü səhnədən kəsilir tabı.
Küpədə ilanlar qızıla dönür,
Şabaştək yoxsulun başına enir.
Kasıb arvadına tutaraq üzün,
Dedi: - “İlahini gördümü gözün?!
Bacadan başıma tökdü sərvəti,
Ey arvad, bil, budur Rəbbin qüvvəti.”
Qonşu tez bacaya başını saldı,
Dedi: - “Qızıl mənim nə qeylü-qaldı?”
Kasıb da bacaya tərəf boylandı,
Bayaqkı söhbəti o saat andı.
Dedi: - “Sənin varın burda neyləyir?
Bacadan tökülən xətrinə dəyir?
Mənim qismətimə göz dikdiyinçin,
Sənin mətləbini Rəbb etmədi çin.

Başını dürtdüyün yad baca ki, var,
Səndən alar canı havaya sovar.
Şeytan fitvasıyla nəfsinə uyma,
Axırda özünü pis günə qoyma.
Get şükürlər ilə yad et Allahı,
Üzünə xeyirə açsın sabahı.
Qismətin quludur insanın özü,
Odur ki, qismətə dikilib gözü".

3.03.2002

ÜÇ QİSİMDƏ OLAN İNSAN

Belə söyləyirlər peyğəmbər vaxtı,
Bir kişi dilədi qızına baxtı.
Yolunun üstünə çıxsın yaxşı ər,
Bağrını üzməsin kədər, dərdi-sər.
Gün gəldi qapını kəsdi elçilər,
Yarpaqtək qızıyçın əsdi elçilər.
Bir gündə üç elçi düşdü qızına,
Üçü də çevrildi bəxt ulduzuna.
Üzüyumşaq idi kişinin bir az,
Gələn elçilərə eyləmədi naz.
Üçünə söylədi hə kəlməsini,
Xaliqə qaldırdı yazıq səsini.
Dedi: - "Ey Yaradan, göstər qüdrəti,

Puç etmə, İlahi, sən xoş niyyəti.
Mənim bir qızım var onlarsa üçdü,
Üçü də bəs niyə qızımı seçdi?
Sənin rəhmin böyük mənə kömək et,
Çətin məqamdayam imdadıma yet.
Haqdan səda gəldi, “eşşəyi, iti,
Qızına yaxın tut addım at qəti”.
Ata balasının tutub əlindən,
Övlad istəyilə öpdü telindən.
Tez heyvanlar olan yerə gətirdi,
Eşşəyi, iti də ora ötürdü.
Birdən zənnlə baxdı qızı üç oldu,
Bayaqkı əndişə, sanki puç oldu.
Kişinin ahını Yaradan gərdi,
Eşşəyi, iti də qıza döndərdi.
Ata İlahiyə şükürlər etdi,
Qızlara toy qurdu mərama yetdi...

Bir gün fikirləşdi kişi kədərlə,
Barışa bilmərəm mən ki, qədərlə.
Öz doğma balama həsrət qalmışam,
Özümü yamanca oda salmışam.
Adam şəkilinə düşmüş heyvanlar,
Mənim qızım təki növrəstə canlar.
Onları balamdan ayırmaq çətin,
İndi necə bulum Tanrı qismətin?
Öz doğma qızımı görməkçin gərək,
Tərpənim bir qədər hiyləgər, zirək.
Kişi yığışaraq lap qonaq təki,

Əvvəl bir qızına eyləyir ərki.
Qapını döyərək verir salamı,
Qəlbdə qalmamaqçın heç bala kamı.
Salamın yerinə qız donquldanır,
Kişi o dəqiqə eşşəyi anır.
İkinci gün gedir başqa qız gilə,
Zənn edir balası üzünə gülə.
Hörmət əvəzinə o itdik görür,
O qızdan dəhşətli bir sərtlik görür...
Kişi barmağını dişləyir fəndlə,
Hiyləsi yamanca işləyir fəndlə.
Üçüncü qız gilə yığışıb gedir,
Qızının əriylə hey xoş-beş edir.
Görür qız hamilə ağır ayaqlı,
Çox başıaşağı, ərinə bağlı.
Bir xeyli qəlb oxşar kalamdan sonra,
İsti hal-əhvaldan, salamdan sonra.
Dedi: - “Yeməmişəm bir neçə zaman,
Yaxşı qarpız düşüb könlümə yaman.
Qoy qızım gətirsin qarpızı mənə,
Ey oğul, əziyyət vermərəm sənə.
Atanın istəyin eşidən qızın,
Xoş duyğu inlətdi könlünün sazın.
Enib nərdivana çardağa qalxdı,
Ordakı tək böyük qarpıza baxdı.
Alıb qollarına düşürtdü onu,
Yeri əlçimlədi o uzun donu.
Heç nə qorxutmadı hamilə qızı,
Onun gəlişinə könüldən razı.

Gəlib o kişinin önündə durdu,
Ata tez qarpıza əlini vurdu.
“Qızım, başqasını bir gətirsənə,
Zəhmət olmazdısa, əgər ki, sənə.”
Gəlin baş endirib qalxdı yuxarı,
Üzündə bir dünya həyası, arı.
Həmənki qarpızı bir də götürdü,
Ata hüzuruna özün yetirdi.
Kişi zənnlə baxdı qızına sarı,
Duymadı üzündə böylə ah-zarı.
Duyuq düşdü, qarpız çardağda təkdi,
Qızı imtahana yamanca çəkdi.
Dedi: - “Bir başqası olmazmı məgər?”
Nə qızcığaz dindi, nə də cavan ər.
Qız bir də qayıdıb qalxdı çardağa,
Utancaq görkəmdə baxdı sol, sağa.
Həmənki, qarpızı aldı əlinə,
Bir şirinlik qatdı tuti dilinə.
Atanın önünə yetirdi özün,
Örpəklə gizlətdi utancaq üzün.
Kişi riqqət ilə baxdı qızına,
Şükürsana etdi bəxt ulduzuna.
Hey eyni qarpızı övlad üç kərə,
Hamilə, çardağdan endirdi yerə.
Dedi: - “bu qarpızı mənimçin kəsin,
Suzundan yanıram bir az tələsin.”
Ata iştahayla yedi qarpızı,
Allahdan, taledən, baladan razı.
Dedi: - “Çox ucadır insanlıq adı,

Bu mənim öz balam insan övladı.
O qızlar eşşək və bir də it imiş,
Odur ki, dil acı baş da küt imiş.
Qarışar adəmin nəsili, eyvah.
Bürüyər dünyanı bundan sonra ah.
Görünməz elənən hər səhvin ucu,
Düşər ayaqlara dünyanın tacı”...
Ata düşündü ki, səhvi düzəltsin,
Allaha yenidən dualar etsin.
Kişi əl götürdü o haqq dərgaha,
Dərgahdan bir səda gəlmədi daha...

8.03.2002

QAZİ VƏ ZİNA QADININ HEKAYƏTİ

Ey səhər, etməyək heç bircə günah,
Xeyirlə üzlərə açılsın sabah.
Səvabdan yapışsın bəşər övladı,
Olmasın cahanda körpə fəryadı,
Bütün insanların gözləri gülsün,
Dünyanın üzündən sevinc tökülsün.
İdraklar xeyirli işə can atsın,
Adəm övladını paklıq ucaltsın.
Səvaba çalışsın qoy bütün cahan,
Səvabın içində dövran etsin can.

Çünki heç bir şeydən yaranmadıq biz,
Bütün kainata Allah açıb iz...
Bu gün etdiyimiz hər bir işimiz,
Haqqın qanunuyla pis gərdişimiz,
Sorğuya, suala çəkiləcəkdir,
Əməllər ortaya töküləcəkdir.
Dünyaya gətirən bizi haqq-təla,
Onun əlindədir həm bəxt, həm bəla.
Bütün kainatı yaradan Allah,
Bəşəri yox edər çəksə bircə ah!
Xeyirdən yapışan haqqa ucalar,
Hər işdə Tanrıdan, Rəbbdən bac alar.

Hər xeyir əməli sanaraq uca,
Rəvayət danışdı mənə bir qoca.
Dedi: - “Qazi vardı bir məmləkətdə,
Tapdı xeyir işi o, bərəkətdə.
hər cümə axşamı verdi xeyirat,
O günü aclara olsun xoş həyat.
Qazanlar asıldı, süfrə açıldı,
Üzlərdən, gözlərdən şəfəq saçıldı.
Hər cümə axşamı yeyildi ehsan,
Fəqir-füqarəyə verildi xoş an.
Doydu ac qarınlar isindi canlar,
Razılıq eylədi Qaziyə onlar.
Bir cümə axşamı şər qarışan vaxt,
Bir ac yolçu döydü qapını bivaxt.
Xeyirat verilib süfrə yığılıb,
Artıq camaat da təmam dağılıb.

Qazinin əmriylə gəldi qulluqçu,
Yolçuya gecikdin dedi, dilucu.
Qapıdan peşiman qayıdan acın,
Kimsə ödəmədi aclıq əlacın.
Yolçu kor-peşiman qayıdıb getdi,
Qazinin bu işi Tanrıya yetdi...

Həmin məmləkətdə bir zina qadın,
Çoxdan batırmışdı öz təmiz adın.
Nəlayiq yollarla pul qazanardı,
Camaat pis adla onu anardı.
O bir gün faytonla keçdiyi zaman,
Yolun kənarında gördü bircə an,
Bir ana üç uşaq dayanıb durub,
O yazıq səfillər boynunu burub.
Əl açıb durublar faytona sarı,
Artıq şər qarışıb günbatan yarı.
Həmin an faytonu qadın saxlatdı,
Özünü faytondan tez yerə atdı.
Oturdub acları yanında qadın,
Tanrı dərgahında ucaltdı adın.
Götürüb evinə gəldi, onları,
Bir az qoy isinsin o ac canları.
Yedirib doydurdu hey səfilləri,
O talesizləri, o tifilləri!
Evində yer verdi aclara gecə,
Sanki mələk oldu o qadın necə.
Ötüşdü zülmətlər, gəldi xoş sabah,
Yoxsul ürəyindən yox olmuşdu ah.

O təzə pal-paltar verdi aclara,
Səadət bəxş etdi naəlaclara.
Düyünçəyə yığdı pulu, zinəti,
Artdı ac qadının min qat heyrəti?!
Dedi ki, mən bəxşiş verirəm sənə,
Ehtiyacın olsa dönərsən yenə.
Yolçular duayla tərk etdi onu,
Hər bir yaxşılığın xeyirdir sonu!...

Elə zaman gəldi bir fateh kimi,
Əzrayıl onların oldu hakimi.
Qazi də, qadın da dünyadan köçdü,
Torpağın üstündə dünya da köçdü!...
Sorğu-sual günü gəlib yetişdi,
Qazi cəhənnəmin içinə düşdü.
O zinalıq edən yetdi cənnətə.
Tanrının əliylə çatdı hörmətə.
Qazi sual etdi günahım nədir?
İlahi bu qədər mənə zülm edir!
Mən ki, ömrüm boyu acların şamı,
Süfrəm açıq olub cümə axşamı.
O ki, zinalıqda çıxardıb adın,
Cənnətə düşməli indi o qadın?
Gəldi İlahidən bir şahanə səs,
Yolçunu qovduğun günah deyil bəs?
Sən heçə endirdin etdiklərini,
Boş yerə sərf etdin alın tərini.
O zinalıq edən qadınsa o gün,
Açdı bədbəxtlərin bəxtindən düyün.

O ac yetimlərə verdi varından,
Qopardı onları aclıq darından.
Səvaba yetməyin quyusu dərin...
O özü qazandı cənnətdə yerin!”
Qoca rəvayəti yetirdi sona,
Mən də qulaq asdım heyrətlə ona.
Sonra hekayəti könlümə saldım,
Tanrının hökmüylə qələmə aldım.

20.02.2000

RUZİSİNƏ ASİ OLAN KİŞİNİN RƏVAYƏTİ

Deyirlər bir kənddə çox kasıb kişi,
Odun satmaq idi gündəlik işi,
Gedərdi meşəyə yığardı şələ,
Sonra güclə, zorla atardı belə,
Şəhər bazarına gedib çatardı,
O bir abbasiyə onu satardı.
Ruzinin azlığı kasıba kədər,
Dedi: - “keçirmərəm günümü hədər.
Qoy mən bir şələmi iki eyləyim,
Bəlkə kasıblığın qəddini əyim”.
Bir səhər yollandı yenə meşəyə,
Saldı o özünü lap əndişəyə.
Bu gün iki şələ odunla getdi,

Şəhər bazarına naharda yetdi,
Çalışdı bir az çox qazansın kişi,
Yaxşı gətirmədi onun heç işi.
Lakin iki şələ bir abbas oldu,
Kasıbın ürəyi, könlü oyuldu.
Qayıdıb peşiman o yola düşdü,
Kədərdən, qüssədən, sanki büzüşdü.
Yolda bir qocayla kasıb rastlaşdı,
Hikkədən, əsəbdən qaynadı, daşdı,
Dedi: - “bir şələni eylədim iki,
Boş yerə çulladım belimə yükü.
Qazancımsa oldu yalnız bir abbas.
Qoca, ayaq saxla mənə qulaq as,
Yoxmu heç Tanrının söylə insafı?!
Salır əzablara təmizi, safı.
Halal qazancımı artırmır heç vaxt,
Haramı, oğrunu eyləyir xoşbaxt”.
Qoca gülümsünüb köksün ötürdü,
O müdrik sözünü belə bitirdi.
Dedi: - “yetirərəm Rəbb dərgahına,
Bəlkə bir son qoyar sənin ahına”.
Allah elçisiydi qocanın özü,
Keçirdi Tanrının yanında sözü.
Qoca bircə anda tez gözdən itdi,
Rəbbin hüzuruna bir anda yetdi.
Ağzını açmamış pak ilahi səs,
Dedi: - “kasıb bilmir o ruzidir bəs?!”
Yolda qarşılaşdı qoca kişiylə,
Bir də maraqlandı onun işiylə.

Yenə həmən hamam, həmən tas dedi: -
Qoca ona baxıb qulaq as dedi: -
“Sənin ruzin budur Tanrı söylədi,
Alın yazısında qazanc öylədi”.
Kişi hirislənib dedi: - qocaya,
“Daha bu Allahı salmaram saya.
Ayrı məmləkətə köçüb gedərəm,
Ordakı Allaha dua edərəm”.
Kişi gəldi evə dedi niyyətin,
Sonra yığışdırdı köçün, külfətin.
Ayrı bir diyara üz qoydu getdi,
Yolda bir varlıya o gəlib yetdi,
Varlı karvanıyla evə gedirdi,
Sözü-söhbətiylə valeh edirdi.
Kasıbın kimliyin soranda varlı,
Gördü ki, ürəyi dərddən qubarlı.
Kasıb öz halını söylədi ona,
Dedi ki, mən daha gəlmişəm cana,
İndi də köçürəm yad məmləkətə,
Bəlkə orda yetdim bir bərəkətə.
Hamilə zənənim, bir də bax özüm,
Qalmayıb səbirim, qalmayıb dözüm.
Varlı ona dedi: - “Mənə qulluq et,
Evimdə işləyib məqsədinə yet.
Həm yuvan olacaq, həm də çörəyin,
Dərddən ağrımasın daha ürəyin.
Tacirəm, zənginəm dövlətim çoxdu,
Mənimtək bu yurdda bəxtiyar yoxdu”.
Varlının mülkünə gəldi o kişi,

Daha rəvan getdi onun hər işi.
Tacir mal dalınca gedir bir müddət,
Zənənin ağrısı eyləyir şiddət.
Kasıba bir oğul doğur həmən gün,
Onların bəxtinə olur toy-düyün.
Uşaq doğulanda sınır döşəmə,
Döşəmə altında qızıl sən demə.
Qızıldan bir sıxma gizləyir kasıb,
Sonra da o yeri izləyir kasıb.
Sınmış döşəməni düzəldir bir an,
Sanki uçmayıbmış ora heç zaman.
Ay ötür, il dönür varlı da dönür,
Ayrı həvəs ilə könlü döyünür.
Deyir başqa yerə köçüb gedirəm,
Oranı özümə məkan edirəm.
İstəsən evimi sataram sənə,
Ya pul, ya da qızıl verərsən mənə,
Kasıb fikirləşir onsuz varım yox,
Ev-eşik almağa iqtidarım yox.
Tapdığım qızılı verərəm ona,
Duyuq düşsə əgər ziyan nə cana?
Qovar, köç-külfəti yığıb gedərəm,
Ayrı bir məkanı yuva edərəm.
Deyir, varlı ağa, pul yox qızıl var,
O mənim bəxtimə, taleyimə yar.
Qızıl sənin olsun, ev isə mənim,
Tale gəmisində həyat yelkənim,
Qoy üzsün zamanın dənizlərində,
Bəxt gülsün üzünə kənizlərin də.

Varlı o kasıbdan qızılı alır,
Kasıb da varlıya bir nəzər salır.
Görür xəbərsizdi varlı yatardan,
Qurtarır könlünü kasıb da dardan.
Varlı evi satır qızılı alır,
Ayrı məmləkətdə yurd-yuva salır.
Qalır o var, sərvət kasıb kişiyə,
Oğlu, arvadıyla evə-eşiyə,
Kasıb sahib çıxır bax o zamandan,
Qurtulur ürəyi ahdan, amandan.
Deyir, ey bu yurdun Allahı şükür,
Başıma fələyin cah-cəlal tökür.
O yurdda kasıblıq hey üzdü məni,
Könlümə yağdırdı çiskini, çəni.
Burdakı Allahın rəhmi böyükdür,
Ordakı Allahın zəhmi böyükdür.
Düşünür qocanı mən tapım daha,
Çatdırsın sözümü orda Allaha.
Kasıb çox arayır qocanı tapır,
O söz köhlənini şimşəktək çapır.
Deyir sözlərimi yetir sən ona,
Mən onun əlindən gəlmişdim cana.
Burda həm sərvətim, həm hörmətim var,
Pul hər çətinliyin burnunu ovar,
Tanrı dərgahına tez yetir qoca,
Deyir: “Var yetişib dünənki aca.
Ordakı Allahdan ağzı duada,
Ötüşüb bəxtindən qüssə, dərd, qada”.
Tanrı deyir: “Yetir o kasıba sən,

Onun ruzisini mən yazmışam, mən.
Ruzisin bir abbas vermişəm onun,
Sanmasın o varı gündəlik donun.
Doğulan uşağın ruzi, pul, para,
Onunçun o kişi yetişib vara.
Ananın qarnında olarkən hələ,
Yazdım o uşağın alnına belə.
Yetir o kasıba İlahi birdir,
Talelə, qədərlə Tanrı əlbirdir.
Allahın hökmünü yadına salsın,
Uşağa yazdığım ruziylə qalsın".
Yetişib kasıbın evinə Qoca,
Dedi: - "bəni-bəşər, Allahdı uca,
Oğluna yazılan ruzidir bu var,
Odur ki, bəxtinə sərvət olub yar.
O tək Yaradana şükürlər eylə,
Onun hüzuruna dualar söylə.
Onun əlindədir ruzinin özü,
Odur ki, doymayır bəşərin gözü.
Sənə kasıblığı o yazıb, kişi,
Sanma bu bir başqa Allahın işi!"..
Kasıbın köksündən qopdu qəm ahı,
Sandı şükürlərlə min yol Allahı.
Dedi: - "Rəbb, bağışla sən bu bəndəni,
Sənin hüzurunda o səhv edəni.
Oğlu da, varı da sən verdin mənə,
Odur ki, bir qulam, İlahi, sənə!".
Başına, gözünə hey döyə-döyə,
Hər gün əllərini o dikdi göyə.

Kasıb şükürlərlə çatdı mərama,
Kaş hamı yetişə arzuya, kama.
Bəşərin köksündə bitsin xoş niyyət,
Necə ki, xoş yetdi sona rəvayət.

4.05.2000

ANA LEYLƏYİN HEKAYƏSİ
(olmuş əhvalat)

Deyirlər ki, bir kənddə,
Tək çinarlı həyətdə,
Qoca və qarı vardı.
Onlar erkən durardı,
Qarı təndir qalardı,
İsti çörək salardı.
Bir yamyaşıl baharda,
Dopdolu bir naharda,
Qondu çinara leylək,
Könlündə varmış dilək,
Çinarın lap başında,
Budaqların qaşında,
Gözəl bir yuva tikdi,
Yuvaya saman tökdü.
Sonra üç yumurtanın,
Örtdü çör-çöplə yanın.
Qanadın gərib yatdı,
Arzuya, kama çatdı.

Az keçmədi üç bala,
Oldu leyləyə qala.
Ata leylək gələrdi,
Yeməyi tən bölərdi.
Balalarla oynaşar,
Sevincdən aşar, daşar,
Sonra uçub gedərdi,
Onları şad edərdi.
Ana leylək onları,
Bapbalaca canları,
Yedirib, içirərdi,
Qanadın keçirərdi,
Yuvanın dörd yanına,
Od dolardı canına.
Leylək qanad açanda,
Yem dalınca
uçanda,
Günəş göydən baxırdı,
Sinəyə od yaxırdı.
Çinar təndirə yaxın,
Yarpaqlar axın-axın,
Təndirə meh səpirdi,
Üz-gözündən öpürdü.
Qarı inəyi sağdı,
Sonra çır-çıpı yığdı,
Təndiri alışdırdı,
Maşayla qarışdırdı.
Ana leylək uzaqdan,
Lap kəndə yaxın dağdan,

Gördü çinarın üstü,
Gah alov, gah da tüstü.
Qanad açdı yel təki,
Dağdan aşan sel təki,
Gəlib özün yetirdi,
Tamam ağlın itirdi,
Təndirə atdı özün,
Yandırdı üzün, gözün.
Qarı lap çaş-baş oldu,
Buludlar təki doldu.
Qışqırıb haray saldı,
Ələlin təndirə saldı.
Yanan leyləyi tutdu,
Təndirdən çölə atdı.
Leylək isə nə vaxtdan,
Köçmüşdü bu həyatdan!
Partlamışdı ürəyi,
Puç olmuşdu diləyi.

Leylək elə zənn edib,
Balalar əldən gedib.
Körpələri yanıbdı,
Həyatı dayanıbdı.
Uşaqlar üçün ana,
Ürəyi yana-yana,
Ömrə dedi, əlvida!
Həyatı etdi fəda.
Balalarsa yatmışdı,
Yuxuya bal qatmışdı,

Bir azdan ata leylək,
Qorxu içində, ürkək,
Uçdu gəldi uzaqdan,
Qondu çinara bir an.
Hüzünlə baxdı, baxdı,
Gözlərindən yaş axdı...
Balaları nazladı,
Neçə gün pərvazladı.
Ata leylək onları,
Bu biçarə canları,
Böyüdərək uçurtdu,
Ata haqqını tutdu!
Bu həyətdən qaçırtdı.
Yuvanı sökdü leylək,
Uçdu, sanki bir mələk.
Ananın haqqı təki,
Yoxdur ən ağır çəki.
Ondan qurtulmaq çətin,
Ömrü - bəşəriyyətin!..

12.04.2000

YERLƏ GÖY ƏFSANƏSİ

Çox-çox min illər qabaq,
Göy gözəl qız, ayqabaq,
Yer döyüşkən, hünərvər,
Ən məğrur, ən igid ər,

Sevdilər bir-birini,
O pak könül sirrini,
İnis-cinis bilməzdi,
Bir kimsə sevilməzdi.
O vaxt nə bir dam vardı,
Nə də bir adam vardı.
Yer göyə aşiq idi,
Göy yerə işıq idi.
Nə savaş, nə qan, qada,
Heç bilmirdi dünya da!
Məhəbbətin şövqünə,
O şahanə eşqinə,
Göy üzünü bəzədi,
Mələklərə bənzədi.
Könlü bir mələr quzu,
Şan-şan düzdü ulduzu.
Göy alışan bağrına,
Qoymadı eşqi sına.
Saçları zülmət gecə,
Yeri ram et
di necə?
İncə belə ay kəmər,
Nurmuş zülmətə qəmər.
Gündüz göyün ağ bəxti,
Göy ilahi xoşbəxti,
Ağ buludlar örpəyi,
Şehli səhər ipəyi.
Külək könül sevdası,
Bə`zən hicrana ası,

Elə güclü əsərdi,
Göy Yerə tələsərdi.
Sinədə elə atəş,
Onun da adı Günəş.
Göy Yeri qızdırardı,
Hicranı azdırardı.
Yer də öz növbəsində,
O ilıq nəfəsində,
Göy qızı ovudardı,
Ayrılığı udardı.
Yer Göyün pak eşqiylə,
O şahanə zövqüylə,
Dörd fəsillə bəzəndi,
Hey daranıb düzəndi.
Dağlar kürəyi oldu,
Sellər ürəyi oldu.
Soyuq, qarlı qış çağı,
Göyün ayrılıq dağı,
Bahar eşqi, vüs`əti,
Göy qızla səadəti,
Yay alışan bağrımış,
Payız acı-ağrımış.
Beləcə məşuq, aşiq,
Verdi dünyaya işıq,
Göyün həsr
ətli vaxtı,
Ağlardı qara baxtı.
Gözləri buludlardı,
Yanan könlü udlardı,

Bəbəkdəki göz yaşı,
Olardı Göy yağışı.
Sürünüb dizin-dizin,
İsladardı Yer üzün.
Yer ağlayan Göy qızı,
Ürəyi aza-aza...
Dumandan don biçərdi,
Bağırı qan içərdi.
Bə`zən elə olardı,
Göy həsrətli qalardı.
Bu həsrətin atəşi,
Batırardı günəşi,
Gözündən od çıxardı,
Yandırardı, yaxardı.
Bu od qəzəbli şimşək,
Sinəsi təbli şimşək,
Yerə işıq saçardı,
Başı üstə uçardı,
Yer də Göyün sevdasın,
O qəmzəli ədasın,
Duyaraq anlayardı,
Özünü danlayardı.
Sonra Göyün üzündə,
O atəşli gözündə,
Buludlar toqquşardı,
Gurşad aşıb-daşardı.
Yer də Göy kəmalının,
O mələk cəmalının,
Həsrətiylə yanardı,

Ürəyi dayanardı.
Titrərdi Yerin bağrı,
Qopardı acı, ağrı
Göyə büləndolardı,
Saralardı, solardı.
Bu titrəyiş, zəlzələ,
Alardı Göyü ələ,
Göylə Yeri Yaradan,
Verdi onlara pak can.
Aşiq, məşuq ucaltdı,
Göy bağrına nur qatdı,
Yerdə həyat yaratdı.
Rəbb hökmüylə sevənlər,
Qəlbdə dumanlar, çənlər,
Min illərdi beləcə,
Həm gündüz, həm də gecə
Bir-birini haraylar,
Ötdükcə illər, aylar,
Dolub, boşalan dünya,
Yer, Göyə qalan dünya,
Göylə Yerə əsirdi,
Bu eşq uca qəsirdi.
Onların məhəbbəti,
Həm aşikar, xəlbəti,
Dünyamıza bir sirdi,
Eşqilərində birdi.
Sevgi aşıb daşarsa,
Göy Yerə qovuşarsa,
Bəşərin odu sönər,

Dünyanın çərxi dönər.

Ona görə İlahi,
Düşünərək saba
hi,
Göylə Yerə səd qoyub,
Arada sərhəd qoyub.
Salıb qəlbləri heydən,
Ayırıb Yeri Göydən.
Bəşər üçün əbədi
Bu eşq həyat mə`bədi!

13-14.04.2001

POEMALAR

GECƏDƏN DOĞAN ÖLÜM

İyirmi yanvar şəhidlərinə!

Qanlı yanvar günündən,
O qara düyünündən,
Düz on il ötüb keçib.
Düşmən milləti biçib,
O yanvar gecəsində,
Bakının küçəsində,
Tank, beteer şütüyür.

Güllələr insan üyür.
Əliyalın şəhər də,
Boğazında qəhər də,
Ağlayır uşaq kimi,
Haraylayır həkimi.
“Təcili yardım”ların,
Dünya bilmir ah-zarın.
Şütüyür küçə-küçə,
Gecə, nə qanlı gecə!
Maşınlar parça-parça,
İnsanlar qaça-qaça,
Öz canını gizləyir.
Şər anbaan izləyir,
İnsanların canını,
Ölüm kəsib yanını,
Yardım, yardım söyləyir.
Haqqı yoldan əyləyir,
Anaların harayı,
Bakı ölüm sarayı,
Dönüb qan dənizinə.
Yağı öz kənizinə
Bu gecə divan tutur.
Deyir sən kölə, qotur,
Əysəm qəddin nədir ki?
Sənin həddin nədir ki,
Ağana ağ olursan?
Önündə dağ olursan?
Dam altda dirəyin var,
Bir tikə çörəyin var,

Ye, başını dik yerə!
Üzülmə gəl boş yerə.
Gül desəm, gülməlisən,
Öl desəm, ölməlisən!
Baxmayıb mən deyənə,
O qəddini əyənə,
Kişiyəmmi deyirsən?
Özünü nə öyürsən?
Qul ağaya ağ olmaz!
Ona xoş növrağ olmaz.
Ver, dedim torpağını,
Gülşənini, dağını,
Erməni qardaşıma.
O könül sirdaşıma,
Sənsə mənə yox dedin,
Ürəyimə ox dedin.
Bu gecə ki, zülümə,
Min-min saysız ölümə.
Mən vermişəm fərmanı,
Axsın Bakının qanı...

O gecə divan oldu,
Bakımız ünvan oldu,
O tökülən qanlara.
Silahsız insanlara.
Nə dünya kömək etdi,
Nə fələk dada yetdi.
Qanla dolu hər küçə,
Qorxmadılar o gecə

Maşınları sürənlər,
O igidlər, ərənlər.
Daşındı yaralılar,
Min yerdən paralılar,
Neçə xəstəxanaya,
Təsəlli hər anaya
Həkimlərin yardımı!
Bu müqəddəs addımı.
Yaralar necə dərin,
O gecə ölənlərin
Sayın bilən olmadı!...
Evə gələn olmadı
Evindən gedənlərdən
Güllələr güdənlərdən...
Hay da belə qalmadı,
Kim saçını yolmadı?

Allah, qara yanvarın
Yağısı necə harın.
O gecə partladıldı,
Ölənlərə qatıldı,
Televizya binası!
Millət canından ası,
Küçələrdə vay-şivən.
Haqq varmı, deyəm güvən?
Su yerinə axdı qan,
Bədənlərdən uçdu can.
Yazmaq olmur dəhşəti,
O amansız vəhşəti!

İçimiz qanla dolu,
Bağlandı haqqın yolu.
Gecə dəniz limanı,
Kəsildi ah, amanı,
Gəmilər fit çaldılar,
Dünyaya hay saldılar.
Dözdü gülləyə necə?
Çəpər çəkdi o gecə,
Gəmilər liman boyu.
Qurdular güllə toyu.
Yağılar gəmilərə!
Nalə etdi dağ, dərə.
Ürək odu günəşdən
Ah, gəmilər atəşdən
Oldular dəlik-deşik,
Xəzər onlara beşik.
Səhərədək köksündə
Özü də qara gündə
Yırğaladı onları
O üsyankar canları!..

Açıldı qanlı səhər,
Boğazında kin, qəhər.
Hamı küçəyə axdı.
Qanlar ürəyi yaxdı.
Ölüsünü gəzən kim?
Haqqımızı əzən kim?
Küçə-küçə qərənfil,
Oldu didərgin, səfil.

Necə şan-şan üzüldü.
Küçələrə düzüldü,
Ağladı bizim kimi,
Yanan qəlbimiz kimi.
O gecənin ahından,
O qara günahından
Aşdı Kirov heykəli,
Sındı quduzun əli!
O Sovet imperyası,
Qurdu millətə yası.
Əsrin əvvəllərində,
O matəm illərində,
Min doqquz yüz on səkkiz,
Yağıyla ölüm əkiz.
Qırdılar mart ayında,
İnsanlar can hayında,
Nalələri boğuldu.
Qan dənizi doğuldu!
O qırğınlar zamanı,
Öldü xalqın amanı.
Dağüstü min-min məzar,
Ağladı Yer-Göy zar-zar!

Bir neçə il ötüşdü,
Elə məqam yetişdi,
Dağılsın o məzarlıq,
Bitsin o ahi-zarlıq!
Dağüstü seyrəngaha,
hər açılan sabaha,

Bəzək olsun dedilər,
Ürəkləri yedilər.
Allahım, bu nə sitəm?
Unudulsun o matəm?
Qəbirstanlıq söküldü,
Qara asfalt töküldü.
Kirovun heykəlini,
O iyrənc təməlini.
Qoydular lap yuxarda,
Həqiqət söylə harda?

Zaman gəlib yetişdi,
Allahım, bu nə işdi?
həmənki, qırğın, ölüm,
Ağladıq zülüm-zülüm.
O yanvar gecəsində,
Elin hər küçəsində,
Haray çəkdi ah, fəryad.
Dillərdən qopdu imdad!
Bakı verdi gecə can,
Döyüldü Azərbaycan!..

Gecəni uddu səhər,
Boğazlarda kin, qəhər,
Toyların qərənfili
Oldu ahlar
səfili.
Səpildi küçələrə,
Ağladı gecələrə!

Ölənlərin sayı çox,
Millətinsə hayı yox,
Tabutlar yığın-yığın,
Allah, söylə bu dağın?
Ağırlığın çəkməyə,
Yağı qanın tökməyə,
Bizdə qüdrət olarmı?
Bu qan yerdə qalarmı?!
Qanın damlası baha,
Bəsdir unutduq daha,
O tökülən qanları,
O şəhid insanları!
Çiyinlərdə tabutlar,
Puça dönmüş həyatlar,
Allah da susmuş aha,
Dağüstü seyrangaha,
Axışdı o gün millət,
Tükənməyən bu zillət,
Göyün bağrını dəlmiş,
Zülüm göyə yüksəlmiş.
Yağdı qan leysanları,
Günahsız insanları
Məzarlara qoydular!
Ürəkləri oydular!
Yağılar sitəm ilə,
Millət bu matəm ilə,
Qaralara boyandı!
Allahım, bu nə qandı?
Şəhidlər Xiyabanı,

Məzarlar biyabanı,
Yaşamaq əlacımız.
Şərəfimiz tacımız.
Unutsaq lənət bizim,
Qorusaq hörmət bizim.
Millətin birlik canı,
Şəhidlər Xiyabanı!
Gecə tökülən qanlar,
Amansız qətlianlar,
Xiyabanı yaratdı,
Bütöv xalqı oyatdı!
Sədd itdi yolumuzdan,
Zəncirlər qolumuzdan.
Qırıldı o gecədən,
Bu acı bilməcədən,
Çaşdı imperya düzü,
Çökdü, dağıldı özü!
Bayrağımız ucaldı,
Millət qələbə çaldı!
Qaniçən yadelliyə,
Niyə qul olaq, niyə?
Üçrəngli bayraq mətin,
Əlində bu millətin,
Səadət payı oldu,
Düşmən taxtı oyuldu.
Şəhidlərin eşqinə,
İgidlərin şövqünə,
Bir abidə ucaldı,
Üfüqlərdən bac aldı.

Kirovun heykəlinin,
O zorun təməlinin
Dayandığı o yerdə,
Şər də əyilir mərdə!

Şəhidlər Xiyabanı,
Millətin birlik anı,
Qara yanvardan bizə
Bu günki, günümüzə
Müqəddəslik mə`bədi!
Qalacaqdır əbədi.
Gəlib keçən illərə,
Gələcək nəsillərə!

O gecə qətliamı,
On səkkizin davamı.
Qara yanvar o gündən
O nalədən, o ündən
Matəm günüdür bizə!
Bütöv millətimizə!
O günü unudanın
Bizdən saymayın qanın.
Onun özü də yaddır,
O yağıya övladdır!
Vətən bizim canımız,
Damarlarda qanımız.
Şəhidlər Xiyabanı,
Onun şərəf ünvanı,
Hamımızın Kə`bəsi!

Ordadır haqqın səsi.
Sən ey, o yerdən ötən?
Ordan başlanır VƏTƏN!..
24-25.01.2000

HƏYATDA DOST İDİK,
ŞƏHİDLİKDƏ DƏ

Sumqayıtlı tələbə şəhidlər
Oktayla Rövşənin əziz xatirəsinə

Tələbə həyat tələbi

Uyğusuz gecələri calayar ay-ulduza,
Hər axşam yuxusunda nişan aparar qıza,
Bə`zən həvəsi çatmaz mühazirəni yaza...
Tələbə.

Gözlərindən hər zaman həyat eşqi oxunar,
Dəliqanlı könlünə soyuq baxış toxunar,
Xəyalları əlçatmaz zirvə başına qonar,
Tələbə.

Ehtiyacı olanlar dəblə yollana bilmir,
Bəzəkli dükanlara illə dolana bilmir,
Aldığı təqaüdlə bir gün dolana bilmir,
Tələbə.

Neçə bayram, ad günü, hər dost toyu-düyünü,
İmkansızlıq bəxtində tilsimlərin düyünü,
Yolda, metroda, evdə çağlayar səsi, ünü,
Tələbə.

Sevgiləri pəjmürdə könlə sığmaz nəş`ələr,
Üsyan edər ürəkdə, sinədə əndişələr,
Yuxusuna qor olar üzüay bənövşələr...
Tələbə.

Vətən istiqlal deyib küçəyə axışanda,
Haqqın bağrı od tutub, haqqın səbri daşanda,
Dözümlə, mətanətlə, qəmlə qardaşlaşan da,
Tələbə.

Gecəsi tonqal oldu Azadlıq meydanında,
Dönə-dönə şəhidlik yazıldı al qanında,
Qurban verir vətənə bir quruca canın da,
Tələbə.

Gündüzləri axşamı bəzəkli şərq nağılı,
Sabahın həyat zəngi, sabahın pak ağılı,
Yaratmaq eşqi sonsuz, imkan qapısı bağlı,
Tələbə.

İmtahan, sınaq anı, həyəcanlı zamanlar,
Dəhlizdə pıçıldaşar dəliqanlı cavanlar,
Ani bir dolaşıqdan müəllim üzün danlar,

Tələbə.

“MƏN CƏNNƏTDƏ OLMUŞAM”...

İnşaat unverseti,
Tələbələr heyəti,
Axışdı dəhlizlərə,
Sevinc qondu üzlərə.
Rövşən Oktayla dinməz,
Arzulardan yenilməz,
Avtobusa yollandı.
Ürəyi qubarlandı,
Yaddaşı yuvarlandı.
Xəyalların fövqünə,
Tanrının haqq zövqünə,
Ovsunlanaraq ürək,
Qanadlanaraq dilək,
Dedi: - “Oktay bu axşam,
Mən cənnətdə olmuşam...
Rö`yanın qucağında,
Tanrının ocağında,
Bu ziyarət əndişə,
Dözməyirdim gərdişə.
Bir ilahi səs mənə,
Hey deyirdi gəlsənə,
Gördüm haqq diləkləri,
Ağdonlu mələkləri...

Qeyri-adi hadisə, uçan boşqablar sirdi,
Zamana bənzər insan əl-ayağı dəmirdi.
Bu oyuncaq dünyaya haqdan bunlar əmirdi,
Əzrayılla bəşəri zaman-zaman gəmirdi.
Alimlər baş sındırır zülümdən qurtulmağa,
Sirli səyyarələrə bircə yol atılmağa.
Göylərin amacı nə, niyə biz üzülürük?
Zülümlə yaşayırıq, zülümlə də ölürük...

İlahi səs nə qadın, nə də kişi səsiydi,
Sanki Tanrı təbili, Tanrı təntənəsiydi.
Doğulanda insanı lal, kar, kor edir Allah,
Vaxt verir ona sonra hər qırx gecə, qırx sabah,
İlahi zənginliyi dəyişməsə dünyaya,
Vara, pula satılıb, batırmasa ah-vaya,
Pak ruhuna rəhm edib aparır öz yanına,
Qovuşur mələk donlar o günahsız canına.

Allah rəhmətinə getdi deyərək,
Ağlarıq doğmalar etdi bizi tərk.
Tanrı yaxşıları səslər yanına,
Cənnəti bəxş eylər mələk canına.
Tanrıya kəc baxdı namərd insanlar,
Əskidən dünyanın bağrında qanlar!
Ehtiyac üzündən əsrlər batır,
Torpağın altında ehramlar yatır.
Allahı paraya dəyişən bəşər,
Axırda qılıncla ayağa düşər.

Oda inananlar odda yandılar,
Canları çıxanda haqqı qandılar...
Havanı, dənizi, suyu qoruyun,
Ölüm sizinlədir hər addım duyun.
Gözəllik Allahın əlində şamdı,
Onu gödəldənin ömrü axşamdı.
Sonunuz uçurum, sonunuz ölüm,
Bitib-tükənməyir vurhavur, bölüm.
Cisminiz məzara yamaq olacaq...
Allah əbədidir, Allah qalacaq!”

Bu şahanə kəlmələr düşməkçin dil-ağıza,
Rövşənin dediklərin Oqtay yazdı kağıza.
Qələm alışdı-yandı bu ilahi məramdan,
Qaç dedi, ey insanlıq, sonun çatıb haramdan.

YURD SƏNGƏRƏ ÇAĞIRIR...

Lal olubmu cəh-cəh vuran dil-ağız?
Yanan ellər vay-şüvəndən bağırır.
Ermənilər əlində qul gəlin, qız...
Vətən oğlu, yurd səngərə çağırır!

Yurdlar əsir, yurdlar qəmli, yurdlar ah,
Duman doğur, matəm doğur hər sabah,
Sınaq dəmi, imtahanmı, ay Allah?
Vətən oğlu, yurd səngərə çağırır!

Meydanlarda mənəm, deyən ər hanı?
Kürsülərə yamadılar ad-sanı,
Qumara da qoydu insan insanı,
Vətən oğlu, yurd səngərə çağırır!

Hünər, şərəf, qeyrət, namus ordadır,
Mənliyimiz ayaqlarda, zordadır,
Başdan-başa Azərbaycan dardadır.
Vətən oğlu, yurd səngərə çağırır!

* * *

Baxıb modasına, baxıb hüsnünə,
Deyirik özünü salıb nə günə?
Laqeyd baxışı qəlbi də dəlmir.
Şəhərli oğlandan xoşumuz gəlmir.
Yerləri çayxana, alver sövdası,
Adamı uzaqdan yıxır ədası.
Bəzəkli xanımlar, videosalonlar,
Xarici maşınla ağlı alanlar...
Çoxu atasının puluyla yaşar,
Gecələr barlarda qızla dolaşar.
Şəhərə, bölgəyə bölər vətəni,
Forsuyla aşırar, Vallah, yetəni.
Könlünü, qəlbini sanırıq dəmir,
Şəhərli oğlandan xoşumuz gəlmir.

* * *

Fəqət, faciyəli ölüm gecəsi,

Qaldırdı şəhərli oğullar səsi.
İyirmi yanvarda tökdülər qanı,
Çoxu gizlətmədi evlərdə canı.
Şəhər oğlanları vallah, bəlkə də,
Nə Şuşa, Qarabağ görmüb heç və`də,
Dağına, daşına bələdliyi yox.
Fəqət, əsir yurdlar qəlblərinə ox.
Tələbə Oqtay da, Rövşən də bir gün,
Yanan sinələrdə dərdləri düyün.
Könüllü yollandı cəbhəyə onlar,
Qanlı savaşlara getdi cavanlar.

* * *

Fəqət, o ellərdən qaçan kişilər,
Gün-güzəran üçün künclərdə işlər.
Laçın sağlığına, Şuşa eşqinə,
Coşar məclislərdə neçə qəlb, sinə.
Qədəhi, qədəhə vurub gözləyər,
Evdə televizoru hər gün izləyər.
Laçın şərəfinə, Şuşa eşqinə...

SEVGİLƏR DƏ ŞƏHİDDİ...

Avtobus vağzalında hər gün tünlük, qələbə,
Sumqayıtdan Bakıya axışır, hey tələbə.
Gülüşləri səhərin bağırında atəş, ocaq,
Bu gün də cavanlarla dopdolu dayanacaq.
Oktay dostu Rövşənlə hərarətlə görüşür,
Birdən onun qərarı qəfil yadına düşür.

Deyir qardaşım, daha dözməyirəm burada,
Hökümümlə qınama canım qalıb orada.
Əsir yurdlar könlümə köz basır gecə-gündüz,
Küçəyə çıxmağa da qalmayıbdı məndə üz.
Gedəcəyəm könüllü vətəni qorumağa,
Erməni bir köçəri yurdumda olsun ağa?
Şəhid düşsəm qanım da torpağa qarışacaq,
İncik düşmüş vicdanım mənimlə barışacaq.

* * *

Rövşənə elə gəldi qan axırdı səhərdən,
Könlü fəğanla dolu coşdu sinə qəhərdən...
Haçan yola düşürsən söylə getdiyin günü?
Qoru düşməndən, qardaş, sən Allah ər köksünü.
Evdəkilər bəllidir, artıq qərardan axşam,
Anam doldu buludtək, kədərli keçdi o şam.
Bir neçə gündən sonra Laçına gedir ordu,
Qorumaqçın yağıdan ən uca əsir yurdu.
Halal eylə sənlə keçirdiyim anları...
Mən şəhərdə qoyuram qayğısız zamanları.
Çöhrəsində bir atəş dedi: - "De Gülbutaya,
Səni sevən o oğlan, sabah gedir davaya"...
Ağlayıb gözlərindən axıtmasın yaşları,
Mən gedirəm, qızların uca olsun başları.
Namus, ismət ayaqlar altına döşənməsin,
O ana örpəkləri torpaqlara enməsin!..

* * *

Rövşənlə halallaşıb ayrıldı o gün Oqtay,
O gedəndən cəbhəyə keçməmişdi birca ay,
Laçın yolunda, fəqət qəfil minaya düşdü,

Tale atı zirvənin bağırından sürüşdı.
Şəhid oldu may günü Sumqayıtlı tələbə,
Vətən dara düşəndə şəhidlikdi qələbə!

ŞƏHİDLİK QEYRƏTİN ZİRVƏSİNDƏDİR

Gəldi sumqayıta o şəhid Oktay,
Ana sinəsini parçaladı vay!
Allaha, Tanrıya e`tiraz etdi.
Yanan ürəyini qəmli saz etdi.
Matəmə büründü o gün dost, tanış,
Qopdu dodaqlardan yağıya qarqış,
Ağlar bəbəklərdən çaxdı şimşəklər,
Qaraya boyandı göylər, fələklər.

* * *

Şəhidlər xiyabanı, Sumqayıtın and yeri,
Tələbələr axışır, nalə ağladır yeri.
Gülbutanın gözündə kədər dolu yağışlar.
Əsrə, dünyaya üsyan o matəmli baxışlar.
Ədilənin gözündə yaş qalmayıb ağlasın,
Ana basıb bağrına məzara yar balasın.
Rövşəninsə ürəyi qisas deyir bağırır,
Perik düşmüş ərləri səngərlərə çağırır.

Dost itirmək dünyada, ən ağır bir qan, qada,
Donub canlı həyat da bu dəhşətli fəryada.

Rövşən qayıtdı evə könlündə dost ağrısı,
Sığmadı gen dünyaya bu gündən o doğrusu.
Fəqət, doğmalarına demək olsa da çətin,
Gizlətmədi dostuna o bağlı sədaqətin.
Gedəcəyəm cəbhəyə bil, agah ol, ay ana,
Həyat da bircə dəfə bəxş olunub insana.
Künc-bucaqda qoruyub saxlamaram canımı,
Almalıyam, yağıdan günü sabah qanımı!

Lətifə ananın gözündə kədər,
Dedi: - "Yollarına duvaçı qədər.
Uçubsa könlünün quşu davaya,
Gülləni hədərə atma havaya.
Saplansın qurğuşun yağı köksünə,
Zərbədən səma da, göy də diksinə.
Səni tapşırıram o tək Tanrıya,
Dədən Koroğlutək çək nərə, qıyya.
Əsir yurdumuzun çırağı yansın,
Erməni anası qana boyansın..."

Könlünü vermişdi Rövşən Gültaca,
Sevgisi istəyi ucadan uca!
Üzbəüz dayanıb iki sevgili,
Titrəyir gültacın əlində gülü...
Axır yanağından yaşlar sel kimi,
Zirvələrdə kimi, dərədə kimi?
Məktub yaz gözlərim yolda qalacaq,
Sinəm atəşindən alışan ocaq!
Gültaca təsəlli verdi Rövşəni,

Ölməyə getmirəm, gözlə sən məni.
Ayrıldı sevənlər o gün nəş`əsiz,
Pak sevgi ötməyir heç əndişəsiz.

Yollandı cəbhəyə Rövşən ürəklə,
Döyüşmək eşqiylə coşqun diləklə.
Ağdamda yerləşdi bir müddət onlar,
Ötdü bir neçə ay, ötdü zamanlar.
Ömrü neçə vuruş anından keçdi,
Güllələr min dəfə yanından keçdi.
İki ay döyüşdü tələbə orda,
Bir gün də dedilər, Ağdərə darda.
Güclü hücum edib erməni ora,
Gərək milli ordu cəbhəni yara.
Atılın igidlər, haydı irəli!
Min-min yağı qırsın hər igid əli!
Ağdərə döyüşü qanlı bir savaş,
Ağlayır güllədən hər dərə, hər daş,
Səmanın köksündə qırad dolaşır,
Erməni cəlladlar həddini aşır.
Atılır savaşa Rövşən cəsur, mərd,
Köksündə alışır o qəlpə namərd.
Onun şəhid ruhu göylərə uçur,
Cismisə torpağın bağrını qucur.

Şəhidlər xiyabanı, yenə ah, yenə təlaş,
Qardaş, bacı, yar-yoldaş gözlərində qanlı yaş.
Lətifə ana nalan, Lətifə ana qəmli,
Dünyaya üsyan edən ürək dərddən ələmli.

Şəhid olub sevdiyi candan əziz balası,
Uçub zirvələr dələn ən uca şiş qalası.
Çəkib bakirəliyi bir kənara Gültacı,
Düşüb başından əfsus, ilk məhəbbət, eşq tacı.
Eşitməsinlər deyə sığınıb həyasına,
Ağlayır için-için sevigisinin yasına!

Qoşalaşıb Oktayla Rövşənin şəhid ruhu,
Cismi məzarda ögar, ərşə dirənib ahı.
Tanrının haqq dünyası qucaqlayıb onları,
Vətən eşqinə qurban o şəhid cavanları.

Torpağa sarılmış şəhid məzarlar,
Qeyrət zirvəsində haqqı bəzərlər...
9.1.1994

QARABAĞDA HAL QALMADI

Azərbaycanın milli qəhrəmanı
Cəmilli kəndinin sakini Salahov
Şakir Şamil oğlunun müqəddəs ruhuna...

Sıldırımda sal qalmadı,
Yalmanlarda yal qalmadı,
Ermənin hiyləsindən

Qarabağda hal qalmadı.

Qırx gündü göylərdən od-alov yağır,
Qəhərdən fələk də buludu sağır.
Sönüb Qarabağın göyündə həyat,
Yerin sinəsi də çat veribdi, çat.
Umudlu, Malıbəyli, Quşçular nalan,
Hər kol-kos, hər kaha qan axıdır, qan.
Balıca, Xənəzək, Xankəndi yağı,
Güllə boran edir hey solu, sağı,
Erməni qaynaşır bu üç obada,
Alıb Cəmillinin üstün qan-qada.
Əsirdi qırx gündü Cəmilli burda,
Daşnaklar yağıdı günahsız yurda.
Ümidlər üzülüb, qəlblər pəjmürdə,
Qorxu, qan, fəlakət hər bir ömürdə.
İlahi, qüdrət var yəqin kədərdə,
Dərd də azğınlaşır dözəndə dərdə!

Cəmilli tanıyır Şamil dayını,
Ucaltdı beş oğul hünər sayını
Evinin xanımı Əfayət xala,
Oğul böyüdürdü igid, mərd bala.
Şakir Cəmillidə məktəbə getdi,
Mərdlik zirvəsinə bu eldə yetdi.
Beş oğul böyüdən Əfayət xala,
İgid bəsləyirdi yurduna qala.
Qız - nəsil anası, oğulsa - ordu,
Vətən qala düşsə qoruyar yurdu!...

Əfayət xanımla Şamil kişini,
Oğullar qordu şərəf işini.
On-on beş qəlpəylə Yaşar sağ qaldı,
Amansız ölümə qələbə çaldı.
Vücudu isinmir evə-eşiyə,
Deyir: “Kişi girməz dəlmə-deşiyə.
Məmləkət haraya çağırır bu gün,
Çəkilsin yağının köksünə düyün.”

Fəqət, bu oğullar arasındaca,
Biri layiq oldu ən ülvi taca.
Duyğular köksünə sığmadı Şakir,
O şəhid qəbrin də məzarlanıb sir.
O səksən səkkizin noyabr ayı,
Qondu Qarabağa erməni vayı.
Torpaq azarına tutulan millət,
Qəlblərinə hakim sağalmaz illət,
Unutdu bu elə qonan günlərin,
Qarabağlılarla toy-düyünlərin.
Tülkü tək çəkildi kol-kos dibinə,
Vurdu Qarabağın yara qəlbinə.
Şakir Cəmillinin qeyrətli mərdi,
Köksə sığışdıra bilmədi dərdi.
Mən öz torpağımda didərgin olum?
Bəs hanı kişilik, mərd əlim-qolum?
Sarıldı gumanı ov tüfənginə,
Tapındı imanı Allaha, dinə.
Qırx gündü əsirdi Cəmilli eli,
Qız-gəlin gözündən axıdır seli.

Hər günün əzabı ərşə dirənib,
Göyün sinəsindən əzrayıl enib.
Analar nalandı, daşnaklar qanlı,
Yağı fitnəsi bol, yağı divanlı,
Baş çavuş deyir ki, bir nəfər gərək,
Əsir Cəmilliyə olmalı dirək.
Şakir gözləmədən bir əmir-filan,
Atılır odlara, eyvah bircə an.
Düşmənin başını feillə qatır.
Güllə qalanadək yağıya atır.
Erməni zənn edir qüvvələr gəlib,
Azəri gülləsi böylə yüksəlib.
Tülkü tək qorxaraq çəkilir kola,
Şakir yağıları gətirir yola.

Yarıb mühasirəni, Şakir çıxdı alovdan,
Cəmillini qopartdı bu dəhşətli tilovdan.
Qurtardı yağıların caynağından qızları,
Fələyin sınağıyla barışdı ulduzları.
Ana-bacı, qocalar çıxarıldı o gün də,
Ağılla qəlbə düşür açılmamış düyün də.
Şakirin igidliyi örnək oldu hamına,
Ölüm çəkə bilmədi, o vaxt onu kamına.

Hər gün vertolyot enir Xocalı limanına,
Daraşıbdı daşnaklar Qarabağın canına.
Namusuna sığınıb qaçır yurddan qız-gəlin,
Erməni gavurunun görməməkçin yad əlin.

Min illik yurdlarından baş götürüb gedir el,
Anaların gözündə gurşadlanır axan sel.
Xan qızı Natəvan da ruhuyla əl-amanda,
Fələkmi, əzrayılmı canda qoymadı can da.
Hər gün vertalyot saysız qoca, uşaqla dolur,
Salondasa körpəli analar saçın yolur.
Vertalyot yüklənmişdi bu gün də qırx nəfərlə,
Ölümə yollanırdı gedənlər bu səfərlə.
Şakir üç hərbçiylə gedənlərə pasiban,
Bilmədi ki, Şuşanın üstündə verəcək can.
İstiliyin aşiqi o stinger silahı,
Tuşlandı vertalyota qan eylədi sabahı.
Alışdı, yandı göydə zülümdən qaçan millət,
Bu nə höküm, ilahi, bu nə ölüm, nə zillət.
Cocuq, qoca fəğanı ərzin bağrını yardı,
Azərbaycan torpağın qırx yeni məzar sardı.

Əl-ələ tutaraq dörd igid əsgər,
Vertalyot səmada verərkən ləngər,
Şuşaya çatanda atıldı onlar...
Vətən torpağına qovuşdu canlar.
Budur vətən eşqi, yurda sədaqət,
Düşmənə, yağıya nifrət, həqarət.
Kişilik qeyrəti bir hünər oldu,
Bu qəhrəmanlığa göylər də doldu.

Qarabağ torpağı, dik tut başını,
Vermə yağılara bircə daşını.
Minlərlə Şakirin sipərdi sənə,

Bir gün istiqbalın dönəcək yenə.
Onda Şakirin də şəhid məzarı,
İnləyib-sızlamaz hey, zarı-zarı.
Nigaran ruhların qəbir daşları,
Axıtmaz torpağa şehli yaşları.
Ey milli qəhrəman, ey əyilməz mərd,
Bükməsin ruhunu bu əzablı dərd.
Qarabağ bizimdir, bizim olacaq,
Biz gedər, adınsa yurdla qalacaq.
Ötəcək vətəndən bir gün fəlakət,
Ayağa qalxacaq böyük məmləkət.
Güneydən-qüzeyə günəş doğacaq,
Zülmü, işğalları Tanrı boğacaq
Alıb dastanımı onda əlimə,
Gəlib Cəmillinin o pak elinə.
Məzarın başında odlu səs ilə,
Dünyanı titrədən od nəfəs ilə
Allah bir az ömür verərsə mənə
Düzüb, qoşduğumu deyəcəm sənə.

İgidlik müqəddəs, məzarın uca,
Qalacaq pak adın dünya durduqca
Ruhunu göylərdə qucar mələklər,
Oxşar ağılarla ünsüz fələklər.
Qarşında titrədi, endi fəlakət,
İgid qılıncıyla yaşar məmləkət.
Belə doğulmalı yurda vətəndaş!
Rahat yat, ey şəhid, pak ruhlu qardaş.
Önündə baş əyər ağlar qələmim,

Ölüncə gözümdən qurumaz nəmim.
Yanaram didilmiş şəhid canlara,
Yurduma edilmiş bu divanlara.
Ölsəm də, məzarım od tutub yanar,
Ahımdan zaman da, durub-dayanar.
Gözümün yaşları Xəzəri tutmaz,
Niyə bu fəqanım haqqı oyatmaz?
Minlərlə Şakirlər-şəhid torpağa,
Allah, son qoyular nə zaman dağa?
Vətən paramparça, yurdlar didərgin,
Ürəklər nigaran, ürəklər gərgin.
Allah, daha bəsdir qəsd etdin cana,
Nur ver istiqballa AZƏRBAYCANA!...

6.10.1994.

RUHLARIN FƏĞANI

Yağı tapdağı altında qalmış
torpaqlarımızda olan məzarlar da şəhiddi!...

I

ŞUŞA MƏZARSTANI

Şəhid düşmüş oğullara ağlayan,
Qara geyib köksü, qəlbi dağlayan,
Mənsəb itdi, namus itdi, ar itdi,
Tək yurdlar yox, məzarar da şəhiddi.
Əsir düşüb qəbirlər də zamandı,
Hər məzarın ruhu bir ah-amandı.
Qubarlanıb sinəmizdə ürək də,
İnlər iman, inlər zaman kələkdə.

Rüzgarların naləsi,
Ərzi dolandı səsi.
Əsir Şuşa qalası,
Qolu bağlı qul oldu.
Zülüm yoxdan doğuldu,
Çarmıxa çəkdi zaman.
Ərzi boğdu ah-aman,
Ruhlar göylərdə yaman,
Fəğan edib coşurdu.
Burada qəm daşırdı...

Şuşaya yağdı qırad,
Batdı tarix, batdı ad.
Ruhlar açaraq qanad,
Ərzdə nalə çəkdilər,
Qalaya ah tökdülər.

Pənah xan, İbrahim xan,
Yenidən verirdi can
Vaqifin gözündə qan,

Vidadinin yurd ahı
Ağladırdı sabahı.

Mələk donlu Natəvan,
Naləsi, qəmi rəvan.
Dilində zaman, dövran,
Ruhu Şuşa düzündə
Bir inciklik üzündə.

“Hanı mərd qalam” dedi,
“Hanı ər balam” dedi,
“Satqınlıq eli yedi”,
Bir nalə vardı anda,
Uçurdu qara donda.

Şuşa məzarıstanı,
Əsir pak adı-sanı,
Deyir, igidlər hanı?
Açsın bağlı qolumu,
Kəsib gavur yolumu.

II

LAÇIN MƏZARSTANI

Laçın tərlanların qoruq meydanı,
Axdı xainlərin əlində qanı.
Gəzdi yoxuşlarda şeytan barmağı,
Dəydi ormanlara yağı ayağı.

Laçın ucalıqdan dərəyə düşdü,
Allah bu nə fəğan, bu nə yürüşdü?
Ərləri yağıyla hər gün döyüşdü,
Laçın ucalıqdan dərəyə düşdü.

Laçın məzarları boynubükükdü,
Bu əsir qəbirlər tarixə yükdü.
Dolaşır minlərlə ruhlar, başında,
Laçın belə sitəm görmüb yaşında.

I-ci RUH

Məni qoyub qaçan elim, elatım,
Əbədi dünyada məzar həyatım.
Gavur ayağının altında yatım?
Bəs hanı bir kişi, ər əsir elə?
Min illik tarixi verdilər yelə.

2-ci RUH

Cismim murdarlanıb yağı izindən,
Yurdun qan tökülür qəmli gözündən.
Bu gün soruşuram Laçın özündən-
Hanı kabab çəkib, qədəh süzənlər?
Dağında daşında ər tək gəzənlər?

3-cü RUH

Bir zaman anaydım, neçə övladım,
Gözəl oymağımın dilində adım.
Fəqət, qəbir evim yağının, yadın,
Beş kişi böyütdüm bəslədim, eyvah,

Yağı tapdağına tuş oldum, Allah.

4-cü RUH

Bakirə qız idim, əcəl yetişdi,
Taleyim əzrayıl əlinə düşdü.
Qorxudan çatlamış qəbrim nalədə,
Gecəm zəhər dadan qəm piyalədə.
Hər axşam gəlirəm o ruh donunda,
Tank, qırad görürəm qəbrin yanında.

Beləcə hər gecə ruhlar gələrək,
O əsir Laçının bağrın dələrək,
Məzarlar önünə nalə ələrək,
Uçuşur göylərin əngin qatında,
Əsir qəbirlərin qəm həyatında...

III

KƏLBƏCƏR MƏZARSTANI

Sükuta bürünüb burda yurd, yuva,
Qarı düşmən çıxır dağında ova,
Haçan bitər sona bu qanlı dava?
O dədə Şəmşirin əsir məzarı,
İnləyir, sızlayır hey zarı-zarı.

Sinəsi yaralı Kəlbəcər miskin,

Cavanı, qocası, oğlu didərgin,
Zaman necə ötür burada gərgin.
Daşınır altunu, parası elin,
Yağı əsir edib qızın, gəlinin...

Yanır dədə Şəmşir yanır gorunda,
Kəlbəcər elatı yağı torunda.
Alışdı min illik tarix qorunda.
Ruhların dilində hər addım ayə,
Geyib qara donlu bir qiyafiyə.

Göydə pərvaz edib uçuşur onlar,
Əcələ bac vermiş min illik canlar.
Cismi qəbirlərdə o ruh insanlar-
Ağlayır, zamanı səsləyir aha,
Əbədi dünyadan baxır sabaha.

O dədə Şəmşirin məzarı ağlar,
Çəkilib ruhuna min yerdən dağlar.
Batıb, yasa batıb, o əsir dağlar,
Aşığın evinin soydu yağılar,
Bu dərddən el nədir, gör da dağılar.

ŞƏMŞİRİN RUHU

Kəlbəcərə doldular,
El, obanı aldılar.
Dər-divarı qırdılar,
Ev-odama vardılar.

Sandığda əlyazmamı,
Evdə nə vardı hamı,
Əllərində talandı,
Ruhuma od qalandı.
Qıfılı sındırdırdılar...
Hər şeyi yandırdılar...
Muzey evim alışdı,
Od-ocağa qarışdı.
Yağıya el qəsirdi,
Məzarım da əsirdi.
Ruh qəzəblə süzürdü,
Qəm içində üzürdü.

IV

QUBADLI MƏZARSTANI

Alışır yurdlarda dumanlar, sislər,
Vətəni paraya satdı naqislər.
Qubadlı qartalı dərədə nalan,
Burda min satan var, min bir də alan.
Yenə üsyan edir sinəmdə hisslər,
Vətəni paraya satdı naqislər.

Məzarlar necə də mükəddər, qəmli,
Yurd-yuva, od-ocaq, dağlar ələmli.
Uçur gecələri ruhlar səmada,
Bitib tükənməyir nə qan, nə qada.
Əsir məzarlar da bizim tək ağlar,

Evindəki kimi gəzir yağılar.
Düşmən çəkmələri qəbirə əzab,
Tanka, qıradlara gətirməyir tab.
Uçur min illiklər, köhnə qəbirlər,
Çıxıb orbitindən, çıxıb səbirlər.
Zaman öz atında çapmaqda gərgin,
Millət oymaq-oymaq yurdsuz, didərgin.
Ruhlar da gəlməyir güllə səsinə,
Yağının o quduz yad nəfəsinə.
Fəqət gecə oldu, susur güllələr,
Tülkü tək kollarda o yağı mələr.
Bu vaxt Qubadlıda əsir məzarlar,
Tarixə yeni bir vərəq yazarlar.
Uçuşur göylərdə ruhlar da xoflu,
Tarixi bilinməz məzarlar ulu.
Solmuş kəfənləri süzərək şaşqın,
Qəbir evlərində gəzərək şaşqın,
Hey üzər ruhları, üzər fəlakət,
Deyər xilas edin bizi məmləkət.

V

ZƏNGİLAN MƏZARSTANI

Qubarlı sinələrdə dağa dönmüş, Zəngilan,
Nə zamandı ocağı, odu sönmüş, Zəngilan,
Yağıların əliylə dağıldı binələrin,

Hanı qaçqına dönmüş min-min igidin, ərin?
Köksündə ki, acını silməyə gücüm çatmır,
Niyə şivən-müsibət ilahini oyatmır?
Bu şəhidlik, göz yaşı nə zamandı bitməyir,
Nahaq qanlar, ölümlər Allahıma yetməyir.
Zavallı vətən yenə inildəyir davada,
Taleyimiz asılı fəqət, yenə havada.
Qalibiyyət gələcək buna mən inanıram,
Sübh, erkən yuxumdan da bu eşqlə oyanıram.
Qana susuyanları Allah silsin bəşərdən,
Məmləkətim, millətim qurtulsun qara şərdən.
Yer üzünün savaşı nə vaxt, İlahi, bitər,
Yetər bu çarpışmalar, bu qanlar yetər, yetər!

Zəngilan məzarları bürünüb dumanlara,
Zəhər yağır, qan yağır elsiz keçən anlara.
Quranı, yasini də unudulub ruhların,
Tanrı özü eşidir qəbirlərin ahların.
Güllələrin səsindən bağrı yarılan ruhlar,
Sizində bəxtinizdə acı bir şəhidlik var.
Əsir düşüb əbədi dünyamız quduzlara,
Dərdinizi söyləyin Allaha, ulduzlara.
Deyin ki, məzarlara erməni divan tutur,
İnsan adı daşıyan insanlığı unudur.

Mələk donlu ruhlar da dolaraq bir yaz kimi,
Fəğanı ərşə bülənd rəbbə etiraz kimi,
Şimşək təki səmanın sinəsində çaxaraq,
Fəryadlarla dünyanın sinəsini sıxaraq,

Ağlayıb hönkür-hönkür məzarların önündə,
Yandırılmış yurdlara qoşulub qara gündə.

Vətəndə qaçqın olmuş əzizlərin haylayır,
Ası tək obaların sinəsində vaylayır.
Zəngilana səsləyir qaçqın düşmüş elləri,
Çağırır ruha dönmüş min illik nəsilləri...

VI

CƏBRAYIL MƏZARSTANI

Sinəm sitəmdən qəmdi,
Allah bu nə ələmdi,
Dağılan o məzarlar
Haqqa çatan naləmdi.

Cəbrayıl əsirlikdə,
Zülüm qanda, ilikdə,
Batdı dilsiz qəbirlər,
Yandı o min illik də.

“Aşıq Pəri” qızları,
Ey saz-söz ulduzları,
Maralyanlı Pərinin
Ruhu gecənin tarı.

Qara don, vücud incə,

Uçar gələr, hər gecə,
Cəbrayılı dolaşar
Bu fəğan, bu bilməcə.

Deyir hanı oğullar,
Məzarlar əsir qullar,
Haray, haray burada
Ruhları da boğullar.

Tarixlər yaraşığı,
Pəridir haqq aşığı,
Yağı məzardan etdi
Maralyanlı aşığı.

Cəbrayılda qan, qada,
Ərlər şəhid davada,
Ruhların da taleyi
Asılıbdı havada.

Ruhu dağlı, ey pəri
Səslə igidi, əri,
Qisas deyər məzarın
Şuşadan üzübəri.

VII

FÜZULİ MƏZARSTANI

Sükutla dolaşır, o əsir ruhlar,
Göyün sinəsindən dikəlir ahlar.
Qisasa çağırır zamanın özü,
Kor edilib haqqın müddətdi gözü.
Yurdun qurğuşundan bağrı yarılır,
O lal qəbirlərlə güllə sarılır.
Şəhid məzarların yarası isti,
Zülmün ədalətin yolunu kəsdi.
Dünən el uğrunda şəhid olmuşlar,
Bir anda həyatı, haqqı solmuşlar,
Yağı tapdağında bu gün əzilir.
Zülüm çoxaldıqca haqq da nazilir...

I-ci RUH
Anam məni arama,
Hey-vay demə yarama,
Əsir düşdü məzarım,
Köz basıldı yarama.

II-ci RUH
Ayam, səhərlər sönnəm,
Əngin səmaya ennəm,
Yağı duyuq düşməsə
Gecə yurduma dönnəm.

III-cü RUH
Öldüm yurd savaşında,
İyirmicə yaşımda,
Yaralarım sızlayır,

Əsir bu dam-daşımda.

IV-cü RUH

El olmasın arxasız,
Heç solmasın arxasız
Məzarla dolmuş qanım
Bir yol ara, arxa sız.

Canların şikayəti
O qanlı hekayəti
Füzulinin ruhunu
O didərgin ahını
Uçurtdu Kərbəladan,
Qurtarmaqçın bəladan.
Bu əsir Füzulini,
Ocaq tutmaz külünü,
Yenidən közərtməkçin,
Həyatı göyərtməkçin,
Füzuli nalə çəkdi.
Ruhu dünyaya çökdü,
Qisas dedi, rüzgara,
Saza, kamana, tara,
Dedi: ölməkmi çara?
Cəng, cida edək xara.
Geyindik bəsdi qara,
Sözə tutaraq divan,
Dağıl dedi, ey dövran!
Didərgin, qəm şairim,
Könlü ələm şairim,
Yüz illər çarpışmada.

Zamanla yarışmada.
Ruhu da yana-yana
Ağlar Azərbaycana!

VIII

AĞDAM MƏZARSTANI

Ağdam, ağca damın qara boyandı,
Yandı imarətlər, saraylar yandı.
Səni də qurbanlıq etdi satqınlar,
Bunun da bir zaman məhşər günü var...
Məscidin soyuldu, minbərin uçdu,
Min illər tarixdən silinməz suçdu.
Burda Xocalının şəhid ruhları,
Burda ölmüşlərin qanlı ahları.
Cocuğun, çağanın qəbri əsir,
Uçmuş məzarlara güllə tələsir.
Burda Saybalının şivəni, vayı,
Əsir məzarların bilinmir sayı...

I-ci RUH

Üzür ruhu əndişə,
Çəkilir zaman dişə,
Necə dözsün, İlahi,
Şəhid ruhun gərdişə?

2-ci RUH

Qəbrim yüz illər boyu,
Yaşadır kökü, soyu,
Yağıya əsir məzar,
Uyu, yad əldə uyu!

3-cü RUH

Xocalıda yanmışam,
Zülümdən usanmışam,
Məzarım, şükür eylə,
Bu tağda dayanmışam.

4-cü RUH

Məzarda yaram göynər,
Tapdar yağı öyünər,
Ruhum uçar gecələr
Məzarımda döyünər.

5-ci RUH

Ahım vaydı Ağdama,
Əsir divara, dama,
Şəhid oldum, yurd, vətən,
Məzarımdan qan dama?

6-cı RUH

Saybalının yurdu qan,
Əsir məzar, əsir can,
Özünü öyən kəslər
Yurdunu apardı qan.

Beləcə ağlayır ruhlar əsir, qul,
Hər məzar içində bir şəhid oğul,
Ağlayır Horadiz, Ağdərə eli,
Əsirdi dağların o gurşad seli!
Ruhlar intiqama çağırır bizi,
Deyir ki, eşidin fəğanımızı?!
O küncdə-bucaqda gizlənənləri,
Yad eldə əl açıb dizlənənləri,
Ruhlar intiqama çağırır, vallah,
Qırılsın zəncirlər deyir bir sabah...
Əsir məzar üstdə hər ruh yarımcan,
Qurtar bizi deyir, ey Azərbaycan!

26-31/1993
Pirallahı

QAÇQIN ANA

(Olmuş hadisə)

ÜRƏYİMİN HARAYI

Əzizim yurd yerləri,
Basıbdı qurd yerləri,
Yaraları sızlayır...
Tanrım, ovut yerləri.

Azərbaycan qolu bağlı zəncirlənmiş Prometey,
İçdən gələn fəğanları acı giley!
Ulu tanrım fəryadları, nalələri eşitməz, hey!
Göz yaşları sel olaraq çırpılacaq dağa-daşa,
Qul adını at üstündən igidliklə yaşa, yaşa!

Azərbaycan-iki yerə parçalanmış güney, qüzey,
İztirabda, ayrılıqda oda yanmış güney, qüzey,
İçindəki ağrıları tar, kaman, ney,
Qanlı Araz deyə-deyə həsrətlilər öldü getdi,
Yad dillərdə hədyan deyən bu torpağı böldü getdi.

Azərbaycan, hanı Tomris məzarından durub gəlsin,
O Kirlərin qanlı başın qılıncıyla üzüb, dəlsin.
Torpağını bölənləri nizəsiylə iki bölsün...
O ağarmış saçlarını bassın ana sinəsinə,
Görsün yadlar nə edibdi qəhrəmanlar binəsinə?

Azərbaycan, kaş sərvətin, səxavətin olmayaydı,
Yağılar da dövlətini su tək içib ocağına dolmayaydı,
Röyalarda istisinə sığındığım azadlığı almayaydı.
Onda eyvah, sinəndəki yaraların açılmazdı,
Nemətlərin özgələrin süfrəsində saçılmazdı.

Dağılmazdı övladların dünyanın hər guşəsinə,
Uçulmazdı yağı əldə neçə-neçə bölgə, binə.
Çəkilməzdi dönə-dönə üstbəüstdən dağ köksünə,
Biz də rahat dolanardıq cahanın gen ürəyində,
Sınardımı min bir yerdən iblis əllə dirəyin də?

Azərbaycan, köz bağlamış yaraların təzələnmiş,
Şəhidlərin qanlı köksü ana torpağa bələnmiş,
Yüz yetmiş il yağış, çiskin əvəzinə dağ, daşına qəm ələnmiş.
Yurdlarından qovulanlar sinən üstdən yol eylədi,
Bu əsrdə neçə kərə yağıların övladları qul eylədi.

BİR GECƏNİN NALƏSİ

Min doqquz yüz səksən səkkiz, soyuq dekabr ayı,
Yola düşən qaçqınların ərşə dikəlir vayı.
Soydaşlarım -Göycə eli, Basarkeçər bölgəsindən,
Min illərin Azərbaycan ölkəsindən.
Şəmşəddindən, Zəngəzurdan, İrəvandan sürüldü,
Qara ağızlı güllələr sinələrə kərpic-kərpic
hörüldü.
Türk soyları, türk elləri parça-parça yağıların
əllərilə sürüldü,
Ağır yurdlar, ulu Tanrım, o min illik tarixindən üyüldü.

Göylər bulud yerlər ağlar,
Çəkilibdi yurda dağlar,

Vicdansızlıq qapı bağlar,
Yurda qonan yurdu qovdu,
Elin haqqın satdı-sovdu.

Qış axşamı sinə nalan,
Od-ocağı evi talan,
Od tutasan oda salan.
Ağrı dağı haray qopar,
El dərdini eldən apar!

Gözlərində acı kədər,
Köks ötürür el bir qədər,
Düşür yola yurd dərd ilə
Çarpışmada namərd ilə.

Qız-gəlinlər gözü yaşlı
Yağıları başı daşlı,
Düşmən quduz, qış savaşlı.
Yurd köç edir bu gün, Allah,
Heç kəs bilmir nədir günah?

Güllə təki kəsir külək,
Qar ələyir göydən fələk,
Ayaq açır gəzir kələk...
Silahlanmış ermənilər,
Nə Allah, nə bəndə dinlər.

Bu tarixdir, varağı ağ,
Köç edir yurd, qarşıda dağ.

Çıxacaqmı sabaha sağ?
Cocuqların fəqan səsi,
Acam deyən hər kəlməsi.

Bu köçdə bir qoca ana,
Ağı deyir yana-yana.
Tanrı dözməz nahaq qana,
Qar çırpır nəm üzlərinə,
Dolur görən gözlərinə.

Bir gəlin öz körpəsini,
Batırmaqçın gur səsini,
Qollarını edib nənni.
Deyir “vaya salma məni”,
Sus, erməni duyuq duşər,
Güllə ilə köksü deşər.

Köç getdikcə gecə keçir,
Göz qarşını zorla seçir.
Qaranlıqlar hiddətlənir,
Yağan qar da şiddətlənir.
Şaxta vurur dağı, düzü,
Tufan döyür görən gözü!

İÇİMDƏN QOPAN FƏQAN

Soydaşlarım, bir əsrdir yurdunuzdan köç edirsiz,

Bir əsrdir eldən-elə, dağdan-dağa yol gedirsiz.
Qan ağlayır başsız qalmış məzarlıqlar...
İgidləri səslər, hələ düşmən əldə gülzarlıqlar.
Bu yerlərin toy-büsatı əbədimi dayanmışdır?
Savaşlarda ər oğullar neçə dəfə öz qanına boyanmışdır.
Damğalanmış əl-ayaqlar, yandırılmış cismi-canlar,
Tanrından ki, gizli deyil bu tökülən nahaq qanlar!
Soydaşlarım, oğullarım, Zəngəzurun gur elləri
Gözünüzdən axıtmayın yana-yana qəm selləri,
O zaman ki, parçalandı Azərbaycan iki yerə,
Mənəm dedi hər elat da, qan sığmadı göyə, yerə.
Daş töküldü o zamandan uzaq görməz başımıza
Ağzı qara quzğunlar da göz tikdi dağ-daşımıza.
Yağıların qara əli o vaxtdanda döydü bizi.
İşğalçılar yurdu soydu, dönə-dönə söydü bizi,
Sərvətimiz, altunumuz zinət oldu dəbdəbəli saraylara,
Kimsə qahmar çıxmadı heç, ərşə büləndharaylara.
Soydaşlarım, yüz yetmiş il getdi əldən oğuz ellər,
Yanlış dedi arxamızca ağzı qara cəllad dillər.

ÇIXAN CANA ÜMİD YOX

Torpaq donub, külək kəsən qılıncdı,
Yorğun elə dilsiz daşlar balıncdı.
Yurd az qalıb dağı aşıb keçməyə,
Soy ellərdən pənah yeri seçməyə.
Ah-nalələr göyün deşir köksünü,

İmdad gözlər, arar haqqın əksini.
Köçdən qalmış doxsan yaşlı bir nənə,
Qarı düşmən rəhm etməmiş bu sinə.
Qoca köksü gücdən düşüb sıxılmış,
Bir qayanın dibindəcə yıxılmış!
Nəfəs gəlmir gedənlərin çağırsın,
Xilas üçün var səsiylə bağırsın.
İniltisi göyü yeri yalayır,
Ümid qəlbdə sanki, ocaq qalayır.
Yarıyacan donmuş qoca can üstə,
Kəlmeyi-şəhadət deyir o pəstə.
Gecə keçib yalquzaqlar divanə,
Qaranlıqlar susuyubdu lap qanə.
Gövhər ana dilində son bismillah,
Ümidində fəryad duyan pak Allah.
Yalquzaqlar duyuq düşdü bu səsə,
Həmtayların çağırdı tez həvəsə.
Tük ürpəşdi, ulartılar ucaldı,
Suçsuz qadın öldü...həyat alçaldı.

Səhərdir, gecənin müsibətini,
Günahsız ananın hekayətini,
Söyləyir daş, qaya dilsiz çöllərə,
Bu gün tarix olmuş qanlı illərə.
Allah qəzəbindən fələyi əzir,
Göylərdə, yerlərdə müsibət gəzir.
Tez ayaq saxladı hər yoldan ötən,
Cəlb etdi qanlı qar, didilmiş bir tən!
Cırılmış paltarlar, bir də ağ tellər...

Ağ qanlı sükuta bələnmiş çöllər.
Yolçular əyilib diqqətlə baxdı,
Qəzəb şimşəkləri gözlərdə çaxdı.
Günahsız ananın ağ saçlarına,
Bir də qayaların qanlı qarına,
Bir yasin oxudu ahıl bir yolçu.
Allah bağışlamaz heç vaxt bu suçu!
Ana, məsum ana, ey bədbəxt qadın,
Yazılsın tarixə qan ilə adın!
Yağının başına əzrayil enə,
Bir qarış torpağı çox gördü sənə.
Qurd-quşa yem oldun, o tif
il canın,
Yerdə qalmayacaq günahsız qanın.
Ey şahid vətənin, ey şəhid qızı,
Koroğlu üstədir bu gün el sazı.
Ellərin qəzəbi coşub-daşacaq,
Neçə məmləkətlər hələ aşacaq.
Bu gün at üstədir oğuz yurdları,
Əlilə didəcək azğın qurdları.
Bu gün Azərbaycan qalxıb ayağa,
Dağla cavab verir çəkilən dağa.
Vətən təhlükədə ərlər sərhəddə,
Səbrin də ölçüsü çatıb son həddə.
De hanı qələbə, uzaqmı, Allah?
Haqqın pak yolları sazağmı, Allah?

Ruhun mələklərə qovuşdu o gün,
Getməz sinələrdən heç vaxt bu düyün.

Əcəlsiz ölümün köksümü yeyir,
Ruhun qulağıma bir ağı deyir...

Əzizim, ağla məni,
Yad et bu dağla məni,
Cəsədim qurd ağzında,
Qəbrsiz ağla məni.

7-8.11.1991

AXSIXA ELLİNİN
DİDƏRGİN HARAYI

Sovet imperiyasının kiçik xalqlara
qarşı törətdiyi genosid qurbanlarının
xatirəsinə həsr olunur.

TANRIYA ÜZ TUTURAM...

Ulu Tanrım, yamanları, yaxşıları araşdıran,
Namərdləri mərdlər ilə yarışdıran,
İkiüzlüylə, naəsillə dünya dolur,
Fələklər də acılardan saçın yolur.

Mələklər də nahaq qandan, müsibətdən,
Bəxtimizə düşən acı bu qürbətdən,
Nalə çəkir hüzurunda səhər-axşam,
Hər insanın taleyində əriyir şam.
Camilərdən, məscidlərdən qopan dua,
Sağkən cismi qorumağa düşən yuva,
Bəzən yağı gülləsinə sipər olur,
İblislərin hiyləsinə, çəpər olur.
Ulu Tanrım, bu qədər qan tökülürkən,
Halallıqla qurulan yurd sökülürkən,
Sən susursan, bağışlanmaz fəlakətə,
Qanlı savaş əzrayılkən məmləkətə.
Səcdəgahım, bircə anlıq hökmünü ver,
Qoy əmrinə bir müntəzir olsun bu yer.
Cocuqların ürəkləri qan olmasın,
Ya da Allah yer üzündə can olmasın.
Varlığı da, bəşəri də unuduram,
Ulu Tanrım, təkcə sənə üz tuturam.

DİDƏRGİNLİK ZÜLÜMDÜ

Beş yaşlı bir türk cocuğundan sordum:
“Oğlan, adın nədir?!” Dedi: “Aslan!”
Bəs millətin? Dedi: “Aslan”!

Türk oğlu türk! Nədir belə taleyinə düşən zülüm?

Məzarları bəy otağı bu şəhidlik, vaxtsız ölüm?
Hanı sənin şah Xətayin, Bəyazidin, Şah izlərin?
Şərqdən qərbə yer üzündə qalaların, dənizlərin?
Əmir Teymur Gahangirin, Qacarl
arın hökmü hanı?
Hanı yurda yağı çıxan Zəngəzuru, İrəvanı?
Türk oğlu türk! Ər oğullar yağılarla savaşarkən,
Cahangir tək ad çıxardıb yer üzündə pak yaşarkən,
Onda sənin hökmün ilə düşmənlərin durardılar,
Ər kişilər yağıların sinəsindən vurardılar.
Türk oğlu türk! Qalx ayağa nərən ilə,
Yurd, məmləkət sayılırdı hər əsrdə kişi ilə, ərən ilə.

Böyük vətən savaşında minlərlə vətən oğlu,
Oldu müdhiş zülümlərin zəncirli qara qulu.
Kişilərin səngərlərdə vətənçin vuruşurdu,
Arxadasa Stalin əzrayılla yarışırdı.
Türklə gürcü sərhəddində türklər yaşaya bilməz,
Vətəndaşlıq adın belə burda daşıya bilməz.
Deyə hökm verdi cəllad, köçməlidir bu yurdlar,
Bir gecədə yazıq xalqa yaman divan qurdular.
Min doqquz yüz qırx dördün soyuq bir qış axşamı,
O Axsıxa elinin söndü qurtuluş şamı.
Gürcüstandan vaqona dolduruldu türk eli,
Qazax, özbək çölləri soyuq səhranın yeli,
Qırdı saysız çağanı, cocuğu, qız-gəlini,
Çəkdi bu yurddan, sanki Tanrı da öz əlini.

Stalin o qansız, iblis cəngavər,

O haqqın düşməni, nahaqqa yavər.
Batırdı neçə min türk elatını,
Qırdı çox insanın gənc həyatını.
Ana balasına həsrətlə öldü,
Ədalət, həqiqət, haqq da döyüldü.
Arana, yaylağa öyrəşən millət,
Çəkdi qum düzündə illərlə zillət.
El-oba qurdular səhrada onlar,
Üzdə unuduldu tökülən qanlar.
Getmədi ürəkdən vətən ağrısı,
Türkə divan tutdu torpaq oğrusu.
Stalin, yurdundan etdi çox eli,
Dağıtdı elləri fəlakət yeli.
Dəmir barmaqlıqda çürüdü başlar,
Vətənin başına töküldü daşlar.

Min doqquz yüz səksən səkkiz daşnakların havası,
Gəlmələrin yerlilərlə “yer mənimdir” davası,
Özbəkistan, Qazaxstan yurdunu da dolaşdı,
Qəzəblənmiş beyinlərdən yer-göy qanla bulaşdı.
O Axsıxa qaçqınları bir daha oda düşdü,
Bu dəhşətli fəlakətə hər ev, hər oda düşdü.
Qardaş eldə yanan ocaq yenidən söndürüldü,
Bir millətin ürəyinə küt xəncər endirildi.
Daşnakların hiyləsiylə türk türkə qənim oldu,
Özbək, qazax, türk anası ağ saçlarını yoldu.
Qan çiləndi küçələrə, yola, daşa, divara,
Sən millətin bəxtinə bax yağı əldə avara.
Məzarları taleyinə şəhid edilmiş millət,

Unudulmaz min il belə bu müsibət, bu illət.
Qürbət eldə qəbirlərin haqqdan imdad diləyir,
O nisgilli ürəklərə tale zülüm ələyir...
Körpələri sinəsində minlərlə gəlin, ana,
Sığınaraq qatarlara döndü Azərbaycana.
Bir millət taleyində yenidən didərginlik,
Üzdü haqqı aman-Allah, bu fəlakət gərginlik.
Varı-yoxu əldən çıxmış bu xalqda ürəyə bax,
Hər əzaba susub duran səbirli fələyə bax.
Yenə qurmaq eşqi ilə coşub daşdı, bu millət,
O əzağblı tale ilə qardaşlaşdı, bu millət!

Ey Axsıxa türkü səbr et, əyilmə haqsız qana,
Sən türk yurdu sanıb gəldin doğma Azərbaycana!
Keçər zillət, yağıların bir gün burnu ovular,
Yurdumuza qonan düşmən yurdumuzdan qovular.
O min illik tarixindən dürlü dastan yazarsan,
Səni yurddan edənlərə özün qəbir qazarsan.
Günəşin də, ulduzun da, ayın da öz yeri var,
Hönkürərək bir gün Tanrı, bu sitəmləri yuvar.

DİDƏRGİN TÜRK COCUĞU

Cocuq könlü günahsız
Üzü gülməz sabahsız,
Nə olaydı dünyada
Ömrü keçəydi ahsız!

O səksən doqquzun acı naləsi

Üzendən də köçdü çox türk ailəsi.
Bir evin bircə gün qonağı oldum,
Kədərli gözlərdən bahar tək doldum.
Üzləri gülsə də bu insanların,
Çəkdikləri zülüm üzüb canların.
Qonub dodaqlara əzablı kədər,
Qaçqın həyatları necə dərbədər.
Üç cocuq böyüyür kasıb odada,
Qalıbdı varları, mülkləri yada,
Ən kiçik uşağı basdım bağrıma,
Qopdu əllərimdən qaçmadı, amma.
Sordum ki, adın nə, dedi ki, Aslan.
Sordum ki, soy adın dedi ki Aslan.
Dedim: bəs millətin, qəlbi yaxdı o,
Atası Hüseynə odlu baxdı o,
Dedi: “Xala, aslan mənim millətim”.
Beş yaşlı uşağa artdı heyrətim,
İçimdə bir üsyan oyatdı bu səs,
Türk oğlu sevməyib dünyada qəfəs...
Anası and içdi, o danışandan,
Mənlə, atasıyla hey qonuşandan,
Millətim aslandır deyir bu körpə,
Tanrı türk qəlbinə o odu səpə.
İçimdə oyanış yaratdı bu səs,
Gərək bu kəlməni türk oğlu hər kəs,
Yarıb ürəyinin köksünə sala.
Bu söz Tanrıdanmı gəlib ay bala?
İçimə axıtdın sən göz yaşımı,
Mən belə istərdim, vətəndaşımı.

Səndə şah Xətayi, Teymur atəşi,
Köksündə alışır Zərdüşt Günəşi.
Beş yaşlı cocuğum, bu kəlam hardan,
Cəngəmi səsləyir bizi Yaradan?
Axsıxa elinin naləsimi bu?
Əsir Qarabağın haqq səsimi bu?
Zəngəzur, İrəvan ölümlərimi?
İki yüz il kölәlik zülümlərimi?
Ay mənim türk oğlum, sözünə qurban,
Səni doğan kəsin özünə qurban.
Gəl, yanan köksümə sığın bir qədər,
Bu nisgilli könlüm onsuz dərbədər,
Baş əydim o cocuq haqq üsyanına,
Alqış, damarında türkün qanına!

DİDƏRGİN ATANIN ZİNDAN HƏYATI

Cocuqdan duyduğum o xoş hekayət,
Bu sadə ocağı dadlı ziyarət,
Evin sahibin də dilə gətirdi.
Dərdli ürəyini zilə gətirdi,
Dedi ki, ömründə zindan ağrısı,
Unutmaq çətindir bunu doğrusu.
Cəllad Stalinin ölüm xəbəri
Yenidən qaldırdı əsir elləri,

Üz tutduq doğmamız Azərbaycana.
Sığındıq can bilib neyləyək ona,
Xaçmaz bölgəsində Pavlovka kənddi,
O sürgün yurdumuz bu elə bənddi.
Ailəmiz çox idi dolanmaq çətin,
Oğullar qazanır ev bərəkətin.
Getdim "rusyətə para dalınca,
Dedim, var qazanım bir ev salınca.
Dörd dostla küçədə gedərkən gündüz,
Sərxoş zabitlərlə qarşılaşdıq biz.
Onlar yolumuzu kəsdilər qəfil,
Söyüş yağdırıldı avara, səfil.
Ruslar bizi döyür, biz də onları,
Sanki qızışmışdı sərxoş canları.
Hay-küyə milis də tökküldü gəldi,
Elə bil onlarla əlbirdi, əldi.
Məhkəmə quruldu bütün qəsəbə,
Böyüklü, kiçikli çaldı qələbə.
Hamısı üzümüzə durdu cəlladıq,
Qafqazdan gəlmişik biz burda yadıq.
Dörd il zindanlarda keçdi gəncliyim,
Dəmir barmaqlıqla getdi dincliyim.
Kommunist məhbəsi vallah zülümdü,
Dirikən, sağikən, varkən ölümdü.
Bütün acılara dözdüm yaşadım,
Pak çıxdı zindandan o kişi adım.
Əyə bilmədilər məni namərdlər,
İçimdə yaşadı min cürə dərdlər.
Zəhər oldu mənə kölə həyatım,

Bu idi kommunist gözəl büsatım,
Əsir millətimlə min yol qovuldum,
Gənc diləklərimlə göyə sovruldum.

DİDƏRGİN DƏDƏNİN
OĞUZ NALƏSİ

Xalı üstə bardaş qurub səksən yaşlı bir qoca,
Qartal baxış, qartal duruş zirvələrdən də uca.
Sökənibdi dirsəyilə pərqu təki balınca,
Qəlyanını sümürərək olanları söyləyir,
Min qanadlı fikirləri yollarından əyləyir.

Danış dedim, babam mənə, çəkdiyin zülümləri,
Vaqonlarda, səhralarda günahsız ölümləri.
Saldığınız qəsəbədə amansız təlimləri,
Nələr oldu o illərin acısından bir danış.
Vətən yanğılı könlümə o köləliklər tanış.

Gözləri doldu, qocanın səsi titrədi sanki,
Dedi: “ay qızım, o tarixə, o əsrə divanki.
Biz Axsıxa elindən ah, sürüldük o zaman ki,
Stalinin nərəsindən yer-göy lərzə gəlirdi,
Güllələmək, zindan, sürgün ev-ev eli dəlirdi.

Dedilər ki, sizə olmaz Gürcüstanda yaşamaq,
Türklə gürcü sərhəddində vətəndaşlıq daşımaq,

Böyük Vətən savaşında vuruşurdum o zaman.
Xəbər gəldi yurd sürgündə ərşə bülənd ah-aman.
Baş götürüb qaçdım o vaxt Türkiyəyə sığındım,
Zənn eylədim mən azadam, bu atəş ilə yandım.
Çox çəkmədi Sovetlərlə Türkiyə qanun yapdı,
Güman etdim daha bizi o pak qurtuluş tapdı.
Dedilər ki, dönəcəyik, Axısxa torpağına,
Sığındıq biz, sovetlərin bu iblis bayrağına.
Sürülsünlər, çıxdı əmri, o cəlladın dilindən,
Ayrı düşdük əbədilik anam Qafqaz elindən.
Qatarlara doldurulub yurdumuzdan qovulduq,
O taleysiz elimizlə, sanki göyə sovrulduq.
Sağa nə var, ölənlərin dərdi məni ağladır,
Eldə qalan qəbirstanlıq sinələri dağladır.
Babaların, nənələrin ruhu qalıbdı orda,
Dağ çəkildi o gavurun fitvası ilə bu yurda.
Məzarıstan hər millətin taleidir, ay bala,
Ölənlərin ruhu orda, necə dözüm bu hala?
Yurdu olan bir millətin yurdu alınıb əldən,
Axısxanın adı belə çıxarılıbdı dildən.
Kim verəcək əlli illik didərginlik yaşımı?
Qaytaracaq əldən çıxmış torpağımı, daşımı?
Sənə indi Orta Asiya düzlərindən danışım,
Qum çölündə qarlı keçdi neçə payızım, qışım.
Özbəkistan, Qazaxstan yurdunda oba saldıq,
Kölə təki, əsir təki ölə-ölə sağ qaldıq.
Qız verməyə, qız almağa kimin həddi var idi?
İlin çoxu bu yerlərdə gah isti, gah qar idi.
Tüfənglilər gecə-gündüz ev-ev bizi izlərdi,

Hər addımda hey insanı bir həqarət gözlərdi.
Dörd yanımız tikanlı çəpərlərlə əkilmişdi,
Çoxunun cavan ikən dərddən beli bükülmüşdü.
Hamilə qadınlar da bəhanəylə döyülərdi
Türk soyu dəyirmanda buğda təki üyülərdi.
Hüququmuz harda idi, toy qurub qız almağa?
Təzə mənzil, təzə ocaq, təzə oda salmağa.
İcazəsiz evlənənlər məhbəslərə atılır...
Oğrulara, canilərə, qatillərə qatılır.
Stalinin ölümündən sonra əl-qol açıldı,
Zəncirlənmiş bütöv bir el buxovlardan açıldı.
Dayanmadan bir gün orda mən Xaçmaza üz tutdum,
Tikdiyim o ev-eşiyi, pul-paranı unutdum.
Fəqət, mənim başımdadır Axsıxanın havası,
Yaylağımın, aranımın, dağ-düzümün səfası.
Burda yenə qürbətdəyəm, xəyallarla uçuram,
Axsıxada qalan evə, od-ocağa qaçıram...
Əcələ can verməyəcəm o yerlərə getməsən,
Bağ-baxçama, yaylağıma, elatıma yetməsəm...

Ermənilər Qarabağın havasıyla coşanda
Türk üstünə qaldırdılar xalqı, eli hər yanda,
Min doqquz yüz səksən doqquz, çox müdhiş bir axşamda,
Qaldı qan izi gecədə hər çıraqda, hər şamda.
Özbəkistan torpağında didərgin el talandı.
Suçsuz yurdda diri-diri insan oda qalandı,
Söndü neçə evin şamı bir gecənin içində,
Daşnaq yaman ocaq çatdı özbəklərin içində,
Cocuqların, qocaların naləsi ərşə büləndı.

Ermənilər ustalıqla yenə işlətdilər fənd.
Yeddi nəfər bir evdəcə yanıb külə dönmüşdü.
Axsıxanın sönmüş odu bir də burda sönmüşdü,
Zülüm oldu əsir yurdun, əsir oğul, qızına,
Aman-Allah, kölə elim nə vaxt dönər yazına?
Hələ nakam Xocalıda məhv olmuş soydaşlarım,
Qardaşına sığınarkən ölən qan qardaşlarım.
Özbəkistandan qovulub Xocalıya tapındı...
Ordan can götürüb qaçdı gavur əlində yandı,
Pənahımız Azərbaycan qan içində boğulur,
Ölə-ölə türk oğlu anasından doğulur...”

Titrəyirdi dodaqları bu sözləri deyərkən,
Qoca yaşda, qoca sində kişi haqqın öyərkən.
Dedi: “Qızım türk çörəyi çıxdı hər zaman daşdan,
Azərbaycan oğuzları qorxmasın bu savaşdan.
Azadlığın havasını kölə olanlar udmaz,
Əsirliyin fəlakətin düçar olmayan dadmaz.
İnanıram bu savaşda son qələbə bizimdir,
Azərbaycan bu ürəyim, Axsıxasa gözümdür.
Bu arzuyla Allahımdan hələ ömür dilərəm,
Qayıdaram öz yurduma, öz evimdə ölərəm!...”

Osman dədənin fəryadı sinəmi parçaladı,
İçimə bir ocaq çatdı uca tonqal qaladı.
Yana-yana tüstüləndim bu alovun qorundan,
Qurtuluşa can atılır haqsızlığın torundan.
Aman Allah, sən bu qoca naləsini bir eşit,
Yet günahsız bəndələrin, dəli məramına yet.

Qaytar nahaq əldən çıxmış yurdunu bu qocanın,
Dərdlərinə məlhəm olsun o da Azərbaycanın.
Əlli illik haqsızlığın açarı öz əlində,
Vətən eşqi oğlun da, dədənin də dilində.
Millətini aslan sanan beş yaşlı türk uşağı,
Sinəsində sıralanıb yağıya qisas dağı.
Özün yetiş, acıları özün yerbəyer eylə,
İblisləri, qatilləri yerdən dərbədər eylə.
Bu arzuyla faciəni burda sona yetirrəm,
Sən verdiyin höküm ilə dastanımı bitirrəm.

23,05.1993

BAYATILAR

Dağ başı duman imiş,
Duman ah, aman imiş,
Qürbətə düşən canım
Ayrılıq yaman imiş.

Gözdə yaşım gül eylər,
Baş ağrıdan gileylər,
Ağıl elə şeydir ki,
Hər baş içində neylər?

Dərd ürəyimi eşdi,
Eylədi yara deşdi,
Tapılmayır loğmanı
Allahım, bu nə işdi?!

Hicran könlümü dağlar,
Qoşulub mənə ağlar,
Fələk məndən dönəndən
Açar, qapımı bağlar.

Qəm mənə otaq oldu,
Gecələr yataq oldu,
Tanrı verən ömrümə
Bu fələk ortaq oldu.

Yaramı eşmə, fələk,
Eşmisən deşmə, fələk,
Əzrayılın fe`linə
Bir belə düşmə, fələk.

Uyma dünya malına,
Alar atar dalına,
İçi elə hiylədi
Düşənin vay halına.
Zamanı mələk gördüm,
Yağ içrə böyrək gördüm,
Bəşəri yırğalayan
Dünyanı yüyrək gördüm.

Qəm sinəmdə kamladı,
Axdı qəlbə damladı,
Bağrımda zindan açdı
Könlü tutub damladı.

Dərdi gendə arama,
Özü düşüb qarama,
Məlhəm eyləməz təbib
Bu əlacsız yarama.

Elə məni qəm tapdı,
Tapıb könlümü çapdı,
Batırdı dərd içinə
Ürəyimdən dağ yapdı.

Bu fələk ağ eylədi,
Sinəmdən dağ eylədi.
Aldı könlümün yağın
Əritdi dağ eylədi.

Baş bədənin şahıdı,
Ürəyin Allahıdı,
Sinədə fəqan edən
Başımızın ahıdı.

Yerin başında göydü,
Yağdı başına döydü.
Allahın ocağının

Görünən üzü göydü.

Qəm tutdu oxa məni,
Çıxartdı yoxa məni.
Aldı əsir eylədi,
Çəkdi çarmıxa məni.

Göyün üzü sulanar,
Göy örpəyi bulanar,
Bəşər yerin bağrından
Göy başına dolanar.
Duman dağlara qalar,
Xəzan bağlara qalar.
Fələyə can deyənin
Canı ağlara qalar.

Ömrü zaman arıdar,
Gün keçməmiş qarıdar,
Bulud gözündən axan
Yağışı gün qurudar.

Yaradan özü təkdi,
Zaman ona ələkdi,
Alıb apardı canı,
Təni torpağa əkdi.

Mənlə əhd bağlamadı,
Könlümtək çağlamadı.
Məni ağladan fələk

Özü heç ağlamadı.

Tanrıya çökdü fələk,
Bağrını sökdü fələk.
Dünyanın acısını
Gözündən tökdü fələk.

Bədən canı yarıtmaz,
Darı təki arıtmaz.
Qəbirlərin daşını
Güntək heç nə qurutmaz.

Gün gələr bükülərik,
Sünbültək tökülərik,
Darıtək səpələnib
Torpağa əkilərik.

Dərd mənə sarmaşıqdı,
Bu könlümə aşıqdı.
Əlindən axan qanım
Necə qaşıq-qaşıqdı!

Dünyanın ünü ağlar,
İmanı-dini ağlar.
Malı elə şirindi
Yığanın günü ağlar.

Zaman ötür ahəstə,
Gah zildə, gah da pəstə.

Kiminin bəxti yatıb
Kiminin ayaq üstə.

Haqdan sildirər məni,
Qəmə bildirər məni.
Təni cana qıymayın
Bu can öldürər məni.

Qəm budağın gərirəm,
Ayağına sərirəm.
Elə ömrüm uzunu
Qəm əkib, dərd dərirəm.

Dərd qəlbin için əydi,
Zərbi dünyaya dəydi.
Doğulub ölən bəşər
Qadasız keçinəydi.

Ələnir qar qaşına,
Qara telin başına,
Fırladır bizi fələk
Bu dünyanın başına.

Binadan sərxoş fələk,
Hər işində boş fələk.
Mən ki, sənin üzünü
Heç görmədim xoş fələk.

Salma oda bağrını,

Vermə bada bağrını.
Loğman candan çıxarmaz
Fələk yazan ağrını.

Hər yuxu aza bilməz.
Azdığın yoza bilməz.
Fələyin yazdığını
Bəndələr poza bilməz.

Hicran bölüm-bölümdü,
Ona düşmək zülümdü.
Ayrılığın bir üzü
Allah yazan ölümdü!..

Qəm aldı qaçdı məni,
Aləmə saçdı məni.
Eylədi qəm qapısı
Bağladı açdı məni.

Gözümdə bu nə yaşdı?
Dolduqca elə daşdı.
Döndü qan dəryasına,
Gəlib başımdan aşdı.

Ürək bir mələr quzum,
Yanıb sönən ulduzum.
Özü ağlayan könlü
Ağlatmağa nə lüzum?!

Demə qarama, ey yar,
Dəymə yarama, ey yar.
Ürəyin dediyini
Dildə arama, ey yar.

Ocağa yarayarlar,
Könüldə arayarlar.
Yadlara qalmamaqçın
Vətəni qoruyarlar.

Qəlb dərdi silə bilməz,
Dərd ilə gülə bilməz.
Vətənin ağrısını
Çəkməyən bilə bilməz.

Bu dərd bitən deyil ki,
Candan ötən deyil ki,
Qürbətdə can saxlayan
Qürbət vətən deyil ki.

Bu yurdun kəhəri xoş,
Bağında bəhəri xoş.
Yad ölkənin balından
Vətənin zəhəri xoş.

Hər başa ağıl gərək,
Hər dilə noğul gərək.
Qılıncından qan daman
Vətənə oğul gərək.

Can təndə bitən deyil,
Bədəninlə tən deyil.
Boş yerə hər qapıdan
Əzrayıl ötən deyil.

Ürək doymaz ki, kamdan,
Şeytan qopmaz adamdan.
Hiylə damına çıxan
Özü düşər o damdan.

Əzrayıldan qaçan kim?
Sona qaldı haçan kim?
Fələyin qapısını
Bağlayan kim, açan kim?

Ocaq külündən ağlar,
Yurdsuz elindən ağlar.
Gözdə yaşı çatladan
Adam dilindən ağlar.

Sinəmi ağlatmayın,
Qəm ilə dağlatmayın.
Özüm qan selindəyəm
Könlü ora atmayın.

Ürək imdada düşdü,
Qəm gəldi qada düşdü.
Tapmaz loğman çarasın

O qəlb ki, oda düşdü.

Gümüş zərə düşməsin,
Alın tərə düşməsin.
Hər kəsdə iman olmaz
Heç kəs şərə düşməsin.

Salma qəlbə ələmi,
Eyləmə qan aləmi,
Kimsə sındıra bilməz
Fələk çalan qələmi.

Uyma fe`lə, fəndə,
Salma ürəyi bəndə.
O kəs ki, yatdı, öldü,
Rəbb yanında pak bəndə.

Üzər acı söz canı,
Yandırar hər köz canı.
Vallah, baldan şirindi,
Hər bədənin öz canı.

Bağrımı sökdü fələk,
Ora qəm tökdü fələk.
Nə gün gördüm dünyada
Gözümdən tökdü fələk.

Ocaq közün axtarar,
Bəbək gözün axtarar.

Özünü itirənlər
Hər vaxt özün axtarar.

Kipriklər nəmə qalar,
Zil ötər bəmə qalar.
Özgəyə dəm tutanın
Hər işi dəmə qalar.

Kül altından qor baxar,
Göz yorular tor baxar.
Öz dilinə yad olan
Öz kökünə xor baxar.

Quş başsız qaça bilməz,
Qanadsız uça bilməz.
Rəbb bağlayan qapını
Bir kimsə aça bilməz.

Qəm qəlbə ahdan gəlir,
Hiylə günahdan gəlir.
Yamanlama taleyi
Qismət Allahdan gəlir.

Ocaq yanar qorlaşar,
Alışdıqca darlaşar.
Qılıncı itləməsən
Öz qınında korlaşar.

Tula yalına yetdi,

Arı balına yetdi.
Zaman ömrün köçünü...
Atdı dalına getdi.

Ərsizi dul görmüşəm,
Hər işdə pul görmüşəm.
Özün Allah sayanı
Allaha qul görmüşəm.

Dünya dolar tox olar,
Gəlib gedən yox olar.
Ömrü uzun olanın
Günahı da çox olar.

Mizrab tellə çarpışar
Hər pərdəylə tapışar.
Səsi zildə olmayan
Elə bəmdən yapışar.

Güc düşər at nalına,
Tumar gələr yalına.
Fələyin vəfasını
Görənin xoş halına.

Ömür güntək daralar,
Əcəl onu qaralar.
Vaxtsız gələn xəzandan
Tağ dibindən saralar.

Hər ağız dada qalmaz,
Hər gələn qada qalmaz.
Niyə çoxu unudur,
Heç kəs dünyada qalmaz?

Dərd varkən gülmək olmaz,
Hər dərdi bölmək olmaz.
Fələk verən acını
Ürəkdən silmək olmaz.

Yerin göytək atı yox,
Atının qanadı yox.
Canı gəzdirən bilsin,
Ölümün saatı yox.

Xəzan bağı alanda,
Dili ağı alanda,
Vətən torpağı yanar...
Üstün yağı alanda.

Dərd sinəni dağlayar,
Dağladıqca çağlayar.
Yağı ayağı altda
Məzarlar da ağlayar.

Gün gələr doğar keçər,
Zülməti boğar keçər,
Allah damını açar
Göydən nur yağar keçər.

Durna səf tutub gedər,
Əllər dəf tutub gedər.
Bu dünyanın yarısın
Elə kef tutub gedər.

Su ocaqsız qaynamaz,
Dərd tutan baş aynamaz.
Yurdu yağıya qalan
Qol götürüb oynamaz.

Vətənə eşq dənizdi,
Könlüm ona kənizdi.
Quyruqtək can bəsləyən
Vətən candan əzizdi.

Bu vətən heyrətimiz,
Pak canda qeyrətimiz.
Onu barat eyləsək
Yetişər illətimiz.

Saman bəzər axurun,
Kimsə bilməz axırın.
Quruyar yolda, izdə,
Su tapmasa çuxurun.

Qəm edib peşə məni,
Salıb dil-dişə məni.
Bağrımı köz eyləyib

Keçirib şişə məni.

Fələyin fəhmi durur,
Bəşərə rəhmi durur.
Ömürün son anında
Əzrayıl zəhmi durur.

Sübhün gözü şeh olar,
Dodağında meh olar.
Ona qolların açan
Yer üzü fateh olar.

Dünya üzü talandı,
Dili min bir yalandı.
O hiyləgər bəşəri
Məzarlara qalandı.

Gözdə yaşım qan oldu,
Qızardı al dan oldu.
Bir tənin ucbatından
Oda yanan can oldu.

Hamıya acı oldum,
Ələmin ucu oldum.
Ürəyim qan ağladı
Bu qanın suçu oldum.

Çiçək telindən gülər,
Sular selindən gülər,

Dost, düşmənin içində
İnsan elindən gülər.

Əsilli yarın olsun,
Yara ilqarın olsun.
Hamına xoş olmaqçın
Yaxşıca varın olsun.

Bulud gözündən ağlar,
Göylər özündən ağlar.
Başına bəla olan
Adam sözündən ağlar.

Hər ağrı təndən olar,
Sünbüllər dən-dən olar.
Demə, qürbətə cənnət,
Cənnət vətəndən olar.

Qəriblik hicran yolu,
Bağlayar əli, qolu.
Könlünü duman alar,
Yağar gözündən dolu.

Bu eldə uyu şirin,
Büllurtək suyu şirin.
Dadma qürbət çeşməsin,
Vətəndi suyuşirin.

Bu dünyanın çəni bol,

Sünbülü bol, dəni bol.
Məzarları bəzəyən
Hər günahda təni bol.

Dəlini gic qaldırar,
Köksüzü bic qaldırar.
Vətəni qorumaqçın
Kişini güc qaldırar.

Ömür yaşdan ağrıyar,
Gözlər yaşdan ağrıyar.
Bomba təki partlayan
Ürək başdan ağrıyar.

Hər dərdi çəkən canım,
Bağrına tökən canım.
Eyləyib qəm boğçası
Könlünə bükən canım.

Könlüm qanlar laləsi,
Üstü sübhün jaləsi.
Düşüb əlimdən qəfil
Sındı qəm piyaləsi.

Nə gözdə nəmim olsun,
Nə də bir qəmim olsun.
Neynirəm dərd içində
Küllü aləmim olsun.

Su axar seldən gələr,
Hər ağrı dildən gələr.
Vətəni qorumaqçın
Oğullar eldən gələr.

Dərd məni tapdı keçdi,
Sinəmdən çarpdı keçdi.
Alov təki qarsıdı,
Od kimi qapdı keçdi.

Dünyanın damı uca,
Bu damdan Rəbbə baca.
Yerin, Göyün hakimi
Əbədi sahib taca.

Zaman ötür, gün yarı,
Bəşər bal yığan arı.
Bu gün əkdiyin biçər,
Sabah torpağa darı.

Gecə şam harayında,
Ürək kam harayında.
Allahın yaratdığı -
Bəşər dam harayında.

6-7.01.2002

DÖRDLÜKLƏR

Gözlərin canımı aldı, neyləyim?
Məni yaman dərdə saldı, neyləyim?
O gül dodaqlardan daman, Şadiman,
Min bir dərdə dərman baldı, neyləyim?

Cərrah, bıçaq vurma, candı, yarama,
Vurduğun hər neştər, qandı, yarama,
Təpədən dırnağa Şadiman xəstə,
Dünya can deməkdən yandı, yarama.

Ey cərrah, doğradın, əl saxla, yetər,
Bağrın naləsindən yaralar bitər,
Şadiman dünyanın dərdin gəzdirir,
Öz dərdi dünyanın dərdindən betər.

Əl saxla, ey cərrah, əlin yetişməz,
Bu dərd məzaradək məndən ötüşməz,
Fələyin açdığı yara, Şadiman,
Loğman məlhəmiylə vallah, bitişməz.

İçimi doğrayıb yardıqca cərrah,
Gözümdən yaş axır, yanağımdan ah,
Dirənib boğaza əcəl sancısı,
Hey ölüb-dirilir Şadiman, Allah.

Ey cərrah, bəxtimə qurulub kələk,
Məni sağaltmağı eyləmə dilək,

Etsən Şadimanı xilas bu dərddən...
Yenə də min yara açacaq fələk.

Təbib, məlhəmlərə tutma yaramı,
Sonsuz ağrılardan yoxdur aramı.
Əzrayıldan məni qorumaq niyə?
Beşikdən izləyir o ki, qaramı.

Cismin ağrısını bölən bilməyir,
Gedənin acısın gələn bilməyir.
Cənnət dadlı yuxu, cəhənnəm əzab,
Hara düşəcəyin ölən bilməyir.

Dodaqda atəşim, yolunda izim,
Həsrətdən saraldı soldu bənizim,
Boğur Şadimanın cismini müdam,
Gözümün yaşından hicran dənizim.

Gəl ovut qəlbimi quru sözünlə,
Gətir səadəti mənə özünlə.
Dərdindən bir şamdı, yanır Şadiman,
Barı, bu sitəmi gör öz gözünlə.

Həsrətin qəfildən gələn yağıdı,
Dodaqda fəryada dönən ağıdı,
Biçarə Şadiman neyləsin, fəqət,
Bu sevgi əbədi bir göz dağıdı.

Nə gözün gözümə alışmayaydı,

Nə sənli günlərə alışmayaydı.
Nə sirli ürəyin bu Şadimanla,
Küsmüşdü biryolluq barışmayaydı.

Qıymadın ömrümə ah, bir anlığı,
Könlə qayə etdin hey yamanlığı,
İndi ruhi-canın gəzdirir necə -
Dünyaya sığmayan peşimanlığı?

Acı bir sitəmə mübtəla bəşər,
Onun ürəyini alıb ələ şər,
Haqqı ayaqlayan hər baş yiyəsi,
Ömrün son saatı haqla əlləşər.

Bə`zən səadət də, bir quru sözdü,
Hıçqıran ürəkdi, ağlayan gözdü,
Nə qədər həyat var, Şadiman, nədən -
Dünya qəm dənizi hər gələn üzdü?

İlahi, içimdə sonsuz qəmim var,
Gözümdə qurumaz şehli nəmim var,
Mənim Şadimanla dünyadan ayrı,
Gah acı, gah şirin bir aləmim var.

Şadiman, fələyin mehidi, dünya,
Ağlayan gözlərin şehidi, dünya.
Nadan beyinlərin savaş meydanı,
İblis vicdanların şəhidi, dünya.

Dərdə düşən könül qəmdən gileylər,
Yıxdı ərzi aha dönmüş gileylər.
Şadimanın qəm bağının gülləri,
Yaz gəlməmiş qönçə tutar, gül eylər.

Vüsal atım çəmənzarda çapdı, hey,
Rüzgar əsdi öz yolundan sapdı hey,
Şadiman eşq atəşinə yanmada
Niyə onu həsrət, hicran tapdı hey?

Dildən qopar könül üzən haraylar,
Ərzə düşüb haqqı el-el haraylar.
Ey Şadiman, gündə min yol bu ürək,
Qəmdən yapdı ərzi didən saraylar.

Acı qəmlər yalquzaq tək uladı,
Parçaladı, qəlbi qana buladı.
Şadiman o can bağında gülləri,
Səhər-axşam göz yaşıyla suladı.

Ürək yenə dərd əlindən dərddədi,
Ey Şadiman, ölüm-qalım dərddədi.
İnsanların qanlı savaş meydanı,
Dünya özü mənimlə bir dərddədi.

Niyə kor bəxtimdən ötüşmədi qəm?
Gözümün evində yuva qurdu nəm.
Şadiman, ah uddu dualarımı,
Mənim fərağımdan alışdı aləm.

Mən dua etdikcə, qəm quduzlaşdı,
Fələyin gözündə, can ucuzlaşdı.
Şadiman, bu miskin zamanla, sanki,
Ölüm də, zülüm də, qan da uzlaşdı.

Şərəflər, namuslar, qeyrətlər miskin,
Şeytandı bəşərdə paklığa üskün.
Şadiman, ram edib qəlbləri iblis,
Xaricdə hiylədir, batildəsə kin.
Şeytanı arama min illər, ey can,
Onunla doludur hər tərəf, hər yan.
Yolundan çıxarıb fələyi adəm,
İblisdir kökündən bəşər, Şadiman.

İlahi, əncam et başsız yuvalar,
haqq deyən dilləri güllə ovalar.
Şadiman, diqqət et fəzaya sübhdən,
Haqqın sinəsinə sipər dualar...

Dünya çalxalanır, qanı sudan çox,
Raketdir, nüvədir indi kəman, ox,
Onu qurğuşunla yuğuranların
Açılan sabaha təminatı yox.

Bəşər bir-birinə tutmada divan,
Şadiman, nə qədər ucuz olub can.
Haramla min yerdə saray yapanlar...
Unudub məzardır əbədi ünvan.

Sənə can deyəndən özünü gözlə,
Can qurban olmayır dünyada sözlə.
Şadiman, düşmənlər bəlli, dostları,
Taleyin dönəndə sınayıb üzlə.

Hər insan bəxtində enmə, qalxma var,
Bir gün ulduzuna göydən axma var.
Gələndə, Şadiman, nida xaliqdən
Cismə öz canından, yad tək, baxma var.

Şadiman, alüdə olma əksinə,
Qonar əzrayılın bir gün köksünə.
Ayırar cisimi candan o mələk,
Sonra da qalib tək baxar iksinə.

Hər öz eybimizə gülәriyik biz,
Dünyanı min dəfə bölәriyik biz.
Niyə unutqandı bəşər, Şadiman?
Doğulduğumuz tək, ölәriyik biz.

Ağıl başa zərbə bir yumruq təki,
Sürünər arxanca bir quyruq təki,
Sənə əzab verər idrak, Şadiman,
Can uçar bədəndən bir simruq təki.

İlahi, hər üzün iki rəngi var,
Şadiman, rənglərin öz ahəngi var.
İkiyə öyrənən bəşərə deyin,

Əzrayıl əlində ölüm zəngi var.

Şadiman, həyatda nə çoxdur döngə,
Boyanıb dodaqda söz də hər rəngə,
Sual-cavab günü yetişən zaman
Can öz cismiylə çıxacaq cəngə.

Fəzayla öcəşən duman kimiyəm,
Harasa tələsən zaman kimiyəm.
Dindirmə, Şadiman, dindirsən əgər,
Zildə nalə çəkən kaman kimiyəm.

Bəşər enmədədi bölümləriylə,
Düşür haqq gözündən zülümləriylə.
Şadiman, əzrayıl gəlməz ona tən,
Əcəlsiz, amansız ölümləriylə.

Verir həyat özü acı-şirin təm,
Büdrədin rəhm etməz, eyləyər sitəm.
Şadiman, beşikdən məzara qədər
Hər evdə qurulur həm toy, həm matəm.

Bu dünya bir qapı açanlar bilir,
Sirrindən necə baş açanlar bilir.
Şadiman, səvabın böyüklüyünü
Cənnətə haqq yolu açanlar bilir.

İlahi, sinəmdə sisdi fəraqlar,
Dərdimi tutmayır bu ağ varaqlar

Dərvişə dönübdü Şadiman hənuz,
Düşüb diyar-diyar bəxtin soraqlar.

Heçdi, ey Şadiman, dünya gözümdə,
Qanı suyla yuyur görən gözümdə.
Nədir, ya ilahi, dəryada sellər?
Çağlayan çeşmələr varsa gözümdə.

Gah eşqlə açılan səhərdi günüm,
Gah qəmə yüklənən qəhərdi günüm,
Şadiman, bilmirəm nədəndi eyvah,
Gah şirin, gah acı zəhərdi günüm.

Adı unudulmuş isimdi könül,
Naşı ələ düşmüş bir simdi könül,
Şadiman, bu dünya sanki bir fəza,
Kəhkəşanda qərib cisimdi könül.

Şadiman, ətrafda ah-amana bax,
Köksündən qan axan bu zamana bax,
Bəşər günahından usanmış daha,
Hönkürən, ağlayan asimana bax.

Allahım, içimdə acı gümanlar,
Kəsdi taqətimi ahlar, amanlar,
Döydü Şadimanı bir dolu təki
Sellərə döndərdi bu pis zamanlar.

Dərd qansız fələyin iti bıçağı,

Doğrayır içimi, sanki bir yağı,
Tapa bilərsənmi, Şadiman, bir qəlb
Heç zaman ələmin dəymib ayağı?

Qurumur gözümün dünyada nəmi,
Fələyin baratı bu könül qəmi.
Şadiman, köksündən ucalan atəş
Gör necə yandırır, yaxır aləmi.

Mən dərdə bürünən duman kimiyəm,
Anları tələsən zaman kimiyəm.
Şadiman, dindirmə, dindirsən müdam
Onsuz da ağlayan kaman kimiyəm.

Dünyanın köksündə hər anda bir ah,
Şadiman, açılır qan ilə sabah.
O acı dillərin qəbahətindən
Yandı içimdə ki, ürək də, Allah!

Dilin dediyindən ürək qəm çəkir,
Gözün gördüyündən kirpik nəm çəkir.
Şadiman, idrakın yanlışlığından
Zülümü, sitəmi bu aləm çəkir.

Dilin dediyindən ürək divanda,
Bir mərəkə qopar idrakda, canda.
Şadiman, deyilən sözə çarə yox,
Odur ki, qan bəşər olan ünvanda.

Dünyanın gecəsi gündüzə damdı,
Fələyin göz yaşı başına damdı,
Çarpışan, döyüşən adəm unudur,
Ömür də, zamanın əlində şamdı.

İnsana yağıdı pul, qəpik-quruş,
Həyat səhnəsində min illər vuruş,
Çalışır zirvəyə qalxmaqçın adəm
Eyvah ki, zirvədə gətirmir duruş.

Mənim həqiqətim hər şeydən ulu,
Elə oradandır saf həyat yolu.
Şadiman, səcdədə ürək ömürlük
olub əqidəmlə paklığın qulu.

Niyə milyonlara qul olub bəşər?
Keçirib əlinə idrakını şər.
Şadiman, milyonu zülümə satan
Özü də, zülümün əlinə düşər.

Ey insan, bədəndən uçacaqsa can,
Niyə istədiyin savaş, qırğın, qan?
Dünya mənim təki taleyi miskin
Sənin dəyərini bilməyir insan.

Vaxtsız saçlarıma salmısan dəni,
Tökmüsən könlümə dumanı, çəni,
Bilmirəm, bu bəxtsiz taleyimə ah,
Hardan göndəribdi Yaradan səni?!

Başımda dumanlar, çiskinlər gəzir,
Könlümü, hissimi, duyğumu əzir,
Həyat pəncəsində çırpınan ürək
Şadiman, de necə vuruşa dözür?

Döyüş cəbhəsidi binadan həyat,
Çırpınan quşlarıq, zamansa səyyad,
Ovuna min tələ quran dünyanın
Şadiman, əlindən kim oldu azad?

Oldu yolumuzda min tufan, sazaq,
Mən necə olum, yar, bu eşqdən uzaq?
Əzabı olsa da bu sevdamızın
Qoyma cığırında, izində azaq.

Min-min səhv içində doğulduq bir gün,
Saldı sinəmizə həyat min düyün.
Şadiman, ucalıq sanma varlığı,
Ömürdə həm ölüm, həm də toy-düyün,

Dünyaya gəlməyim, Tanrı, sirrindi,
İnsan da əzəldən sənin dirindi.
Şadiman, çalxanan coşqun dünyada
Həyat da şirindi, can da şirindi.

Əsir taleyimdə hey acı yellər,
Hey kükrəyib coşur könlümdə sellər.
Şadiman, içində odlu kürrə var,

Yandıqca yanacaq ötdükcə illər.

Bağrımı, könlümü almısan ələ,
Qurmusan ömürlük açılmaz tələ.
Şadimanın qəlbi çağlayan bülbül,
Qovulsa, tutulsa gələrmi ələ?

Bu yolda könlümü tutsa duman, çən,
Bölünməz ürəyim olsa da dən-dən,
Şadiman bilir ki, hey ucalırsan,
Mənim məhəbbətim qarşısında sən.

Əsdi bu könlümə hardan küləklər?
Ağladı ahıma göylər, fələklər.
Ürəyim tək sənin məhəbbətinlə
Saatlar içində min-min diləklər.

Hardasan, gəlişin niyə de ildi?
Hicranın gözümün yaşını sildi.
Şadimandan soruş inanmırsansa,
Bu dilsiz ürəyim tək sənə dildi.

Birinin gözü ac, birininki tox,
Çoxunun köksünə həyat oldu ox.
Şadiman, çarpışıb vuruşsaq da biz,
Gedənin sayından gələninki çox.

Hər an döyüşdədi tamahla ağıl,
Onların vuruşu möcüzə, nağıl.

Min hiss arasında qalan, ey insan,
Öz könül yuvana, qəlbinə yığıl.

Səadət axtarır dünyaya gələn,
Bəxtiyar deyildir, hər deyib, gülən.
Şadiman, xoşbəxtlik qismət deyilsə,
Xeyri yox min ildə fələkdən dilən.

Cırdı sinəsini ağladı ürək,
Bu həyat mənimmi söylə, ey fələk?
Gülüb qəh-qəh çəkdi qəfildən xaliq,
Gəlişin, gedişin dar zaman, dilək.

Kürrə fırlandıqca yenisi gəlir,
Gah şadlıq, gah isə nalə yüksəlir.
Şadiman, iki yol sevinir insan,
Bir əzəl günündə, bir sonda gəlir.

Gələnlər dünyaya eylədi meyil,
Arzular, diləklər dalınca veyil.
Şadiman, taqətdən düşsə də ürək,
Arzular sinəyə sığası deyil.

Gedənlər bəxtiyar, gələnlər səyyad,
Hər gələn bir anda eylər min fəryad.
Şadiman, unutma sirli dünyada
Biri var axtarır, biri təmiz ad.

Sinəmdə niskili oyatma, könlüm,

Günəş ki, deyilsən gəl batma, könlüm.
Şadiman cahanda sənin vurğunun,
Sən onu yad bilib aldatma, könlüm.

Dünyanın köksünə qonan quşlarıq,
Həyat yuvasında ömrü başlarıq.
Şadiman, bu günlə çarpışar ürək,
Sabahsa torpaqda sirli daşlarıq.

Dünyanın dalınca deyinirik biz,
Ağılla, ürəklə öyünürük biz.
İlahi, gedəni görmür gözümüz,
Sərvətlə, dövlətlə döyünürük biz.

Əzabla dünyada doğulur insan,
Yaşamaq gah çətin, gah isə asan.
Şadiman, bu sirdən baş açmır həyat,
Biri var axtarır, birisə ad-san.

Bu ürək, bu könül tək sənin dirin,
Bu yazıq ürəkdə tək sənin yerin.
Şadiman baş açmaz fe`lindən nədən?
Bağrım həmişəlik oldu əsirin.

Adam var hiyləyə, şərə mübtəla,
Zənn edir bu dünya əbədi qala.
Şadiman, içərdən alışan kürrə,
Necə kül olmasın, bu miskin hala?

İnsan qarşısında açılır min yol,
Həyat hər varlığa çəkir, sanki qol.
Şadiman, həyatın üzünə sən bax,
Gələnə əl edir, gedənə sağ ol.

Zaman hərəkətdə insan vuruşda,
Hər günü, hər anı yeni yarışda.
Bəs niyə yad etmir mənimdi deyən?
Sonda uyuyacaq beş-on qarışda.

Ətrin bu aləmə bəsdi, qızılgül,
Könlümdə bir ilğım əsdi, qızılgül.
Şadimanın ağlın alıb əlindən,
Könlü bihuş etmə bəsdi, qızılgül.

Sənin yoxluğuna dözən də mənəm,
Sənsiz dumanlı dağ, şehli çəmənəm.
Elə əfsunladın dəli könlümü,
Çətin ki, bu yoldan mən bir də dönəm.

Sənsən umacağım dəli fələkdən,
Keçirmə könlümü sirli ələkdən.
Şadiman dünyaya gəldiyi gündən,
Qurtarmaz qovğadan, min bir kələkdən.

Ağardı saçların hicrində, ey gül,
Bağrımı yandırdın orda qaldı kül.
Şadiman, bağının gəldi xəzanı,
Qalmadı orada nə bağban, nə gül.

Sehrinə uymuşam xeyli zamandı,
Hal əhli olmayan can nə yamandı.
Şadiman tələnə düşən bir ovdu,
Burax, bu qəfəsdən çıxım, amandı.

Mən sənin əsirin, sənsə kələkbaz,
Bilməm hardan gəlir bu səs, bu avaz.
Sən zillərdə uçan sehirli aşiq,
Mənsə öz kökündən düşən sınıq saz.

Əsir bəxt bağında küləklər yenə,
Salır taleyimi dumana, çənə.
Şadiman yalvarır, bu fələk isə
Nə imana gəlir, nə də ki, dinə.

Nədir yalvarmaqda məqsədin söylə?
Tarimar etməkdi könlümü böylə.
Şadiman ağlına, şuruna bağlı,
Aldanmaz dünyada hər dadlı meylə.

Səhər çağı sərin mehtək əsəndə,
Qılınc çəkib şehtək yolu kəsəndə,
Şadimanın bülbül olub bağında,
Yarpaq təki sənsən ona əsən də.

Zülmkarım, nədir belə küsürsən?
Bənövşətək yolum üstə əsirsən?
Ürəyimə qəsd etməyin bəs deyil,

Ümid yolun birdəfəlik kəsirsən.

Sehrinlə ram elədin könlümü,
Dərdlə dolu dam elədin könlümü.
Bu Şadiman vüsala minnətçikən,
Hicranlara şam elədin könlümü.

Ey Şadiman, qəmə salma özünü,
Bu dəli eşq bağlamasın gözünü.
Candan əziz vusal şirin olsa da,
Çoxlar gördü məhəbbətin üzünü.

Yenə könlüm ayrı düşdü yarından,
Necə bülbül ayrı öz baharından?
Deyin ürəyimə mənim adımdan,
Ayrılmaram seyri və naharımdan.

Aləm bilir candan əziz yarımsan,
Zirvələrdə əl, ünyetməz qarımsan.
Əzəl gündən könlüm sənə bağlıdı,
Ucalardan uca pak vüqarımsan.

Sirli gecə, bu nə örtük başında?
Ulduz gözün, həm ay, hilal qaşında.
Şadimanı tilsimləyib cəmalın,
Duyğularla çarpışan bu yaşında.

Niyə ovsunlardı məni cəmalın?
Vüsalmı həsrəti görən amalın?

İçində min xülya çarpışmadaykən,
Bir sehir göründü mənə kəmalın.

Bir kimsə düşməsin heç vaxt şər oda,
Düşdüsə, yetişməz kimsə fəryada.
Şadiman, min belə ərlər, ərənlər,
Bir quru fe`lə gedibdi bada.

Qaranlıq bildiyin işə baş qoşma,
Zülmətin eviylə sən qoşalaşma.
Şadiman, heç asan sanma yoxuşu
Təpə hesab edib gəl onu aşma.

Çox kamal sahibi azdı yolunu,
Güclü hesab etdi gücsüz qolunu.
Yoxsulu başından vuran fələk də,
Boşu aca verdi, toxa dolunu.

Şöhrət kölgəsində süründü çoxu,
Sərvətlər qoynuna apardı toxu.
Gözünü bağladı daş-qaşın fövqü,
Bilmədi, Xudadı verən var-yoxu.

Varını yığanın yığdığı hədər,
Hamıya bir ömür paylayar qədər.
Şadiman, yığılan bu gün ki, para
Sabah başqasının cibinə gedər.

Azından doymayan bir para ürək,

Özgə çəpərindən düzəldər dirək.
Şadiman, malına haram qatma gəl,
Dünya bir müdrikdir əlində ələk.

Çox mənəm deyənlər getdi torpağa,
İçinə min hiylə, şər yağa-yağa.
Həyat qarşısında günahı olan
Şadiman, sonunda düşər ayağa.

Hər gələn sabahın olmaz toy-düyün,
Səni oynatmasın hər səda, hər ün.
Şadiman, həyatı fırlatmaq olmaz
Zamanın toruna düşərsən bir gün.

Yuxuma gəlmişdin bu gecə, ey mah,
Gördüm layla çalır sənə sübh, sabah.
Şadiman oduna yanan pərvanə,
Divanə qəlbində min nalə, min ah.

O çılğın eşqinlə alışdı ürək,
Ağladı ahından günahsız fələk.
Şadiman hər bağın gülü olmazdı,
Söylə, hardan qurdun sən ona kələk?

Qəfəsdə çırpındı əsir bir bülbül,
Sahibinə tökdü min bir şirin dil.
O gülzar eşqiylə alışdığından,
Onun hər bir anı olurdu bir il.

Könül daşa-daşa, qəlb daşa-daşa,
Sinəmdə duyğular verib baş-başa.
Şadiman, bu fələk çox amansızdı,
Nə yara rəhm edər, nə qələm qaşa.

Nə qədər canım var alışacağam,
Hər dəli hicranla barışacağam.
Çılğın duyğuların Leylası mənəm,
O Məcnun oduna qarışacağam.

Didərginəm xəyallarla xeyli vaxt,
Yaman salıb səhralara məni baxt.
Ey Şadiman, bu divanə həyatda
Min bədbəxtin arasında bir xoşbəxt.

7-8.09.1988

***

Daha nə qalmadı çəkməsin başım?
Axır ürəyimə qanlı göz yaşım.
Nə oldu, İlahi, qəmdən savayı
Bu fani dünyada bir can sirdaşım?

Məni şad etmədi bircə an zaman,
O mənə dərd verdi, mənsə şirin can.
Sardı bu dünyanın bağrın, İlahi,
Köksümün içindən qopan ah, aman.

Qədər güldürmədi heç bir anımı,
Dondurdu sinəmdə axan qanımı.
Şadiman, vuruşur bu zalim zaman
Qoparıb almaqçın içdən canımı.

Qədər ümidlərlə qatdı başımı,
Sellərə döndərdi bu göz yaşımı.
Bəxtin binasını çökdürmək üçün
Uçurtdu özüldən saray daşımı.

Ürəyimdə niskillərim qədərsiz,
Gün olmadı başa vurum kədərsiz.
Öləndə də məzarımın başını
Qüssələrdən qurtarmaqçın gedərsiz.

Allahım, acılar bir an bitmədi,
Əkdim göz yaşımla ümid bitmədi.
İlahi, niyə bəs bu Şadimanın
Haqqın dərgahına əli yetmədi?

Şadiman, qanını tökəndən soruş,
Bəxtin sarayını sökəndən soruş.
Əgər iqtidarın çatırsa zülmü
Məni imtahana çəkəndən soruş.

Allah, zinət etdin bəşərə donu,
Min bir xislət ilə yaratdın onu.
Şadiman, məzara düşsə də yolu

Bu adəm övladı düşünmür sonu.

Ölkələr, sərhədlər, qoşunlar səf-səf,
Aldadıb bir-birin hey gəlirlər kəf.
Şadiman, ya idrak çala qələbə,
Ya da, bu dünyadan bəşər ola dəf.

Ey dil, aramızda qaldı, demərəm,
Gözüm gözlərində qaldı, demərəm,
İki qəlb arası yenə, Şadiman,
Bu divanə könül qaldı, demərəm.

Dünyada bir canlı varmı söyüd tək?
Səcdə ona miras haqdan öyüd tək.
Şadiman, o dilsiz varlığa bir bax,
Budaqlar kökünə baş əyir büt tək.

QƏZƏLLƏR

Sənə cövr eyləyənə yar demə bundan sonra,
Salma qəlbin evini matəmə bundan sonra.

Ehtiyatlı dolan əğyarlərin fe`lindən,
Qoyma gözü dolana ol nəmə bundan sonra.

Bizdən əvvəl də belə cana qəsd etdi hicr,
Şikayət eyləmərəm aləmə bundan sonra.

Açma gözüm bulağın qan tökülər içindən,
Dözmək olmaz ki, müdam ələmə bundan sonra.

Qılma kimsədən vəfa yazıq ürəkdən qeyri,
Şadimana, ver könül qələmə bundan sonra.

30.03.2001

***

Yarı candan sevən aşiq üzülüb candan olar,
Nə bəla gəlsə əgər başına hicrandan olar.

Elə bir aşiqi göstər ki, onun yoxdu qəmi,
Aşiqin könlünə həsrət yolu hər yandan olar.

Elə bir hissdir eşq ki, onu eşq əhli bilər,
Eşqə biganə olan sevdiyi canandan olar.

Kimsə bilməz nə zaman eşqə giriftar olacaq,
Eşq çün qəlbdə cananı görən andan olar,

Eşq dərdi əbədi dərddir aşiqlər üçün,
Ona çarə nə təbibdən, nə də dərmandan olar.

Şadiman, söyləmə heç kimsəyə çəkdiklərini,

Bil nə üz versə sənə haqq olan ünvandan olar.

27.02.2001

***

Bağlayıb eşqə könül əhdə vəfa eyləmişəm,
Çəkmişəm möhnətüvü cana cəfa eyləmişəm.

Sübhə tək yummamışam gözlərimi hicründə,
Duymasın kimsə deyə gizli nəva eyləmişəm.

Yenə könlüm evinə yağdı bu hicran yağışı,
Bilmirəm eşq yolunda nə xəta eyləmişəm.

Hərə bir yolla alır zövqü səfa aləmdə
Mən də hicran qəmini qəlbə səfa eyləmişəm.

Şadiman, sinəmə çox dağ çəkib hicranın əli,
Dağı dağ üstə vurub dağa dəva eyləmişəm.

30.03.2001

***

Ya İlahi, ürəyim qüssədən al qan oldu,
Eşq odunda əriyib dərdə düşən can oldu.

Ya İlahi, bu fələk qoymadı bir kamə yetəm,
Ciyərim yandı tamam atəşə büryan oldu.

Ya İlahi, yetişən olmadı bir imdadıma,
O səbəbdən də peşəm naləvü əfqan oldu.

Ya İlahi, sel olub göz yaşım axdı çəmənə,
Güllərin rəngi o üzdən belə əlvan oldu.

Ya İlahi, üzü gülmür daha bu Şadimanın,
Etməyib tab fəraqə gözü giryan oldu.
6.11.2000

***

Yenə könlüm quşu qan ağladı bülbül sayağı,
Yenə həsrət sinəmi dağladı bülbül sayağı.

Yenə sənsiz oduna dözməliyəm hər gecənin,
Yenə hicran bulağı çağladı bülbül sayağı.

Yenə yandırmadadır can evimi ahım odu,
Yenə firqət qapımı bağladı bülbül sayağı.

Yenə hicran gecəsi gəldi məni yandırdı,
Yenə qəmlər sinəmi dağladı bülbül sayağı.

Yenə xoş günlərə həsrətdi gözü aşiqinin,
Yenə fikri o keçən çağladı bülbül sayağı.

Yenə üz tutdu hara getdi canım qurbanım,
Yenə qəm Şadimanı haxladı bülbül sayağı.

21.12.1997

***

Yenə qan ağlayacaq möhnəti-hicranda könül,
Yenə hicran qəmi hökm eyləyəcək canda könül.

Yenə Məcnunu salıb eşq oduna yandıracaq,
Yenə nalan olacaq Leyli tək hər yanda könül.

Yenə cismim yanacaq atəşə pərvanə kimi,
Yenə can qalmayacaq şəm`i-şəbistanda könül.

Yenə bu millətə hökm etmədidir zalimlər,
Yenə meydan sulayır hər biri bir donda könül.

Yenə can mülkümü bu eşqin odu yandıracaq,
Yenə gəl Şadimanın halını gör onda könül.

21.12.1997

***

Məni eşqində yaxan sevgili dildar gəlsin,
Dərdimi dəf, eləməkçin o cəfakar gəlsin.

Düşəli eşqə bu hicran odu düşmüş araya,
Görüm hicranı ki, dünya başına dar gəlsin.
Qalmayıb səbrü qərarım daha bu hicrana,
Bu əzabdan qurtarmağa qəmxar gəlsin.

Bizə qəmxanə, könül, zövqü səfa məclisidir,
Vermərəm yol ora biganəvü əğyar gəlsin.

Şadimandan savayı yetdi hamı kami-dilə,
Kömək ol bari-İlahi bizə də yar gəlsin.
27.02.2001

***

Yandırır sənsiz, ey afət, məni hicran gecələr,
Ağlasam yaş yerinə gözdən axar qan gecələr.

Qoymaram yastığa baş, ərşə çəkib qəm yuxumu,
Olur ildən də uzun çün mənə hər an gecələr.

Bülbül eşqində gülün sübh açılan vaxt oxuyar,
Edirəm sübhə kimi naləvü əfğan gecələr.

Yetsə kim vəslinə yarın çıxar azədəliyə,
Mənə zindan görünür hər tərəf, hər yan gecələr.

Qorxuram əqlimi başdan ala bu tənhalıq,
Gəl həyan ol mənə, ey sevgili canan, gecələr.

Bəxtəvər başına, pərvanə yanıb qurtardı,
Şadiman, şəm-kimi sübhə qədər yan gecələr.
27.02.2001

***

Ey mənim başıma tac, şan-şərəfim, adım ata,
Məni gövhər sayağı hifz edən ustadım ata.

Yoxdu səndən savayı dərdimə mərhəm, nə edim?
Gözlərim yolda qalıb ey mənim imdadım ata.

Qəddini əydi sənin daima övlad kədəri,
Çatacaqdır sənə əlbət yenə fəryadım ata.

Ummuram, qeyridən əsla mənə gəlsin rəhmi,
Sən özün dadə yetiş, ol təzədən dadım, ata.

Şadiman, hər nə qədər ki, yaşayır təndə canı,
Razı olmaz ucala göylərə fəryadım ata.
17.10.2000
Pirallahı

***

Aşiq oldur ki, müdam olsa da qovğadə sevə,
Ola öz yarına can verməyə amadə sevə.

Düşə bir sadə gözəl eşqinə Məcnun sayağı,
Özü də yarı kimi sadə ola, sadə sevə.

Vura aşiq gərək öz ömrünü eşq ilə başa,
Verməyə günlərinin bir dəmini badə, sevə.

Eşqisiz aşiqə dünya qara bir məhbəsdir,
Çıxa məhbəsdən, ola quş kimi azadə sevə.

Aşiqə eşqdə irad eləyənlər çox olar,
Kim nə istərsə desin, baxmaya iradə, sevə.

Şadiman, can deyibən can eşidə əhli-cahan,
Daima bir-birini can kimi dünyada sevə.
27.02.2001

***

Yenə könlüm quşu cövlan eləyir yarə tərəf,
Görməyən tək yarini tez tutur üz zarə tərəf.

Məni cəzb eyləməyib özgə gülün rayihəsi,
Getmişəm öz gülümü tapmağa gülzarə tərəf.

Tanıyırlar məni, sadiqliyimə yoxdur şəkk,
Nəzərim yarə baxıb, baxmayıb əğyarə tərəf.

Eşqi təsdiq elədim mən də o Leyla sayağı,
Bir adam sövq edə bilməz məni inkarə tərəf.

Şadimanəm, nəzərim daima me`marı görür,
Şirinəm, baxmadayam daima me`mara tərəf.
28.08.2001

RÜBAİLƏR

Ey gülüzlüm, bənzərin var aya,
Bir gəlib könlümü sal sevdaya,
Qoyma gözdən yenə Şadimanı
Səbəb olma düşə qəlbi vaya.

Yar qoyub könlümü sevdalar içində,
Çırpınır özü də ədalar içində,
Şadimana, bu nə can ağrısıdı?
Qalmısan bir belə qadalar içində.

Yar gəlib dərdimə imdad eləyə kaş,
Ağlayan qəlbimə bir dad eləyə kaş,
Döyə ürəyimizin qapısını bir
Şadimana, bizi də yad eləyə kaş.

Tutur qəmlər yenə hər yanımızı,
Qopara bilməyirik anımızı,
Şadimana, nola fələk qoruya
Bizə ərmağan edən canımızı.

Eyləyər canımıza qada fələk,
Verər hey ömrümüzü badə fələk,
Sorsan adəmdən, hənuz söyləyəcək: -
Yetməyib dünyada heç dadə fələk.

Yar gələ könlümə sultan ola,
Ürəyim gülə gülüstan ola,
Elə sevda oduna tuta ki,
Aşiqin bu eşqi dastan ola.

Olmadı heç ürəyim şad əlindən,
Elədi ah iə fəryad əlindən.
Nə edim, qan ağlayır sinə içi,

Ey fələk, eyləyirəm dad əlindən.

Vermədi nəş`ələr aləmlərə tac,
Verdi hey gözgörəli ələmlərə bac.
Şadimanə, nə qədər ömür elədin
Elə oldu ürəyin qəmlərə möhtac.

Ey aşiqi-könlə mübtəla yar,
Qoyma düşə arəyə bəla yar,
Mümkünsə, bu ömrümü şad elə,
Görənlər söyləyə bir əla, yar.

Hər işi asan eləyən haqqa inan,
Adəmi insan eləyən haqqa inan,
Nə qədər zalimlik etsə bəşər
Göz yaşı leysan eləyən haqqa inan.

Hər kəsin canına var can yarası,
Göynədər sinəsini qan yarası,
Şadimana, niyə getməz ki, müdam
Ağladar ürəyi dövran yarası.

Hər ürək sahibi insan olmaz,
Hər işi dünyada asan olmaz.
Olmayan şöhrətə qul dünyada -
Eləyər sadə ömür, san olmaz.

Gəlmədi zalım fələyin rəhmi mənə,
Oldu ayinə üzünün zəhmi mənə.

Tökdükcə qəmi üstümə xalvar ilə
Olmadı, gözü evinin fəhmi mənə.

Bu fələk qoymaz olam şad məni,
Elədi qəmlər ilə yad məni.
Qoymadı gülməyə ürəyimi,
Elə tapdı niyə fəryad məni?!

DAĞILAN YUVALAR

/6 pərdəli, 12 şəkilli pyes/

İştirak edirdər: Nicat - 35 yaşında, iş yerini itirmiş mühəndis.
Səba - 35 yaşında, Nicatın həyat yoldaşı, gözəl qadın, qonşusu Nabatın qulluqçusu.
Aygün - onların qızı 6 yaşında.
Samir - 16 yaşında
Elçin - 12 yaşında
Fuad - 7 yaşında, onların oğlanları.
Camal - 50 yaşında, dükanda işləmiş, indi sələmlə məşğuldu.
Nabat - Camalın həyat yoldaşı 45 yaşında.
Aytən - qızları, 25 yaşında.
Günay - onun rəfiqəsi, hər ikisi yüngül həyatla məşğul olur.

I pərdə

1-ci şəkil

Pərdə açılır, hadisə vaqe olur Bakı şəhərində. 1993-cü il, soyuq qış günü, şimal küləyi küçələrdə at oynadır. Nicat zavodda iş yerini itirəndən sonra bütün ümidini itirmiş, səhərdən axşamadək Bakının küçələrində dolaşıb indi evə qayıdır. Qapının düyməsini basır və qapını həyat yoldaşı Səba açır.

SƏBA

/əsəbi/

Hardasan? Unutdun evi də daha,
Bir tikə çörək yox, vallah sabaha.
Uşaqlar acından saralıb, solub,
Tanrı qarqışımı, bizə nə olub?
Yazıq körpələrin gözləri qəmli,
Bu necə talemiş dərdli, ələmli.

NİCAT

/ayaqqabılarını çıxara-çıxara/

Ay qız, qoy qapıdan girim içəri,
Bu acı zamanlar ötüb keçəri.
Həyatda yaxşı gün, pis gün də olar,
Bizim də cibimiz pul ilə dolar.
Nə olub bir qədər səbirini bas,
Hər gün gəl bu evdə qurma belə yas.

/otağa keçib böyük kürsüdə əyləşir./

SƏBA

/ümidsiz/

İş tapa bilmədin yenə, bilirəm,
Qalmışıq necə pis günə, bilirəm.
Evin əşyaların satıram bir-bir,
Sən də söyləyirsən eyləyim səbir.
Uşaqlar saralıb - solur acından.

NİCAT

Dedim ki, pul götür yenə bacından.

SƏBA

/acıqlı/

Nə qədər bacımdan pul alım, söylə?
Eh, davam eyləməz bu həyat böylə.

/əlini yelləyir gedir, mətbəxtdən bir stəkan su gətirib masanın üstünə qoyur./

NİCAT

/fikirli/

Quru çay da yoxdu evdə bir atım?

SƏBA

/ağlar/

Niyə qara oldu mənim həyatım?

Yavan çörək yeyir yazıq uşaqlar,
Qonşunun evində nə istəsən var.
Nələr geyindirmir o tək qızına?
Çullu dovşan girməz, vallah, ağzına.
Sələmlə doldurub evinə daş-qaş,
Yaşasın deyirəm min il belə baş.

NİCAT
/əsəbi/
Yenə də Camalı tərif edirsən,
Yenə də onlara yəqin gedirsən.
Haramdı sələmlə dolanmaq, arvad,
Dost-tanış içində çıxaraq pis ad?

SƏBA
/kəskin/
Artıq kürsünü də satmışam bu gün,
Düşsün qonşulara qoy səs, səda, ün.
Oturma üstündə bizimki deyil,
Sanma mən tərəfdən bir fitnə, fe`l.
Bir həftə çörəyin pulu ki, olar,
Sonrasın Rəbb bilər nə olar, olar.
Mən ki, qulluqçuyam, Nabata çoxdan,
Dolana bilmərik, ay Nicat, yoxdan.

NİCAT
/başını əlləri arasına alır./
Bütün ümidlərim qırılıb daha,
Gümanım qalmayıb gələn sabaha.

Pərdə örtülür.

I PƏRDƏ

2-ci ŞƏKİL

Pərdə açılır.

Axşam tərəfidir. Göz önünə Camalın cah-cəlallı varidatla dolu evi gəlir. Böyük qonaq otağı başdan-başa göz oxşayır.

CAMAL

/özündən razı halda pul sayır./

Sələm qaldırıbdı məni ayağa,
Könlümü, qəlbimi döndərib dağa.
Deyirlər haramdı bu tutduğun yol,
Tanrı belə işə heç qoymayır qol.
Fəqət mənim qarnım, gözüm tox olsun,
Qoy aclıq, səfalət bizdən yox olsun!
Əzməsin dünyada ehtiyac canı,
Ehtiyac alçaldır yalnız insanı.

NABAT

/kök, dolu əndamını yellədə-yellədə sinidə billur stəkanda çay gətirir./

Ay kişi, bilmirəm, bu qız hardadı?
Səhərdən gedibdi qəlbim dardadı.
Heç evə-eşiyə sığmayır daha,

CAMAL

/əsəbi/

Bax arvad, bu sənə gələcək baha.
Ana sən, qızını məndən sorursan?
Başımı, beynimi böylə yorursan?

NABAT

/ədayla/

Ömrün pul saymaqla keçir dünyada,
Bəlkə var başında qızın qan, qada.
Ata övladına bir öyüd eylər,

CAMAL

/çılğın/

İyirmibeş yaşlı öyüdü neylər?
Qulluqçu istədin, qulluqçu tutdum,
Dünyada hər şeyi tamam unutdum,
Tək səni, qızımı düşündüm hər gün,
Vurdum çətinliyin bəxtinə düyün.
Var dövlət içində üzərkən belə,
Bir sağ ol, kəlməsin almırsan dilə?!

NABAT

/təkəbbürlü/

Kişi lap daşdan da pul çıxarmalı,
Ailəni saxlar, kişinin malı.

CAMAL

/hiddətlə/

Bax qonşun Nicata gör nə gündədi,

Bilmirsən dünyada pulsuzluq nədi?

Guya həkimliyi qurtarıb qızın,

Düzəldə bilmirəm heç vaxt ağızın,

Bir gündə neçə yol paltar dəyişir.

Xalq acından ölür nə hay, nə həşir?!

NABAT

/iste`zayla/

Eh, xalqdan bizə nə, xalqa nə olur,

Küçədə qırılır, saralıb solur.

Keçsin hər anımız, dövranımız xoş,

Ayıq başdan min yol yaxşıdır, sərxoş.

/qapı döyülür./

Nabat qapıya tərəf gedir, Aytən və rəfiqəsi bahalı dəri kürklərdə içəri daxil olur.

CAMAL

/acıqlı/

Ay qız, de sabahdan harda itmisən?

Yenə Günaygildə yəqin bitmisən.

AYTƏN

/işvəylə/

Köhnə fikirliyi buraxın, ata,

Açıq gözlə baxın, siz bu həyata.

Namus da, şərəf də kasıblar üçün,
De, bu həqiqəti duymursuz neçin?
Namusun güdənlər acından ölür,
O gözəl Səbaya qonşular gülür.
Bizə qulluqçudur, o gözəl mələk,
Dörd uşağa yoxdu bir qarın çörək.

CAMAL
/Səbanın adını eşidəcək yumşalır./
Yaradan yaradıb Səbanı gözəl,
Ağlı olsun ömrün etməsin xəzəl.

AYTƏN
/rəfiqəsi Günaya göz vurur./
Hər şey səadətlə qurular, ata,
Yalnız açıq gözlə baxsan həyata.
Pərdə örtülür.

II PƏRDƏ

3-cü ŞƏKİL

Pərdə açılır. Nicatgilin evi. Nicat bir neçə gündür ki, evdən gedib, daha evə gəlmir. Uşaqlar artıq məktəbə getmirlər. Böyük oğlu Samir ac uşaqlara qoşulub yollarda maşın silir və bir, iki min manat qazanır.

SƏBA
/həyəcanlı, düşüncələr içində/

Əcəb yaxşı idi sovetlər vaxtı,
Hamının üzünə gülürdü baxtı.
Evimiz, pulumuz, paramız vardı,
Bu azadlığımız, könlüm qubardı.
Bir parça çörəyin acısıyıq biz,
Çökürük harınlar qarşısında diz.

/Güzgünün önünə gəlir./

Hələ gözəlliyim, ətim, canım var,
Hələ sağlamlığım, qaynar qanım var.

/Bu an qapı döyülür, Səba qapıya tərəf gedir. Qapını açır və Nicat daxil olur./

SƏBA
/təəccüblə/
Nicat, haralarda qalmısan bir de?
Evə gəlməyirsən, söylə nə sirr de?

NİCAT
Lazımdı yollanmaq çörək dalınca,
Ölüm də baxmayır didərgin, aca!
Rusyətə gedirəm, bir dostum ilə,
Mənə tənə edib salma heç dilə.

SƏBA
/həyəcanlı/
Bəs mən, bəs uşaqlar, bizim halımız?
Səni cana yığdı qeylü-qalımız.

NİCAT

/əsəbi/

Mən cana doymuşam, incimə, Səba,
Burda yaşamaq da, ölmək də vəba.
Burda pulun yoxsa adam deyilsən,
Savadın olsa da səfil, veyilsən.
Ordan pul qazanıb yollaram sizə,
Fələk belə ömür yazıbmış bizə.

SƏBA

/təəccüblə/

Bəs sən yol pulunu hardan taparsan?
Tutalım kimdənsə alıb aparsan?
Onda borc içində batıb qalarıq.

NİCAT

/inamla/

Sələmçi Camalı başa salarıq,
Bir üç yüz dollar o verər mənə,
Sonra mən qazanıb yollaram sənə.

SƏBA

/həyəcanlı/

Yox, yox aman, Nicat, faiz bir ölüm!
Salar bəlalara eyləyər zülüm.
Daşın, bu fikirdən ayrı yol ara,
Vurma ürəyimin başına yara.

NİCAT

/ümidsiz/

Ayrı yolumuz yox, sən bunu düşün,

Allah qoysa, sonu xoşdur bu işin.

Zəng edim Camala görüm evdədir?

/Camala zəng edir./

Camal telefonu götürür, razılaşırlar. Uşaqlar Aygün, Elçin, Fuad yan otaqdan gəlirlər. Ata və anasını qucaqlayırlar. Nicat uşaqlara heyrətlə baxır, bəs Samir hanı?

SƏBA

Samir maşın yuyur, bu heyrət nədir?

Qonşu uşaqlara qoşulub o da,

NİCAT

Atır yazıq balam özünü oda.

Gedim pul qazanm biz də varlanaq,

Biz də adam olub yaxşı dolanaq.

/Bu an qapı döyülür./

Səba dəhlizə gedib qapını açır. Samir əlləri donmuş halda içəri daxil olur və ağlayır.

SƏBA

/həyəcanlı/

Nə olub, ay bala, göz yaşı nədən?

Görüm gün görməsin bizə zülm edən!

SAMİR

/ağlar/

Ana, qazanmışdım altı min manat,
Elə sevinirdim, açıb qol-qanad.
Polislər pulumu tutub aldılar,
İlantək könlümdən elə çaldılar,
Min manat verdilər bax yalnız mənə,
Onu da, ay ana, gətirdim sənə.

NİCAT

/kədərli/

Sonu yaxşılıqla qurtarar qəmin,
Allahım qurutsun gözünün nəmin.
Sabahdan gedirəm Rusyətə mən,
Oğlum, qüssələnmə, kədərlənmə sən.
Qazanıb çoxlu pul yollaram sizə,
Bu aclıq, səfalət qalıbmı bizə?
Dönməsin bizlərdən fələyin üzü,
Yoluma nur etsin gecə, gündüzü.

Pərdə çökür.

II PƏRDƏ

4-cü ŞƏKİL

Camalın evi. Nicat Camalın qonaq otağında üç yüz dollar Camaldan pul götürür. Camal Nicatın getməyinə sevinirdi. Ona görə ki, Nicatın arvadına vurulmuşdu.

CAMAL

/yalançı təbəssümlə/

Qonşu, fikir etmə hər şey düzələr,
Sizin həyata da yaxşı gün gələr.
Borcu ki, qazanıb qaytarmaq asan,
Gərək heç naümid olmasın insan.
Verərəm bu pulu on beş faizə,
Nə edim, sələm də qazancdır bizə?

NİCAT

/razılıqla/

Əlinə bərəkət, ay qonşu, vallah,
İndi çoxu belə, səndə nə günah?
Yenə də əl tutdun, verdin bu pulu,
Olmasın ağlımız pisliyin qulu!
Üç aya yollaram pulunu sənə,
Sən də bu üç ayı möhlət ver mənə.

CAMAL

/yağlı dillə/

Get, qonşu, nigaran olma sən evdən,
Dolmasın könlünə çiskin, duman, çən.
Səba da Nabata kömək eyləyər,

Aclığın, suzluğun qəddini əyər.
Gündəlik pulunu çıxarar burda,
Sən də pullanarsan, dönərsən yurda.
Uğurlar dilərəm haqdan yoluna,
Fələk qüvvət versin hər an qoluna.

/bu zaman Nabat qonşu otaqdan gəlir, üzünü Nicata tutur./

NABAT
/ədayla/
Eşitdim gedirsən, ay Nicat qardaş,
Demə, qəlb yerinə sinəmizdə daş.
Dörd uşaq yedirib doydurmaq çətin,
Yolun tapmaq olmur heç səadətin.
Uğurlar dilərəm getdiyin yola,
Sənə kömək olsun qoy Allahtala.

/Bu an Aytən öz otağından gəlir./

AYTƏN
Nicat, uğurların qoy bol-bol olsun,
Gələn sabahına açıq yol olsun.
Dünya beşgünlükdü, çox fikir etmə,
Könlünün içini dərdlə böyütmə.
Nə çoxdur orada eh, rus qızları,
Şimal ölkəsinin ay, ulduzları.
Vaxtını boş yerə keçirmə orda,
Harda məhəbbət var, kədər, qəm darda.
/Ha, ha, gülür./

Nicat sağollaşıb çıxır.

Pərdə örtülür.

III PƏRDƏ

5-ci şəkil

Nicatgilin evi, Səba Nicatın Rusiyaya getməsi üçün yır-yığış edir. Uşaqların dördü də evdədir və gözləri yaşlıdır.

NİCAT

/kədərli/

Nə edim bəxtimiz beləymiş demə,
Tuş olduq kədərə, tuş olduq qəmə.
Fələk axıtmasın gözdən yaşları,
Əyməsin sinəyə uca başları...
Samirim, Elçinim, Fuadım gəlin,
Kəsəcəm ömürlük kədərin əlin.
Aygünüm, ay qızım, ay dadım, duzum,
Bəxtimin aynası, tale ulduzum.
Mən ola bilmədim heç yaxşı ata,
Sizi əzablarçın atdım həyata.
Qayıdıb gələrəm, oxşaram sizi,
Fələk ayırmasın bir-birimizi.

AYGÜN

/ağlayır/
Ata, getmə, ata, mən qorxuram çox,
Sənsiz neyləyərik? Yox getmə, yox, yox!
Razıyam çörəksiz, susuz qalmağa,
Yox, dözməz ürəyim sənsiz olmağa.

NİCAT
/kədərli/
Aygünüm, sevincim, tökmə göz yaşı,
Onsuz da ağrayır könlümün başı,
Kişinin hörməti pulla ölçülər,
Qazancsız kişinin adı kiçilər.
Puldur ailəni şərəfləndirən,
Puldur ucalığa, haqqa endirən.
Samirim, bu evin böyüyü sənsən,
Yolunu kəsməsin çiskin, duman, çən.

SAMİR
/qətiyyətlə/
Fələk yollarına ələsin nurlar...
Get, ey əziz atam, sənə uğurlar.

SƏBA
/üzgün/
Üzmə uşaqların könlünü belə,
Tale ömrümüzü sovurdu yelə.
Bütün arzularım sinəmdə talan,
Yalanmış bu dünya, büsbütün yalan!

Get, gözlərik hər an qayıtmağını,
Tanrı göstərməsin sinə dağını.

NİCAT
/son dərəcə kədərli, yol çantası əlində, hamıyla öpüşür./
Sağ olun, qəriblik güzarım oldu,
Fələyin qoyduğu imzadı, qoldu.
Qoruyun ürəkdən bir-birinizi,
Heç vaxt ayırmasın Yaradan sizi!..

/vidalaşıb qapıdan çıxır/

SƏBA
/köks ötürür./
İlahi, kasıblıq döydü qapımı,
Qırdı min bir yerdən tale sapımı.
Hamı bir-birindən üz çevirib ah,
Qohumlar yad olub niyə, ay Allah?
Hərə qarınının dərdi hayında,
Ölçüsü azalıb haqqı-sayında.
Evimiz boşalıb dolardı bir vaxt,
Niyə qara gəldi bu tale, bu baxt?!
Tabaqı dolubdu hiyləgərlərin,
Düşübdü papağı yerə ərlərin.
Kişilər evindən qaçır yad elə,
Görüm bu həyatı yox olsun belə.

ağlayır.

Pərdə örtülür.

III PƏRDƏ

6-cı ŞƏKİL

Nicatın getməyindən 5 ay keçib. Səhərdir, Camalgilin evi, Nabat xanım yaxınlıqda olan qadın bərbərxanasına gedir. Səba Nabat xanımın döşəməsini silir. Bu an qapı döyülür. Səba qapını açır. Camal içəri daxil olur. Səbanı tək görür.

CAMAL

/sevincək/

Salam, Səba xanım, de kefin necə?
Baxışın, duruşun, yerişin incə.
Bir dəfə hə denən mənə könlüm qor,
Mənim olacaqsan ya güc, ya da zor.

SƏBA

/qorxmuş/

Puluna güvənib belə deyirsən,
Özünü bu qədər niyə öyürsən?
Göndərər pulunu Nicat, səbr elə,
Vermə qonşuluğu, ülfəti yelə.

CAMAL

/ötkəm/

Ay qız, üç ay çoxdan keçibdi daha,
İndi güman yoxdu, vallah sabaha.
Pul yoxdur sən varsan, gözəlliyin var,

İnsan yoxsulluğun burnunu ovar.
İstəsən ev alım sənə kənarda,
İnsaf et, atma gəl könlümü oda.

SƏBA
/əsəbi/
Pullamı ölçürsən, Camal, şərəfi?
Namusdur bəşərin yalnız əşrəfi.
Nicat gedən gündən həyatım qara,
Barı, bir rəhm eylə, sən uşaqlara.
Axı eyni xalqın övladıyıq biz,
Niyə bir-birinə yanmır qəlbimiz?!

CAMAL
/gülə-gülə/
Xalq, millət, ay Səba, boş cəfəngiyyat,
Kef ilə keçməli beş günlük həyat.
Sən elə bilirsən Nicat gələcək?
Axan göz yaşını bir gün siləcək?
Nə çoxdur şimalda rus gözəlləri,
Ruhunu oxşayar o ağ əlləri...
Sən də cavanlığı puç eylə burda,
Gözlə, Nicat dönər bir zaman yurda?!

Ha,ha,ha...

SƏBA
/hiddətlə/

Daha gülmək nədi, hırıltı nədi?!
Onsuz da Səbanın əyilib qəddi.
Hər gün körpələrin kədərli gözü,
Alışan qəlbimin atəşi, közü.
Onların üzünün itib gülüşü,
Kədərin köksündə bitib gülüşü.
Artıq usanmışam bu həyatımdan,
Mənə ələm verir hər saat, hər an.

CAMAL
/ehtiyatkarlıqla/
İzin ver son qoyum ələmlərinə,
Aparım könlünü eşq dəmlərinə.
Üç yüz dollar da qurbandı sənə,
İnan, Səba xanım, sən Allah mənə.
Deyərəm Nabata qaytarıb Nicat,
Könül xanəsinə bir az şadlıq qat.
Qadınların çoxu gedirlər hər ay,
Ya Türkiyə, İran, ya da ki, Dubay.
Mən sənə quraram burda cəh-cəlal,
Sıxmasın könlünü qoy qüssə, məlal.

SƏBA
/çaşqın/
Bəs Nicat, bəs evim, bəs uşaqlarım?
Üç oğlum bəxtimin tacı, vüqarım.

CAMAL
Səba, ac qarına nə oğul, nə qız?

Çürütmə ömrünü həyatda yalqız.
Sənə söz verirəm hər şeyin olar,
Könlünün evinə şadlıqlar dolar.

SƏBA

/bir az fikirləşəndən sonra/

Razıyam, qoruyaq könüldə sirtək,
Qalsın sinəmizdə bu sirr əsirtək...

CAMAL

/sevincək/

Səba, bilirdim ki, ağılın çoxdu,
Sənintək gözəldən dünyada yoxdur.

Səbanı qucaqlayır.

Pərdə çökür.

IV PƏRDƏ

7-ci şəkil

Bir neçə aydır ki, Camal Səba üçün bir otaqlı mənzil alıb şəhərin mərkəzində. Artıq Səbanın üzü, geyimi, davranışı dəyişmiş. Səba Camalla yeni mənzildə.

CAMAL

/özündən razı/

Ah, Səba, görürsən hər şey düzəldi,
Pulun var ömür də, gün də gözəldi.

İndi uşaqların məktəbə gedir,

SƏBA

/həyəcanlı/

Qulluqçu Səba da xanımlıq edir.
Üzür varlığımı qorxu-hürkülər...
Ağlım ürəyimə vurur sərkilər.
Gözümün önündən getməyir Nicat...!

CAMAL

/onun saçlarını oxşayır/

Ərini biryolluq ürəyindən at,
O səni sevsəydi pul yollayardı,
Qısqanclıq könlünün için oyardı.

SƏBA

/narahat/

Yəqin iş tapmayıb binəva orda,
Üzü yox dönməyə vətənə, yurda.
O ki, çox sevirdi balalarını,

CAMAL

Səba, xatırlama mənə yarını,
Ömrün anlarını kef ilə yaşa.
Fələk rəhm etməyir gözlərdə yaşa.
Bu köhnə fikirlər həyata baha,
Son qoy ürəyində kədərə, aha.
Hər şey yaratmışam sənin̂çin burda,

Bu cür səadəti tapardın harda?
Sənin gözəlliyin könlümə qüvvət,
Hərdən ürəyimi bürüyür heyrət.
Belə mələyə də tənhalıq olar?
Çiçək də tək olsa saralıb solar.

SƏBA
Hələ də Nabata qulluq edirəm,
Silib süpürməkçin ora gedirəm.

CAMAL
Nabatı şübhəyə salmamaq gərək,
Onsuz da hiylədə o arvad zirək.
Çətin deyil orda sil-süpür etmək.
Lazım deyil işi, gülüm, böyütmək.

SƏBA
/göz yaşları içində gülür/
Camal bəy, arvaddan qorxursan yaman,
Salmaram yuvana qorxma, ah, aman!
Mənim ki, yuvamı fələk kor qoyub,
Könlümün, qəlbimin içini oyub.

CAMAL
Səba, sevdiciyim, bir düşün məni,
Qızıla tutmuşam onsuz da səni.
Çox da namus deyib uyma mələyim,
Səni taleyimə yazıb fələyim.
Götür Aytənimi, bircə balamı,

Onu yüngül sayır ətrafda hamı
Yaxşı yeyib-içmək, gəzmək həyatdır.
Namus kasıblarçın mənəviyyatdır!

SƏBA
/pərişan/
Camal, fikir vermə mənim halıma,
Sən ki, son qoymusan qeylu-qalıma.
Aclıqdan qurtardın o dörd balamı,
İndi su buraxmır taleyin damı!
Doğubdu bəxtimə Tanrı Günəşi,
Sənsən ürəyimin odu, atəşi.
Fəqət neylim, gəzir könlümdə qorxu,
Mənə elə gəlir bu həyat yuxu.
Qan ilə bitəcək bu işin sonu!..

CAMAL
/arxayın/
Nicatı deyirsən, gözləmə onu?
Yəqin ayrı həyat qurubdu o da,
Kişilər ömrünü boş verməz bada.

pərdə örtülür.

IV PƏRDƏ
8-ci şəkil

Səba öz mənzilində. Axşamdır, uşaqlar hamısı evdədir.

SAMİR
/fikirli/
Ana, axır vaxtlar hara gedirsən?
Bizi çox nigaran, Vallah, edirsən.

SƏBA
/çaşqın/
Samir iş tapmışam, ev çox varlıdı,
Evin də xanımı çox vüqarlıdı.
Deyir etmə mənə sən nankorluğu,
Çəkdirmərəm sənə puldan korluğu.

Bu zaman qapı döyülür. Səba qapıya gedir.
Qapını açır və Nabat içəri daxil olur.

NABAT
/təəccüblə/
Səba, səhər niyə gəlmədin bizə?
Bir əl gəzdirmədin heç evimizə.
Ay qız, salamı da tamam unutdum,
Demə ki, özümü yüksəkdən tutdum.

SƏBA
/çaşqın/
Vallah, Nabat bacı, heç vaxtım yoxdur,

NABAT

/iki mə`nalı/
Axır vaxtlar sənin işlərin çoxdu,
Evdə tapılmırsan Nicat gedəndən,
Üzülüb keçirsən iynədən dən, dən.
Mələyə dönmüsən axır zamanlar...

SƏBA
/özünü itirmiş halda/
Elə tez ötüşür, saatlar, anlar.
vallah, sabah gəlib sizə dəyərəm,
Evi-eşiyi də təmizləyərəm.

NABAT
Ay qız, bu Nicat da heç məktub yazmır,
De, ora gedənlər-kim yolun azmır?
Başı qarışıbdı rus gözəlinə,
Keçirib cananın birin əlinə.
Lap bizim kişini götür, hiyləgər,
O ki, mən yazığı, aldatmır məgər?
Bir də görürsən ki, yox olub gedir,
Mən hardan bilirəm, harda nə edir?!

SƏBA
/həyəcanlı/
Nə olub bu axşam, ay Nabat bacı,
Tökürsən dilidən bu qədər acı.
Uşaqların könlün qan eyləyirsən,
Gəlib oturandan nəhs söyləyirsən.

NABAT

/ayağa durur/

Yaxşı, yaxşı getdim, sabah gələrsən,

Mənzili yaxşıca töküb silərsən.

Gedir.

SƏBA

/kədər içidə, pıçıltılarla/

aman, ey Allahım, bu qədər kədər,

Əydi vücudumu büsbütün qədər.

Bağrımın içində bardaş qurub ah,

Mənə əzab verir hər gələn sabah...

Bilmirəm nə olar bu işin sonu?

Evimi yıxacaq sevgi oyunu.

Pərdə örtülür.

V PƏRDƏ

9-cu şəkil

Səhərdir, Səba Nabatgilin evində yır-yığış edir. Bu an Aytən yataq otağından geyimli qonaq otağına gəlir. səbanı döşəməni silən görür.

AYTƏN

/nazla/

Aha, Səba xanım, xoş gördük səni,

Yaman valeh etdin, ay mələk məni.

Heç sənə yaraşmır yır-yığış etmək,

Əzablara batıb bala böyütmək,
Bilirəm çox sevir atam da səni,
Sizin bu sevdanız şad etdi məni.
Dünya beşgünlükdü, beşi də heçdi,

SƏBA
/çaşqın/
Sus, sus, o gözlərin nə tezcə seçdi?
Sən Allah, ayıltma Nabat bacını,
Tökmə başımıza ağrı-acını.
Vallah, kasıblıqdan düşdüm bu yola,
Neyləyim, şirindi canımdan bala.

AYTƏN
Ay qız, arxayın ol məndən min dəfə,
Qoymaram bəxtinin evin hədəfə.
Sevin bir-birini, dünya beşgündü,
Həyatın yolları düyün-düyündü.

Bu an Nabat otağa daxil olur.

NABAT
/eyhamla/
A, Aytən, deyirəm Səba dəyişib,
Nicatın getməyi çox ona düşüb...

AYTƏN
Dünya beşgünlükdü, beşi də puçdu,
Son anda deməyin ömrümüz uçdu.

Ailənin nə qədər çoxdur cəfası,
Dünyada heç kimin yoxdur vəfası.

NABAT
/əsəbi/
Axmaq qız, ömrünü keçirmə hədər,
Cavanlıq beşgünlük tez gəlib gedər,
Sənincin yığırıq pulu, sərvəti,
Bilmirəm könlünün nədir niyyəti?
Qur sən də biriylə öz həyatını,
Mən də görüm, bala, toy büsatını.

AYTƏN
Mamıçka, toy-moya uyma dünyada,
Gedər cavanlığım, həyatım bada.
Mə`nalı keçirmək üçün hər anı,
Gərək qoruyasan bu şirin canı!
Bu gün dostlarımla gedirəm bara,
Mama, papa canı, məni az ara.

Əl çantasını götürüb evdən çıxır.

NABAT
/gur səslə/
Ay Səba, bilmirəm neyləyim, vallah?
Kimə öz dərdimi söyləyim, vallah.
İşi-gücü yeyib, içməkdi hələ,
Qəlbimə min yerdən dağ çəkir belə!
Nə qızdan, nə ərdən baş açmıram heç,

Puç oldu həyatım, ömrüm, günüm puç.
Yoxdur eh, səadət nə pulda, varda,
Çıxardım qəlbimi, gizləyim harda?!
Fələk aha bükür hər saatımı,
Batırır kədərə bu həyatımı.
Son vaxtlar kişi də evə az gəlir,
Şübhələr bağrımın içini dəlir.

Ağlayır.

SƏBA
/çaşqın/
Səbr et, Nabat bacı, səbr et bir qədər
Bağrını yaxmasın ah, qüssə, kədər!

Pərdə çökür.

V PƏRDƏ
10-cu şəkil

Axşamdan xeyli keçib. səba Camalın aldığı bir mənzilli otaqda, Camalla bir yerdə. Hər ikisi bir az sərxoş.

SƏBA
/sərxoş vəziyyətdə/
Ah, ah, aman, Camal, bu günlərim xoş!
Gəl sərxoş yaşayaq, anları sərxoş.
Sevinci sən verdin dünyada mənə,

Ən dadlı sevdalar qurbandı sənə.

CAMAL

/Səbanı özünə tərəf çəkir və köksünə sıxır./

Tapdım səadətin dadını səndə,
Bütün sevgilərin odunu səndə.
Gözəlim, könlünü eylə çil-çıraq,
Bu gecə zülmətin bağrını yaraq.

SƏBA

/sanki ayılır./

Ah, bəs uşaqlarım, onlar evdə tək?

CAMAL

/kefli/

Daha böyükdürlər, xiffətin az çək,
Sən də adam təki yaşa dünyada,
Atma ürəyini uşaqçın oda.
Onlar bir quş təki böyüyüb uçar,
Sən də öz ömrünü sürməyi bacar.

SƏBA

Yox, yox, Camal, gecdir, gəl gedək daha,
Sənə and verirəm böyük Allaha!
Nabat da şübhəli gəzir son zaman,
Üzür ürəyini kədər, ah, aman.
Yəqin bizim evə baş vurub indi,

CAMAL

/istehzayla/

Başına, gözünə daş vurub indi,
Gözəlim, vecinə alma sən onu,
Nabatın dünyada var olduğunu.
İstəsən, lap sabah boşaram gedər,
Səni taleyimə yazıbdı qədər.

SƏBA

/çaşqın/

Yox, yox, ağlını yığ başına daha,
Gümanım qalmayıb, Vallah, sabaha.
Nicat gəlib çıxsa, qan düşəcək, qan!
Yox olsun büsbütün qoy belə dövran,
Aytən artıq bilir bu sevdamızı...

CAMAL

/arxayın/

Aytən unutma ki, Camalın qızı,
O ki, kef əhlidi dünyada barı,
Heç ayrı salarmı yarından yarı?

SƏBA

/çılğın/

Ah, Camal, cahanda nə üçün bu qəm?!
Dərdimiz böyüyür içdə dəmbədəm.
Gəl sən gözlərindən sil bu yaşları,
Qəlbin çatılmasın dərddən qaşları,
Sevdaya bürüyək bu gecəmizi,

Tapmasın bu axşam bir kimsə bizi.

CAMAL

/sərxoş halda Səbanın sözlərini təkrar edir./

Sevdaya burüyək bu gecəmizi,
Tapmasın bu axşam bir kimsə bizi...

Pərdə çökür.

VI PƏRDƏ

11-ci şəkil

nicatın getməyindən artıq bir il ötüb. Səba öz evində yır-yığış edir. Birdən qapı döyülür. Səba qapını açır, poçtalyon ona məktub və pul qəbzi verir. Məktub Nicatdandı. Səba açır oxuyur:

NİCATIN MƏKTUBU

Ah, Səba, gözləmə bir daha məni,
Niyə mən alladım, yalandan səni?
Burda iş aramaq çətindən çətin,
Fəqət, yolun tapdım mən səadətin.
Qurdum həyatımı bir rus qızıyla,
Amma oynamıram onun nazıyla.
Heç nə tələb etmir o məndən düzü,
Yalnız məhəbbətdə, sevgidə gözü...
Bazarda alverdi məşğuliyyətim,
Yoxdu heç vətənə gəlmək niyyətim.
Bu üç yüz dolları yolladım sənə,
Qarqış tökməyəsən hər sabah mənə.

Kimi istəyirsən fırlan, gəz-dolan,
Uşaqlar sənin də övladın, balan.
İndi bildim mən də həyatın dadın,
Unut birdəfəlik Nicatın adın...
Səninçin varlığım yoxdu əbədi.
Bu fani dünyada unutmaq nədi?!

/Samir anasının yanına gəlir./

SAMİR
/heyrətlə/
Məktub atamdanmı, bir söylə barı?
Etmə ürəyimi boz qışın qarı.

SƏBA
/həm sevincək, həm həyəcanlı/
Atandandı məktub o atdı bizi,
Üzək o namərddən qoy əlimizi.
Ayrı bir sevdanın quludur atan,
Kişilər deyilmi, aləmi qatan?!

SAMİR
/ümidsiz/
Demək atdı bizi o alçaq daha,
Demək ümidimiz yoxdu sabaha?
Atasız ötəcək aylarımız da,
Qəlbi ovlayacaq vaylarımız da.

Qapı döyülür.

Samir qapıya tərəf gedir, qapını açır. Nabat otağa daxil olur.

NABAT

/maraqla/

De, o nə məktubdu əlində, ay qız?

SƏBA

/soyuqqanlı/

Nicat yazır, deyir deyilmiş yalqız,
Bir rus arvadıyla ailə qurub,
Yolumun üstündə, o, zalım durub...
Gəlmək fikiri də heç yoxdu bura,
Orda rus gözəli, eh, dura, dura...
Burda nə işi var Nicatın axı?
İndi belə edir kişilər çoxu.

NABAT

/şübhəli/

Sən də çox sevinib şad oldun buna?
Nicatın biqeyrət ər olduğuna?
Bəlkə sən də tapdın özünçün daha?
Onunçun son qoydun qüssəyə, aha?

SƏBA

/acıqlı/

Samirin yanında nə söylənirsən?!
Yoxsa səbirimlə de, əylənirsən?
Ayağın dəyməsin bir də bu evə!
Doğrayır içini əzəldən güvə...

/səsə Aygün, Elçin, Fuad gəlirlər. Nabat uşaqları görür./

NABAT
/hiylə ilə/
Uşaqlar, atıbdı atanız sizi,
Gedib Rusyətə itirib izi..
Ah, yazıq balalar, yazıq balalar!
Sizin üzünüzdə bir yetimlik var!
Ananız da yəqin ayrı həvəsdə,
Qaldı taleyiniz yaman qəfəsdə.

/uşaqlar ağlaşır, Səba qışqırır. Nabat gülə-gülə çıxıb gedir./

AYGÜN
/ağlar/
Ana, atma bizi yad bucaqlara,
Vurma könlümüzə bir də sən yara!

SƏBA
/başını əlləri arasına alır. başqa otağa keçir, pıçıltılarla/
Aman ah, İlahi, dadıma yet bir,
Vücudum önündə necə müqəssir?!
Məni tək ehtiyac eylədi əsir.
Dağıldı yuvamız, dağıldı hər şey,
Ürəyim sızlayan, ağlayan bir ney.
İndi hara atım mən uşaqları?
Ağlayır ürəyim hey zarı-zarı,

Camal da soyuyub məndən son zaman,
Didir parçalayır qəlbi ah, aman!
Atım uşaqları yetimxanaya?
Fələk də dərd verər zalım anaya.
Dağıldı, puç oldu bütün diləklər...
Tale həyatımı yaman ələklər!..

/başını əlləri arasına alır/
Pərdə çökür.

VI PƏRDƏ

12-ci şəkil

Səba artıq bir neçə gündür ki, uşaqları uşaq evinə vermiş, Samir də məktəbə getmir. Küçə uşaqlarına qoşulmuş. Camalın Səba üçün aldığı ev. Camalla Səba yarım sərxoş vəziyyətdədir.

CAMAL
/eşqlə/
Ah, Səba, görürsən şərabın dadın?
Çıxır axırına qəmin, fəryadın.
Nabat yaman güdür bizi son zaman,
Gəzir ürəyində şübhələr yaman.
Bir ton çəkisi var, nə baxım ona?
Özü günahkardır kök olduğuna,
Doldurur qarnını hər səhər, axşam.

SƏBA

/pərişan və yarım sərxoş/

Çoxunun evində yox nahar, yox şam...

Belədir dünyanın işləri Camal,

Yalnız hiylə lazım nə ağıl, kamal?

CAMAL

Sələmlə qazandım mən bu pulları,

Yığdım, çin-çin yığdım hər gün dolları.

İndi maşınlarım, evim, pul-param,

Haram söyləyirlər, sələmi haram...

Kef edim, nə qədər sağam dünyada,

O biri dünyada qoy yanım oda.

Sənin Nicatın da, yəqin kef edir.

Ha, ha, ha uzun gülüşlər.

SƏBA

/kinayə ilə/

Bütün çətinliyi var, pul dəf edir.

Ailəsi təzə, bəxti də təzə,

Amandır, Allahım, gəlməsin gözə.

Ha, ha... gülür.

Bu an qapı döyülür. Camalla Səba çaşqın bir-birlərinə baxırlar. Camal qapıya sarı gedir, qapını açır, Nabat Samirlə içəri daxil olur. Samir anasını yarıçılpaq vəziyyətdə görür.

SAMİR

/dəhşətlə/

İlahi, gözlərim kor olaydı, kor!
Sən ana deyilsən, nankorsan, nankor!

NABAT
/hiddətlə/
Gördün ki, ay oğul, yalan demədim,
İndi özün söylə bəs mən nə edim?
Ərim xaindirsə, anan faşiə!
Saldı namusunu o dilə-dişə,
Nə qonşuya baxdı, nədə ki, ara,
Vurdu ürəyimə sağalmaz yara!
Al bu tapançanı öldür onları,
Qurtarsın dünyadan murdar canları!..

/tapançanı Samirə verir./

SƏBA
/qorxu içində/
Yox, yox, Samir, balam rəhm eylə mənə,
Axı mən pis ana olmadım sənə?!.
Ehtiyac pozubdu bu həyatımı...
Büdrədib yollarda tale atımı.

CAMAL
/özünü itirmiş/
Samir, oğul, baxma sən bu Nabata,
Sən Allah, əlindən çıxartma xata,
Cavansan, qabaqda gələcəyin var,
Bizi, özünü də gəl eyləmə xar...

SAMİR

/Samir hiddətlə tapançadan atəş açır.../

Öl, öl, alçaq qadın, öl qutar daha?!

Bu şərəfsiz həyat mənə çox baha.

/Səba qan içində yıxılır./

Al, bu da sənin ki, al Camal dayı,

Sənin də sinənə bir güllə payı!..

NABAT

/qışqırır/

Yox onu öldürmə, o ki, kişidir,

Bu anan pozğunun, vallah, işidir...

/Nabat qaçır./

CAMAL

/yaralı, Samirin üstünə atılır və tapançanı ondan alır. Səba ilə Camal qan içində/

namus çəkənə bax, axmağın biri,

Səni doğrayaram mən diri-diri...

SAMİR

/hiddətlə/

Ləkəli namuslar yuyulur qanla,

Mənim savaşım var hələ dövranla!

Bir azdan polislər tökülüb gələr,
Əlim qandallanar, azadlıq ölər!
Fəqət, vicdanım və şərəfim təmiz,
İyrənc zamanəyə çökməyəcəm diz...

Nabat iki polislə otağa daxil olur. Polislər tapançanı Camaldan alır. Təcili yardım da gəlir və Camalla Səbanı aparırlar xəstəxanaya. Polislər Samirin qollarına qandal vururlar.

Pərdə çökür.

27-28.05.2000

MÜƏLLİF HAQQINDA MƏ`LUMAT

Şirinxanım Ağabala qızı /Şadiman/ 2 sentyabr 1955-ci ildə Dəvəçi-Siyəzən bölgəsinin Tağay kəndində anadan olub. Doğulduğu kənddə səkkizillik məktəbi, sonra isə Siyəzən şəhər 2 N-li orta məktəbi bitirib. Ali təhsilini Bakı Dövlət Universitetində başa vurub. İlk şe`ri universitet redaksiyasında buraxılan qəzetdə işıq üzü görüb. 1991-ci ildə "Ürək niyə ağrıyırsan?" adlı şe`rlər kitabı Azərnəşirdə çap olunub. 1992-ci ildə silsilə şe`rləri "Çağdaş Azərbaycan Şe`ri" Antalogiyasında Zeynalabdin Makasın redaktəsi və müəllifliyi ilə dərc olunub. Kitab Türkiyənin Ankara şəhərində çap üzü görüb.

1995-ci ildə Teymur Əhmədovun müəllifliyi ilə buraxılmış mə`lumat ensiklopedik kitabda şairə haqqında mə`lumat verilir. 1999-2000-ci ildə Şirin Xanımın

400 səhifəlik, böyük həcmli “Çəkənə qəm dünya, Çəkməyənə dəm dünya” kitabı işıq üzü görmüşdür. Kitabda poemalar, pyeslərlə bərabər Yaradanla bağlı, dünyavi, vətən, məhəbbət şe`rləri, dördlüklər, rübailər, qəzəllər əsas yer tutur.

Şairə “Kiminə acı dünya, Kiminin tacı dünya” adlı ikinci böyük həcmli kitabını tələbkar oxucuların ixtiyarına buraxır. Şe`rimizin müxtəlif janrlarında qələmini sınayan müəllif bayatı, dördlük, rübai, qəzəl, qoşma və s. növlərdən istifadə etmişdir. Kitabda poemalar, rəvayətlər, pyes mö`təbər oxucuların diqqətinə çatdırılır. Hər təzə çıxan kitabı yeni şerlər və əsərlər bəzəyir. Şirin xanım Neft Daşlarını özünə ədəbi ocaq seçib. Hal-hazırda “Xəzərdənizneftgeofizika” trestinin “Neft Daşları” Dəniz Mədən Geofizika ekspedisiyasında mühəndis işləyir və ədəbi fəaliyyətini davam etdirir.

SON SÖZ

Bu kitabın araya-ərsəyə gəlməsində könlümə ilham və ömrümə, həyatıma, xoş dəqiqələr qismət etmiş Böyük Allaha şükür-sanalıq edirəm. İkinci iri həcimli kitabımın meydana gəlməsində, həyata vəsiqə almasında mənə nəinki maddi, həm də ölçüyəgəlməz mə`nəvi yardımçı olmuş həyat yoldaşıma İlahidən can sağlığı diləyirəm. Bu kitabı əlinə götürəcək hər bir oxucuya axıra qədər kitabı oxumaq amacıyçın Ulu Tanrıdan səbr və təmkin arzulayıram. Və ümid edirəm Möhtərəm oxucular ah, nalə ilə dolu olan bu kitaba görə müəllifi qınamazlar. Çünki elm və texnika əsrində XXI əsrin əvvəlində vətəni paramparça olmuş bir azəri qızının haqqı yox güldən, bülbüldən yazsın və öz şəxsi hisslərinə qapılsın. Kitabda çap olunmuş ünvansız şerlərin hamısı Neft Daşlarında yazılmışdır. qəzəllərin redaktəsinə görə Ənvər Nəzərliyə, qocaman şairimizə minnətdarlığımı bildirirəm. Redaktə işində mənə köməklik etmiş həyat yoldaşım Abdullov Əliyə ölçüyəgəlməz təşəkkürlər edirəm. Əziz oxucular, Sizə can sağlığı sevgisiylə ümid edirəm ömrünüzün gözəl dəqiqələrindən bir qismini bu kitabı oxumaq üçün əsirgəməyəcəksiniz.

Öncədən minnətdarlıq hissiylə -
MÜƏLLİF.

MÜNDƏRİCAT

Ön söz .....

YA
RADANIM
Qadın duası .....
Əbədi deyilsən .....
Bir Tanrı var .....
Qalib ola bilməz .....
Tanrısız yaşamaq olmaz.....
Müjdə ver Allahımız.....
Düşərsən Rəbb ayağına .....
Yaradanım.....

DÜNYA BELƏ DÜNYADI
Bu Qərbə bərəkəllah .....
Bu nə qanlı fəlakətdi?.....
Siyasətdi, siyasət .....
Yer üzünün Əhriməni .....
Səlam olsun .....
Çalxanırsan .....
Bu dünyanın .....
Sevdam var hələ .....
Dünya susdu .....

Bu əbədi dünyanın .....
Etmədi dünya .....
Dərdindən ölən kim? .....
Kiminə acı dünya .....
Məni bu dünyadan alan olaydı .....
Ey zaman .....
Olmayır .....
Dünya ki, Yaradanın .....
Dünya belə qalan deyil .....
Tamaşa dünya .....
Yaman dünyadı .....
Dünya nə halətdi? .....
Məcəralı dünya .....
Yalan dünya .....
Kim küsmədi? .....
Açan kimdi? .....
Dünya belə dünyadı .....
Kimdi? .....
Əlində .....
Roma Papası .....

VƏTƏN SƏNDƏN NƏ QALDI?!

Vətən fəryadı .....
Nə addır? .....
Ay Şuşa .....
Səndən nə qaldı? .....
Vətən gülsün.....
Əcəb yaxşı məkandı.....

Elçibəy.....
Vətən, elinə qurban.....
Dözə bilmirəm.....
Qürbət acıları.....
Tapdalanıb.....
Suraxanı.....
Jorjiklər.....
Xatırlayanda.....
Çək keşiyi.....
Canım Qarabağ.....
Vətən olmaz.....
Bu yurdun eli hanı? .....
Bütün adaların şahı.....
Azərbaycanımızdı.....
Pirallahı.....
Türkiyəm.....
Şəhidlər.....
Azərbaycanım mənim.....
Can Azərbaycan.....
Vətəndi.....
Ey Vətən.....
Alçalma millətim.....

GÖYÜN GÖZÜNDƏN YAŞ AXIR

Bayramım gəlir .....
Vallah, səndən yoxdu, Xəzər.....
Novruzun.....
Ey dan ulduzu.....

Dağlar.....
Yaz gecəsi.....
Bahar yağışı.....
Bahar gecəsi.....
Gəl mübarək bahar.....
Qış nəğməsi.....
Qışım .....
Ay işığı.....
Gecələr.....
Canım gecələr.....
Bir parça dam, səma, heyva ağacı.....
Aç mənə qoynunu.....
Dalğaların məbədi.....
Neyləsin? .....
Gecənin zümzüməsi.....
Qərib çırpıntısı var.....
Aman lalə.....
Bu bahar.....
Bu yay bir başqa yaydı.....
Bulud gözündən yaş axır.....
Göylərin ağ yağışı.....
Yağışlar.....
Bahar yağmurları.....
Göyçəkdi bahar.....
Payızda açılan güllər.....
Payızda göyərən otlar nə qəmli? .....
Payız çiçəyi.....
Göyün gözündən yaş axır.....

KİMİYƏ ÖMÜR ACI, KİMİYƏ NƏŞTƏ TACI

Ay aman.....
Əbədi köçürdüm.....
Könlümdən keçir.....
Ay bu könül yoxsulu.....
Ağrıyar.....
Günah edəni.....
Baş ürəyin şahıdır.....
Şeytan yaşar.....
Bir qürbət quşuyam.....
Ömürlər.....
Mən insan axtarıram.....
Gördüm.....
Olmasın.....
Bədənin şahı.....
Oğru.....
Dərd yükü.....
Kasıb adam.....
Bir gün varsan.....
Yandırır bəşərin için.....
Deyər.....
Olar.....
Gərək.....
Arzular.....
Həkimlər.....
Kütləyi ötən gəmi.....
Dərd ağrıları.....
Müjdə yuvası.....

Tapdanan haqqlar.....
Daş eylə, Allah.....
İşıq ver mənə.....
Haqdan gələn səslər.....
Allahım.....
Güldürmədi.....
Ucaldaq islamı.....
Kişidi bu.....
Gözünün işığın alma.....
Ötməyəcəkdi.....
Hamı şer yazır.....
Olmaz.....
Tülkü xislətli adam.....
Birdir haqqa yol.....
Çıxar canı yoxsulun.....
Kim kimə.....
Aran yoxdu.....
İstəyir.....
Doldu getdi.....
Tənha qadın.....
Bu həyat yollarında.....
Qalandı.....
Ələbaxan.....

XATIRLAMALAR

Şairimiz.....
Bu ad günündə.....
Valeh qardaş.....

Heç insaf görmədim.....
Ay Şövkət.....
Ay aman.....
Güllər səpilər.....
Məzarsız qalan şair.....
İtgi.....
Niyə tez olur.....
Məktəb illəri.....
Geofiziklər.....

TALE SƏNİN ÜZÜN DÖNSÜN

Mənə.....
Mən elə tənhayam.....
Dönər yağışa.....
Bir qüvvə varmıdır? .....
Bu da bir ömürdü.....
Yaşayış deyil.....
Ata.....
Bilmirəm.....
Qonmaz.....
Kimsələr bilməz ahımı.....
Mən ölüb gedəndə.....
Ürəyimin dolan vaxtı.....
Nə talesiz bəndəyəmmiş.....
Gileyli.....
Çıxar məni.....
Yazığım gəlir.....
Ala bilmirəm.....

Könül ağrısı.....
Keçən hər günüm.....
Ey fələk.....
Elə tənhayam ki.....
Nədi? .....
Harədi.....
Aman.....
Elə qəribəm ki.....
Gəlməsə.....
Dərd.....
Qaçmaq olmaz.....
İki damla yaş.....
Ana candan əzizdi.....
Etmir ki, etmir.....
Günahını kim yuyacaq.....
Fikir eləmə.....
Olar.....
Gəlmədi.....
Çıxmadım sözündən.....

MƏNİM ÜRƏYİMİ ÖZÜMƏ VERİN

Donub qalaram.....
Bəxtimə qəm düşüb.....
Xəyal mələyi.....
Gətirməyəydi.....
Üzümə gülər.....
Kimsə ürəyimə toxunmayaydı.....
Bir qərib quşuyam.....
Arayır.....

Sorağındayam.....
Qəmsiz ötüşən deyiləm.....
İlham pərisi.....
Özümə verin.....
Adam olmayım.....
Ovundura bilməz.....
Tapmaz aram.....
Bəs etməz.....
Getməyim gəlir.....
Ürəyim ağlayır.....
Tək qalım.....
Ürəyim kimi.....
Uçan bir quşam.....
Olan olmuş.....
Titrəyən şam.....
Qəribəm.....
Qurumayır nəm.....
Kimim var axı? .....
Tənhayam.....
Halına sözü yanacaq.....
Ürəyimin dolan vaxtı.....
Dönməyir ki.....
Alan olaydı.....
Tək buraxmayın.....
Kimdən öyrəndin? .....
Əsər.....
Bacarmıram neyləyim? .....
Neyləyim ki? .....
Dəm içində.....

Baxa bilmirəm.....
Dəli ürək.....
Dolan vaxtı.....

MƏHƏBBƏT BİR BƏLADIR Kİ...

Özündən soruş.....
Qova bilmirəm.....
Haqqa ucalır.....
Demə sən daha.....
Unutmaq olmur.....
Bu sevgi ki, var.....
Soruş.....
Mənim eşqim.....
Özümdən küsərəm.....
Səadətin.....
Aman yarım.....
Soyumayacaq.....
Deyə bilmir.....
Çiçək gətirdin.....
Yaralı qoydun.....
Ürəyimdəsən.....
Tuta bilmirəm.....
Yarım.....
Sevmişəm niyə? .....
Gətirmə dilə.....
Nə də həyat var.....
Qıymayır.....
Mənimçin gəlmisən.....

Nə var.....
Oldum.....
Bildim.....
Məndən əsirgəmə.....
Bir sən ol.....
Harasındayam.....
Mən səni sevmişəm.....
Bu eşq hardan gəldi? .....
Qürbət quşuyam.....
Gəlmisən mənə.....
Solmayır.....
Şükür edirəm.....
Uçdu gizlicə.....
Nə səni taparam.....
Dəli sevdan.....
Ürəyini alım yar.....
Könül arasında.....
Mənə əmənət ver.....
Yetə bilmirəm.....
Sən gizli gəlmisən.....
Dönən deyil.....
O gün ki.....
Könlümü tapır.....
Dəniz yarım.....
Sənsizlədim.....
Uzaq düşəndə.....
Unudan deyiləm .....
Qurban özüm.....
Dəniz gözlüm.....

Zaman bilməz sevgilər.....
O gedən oldu.....
Tez gəl.....
Deyir.....
Alan olaydı.....
Elə ürəyimə düşmüsən yenə.....
Sən demə.....
Hicran nəğməsi.....
Doymayır gözü.....
Gəlib çıxmadın.....
Alaydın.....
Bilmirəm.....
Ürəyim ulduzundu.....
Sonu olmasın.....
Dolanım başına.....
Dəymədüşər yar.....
Gəl yarım.....
Əbədi qovuşaydıq.....
Yalvarıram.....
Sevgi dolu gözlərin.....
Doğum günündə.....
Necə istəmirəm.....
Nə sevdadı? .....
Belə tapmışam.....
Mən necə həsrətəm.....
Hicran ocağı.....
Qoyma bu sevdamız... .....
Aşiqi var.....
Şah olub sazaq.....

Biz ki, çox sevirik.....
Birlikdə duyaq.....
Yenə sənin olaram.....
Gecə-gündüzük.....
Sənin̂çin.....
Gəl bizim tərəfə.....
İstərəm.....
Nə lazım? .....
Nə halət? .....
Ümid ver mənə.....
Həmişə.....
Səndən ayrı düşəndə.....
Vəfası yoxdur.....
Səni gözlədim.....
Mənlə danışmır ki... .....
Sağalan deyil.....
Dilbilməz.....
Gəlməyəsən gözə yar.....
Kədəri dan eyləmə.....
Neyləsin? .....
Ay ömrümün mənası.....
Ömrümə bəzək yarım.....
Nur ver.....
Səni elə sevirəm ki.....
Dərdimdən heç ölərsənmi? .....
Sən İlahi qismətim.....
Solmaz belə.....
Gilzlicə.....
Ağlama, sevdalım.....

Ağladı fələklər.....
Dönən deyiləm.....
Sənin məhəbbətin.....
Yaşat bu ömrü.....
Sevmir.....
Mənim məhəbbətim.....
Niyə inanmışam? .....
Sevgimiz.....
Bu sevgi nə imiş.....
Saxlayacağam.....
Mənəm.....
Məni gözlərimin yaşından qoru.....
O gün.....
Çağırsan.....
Heç qərar tutmayır.....
Elə yandırıb ki... .....
Səadət aradım.....
Qayıtmayacaq.....
Qayıt.....
İnan sən buna.....
Niyə əsir oldum? .....
Neyləyim.....
Bilə-bilə.....
Mənəm.....
İncidi.....
Məhəbbətinə qurban.....
Necə keçim? .....
Bu məhəbbəti.....
Nə lazım? .....

Unutmaq üçün.....
Bir canım var.....
Niyə getdin? .....
Daha dönməz.....
Qubar bağlar.....
Yadındamı? .....
Səadətin.....
Çox sevirəm mən.....
Hicran şərqisi.....
Gəlmisən mənə.....
Hardan gəldi? .....
Deyil.....
Bilmirəm.....
Var eşqidə.....
Çağlayaram.....
İlk məhəbbət.....
Gəlsin.....
Ey yar.....
Məhəbbət bir bəladır ki... .....
Dözə bilmirəm.....
Sən Allah.....
Unuda bilmərəm.....
Mən dönüm.....
Sənsizliyimdi.....
Buraxma.....
Hardan gəldi? .....
Sevmirsən daha.....
Amandır.....

RƏVAYƏTLƏR

Qismət Allahdandı.....
Üç qisimdə olan insan.....
Qazi və zina qadının hekayəti.....
Ruzisinə asi olan kişinin rəvayəti.....
Ana leyləyin hekayəti.....
Yerlə Göy əfsanəsi.....

POEMALAR

Gecədən doğan ölüm.....
Həyatda dost idik, şəhidlikdə də.....
Qarabağda hal qalmadı.....
Ruhların fəqanı.....
Qaçqın ana.....
Axsıxa elinin didərgin harayı.....

BAYATILAR.....
DÖRDLÜKLƏR.....
QƏZƏLLƏR .....
RÜBAİLƏR .....

PYES

Dağılan yuvalar.....
Müəllif haqqında.....
Son söz.....

Yığılmağa verilib: 15.VI.2002
Çapa imzalanıb: 12.IX.2002
Ofset çap üsulu. Formatı 60x84 1/16
Fiziki həcmi 35,37 ç.v. Sayı 500
Qiyməti müqavilə ilə

Kitab Nurlan poliqrafiya mərkəzində yığılıb,
səhifələnmiş və ofset üsulu ilə çap edilmişdir.